HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

otuz birinci kitab

noyabr, 2000 - yanvar, 2001

AZƏRNƏŞR
BAKI-2010

HEYDƏR ƏLİYEV

çıxışlar • nitqlər

bəyanatlar • müsahibələr

məktublar • məruzələr

müraciətlər • fərmanlar

A-I-205744

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

AZƏRNƏŞR
BAKI-2010

BBK 32
Ə 56

Buraxılışına məsul
akademik

RAMİZ MEHDİYEV

ƏLİYEV HEYDƏR
Ə 56 Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2010, 512 səh.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan çoxcildlik əsərlərinin növbəti 31-ci cildi 2000-ci il noyabrın 5-dən 2001-ci il yanvarın 5-dək olan dövrü əhatə edir.

Kitabda ümummilli liderin yeni 2001-ci il – 3-cü minillik münasibətilə Azərbaycan xalqına, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza müraciətində xronoloji ardıcıllıqla ötən əsrin tarixi gerçəkliyi, bəşəri dəyərləri, qazanılmış nailiyyətləri, azadlığa çıxması, dövlət müstəqilliyini əldə etməsi əks olunmuşdur. Burada, həmçinin Heydər Əliyevin Minskdə MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü zamanı və Azərbaycana gələn Rusiya, İran, Türkiyə, AŞPA-nın rəsmi nümayəndə heyətləri ilə, ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirdiyi görüşlərə, apardığı danışıqlara, ikitərəfli münasibətlərin, səmərəli beynəlxalq əməkdaşlığın inkişafına dair materiallar verilmişdir.

Kitabda ulu öndərin elm və sənət xadimləri, «Bakılı oğlanlar» komandasının üzvləri, idmançılarla görüşlərinə, eyni zamanda xalqımızın tərəqqisi və rifahı naminə aparılan geniş islahatlara, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrinə dair materiallar da toplanmışdır.

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2010}}$ **BBK-32**

© Azərnəşr, 2010

BAKI ŞƏHƏRİNİN SƏBAİL RAYONUNDAKI TOFİQ İSMAYILOV ADINA RESPUBLİKA UŞAQ VƏ GƏNCLƏR YARADICILIQ SARAYINDA YERLƏŞƏN 17 NÖMRƏLİ SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ ZAMANI JURNALİSTİN SUALLARINA CAVAB

5 noyabr 2000-ci il

R e y h a n M i r z ə z a d ə: Cənab Prezident, Sizi xoş gördük. Bu gün Azərbaycan xalqı üçün bir bayramdır, yəni dövlətimizin qanunvericilik orqanına, parlamentə seçkilər günüdür. Bununla əlaqədar Azərbaycan gəncləri adından, burada çalışan işçilər adından Sizi təbrik edirəm, Sizə cansağlığı arzulayıram.

Cənab Prezident, mənim üçün ikiqat bayramdır. Çünki bu yaxınlarda Moskvada yeni nəşr olunmuş bir kitab əldə etmişəm. O, «100 velikix praviteley XX veka» adlanır. XX əsrin ən dahi siyasətçiləri arasında, 100 nəfər məşhur dövlət xadimi sırasında Sizin, Azərbaycan prezidentinin, hörmətli cənab Heydər Əliyevin də adı vardır və o bununla dünya tarixinə düşür. Mən bu münasibətlə bütün heydərsevərləri təbrik edirəm. Bu bizim üçün fəxrdir, buna sevinir, qürur hissi keçiririk. İcazə verin bu kitabı da Sizə təqdim edim.

H e y d ə r Ə l i y e v: Bu kitabdan birini mənə vermişdilər. Amma görünür, bu daha yaxşı nəşrdir. Əvvəl mənə birini göndərmişdilər. Ancaq görürəm ki, bu, yeni nəşrdir. Bəli, XX əsrdə dünyanın 100 siyasi xadiminin tərcümeyi-halını burada yazıblar. O cümlədən Heydər Əliyevin. Sağ olun.

R e y h a n M i r z ə z a d ə: Cənab Prezident, yadigar qalmaq üçün bu gün bir hədiyyə də etmək istəyirəm. Bu mənim üçün əziz yadigardır. Mən bunu qoruyurdum. Amma düşündüm ki, bunu Sizin ailənizə xatirə olaraq versəm, yaxşı olar. Bu da Sizin ailənizin – əziz ömür-gün yoldaşınız Zərifə xanımın övladları İlham Əliyev və Sevil xanımla birlikdə çəkdirdiyi şəkildir.

H e y d ə r Ə l i y e v: Sən bunu haradan almısan?

R e y h a n M i r z ə z a d ə: Cənab Prezident, yazdığım kitabla əlaqədar arxivdə işləyərkən tapmışdım. Bunu çox sevdim və bu maraqlı şəkli neçə ildir qoruyub saxlayırdım. Bu mənim stolumun üstünü bəzəyirdi. Amma fikirləşdim ki, bunu, Allah rəhmət eləsin, Zərifə xanımın əziz övladı İlham müəllimə əlamətdar hadisə, Sidneydə XXVII yay olimpiya oyunlarında idmançılarımızın Azərbaycanın bayrağını ucaltmaları, oradan qələbə ilə qayıtmaları münasibətilə hədiyyə edim. Bu şəkil Sizə ən layiqli hədiyyədir.

H e y d ə r Ə l i y e v: Çox gözəl şəkildir. O qədər gözəl şəkildir ki, məni həddindən artıq məmnun etdi. Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycan prezidenti Heydər Əliyev seçki məntəqəsində quraşdırılmış kompüter və elektron tablo vasitəsilə respublika, o cümlədən ayrı-ayrı seçki dairələri üzrə seçkilərin gedişi ilə maraqlandı. Bildirildi ki, Mərkəzi Seçki Komissiyasından verilən rəsmi məlumata görə, saat 13.00-dək seçicilərin 25 faizi seçkilərdə iştirak etmişdir.

H e y d ə r Ə l i y e v: Mən televiziya ilə baxırdım. Orada gördüm ki, televiziyanın işçiləri, sizin kompüter mərkəzinin rəhbəri saat 10.00-a olan məlumatı saat 12.00-da verdi. Elə başa düşmək olardı ki, o, saat 12.00-a olan məlumatdır. Respublika üzrə seçicilərin 25 faizinin seçkilərdə iştirak etməsi, səs verməsi yaxşı göstəricidir. Deməli, artıq saat 13-dək respublikada seçkilər baş tutubdur.

P a k i z ə M u s t a f a y e v a (*17 nömrəli seçki məntəqəsinin sədri*): Cənab Prezident, buyurun, bu, seçki bülletenidir. Mən heç vaxt bu qədər xoşbəxt olmamışam. Amma gün var min aya dəyər. Ömrümdə dördüncü dəfədir Sizinlə görüşürəm. Mənim üçün bu günlər min aya dəyər. Ən xoşbəxt günlərim həmin günlərdir. Allah Sizə cansağlığı versin. Sizi başımızın üstündən əskik etməsin.

İlham müəllimə də uğurlar arzu edirəm. XXVII yay olimpiya oyunlarında əldə olunan qələbə münasibətilə onu təbrik edirəm. Bayrağımızı uca tutdu.

Harada Heydər Əliyev var, orada Azərbaycan var. Harada Azərbaycan bayrağı var, orada Heydər Əliyev var. Biz Sizinlə, ailənizlə fəxr edirik. Sizin ailə Azərbaycanı dünyaya tanıtdırıbdır. Haqqı deməmək olmaz. Həzrəti Əli deyib ki, haqq o qədər parlaqdır, onu korlar da görürlər. Amma əfsuslar olsun ki, mənəviyyatsız adamlar Sizin haqqınızda səhv düşünürlər. Eybi yoxdur, Allah göydən baxır. Hər şey Allahın əlindədir.

H e y d ə r Ə l i y e v: Sən onlara fikir vermə. Bunlar səni narahat etməsin.

Müsahibəni Mərkəzi Seçki Komissiyasının əməkdaşı, jurnalist Reyhan Mirzəzadə aparmışdır.

* * *

Çoxsaylı yerli və xarici kütləvi informasiya vasitələri nümayəndələrinin suallarına cavab.

S u a l: **Cənab Prezident, Sizin partiya parlamentin sədri vəzifəsinə oğlunuzun, İlham Əliyevin namizədliyini irəli sürmək niyyətindədirmi?**

H e y d ə r Ə l i y e v: Bu, partiyamızın işidir. Bizim partiyamız müvafiq sayda yer alanda, onda müəyyən edərik.

S u a l: Cənab Prezident, Sizcə Yeni Azərbaycan Partiyası neçə yer qazanmağa ümid bəsləyir?

C a v a b: Mən deyə bilmərəm. Bunu seçicilər həll edirlər. Hər halda, mən hesab edirəm ki, onlar ən çox Yeni Azərbaycan Partiyasına səs verəcəklər.

S u a l: Cənab Prezident, Azərbaycanda budəfəki parlament seçkiləri ölkəmizin Avropa Şurasına qəbulu məsələsini həll edəcəkdir. Sizcə bu dəfə Azərbaycanın Avropa Şurasına qəbulu ilə bağlı hər hansı bir əngəl yaranmayacaq ki?

C a v a b: Çalışırıq ki, olmasın. Yəni bizim seçki komissiyalarının fəaliyyəti, seçkiqabağı aparılan işlər, çox azad təbliğat, çoxlu partiyaların seçkilərdə iştirak etmək hüququ alması bunu deməyə əsas verir. Baxmayaraq ki, bəzi partiyalar seçki qanununda göstərilən tələbləri yerinə yetirə bilməmişdilər.

Mən dünən beynəlxalq müşahidəçilərin hamısı ilə görüşdüm. Bütün bunları, Azərbaycanda seçkiqabağı gedən işi yüksək qiymətləndirdilər. Yəni demokratik şərait yaranıbdır. Hər bir şəxsə, hər bir partiyaya imkan yaranıbdır ki, öz fikrini söyləsin, öz təklifini versin. Yaxud öz platformasını versin və seçilmək uğrunda mübarizə aparsın. Yenə də deyirəm, mən dünən bütün günü xaricdən gələn müşahidəçiləri, nümayəndələri qəbul etmişəm. Onlar belə fikirdədirlər. İndi güman edirəm ki, bu gün seçkilər də yüksək səviyyədə keçəcəkdir. Çünki iş təkcə seçkiqabağı prosesdə deyil, iş bu gün yekunlaşır.

Bunun üçün də çox işlər görülübdür. Bilirəm ki, bizim Mərkəzi Seçki Komissiyası çox işlər görübdür, yerli seçki komissiyaları çox işlər görüblər. Hesab edirəm ki, bu informasiya mərkəzinin yaradılması da Azərbaycanda ilk haldır, mütərəqqi haldır. Bu da Azərbaycanda seçki sistemini beynəlxalq təcrübə səviyyəsinə qaldırıbdır. Bunlar hamısı bir yerdə, hesab edirəm, birincisi, seçkilərin uğurlu keçməsinə şərait yaradıbdır və onu təmin edəcəkdir. İkincisi də, seçkilərin açıq-aşkar, şəffaf, ədalətli olmasını təmin edəcəkdir. Mən buna inanıram.

S u a l: Cənab Prezident, müxalifətdə belə fikir mövcuddur ki, seçiləcək deputatların siyahısı artıq hazırdır. Bu barədə nə deyə bilərsiniz?

C a v a b: Bilirsiniz, buna nə deyim. Mən buna ancaq gülə bilərəm.

S u a l: Cənab Prezident, bəzi beynəlxalq müşahidəçilər seçkiqabağı çıxış edib demişdilər ki, Azərbaycanda seçki prosesinin pis keçməsi, yəni saxta keçməsinə dair rəy vermələri üçün onlara təzyiqlər olur. Bu barədə Sizdə hər hansı məlumat varmı?

C a v a b: Bilirsiniz, mən bunu, gərək ki, dünən eşitdim. Ancaq bu, müşahidəçilərin öz işidir. Bunu onlar araşdırsınlar.

S u a l: Cənab Prezident, lütfən deyin, hansı partiya hakim partiya olacaq və bu, xarici siyasətə təsir göstərəcəkmi? Bu, ən əvvəl, sizin qonşuları maraqlandırır. Biz bu münasibətlərin nə dərəcədə dostluq xarakteri daşıdığını bilirik. Sizcə yeni parlament bu münasibətlərə təsir göstərə bilərmi?

C a v a b: Yeni parlament bu münasibətlərə Azərbaycanla Gürcüstan arasında dostluğun və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsi naminə təsir göstərəcəkdir. Bizim üçün bu münasibətlər müvəqqəti deyil, uzunmüddətli, ola bilsin, hətta əbədi xarakter daşıyır. Ona görə də bizim münasibətlərimizə – mən Azərbaycanla Gürcüstan arasında, gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan münasibətləri nəzərdə tuturam – heç kim mənfi mənada təsir göstərə bilməz. Əksinə, hər iki dövlət – Gürcüstan da, Azərbaycan da nə qədər çox müstəqildirsə, müstəqillik şəraitində yaşayacaqsa, dostluğumuz, əməkdaşlığımız bir o qədər çox genişlənəcək və möhkəmlənəcəkdir. Siz son vaxtlar əldə olunmuş nəticələri görürsünüz.

S u a l: Cənab Prezident, YAP-ın rəhbərliyi indidən bəyan edir ki, əgər bu partiya qələbə çalsa, onlar spiker vəzifəsinə oğlunuzun namizədliyini irəli sürəcəklər. Partiyanın sədri kimi, buna münasibətiniz necədir?

C a v a b: Bunu sənə YAP-ın rəhbərliyindən kim deyir?

J u r n a l i s t: Əli Əhmədov, Səyavuş Novruzov.

H e y d ə r Ə l i y e v: Yenə də deyirəm, bu fikir hansısa bir adamın ola bilər. Ancaq bunu seçkilər keçəndən sonra YAP-dan seçilən deputatlar yığışacaqlar və müzakirə edəcəklər. Ondan sonra həll edəcəklər. Hər kəsin fikri ola bilər. Amma mən hesab edirəm ki, İlham Əliyevin spiker vəzifəsinə arzusu yoxdur.

S u a l: Cənab Prezident, Siz seçicilərin bu saata olan fəallığını necə qiymətləndirirsiniz?

C a v a b: Bax, indi kompüterdə gördüklərim fəallığın yaxşı olduğunu göstərir.

S u a l: Cənab Prezident, qanunvericilik təşəbbüsilə yeni parlamentə ilk növbədə hansı qanun layihələri təqdim olunacaqdır?

C a v a b: Bilirsiniz, mən qanunvericilik təşəbbüsü ilə parlamentə o qədər layihələr vermişəm ki, hansı yeni olacaq, hansı köhnə olacaq – bilmirəm. Son vaxtlar parlament tətildə olduğuna görə bir neçə qanun layihələrini – hansılar ki, bizim aparatda hazırlanıb və onları mən Milli Məclisə təqdim etməliyəm – saxlamışam ki, yeni seçilən parlamentə təqdim edim. Hər halda, təşəbbüslər çox olacaqdır.

S u a l: Cənab Prezident, parlament seçkilərindən sonra Nazirlər Kabinetində dəyişiklik olacaqmı?

C a v a b: Yox. Bizim Konstitusiyada belə şey yoxdur. Ancaq prezident seçiləndən sonra Nazirlər Kabineti istefaya gedir və prezident yenidən Nazirlər Kabinetini təşkil edir. Parlamentin seçilməsinin bununla əlaqəsi yoxdur.

S u a l: Cənab Əliyev, Siz oğlunuzu ölkənizin gələcək prezidenti kimi, böyük siyasətdə görmək istərdinizmi?

C a v a b: Bilirsinizmi, bu, oğlumun öz işidir. O, uşaq deyildir və indi artıq böyük siyasətdədir, böyük dövlət işləri ilə məşğul olur. Siz bilirsiniz ki, o, Azərbaycanın Dövlət Neft Şirkətində böyük iş görür. Biz 1994-cü ildən başlayaraq Azərbaycan dövlətinin neft strategiyasını həyata keçiririk. Neft

strategiyasının isə, şübhəsiz, çoxlu istiqamətləri var. Ancaq ən başlıca istiqamət bundan ibarətdir ki, bu müddət ərzində biz Azərbaycanın istər dənizdəki, istərsə də qurudakı neft və qaz ehtiyatlarından istifadə olunması sahəsində bizimlə birgə işləmək üçün bir çox xarici şirkətləri cəlb etmişik. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyev isə məhz bu sahəyə rəhbərlik edir. Odur ki, o burada çox böyük iş görür. Lakin siz bunu da bilirsiniz ki, o, Milli Olimpiya Komitəsinin prezidentidir. Beləliklə, o, ictimai işlə də, dövlət işi ilə də məşğul olur. Bu onun işidir.

S u a l: Siz onu prezident vəzifəsində işinizin davamçısı kimi görmək istərdinizmi?

C a v a b: Bilirsinizmi, nəyi görmək istəyirəmsə, bu mənim öz işimdir.

S u a l: Cənab Prezident, Naxçıvan bu seçkiləri İrandan verilən elektrik enerjisinin kəsilməsi şəraitində keçirir. Ümumiyyətlə, Naxçıvana İrandan elektrik enerjisi verilməsinin bərpa olunması məsələsi nə yerdədir?

C a v a b: Mənə dünən xəbər verdilər. Biz bir neçə dəfə İrandan xahiş etdik, hətta mən oraya nümayəndə heyəti göndərdim. Doğrudur, bizim onlara borcumuz var. Ancaq bu təzə borc deyil, əvvəldən var. Bir neçə illərdən yığılıbdır. Onlar izah edirlər ki, guya əvvəllər elektrik enerjisini verən dövlət təşkilatı idi, indi özəl şirkətdir. Ona görə də şirkət bunu tələb edir. Biz onlara təkliflər vermişik ki, bu borcu hansı vaxta qədər ödəmək olar. Onlarla danışıqlar aparılıbdır.

Dünən İran nümayəndə heyətini qəbul edəndə İranın Azərbaycandakı səfiri mənə dedi ki, o, əlaqəyə girib və İrandan enerjinin verilməsi dünən bərpa olunubdur. Amma mən bunu yoxlamamışam. Mən sadəcə, dünən axşam İran səfirinin dediyi sözləri deyirəm.

S u a l: Cənab Prezident, Rəfael Allahverdiyev YAP-ın proporsional siyahısının hazırlanması prosesini tənqid etmişdi. Sizin buna münasibətiniz necədir?

C a v a b: Bilirsiniz, bizim partiyada demokratiya var. Kim nəyi istəyir tənqid edə bilər. Buna mənim münasibətim nə olacaqdır?

S u a l: Cənab Prezident, lütfən deyin, Azərbaycan parlamentinin sədri müəyyən edildikdən sonra Siz vaxtından əvvəl prezident seçkiləri keçirilməsinin mümkünlüyü məsələləri barədə düşünəcəksinizmi?

C a v a b: Mən nə üçün düşünməliyəm, bu sual nə ilə bağlıdır?

J u r n a l i s t: Azərbaycan parlamenti sədrinin şəxsiyyəti ilə.

H e y d ə r Ə l i y e v: Parlament sədrinin prezidentə nə dəxli var? Mən prezidentəm, 2003-cü ilədək mənim prezident səlahiyyətlərim var. Həmin vaxta gəlib çıxarıq və siz də görəcəksiniz ki, xalq məni yeni müddətə bir də prezident seçəcəkdir.

S u a l: Cənab Prezident, akademik Ziya Bünyadovun qətlində İrana qarşı irəli sürülən ittihamlar, bununla bağlı açıqlamalar Naxçıvanla münasibətlərə təsir göstərə bilərmi?

C a v a b: Bilirsiniz, nə ola bilər, nə ola bilməz – mən bunu deyə bilmərəm. Bizim hüquq-mühafizə orqanları – əgər səhv etmirəmsə, Ziya Bünyadov 1997-ci ildə qətlə yetirilmişdi – indiyə qədər bir neçə versiyalar üzərində işləmişdilər. Hətta bəzən belə məlumatlar verirdilər ki, bu versiya düzgündür və qətlə yetirən adamlar tapılacaqdır. Ancaq onlar bu versiyaları, necə deyərlər, axıra çatdıra bilmədilər. Yəni müəyyən bir mərhələdə gördülər ki, yox, bu, düz deyildir.

Bir çox başqa versiyalar üzərində işlədilər. Nəhayət, Ziya Bünyadovu həqiqətən qətlə yetirən adamları son vaxtlar tapdılar və bu barədə məlumat verdilər. Bu adamların böyük bir qismi həbs olunubdur. Onlar bu cinayəti həm boyunlarına alıblar, həm də cinayət etdikləri bütün silahları təhvil veriblər. Ona görə də, bu həqiqətdir. Kimsə buna inanmır, yaxud da

kimsə başqa ölkədə bunu təkzib edirsə, bu onun öz işidir. Yaxud mən görürəm, bəzi qəzetlərdə müxtəlif fikirlər yazırlar. Bu onların öz işidir.

S u a l: İranın Azərbaycanda artıq ikinci cinayət törətməsi faktını necə qiymətləndirirsiniz?

C a v a b: Bilirsiniz, gərək bu barədə dəqiq ifadə işlədəsiniz. Azərbaycana qarşı bu aksiyanı hələ mən qiymətləndirə bilmərəm. Araşdırmaq lazımdır ki, kimlər bunu edir. Bu barədə fikrim belədir.

S u a l: Cənab Prezident, Sizin Putinlə görüşünüz zamanı Rusiya qoşunlarının Gürcüstandan çıxarılıb Ermənistana yerləşdirilməsi məsələsi müzakirə olunacaqmı və bu səfər zamanı daha nələr gözlənilir?

C a v a b: Bilirsiniz ki, bu barədə bizim dövlətimiz, hökumətimiz, Müdafiə naziri Səfər Əbiyev bəyanat veribdir. Bizim mövqeyimizi bildiribdir. Biz bundan sonra da bu mövqedə duracağıq.

S u a l: Cənab Prezident, Putinin Azərbaycana səfəri ilə əlaqədar iki ölkə arasında nələr gözlənilir?

C a v a b: Çox şey gözlənilir. Çünki Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Rusiyanın prezidenti Azərbaycanda səfərdə olmayıbdır. Bu, ilk səfər olacaqdır. Rusiya ilə Azərbaycanın əlaqələri gərək yaxşı olsun, daha da inkişaf etsin. Güman edirəm ki, yeni prezident cənab Putin də belə fikirdədir. Ona görə də mənim dəvətimi qəbul edib, Azərbaycana gələcəkdir.

S u a l: Cənab Prezident, bu seçkilərə ADP də qatılıbdır və siyahıya Rəsul Quliyev başçılıq edir. Əgər o, seçkilərdə səs toplayarsa, onun Bakıya qayıtması ilə bağlı Sizin fikriniz necə olacaqdır?

C a v a b: Bilirsiniz, bu məsələdə mənim fikrim ola bilməz. Fikir Mərkəzi Seçki Komissiyasınındır. Fikir bizim dövlət orqanlarınındır. Mənim heç bir fikrim ola bilməz.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA

Əziz cənab Prezident!

Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsinə dair son sazişlərin imzalanması münasibətilə mənə göndərdiyiniz təbrik məktubuna görə Sizə təşəkkür edirəm.

Məmnunam ki, əsası bizim tərəfimizdən 1994-cü ilin sentyabrında sizin «Əsrin müqaviləsi» adlandırdığınız müqavilənin imzalanması ilə qoyulmuş müstəqil Azərbaycanın yeni neft strategiyası ardıcıl surətdə və müvəffəqiyyətlə həyata keçirilməkdədir. Məhz Azərbaycanın təşəbbüsü və ciddi səyləri nəticəsində artıq Xəzər dənizi əməkdaşlıq üçün bütün dünyaya açılmışdır. Xəzərin zəngin neft və qaz ehtiyatlarının dünyanın, o cümlədən Amerika Birləşmiş Ştatlarının aparıcı enerji şirkətləri ilə birgə istifadə olunması artıq öz müsbət bəhrələrini verməkdədir.

Sevinirəm ki, qarşılaşdığımız çox böyük çətinliklərə baxmayaraq Azərbaycanın yeni neft strategiyasının ayrılmaz tərkib hissəsi olan və altı il sizinlə birlikdə üzərində çalışdığımız, çətin danışıqlar apardığımız və nəhayət, keçən ilin noyabrında ATƏT-in İstanbul sammiti çərçivəsində Sizin də iştirakınız ilə imzalanmış Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi artıq reallaşmaq üzrədir.

Sizinlə razıyam ki, bu nəhəng layihənin həyata keçirilməsi regionda sülhün və inkişafın təmin olunmasına kömək edəcəkdir. Hesab edirəm ki, Amerika Birləşmiş Ştatları boru kəmərinin təhlükəsizliyini təmin etmək üçün Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlığı möhkəmləndirməyə yönəlmiş səylərini daha da artırmalıdır.

Qazaxıstanın bu layihədə daha fəal iştirakını təmin etmək üçün Amerika Birləşmiş Ştatları hökumətinin və Qazaxıstanda fəaliyyət göstərən Amerikanın nəhəng enerji şirkətlərinin əlavə səylər qoyması olduqca mühüm əhəmiyyət kəsb edir. Biz də öz növbəmizdə bunun üçün əlimizdən gələni edəcəyik.

Əminəm ki, bu strategiya Azərbaycanın iqtisadi cəhətdən çiçəklənməsi, dövlətimizin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi üçün təminat yaratmaqla bərabər, eyni zamanda bütün Xəzər regionunun iqtisadi dirçəlişinin və təhlükəsizliyinin təmin olunması üçün də yaxşı imkanlar açır.

Əmin ola bilərsiniz ki, biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən zəngin neft və qaz ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və dünyanın böyük enerji şirkətləri ilə birgə işlənməsi və dünya bazarına etibarlı, təhlükəsiz yollarla ixrac edilməsi üçün yaxın müttəfiq və strateji tərəfdaş hesab etdiyimiz Amerika Birləşmiş Ştatlarının hökuməti və şirkətləri ilə sıx əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

Əziz cənab Prezident!

Bu da bir danılmaz həqiqətdir ki, bizim bu nəhəng layihələrə başladığımız ilk gündən Amerika Birləşmiş Ştatları Xəzər dənizinə böyük maraq göstərmiş, bizim gördüyümüz işlərə yaxından dəstək vermişdir. Mən bunu əvvəllər də demişəm və bir daha bildirirəm ki, əgər Amerika Birləşmiş Ştatları hökumətinin, şəxsən Sizin qayğınız, yardımınız və şəxsi dəstəyiniz olmasaydı, biz belə böyük nailiyyətlər əldə edə bilməzdik.

Ona görə mən də Sizi bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm və Amerika–Azərbaycan dostluğunun möhkəmləndirilməsində, dövlətlərimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılmasında və gücləndirilməsində Sizin böyük xidmətlərinizi xüsusi qeyd edirəm.

Əminəm ki, birlikdə həyata keçirdiyimiz bu nəhəng layihələr XXI əsrdə bəşəriyyətin enerjiyə olan tələbatının ödənilməsində mühüm rol oynayaraq bütün dünyada sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 noyabr 2000-ci il*

BEYNƏLXALQ MÜHƏNDİSLİK AKADEMİYASINA

Beynəlxalq Mühəndislik Akademiyasının hörmətli üzvləri!

Sizi əlamətdar hadisə – akademiyanın əsasının qoyulmasının 10 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bu illər ərzində Mühəndislik Akademiyası böyük uğurlar qazanmışdır. Akademiya üzvlərinin beynəlxalq əlaqələrinin postsovet məkanı üçün kifayət qədər yüksək olan səviyyəsi də yaxşı təsir bağışlayır. Qarşılıqlı əlaqə və əməkdaşlığın ənənəvi olaraq yaranmış formalarının dağılmasına gətirib çıxarmış çox mürəkkəb ictimai-siyasi və iqtisadi proseslər dövründə sizin nailiyyətlərinizin xüsusi əhəmiyyəti var.

XX əsrdə Azərbaycan qəti şəkildə Neft Akademiyası statusunu qazanmışdır. Müstəqillik illərində dünyanın aparıcı şirkətləri ilə imzalanmış müqavilələr bizim neft strategiyamızın mahiyyətini irəlicədən müəyyənləşdirmiş və mühəndis elmi qarşısında bir sıra konkret vəzifələr qoymuşdur. Azərbaycan Respublikasının çoxsaylı mühəndis korpusunun nümayəndələri bu vəzifələri həll etmək üçün müxtəlif ölkələrin alimləri, o cümlədən də Beynəlxalq Mühəndislik Akademiyası ilə sıx əməkdaşlıq edirlər.

Çox əlamətdar haldır ki, Müstəqil Dövlətlər Birliyi ölkələrinin və dünyanın bir sıra digər dövlətlərinin mühəndis elminin əlaqələndiricisi olan akademiya tətbiqi araşdırmaların müxtəlif sahələrinə aid çox mühüm elmi potensialı öz tərkibində cəmləşdirə və mühəndis fikrinin aparıcı mərkəzlərindən birinə çevrilə bilmişdir. Sizin bu yolda əldə etdiyiniz uğurlar qarşıdakı əsrdə də bizim səmərəli əməkdaşlığımız üçün zəmin yaradır.

İndi dünyada bütün siyasi qüvvələr elmi, xüsusilə onun tətbiqi sahələrini təkcə mədəniyyətin olduqca vacib tərkib hissəsi kimi deyil, həm də davamlı inkişafın əsası kimi qiymətləndirirlər. Məhz bu baxımdan sizin akademiyanın rolu əvəzsizdir. Əminəm ki, akademiya bir çox görkəmli alimlərin səylərini birləşdirərək mühəndis elminin inkişafına, yeni texnologiyaların yaradılmasına və tətbiqinə kömək edəcəkdir.

İndi Beynəlxalq Mühəndislik Akademiyası həm də başa çatmaqda olan əsrdə formalaşmış ümumi elmi-texniki məkanımızın saxlanması və inkişafının etibarlı təminatçılarından biri kimi çıxış edir. Biz Azərbaycanda bunu son dərəcə yüksək qiymətləndiririk.

Əlamətdar yubiley günündə akademiyaya elmi siyasətin reallaşdırılmasında gələcək uğurlar, yeni nailiyyətlər və Azərbaycan alimləri ilə səmərəli əməkdaşlıq arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 noyabr 2000-ci il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN ÜZVÜ XANIM HİLLARİ KLİNTONA

Hörmətli xanım Hillari Klinton!

Nyu-York ştatından Amerika Birləşmiş Ştatları Senatının üzvü seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 noyabr 2000-ci il*

ABŞ PREZİDENTİNİN VƏ DÖVLƏT KATİBİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ MƏSƏLƏLƏRİNƏ DAİR XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR CON VULF VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

9 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Cənab Vulf!

Hörmətli səfirlər!

Mən sizi ürəkdən salamlayıram. Azərbaycana yenidən xoş gəlmisiniz. Mən sizinlə görüşümdən çox məmnunam. Güman edirəm ki, bizim görüşüb-danışmağımıza həmişə ehtiyac var və danışmaq üçün məsələlər də vardır. Buyurun.

C o n V u l f: Cənab Prezident, çox sağ olun. Səmimi qəbul üçün Sizə təşəkkür edirik.

Bu gün Bakıda keçirilən beynəlxalq konfransda çıxış edərkən dedim ki, mən sizin ölkənizə bu səfərimdən ikili hisslər keçirirəm. Bir tərəfdən, məmnunam ki, ölkənizə bundan əvvəlki 8–10 səfərim zamanı Siz məni qəbul etmisiniz və bu görüşlər mənim səfərlərimin zirvəsi olubdur və bundan da həmişə məmnun qalmışam. O biri tərəfdən, təəssüflənirəm ki, bu mənim Azərbaycana sonuncu səfərim olacaqdır. Yəqin eşitmisiniz, prezident Klinton fikrində mənim üçün başqa bir vəzifəni nəzərdə tutubdur. Amma mən tam əminəm ki, bu vəzifədən ayrılıb başqa vəzifəyə keçsəm də, ABŞ-ın mənim cavabdeh olduğum sahədəki siyasəti bundan sonra da davam edəcəkdir, yaxın dostum, hörmətli xanım Conz bu işi davam

etdirəcək, ABŞ prezidentinin və dövlət katibinin Xəzər hövzəsinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi vəzifəsində fəaliyyətə başlayacaqdır.

Sizin bölgəniz xanım Conz üçün yad region deyildir. O burada özünü qərib hesab etmir. Çünki bundan əvvəl o, ABŞ-ın Qazaxıstandakı səfiri vəzifəsində çalışıbdır. Xanım Conz bu regionu yaxşı tanıyır. O, xarici siyasət sahəsində də peşəkar işçidir.

Cənab Prezident, mən prezident Klintonun Sizə xoş salamlarını gətirmişəm. O bu həftənin əvvəlində Sizdən məktub aldığına görə çox məmnun oldu. Prezident Klintona Sizin ünvanladığınız məktubda toxunduğunuz məsələlər, xüsusilə boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması üçün əməkdaşlığın genişləndirilməsi sahəsində əlavə səylər göstərilməsi məsələlərində biz Sizinlə tam razıyıq və bu barədə əlavə fəaliyyət göstərməyə ehtiyac vardır. Cənab Prezident, düzdür, Siz bu məsələlərlə məndən çox məşğul olsanız da, öz payıma deyim ki, mən də enerji məsələləri ilə 18 ay ərzində məşğul oldum və bu il altı aylıq dövrdən sonra geriyə baxıb əldə etdiyimiz tərəqqini görəndə, bir daha Sizin konsepsiyanız olan Şərq–Qərb dəhlizinin reallaşdırılması və regiondakı nəhəng layihələrin həyata keçirilməsi sahəsində verdiyiniz dəstəyə, göstərdiyiniz liderliyə görə Sizə təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Hesab edirəm ki, biz birlikdə həm Azərbaycanın, həm də regionun iqtisadi dirçəlişi və inkişafı üçün müvafiq strukturlar hazırlayırıq və bir növ regionun gələcəyinin memarlığını müəyyən edirik.

Ümidvaram ki, mətbuat nümayəndələri bu otağı tərk etdikdən sonra bu böyük strategiyanın spesifik cəhətləri barədə Sizinlə əlavə fikir mübadiləsi aparmaq imkanımız olacaqdır.

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Vulf, birinci növbədə, prezident Klintondan mənə gətirdiyiniz salama görə təşəkkür

edirəm. Mən çox yüksək qiymətləndirirəm ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin bütün sazişlərinin imzalanması münasibətilə prezident cənab Bill Klinton öz fikirlərini bildirmiş və mənə təbrik məktubu göndərmişdir. Mən də onu təbrik etdim. Çünki bu bizim birgə işimiz sayəsində olmuşdur. Təbrik məktubunda bir neçə məsələləri də irəli sürdüm. Çünki bundan sonra görəcəyimiz işlər üçün onlar çox vacibdir.

Çox məmnunam ki, siz dediyiniz kimi, prezident Klintonla mənim fikirlərim, yəni Amerika Birləşmiş Ştatları hökuməti ilə Azərbaycan dövlətinin fikirləri eyni istiqamətdədir. Siz isə, təbiidir ki, bizimlə bərabər 18 ay burada çox iş gördünüz. Düzdür, neçə ay olduğunu mən saymamışam, amma biz bir yerdə çox iş gördük.

İndiki işinizdən getməklə bağlı keçirdiyiniz hissləri mən anlayıram. Ancan eyni zamanda, hesab edirəm, çox məmnun olmalısınız ki, sizinlə biz, nəhayət, Bakı–Tbilisi–Ceyhan neft kəməri haqqında İstanbulda böyük bir sazişi imzaladıq və axır ki, Azərbaycanda, Gürcüstanda və Türkiyədə son sazişlər imzalandı. Bu işi biz bir yerdə başa çatdırdıq. Cənab Vulf, bütün bu nailiyyətlərin əldə olunmasında şəxsən sizin xidmətləriniz vardır. Mən bunu qiymətləndirirəm. Əgər Amerika Birləşmiş Ştatlarının başqa istiqamətlərdəki təşkilatları ilə də bizim əməkdaşlığımız bu səviyyəyə qaldırılsa, çox yaxşı olardı. Bizim bu sahədəki əməkdaşlığımız, hesab edirəm ki, nümunədir. Biz bundan sonra da bu əlaqələrimizi davam etdirəcəyik. Yəni sizin işiniz davam edəcəkdir. Öz həmkarınız xanıma, necə deyərlər, çox böyük nəticələri olan işi verirsiniz. Güman edirəm ki, hörmətli xanım da sizin gördüyünüz işlərlə, ümumiyyətlə, son altı ildə bizim gördüyümüz işlərlə tanış olduğuna görə əmin ola bilər ki, əməkdaşlığımız daim çox uğurlu olacaqdır.

Gələcək işlərinizdə sizə uğurlar arzulayıram və sizinlə əməkdaşlığımızı heç vaxt unutmayacağam. Vaxt olar, yenə də bizim yolları

mız kəsişər, bunu bilmək olmaz. Gələcəkdə hər şey ola bilər.

C o n V u l f: Cənab Prezident, amma bir şeyi yəqinliklə bilirəm ki, 2004-cü ildə Sizi ya Bakıda, ya da Ceyhanda mən özüm görəcəyəm.

H e y d ə r Ə l i y e v: Həm Bakıda, həm də Ceyhanda bir yerdə olacağıq.

C o n V u l f: Amma elə edəcəyik ki, neft buradan oraya getsin, oradan bura qayıtmasın.

H e y d ə r Ə l i y e v: Mütləq. Oradan buraya neft gələ bilməz.

Bu prosesdə iştirak edən bütün adamların, şəxslərin hamısının Bakı–Ceyhan neft kəməri istifadəyə veriləndə keçiriləcək böyük təntənədə iştirak etməyə haqqı var. Bu təntənəyə isə mən inanıram.

Gələcək işlərinizdə sizə bir daha uğurlar arzulayıram.

Hörmətli xanım Conz da, dediyiniz kimi, bizim regionla çox yaxşı tanışdır. Bakı–Ceyhan məsələsində bir problem var, prezident Bill Klinton da ona öz məktubunda toxunmuşdur. Güman edirəm ki, o problemin həll olunmasına xanım Conz daha da müvəffəq ola bilər. Çünki o, Qazaxıstanda işləyibdir. Mən sizə də bu işdə uğurlar arzulayıram.

E l i z a b e t C o n z: Çox sağ olun, təşəkkür edirəm.

RUSİYA FEDERASİYASI PREZİDENTİNİN XƏZƏRİN STATUSUNUN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ VİKTOR KALYUJNI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

9 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Sizi görməyimə şadam. Əvvəla, sizi görmək istəyirdim, həm də istəyirdim siz də görəsiniz ki, mən sağ-salamatam. İkincisi də, söhbət etməyimizə şadam.

V i k t o r K a l y u j n ı: Hər şeydən öncə, bir daha ünsiyyətdə olmaq imkanına görə sağ olun. Çünki hesab edirəm ki, ünsiyyət nə qədər çox olarsa, problemlərin həlli bir o qədər sürətlə irəliləyər. İkincisi, Azərbaycanın hazırkı mövqeyi bizi razı salır və sevindirir. Şadıq ki, Siz sağ-salamatsınız. Seçkilərin kifayət qədər uğurla və sərbəst keçməsi münasibətilə Sizi təbrik etmək istərdim. Sizi kifayət qədər sanballı siyasi addım – Azərbaycanın Avropa Şurasına qəbul edilməyə tövsiyə olunması münasibətilə təbrik edirəm. Bu, tarixi addımdır. Azərbaycana uğurlar arzulayıram.

H e y d ə r Ə l i y e v: Sağ olun.

V i k t o r K a l y u j n ı: Bu gün biz mövcud problemlər barəsində Sizinlə fikir mübadiləsi aparmaq, birgə qərarları müzakirə etmək və müəyyənləşdirmək istərdik.

Bizim bir problemimiz var və onu intensiv surətdə həll etmək lazımdır. Biz İranla çox şeyi müzakirə etmişik, amma İranın mövqeyi konstruktiv deyildir.

H e y d ə r Ə l i y e v: Viktor İvanoviç, təbriklərinizə görə sağ olun. Konkret mövzuya gəldikdə isə, mən məmnunam ki, siz bu məsələnin həllinə başçılıq edəndən sonra biz Rusiyanın əvvəlki mövqeyi ilə müqayisədə indi realist mövqe tutduğunu hiss etmişik. Buna görə də belə düşünürəm ki, biz bu barədə razılığa gələ bilərik. Sizin tərəfinizdən hansısa bir layihə var. Bizim adamlar onunla tanış olmuşlar, mən isə hələ baxa bilməmişəm. Qazaxıstanla Rusiya arasında bəyannamə var. Biz bu ayın axırında Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin səfərini gözləyirik. Gördüyünüz kimi, biz həmin vaxtadək hər şeyi hazırlaya bilərik. Əminəm ki, səfər baş tutacaq və biz bu məsələdə Azərbaycanın və Rusiyanın mövqeyinə nöqtə qoya biləcəyik. Düşünürəm ki, biz arxayın ola bilərik. Siz bunu əvvəllər də demişdiniz, indi də deyirsiniz.

V i k t o r K a l y u j n ı: Heydər Əliyevic, mən Azərbaycana bir daha gəlmək imkanından məmnunam. Biz iştirak etdiyimiz konfransda konkret mövzuları müzakirə edə bildik. Buraya gəlib-gəlməmək məsələsi yox idi. Məni iştirakçıların səviyyəsi maraqlandırmırdı, maraqlandıran o idi ki, Xəzərin problemləri müzakirə ediləcəkdir.

Xəzər mövzusunun müzakirəsi mənim üçün olduqca vacibdir və biz bu barədə nə qədər çox danışırıqsa, onun həllinə doğru daha çox irəliləyirik. Sevindirici hal budur ki, əvvəla, mövqelərimiz yaxınlaşır və Siz doğru dediniz ki, Vladimir Vladimiroviçin gözlənilən səfəri müvafiq təkan verməlidir. Çünki biz aşağılarda nə qədər görüşsək də, hər halda, iki birinci şəxsin iradəsi gərəkdir, onlar bu işə təkan verməlidirlər. Mən ötən dəfə digər dövlətlərin başçıları ilə görüşlərdən sonra Vladimir Vladimiroviçə məlumat verərkən dedim ki, hər şey yaxşıdır. Amma Siz – beş prezident gərək görüşəsiniz, bu halda boş söhbət olmaz, işin səmərəli davamı olar. Çünki biz öz səviyyəmizdə bir-birimizi inandırmağa salışırıq, məsləhətləşirik və s. İki, üç ay vaxt keçir, İranın ssenarisi üzrə isə artıq iki ildir görüşmürük. Biz öz ara

mızda danışırıq, lakin birlikdə görüşmürük. Demək istəyirəm ki, o bu ideyanı gəstəklədi, üstəlik, mən dedim ki, məsələn, «Şanxay altılığı» da mövcuddur.

Yeri gəlmişkən, o da deyir ki, bu, yaxşı ideyadır. Mən də hesab edirəm ki, Sizin də dəstəyiniz olsa, yaxşı olar, Niyazov da bu işi dəstəklədi, yığışmağın təşəbbüsçüsü də o idi. Əgər Xəzərə dair bu problemi həll etmək istəyiriksə, zənnimcə, biz görüşü hazırlamaq barədə tapşırıq almalıyıq.

Mən İrana axırıncı səfərimdən əvvəl Sizinlə danışdım, İrandan sonra yenə qayıtdım. Bizi narahat edən budur ki, İran görüşü keçirmək barədə öhdəlik götürsə də, bunu uzadır, özü də əsassız olaraq uzadır. İran deyir ki, Rusiyanın, Qazaxıstanın, Azərbaycanın mövqeyi onları təmin etmədiyinə görə, belə bir görüşün keçirilməsini müsbət və zəruri saymırlar. Onların irəli sürdükləri prinsiplər isə – 20 faiz hesabı ilə bölgü – bizi təmin edə bilməz. Buna görə də onlar vəziyyəti ikitərəfli görüşlər vasitəsilə aydınlaşdırmağa və bəlkə də bizi öz tərəflərinə çəkməyə çalışırlar. Türkmənistan barəsində buna nail olurlar, Türkmənistan bu məsələdə onları fəal dəstəkləyir. Mən bu işi birtəhər fəallaşdırmağa cəhd göstərdim, çünki bugünkü gündə mane olan İrandır. Hətta İqor Sergeyeviç İvanovdan xahiş etdim ki, o, Xərrazi ilə əlaqə saxlasın, görüşün mümkünlüyü barədə onunla söhbət etsin. Bu söhbət oldu, Xərrazi öz fikrini belə açıqladı ki, Kalyujnının təklifinə bizim alternativ təklifimiz var. Halbuki onlar demişdilər ki, hesab edirik, Kalyujnı konstruktiv təkliflərlə gələcək, amma belə olmadı. Maraqlıdır, belə çıxır ki, bu təkliflər Qazaxıstan, Azərbaycan üçün konstruktivdir, İran üçün isə yox. Demək istəyirəm ki, onların departament rəhbəri Moskvaya gəlmişdi və yenə də həmin 20 faiz, kondominimum məsələsi qaldırıldı, o, 20 faizlik bölgüyə dair xəritəni necə təsəvvür etdiyini bildirəcəyini də vəd etdi.

Lakin aradan ay yarım keçib, onlar isə bizə heç nə verə bilməyiblər. Bu müddət ərzində Moskvada Qazaxıstan mütəxəssisləri

ilə görüş keçirilmiş, Xələfovla görüş olmuş, Quliyev Moskvaya gəlmişdir və bu mövzu işgüzar qaydada müzakirə edilmişdir. Biz buraya yola düşməzdən əvvəl İqor Sepgeyeviçlə məsləhətləşdik ki, bundan sonra nə edək? Belə bir razılığa gəldik ki, əgər 10 gün ərzində İran tərəfindən fəallıq göstərilməsə, Rusiya müzakirələrə başlamaq və məsələni irəlilətmək üçün Moskvada bir daha toplaşmaq təşəbbüsü ilə çıxış edəcəkdir. Siz bilirsiniz ki, Qazaxıstan ilə Rusiya arasında bəyannamə Vladimir Vladimiroviç Putinin Qazaxıstana sonuncu səfəri zamanı imzalanmışdır. Bu tamamilə normal, demokratik və müsbət sənəddir. Belə ki, burada mərhələlilik prinsipləri və bu mərhələlərin növləri əks olunmuşdur.

Hərçənd çoxları deyir ki, əvvəlcə hamısını birdən həll etmək, yəni orta xəttə, həm də modifikasiya edilmiş, dənizin dibi üzrə xəttə baxmaq lazımdır, su qatı isə hələlik ümumi istifadədə nəzərdə tutulur. Sonra isə Xəzərin inkişafı üzrə, Sizə dediyim kimi, mərkəz yaratmaq barədə düşünmək gərəkdir. Bunun Sizin üçün maraqlı olduğunu və Sizin buna maraq göstərdiyinizi bilirik. Biz layihəni buraya, sizin mütəxəssislərinizə göndərmişik ki, onlar bu məsələ üzərində işləsinlər. Biz istəyirdik və hazırıq ki – Xələfovla razılığa gəlmişik – bu gün həm də işgüzar qaydada görüşək, əgər etirazınız yoxdursa, biz onu, sadəcə olaraq, müzakirə etmək, danışmaq, rəyi öyrənmək istərdik. Çünki onların bütün bunları oxumağa, nəzərdən keçirməyə, qiymətləndirməyə vaxtı var idi ki, Vladimir Vladimiroviç gələnədək iki prezident Xəzər mövzusu haqqında öz rəyini artıq sənədlərdə ifadə edə bilsinlər. Ona görə ki, bizim gedib-gəlməyimiz, müzakirə etməyimiz bir işdir, bizim ümumi mövqelərimiz var, lakin biz bunu heç yerdə sənədlərdə təsbit etmirik. Məsələn, Qazaxıstan barəsində təsbit etmişik. Zənnimcə, nəyisə təsbit etməyə başlamağımızın vaxtı gəlib çatmışdır. Belə düşünürəm ki, bu düzdür. Biosfer, balıq, təbiət, gəmiçilik haqqında sənədləri, sazişləri biz ötən gəlişimizdə XİN-ə verib xahiş etmişdik ki, gözləməmək üçün onlar öz

qiymətini versinlər. Yumşaq desək, dənizin dibini necə bölüşdürəcəyimizi təbiət gözləməsin. İrəliləmək lazımdır və bu, status problemini həll etməyimizə əsla mane olmayacaqdır.

İstərdik Siz XİN işçilərinin fəallaşmasına hansısa şəkildə kömək edəsiniz ki, onlar bu sazişlərə tez baxsınlar. Hər halda, üç-dörd ay keçmişdir. Bizsə istərdik ki, masa arxasına keçək və bu sazişləri müzakirə edək. Bunu XİN-dən xahiş edərdik. Mən Qazaxıstana da müraciət etdim ki, bir araya gəlmək üçün diplomatlar İranla fəal dialoq aparmağa başlasınlar, Rusiyanın xahiş etməsi, bir yerə toplaşmaq üçün təzyiq göstərməsi bir işdir. Mən istərdim ki, bu, kollektiv təzyiq olsun, çünki görüş haqqında məsələnin uzadılması müxtəlif fikirlər meydana çıxarır. Məsələn, Türkmənistanda olduğu kimi, Boris Şıxmuradov çıxış edir və deyir – elə bilirəm, bu, Niyazovun mövqeyidir – əgər orada bir şey həll edilməsə, onda biz BMT-ni buraya dəvət edəcəyik və qoy o bizim problemlərimizi həll etsin. Hesab edirəm ki, bu səfehlikdir, ona görə ki, biz özümüz araşdırmalıyıq, bizə üçüncü tərəf lazım deyildir. Bu isə ondan irəli gəlir ki, biz tez-tez görüşmürük.

H e y d ə r Ə l i y e v: Viktor İvanoviç, sağ olun, mən sizinlə, sizin fikirlərinizlə razıyam, biz bu barədə əvvəllər də danışmışdıq. Əgər bizdə nə isə ləngimişdirsə, bu ona görə deyil ki, biz istəmirik, görünür, məsələnin özü uzanır. Mən Baş nazirə tapşırmışam, o sizin təqdim etdiyiniz variant üzərində mütəxəssislərlə birlikdə işləyir. Siz yəqin ki, onunla görüşəcəksiniz. Mən onu hələ görməmişəm. Yəni mənə elə gəlir ki, prinsipcə aramızda böyük fikir ayrılıqları yoxdur. Ona görə ki, ötən dəfə bildirdiyiniz mövqeyi mən realist, normal mövqe adlandırardım. Məsələnin uzanmasında biz təqsirkar deyilik. Əgər siz bütün bu ölkələri gəzib-dolaşıbsınızsa və bundan sonra bir daha gəlib yığışacağınızı söyləyirsinizsə, artıq bundan o tərəfi yoxdur. O ki qaldı bizim dövlət başçılarının toplaşmasına,

mən bununla razıyam, amma sizinlə Qazaxıstan arasında olduğu kimi bir nəticə hasil edilməlidir. Yaxşı olar ki, Azərbaycan da Rusiya ilə bu cür sənəd imzalasın. Bilmirəm, siz başqa ölkələrlə belə sənədi necə imzalaya biləcəksiniz. Onda biz beşlikdə bir yerə toplaşa bilərik. Yəni mən prinsipcə bunun əleyhinə deyiləm, istənilən vaxt toplaşmaq olar, amma düşünmək lazımdır, necə etməli ki, bu beşlik həqiqətən görüşüb, əliboş dağılışmasın.

Zənnimcə, biz sizinlə bu mövzuda danışacağıq və Baş nazir də sizinlə daha ətraflı danışacaqdır. Biz istəyirik ki, sizin doğru dediyiniz kimi, bu məsələni mərhələ-mərhələ həll edək. Hər şeyi birdən həll etmək olmaz, prinsipial mövqeləri müəyyənləşdirmək lazımdır. Odur ki, mən sizinlə razıyam.

V i k t o r K a l y u j n ı: Nazarbayevlə axırıncı görüş zamanı o, Rusiyanın Azərbaycanla bu cür bəyannamə imzalamalı olması barədə özünün şəxsi rəyini söylədi, dedi ki, mən özüm Heydər Əliyevicə zəng vuracağam, sonra isə biz üçlükdə Niyazovla da söhbət edəcəyik. Bu onun ideyasıdır.

H e y d ə r Ə l i y e v: Mən razıyam. Üstəlik, mən dedim, belə hesab edirəm ki, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin səfəri zamanı biz bu problem barəsində bütün sənədi imzalamalıyıq. Bu mənim qəti qərarımdır.

V i k t o r K a l y u j n ı: Əlbəttə, burada sırf qanunvericilik səpgisinin bəzi incəlikləri var. Bu gün konfransda sizin universitetin kafedra müdiri hüquqşünas Məmmədov çıxış etdi. Rusiyanın Xəzər barədə mövqeyinin, onun hüquqi əsasını kifayət qədər dərindən araşdırdı. Konstitusiyanın 7-ci və 11-ci maddəsində Xəzərin sektorlara bölünməsindən bəhs edilir. Amma biz elə etməliyik ki, qanunvericilik də, Konstitusiya da pozulmasın. Danışıqlar əsası arxasında əyləşmək və razılığa gəlmək lazımdır.

KAMBOCANIN KRALI ƏLAHƏZRƏT
NORODOM SİANUKA

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik günü ilə əlaqədar olaraq Sizi, kral ailəsinin üzvlərini və dost Kamboca xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Kamboca Krallığı arasında dostluq və əməkdaşlıq əlaqələri hər iki ölkənin xalqlarının mənafeyi naminə inkişaf edib genişlənəcək, bütün dünyada sülh və təhlükəsizlik işinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, səadət və uğurlar, xalqınıza sülh və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *9 noyabr 2000-ci il*

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA

Hörmətli cənab Prezident!

Anqola Respublikasının milli bayramı – Müstəqilliyin elan edilməsi günü münasibətilə Sizi və dost Anqola xalqını təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan ilə Anqola arasında qarşılıqlı əlaqələr xalqlarımızın rifahı naminə getdikcə möhkəmlənəcək, dünyada sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *9 noyabr 2000-ci il*

12 NOYABR KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz Azərbaycan vətəndaşları!

Sizi 12 noyabr Konstitusiya günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə xoş arzularımı yetirirəm.

Beş il bundan əvvəl, 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının vətəndaşları böyük ruh yüksəkliyi şəraitində ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyasını qəbul etdilər. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir şanlı səhifə yazıldı. Uzunmüddətli gərgin əməyin məhsulu olan bu Konstitusiya öz demokratikliyi, humanistliyi və dolğunluğu ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması və tərəqqisi üçün hərtərəfli zəmin yaradır.

Azərbaycanda belə bir yüksək səviyyəli Konstitusiyanın qəbul olunması təsadüfi hal olmayıb, çoxəsrlik dövlətçilik ənənələrinin, xalqımızın keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Hələ 1918-ci ildə Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə olaraq xalq cümhuriyyəti yaratmış, özünün demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına sadiqliyini bəyan etmişdi. Azərbaycanın indiki Konstitusiyası isə xalqımızın müstəqil, azad, demokratik dövlət qurmaq və Dünya Birliyində layiqli yer tutmaq istəyini, sülhə, tərəqqiyə, bəşəriyyətin sivil inkişafına öz töhfəsini bəxş etmək əzmini və iradəsini nümayiş etdirir. Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək, bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir.

Konstitusiyamızın qəbul edilməsindən keçən beş ildə Azərbaycanda dövlət və cəmiyyət həyatının bütün sahələrinin Konstitusiyaya uyğunlaşdırılması, Konstitusiyanın verdiyi geniş imkanlardan bəhrələnərək, dövlət idarəçiliyinin, iqtisadiyyatın, demokratikləşmə proseslərinin müasir dünya standartlarına yüksəldilməsi dövlət siyasətinin əsasını təşkil etmişdir. Hakimiyyətin bölünməsi prinsipinin ardıcıl həyata keçirilməsi müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, vətəndaşların Konstitusiyadan irəli gələn hüquq və azadlıqlarına daha dolğun məzmun verilməsi, respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət prinsiplərinə dönmədən əməl edilməsi keçən illərdə olduğu kimi, bundan sonra da qarşımızda duran mühüm vəzifələrdəndir. Eyni zamanda Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünün dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu da vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır.

Ölkəmiz siyasi plüralizmin, siyasi fəaliyyət azadlığının təmin edilməsi sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Bu il noyabrın 5-də yeni seçki qanunları əsasında çoxpartiyalı sistem üzrə Milli Məclisə növbəti seçkilər keçirilmişdir. Seçkilər azad rəqabət, aşkarlıq və şəffaflıq şəraitində, seçicilərin yüksək fəallığı ilə keçmiş və ölkədə demokratik proseslərin dinamik inkişafının daha bir bariz nümunəsi olmuşdur.

Noyabrın 9-da Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycanın bu quruma tamhüquqlu üzv qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Bu, ölkəmizdə gedən demokratikləşmə, hüquqi dövlət quruculuğu proseslərinə, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə edilmiş nailiyyətlərə dünyada verilən qiymətdir. Azərbaycan bundan sonra da Avropa xalqları ailəsinə inteqrasiya siyasətini ardıcıl davam etdirəcək, qabaqcıl dünya təcrübəsindən, inkişaf etmiş ölkələrin köməyindən layiqincə yararlanaraq, Qafqazda, Yaxın və Orta Şərqdə demokratiyanın

etibarlı dayaqlarından birinə çevriləcək. Demokratiya bizim üçün xaricdən gətirilmə bir dəyər deyildir, bu, Azərbaycan xalqının öz istəyidir, önun özünün müəyyən etdiyi, getmək istədiyi yoldur.

Əminəm ki, Azərbaycan xalqı bundan çonra da demokratiya və siyasi plüralizm yolu ilə gedəcək, milli xüsusiyyətləri, tarixi ənənələri və ölkəmizin reallıqlarını nəzərə almaqla öz Konstitusiyasında əks olunmuş prinsiplərin tamamilə həyata keçirilməsinə çalışacaqdır.

Əziz həmvətənlər!

Sizi bir daha bu böyük bayram münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, firavanlıq və dövlətimizin tərəqqisi naminə uğurlu fəaliyyət arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *11 noyabr 2000-ci il*

RUSİYA ESTRADASININ ULDUZU, SSRİ-nin VƏ RUSİYANIN XALQ ARTİSTİ ALLA PUQAÇOVANIN İŞTİRAKI İLƏ KONSERTDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLA GÖRÜŞDƏ SÖHBƏT

Respublika sarayı

12 noyabr 2000-ci il

A l l a P u q a ç o v a: Budur, biz yenidən görüşdük. Siz əvvəlkitək, yenə də cavansınız. Mən yenidən burada olmağıma görə çox xoşbəxtəm. Adamları bilmirəm, amma bu gün mən özüm elə bir zövq almışam ki...

H e y d ə r Ə l i y e v: Bəs bizi demirsiniz, bizə də zövq verdiniz. Mən belə zövq aldığımı xatırlamıram...

A l l a P u q a ç o v a: Mən sanki başqa bir aləmə, gənclik illərimə qayıtdım. Əladır! Tamaşaçılar isə necə vardılarsa, sanki eləcə də qalıblar. Bu necə olan işdir? Biz Sizinlə sanki yaşa doluruq, onlar isə reaksiyalarından da, hər şeydən də göründüyü kimi, hələ də cavandırlar, gəncdirlər. Buraya gəlməyimə kömək etdiyinizə görə sağ olun.

H e y d ə r Ə l i y e v: Bəs necə, axı mən sizi çoxdan gözləyirdim.

A l l a P u q a ç o v a: Çox gözlədiniz. İndi də Siz bizə qonaq gəlin. Sizi görməyimə çox şadam.

H e y d ə r Ə l i y e v: Mən də şadam. Siz bu gün bizə çox böyük zövq verdiniz. Siz özünüz görürdünüz, salondakılar sizin çıxışınızdan, sadəcə olaraq, vəcdə gəlmişdilər. Siz olduqca

böyük zövq verdiniz. Mən belə bir çıxış xatırlamıram, bugünkü konsert kimi konsert xatırlamıram. Özü də bilirsinizmi, siz iki saat çıxış edirsiniz, bu iki saat ərzində həmişə hərəkətdə olursunuz, həm mahnı oxuyursunuz, həm də hərəkət edirsiniz. Dünya ulduzu öz adsanını qoruyub saxlamışdır.

A l l a P u q a ç o v a: Bu sözlərə görə sağ olun.

H e y d ə r Ə l i y e v: Qətiyyən dəyişməmisiniz, əvvəlkitək gözəlsiniz, əvvəlkitək gəncsiniz...

A l l a P u q a ç o v a: Gözəlləşmişəm, cavanlaşmışam. Əsl kişi bundan artıq daha nə deyə bilər...

H e y d ə r Ə l i y e v: Mən gördüyümü, duyduğumu deyirəm.

Alla Borisovna, bilirsinizmi, bu gün tamaşaçılarımıza verdiyiniz zövq 25 il əvvəl də, indi də oxuduğunuz mahnılar baxımından sizin sənətinizin uzunömürlülüyünün təcəssümüdür. Bir baxın, bu mahnılar necə də heyranlıq doğurur. Siz qazandığınız uğurlarla kifayətlənmədiniz və müasir mahnılarınızı da ifa etdiniz. Sizin ifa etdikləriniz bizim üçün əziz, çox qiymətli nə vardısa, onların davamıdır. Amma siz təkcə ilk mahnınız olan «Arlekino»nu ifa etmədiniz.

A l l a P u q a ç o v a: Mən onu səhnəyə son çıxışımda oxuyacağam. Bu, qocalmış, daha gülməyən, öskürən Arlekino olacaqdır.

H e y d ə r Ə l i y e v: Sizin bu axırıncı mahnılarınız da gözəldir, özü də təkcə onlar deyil, əvvəlki dövrün repertuarından olan mahnılar da. Sizin buraya gələndə və mən Moskvada konsertlərinizdə olarkən oxuduğunuz mahnılar, eləcə də son vaxtlar yaratdığınız mahnılar qəlbi riqqətə gətirir. Mən diqqət yetirirdim – salonda olduqca çox gənclər, yəni 18–20 yaşlı və daha cavan adamlar vardı. Deməli, siz ilk dəfə səhnəyə çıxanda, onlar hələ dünyaya gəlməmişdilər. Mən isə ilk çıxışınızdan başlamış hər şeyi əvvəldən axıradək bilirəm. Onlar isə... Bir baxın, onlar çıxışınızı necə məhəbbətlə qarşıladılar,

bizim salondakıların belə rəqs etmələrini, belə əl çalmalarını mən hələ görməmişdim. Bu nəyi göstərir? Bu onu göstərir ki, Alla Borisovna Puqaçova səhnəyə çıxandan keçmiş Sovetlər İttifaqında, dünyada böyük məhəbbət və böyük nüfuz, böyük şan-şöhrət qazanmışdır, bu gün daha böyük populyarlığa və nüfuza, şan-şöhrətə malikdir. Buna görə də mən Alla Puqaçovanın bu böyük sənətinin şərəfinə badə qaldırıram! Alla Borisovna, sizin sağlığınıza, sizə səadət, firavanlıq, uzun ömür arzulayıram!

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI CƏNAB RUUD LYUBERSƏ

Hörmətli cənab Lyubers!

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı və Azərbaycan Respublikası arasında mövcud olan səmərəli əməkdaşlığı yüksək qiymətləndirirəm. Bir milyondan artıq qaçqını olan Azərbaycan Respublikası üçün bu əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir.

Əmin olduğumu bildirmək istəyirəm ki, sizin fəaliyyətiniz Azərbaycan Respublikasının hökuməti və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı arasında mövcud əməkdaşlığın daha da inkişafına güclü zəmin yaradacaqdır.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və məsul vəzifənizin icrasında uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *13 noyabr 2000-ci il*

LİVAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RAFİQ ƏL-HƏRİRİYƏ

Hörmətli cənab Baş nazir!

Livan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Livan Respublikası arasında münasibətlərin ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf etməsi üçün göstərdiyimiz birgə səylər öz bəhrəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, məsul vəzifənizdə müvəffəqiyyətlər, dost Livan xalqına isə tərəqqi və çiçəklənmə arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *13 noyabr 2000-ci il*

ƏMƏKDAR MƏŞQÇİ KAZBEK TUAYEVƏ

Hörmətli Kazbek Tuayev!

Sizi – Azərbaycanın məşhur futbolçusunu, yeniyetmə və gənc futbolçuların hazırlanmasında böyük xidmətləri olan əməkdar məşqçini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60-cı illərdə keçmiş SSRİ-nin futbol tarixinə məşhur Azərbaycan futbolçusu kimi daxil olmuş, «Neftçi» komandasının şərəfini uzun illər ləyaqətlə qorumusunuz. 1966-cı ildə «Neftçi» komandasının bürünc medal qazanmasında sizin böyük əməyiniz olmuşdur. Təsadüfi deyildir ki, keçmiş SSRİ Futbol Federasiyası peşəkar ustalığınıza yüksək qiymət verərək sizi ilin ən yaxşı futbolçuları sırasına dəfələrlə daxil etmişdir.

Sevindirici haldır ki, siz bu gün də futbol üzrə ixtisaslaşdırılmış olimpiya ehtiyatı məktəbinin direktoru kimi səmərəli fəaliyyət göstərir, öz zəngin təcrübənizi yeniyetmə və gənc futbolçuların hazırlanması işinə həvəslə sərf edirsiniz. Əminəm ki, Azərbaycan futbolunun inkişaf etdirilməsi yolunda bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *13 noyabr 2000-ci il*

BRİTİŞ PETROLEUM–AMOKO ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

14 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Xoş gəlmisiniz, sizi xoş gördük. Necəsiniz?

D e v i d V u d v o r d (*Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti*): Cənab Prezident, çox sağ olun, yaxşıyıq.

H e y d ə r Ə l i y e v: Sən həmişə buradasan. Sən bizim vətəndaşımızsan.

Cənab Adams çox uzun müddət burada oldu. Ondan sonra da siz buradasınız. Siz bilirsiniz ki, mən Terri Adamsın xidmətlərini çox yüksək qiymətləndirirəm. Amma o gedəndə mən çox təəssüfləndim. Düşündüm ki, yeni adam necə olacaq? Amma görürəm, Terri Adams kimisiniz.

Azərbaycan prezidenti Heydər Əliyev qəbulda iştirak edən Bi-Pi/AMOKO şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Əndi İnglisə müraciət edərək dedi:

Siz İngiltərədən gəlmisiniz? Buyurun.

Ə n d i İ n g l i s: Cənab Prezident, çox sağ olun. Azərbaycanda olmağımdan çox şadam. Onu da nəzərinizə çatdırım ki, ilk dəfə ölkənizə 1993-cü ildə cənab Con Braunla birlikdə gəlmişdim. O zaman Bi-Pi Azərbaycanda fəaliyyətə yenicə başlamışdı. Həmin vaxtdan bu günədək əldə edilən nailiyyətlərdən çox şadıq. Ölkənizdə qazanılmış uğurlar barədə cənab Con Braunla da söhbətimiz olubdur. Sizə bildirim ki, Con Braun da şirkətin Azərbaycanda əldə etdiyi uğurlardan çox

məmnundur. O məndən xahiş etmişdir ki, onun şəxsi məktubunu Sizə çatdırım. Bu məktubda Con Braun Bakı–Tbilisi–Ceyhan layihəsinə dair əldə olunmuş sazişdən nə dərəcədə məmnun olduğunu bildirir. Məktubda cənab Con Braun, həmçinin «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilənin həyata keçirilməsinə Bi-Pi-nin böyük ümidlər bəslədiyini bildirir.

Bildiyiniz kimi, Xəzərdəki bu ərazi Bi-Pi üçün çox böyük əhəmiyyət kəsb edir. Gördüyünüz kimi, şirkətimiz Azərbaycanda çalışmaq, fəaliyyət göstərmək üçün ən bacarıqlı, təcrübəli nümayəndələrini buraya göndərmişdir. Mən çox şadam ki, Siz cənab Vudvordun fəaliyyətindən razısınız. Başqa sözlə desək, bizim şirkətin nöqteyi-nəzərindən baxdıqda, biz Azərbaycanda görülən işlərə, əldə olunan nailiyyətlərə görə çox şadıq.

İcazə versəydiniz Bi-Pi-nin Azərbaycandakı fəaliyyəti barədə təqdimatı cənab Vudvord edərdi. «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilənin həyata keçirilməsi sahəsində Bi-Pi-nin gördüyü işlər haqqında sənədləri Sizə təqdim edirik.

D e v i d V u d v o r d: Cənab Prezident, bilirik ki, vaxtınız bir qədər məhduddur. Ona görə də bu təqdimatla bağlı yalnız rəqəmləri oxuyacağam. Nəzərinizə çatdırım ki, «Azəri» yatağında hasilatın bu il 5 milyon tona çatdırılması realdır. Sizə məlum olduğu kimi, bu il Azərbaycan üçün proqnozlaşdırılmış gəlir 150 milyon dollara bərabər olacaqdır.

Cənab Prezident, bu gəlirin əksər hissəsi Supsa terminalı vasitəsilə, az bir hissəsi isə Şimal neft kəməri ilə ixrac olunmuş neftdən əldə edilir.

H e y d ə r Ə l i y e v: Rəqəmlərdən görünür.

D e v i d V u d v o r d: Cənab Prezident, gələn il üçün planlarımızda «Çıraq» yatağında hasilatı 15 faiz artırmaq nəzərdə tutulur.

H e y d ə r Ə l i y e v: Yəni hasilat 5 milyon 75 min ton olacaqdır?

D e v i d V u d v o r d: Dövlət Neft Şirkəti ilə danışıqlarımız və birgə işlərimiz nəticəsində gələn ilin fevral ayından başlayaraq «Çıraq» yatağından qaz hasilatını da artırmaq fikrindəyik.

H e y d ə r Ə l i y e v: İndi siz 1 milyard 800 milyon kubmetr qaz verirsiniz. Qaz hasilatını 2 milyard 400 milyon kubmetrə qaldırmaq istəyirsiniz.

D e v i d V u d v o r d: Təxminən 30 faiz artırmaq niyyətindəyik.

H e y d ə r Ə l i y e v: Doğrudur, amma son zamanlar orada bəzi nasazlıqlar olubdur, qaz vermirsiniz. Mən bundan çox narazıyam.

D e v i d V u d v o r d: Cənab Prezident, tamamilə düzgün buyurursunuz. Bunun əsas səbəbi platformada müəyyən əməliyyatların keçirilməsi ilə əlaqədar idi. Bu barədə Dövlət Neft Şirkətinin məlumatı vardır. İndi Sizə açıq şəkildə bildirməliyəm ki, bu əməliyyatlar tam başa çatmışdır. Platformada hasil olunan qazın maksimuma çatmasına nail olmuşuq.

H e y d ə r Ə l i y e v: Nə vaxt?

D e v i d V u d v o r d: Dünən axşamdan başlayaraq.

H e y d ə r Ə l i y e v: Mən başa düşürəm ki, platformada sizin müəyyən işləriniz, problemləriniz vardır. Amma siz bilirsiniz ki, indi, payız-qış dövründə qaz Azərbaycanın insanları üçün nə dərəcədə lazımdır. Siz orada hər hansı texniki məsələyə görə müəyyən müddət qaz verə bilmirsiniz və bir o qədər də narahat olmursunuz. Amma həmin qaz gəlməyəndə Azərbaycanda insanlar narazı olurlar. Narazılığı da mən qəbul etməliyəm. Ona görə də xahiş edirəm, çalışın ki, belə problemləriniz olmasın. Xüsusən indi, payız-qış vaxtında bu gərək tamamilə aradan qaldırılsın. Onsuz da səmt qazının bir hissəsini havaya buraxırıq və bu bizdə narahatlıq doğurur.

İctimaiyyətimiz də bilir ki, sizin hasil etdiyiniz qazın bir qismini biz sahilə gətirib istifadə edə bilmirik.

Bu, vaxtilə həm sizin, həm də bizim Dövlət Neft Şirkətinin buraxdığı səhv nəticəsində baş vermişdir. Doğrudur, mənə izah edirlər ki, siz də gözləmirdiniz ki, tezliklə oradan bu qədər neft və qaz çıxacaqdır. Bizim Dövlət Neft Şirkəti də belə izahat verir. Bunun özü də sizin işinizdəki çatışmazlıqdır. Siz gərək bunu düzgün müəyyən edəydiniz. Olan olub, keçən keçib. Mən bunları ona görə deyirəm ki, bundan sonra belə hallar təkrar olunmasın. Buyurun.

D e v i d V u d v o r d: Cənab Prezident, icazə versəydiniz, cənab Əndi İnglisin də toxunduğu Bakı–Tbilisi–Ceyhan boru kəməri haqqında Sizə qısaca məlumat verərdim. Biz çox şadıq ki, boru kəməri üzrə əsas mühəndis-texniki işlərə və bu sahədə investor olacaq şirkətlərlə danışıqlara başlanılmışdır. Biz Dövlət Neft Şirkəti ilə əməkdaşlıq şəraitində boru kəməri tikintisinin maliyyələşdirilməsi üçün əlavə investorlar arayacağıq. Eyni zamanda, biz bu kəmərin maliyyələşdirilməsi üçün müxtəlif banklar və beynəlxalq maliyyə qurumları ilə danışıqlar aparırıq. Hazırda layihə üzrə bu işlər görülür və layihənin həyata keçirilməsi üçün biz fəaliyyətimizi davam etdiririk.

H e y d ə r Ə l i y e v: Mən sizin məlumatınızdan çox məmnunam. Çünki bilirsiniz ki, neçə ildir biz Bakı–Tbilisi–Ceyhan layihəsinin peallaşması üçün çox səylər göstərmişik və zəhmət çəkmişik. Təbiidir ki, sizinlə birlikdə. Nəhayət, buna nail olmuşuq. İndi maliyyə məsələsini həll etmək və inşaat işlərinə başlamaq lazımdır. Ona görə də mən sizin bu barədəki planlarınızı bəyənirəm. Ancaq istəyirəm ki, bunlar real olsun və həyata keçirilsin. Başqa şirkətlərin də bu işə qoşulması məsələsi çox vacibdir. Mənə dedilər ki, siz bu işlə məşğulsunuz. Mən bunu da bəyənirəm və hesab edirəm ki, bu, mütləq olmalıdır.

D e v i d V u d v o r d: Cənab Prezident, təqdimatın sonrakı səhifəsində «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının tam miqyasda işlənilməsi göstərilmişdir və bildiyiniz kimi, biz artıq bu yataqların işlənilməsinin növbəti mərhələsinə başlamışıq. Bildiyiniz kimi, biz həmin yataqlardan 2004-cü ilin sonunda maksimum miqdarda neft hasil etməyi nəzərdə tuturuq. Sizə deyildiyi kimi, 2008-ci ildə bu yataqlardan ildə 40 milyon ton neft istehsal olunacaqdır.

Cənab Prezident, növbəti səhifəyə nəzər salsanız, birinci mərhələnin konsensiyası ilə tanış ola bilərsiniz. Biz artıq tikinti xidmətləri və işləri üçün tenderdə iştirak etmək məqsədi ilə müxtəlif şirkətləri dəvət etmişik.

H e y d ə r Ə l i y e v: Birinci mərhələ dedikdə, «Azəri» yatağını nəzərdə tutursunuz?

D e v i d V u d v o r d: Tamamilə doğrudur. Bu, «Azəri» strukturunun mərkəzində yerləşir.

Cənab Prezident, birinci mərhələnin uğurla həyata keçirilməsi üçün orta hesabla məsrəflər terminalın genişləndirilməsi və sairədən ötrü xərclər 2,2 milyard dollar olacaqdır.

H e y d ə r Ə l i y e v: Yəni «Azəri»də platformanın tikilməsi də daxil olmaqla?

D e v i d V u d v o r d: Cənab Prezident, bəli, tamamilə doğrudur. Orta məsrəflər dedikdə, mən buradakı terminalın genişləndirilməsini, platforma üzərindəki müxtəlif prosesləri həyata keçirən cihazları, qazma qurğularını, yaşayış ərazilərini, quruya qaz və neft ixrac edəcək boru kəmərlərini nəzərdə tuturam. Bundan əlavə, 8 quyunun qazılmasına bir milyard dollar vəsait sərf olunacaqdır.

H e y d ə r Ə l i y e v: Ancaq mən xahiş edirəm ki, oraya boru xətləri çəkərkən gələcəyi də nəzərə alasınız, gözlədiyinizdən artıq qaz hasil olduqda, hamısını sahilə verə biləsiniz. «Çıraq» yatağında yol verdiyiniz səhvdən nəticə çıxarmaq lazımdır. Çalışın ki, o səhv təkrar olunmasın.

D e v i d V u d v o r d: Cənab Prezident, Sizi əmin edirəm ki, «Çıraq»dakı səhvimiz bizə ibrət dərsi olmuşdur. Bundan sonrakı platformaların dizaynında və digər xüsusiyyətlərində hər şey dəqiq hesablanmışdır.

Platformanın tikintisinə 2001-ci ilin avqust ayında başlanmalıdır. Bizim hesablamalarımıza görə, ümumi məsrəflərin təxminən 35–45 faizi məhz buna xərclənəcəkdir.

H e y d ə r Ə l i y e v: Yəni həmin 2 milyard 200 milyon dolların bu qədər hissəsi?

D e v i d V u d v o r d: Bəli. Cənab Prezident, icazə versəydiniz, mən sözümü burada tamamlayardım.

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN BƏZİLƏRİNİN KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

14 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Mən sizin hamınızı Azərbaycanda salamlayıram və çox şadam ki, siz müstəqil Azərbaycanın ilk Konstitusiyasının beşinci ildönümü ilə əlaqədar bizim Konstitusiya Məhkəməsinin keçirdiyi konfransda iştirak etmisiniz. Bu tədbir bizim hamımız üçün eyni dərəcədə əhəmiyyətlidir, ona görə ki, biz hamımız müstəqil dövlətlər olmuşuq. Kimsə Konstitusiyanı tez, kimsə bir qədər gec qəbul edibdir. Əvvəlki Konstitusiya bizə seçkilər, referendumlar keçirməyə imkan vermirdi.

Müstəqillik əldə etdikdən sonra biz ağır bir dövr yaşadıq. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar, hələ 1988-ci ildən başlayaraq, burada vəziyyət mürəkkəb idi. Beş il öncə biz Konstitusiya qəbul etdik, Konstitusiya Məhkəməsinə malikik və bu məhkəmə konfrans keçirmək təşəbbüsü göstərdi. Şadam ki, siz bizim Konstitusiya Məhkəməsinin dəvətini qəbul etmisiniz. Bu həmişə təcrübə mübadiləsi, bir-birini görmək, daha yaxından tanış olmaq və təbii ki, ölkəni, qonşu dövlətdə nə kimi hadisələr baş verdiyini görmək üçün imkandır. Mən sizi salamlayıram. Marat Viktoroviçin gəlişi bizə xüsusi sevinc bəxş edir, çünki o həmyerlimizdir və öz doğma torpağına gəlmişdir.

M a r a t B a q l a y (*Rusiya Konstitusiya Məhkəməsinin sədri*): Dünən mən öz həyətimizə getdim, keçmiş mənzilimizin qapısını açdılar və qılınc bağışladılar.

H e y d ə r Ə l i y e v: Çox xoşdur ki, siz bu cür hisslər keçirmisiniz.

M a r a t B a q l a y: İcazə verin, bizimlə görüşməyə vaxt tapdığınıza görə Sizə ürəkdən təşəkkürümü bildirim. Konstitusiyanızın ilk yubileyi münasibətilə Sizə öz təbriklərimizi yetirmək istəyirik. Bu, birinci yubileydir, sonra ikinci və üçüncüsü olacaq, Konstitusiya uzun müddət yaşayacaqdır. Çünki o, Azərbaycan xalqının maraqlarına uyğundur və biz hamımız buraya dostumuz Xanların dəvəti ilə böyük sevinclə gəlmişik.

Şükürlər olsun ki, Konstitusiya məhkəmələri arasında münasibətlər çox yaxşı inkişaf edir. Zənnimcə, mənim bu fikrimlə həmkarlarımın hamısı razılaşar. Biz tez-tez görüşürük və hər dəfə də söhbət etməyə yaxşı mövzumuz olur. Biz ümumi problemlərimizi məzmunlu şəkildə, dərindən müzakirə edirik. Konstitusiyalarımız sanki müxtəlif olsa da, Konstitusiyanın mətnindən irəli gələn, Konstitusiya Məhkəmələrinin fəaliyyətindən irəli gələn problemlərimiz ümumidir. Doğru buyurdunuz ki, bütün ölkələrdə Konstitusiya Məhkəmələri yaradılıb və onlar hüquqi dövlət quruculuğu üçün çox mühüm vasitədir.

Bu gün biz çox məzmunlu diskussiya keçirdik, hamımız çıxış etdik. Sizin İcra Aparatının işçiləri də çıxış etdilər və çoxları gördü ki, Sizin hüquqşünasların səriştəsi, səviyyəsi çox yüksəkdir. Bu o deməkdir ki, Konstitusiya işləri yaxşı əllərdədir. Hüquqşünaslar faydalı çox işlər görürlər. Bütün hüquqşünaslar əmindirlər ki, Sizin Konstitusiya yaşayacaqdır, biz hamımız isə bu Konstitusiyanı Sizin adınızla bağlayırıq, ona görə ki, Siz ölkədə möhkəm Konstitusiya qayda-qanunu, möhkəm hakimiyyət yaratmaq və eyni zamanda insanların hüquqlarının, mənafelərinin qorunmasını diqqət mərkə

zində saxlamaq, sərbəst inkişaf üçün, vətəndaşların öz istedad və bacarıqlarını nümayiş etdirməsi üçün şərait yaratmaqdan ötrü çox işlər görmüsünüz. Biz bilirik ki, Siz bu yol ilə çox qətiyyətlə gedirsiniz.

Bu gün biz sizin İcra Aparatı nümayəndələrinin həm icra hakimiyyəti, həm də qanunvericilik hakimiyyəti barədə, yəni hər hansı Konstitusiyanın məğzi barədə çıxışlarını dinlədik və yəqin etdik ki, ölkədə tərəqqini təmin edən Konstitusiya qayda-qanunu mövcuddur.

Mən burada öz gözlərimlə gördüklərimdən, Bakıda nə kimi əyani, aşkar tərəqqi baş verdiyindən danışmayacağam. Mən bütün bunlara ürəkdən sevinirəm. Mən Sizə böyük uğurlar, cansağlığı arzulamaq, ən xoş və gözəl diləklərimi yetirmək istərdim. Bütün bunları Konstitusiya Məhkəməsinə də arzulayıram və Sizi əmin edirəm ki, Rusiyaya və bizim Konstitusiya Məhkəmələrinə aid nə varsa hamısı, eləcə də dostluğumuz, əməkdaşlığımız, onsuz da yaxşı olan şəxsi əlaqələrimiz bundan sonra da möhkəmlənəcəkdir. Hesab edirəm ki, bu, Azərbaycanın və Rusiyanın xeyrinədir. Sağ olun.

H e y d ə r Ə l i y e v: Sağ olun, Marat Viktoroviç.

A v t a n d i l D e m e t r a ş v i l i (*Gürcüstan Konstitusiya Məhkəməsinin sədri)*: Azərbaycanın həyatındakı çox əlamətdar hadisələr münasibətilə mən Sizi gürcü xalqı adından, Gürcüstan prezidenti adından, Konstitusiya Məhkəməsi adından təbrik etmək istərdim. Mən bu hadisələri sadalaya bilərəm, ancaq onlardan yalnız bir neçəsini qeyd edəcəyəm: Avropa Şurasına faktiki olaraq qəbul edilmiş Azərbaycanın demokratik quruculuğunun tanınması, Konstitusiyanın – əsas qanunun yubileyi və nəhayət, parlament seçkilərinin uğurla keçirilməsi. Biz gördük ki, bu seçkilərdə xalq növbəti dəfə öz seçimini edərək, xalqın rifahı, dövlətin təhlükəsizliyi uğrunda mübarizə aparan partiyaya səs verdi. Azərbaycanda müşahidə edilən demokratik proseslərin irəliləyişini görməmək üçün

yəqin ki, gərək kor olasan. Bu proseslər, bu irəliləyiş daha çox Sizin coşğun çoxsahəli fəaliyyətinizlə bağlıdır.

Avqustun axırlarında biz də Gürcüstanda Konstitusiyanın beşillik yubileyini qeyd etdik. Kifayət qədər sadə qeyd etdik. Çünki görünməmiş ekoloji fəlakət – quraqlıq iqtisadi vəziyyətimizi ağırlaşdırmışdı. Biz yubileyi təmtəraqsız qeyd etdik. Burada konfrans gözəl təşkil olunmuşdur, bu isə ilk növbədə Konstitusiya məhkəməsinin sədri Xanlar Hacıyevin xidmətidir. Biz gələcəyə inamla baxırıq və ümidvarıq ki, Konstitusiyanın demokratik potensialı tamamilə reallaşdırılacaqdır. Bizi qəbul etməyə vaxt tapdığınıza görə Sizə təşəkkürümü bildirirəm.

H e y d ə r Ə l i y e v: Təbriklərə görə də və dostum Eduard Şevardnadzedən yetirdiyiniz salama görə də sizə təşəkkür edirəm. Siz Gürcüstanla Azərbaycan arasındakı münasibətlərin necə olduğunu bilirsiniz, əgər MDB-də hamının arasında belə münasibətlər olsaydı, yaxşı olardı. Bu dostluğun da öz kökləri var. Lakin bununla belə, bu dostluq gürcü xalqının da, Azərbaycan xalqının da səyləri, təbii ki, müstəqillik şəraitində Gürcüstan və Azərbaycan dövlətləri başçılarının səyləri sayəsində müstəqillik şəraitində yenidən formalaşır. Mən bunu yüksək qiymətləndirirəm. Yeri gəlmişkən, bunu xalqımız da yüksək qiymətləndirir və biz, şübhəsiz, hesab edirik ki, yaxın qonşular, dostlar kimi həmişə birlikdə olmalıyıq və birlikdə olacağıq. Sağ olun.

N i k o l a y K i s e y e v (*Moldova Respublikası Konstitusiya Məhkəməsinin hakimi*): Moldovanın xoş arzularını qəbul edin. Biz buraya gələrkən respublika rəhbərliyinin və bütün moldov xalqının xoş arzularını gətirdik.

Dekabrın 1-də bizdə prezident, parlament seçkiləri keçiriləcəkdir. Problemlər var, lakin biz hər şeyin yaxşı olacağına ümid bəsləyirik.

Sizi əmin etmək istəyirəm ki, Siz bizim respublikamızda çox hörmətli adamsınız. Həmçinin əlavə etmək istəyirəm ki, burada

oturanlardan dördü bu yaxınlarda Brüsseldə olubdur, bizi Avropa Şurası Konstitusiya Məhkəmələri konfransının daimi üzvlüyünə qəbul edirdilər. İndi biz Avropa standartlarına uyğun olmalıyıq. Rusiya çoxdan konfransın üzvüdür, biz isə bu yaxınlarda daimi üzvlər olmuşuq. Əksinə, Rusiya bizə azarkeşlik edirdi. Mən Sizin respublikanızda ilk dəfəyəm, çox istəyirdim ki, buraya gəlim. Səfərdən çox razıyam, konfransın təşkilindən çox razıyam. Dəvətə görə cənab Hacıyevə minnətdaram. Sizi əmin etmək istəyirəm ki, onun simasında Siz yaxşı sədrə, yaxşı insana maliksiniz. Sizə cansağlığı arzulayıram.

H e y d ə r Ə l i y e v: Bilirsinizmi, Moldova ilə əlaqələrimin bütün tarixini mən də böyük səmimiyyətlə xatırlayıram. Respublikaya rəhbərlik etdiyim 30 ildən artıq bir dövrdə, Moldova ilə Azərbaycan arasında məsafənin böyük olmasına baxmayaraq, biz çox tez-tez ünsiyyətdə olmuşuq. Biz, adətən, qonşularla – Gürcüstanla, Ermənistanla yarışırdıq. Ancaq mən məsələ qaldırdım və biz Moldova ilə də yarışmaq barədə razılığa gəldik. Nəyə görə? Ona görə ki, siz çoxlu üzüm istehsal edirdiniz, biz isə burada üzümçülüyü inkişaf etdirirdik. Şübhəsiz ki, Gürcüstan qədim üzümçülük mərkəzidir. Sizdə gözəl palmet bağları var. Mən gəlib onları gördüm və Azərbaycanda da bu cür bağlar salınmasını qərara aldım – yeri gəlmişkən, bizim şimal bölgəmizdə bu bağlar bar verir – ona görə də biz yarışır, bir-birimizə qonaq gedirdik. Yadımdadır, bir dəfə rayon partiya komitələrinin birinci katiblərini, nazirləri və başqalarını iki təyyarədə Moldovaya göndərdik ki, hər yeri və hər şeyi gedib görsünlər.

Lakin bizim dostluq, səmimi münasibətlərimiz müstəqillik illərində də davam edir. Petru Luçinski ilə münasibətlərimizin 10 ildən artıq tarixi var. İndi MDB-də və başqa təşkilatlarda birlikdə oluruq, mövqelərimiz bir-birinə çox yaxındır. Ona görə də şadam ki, buraya, Azərbaycana ilk dəfə gəlmisiniz. Mən isə Moldovada dəfələrlə olmuşam. Respublikanıza və

xalqınıza tərəqqi, uğurlar, xüsusən qarşınızda duran məsələlərin həllində uğurlar arzulayıram. Əlbəttə, idarəçiliyin hər hansı bir formasını seçmək xalqın öz iradəsidir. Əgər Moldovada belə qərara gəliblərsə, deməli, bu sizin işinizdir. Hesab edirəm ki, idarəçiliyin prezident forması bizim üçün, Gürcüstan, Rusiya üçün də uzun müddət gərək olacaqdır. Mənim salamımı, ən xoş arzularımı xalqınıza yetirin. Sizin gözəl xalqınız, gözəl adamlarınız var.

V l a d i m i r Ş a p o v a l o v (*Ukrayna Konstitusiya Məhkəməsinin hakimi*): Mən buraya Ukraynadan gəlmişəm. Mənim səfərimi əsaslandıran iki məqam var. Əvvəla, Azərbaycanın Konstitusiyası Ukraynanın Konstitusiyasından «yaşlıdır». Azərbaycan öz Konstitusiyasının beşilliyini keçirir, Ukrayna isə bunu gələn il qeyd edəcəkdir. Ona görə də belə konfransın təşkili baxımından da, yeni Konstitusiyanın həyata keçirilməsi baxımından da biz Sizdən çox şey öyrənə bilərik. Lakin ikinci bir məqam da var ki, onun barəsində danışmağa dəyər.

Məsələ bundadır ki, bizim dövlətimizdə Konstitusiya prosesi davam edir. Dövlət mexanizmlərinin Konstitusiyada təsbit olunması formalarının axtarışı hələ tamamilə başa çatmayıbdır. Ümumukrayna referendumu keçirilib və dövlət hakimiyyətinin, parlamentin strukturlarını dəyişdirmək və bəzi digər məsələləri həll etmək nəzərdə tutulur. Buna görə də konfransda nəinki Konstitusiya Məhkəməsi işçilərinin, həm də icra hakimiyyəti nümayəndələrinin haqqında söz açdıqları təcrübə ilə tanışlıq biz ukraynalılar üçün, şübhəsiz, çox faydalıdır. Xüsusən də ona görə ki, bizdə Ukrayna prezidenti yanında komissiya yaradılıb və o, xalqın referendumda dəstəklədiyi təkliflərin həyata keçirilməsi üçün bir sıra qanun layihələri işləyib hazırlamalıdır. Təkliflər dedikdə, söhbət ikipalatalı parlament yaradılmasından, parlament üzvlərinin sayının azaldılmasından, deputat toxunulmazlığının həddinin dəqiqləşdirilməsindən və bəzi digər məsələlərdən söhbət gedir.

Azərbaycanın Konstitusiya həyatının nəzəriyyə və praktikasının yaratdığı nümunələr, şübhəsiz, faydalı olacaqdır. Ona görə də mənim rolum təkcə görməkdən deyil, həm də eşitməkdən və sonra bütün bunları Ukraynada əlaqədar şəxslərə söyləməkdən ibarətdir.

Mən dəvətə görə, gözəl görüşə görə çox minnətdaram və şəxsən Sizə ən xoş arzularımı bildirmək istərdim.

H e y d ə r Ə l i y e v: Ukrayna ilə bizim çox yaxşı, olduqca yaxşı münasibətlərimiz var. Siz bunu bilirsiniz. Əslində, bizim bütün ölkələrlə yaxşı münasibətlərimiz var. Lakin bəzi ölkələrlə geniş əlaqələrə malikik. Sizin prezidentiniz Leonid Daniloviç Kuçma layiqli prezidentdir və şadam ki, mənim dostumdur. Əlbəttə, Ukrayna Avropanın böyük dövlətlərindən biridir. Mən sovet dövründə də, müstəqillik illərində də Ukraynada dəfələrlə olmuşam. Mənim rəsmi səfərim də olub, qeyri-rəsmi səfərlərim də olub, mən prezidentin andiçmə mərasiminə də gəlmişdim, biz Yaltada da görüşmüşük. Bir sözlə, əlaqələr çox sıxdır, biz bir-birimizə kömək edirik. Məsələn, ötən il məhsul yığımı zamanı Ukraynada yanacaqla bağlı vəziyyət çox çətin idi. Biz dərhal hay verdik və nə lazımdırsa etdik. Yeri gəlmişkən, xalq bunu qiymətləndirdi. Sizdə parlamentlə prezident arasında gedən proseslər mənə məlumdur. Təəssüf ki, çox böyük imkanlara malik ölkədə münasibətləri aydınlaşdırmaqla məşğul olurlar. Hesab edirəm ki, xalq müdrikdir və Ukrayna kadrlarının səviyyəsi çox yüksəkdir. Demokratiya, bazar iqtisadiyyatı bərqərar olmuşdur. Ona görə də bu fikirdəyəm ki, siz bütün prosesləri uğurla dəf edəcəksiniz və Ukrayna öz potensialından daha güclü şəkildə istifadə etmək imkanına malik olacaqdır. Mən sizin xalqınıza firavanlıq, prezidentiniz Leonid Daniloviçə isə uğurlar arzulayıram.

S a l m a n H a c ı m ə h ə m m ə d o v (*Dağıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri*): Çox hörmətli Heydər Əliyeviç!

Biz – mən və dostum Dağıstanın və Kabarda-Balkarın Konstitusiya Məhkəməsini təmsil edirik. Bizə belə diqqət göstərdiyinizə görə biz də Sizə çox minnətdarıq. Biz həm də Xanlar müəllimə minnətdarıq, çünki o bizi MDB ölkələri ilə bir tutdu və bu konfransa həmin ölkələr səviyyəsində dəvət etdi. Konstitusiyanızın beş illiyi münasibətilə Sizi təbrik edirik. Əvvəlki parlamentlə müqayisədə daha mütərəqqi tərkibə malik olan Milli Məclisi də təbrik etmək istəyirik. Sizin öz ölkənizi o hərc-mərclikdən necə çəkib çıxardığınızı Dağıstanda çox yaxşı bilir və qiymətləndirirlər. Dağıstanlılar respublikanızın məruz qaldığı uğursuzluqlara görə həyəcan keçirirdilər. Dağıstanlılar Azərbaycanın hər bir uğuruna sevinirlər. Biz Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uzun ömür arzulayırıq. Sağ olun.

H e y d ə r Ə l i y e v: Mən qonşularımızla dostluq əlaqələri barədə bir daha danışmaq istərdim. Dağıstan bir növ MDB-nin üzvüdür. Muxtar Respublika kimi Rusiya Federasiyasının tərkibinə daxildir. Lakin Dağıstan həmişə, sovet dövründə də xüsusi mövqe tutmuşdur. Xatirimdədir, biz yubileylər, Azərbaycanın 50 illik yubileyini keçirirdik, bütün müttəfiq respublikaların rəhbərlərini və ayrıca olaraq Dağıstanın rəhbərliyini dəvət etmişdik. Hətta bəziləri belə deyirdilər ki, bunu necə başa düşmək olar. Bu, tamam başqa məsələdir, məgər buna belə formal yanaşmaq olarmı? Axı xalqlarımız bir-birinə o qədər yaxındırlar, burada Dağıstan xalqlarının nə qədər nümayəndələri var. Dağıstanda nə qədər azərbaycanlılar var, nə qədər qohumluq əlaqələri var. Bilirsinizmi, keçmişdə indiki sərhədlər olmayıb, hamı birlikdə yaşayırdı. Buna görə də mən sizə təşəkkür edirəm və həqiqətən bilirəm ki, Dağıstanda uşaqdan tutmuş böyüyədək hamı Azərbaycanda baş verən hadisələri həmişə izləyir və uğurlarımıza həmişə sevinirdilər. Mən də şadam ki, Dağıstanda vəziyyət sabitləşibdir. Biz bir vaxtlar narahat idik ki, orada kimlərsə sizin respublikaya qəsd etmək istəyirdi,

xüsusən də Çeçenistan hadisələri ilə əlaqədar və sair. Siz bütün bunları dəf etdiniz, indi Dağıstanda vəziyyət, zənnimcə, elədir ki, getdikcə daha çox inkişaf etmək üçün imkan var. Adamlarımız isə taleyin hökmü ilə kimin hansı ölkəyə düşməsi barədə düşünməyərək, sərbəst ünsiyyətdə olurlar. Yol açıqdır, sərhədçilər heç kimə sərbəst gedib-gəlməkdə o qədər də mane olmurlar. Məsələn, bizim Qusar rayonunda yaşayan adamların qohumlarının yarısı Məhərrəmkənddə və başqa yerlərdə yaşayır. Bunu Dağıstanın Axtı rayonu barəsində də demək olar. Ona görə də mən çox şadam ki, siz gəlmisiniz və Xanlar müəllim məhz sizi və Kabarda-Balkarı buraya dəvət etməkdə çox düzgün iş görmüşdür. Sizin xalqınıza xoşbəxtlik, firavanlıq, uğurlar və iqtisadi inkişaf arzulayıram. Məhəmmədəli Məhəmmədov isə mənim salamımı və xoş arzularımı yetirin. O bizim Konstitusiya günü və seçkilərlə əlaqədar mənə təbrik göndərmişdi. Mən də cavab yolladım. Ona məndən bir daha salam yetirin.

A b d u l l a G e l y i x o v (*Kabarda-Balkar Respublikası Konstitusiya Məhkəməsinin sədri*): Hörmətli Heydər Əliyeviç, Kabarda–Balkar xalqı adından bildirirəm ki, biz müstəqil Azərbaycanın atdığı iri addımlara heyranıq. Azərbaycan xalqının rəhbəri kimi şəxsən Sizə uzun illər səmərəli fəaliyyət arzulamaq istərdim. Qoy Allah bu işdə Sizə yar olsun!

H e y d ə r Ə l i y e v: Sağ olun. Kabarda–Balkar çox maraqlı respublikadır. Keçmişdə biz hamımız oraya istirahətə gedərdik. Orada yaxşı qış və yay kurortları var. Yəqin turistlər indi də gəlirlər. Amma bizim imkanımız hələlik məhduddur. Mən orada olmuşam, sizin respublikanız maraqlı respublikadır. Sizin prezidentiniz Valeri Məhəmmədoviç də çox yaxşı, xeyirxah insandır. O mənə at bağışlamışdır. Mən ona minnətdaram. Sağ olsun. Məndən ona salam yetirin. Şimali Qafqazda vəziyyətin belə mürəkkəb olmasına baxmayaraq, siz sabitliyi qoruyub saxlamısınız. Respublikanız böyükdür,

yaxşı məlumdur ki, sizdə də əhalinin tərkibi yekcins deyildir. Buna görə də təbiidir ki, məharətli rəhbərlik və şübhəsiz, ənənələr sizə öz respublikanızda vəziyyəti sabit saxlamağa imkan verir. Sizə uğurlar arzulayıram.

Şimali Qafqaz və Azərbaycan, təbii ki, Gürcüstan da bir-biri ilə həmsərhəddir. Ona görə də biz Qafqaz deyəndə, hamımız özümüzü oraya aid edirik. Bir vaxtlar bu regionu Şimali Qafqaza, Zaqafqaziyaya – indi o, Cənubi Qafqaz adlanır – ayırmışdılar. Bir sözlə, o, bütöv bir regiondur və tarixən bir çox yüzilliklər ərzində biz bir-birimizlə bağlı olmuşuq. Bu əlaqələr həmişə yaxşılıq, xeyir gətirmişdir. İndi isə biz keçmişin təcrübəsindən istifadə etmək fürsətinə və təbii ki, müasir imkanlara malikik. Şadam ki, siz Azərbaycanda baş verən hadisələri qiymətləndirirsiniz. Doğrudur, bəzi digər MDB ölkələri ilə müqayisədə biz Konstitusiya Məhkəməsini bir qədər sonra yaratmışıq. Lakin belə qısa müddətdə bu məhkəmə kifayət qədər uğurla işləmişdir, özünü göstərmişdir və Azərbaycanda demokratiyanın çox mühüm vasitəsidir. Bu məhkəmənin sədrinə gəldikdə isə, onu – o, əvvəllər Ali Məhkəmənin sədri idi – Ali Məhkəmədən ayırmağa və Konstitusiya Məhkəməsinin sədri təyin etməyə heyfsilənirdim. Amma sonra düşündük və qərara gəldik ki, Konstitusiya Məhkəməsi ən yüksək instansiyadır. Biz öz aramızda qarşılıqlı anlaşma tapdıq.

Şadam ki, o belə bir qısa müddətdə nəinki MDB ölkələri ilə, həm də bir çox başqa ölkələrlə əlaqələr yaratmışdır. Şadam ki, siz bütün bunları görürsünüz. Mən də razıyam ki, bizim Konstitusiya Məhkəməsi yüksək səviyyədədir. Konstitusiya Məhkəməsinin sədri həqiqətən böyük nüfuza malikdir.

ABŞ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ GENERAL RİÇARD MAYERZ VƏ MÜDAFİƏ NAZİRİNİN MÜAVİNİ VALER SLOKOMBE BAŞDA OLMAQLA AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

14 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar!

Amerika Birləşmiş Ştatlarından Müdafiə Nazirliyinin və Baş Qərargahının belə yüksək səviyyədə nümayəndə heyətinin Azərbaycana gəlməsindən çox məmnunam. Bu bizim ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə, müxtəlif istiqamətlərdə inkişaf etməsini göstərir.

Amerika Birləşmiş Ştatlarından Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Müdafiə nazirinin müavini və sizinlə birlikdə belə mötəbər nümayəndə heyəti Azərbaycana ilk dəfədir ki, səfər edibdir. Mən sizi salamlayıram. Buyurun.

R i ç a r d M a y e r z: Cənab Prezident Əliyev, bu gün, bu axşam Sizinlə görüşmək üçün bizə verdiyiniz imkana görə təşəkkürümü bildirirəm. Bizə görüş üçün ayırdığınız vaxta görə də minnətdarıq.

Bizə də söyləyiblər ki, bu, indiyə qədər Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyindən Azərbaycana gələn nümayəndə heyətləri arasında ən yüksək səviyyəlisidir. Hesab edirəm ki, bizim bu səfərimizə ölkəmizin Azərbaycanın suverenliyinə,

azadlığına sadiqliyinin əlaməti kimi baxmaq lazımdır. Biz sizinlə əlavə danışıqlar, müzakirələr aparmaq niyyətindəyik. Sağ olun.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Mən də siz dediyiniz fikirdəyəm. Sizin bu səfəriniz Azərbaycanın müstəqilliyinin və suverenliyinin qorunması, möhkəmlənməsi sahəsində əhəmiyyətli bir səfərdir. Təbiidir ki, bu barədə fikir mübadiləsi aparmağa ehtiyac vardır.

AVSTRALİYANIN SİDNEY ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ XI YAY PARALİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ ƏLİL İDMANÇILARIMIZLA GÖRÜŞDƏ NİTQ

Prezident sarayı

15 noyabr 2000-ci il

Əziz idmançılar!
Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!

Azərbaycan idmançıları bu il misli görünməmiş nailiyyətlər, qələbələr əldə etmişlər. Sidney yay olimpiya oyunlarında ilk dəfə olaraq Azərbaycan idmançıları xalqımızı, millətimizi, ölkəmizi böyük nailiyyətlərlə sevindirmişlər, ölkəmizə şərəf gətirmişlər. Biz bunları layiqincə qeyd etdik. Ancaq elə bu gün də cəmiyyətimiz idmançıların Sidney olimpiya oyunlarında əldə etdiyi nailiyyətlərin və təbiidir ki, Azərbaycanın şan-şöhrətinin qaldırılmasının təəssüratı altında yaşayır.

Azərbaycan ilk dəfə belə nailiyyət əldə etmiş və bu, birinci növbədə Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, azadlığının bəhrəsi, nəticəsidir. Eyni zamanda son illər Azərbaycanda idmanın inkişafının nəticəsidir. Təbiidir ki, idmanın inkişafı üçün Azərbaycanda həm idmana qayğı və diqqətin artması, həm də idmanla məşğul olmaq üçün idmançılara şərait yaradılması lazımdır.

Biz burada qeyd etmişik və bu gün bir daha qeyd edirəm. Azərbaycan Milli Olimpiya Komitəsinin və Azərbaycan Gənclər və İdman Nazirliyinin də böyük xidmətləri

olmuşdur. Biz qələbə qazanmış idmançılarımızı və ümumiyyətlə, olimpiya oyunlarında iştirak edən idmançılarımızı mükafatlandırdıq. İndi bizə yeni sevinc gətirən odur ki, Sidneydə keçirilən paralimpiya oyunlarında Azərbaycan idmançılarının bir qrupu da iştirak edibdir. Bunlar bizim övladlarımızdır, Azərbaycanın gəncləridir, idmançılarıdır. Ancaq bunlar başqa oyunlarda iştirak edirlər. Çünki bunlar fiziki cəhətdən qüsurlu olan adamlardır. Bizim bu idmançılarımız o böyük idmançılar dəstəsindən heç də geri qalmayıblar. Bu da çox sevindirici haldır. Vətənə nailiyyətlərlə dönüblər. Qızıl, gümüş medal alıblar, bir neçəsi 10-cu yerə qədər yer tutub və komandamız iştirak edən 125 ölkə arasında 47-ci yerə çıxmışdır.

Xatirinizdədir ki, dörd il bundan öncə Atlanta oyunlarında da bizim bu qrupa mənsub olan idmançılarımız iştirak etmişlər. Ancaq onda onlar çox az nailiyyətlər əldə etmişdilər. Demək, ötən dörd ildə Azərbaycanda idman kütləvi olubdur. Ötən dörd ildə idman Azərbaycanda bütün gəncləri özünə cəlb edə bilib və gənclərdə idmana həvəs artıbdır. Ona görə də indi bizim belə gənclərimiz də, Atlanta oyunlarından fərqli olaraq, Sidney oyunlarında qələbələr qazanmışlar.

Bilirsiniz ki, mən sərəncam vermişəm. Qələbə qazanmış idmançılarımızı mükafatlandırmışam və bu gün də biz onlarla görüşə gəlmişik.

YEKUN NİTQİ

Əziz idmançılar!

Mən sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Ümumiyyətlə, idman hər bir insan üçün lazımdır. Amma təəssüflər olsun ki, hər insan idmana qoşula bilmir. İdmana daha çox gənclər qoşulurlar. Burada deyildiyi kimi, son illər Azərbaycanda idman sürətlə inkişaf edir.

Fiziki cəhətdən çatışmazlığı, qüsuru olan insanların idmanla məşğul olması və idman yarışlarında belə yüksək nailiyyətlər əldə etməsi çox təqdirəlayiq, sevindirici bir haldır. Bu, bir tərəfdən, sizin nə qədər iradəli olduğunuzu, digər tərəfdən, fiziki çatışmazlığınıza baxmayaraq, həm öz səhhətinizi daha da möhkəmləndirmək, həm də cəmiyyətdə öz fəaliyyətinizi göstərmək üçün nə qədər əzmkar olduğunuzu göstərir. Bu, yüksək qiymətə layiqdir. Hesab edirəm ki, biz sizin bu fəaliyyətinizi yüksək qiymətləndirməliyik.

Həqiqətən, Sidney yay olimpiadasının həm əsas oyunlarında, həm də paralimpiya oyunlarında Azərbaycan irəli getmişdir. Mən dedim ki, bu bizim xalqımızın, millətimizin, dövlət müstəqilliyimizin və bu işlə məşğul olan təşkilatların böyük nailiyyətidir. Amma eyni zamanda, bu hər bir şəxsin, həm əsas olimpiya oyunlarında iştirak edib qızıl və bürünc medallar qazanmış, çox dəyərli yerlər tutmuş hər bir idmançının nailiyyətidir, xidmətidir. Eləcə də bu sizin hər birinizin şəxsi nailiyyətinizdir.

Təəccüblənmək olar ki, insan bəzən bir az xəstə, yaxud da bir çatışmazlığı olanda onda bədbinlik əmələ gəlir, özünü ələ ala bilmir. Amma siz müəyyən fiziki çatışmazlığınızı öz əzm-karlığınızla, iradənizlə və bacarığınızla aradan qaldırmısınız. Elə buradan Sidneyə getməyin özü də bir problemdir. O yarışlarda iştirak etmək, onun bütün əziyyətini çəkmək və yüksək nəticələr əldə etmək, Azərbaycanın bayrağını qaldırmaq, ölkəmizin himnini orada çaldırmaq, təbiidir ki, sizin hər birinizin, Azərbaycan xalqının, dövlətinin nailiyyətidir.

Siz və sizin kimi insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Siz cəmiyyətin həyatında, deyə bilərəm ki, ictimai həyatda fəal iştirak edən insanlarsınız. Ona görə də mən bugünkü görüşü çox qiymətli hesab edirəm.

Burada xatırladınız, mən də unutmamışam ki, biz avqust ayında Gənclik kompleksində görüşərkən sizə öz arzularımı bildirdim.

Arzu etmək asandır, ancaq onu yerinə yetirmək o qədər də asan deyildir. O arzular təkcə mənim arzularım deyildi. Mən bütün xalqımızın, millətimizin, Azərbaycan dövlətinin arzularını bildirdim.

Mənim arzularımı bizim həm böyük yığma komandamız əsas olimpiya oyunlarında doğrultdu, eyni zamanda, siz də doğrultdunuz. Bunlar əsas verir deyək ki, Azərbaycanda olimpiya hərəkatı sürətlə inkişaf edir. Bu, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında çox önəmli bir hadisədir. Dövlətimizin vəzifəsi və borcu buna şərait yaratmaqdır. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, fiziki cəhətdən qüsurlu insanlarla məşğul olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu işlərlə bilavasitə məşğuldurlar.

Ölkəmizin olimpiyaçılarının, o cümlədən paralimpiyaçıların keçdiyi bu imtahan onu göstərir ki, Azərbaycan gəncləri, idmançıları böyük potensiala malikdirlər. Gərək hamımız bir yerdə bu potensialdan səmərəli istifadə edək. Bu, birinci növbədə, ona görə lazımdır ki, sizin nümunənizdə Azərbaycan gəncləri idmana daha çox qoşulacaqlar. Bu bizim siyasətimizin strateji xətlərindən biridir ki, gənclər fiziki, əqli cəhətdən sağlam olsun. Bu sağlamlığı təmin etmək üçün ən əsas vasitələrdən biri idman, bədən tərbiyəsidir. Yenə deyirəm, bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Bunu həyata keçirmək üçün sizin indiyədək gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər bütün gənclərimiz üçün nümunədir.

Biz bundan ruhlanırıq, amma siz də ruhlanmalısınız. Ona görə ruhlanmalısınız ki, Azərbaycanın sizin kimi gənclərinə nümunə göstərirsiniz. Təsadüfi deyil, məşqçi məsələ qaldırdı ki, belə insanlar çoxdur, onlar idmanla məşğul olmaq istəyirlər, onlara şərait yaratmaq lazımdır. Mən bu məsələni dərhal həll etdim. Əmin ola bilərsiniz və sizin kimi gənclərin hamısına çatdırın ki, bu məsələ həll olunacaqdır. Həmin gənclər orada geniş imkanlar əldə edəcəklər, idmanla məşğul olacaqlar.

Sizin sıralarınız daha da genişlənəcək, indi burada dediyiniz kimi, növbəti paralimpiya oyunlarında yeni-yeni nailiyyətlər əldə edəcəksiniz.

Mən Azərbaycanda olimpiya hərəkatının inkişafını, əldə etdiyi nailiyyətləri bir daha qeyd edirəm. Mən olimpiya hərəkatına bundan sonra daha da səmərəli işlər arzulayıram.

Təbiidir ki, Milli Olimpiya Komitəsi bu işləri Gənclər və İdman Nazirliyi ilə bərabər görür və bərabər də görməlidirlər. Sizinlə həm Milli Olimpiya Komitəsi, həm də bizim xüsusi nazirliyimiz – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğul olur.

Yenə də deyirəm, bu nailiyyətləriniz sizin şəxsi nailiyyətlərinizdir. Amma sizin bu səviyyəyə çatmağınız, bu nailiyyətləri əldə etməyiniz üçün həm Milli Olimpiya Komitəsinin, həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, həm də Gənclər və İdman Nazirliyinin fəaliyyəti qiymətləndirilməlidir. Burada dediniz, bu sahədə sizə yardım edən, sizinlə bərabər olan təşkilatların hamısının fəaliyyəti qiymətləndirilməlidir.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim bu mötəbər təşkilatlarımız bundan sonra da bu işi sizinlə birlikdə sürətlə həyata keçirəcəklər.

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram. Gələn görüşlərədək.

Biz hələ Afina yarışlarını gözləməyəcəyik, yəqin ki, o vaxta qədər sizin yeni-yeni nailiyyətləriniz olacaqdır və biz görüşəcəyik. Amma siz Afinaya gedərkən biz mütləq görüşəcəyik. Güman edirəm ki, siz oradan daha gözəl nailiyyətlərlə qayıdacaqsınız. Sağ olun.

OMAN SULTANI ƏLAHƏZRƏT
QABUS BİN SƏİDƏ

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı – Sultanın təvəllüdü günü münasibətilə Sizə, sultan ailəsinin üzvlərinə və qardaş Oman xalqına səmimi təbriklərimi yetirir, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Mən Azərbaycan Respublikası ilə Oman Sultanlığı arasında səmimi dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsinə və möhkəmlənməsinə böyük əhəmiyyət verirəm.

Əminəm ki, iki dövlət arasında yaranan qarşılıqlı münasibətlər ölkələrimizin və xalqlarımızın mənafeyi naminə hərtərəfli inkişaf edib genişlənəcək, regionda və dünyada sülhün və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Hörmət və ehtiramla,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 noyabr 2000-ci il*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM VAYRA VİKE-FREYBERQAYA

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Latviya Respublikasının elan edilməsi gününün ildönümü münasibətilə Sizi və dost latış xalqını salamlayır və ürəkdən təbrik edirəm.

Məmnunluqla qeyd edirəm ki, müstəqilliyin bərpa edilməsindən sonrakı illər ərzində Latviya demokratik və hüquqi dövlət quruculuğu yolunda böyük müvəffəqiyyətlər qazanmışdır. Latviyanın Dünya Birliyi tərəfindən geniş tanınması, ölkədə sosial-iqtisadi vəziyyətin sabitləşməsi Sizin siyasi xəttinizin və həyata keçirdiyiniz iqtisadi islahatların nəticəsidir.

Fərəhli haldır ki, Azərbaycan ilə Latviya arasında tarixən mövcud olan mehriban dostluq əlaqələri müstəqillik illəri ərzində qarşılıqlı etimada və səmərəli əməkdaşlığa əsaslanan möhkəm tərəfdaşlıq münasibətlərinə çevrilmişdir.

Azərbaycan – Latviya əməkdaşlığının böyük potensialından səmərəli istifadə edilməsi üçün gələcəkdə də hər cür səy göstərməyə hazır olduğumuzu bir daha təsdiq edirəm.

Fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, səadət və məsul dövləti işinizdə uğurlar, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

Səmimi hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 noyabr 2000-ci il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT NAZİRLİYİNİN MÜŞAVİRİ, ABŞ PREZİDENTİNİN MDB ÖLKƏLƏRİNDƏ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ NÜMAYƏNDƏSİ YAN KALİTSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

18 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Kalitski, Azərbaycana xoş gəlmisiniz.

Sizinlə hər dəfə görüşlərimiz bizim ümumi işimizə kömək edir. Mən sentyabr ayında Vaşinqtondakı görüşlərimi çox məmnuniyyətlə xatırlayıram. Çox razıyam ki, siz bizi unutmursunuz.

Y a n K a l i t s k i: Cənab Prezident, sağ olun. Səmimi qəbul üçün Sizə təşəkkürümü bildirirəm. Bakıya yenidən qayıtmağımdan məmnunam. Mən də sentyabr ayında Sizin Vaşinqtona etdiyiniz çox uğurlu səfərinizi yaxşı xatırlayıram.

Möhtərəm Prezident, Vaşinqtona Sizin səfərinizdən sonra ölkənizi təmsil edən yüksək səviyyəli nümayəndə heyətlərinin, o cümlədən, səfir Sestanoviçin, səfir Vulfun, general Mayerzin və indi də mənim Azərbaycanı ziyarət etməyim ölkələrimiz arasında ən yüksək səviyyədə formalaşmış münasibətlərə bizim sadiqliyimizin bariz nümunəsidir. Biz Azərbaycan ilə münasibətlərimizə strateji əhəmiyyət daşıyan əlaqələr kimi baxırıq. Azərbaycanı çiçəklənən, müstəqil, demokratik və bu Avrasiya məkanına inteqrasiya olunan və inkişaf edən güclü bir dövlət kimi görmək istəyirik.

Cənab Prezident, mən Sizinlə həm Azərbaycanda, həm də Amerika Birləşmiş Ştatlarında dəfələrlə görüşmüşəm. Bu görüşə də böyük ümidlərlə gəlmişəm ki, ölkələrimiz arasında iqtisadi sahədə, o cümlədən enerji sahəsində əməkdaşlığımızın daha da irəli aparılması, inkişaf etdirilməsi barədə Sizinlə yeni müzakirələr aparaq. Sağ olun.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Dediyiniz sözlərin hamısını mən təsdiq edirəm. Biz də Azərbaycan olaraq, Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi strateji əməkdaşlıq əlaqələri hesab edirik. Bilirsiniz ki, bu barədə biz mümkün olan işləri görürük. Doğrudan da sentyabr ayından sonra Amerika Birləşmiş Ştatlarının yüksək səviyyəli nümayəndə heyətləri Azərbaycanda olublar. Biz çox əhəmiyyətli danışıqlar aparmışıq. Güman edirəm ki, hər bir belə görüş öz nəticəsini verməlidir. Danışıqlar danışıq üçün deyil, danışıqlar ona görə aparılır ki, onlardan nəticə əldə edilsin. Ona görə də sizin Azərbaycana gəlməyinizi Amerika Birləşmiş Ştatlarının Azərbaycanla əlaqələrə xüsusi əhəmiyyət verməsi kimi qəbul edirəm. Güman edirəm ki, bu barədə sizinlə fikir mübadiləsi aparmaq imkanımız olacaqdır.

MDB-nin İCRAÇI KATİBİ, MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

20 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Sizi səmimi-qəlbdən salamlayıram. Siz MDB-nin fəaliyyətinə yeni xüsusiyyətlər gətirmisiniz. MDB-nin iclasları ərəfəsində icraçı katibin MDB ölkələrinə səfərlər etməsi, fikir mübadiləsi aparması nadir hallarda olurdu. Mənə elə gəlir ki, siz bunu bir sistemə çevirmisiniz. Bu yaxşı haldır.

Y u r i Y a r o v: Heydər Əliyeviç, axı icraçı katibi Siz özünüz təyin etmisiniz və buna görə də mən İcraiyyə Komitəsini təmsil edirəm və Sizin iradənizi yerinə yetirməyə borcluyam.

H e y d ə r Ə l i y e v: MDB-nin artıq çoxillik tarixi var və buna görə də yeni bir irəliləyişdən danışa bilərəm. Şadam ki, siz Azərbaycana gəlmisiniz və bizim fikir mübadiləsi aparmaq imkanımız var.

Y u r i Y a r o v: Çox məşğul olmağınıza baxmayaraq, ünsiyyətdə olmaq, hazırlığın gedişi barədə məlumat vermək imkanına görə Sizə bir daha təşəkkür edirəm. Dünənki günü, bazar gününü Bakıda keçirməyimə imkan verildiyi üçün Sizə minnətdaram. Axşam Bakısını seyr edə bildik – bu, təkraredilməz bir mənzərə idi. Ona görə ki, bu, həqiqətən, möcüzədir. Biz İçərişəhəri gəzib-dolaşdıq, piyadalar üçün olan küçədə gəzişdik. Burada çoxlu adam, gözəl yeni tikililər gördük. Təzə binalara baxdıq. Ümumiyyətlə,

mənim axırıncı səfərimdən ötən yarım ildə şəhərin inkişaf etdiyini, daha da gözəlləşdiyini görmək xoş idi. Sağ olun ki, mən bütün bunları, şəhərin necə çiçəkləndiyini görə bildim. Bu imkanıma görə, dünən burada ola bilməyimə görə sağ olun.

H e y d ə r Ə l i y e v: Bunları eşitmək mənə xoşdur. Siz bu baxımdan da çox yaxşı nümunə göstərirsiniz, çünki bəzən elə olur ki, səhər buraya gəlir, axşam da çıxıb gedirlər. Görüşlərdən savayı heç nə görmürlər. Sizin dünən şəhərdə nəyəsə baxa bilməyiniz və belə xoş təəssüratınızın olması da sizi fərqləndirir. Mən buna şadam.

Y u r i Y a r o v: Sağ olun. Amma bununla belə, hörmətli prezidentimə məlumat vermək istəyirəm ki, biz elə dünən, bazar günü işgüzar görüş keçirdik. Mən bütün materiallar barəsində Abbas Abbasova məlumat verdim. Bir sözlə, biz işgüzar görüş də keçirdik. Bu gün mənim Xarici İşlər nazirinə, hökumətin sədrinə də məlumat vermək imkanım oldu. Odur ki, icazənizlə, məlumat verməyə başlayım.

H e y d ə r Ə l i y e v: Bəli, bunu mənə dedilər. Baş nazir görüş barəsində məlumat verdi. İndi bu məsələ haqqında biz də fikir mübadiləsi apararıq.

BÖYÜK LİVİYA ƏRƏB XALQ SOSİALİST CƏMAHİRİYYƏSİ ALİ XALQ KOMİTƏSİNİN XARİCİ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ KATİBİNİN (NAZİRİNİN) SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ SƏD MUSTAFA MÜCBİRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

20 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Mən sizi salamlayıram. Hesab edirəm ki, sizin bu səfəriniz ölkələrimiz arasındakı əlaqələrin inkişafına yardım edəcəkdir.

Mənə deyiblər ki, siz bir neçə görüşlər keçirmisiniz. İndi isə mən sizinlə görüşürəm. Buyurun.

S ə d M u s t a f a M ü c b i r: Zati-aliləri cənab Prezident, işlərinizin çox olmasına baxmayaraq, lütf göstərib bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Biz bunu deməyi şərəf bilirik ki, Sizin iş həvalə etdiyiniz şəxslərlə, rəhbərlərlə, məsul şəxslərlə görüşmüşük. Onlar Azərbaycanı yüksək səviyyədə təmsil edirlər və bizimlə lazımi görüşləri keçiriblər. Siz dediyiniz kimi, biz, qardaş ölkələr burada bir neçə dövlət işçiləri ilə görüşlər keçirdik. Mən belə düşünürəm və ümid edirəm ki, onlar bu görüşlər haqqında məlumatı zati-alinizə çatdırıblar.

H e y d ə r Ə l i y e v: Bəli, çatdırıblar.

S ə d M u s t a f a M ü c b i r: Mən bir məsələni təkrar etmək, vurğulamaq istəyirəm.

Bu da ondan ibarətdir ki, Siz böyük, zəngin təcrübəyə malik bir şəxsiyyətsiniz. Vaxtilə Siyasi Büroda, SSRİ Nazirlər Sovetində, ümumiyyətlə, SSRİ rəhbərliyində yeganə müsəlman olaraq yüksək mövqe tutmağınızla qazandığınız zəngin təcrübədən biz də ölkələrimiz üçün lazımi şəkildə istifadə etməliyik.

Qardaşınız, Liviya inqilabının rəhbəri Müəmmər Qəddafi Sizi Liviya Cəmahiriyyəsinə dəvət edir. Çox təəssüf ki, müstəqilliyinizin doqquz ili ərzində biz bunu indiyədək həyata keçirə bilməmişik. Siz bir çox məsələlərlə, o cümlədən müharibə ilə bağlı və müasir bir dövlət quruculuğu məsələləri ilə məşğul idiniz. Biz isə blokadadan əziyyətlər çəkirdik. Blokada ilə bağlı problemlərlə məşğul idik.

Sizin müdrikliyiniz sayəsində Qarabağda qan tökülməsinin qarşısı alındı, dayandırıldı və indi Azərbaycan xalqının oğulları həlak olmurlar. Biz də qəbul etdirilmiş blokadanın problemlərindən yaxa qurtara bildik. Siz öz köhnə dostunuz polkovnik Müəmmər Qəddafi ilə görüşsəniz, Sizin bu görüşünüz və eyni zamanda Sizin zəngin təcrübəniz bizə Liviyada daha nə etmək lazım gəldiyini öyrədər. Belə bir görüş eyni zamanda həm ikitərəfli, həm regional, həm də beynəlxalq miqyasda əlaqələrin möhkəmləndirilməsi üçün hansı işlərin görülməsini müəyyən edər.

Mən bugünkü görüşlərimdə, xüsusilə Baş nazirlə, Milli Məclisin sədri ilə görüşlərimdə bildirdim – çox təəssüf ki, bizim bu vaxta qədər gördüyümüz işlər nə Fələstin probleminin, nə də Dağlıq Qarabağ probleminin həllinə gətirib çıxarmayıbdır. Ona görə də artıq biz yeni yolların, vasitələrin axtarışında olmalıyıq. Mən belə düşünürəm ki, qardaşınız polkovnik Müəmmər Qəddafi ilə görüşünüz bu istiqamətdə bir addım olar.

Bu region, ölkəniz vaxtilə islam aləminə, mədəniyyətinə böyük alimlər, mütəfəkkirlər, şairlər, ədiblər vermişdir. İndiki dövrdə də bizim Sizin müdrikliyinizə ehtiyacımız vardır. Qardaşınız polkovnik

Müəmmər Qəddafinin Sizə göndərdiyi məktubda deyilir ki, burada tarixi Siz yaradırsınız və burada regional toplantılar, cəmiyyətlər, birliklər yaradılmasında iştirak edirsiniz. Qardaşınız Qəddafi də Afrika Birliyinin yaradılması işini bitirmək üzrədir. Təxminən üç-dörd aydan sonra Liviyada çağırılacaq fövqəladə sessiyada belə bir birliyin yaradılması elan ediləcəkdir. Bu təxminən 700 milyon əhalini əhatə edəcək birlik olacaqdır. Bütün ilkin materiallar, yəni xammal mənbələri bu regiondadır. Qardaşınız polkovnik Qəddafi Sizinlə bu məsələni strateji baxımdan müzakirə etmək istəyir.

Bütün görüşlərimizdə, o cümlədən Milli Məclisin sədri, Baş nazir ilə və nazirlərlə görüşlərdə biz bir çox məsələlərdə oxşar mövqedən çıxış etdik. Ümumiyyətlə, biz dostluq haqqında çox danışmışıq. İndi işə keçmək lazımdır, konkret işlər görmək lazımdır. Əgər Siz polkovnik Qəddafi ilə görüşdə hər iki tərəfə strateji sahələrdə müəyyən yolları göstərsəniz, biz – liviyadakılar, eyni zamanda burdakılar bu məsələdə Sizin sadiq əsgərləriniz olarıq. Sağ olun.

H e y d ə r Ə l i y e v: Dəyərli sözlərinizə görə, dostum, qardaşım Müəmmər Qəddafinin mənə göndərdiyi dəvət məktubuna görə və mənim haqqımda Sizin dediyiniz xoş sözlərə görə təşəkkür edirəm.

Həqiqətən bizim qardaş ölkələrimizin hər birinin çox çətin və ağır problemləri vardır. Çox məmnunam ki, siz məsafəcə bizdən uzaqda olmağınıza baxmayaraq, bizim müstəqil ölkəmizə, Azərbaycana maraq göstərirsiniz, bizim problemlərimizi bilirsiniz. O cümlədən Ermənistanın Azərbaycana etdiyi təcavüzü və bunun nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasını, bir milyondan artıq azərbaycanlının, müsəlmanın yerindən-yurdundan didərgin düşüb köçkün vəziyyətində yaşamasını bilirsiniz.

Bizim ölkəmizə, xalqımıza qarşı böyük ədalətsizliklər edilibdir. Siz doğru dediniz, biz atəşi altı il bundan öncə dayandırmışıq,

atəşkəs haqqında saziş imzalamışıq. Ancaq iş bundadır ki, hələ məsələni həll edə bilməmişik və işğal olunmuş torpaqlar azad olmayıbdır, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıtmayıblar. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıbdır.

Mən çox məmnunam ki, siz bu problemləri bilərək, eyni zamanda bizimlə daim tərəfdaşsınız. Azərbaycana qarşı edilmiş ədalətsizliklə əlaqədar, beynəlxalq təşkilatlarda, xüsusən İslam Konfransı Təşkilatında qətnamənin qəbul olunmasında sizin ölkəniz də fəal iştirak edibdir.

Biz bilirik ki, sizin də çox ağır problemləriniz vardır. Biz həmişə ədalətin, haqqın tərəfdarı olmuşuq. Sizin xalqınız bir çox illər böyük məhrumiyyətlərə məruz qalmışdır. Allaha şükürlər olsun ki, siz indi bu vəziyyətdən çıxırsınız. Çox sevindirici haldır ki, Afrika üçün belə bir böyük məsələni, Afrika Birliyini yaratmaq sahəsində hörmətli Müəmmər Qəddafi böyük işlər görübdür və bildirdiyiniz kimi, artıq yaxşı nəticələr verir. İnanıram ki, Allahın yardımı ilə siz bu işləri uğurla aparacaqsınız, yaxşı nəticələr əldə edəcəksiniz.

Hörmətli cənab Müəmmər Qəddafinin mənə gördərdiyi bu dəvət məktubunu çox məmnuniyyətlə qəbul edirəm. Təbiidir ki, mən bu dəvəti qəbul edirəm və bunu həyata keçirəcəyəm. Mən bunun üçün çox maraqlıyam və bunu çox arzu edirəm.

Qardaşım Müəmmər Qəddafi ilə mən Moskvada işləyərkən orada görüşmüşəm. Çox yaxşı danışıqlarımız olubdur. Mən bu görüşü, danışıqları həmişə böyük hisslərlə xatırlayıram. Amma sizin ölkədə olmamışam. Mənim üçün çox əziz olacaqdır ki, həm sizin ölkənizi ziyarət edim, həm də sizin xalqınızın lideri ilə lazım olan söhbətləri aparım.

Xahiş edirəm, mənim qardaşlıq salamlarımı birinci növbədə hörmətli Müəmmər Qəddafiyə çatdırasınız, Liviya xalqına çatdırasınız. Mən sizin xalqınıza tutduğu yolda böyük uğurlar arzulayıram.

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDA

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Livan xalqını salamlayır və ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Livan arasında dostluq və əməkdaşlıq münasibətlərinin yaxşı perspektivləri vardır və bu münasibətlər hər iki ölkənin xalqlarının rifahı naminə getdikcə inkişaf edəcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edib Sizə və dost Livan xalqına ən səmimi arzularımı çatdırır, ölkənizin tərəqqisi və inkişafı yolunda Sizə yeni-yeni müvəffəqiyyətlər diləyirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 noyabr 2000-ci il*

RUSİYA FEDERASİYASI PREZİDENTİ İCRA APARATI RƏHBƏRİNİN MÜAVİNİ, PREZİDENTİN XARİCİ SİYASƏT İDARƏSİNİN RƏİSİ SERGEY PRİXODKO BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

22 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v : Sergey Eduardoviç, mən sizi Azərbaycanda salamlayıram. Sizin əvvəllər burada olub-olmadığınızı bilmirəm.

S e r g e y P r i x o d k o: Mən buraya ilk dəfədir gəlirəm.

H e y d ə r Ə l i y e v: Ona görə də deyirəm ki, xatırlamıram. Çox şadam ki, siz gəlmisiniz. Şadam ki, məhz belə bir missiya ilə gəlmisiniz. Biz Vladimir Vladimiroviç Putinin səfəri barədə, Rusiya prezidentinin ilk səfəri barədə səfirlə bir neçə dəfə danışmışıq. Budur, nəhayət, siz gəlmisiniz ki, planlarımız həyata keçirilsin.

S e r g e y P r i x o d k o: Hörmətli Heydər Əliyeviç, mən ilk növbədə, Rusiya Federasiyasının prezideni Vladimir Vladimiroviç Putinin ən səmimi, ən xoş salamlarını Sizə yetirmək istərdim. Dünən, mənim səfərim ərəfəsində biz Azərbaycanla, tərəfdaşımızla, dostumuzla əməkdaşlığın, qarşılıqlı surətdə faydalı olan çoxsahəli fəaliyyətin daha da möhkəmləndirilməsinin bizim üçün, rusiyalılar üçün necə böyük əhəmiyyətli olduğu barədə ətraflı fikir mübadiləsi apardıq. Prezident bu fikirdədir ki, Sizin dəvətinizlə onun Azərbaycana qarşıdakı ilk

səfəri bizim istər ikitərəfli əməkdaşlığımızın, istərsə də beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətimizin dərinləşməsində və genişlənməsində həqiqətən yeni mərhələ olacaqdır. Biz besab edirik ki, Sizin həm beynəlxalq forumlarda, həm MDB çərçivəsində, həm də Moskvaya səfərləriniz zamanı Vladimir Vladimiroviç Putinlə dəfələrlə keçirdiyiniz görüşlər nəticəsində aramızda qarşılıqlı anlaşma, etimad, aşkarlıq sahəsində nəzərəçarpan irəliləyiş yaranmışdır. Digər istiqamətlərdə də irəliləyiş var. Heydər Əliyeviç, biz bu üstünlükdən, istər iqtisadi əlaqələrimizin, istərsə də beynəlxalq aləmdə ünsiyyətlərimizin dərinləşməsi üçün lazımi şərait yaradılması sahəsində, bütün istiqamətlər üzrə irəliləmək üçün şəxsən Sizdə, Azərbaycan rəhbərliyində hiss etdiyimiz istəkdən istifadə etməliyik. Hörmətli Heydər Əliyeviç, buna görə də Sizin bu axşam mənimlə görüşməyə vaxt tapdığınıza görə, həmkarlarınızın ilk dəqiqələrdən mənə göstərdikləri qayğıya görə Sizə səmimi minnətdarlığımı bildirirəm və əminəm ki, Moskva ilə münasibətlərin dərinləşməsinə yönəldilmiş xeyirxahlıq və səylər prezidentimizin qarşıdakı səfərinin uğurla keçməsini hökmən təmin edəcəkdir.

H e y d ə r Ə l i y e v: Sağ olun. Əgər biz maraqdan danışmalı olsaq, onda yəqin ki, bu səfərə Rusiya tərəfindən daha çox biz maraq göstəririk, çünki biz müstəqillik əldə edəndən Rusiya prezidentinin Azərbaycana səfəri olmamışdır.

S e r g e y P r i x o d k o: Biz borcluyuq…

H e y d ə r Ə l i y e v: Halbuki dəvətlər çox olmuşdur. Buna baxmayaraq, biz Rusiya ilə öz münasibətlərimizi genişləndirdik və bu münasibətləri xarici siyasətimizdə ən öncül istiqamət hesab edirdik və hesab edirik. Təbii ki, mən Moskvada MDB-nin iclaslarında tez-tez olurdum, 1997-ci ildə isə Rusiyaya rəsmi səfər etmişdim. O zaman Boris Nikolayeviçdən xahiş etmişdim ki, Azərbaycana səfərə gəlsin. Amma şərait imkan vermədi, nə etmək olar. Butun bunlar artıq tarixdə,

keçmişdə qalmışdır. Ancaq Vladimir Vladimiroviç Rusiyanın prezidenti seçildikdən sonra mənim onunla çox görüşlərim olmuşdur, bundan əvvəl, o, hökumətin sədri olduğu vaxtlarda da olmuşdur. Mən onunla Kiyevdə, Kuçmanın andiçmə mərasimi zamanı keçirdiyimiz söhbəti də xatırlayıram. Biz razılığa gəlmişdik ki, görüşək, amma imkan olmadı. Razılaşmışdıq ki, nahardan sonra görüşək. Nahardan sonra biz görüşə yollandıq, hamı çıxıb getmişdi, biz isə qalmışdıq. Hamı düşündü ki, görəsən biz haraya getmişik.

S e r g e y P r i x o d k o: Məncə, Siz iki saatdan çox söhbət etdiniz.

H e y d ə r Ə l i y e v: Siz orda idiniz?

S e r g e y P r i x o d k o: Mən söhbətin birinci hissəsində oldum, sonra Siz ikilikdə daha iki saat söhbət etdiniz.

H e y d ə r Ə l i y e v: Buna görə də fikir mübadiləsi üçün kifayət qədər imkan var idi. Ancaq, hər halda, rəsmi səfərin öz əhəmiyyəti, öz statusu var. Bu birincisi. İkincisi isə, mən Moskvanı, hətta Rusiyanı yaxşı tanıyıram. Vladimir Vladimiroviç də ölkənin rəhbəri olmazdan əvvəl bir dəfə burada olmuşdur. Təəssüf ki, o vaxtlar mən burada deyildim. Onun burada nəyi görüb-görmədiyini bilmirəm, hər halda o, müəyyən təsəvvürə malikdir. Rəsmi səfərin isə başqa əhəmiyyəti var. Ona görə də biz bu səfərin olmasını çox istəyirik və açığını deyim ki, onun tez bir zamanda həyata keçirilməsini gözləyirik və arzulayırıq.

Mən sizinlə razıyam. Mən də eynilə bu fikirdəyəm. Mən bunu Vladimir Vladimiroviçə də demişdim. İndi yəqin hesab etmək olar ki, Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərində yeni mərhələ açılır. Yəni keçmişdə pis bir şey olmamışdır, amma münasibətlərimizi belə bir vəziyyətdə saxlamaq nə Rusiya üçün əlverişlidir, nə də Azərbaycan üçün. Buna görə də Vladimir Vladimiroviçin səfərə necə əhəmiyyət verdiyini bilirəm. O da mənim buna necə əhəmiyyət verdiyimi

bilir, siz də bilirsiniz. Odur ki, rəsmi səfər çox vacibdir, bu, məsələləri müzakirə etməyə, lazımi sənədləri imzalamağa və münasibətlərimizi irəlilətməyə imkan verəcəkdir. Çünki biz dost olmuşuq, dostuq, dost olacağıq. Özü də sadəcə olaraq, dildə deyil, sözün məhz həqiqi mənasında dostuq. Ona görə də şadam ki, siz məhz bu məqsədlə gəlmisiniz, bu çox yaxşıdır, onu nəzərdə tuturam ki, biz səfərə sizinlə birlikdə hazırlaşa, hansı sənədləri imzalayacağımız barədə düşünə bilərik və sair. Mən sizi salamlayıram. Vladimir Vladimiroviç Putinə mənim salamlarımı və ən xoş arzularımı yetirin, deyin ki, mən onu səbirsizliklə gözləyirəm.

İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN AVROPA VƏ AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ VƏ İRANIN XƏZƏR DƏNİZİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ƏLİ AHƏNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

22 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Bizim təmaslarımız tez-tez olmalıdır ki, işlərimiz irəli getsin.

Ağayi Qəzai İranın Azərbaycandakı səfiridir. Təəssüf edirəm ki, onunla hələlik görüşüb danışa bilməmişəm. Ağayi Bikdeli də burada uzun müddət ölkənizin səfiri olubdur, çox məmnunam ki, yenidən Azərbaycana gəlibdir. Siz isə, yəqin ki, ilk dəfədir Azərbaycana gəlirsiniz. Çox şadam. Mən sizi dinləyirəm.

Ə l i A h ə n i: Hər şeydən öncə bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Çox şadam ki, regional məsləhətləşmələrə, səfərimə sizin ölkənizdən başladım. Dünən axşam Naxçıvana gəldim, ora Sizin anadan olduğunuz bir yerdir. Naxçıvanda keçirdiyim görüşlər, o cümlədən Ali Məclisin sədri ilə görüşüm məndə çox gözəl təəssürat oyatdı. Elektrik enerjisinə görə olan borcların yığılıb qalması səbəbindən naxçıvanlı dostlarımızı qaranlıq içində görməkdən çox təsirləndim. Mən Vasif Talıbova bildirdim ki, bu vəziyyətə görə çox təsirlənirəm və borcların qaytarılması yolunun

tapılması, elektrik enerjisinin verilməsini bərpa etməkdə köməklik göstərməyə hazıram. Ümidvaram ki, cənabınızın şəxsən işə qarışması və göstərişi sayəsində tezliklə məsələnin həlli yolunu tapacağıq.

Bu gün Azərbaycan rəsmiləri ilə görüşlərimizdə çox faydalı və konstruktiv məsələlərə toxunduq. Əməkdaşlığın müxtəlif sahələrini araşdırdıq. Sevindirici haldır ki, hər iki tərəf qarşılıqlı maraqların təmin olunmasını, əlaqələrin genişlənməsini arzu etdiyini vurğuladı.

Regional təhlükəsizlik və digər məsələlər barədə də çox faydalı danışıqlar apardıq və hər iki tərəfin mövqeyi diqqətəlayiq idi.

Mənim səfərimin əsas məqsədlərindən biri azərbaycanlı həmkarlarımla Xəzər dənizinin statusu barədə məsləhətləşmələr aparmaqdır. İlkin məsləhətlərə başladım. Sevindirici haldır ki, bu sahədə bizim və azərbaycanlı dostlarımızın mövqeyi bir-birinə çox yaxındır. Hər iki tərəf xüsusi vurğulayır ki, biz ümumi məqbul sayılan formula tapmalıyıq. Elə formula tapmalıyıq ki, o, Xəzəryanı beş ölkə tərəfindən də qəbul olunsun. Mən sabah öz həmkarlarımla məsləhətləşmələrimi davam etdirəcəyəm.

Bundan sonra digər Xəzəryanı ölkələrə səfər edərək məsləhətləşmələri davam etdirəcəyəm. Qarşıdakı səfərimin bir məqsədi də Xəzəryanı ölkələrin Xarici İşlər nazirlərinin görüşünü təşkil etməkdir. Ümidvaram ki, beş ölkənin razılığı ilə münasib bir formula əldə edə biləcəyik.

Cənab Prezident, təbiidir ki, Sizin təcrübəniz və biliyiniz bizə bu sahədə çox kömək edəcəkdir. Diqqətinizə görə Sizə təşəkkürümü bildirirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Sizin toxunduğunuz məsələlər bizi də maraqlandıran məsələlərdir. Bu bizim ölkələrimiz arasında olan, həm İran, həm də Azərbaycan üçün vacib məsələlərdir. Ona görə də mən sizin bu

səfərinizi çox vacib hesab edirəm. Burada apardığınız danışıqları və görüşləri də çox faydalı hesab edirəm. Həm Baş nazir, həm də Xarici İşlər naziri sizinlə görüşləri haqqında mənə məlumat veriblər. Müzakirə olunan məsələlər haqqında da mənə məlumat verilibdir. Biz çalışmalıyıq ki, bu məsələlərin həllinin yollarını tapaq.

Naxçıvandakı elektrik probleminə də toxundunuz. Dediniz ki, ora elektrik enerjisindən məhrumdur, şəhər qaranlıq içindədir. Mən məmnunam ki, bu sizi narahat edir. Amma bizi çox narahat edir.

1992-ci ildə mən Naxçıvanda işləyən zaman, o vaxt İranın ali rəhbərliyi ilə Tehranda mənim görüşlərimdən sonra, sizin ölkənizdən Naxçıvana elektrik ötürücü xəttinin çəkilməsi barədə İran hökuməti qərar qəbul etdi. Qısa bir zamanda elektrik xətti çəkildi. Bunu biz dostluq bayramı kimi qeyd etdik. O vaxt borclar haqqında söhbət getmirdi. O vaxt, sadəcə olaraq, İran Naxçıvana dost əlini uzadıb onu qaranlıqdan çıxarmaq istəyirdi. Ona görə də mən minnətdaram. Ancaq vaxtilə qaranlıqdan çıxartdığınız Naxçıvanı indi ki, qaranlığa salmısınız, bu məndə təəssüf doğurur.

Azərbaycanda belə bir söz var: borclu borclunun sağlığını istər. Biz elə qonşu deyilik ki, sabah buradan çıxıb gedək, ondan sonra deyəsiniz ki, qonşu çıxıb getdi, haradadır, tapa bilmirik ki, pulumuzu alaq. Biz ömürlük qonşuyuq. Adətən, bizdə belə olubdur. Mənim gənc vaxtlarımda Naxçıvandakı həyatımı götürün. Bizim evdə bir şey çatmayanda, qonşumuz gətirib verirdi. Bir müddətdən sonra onlarda bir şey olmayanda, biz onu aparıb verirdik. Düzdür, kasıb yaşayırdıq, ancaq çox mehriban yaşayırdıq, çox dost idik. Əsas dostluqdur, mehribanlıqdır, pul əsas deyildir. Ona görə də mən bu məsələni dərinləşdirmək istəmirəm. Siz nahaq yerə düşünürsünüz ki, bizim imkanımız var və biz o borcu vermirik. Borcumuzu mütləq verəcəyik. Amma bunun üçün gərək müəyyən imkan

olsun. Naxçıvanı vaxtilə işıqlandırıb, sonra onu işıqsız qoymaq qonşuluq münasibətlərinə uyğun deyildir.

Bilirsinizmi, insan çətinliklərə dözür. Mən Naxçıvana gələndə elektrik enerjisi heç yox idi. Azərbaycan televiziyasının çəkdiyi lentlər var. Mənim neft lampasının işığında oturub necə işlədiyimi onlar gəlib çəkiblər. İşıq və istilik olmadığına görə, nazik dəmirdən hazırlanmış odun sobaları ilə keçinmişik. Bilmirəm, İranda belə sobalar varmı? O vaxt mən Naxçıvanın başçısı idim. Bundan artıq bir şey mümkün deyildi. Hamı dözürdü. Biz çox dözümlüyük.

Ona görə də danışarıq, əgər razılığa gələriksə, elektrik enerjisi verərsinizsə verin, verməzsinizsə, Naxçıvanda heç kəs ölməyəcəkdir. Amma bu bizim islam mənəviyyatımıza ziddir. Mən bu barədə danışmaq istəmirəm. Çünki Baş nazir sizinlə danışıbdır.

Xəzərin statusu haqqında biz həmişə sizinlə danışıqlar aparmışıq və aparmağa da hazırıq. Vaxtilə Tehranda da bir neçə dəfə Xarici İşlər nazirlərinin müavinləri görüşmüşlər. Belə bir görüş bir dəfə də təyin olunmuşdu, amma sonradan o, nədənsə, baş tutmadı. Biz buna hazırıq. Siz Xarici İşlər nazirinin müavini Xələfovla danışmısınız, bunu mən bilirəm. Bizim Xarici İşlər naziri ilə, Baş nazirlə danışmısınız. Danışıqları davam etdirin. Hesab edirəm ki, bunun həlli yolunu tapacağıq. İndi insanlar kosmosa uçur, kainatı fəth edir. Bu nə olan şeydir ki, onun həlli yolunu tapa bilməyək?

Biz istəmirik ki, İran zərər çəksin. Amma eyni zamanda özümüz də zərər çəkmək istəmirik. Azərbaycanda belə bir söz var: nə şiş yanmalıdır, nə kabab. Sizdə bu ifadə işlənirmi?

Ə l i A h ə n i: Bəli.

H e y d ə r Ə l i y e v: Bax, bu prinsiplə biz işimizi davam etdirməliyik.

Təhlükəsizlik haqqında dediyiniz fikir də çox maraqlı məsələdir. Təbiidir ki, bu digər məsələlərdən mürəkkəbdir.

Ancaq biz bu barədə də danışıqlara hazırıq. Güman edirəm ki, danışıqlar nəticəsində burada da biz nailiyyət əldə edə bilərik. Ona görə də bir daha deyirəm ki, Azərbaycana sizin səfəriniz çox əhəmiyyətlidir. Deyirsiniz ki, başqa Xəzəryanı ölkələrə də gedəcəksiniz. Gedin, hər yerin ab-havasını görün. Rusiyada nə hava var, soyuqdur, istidir. Qazaxıstanda, Türkmənistanda necədir… bundan sonra da nə vaxt desəniz, biz Tehrana gələ bilərik.

Ə l i A h ə n i: Cənab Prezident, verdiyiniz məlumata görə çox sağ olun. Sizə təşəkkür edirəm. Biz bu fikirdəyik ki, məsləhətləşmələr problemlərin həlli yollarının tapılmasına mütləq kömək edəcəkdir. İran və Azərbaycan bölgənin iki mühüm ölkəsidir. Onların sülh və anlaşmadan başqa yolları yoxdur. Əməkdaşlıq üçün çox böyük potensiallar vardır. Biz bunları həyata keçirmək üçün çox çalışmalıyıq. Təbiidir ki, ölkələrimizdə olan iradə bu yolları sürətlə keçməkdə bizə kömək edəcəkdir. Xəzər bölgəsi həmişə sülh və dostluq regionu olmuşdur və bundan sonra da belə olmasına çalışmalıyıq. Bölgənin ehtiyatlarından istifadə Xəzəryanı bütün ölkələrin razılığını tələb edir. Bütün ölkələrin birgə maraqlarını təmin etməklə bu ehtiyatlardan düzgün qaydada istifadə etməliyik.

Naxçıvan barəsində mən dedim ki, biz kömək göstərməyə hazırıq və oradakı bacı-qardaşlarımızın, Naxçıvan əhalisinin çətinlik çəkməsini, qaranlıqda olmasını istəmirik. Cənab Prezident, ümidvarıq ki, Siz də kömək göstərəcəksiniz, tezliklə problem həll olunacaqdır. İranın Naxçıvana enerji verən şirkəti kəskin maliyyə problemləri ilə üzləşmişdir. Əslində həmin şirkət iki il dözmüşdür və bu qədər borc yığılmışdır.

Biz də sizin problemlərinizi başa düşürük və borcların mərhələlərlə, müəyyən vaxt ərzində ödəniləcəyinə, həmin şirkətə qaytarılacağına əmin olmaq istəyirik. Biz hər iki xalqın əlaqələrinin genişləndirilməsində, onların qarşılıqlı gediş-gəlişinin daha da sadələşdirilməsində maraqlıyıq. Çünki hər iki

xalq tarixi, mədəni, dini tellərlə bir-birinə bağlanmışdır. Azərbaycan xalqının problemlərini biz öz problemlərimiz hesab edirik. Xalqınızın səadət və xoşbəxtlik içərisində yaşamasını, ona baş ucalığı arzulayırıq.

Möhtərəm Prezident, ümidvaram ki, hər iki dövlətin iradəsi ilə, Sizin və cənab Xatəminin səyləri ilə əlaqələrimizin inkişafı üçün gözəl imkanlar yaranacaqdır.

Cənab Prezident, bizi qəbul etdiyinizə və diqqətlə dinlədiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Borclarla bağlı siz Baş nazirlə görüşmüsünüz. Bir neçə variantlar vardır. Hər halda, bunlara baxmaq lazımdır.

Bildirmək istəyirəm ki – bunu siz Naxçıvanda hiss etdiniz – Naxçıvanın əhalisi sizdən, yəni İran hökumətindən çox razıdır. Ona görə ki, orada Naxçıvan əhalisinin İrana gediş-gəlişi, İran vətəndaşlarının Azərbaycana gəlməsi çox sadələşdirilibdir. Bir neçə belə tədbirlər vardır ki, bizdə böyük minnətdarlıq hissi doğurmuşdur. Naxçıvana yaxşı münasibət, qayğı göstərdiyiniz halda, birdən-birə oranın işığının kəsilməsinə Naxçıvan əhalisi heç cür inana bilmir. Fikirləşirlər ki, yəqin bu, kimlərinsə təxribatıdır, İran hökuməti belə şey etməz. Ona görə də arzu edərdim ki, Naxçıvana olan münasibətiniz davam etsin və heç vaxt çətinlik yaranmasın.

Başqa məsələlər haqqında mən sizə danışdım. Mən bu görüşümüzdən məmnunam. Mənim salamlarımı, hörmət və ehtiramımı ağayi Xərraziyə çatdırın, xüsusən, mənim dostum, ölkənizin prezidenti ağayi Xatəmiyə mənim salamlarımı, hörmət və ehtiramımı çatdırın. Sağ olun.

«AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI» JURNALININ ƏMƏKDAŞLARINA

Sizi – «Azərbaycan neft təsərrüfatı» jurnalının əməkdaşlarını jurnalın təsis olunmasının 80 illiyi münasibətilə səmimi- qəlbdən təbrik edirəm.

Bu yubiley neft ictimaiyyətimizin həyatında mühüm hadisədir. Azərbaycanda hələ qədim zamanlardan insanlar nefti təsərrüfat və müalicə ehtiyacları üçün istifadə etməyə öyrənmişlər. Bu təbii sərvətin hasil edilməsi, saxlanması və daşınması üsulları yüzilliklərlə formalaşmışdır.

Azərbaycan XX əsrə bir neft ölkəsi kimi daxil olmuş və inkişaf etmişdir. Respublikamız 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalamaqla yeni neft doktrinasını irəli sürmüşdür və hazırda Xəzər hövzəsindəki neft və qaz yataqlarının birgə işlənilməsi sahəsində 14 ölkənin 30 iri neft şirkəti ilə ümumi həcmi 60 milyard ABŞ dollarına yaxın olan 20 beynəlxalq saziş imzalanmışdır.

Belə bir məsul və maraqlı dövrdə jurnal yeni ideyaların, qabaqcıl təcrübənin fəal təbliğatçısı olmuş, neft sənayesi qarşısında duran problemləri hərtərəfli işıqlandırmış, mütərəqqi elmi fikrin əsl tribunasına çevrilmişdir. Görkəmli alimləri, istehsalçıları, mütəxəssisləri öz ətrafında birləşdirmiş jurnal çoxsaylı müəlliflər ordusunun aktual yazıları, elmi məqalələri ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Neft işinin bütün sahələrinə öz səhifələrində geniş yer ayırmış jurnal ötən dövrdə nüfuzlu informasiya mənbəyinə çevrilmiş, nəinki ölkədə, həmçinin xarici dövri nəşrlər arasında mötəbər mətbu orqanı kimi tanınmışdır.

«Azərbaycan neft təsərrüfatı» jurnalı bu gün iqtisadiyyatın aparıcı sahəsi olan neft sənayesinə öz köməyini göstərir. Demək olar ki, jurnal «qara qızıl» uğrunda mübarizədə ön cərgələrdə gedir.

Əminəm ki, zəngin ənənələri olan «Azərbaycan neft təsərrüfatı» jurnalı bundan sonra da müstəqil Azərbaycan dövlətinin neft sənayesi qarşısında duran böyük və şərəfli vəzifələrin həyata keçirilməsində təcrübəli bir kollektiv kimi səmərəli fəaliyyət göstərəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə jurnalın əməkdaşlarına möhkəm cansağlığı və ölkəmizin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *23 noyabr 2000-ci il*

BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ PROFESSOR DOKTOR İHSAN DOĞRAMACIYA

Hörmətli İhsan Doğramacı!

Əziz qardaşım!

Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin ən böyük mükafatı olan «Yüksək xidmətlərə görə» plaketi ilə təltif olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi və Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə səmimi təbrikinizə görə Sizə təşəkkürümü bildirirəm.

Sizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *24 noyabr 2000-ci il*

«AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ «UŞAQLAR GƏLƏCƏYİMİZDİR» DEVİZİ ALTINDA XEYRİYYƏ KONSERTİNDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLARLA GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

25 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v : Azərbaycanın və Rusiyanın incəsənət ustaları, çox gözəl konsertinizə görə sizi təbrik edirəm. Siz bu gün Azərbaycanın mədəniyyətinin, incəsənətinin yeni nailiyyətlərini bir daha nümayiş etdirdiniz. Ancaq bunun məni çox sevindirən mənası ondan ibarətdir ki, uşaqlar həm oynayırlar, həm də onlara qayğı göstərilir. Xüsusən şəkər xəstəliyi olan uşaqlar üçün bu gün xeyriyyə konserti verildi. Sizin hər birinizin çıxışı, təbiidir ki, bizi çox sevindirir, insanlara sevinc gətirir.

Sizin ifaçılığınızla, gözəl səsinizlə, mahnılarınızla, rəqslərinizlə bərabər, bugünkü çıxışınız məni ona görə çox sevindirdi ki, bu, xəstə uşaqlara, o cümlədən şəkər xəstəliyinə tutulmuş uşaqlara kömək üçün təşkil olunmuşdur. Şəkər xəstəliyi elə bir ağır xəstəlik deyildir. Bu xəstəliyə, adətən, yaşlı adamlar tutulurlar, ancaq uşaqlar da xəstələnirlər. Amma onları sağaltmaq müalicə və vəsait tələb edir. Mən çox məmnunam ki, bu xeyriyyə konserti onların müalicəsinə kömək edəcəkdir. Ona görə də Mədəniyyətin Dostları Fondunun təşəbbüsü – Mehriban Əliyeva buradadır – çox böyük tərifə və hər cür

dəstəyə layiqdir. Mən ümid edirəm ki, bu, şübhəsiz, digər xeyriyyə təşkilatları üçün nümunə olacaq ki, onlar uşaqlar, xəstə uşaqlar haqqında düşünsünlər, belə uşaqlara qayğı göstərsinlər, xalqımızın, cəmiyyətimizin, xüsusən uşaqların sağlamlığının möhkəmləndirilməsinə öz töhfələrini versinlər.

Burada Moskvadan gəlmiş qonaqlarımız vardır. Yəqin ki, onlar məni başa düşmür və Anar Məmmədxanov da tərcümə etmir. Sən niyə tərcümə etmirsən?

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, baş üstə, tərcümə edərəm.

H e y d ə r Ə l i y e v: Edə bilməyəcəksən. Mən dediyim sözləri onlara çatdıra bilməyəcəksən.

A n a r M ə m m ə d x a n o v: Əlbəttə, Sizin hər bir sözünüzün böyük mənası vardır. Rusca heç ona uyğun sözlər yoxdur.

H e y d ə r Ə l i y e v: Rusca var, rusca sözlər çoxdur.

Konsert ona görə gözəldir ki, fondda bizə dəfələrlə dedikləri kimi, burada həm Azərbaycanın, həm də Rusiyanın, Moskvanın ulduzları toplaşıblar. Bu, salondakıların münasibətindən də görünürdü. İkincisi də, mən ulduzların hamısını, doğrudur, hamısı olmasa da, hər halda, tanıyıram. Bu konsertin Azərbaycan musiqisindən ibarət hissəsində bizim Fidan və Xuraman Qasımovalar kimi görkəmli müğənnilərimizin iştirakının özü bu tədbirin səviyyəsini qaldırır. Bizim qədim muğamlarımızı yeni səpkidə təqdim edən Alim Qasımovun və digərilərinin – Brilyant xanımın, Zülfiyyə xanımın və bir çox başqalarının, əlbəttə ki, Fərhad Bədəlbəylinin adlarını da çəkməliyik. Fərhad Bədəlbəyli həmişəki kimi, yenə də royalda gözəl ifa etdi. Bütün başqaları da, əlbəttə, uşaqların rəqsləri xüsusi hisslər doğurur, bu olduqca təsirlidir. Bir baxın, necə balaca, qəşəng və gözəl uşaqlardır, necə rəqs edirlər, gülürlər, bizə baxırlar.

Hesab edirəm ki, bizim moskvalı qonaqlarımız müasir estradanın ən yaxşı nümunələrini göstərdilər. İndi camaat, xüsusən gənclər estradanı sevir. Əlbəttə, biz də sevirik, elə bilməyin ki,

təkcə gənclər sevir. Mən özüm də sevirəm, salonda oturub qonaqlarımızı məmnuniyyətlə dinləyirdim. Onların səsləri də gözəldir, musiqi də, mahnılar da gözəldir. Ümumiyyətlə, bütövlükdə hamısı gözəldir. Bizim həmyerlimiz Dolina burada həmişə heyranlıq doğurur. Ancaq bu gün onunla birlikdə burada çıxış edərkən başqaları da var, ola bilsin, onlar bundan əvvəl Azərbaycanda olublar, bəlkə də olmayıblar. Bir sözlə, hamısı yaxşı formada idi, hamı ruh yüksəkliyi ilə, ürəklə çıxış edirdi.

Sizin səyləriniz və ifaçılıq məharətiniz, şübhəsiz ki, dinləyicilərə çox böyük zövq verdi. Mənə dedilər ki, bu konsertə gəlmək arzusunda olanların sayı lap çox idi, amma bilet tapa bilməyiblər. Bəziləri isə birtəhər buna imkan tapmaq üçün gəliblər. Salonda boş yer yox idi. Bu, əlbəttə, Azərbaycanın incəsənət xadimlərinə, xüsusən də Rusiyanın incəsənət xadimlərinə göstərilən böyük maraqdan xəbər verir. Buraya gəldiyinizə görə, bugünkü çıxışlarınıza, mahnılara, rəqslərə görə sağ olun. Hamı rəqs edir və oxuyurdu – bu çox orijinaldır.

Əvvəllər isə belə deyildi, yaxşı müğənni səhnəyə çıxır, bir yerdə dayanır, musiqiçilər çalır və o oxuyurdu. İndi isə artıq başqa zəmanədir. Amma biz həmin vaxtları xatırlayırıq. İndi isə rəqs edir, atılıb-düşür, oxuyurlar. Mən fikirləşirəm ki, bu necə mümkün olur? Burdan oraya qaçmaq, tullanmaq, bəzən hətta salto etmək və eyni zamanda oxumaq lazımdır. Əlbəttə, bütün bunlar bu zəmanəyə, xüsusən də bütün dünyada, o cümlədən həm Rusiyada, həm də Azərbaycanda gənclərə xas olan hallardır.

Əziz dostlar, siz bu gün çox gözəl çıxış etdiniz. Mən sizə təşəkkür edirəm ki, siz buraya gəlmisiniz, bugünkü əla çıxışınıza görə təşəkkürümü bildirir və sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Təbii ki, bu konsertdə bizə böyük fərəh verən bir də odur ki, salondakılar rus musiqisini və Azərbaycan musiqisini eyni dərəcədə sevirlər, Azərbaycan mahnıları, rus mahnıları eyni ruh yüksəkliyi ilə qarşılanır. Hesab edirəm ki, bu çox mühüm cəhətdir. Əlbəttə, mən şadam ki, bizim xalqımız, xüsusən gənclərimiz təkcə

öz milli musiqimizi sevməklə kifayətlənmirlər. Onlar öz milli mədəniyyətlərinə böyük məhəbbət bəsləyirlər, eyni zamanda başqa xalqların, ilk növbədə bütün Rusiya xalqlarının musiqisini və mahnılarını dinləməyi xoşlayırlar. Ona görə ki, biz həmişə Rusiya ilə bağlı olmuşuq. «Bakılı oğlanlar» klubunun üzvləri buradadırlar. Mən sizi qazandığınız qələbə münasibətilə təbrik edirəm. Ümumiyyətlə, siz yarışa gedəndə mən bir qədər narahat oldum ki, haraya gedirlər, çıxışları yaxşı alınacaqmı? Amma belə oldu ki, indi onlar XX əsrin çempionu oldular. Mən sizinlə ayrıca görüşmək fikrindəyəm. Ona görə də burada çox danışmayacağam. Hər halda, sizin proqramınız – siz KVN janrından əlavə, bilmirəm, ya estrada proqramı, yaxud komik proqram və ya komediya proqramıdır. Sizin proqramınız Azərbaycanda artıq böyük şöhrət qazanmışdır. Siz burada konsert vermisiniz, onu videokasetlərə yazdırmısınız və zənnimcə, çoxlu pul qazanmısınız. Ona görə ki, həmin kasetləri məmnuniyyətlə alırlar. Hətta mənə deyirlər ki, salonda oturub tamaşa edəndə, şübhəsiz ki, diqqət yayınır, amma televiziya ilə baxanda hərəkətləri, mimikanı və s. yaxından görürsən, bu daha yaxşıdır. Ancaq şübhəsiz ki, siz məni də unutmursunuz, sizin dostluq şarjınız həmişə xoşa gəlir, əgər bacarsanız, daha nəsə tapın. Mən bilirəm, bax o bu işləri yaxşı bilir, boyu balaca olduğuna görə burada çox da gözə dəymir. Ancaq dediklərimin hamısını çox yaxşı təqdim edir. O çox adamları yamsılayır, hərəni də müxtəlif şəkildə. Bu gün sizin çıxı- şınız qısa oldu, sonra aşıq rolunda sənin qardaşın çıxış etdi. Gələn dəfə sizinlə görüşərik.

Mən sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

L a r i s a D o l i n a: Biz də Sizə cansağlığı arzulayırıq. Çox sağ olun. Heydər Əliyeviç, icazə verin, sizinlə görüşməyimiz münasibətilə üzünüzdən öpüm.

ÖLKƏMİZDƏ BAŞ VERƏN GÜCLÜ ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

Prezident sarayı

26 noyabr 2000-ci il

Artıq hamıya məlumdur. Sizin hər biriniz respublikada idiniz. Dünən Azərbaycanda böyük bir təbii fəlakət baş veribdir. Dünən axşam çox güclü zəlzələ olubdur.

Mən özüm Bakıda çoxdan yaşayan adamam. Hesab edirəm ki, çoxları da Bakıda doğulub, yaşayıblar. Dünən zəlzələ olan kimi, bir şey düşündüm ki, Bakıda heç vaxt belə güclü zəlzələ olmamışdır. Hətta, mənim xatirimdədir, dünyanın müxtəlif yerlərində zəlzələ baş verərkən, bəzi adamlar deyirdilər ki, ümumiyyətlə, Bakı zəlzələ zonası deyildir. Bakıda neft buruqları o qədər çoxdur ki, yerin altında zəlzələni doğuran qüvvə vaxt-vaxt yerin səthinə çıxır. Bilmirəm, bu, elmi, yaxud da başqa nöqteyi-nəzərdən düzdür, ya yox. Mən sadəcə, öz bildiyimi deyirəm.

Zəlzələ çox güclü olmuşdur. Hər biriniz bunu hiss etmisiniz. Mən də o vaxt evdə idim. Dərhal buraya, iş yerimə, Prezident sarayına gəldim və Baş nazir, başqa şəxslər təcili toplaşdılar. Mən bir tərəfdən, tapşırdım ki, zəlzələnin səbəblərini, onun nə qədər güclü olduğunu araşdırsınlar. İkinci tərəfdən də, zəlzələ nəticəsində bizə nə zərər dəyibdir, bunu araşdırsınlar və xüsusən də təcili tədbirlər görülsün ki, insanlar zəlzələdən zərər çəkməsin, ya da çox az zərər çəksin.

Çox böyük təəssüflə, həyəcanla demək istəyirəm ki, Azərbaycanın seysmoloji xidməti özünü çox mənfi tərəfdən göstərdi. Mən, demək olar ki, zəlzələdən 20–30 dəqiqə sonra yerimdə idim. Rasizadə də yerində idi. Soruşdum ki, bizim bu seysmoloji xidmətimiz haradadır? Hətta mənə Milli Təhlükəsizlik naziri, yaxud da Daxili İşlər naziri dedi ki, adamlar göndəriblər, orada hər yer bağlıdır. Elə deyilmi?

R a m i l U s u b o v (*Daxili İşlər naziri*): Bəli, mən zəng vurdum, amma cavab verən olmadı.

H e y d ə r Ə l i y e v: Cavab verən yoxdur. Biz indi burada hər dəqiqə izləyirik ki, nə oldu, zəlzələnin gücü nə qədər olubdur, nə qədər zərər veribdir.

Təbiidir ki, bunu qısa müddətdə aydınlaşdırmaq mümkün deyildir. Amma həmin vaxt mənə dedilər ki, artıq Türkiyənin televiziyası zəlzələ, onun gücü və harada baş verməsi haqqında xəbər veribdir. Beş-altı dəqiqədən sonra bildirdilər ki, Moskvadan NTV televiziyası da xəbər veribdir. Amma bizim respublika təşkilatlarından heç bir məlumat yoxdur. Bu, təbiidir ki, çox dəhşətli haldır.

Mən dünən axşam Baş nazir Rasizadəyə göstəriş verdim ki, Azərbaycanın seysmoloji xidmətinin vəziyyətini araşdırsınlar, lazımi tədbirlər görsünlər. Belə yaşamaq, belə işləmək olmaz ki! Biz müstəqil ölkəyik və bizim, Allaha şükürlər olsun ki, böyük kadr potensialımız vardır.

Xatirimdədir, vaxtilə mən burada işləyəndə – 1970-ci illərin axırında İsmayıllı rayonunda böyük bir zəlzələ olmuşdu. O vaxtlar bizim akademiyanın müvafiq təşkilatları gəlib hər şeyi dedilər, təcili tədbirlər gördük. Yəni zəlzələnin qarşısını almaq mümkün deyildir. Amma deyirlər ki, zəlzələnin olma ehtimalını müəyyən etmək olar. Ancaq zəlzələ baş verən kimi, zəlzələ haradan başladı, nə oldu, gücü nə qədərdir və s. – bunları bizim seysmoloji xidmətimiz bilməlidir. Mən göstəriş vermişəm, çox şeylər etmək

lazımdır. Araşdırılsın və lazımi tədbirlər görək. Çünki bizim ölkəmiz belə vəziyyətdə yaşamamalıdır.

Hər halda, biz dünyanın müxtəlif təşkilatlarından ilkin məlumatları almışıq. Moskvadan – Fövqəladə Hallar üzrə Nazirlikdən buraya, mənim aparatıma zəng ediblər. Bizə oradan deyirlər ki, zəlzələ burada olubdur, onun episentri buradadır, onun gücü bu qədərdir və sair. Amma biz buradan bir məlumat ala bilmirik. Moskvada Yer Fizikası İnstitutu vardır. Onlar hər şeyi qeydə alıblar. Özü də onlar dərhal nəinki qeydə alıblar, hətta xəbər veriblər. İndi təsəvvür edin, axı bir şeyi texniki nöqteyi-nəzərdən qeydə almaq, onu televiziyaya çatdırmaq – bu, vaxt tələb edir.

Bizim ölkəmizdə zəlzələ olubdur. Biz 10–15 dəqiqəyə bir yerə yığışmışıq. Ancaq bizim seysmoloji idarəmizin qapısı bağlı olubdur. İlk məlumatı Türkiyə televiziyasından, Rusiya televiziyasından, sonra Rusiyanın Fövqəladə Hallar üzrə Nazirliyindən alırıq. Ondan sonra Rasizadə mənə deyir ki, bəli, bizim işçilər gəliblər, bunlar belə deyir, onlar elə deyirlər. Mən bu məsələnin üzərində çox dayanmaq istəmirəm. Sadəcə, həm seysmoloji xidmətə, həm də Elmlər Akademiyasına böyük narazılığımı və hiddətimi bildirmək istəyirəm.

Təbiidir ki, bizim onlardan üstün olan təşkilatlarımız da bu işlə ciddi məşğul olmalıdırlar. Nazirlər Kabinetində fövqəladə hallar üzrə komissiya var, onun da sədri Şərifovdur. Onun vəzifəsi təkcə o deyil ki, bir yeri su basdı, getsin, onun nəticələrini araşdırsın. Yaxud torpaq sürüşdü, onun nəticələrini araşdırsın. Onun vəzifəsi ondan ibarətdir ki, bu iş elə təşkil edilsin ki, harada nə oldu, biz dərhal bilək, tədbirlər görək.

Ancaq bunlara, bu məlumatsızlığa baxmayaraq, belə bir ağır vəziyyətdə – təbiidir ki, bu bizim üçün çox çətin bir məsələ idi – mən dərhal Baş nazir Artur Rasizadənin rəhbərliyi altında komissiya təşkil etdim. Müvafiq nazirlər, başqa təşkilatların

nümayəndələri buraya daxil olublar. Kimisə haradasa axtardıq tapdıq, kimisə tapmadıq.

Bilirsiniz, bu da yaramaz haldır. Rasizadə mənə deyir ki, filankəsi tapdım, amma neftçiləri tapa bilmirəm. Belə şey olmaz axı? Siz dövlət işində işləyirsiniz. Yoxsa, iş qurtarır, kim haraya gedir, məlum deyildir. İndi də ki, əl telefonları çıxıb, hərənin bir əl telefonu var. Ona görə də biri gəzməyə gedir, biri kefə gedir, biri restorana gedir, biri başqa işə gedir.

Bizim əsas təşkilatlarda növbətçilər olmalıdır, əlaqə olmalıdır. Zəlzələ nəticəsində əl telefonları tamamilə sıradan çıxdı. Baş nazir bizim neft şirkətinin rəhbərlərini, eləcə də başqalarını nəyə görə tapa bilməsin? Niyə? Bundan ciddi nəticələr çıxarmaq lazımdır. Baş nazirdə məlumat var ki, kimi nə vaxt tapa bilib, kimi nə vaxt çağıra bilibdir. İndi mən buna vaxt itirmək istəmirəm. Sonra bunları müzakirə edəcəyik. Mən sizi də və respublikanın burada olmayan vəzifəli şəxslərini də, nazirliklərin, komitələrin, təşkilatların başçılarını da xəbərdar edirəm, məsuliyyət hissinizi itirməyin. Siz hərəniz böyük bir sahənin başçısısınız. Siz işdən sonra haraya gedirsiniz, gedə bilərsiniz. Amma bilinməlidir ki, sən haradasan. Çünki sən 24 saat cavabdehsən, təkcə 8 saat iş rejimində yox.

Mən yenə də deyirəm, bu, Bakı üçün gözlənilməz hadisədir. Bəlkə də indi mən, bizim bu adamlar, o cümlədən fövqəladə hallar üzrə komissiyamız Bakıda belə şeylər olmadığına görə, arxayınçılıq hissi ilə yaşamışıq. Ancaq indi gördük ki, Bakıda da belə şey ola bilər.

Hadisə baş verəndə gecə də, indi də bu işə cəlb olunan adamlar işləyiblər, lazımi tədbirlər görüblər. Zərər çox dəyibdir, Allaha şükür olsun ki, ancaq böyük dağıntılar olmayıbdır. Çünki bu elə zəlzələ idi ki, doğrudan da çox böyük fəlakətlər gətirə bilərdi. Ancaq zərər dəyibdir, özü də çox zərər dəyibdir. Elə mənim oturduğum binanı, oraları görürsünüz. Hamısı çatlayıbdır. Mənim iş otağımda da çatlar var. Gecə

içəriyə girmişəm – bu cür böyük binada, iş otağımda orada çat var, burada çat var. İclaslar apardığımız bu salonda da hər şey çatlayıbdır. Təbiidir, sonra bundan nəticələr çıxarmaq lazımdır ki, görək bizim inşaat işləri, tikinti işləri nə cür gedir.

Mənim yadımdadır. Şərifov, de görüm 1970-ci illərdə bu binalar neçə bala uyğun tikilirdi?

A b i d Ş ə r i f o v (*Baş nazirin müavini*): Daşkənddə zəlzələ baş verənə qədər Azərbaycanda, Bakı şəhərində əksər rayonlar hissələrə bölünmüşdü. O vaxt 7 baldan yuxarı deyildi. Daşkənddən sonra keçmiş SSRİ hökumətinin qərarı ilə Bakı şəhəri seysmik zonaya salınıbdır. 1978-ci ildən sonra tikilən binaların layihəsində seysmik hallara qarşı tədbirlər nəzərdə tutulubdur.

H e y d ə r Ə l i y e v: Yəni, o vaxtdan sonra tikilən binalar 8 ballıq zəlzələyə dözə bilsin.

A b i d Ş ə r i f o v: Bəli, bu, rayonlardan asılıdır. Yəni elə rayon var orada binalar 7 bala, eləsi də var 8 bala dözür.

H e y d ə r Ə l i y e v: Yox, mən bilirəm ki, 8 ballıqdır.

A b i d Ş ə r i f o v: Cənab Prezident, hamısı yox. Bir hissəsi 7, bir hissəsi 8 baldır. Bu bina səkkiz bala hesablanıbdır.

H e y d ə r Ə l i y e v: Bəs niyə çatlayıbdır?

A b i d Ş ə r i f o v: Cənab Prezident, konstruksiyasında ciddi bir şey yoxdur. Çatlayan suvaqdır. Bu, olan şeydir.

H e y d ə r Ə l i y e v: Yaxşı, sən gəl məlumat ver.

Baş nazirin müavini, Fövqəladə Hallar Üzrə Dövlət Komissiyasının sədri Abid Şərifovun çıxışı

Hörmətli cənab Prezident!

Məlum olduğu kimi, noyabrın 25-də yerli vaxtla saat 22.09 dəqiqədə episentr Bakı şəhərindən 100 kilometr şimalda, Xəzər dənizində olmaqla, 12 ballıq üzrə 7 bal gücündə

zəlzələ baş vermişdir. Zəlzələ Bakıda və Sumqayıtda 6–6,5 bal, Siyəzən, Dəvəçi və Xaçmazda 6 bal, Şamaxıda 4–4,5 bal, Xəzər dənizinin sahilində yerləşən digər yaşayış məntəqələrində isə müxtəlif gücdə olmuşdur.

Cənab Prezident, zəlzələ baş verəndən bu ana qədər gün ərzində daim, 10–15 dəqiqədən bir məlumat verilir. Siz ayrı-ayrı tapşırıqlar vermisiniz. İcazə versəydiniz, Sizə son məlumatları çatdırardım.

H e y d ə r Ə l i y e v: Mən sizi bura yığmamışam ki, ancaq mənə məlumatlar verəsiniz. Bəli, zəlzələ baş verəndən bu ana qədər mən bu işlə məşğul oluram və məndə məlumatlar var. Amma mən sizin hamınızı buraya toplamışam ki, sən ümumi yekun məlumatı verəsən – nə olub, nə olmayıbdır. Eyni zamanda nə işlər görmək lazımdır, onu burada müəyyən edək.

A b i d Ş ə r i f o v: Baş üstə.

Zəlzələ baş verən andan etibarən Azərbaycan prezidenti cənab Heydər Əliyevin tapşırığı və rəhbərliyi ilə Fövqəladə Hallar üzrə Dövlət Komissiyası fəaliyyətə başlamışdır və hazırda işini davam etdirir. Nazirlər Kabinetində Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının bütün sutka ərzində fəaliyyət göstərən operativ qərargahı yaradılmışdır. Qərargah respublikanın zəlzələ baş vermiş bölgələri ilə əlaqə saxlayır və zəruri tədbirlər görür. Bakı şəhəri və onun rayonlarının icra hakimiyyəti başçılarının, Dövlət Tikinti və Arxitektura Komitəsinin, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin mütəxəssislərinin iştirakı ilə bu gün Nazirlər Kabinetində komissiyanın operativ müşavirəsi keçirilmişdir. Bakı və Sumqayıt şəhərləri ərazisində yaşayış evlərinin, digər bina və qurğuların zəlzələdən ziyan çəkməsi dərəcəsini dəqiqləşdirmək üçün, cənab Prezidentin tapşırığı ilə xüsusi qruplar yaradılmış, onlar bu gün səhər saat 9.00-dan işə başlamışlar.

Cənab Prezident, Sizin komissiyaya tapşırığınız ilk növbədə ən qorxulu obyektlərin siyahısını tərtib etmək barədə idi

ki, lazım olduğu halda, insanları yaşayış evlərindən çıxaraq, müəssisələrin fəaliyyətini dayandıraq. Eyni zamanda paralel olaraq, şəhər icra hakimiyyəti və ayrı-ayrı orqanların qrupları təşkil edilib və onlar gecə-gündüz bütün obyektlərin yoxlanılması və digər məsələlərlə məşğuldurlar. Qısa müddət ərzində Sizə bu barədə əlavə məruzə edəcəyik.

Cənab Prezident, onu deyə bilərəm ki, bu ana qədər minlərlə obyektlərə, yaşayış binalarına, sosial obyektlərə ciddi ziyan dəymişdir. Sizə bir neçə saat bundan əvvəl məlumat verdim. Yəqin ki, İçərişəhərdəki Hacınskinin evi hamıya bəllidir. Həmin gözəl bina elə bir vəziyyətə düşmüşdür ki, biz orada yaşayan insanları mütləq çıxarmalıyıq. Belə binaların sayı çoxdur.

H e y d ə r Ə l i y e v: Necə yəni İçərişəhərdə, hansı İçərişəhərdə. Ora İçərişəhər deyildir.

A b i d Ş ə r i f o v: O ünvan İçərişəhər sayılır.

H e y d ə r Ə l i y e v: O, Neftçilər prospektidir. Necə yəni İçərişəhər?

A b i d Ş ə r i f o v: Bəli, cənab Prezident. Həm o bina, həm də onun yanındakı bina elə bir vəziyyətə düşübdür ki...

H e y d ə r Ə l i y e v: Yanındakı başqa. O bina Hacınskinin binasıdır.

A b i d Ş ə r i f o v: Cənab Prezident, bəli.

H e y d ə r Ə l i y e v: O, İçərişəhərdə deyil. Əsas magistralın yanında olan bir binadır. Çox gözəl memarlıq abidəsidir. Sən də mənə dedin ki, o çox böyük çat veribdir, orada yaşamaq mümkün deyildir.

A b i d Ş ə r i f o v: Bəli, cənab Prezident, çox ciddi çatdır. Orada yaşamaq qeyri-mümkündür. Bu bir neçə mütəxəssisin rəyidir. Ona görə də biz şəhər icra hakimiyyəti ilə birlikdə bu gün oradan camaatı çıxarırıq.

H e y d ə r Ə l i y e v: Çıxarmaq lazımdır.

İndi burada mənə məlumat verirlər ki, Yeni Yasamalda yaşayış binası partlayıbdır. Doqquzmərtəbəli binanın bir hissəsi qazdan partlayıbdır. Görürsünüz, zəlzələ ötüb, amma qazdan partlayış olubdur.

Usubov, onda siz «Azəriqaz»ın başçısı ilə birlikdə tez gedin, orada vəziyyəti öyrənin, lazımi tədbilər görün və gəlin məlumat verin.

A r t u r R a s i z a d ə (*Baş nazir*): Biz qazı kəsmişdik.

H e y d ə r Ə l i y e v: Kəsmişdik, indi verdik. Amma partlayıbdır. Həmin gecə qazı kəsdik, o çox böyük iş idi.

O bina çox dəyərli bir binadır. Sən bunu mənə məruzə edəndə dedim ki, o binanın çatı çoxdandır. O bina vaxtilə keçmiş sahibkarlardan birinin – Hacınskinin tikdirdiyi binadır. Çox gözəl binadır.

40-cı, 50-ci illərdə o binanın böyük bir hissəsi Azərbaycan dövlətinin qonaq evi olubdur. Hətta orada xatirə lövhəsi də var ki, Fransanın sonrakı prezidenti, general Şarl de Qoll İrandan Moskvaya gedərkən Bakıda olub, həmin o qonaq evində yaşayıbdır. Mən bilirəm ki, o vaxtlar orada Azərbaycan Nazirlər Sovetinin sədri Teymur Quliyev yaşayırdı. Ancaq o bina çat verdiyinə görə o oradan köçdü və bir müddət o binanı qəza vəziyyətində hesab etdilər. Sonra isə dedilər ki, yox, burada yaşamaq olar. Xatirimdədir, sonra həmin mənzili Yusif Məmmədəliyevə verdilər. O orada yaşayırdı və ömrünün son gününə qədər də orada yaşamışdır. Yəni demək istəyirəm ki, bu binanın zədəsi keçmişdən vardı. Ancaq sonra mütəxəssislər demişdilər ki, bu, yaşayış üçün o qədər də təhlükəli deyildir. O çox gözəl memarlıq abidəsidir, ona dəymək olmaz. Əgər çat çoxdursa, siz, birincisi, oradan adamları çıxarmalısınız. İkincisi də, bina haqqında nə etmək lazımdır, bu barədə təkliflərinizi verməlisiniz.

A b i d Ş ə r i f o v: Cənab Prezident, Siz tapşırıq verəndən sonra mütəxəssislər bu işlə məşğuldur. Binanın bərpası üsulları barədə Sizə tezliklə məruzə edəcəyəm.

Cənab Prezident, dünən gecə Sizin tapşırığınızla yalnız Bakı, Sumqayıt şəhərlərində deyil, eyni zamanda zəlzələnin əhatə etdiyi digər bölgələrdə də bütün obyektlər yoxlanılmışdır. Birinci növbədə bütün Bakı şəhər ərazisində, Sumqayıtda sututarlar – bunlar Sizə yaxşı bəllidir, 5 min kubmetrdən 20 min kubmetr həcmindədək hədsiz sayda sututarlar var – gecə və gün ərzində yoxlanılıbdır. Bu günə olan məlumata görə, ciddi bir şey yoxdur. Bu, qaz kəmərlərinə də aiddir.

Cənab Prezident, Siz tamamilə düz buyurdunuz. Qazın kəsilməsi bizi çox bəlalardan, qəzalardan qurtardı. Ona görə ki, camaatın tam əksəriyyəti evindən çıxanda bəlkə də qaz cihazlarını yanılı qoymuşdu. Çünki bu, bir an olan məsələdir. Ona görə məruzə etdik ki, qazı kəsirik, Siz bu təklifi dəstəklədiniz. Buna görə Sizə minnətdaram.

Cənab Prezident, elektrik sahəsində, yəni Bakıya, Sumqayıta gələn, habelə sahilboyu bölgələrdəki elektrik xətlərində elə ciddi bir şey olmayıbdır. Eyni zamanda vacib məsələlərdən olan Bakı şəhərinin kanalizasiyasında da ciddi problem yoxdur. Bu obyektlərin hamısı yoxlanılıbdır.

Cənab Prezident, Sizin tapşırığınızla sürüşmə zonası üçün gecə xüsusi bir qr`up yaratdıq. Şəhidlər xiyabanı, teleqüllənin ətrafı yoxlanıldı və bu gün Geologiya Komitəsi tərəfindən Bakının başqa yerlərində də sürüşmə zonaları yoxlanılıbdır. Sizə məruzə edirik ki, Allaha şükür, elə ciddi bir məsələ, dəyişiklik yoxdur. Dəmir yolunda, neft sənayesində cüzi problemlər olubdur. Amma bir neçə saatdan sonra dəmir yolu rejimlə işləməyə başlayıbdır.

Cənab Prezident, ayrı-ayrı mütəxəssisləri Qusar və Cənub bölgələri istiqamətlərinə göndərmişik ki, körpülərin dayanıqlığını

yoxlasınlar. Bu barədə Sizə məruzə etdim. Elə bir ciddi dəyişiklik yoxdur. Yəni yol nəqliyyatı yoxlanılıbdır.

Mən bu gün Sizə məruzə etdim, hörmətli müşavirə iştirakçılarının da nəzərinə çatdırıram. Mütəxəssislər istər metronun fəaliyyət göstərən hissəsini, istər də tikilən hissəsini gəziblər, bütün stansiyaları yoxlayıblar. Yalnız şimal istiqamətində ciddi su axıntısı baş veribdir. Onun da qarşısı alınacaq və bu iş nəzarətdədir. Metronun vacibliyini, önəmliliyini nəzərə alaraq, Fövqəladə Hallar üzrə Dövlət Komissiyası Bakı Metropoliteni İdarəsinin rəhbərliyinə müvafiq göstəriş veribdir. Lazımi tədbirlər bu gecə də görüləcək və sabah Sizə məruzə edəcəyik.

Cənab Prezident, teleqüllə Sizi həmişə narahat edir. Bir də təkrar etmək istəyirəm ki, onun və Şəhidlər xiyabanının ətraf sahələri barədə bizə dəfələrlə tapşırıqlar vermisiniz. Allaha çox şükürlər olsun ki, heç bir ciddi dəyişiklik yoxdur.

Səhiyyə Nazirliyinin bu saata olan məlumatına görə 133 nəfər respublikanın səhiyyə müəssisələrinə müraciət etmişdir. Onlardan 41 nəfər hospitallaşdırılmış, 92 nəfər ambulator müalicəsi alaraq evə buraxılmışdır. 133 nəfərdən 13-ü Sumqayıt vətəndaşıdır. Təəssüflər olsun ki, gün ərzində Bakı şəhərində bilavasitə zəlzələ nəticəsində və stress keçirməsi nəticəsində 26 nəfər ölmüşdür. Allah onlara rəhmət eləsin.

H e y d ə r Ə l i y e v: Necə yəni gün ərzində? Axı zəlzələ dünən axşam olubdur.

A b i d Ş ə r i f o v: Yəni zəlzələ başlayandan indiyə qədər.

H e y d ə r Ə l i y e v: Bu, gün ərzində olmadı, onda de ki, zəlzələ başlayandan indiyə qədər.

A b i d Ş ə r i f o v: Cənab Prezident, bəli.

Səhiyyə naziri tərəfindən nazirlikdə lazımi qərargah yaradılıb və bütün xəstəxanalar rəhbər işçilər, Baş həkimlər və digər lazımi mütəxəssislərlə təmin olunubdur. Biz belə bir

müraciətlə xahiş etmişik ki, şəhər və rayon icra hakimiyyətləri rəhmətə gedənlərin dəfninə lazımi kömək göstərsinlər.

Cənab Prezident, Dəvəçi, Siyəzən, Xaçmaz, Lənkəran, Astara və Salyan rayonlarından alınan operativ məlumatlara görə, yaşayış evlərinə, bir sıra bina və qurğulara da ziyan dəymişdir. Ancaq indiyə olan məlumata görə, bu rayonlarda dağıntı və insan tələfatı yoxdur.

Dünən Sizin razılığınızla şəhərdə qazı kəsdik. Ancaq bu gün qazın açılması barədə televiziya vasitəsilə camaata dəfələrlə müraciət etmişik. Bu barədə mən özüm də hamıya – icra hakimiyyəti başçılarına da, «Azəriqaz» Səhmdar Cəmiyyətinin rəhbərliyinə də dəfələrlə müraciət etmişəm ki, qazın açılması çox ehtiyatla olmalıdır. Təəssüflər olsun ki, indi belə bir xəbər gəldi. Allah eləsin, insan tələfatı olmasın.

Cənab Prezident, Daxili İşlər Nazirliyinin məlumatına görə, dünən gecə ərzində 13 yanğın hadisəsi baş vermişdir və yanğınsöndürənlər tərəfindən söndürülmüşdür. Siz bilirsiniz, amma hamının diqqətinə çatdırıram ki, hadisə baş verən andan Daxili İşlər Nazirliyi tərəfindən bütün polis idarələri həyəcan siqnalı ilə ayağa qaldırılmış və şəhərdə istər hərəkətin tənzimlənməsi, istərsə də insanların yerləşdirilməsi, boş qalmış evlərə ayrı-ayrı adamların girməsinin qarşısının alınması üçün lazımi tədbirlər görülmüşdür. Eyni zamanda Müdafiə Nazirliyinin tərkibindəki bölmələr də hadisə baş verəndən öz yerlərində olublar və lazımi köməyi göstəriblər.

Cənab Prezident, Siz özünüz bildirdiniz ki, hadisə baş verəndən sonra əl telefonları iki, üç saat ərzində işləməmişdir. Rabitə tamamilə kəsilmişdir. Düzdür, şəhər telefonları işləyirdi. Mən bunu da araşdırdım. Rabitə Nazirliyindən dedilər ki, bu yalnız gərginlikdən əmələ gəlmişdir. Gecə saat üçün yarısından etibarən rabitə qismən açılmağa başlamışdır.

H e y d ə r Ə l i y e v: Hansı gərginlikdən?

A b i d Ş ə r i f o v: Elektrik gərginliyindən söhbət getmir. İnsanlar bir-birinə çox zəng etdiklərinə görə gərginlik yaranıb.

Mənim yaxşı yadımdadır, Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar Sizin tapşırığınızla mən orada oldum. Demək olar ki, orada üç-dörd gün heç bir əl telefonu işləmirdi. Mən bunun şahidi olmuşam. Ancaq Bakıda üç-dörd saatdan sonra işləməyə başladı.

Cənab Prezident, görəcək tədbirlərimiz haqqında bir neçə söz demək istəyirəm. Əgər Siz bu təklifi bəyənmiş olsanız, sabahdan etibarən bu işi davam etdirəcəyik. Yəni məsələnin ciddiliyini nəzərə alaraq – mən Təhsil naziri Misir müəllimdən də xahiş etdim – birinci növbədə xüsusi komissiya yaratdıq. Gün ərzində təhsil ocaqlarının – institutların, universitetlərin, texnikumların və orta məktəblərin binalarının texniki vəziyyəti haqqında da araşdırmalar aparırıq və əgər hansısa bir məktəbdə, institutda ciddi problem varsa, oraya uşaqlar, tələbələr buraxılmayacaqlar. Biz bunu həll edəcəyik. Artıq bizə bəllidir. Əgər bizi dəstəkləyirsinizsə, istəyirik belə bir prinsiplə işimizi davam etdirək.

Bakı şəhərində nə qədər mütəxəssis varsa, onlardan ibarət qruplar yaratmışıq. Sabahdan etibarən Bakı, Sumqayıt şəhərlərinə, başqa bölgələrə çıxacaqlar. Maliyyə, iqtisadiyyat və digər aidiyyati nazirliklərin mütəxəssislərinin iştirakı ilə birinci növbədə dəymiş zərərin miqdarını təyin etmək, ən qəzalı, təhlükəli obyektlərin bərpasına başlamaq lazımdır. Bununla əlaqədar maliyyə məsələsinə də baxılacaqdır.

Siz çox yaxşı dediniz ki, mütəxəssislərin fikrincə, Azərbaycanın tarixində Bakıda, Abşeronda 6,5 bal gücündə belə bir zəlzələ heç vaxt olmayıbdır. Allaha şükür ki, Bakının yüz kilometrliyində baş vermiş 7 bal gücündə zəlzələdən qurtardıq. Düzdür, böyük ziyan dəyibdir. Cənab Prezident, fürsətdən istifadə edib, bir şeyi xahiş etmək istərdim ki, Azərbaycanda fövqəladə hallar üzrə nazirlik yaradılsın.

H e y d ə r Ə l i y e v: Bilirsən, vaxtımızı alma. Bu, təşkilati məsələdir. Nazirlik yaranıb o dəqiqə bu məsələni həll etməyəcəkdir ki? Nazirlik yaranacaqdır, ancaq bunun indiki bu işə dəxli yoxdur. Sən sabah, o biri gün üçün nəzərdə tutulan məsələlərdən danış.

A b i d Ş ə r i f o v: Bağışlayın, cənab Prezident. Mən çıxışımı qurtardım.

H e y d ə r Ə l i y e v (*Daxili İşlər naziri Ramil Usubova müraciətlə*) : Məlumat verin, hamı bilsin.

R a m i l U s u b o v: Partlayış ikinci yeni Yasamalda, 8 nömrəli binanın 8-ci mənzilində baş veribdir. Məlumata görə, partlayış nəticəsində mənzilin tavanı uçub sakinlərin üstünə düşübdür. Onlara indi yardım göstərirlər. Lakin yanğın baş verməyibdir.

H e y d ə r Ə l i y e v: Yanğın baş verməyibdir?

R a m i l U s u b o v: Xeyr, yanğın baş verməyibdir. Orada polis işçiləri, sakinlərin yaxın adamları kömək, yardım göstərirlər ki, onları xilas etsinlər.

Seysmoloji Xidmət Mərkəzinin Baş direktoru Arif Həsənovun çıxışı

Möhtərəm Prezident, xatırlatmaq istərdim ki, bizim təşkilat 80-ci illərin əvvəlində yaranıbdır. İsmayıllı zəlzələsindən sonra Siz təşkilatımıza çox böyük fikir verdiniz. Ancaq çox təəssüf ki, Nazirlər Kabinetinin 1982-ci ildəki qərarı kağız üzərində qaldı, heç nə etmədilər. Bakı stansiyası üçün yer verilmədi. Bakı stansiyası Geologiya İnstitutunda balaca bir otaqda yerləşir. Dünən zəlzələ olan kimi, hamımız orada idik. Sizə düzgün məlumat verməyiblər.

H e y d ə r Ə l i y e v: Sizi niyə tapa bilmirdilər?

A r i f H ə s ə n o v: Onlar bizi oturduğumuz binada axtarıblar. Biz hamımız seysmik stansiyada, cihazlar olan yerdə

idik. Yeri gəlmişkən, demək istəyirəm ki, Moskvadakı Yer Fizikası İnstitutu məlumatı məndən aldı, özlərinin məlumatını düzəldib və görünür, onu sonra Sizə veriblər.

H e y d ə r Ə l i y e v: Bəs onda sən bura niyə məlumat vermədin?

A r i f H ə s ə n o v: Sizə də, Artur Rasizadəyə də, Abid Şərifova da faksla məlumat vermişik.

A r t u r R a s i z a d ə: Cənab Prezident, Siz işə girişəndən sonra...

H e y d ə r Ə l i y e v: İşə girişməyin sonrası nədir? 10, 15, 20 dəqiqə...

A r t u r R a s i z a d ə: Siz iş yerinə gələndə məlumat yox idi. Siz işə gələndən sonra oldu.

H e y d ə r Ə l i y e v: Məlumat yox idi. Sən də mənə dedin ki, onları tapa bilmirsən.

A r t u r R a s i z a d ə: Bəli.

H e y d ə r Ə l i y e v: Usubov da dedi ki, adam göndərmişik. Tapa bilmirlər, telefonlara cavab verən yoxdur.

R a m i z M e h d i y e v (*Prezidentin İcra Aparatının rəhbəri*): Cənab Prezident, Nəriman Quliyevə tapşırmışdım, o, Arif Həsənovu axtarırdı, tapa bilmirdi.

R a m i l U s u b o v: Bəli, biz də onu axtarırdıq.

H e y d ə r Ə l i y e v: Ay qardaş, sən niyə yalan danışırsan?

A r i f H ə s ə n o v: Möhtərəm Prezident, bilirsiniz ki, mən ölümə də getsəm, Sizə yalan danışmağa haqqım yoxdur və danışmaram. Ancaq cənab Şərifov buradadır, desin. Zəlzələ olandan 20 dəqiqə sonra əlaqə saxlamağa başladıq.

H e y d ə r Ə l i y e v: Heç 20 dəqiqədən sonra Şərifov yerində yox idi. Yox idi, sən niyə yalan danışırsan?

Mən aparata gəldim. Sən də gəldin, Şərifov var idi?

A r t u r R a s i z a d ə: Zəlzələdən 10 dəqiqə sonra mən iş yerində idim. Siz də sonra gəldiniz.

H e y d ə r Ə l i y e v: Bəs nə cür olur, o, Şərifova məlumat verdi. Mən də səndən beş dəqiqədən bir soruşuram, sən bilmirsən.

R a m i z M e h d i y e v: Mən işə gələndən sonra zəng vurdum. Şərifov evdən o vaxt çıxdı. Mən işə gələndən sonra.

A b i d Ş ə r i f o v: Mən olmamışam. Gəlib sənədləri götürmüşəm.

H e y d ə r Ə l i y e v: Fərqi nədir, sən otağa girib-çıxmısan, yaxud da girib-çıxmamısan. Hər halda, Ramiz Mehdiyevin işə gəlməyi çox çəkməyibdir. Mən dərhal Artur Rasizadəyə, Ramiz Mehdiyevə telefon etdim. Dedim ki, işə gəlin. Mən də işə gedirəm, adamları da çağırın.

A r i f H ə s ə n o v: Möhtərəm Prezident, onu da deyim ki, bu məlumatı köhnə cihazlar vasitəsilə verənə kimi azı 1,5–2 saat vaxt lazım gəlir.

H e y d ə r Ə l i y e v: Bilirsən nə var? Sən deyirsən ki, bu məlumatı birinci siz almısınız və siz vermisiniz. Onda nə üçün onların verdiyi məlumatla sizin məlumat üst-üstə düşmür? Onlar ilkin məlumat verdilər ki, zəlzələ Bakının cənub tərəfində, sahildən təxminən 100 kilometr uzaqlıqda baş verib və episentri Xəzərin İran tərəfində olubdur. Oradan da Bakıya gəlibdir. Bu məlumatı Moskva da verdi, Türkiyə də verdi.

Siz gələndən sonra Rasizadə, Şərifov sizinlə işləyiblər. Məlumat verdiniz ki, bu, cənubda yox, şimalda olubdur. Təxminən Xəzərin Siyəzən tərəfində. Siz belə məlumat verdiniz. Mən də Rasizadəyə deyirəm ki, sən araşdır, hansı düzdür, bu düzdür, yaxud o düzdür. İndi bizim üçün fərqi yoxdur, hansı düzdür. Zəlzələ olubdur. Amma bilməliyik, sonra bizi nə gözləyir. Əgər siz məlumat vermişdinizsə, onlar niyə belə məlumat verdilər?

A r i f H ə s ə n o v: Onlar bizimlə danışandan sonra məlumatlarını dəyişdirdilər.

H e y d ə r Ə l i y e v: Demək, onlar sizdən qabaq biliblər.

A r i f H ə s ə n o v: Onlar bizdən əvvəl səhv məlumat veriblər. Onlar bizimlə bu gün danışıblar. Özü də zəlzələ cənubda necə ola bilər ki, Xaçmaz, Dəvəçi və s. şimalda yerləşir.

H e y d ə r Ə l i y e v: Ay qardaş, ay yoldaş, mənim vaxtımı alma. Alma vaxtımı. Alimsən, necə deyərlər, ağsaqqal adamsan. İstəmirəm sənə daha da ağır söz deyim. Vaxtımı alma. Mən sadəcə, məntiqlə sübut etdim ki, belə deyildir. Sən isə istəyirsən mənə məntiqsiz sübut edəsən ki, belədir. Mənim üçün aydındır. İstəyirsən 15 dəfə de, mən daha sənin dediyinə inanmıram. Çünki bizim dövlət adamları sizi axtarıb tapa bilməyiblərsə, akademiyadan Nəriman Quliyev səni tapa bilməyibsə, biz oradan başqa məlumat almışıqsa, həmin məlumatı da sizdən xeyli qabaq almışıqsa, indi sən nə cür sübut edirsən ki, sən yerində idin, birinci məlumatı siz vermisiniz, sizin məlumatınız əsasında onlar məlumat veriblər? Bunlar hamısı cəfəngiyatdır. Qurtaraq. Mənim vaxtım yoxdur. Daha buna vaxt itirməyə dəyməz. Ümumiyyətlə, mən heç kəsi burada saxlamaq istəmirəm. Hərə öz işində olmalıdır.

Bir sözlə, sizin təşkilatınız Azərbaycanda bu cür böyük fəlakət zamanı özünü mənfi tərəfdən göstərdi. Siz düzgün xatırlatdınız ki, o vaxtlar, 1981-ci ildə İsmayıllıda böyük zəlzələ oldu, dağıntılar oldu. Mən sizinlə bir neçə dəfə görüşdüm. Gəlib mənə məlumat verdiniz. Mən özüm İsmayıllı rayonuna getdim, bütün dağıntıları gördüm, lazımi tədbirlər gördük. Siz izləyirdiniz ki, zəlzələ təkrar olacaq, olmayacaq, başqa yerlərə yayılacaq, yayılmayacaqdır.

Mənim xatirimdədir, sizinlə o vaxt görüşürdüm. O da xatirimdədir ki, bəli, mən göstəriş verdim ki – onda Azərbaycanda ilk dəfə ağır zəlzələ olmuşdu – bu təşkilatı gücləndirməliyik. Mən indi bu barədə dünən gecə Rasizadəyə də demişəm. Rasizadə də dedi ki, bəzi avadanlıq almışıq. Dedim, bu azdır. Güclü bir təşkilat yaratmaq lazımdır. Amma indiyə qədər siz orada oturub, necə deyərlər, başınızı girləmisiniz,

bu təşkilatın lazımi avadanlıqla təchiz edilməsi ilə məşğul olmamısınız. Elə bunun özü günahdır. Mən bilirəm ki, siz özünüz bunu edə bilməzsiniz. Amma gərək Nazirlər Kabinetinin, prezidentin qarşısında məsələni sərt qoyasınız. Məsələn, biz bilmirik ki, bu nə qədər vacib məsələdir.

Vaxt alma, indi deyin görüm, zəlzələdən sonra nə müşahidə etmisiniz?

A r i f H ə s ə n o v: Möhtərəm Prezident, bildiyiniz kimi, iki dəfə təkan oldu.

H e y d ə r Ə l i y e v: Nə qədər?

A r i f H ə s ə n o v: İki dəfə. Əgər Rixter cədvəli üzrə götürsək, birinci təkan 5,8 bal, ikinci təkan isə 6,3 bal gücündə idi.

H e y d ə r Ə l i y e v: Sən bunu Bakı üzrə deyirsən?

A r i f H ə s ə n o v: Mən zəlzələnin olduğu yerdə deyirəm. Zəlzələnin gəlib buraya çatması, bizim hiss etməyimiz 12 ballıq cədvəl üzrə Bakıda 6–6,5 bal olubdur. Bu saatadək 100-dən çox təkan qeydə almışıq. Bu təkanların içərisində 4 bal gücündə olan da var. Ancaq bu onu göstərir ki, zəlzələ sönməyə doğru gedir. Bu sönmə 40 günə qədər davam edəcəkdir.

H e y d ə r Ə l i y e v: 40 gün?

A r i f H ə s ə n o v: Bəli, getdikcə gücü azalacaqdır.

Mən dünən televiziya vasitəsilə çıxış edib dedim ki, arxayın olun, güclü təkan gözlənilmir. İndi də 99 faiz əminliklə deyirəm ki, güclü təkan olmayacaqdır. Zəif təkanlar olacaq, amma güclü təkan olmayacaqdır. Bu barədə məlumatı hadisədən saat yarım sonra Sizin qəbul otağınıza vermişik.

H e y d ə r Ə l i y e v: Səhər vermisiniz. Rasizadə artıq gecə mənə məlumat vermişdi. Qurtardın?

A r i f H ə s ə n o v: Bəli.

H e y d ə r Ə l i y e v: Demək, biz belə başa düşməliyik. Yəqin ki, bu müşavirəni televiziya ilə verəcəklər. Bizim vətəndaşlarımız da belə başa düşməlidir ki, ondan sonrakı xırda-

xırda təkanlar hiss olunmayıbdır. Bunu ancaq siz aparatlarınızda hiss etmisiniz.

A r i f H ə s ə n o v: Bəziləri Bakıda hiss olunubdur. Səhər saat 8-ə yaxın bir balaca hiss edilibdir.

A r t u r R a s i z a d ə: Gecə də təkan olubdur.

H e y d ə r Ə l i y e v: Sən onu hiss etdin?

A r t u r R a s i z a d ə: Mən yox.

R a m i l U s u b o v: Cənab Prezident, saat 4-ə qalmış bir dəfə oldu. Mən otaqda idim, hiss etdim. Amma yüngül idi.

H e y d ə r Ə l i y e v: Ondan sonra.

A r i f H ə s ə n o v: Zəif təkanların sayı yüzü keçibdir. Güc tezliklə azalır.

H e y d ə r Ə l i y e v: Bir də de, iki böyük təkandan sonra neçə təkan olubdur?

A r i f H ə s ə n o v: Yüz təkan olubdur.

H e y d ə r Ə l i y e v: Artur, sən bayaq 86 deyirdin.

A r t u r R a s i z a d ə: Cənab Prezident, 30 dəqiqədən bir sayı artır.

A r i f H ə s ə n o v: Bəli, müəyyən vaxtdan bir sayı artır.

H e y d ə r Ə l i y e v: Yaxşı, sən əyləş.

* * *

H e y d ə r Ə l i y e v: Artur, mən sənə dünən də dedim, bu gün bir daha deyirəm, 1981-ci ildə göstəriş vermişdim ki, bu stansiyanı lazımi səviyyəyə gətirmək vacibdir, indi 19 ildən sonra bir də göstəriş verirəm. Elə olmasın ki, 19 il də gözləyib yenidən göstəriş verim. Başa düşdünmü? Mən sənə tapşırıram ki, bunlara nə qədər vəsait, bina, hansısa avadanlıq lazımdırsa təmin etmək gərəkdir. Bu, bir. İkincisi, bunlar üçün daha keyfiyyətli, müasir işləri bilən kadrlar lazımdır. Təkcə avadanlıqla iş bitmir. Düzdür, avadanlıq əsasdır. Çünki avadanlıq, texnika olmadan yəqin ki, bunlar ağıl hesabına heç bir şey müəyyən edə bilməzlər. Amma iş orasındadır

ki, texnikanı, həmin o cihazları yaxşı bilən adam əvvəlcədən də zəlzələ təhlükəsi meyllərini müəyyənləşdirə bilər. Mən bunu sənə tapşırıram, iki ay da vaxt verirəm.

Ramil Usubov, sən danış görüm. Çünki Daxili İşlər Nazirliyi dünən dərhal işə qoşuldu, mən bunu indi qeyd etməliyəm. Dövlət avtomobil müfəttişliyinin maşınları şəhərin hər yerində adamlara xəbərdarlıq etdi. Mən bunu müsbət qiymətləndirirəm. Ramil Usubov deyəsən, hamıdan tez öz iş yerinə gəlmişdi.

Daxili İşlər Naziri, general-leytenant
Ramil Usubovun çıxışı

Cənab Prezident, hadisədən 6 dəqiqə keçmiş mən iş yerinə çatdım və Siz dərhal göstəriş verdiniz ki, mən təcili tədbirlər görüm, birinci növbədə, dağıntıların miqyasını öyrənim, yerlərə lazımi qüvvələr göndərim, sonra qəza-xilasetmə, yanğından mühafizə dəstələri fəaliyyətə başlasınlar. Bununla bağlı biz dərhal tədbirlər gördük.

Cənab Prezident, məruzə edirəm ki, ilk yarım saat ərzində şəxsi heyətin üçdə bir hissəsi hadisə ilə bağlı öz yerlərini tutmuşdu. Yerli bölmə və şöbələr bütün vətəndaşların köməyinə çatmaq və onlara xəbərdarlıq etmək, əhali arasında vahimə yayılmasının qarşısını almaq üçün tədbirlər görüldü. Yol polisi, Yanğından Mühafizə İdarəsi fəaliyyətini davam etdirirdi.

Cənab Prezident, biz toplanmış məlumatları Sizin göstərişiniz əsasında, televiziyaya mütəmadi olaraq ötürürdük ki, vətəndaşlarımız vəziyyətin nə yerdə olduğunu bilsinlər.

Biz, demək olar ki, səhərə qədər respublika Baş prokuroru ilə birlikdə bütün digər xidmət sahələri ilə əlaqə saxlayırdıq, yardım tələb olunan yerlərə kömək edirdik, Səhiyyə Nazirliyinin bütün qüvvələri bu işə səfərbər olunmuşdu və əlaqəli iş təmin edilmişdi.

Cənab Prezident, bildiyiniz kimi, burada rabitənin əsas rolu var. Respublikada daxili rabitə çox yaxşı işlədi. Düzdür, bir qədər çətinliklərimiz vardı, amma çox yaxşı işlədi. Təəssüf ki, əl telefonları nədənsə tamamilə çətinlik yaratdı. O da müəyyən qrupların hadisə yerinə vaxtında çatdırılmasını ləngidirdi.

H e y d ə r Ə l i y e v: Bilirsənmi, onlar niyə yaxşı işləmədi? Çünki adambaşına düşən cib telefonlarının sayına görə Azərbaycan birinci yerdədir. Respublikanın əhalisində 400 min cib telefonu vardır. İndi deyin görək bu insanlar səfalət içində yaşayır, yoxsa yox? 400 min cib telefonu var. Heç bir ölkədə adambaşına bu qədər cib telefonu yoxdur. Adam tapa bilmirsən ki, cib telefonu olmasın, bircə Heydər Əliyevdən başqa. Mənim yoxumdur, heç olmayacaqdır da. Çünki heç bilmirəm ki, ondan nə cür istifadə etmək lazımdır. İlk dəfə burada cib telefonu çıxanda, birincisini gətirib mənə təqdim etdilər. Mən buna baxdım və götürüb kiməsə verdim. Dedim, bu mənim nəyimə lazımdır. Amma indi hamıda cib telefonu vardır. Cib telefonu üçün pul vermək lazımdır, ikincisi, onun danışıq haqqı var. Bəzi adamlar gündə 5–6 saat cib telefonu ilə danışır. Bilin ki, respublikamızda 400 min cib telefonu vardır.

Bunu bir tərəfdən, müsbət qiymətləndirmək olar ki, bizim Azərbaycan müasir rabitə sistemindən daha da çox istifadə edir. Buna mənim etirazım yoxdur. Amma görürsünüzmü, belə bir ağır vəziyyətdə həmin o cib telefonları işləmədi. Bunun ikinci tərəfi də odur ki, bu, Azərbaycanda insanların maddi vəziyyətinin göstəricisidir. Əgər 400 min cib telefonu varsa, deməli, 400 min şəxs başqa xərclərindən savayı, cib telefonlarının alınmasına və onlardan istifadə olunmasına xeyli pul sərf edə bilir.

R a m i l U s u b o v: Cənab Prezident, eyni zamanda, mühüm dövlət obyektləri dərhal mühafizəyə götürüldü. Onların mühafizəsi gücləndirildi. Mən Sizə bu barədə məruzə etdim. Bilirsiniz ki, səhər saat 3-də camaatın əksər hissəsi bağ

evləri istiqamətində hərəkət edirdi, bu səbəbdən yollarda müəyyən tıxaclar yaranırdı. Dövlət yol polisinin əməkdaşları hərəkəti tənzimlədilər. Evlər, binalar müəyyən dərəcədə nəzarətsiz qaldığına görə ehtimal olunurdu ki, bu, müəyyən oğurluq, qarətçilik hadisələrinin törədilməsinə şərait yaradacaq, bu barədə də tədbirlər görmüşük. Bildirirəm ki, bununla bağlı elə bir qanqaraldıcı hadisə olmamışdır. Yəni mümkün hadisələrin qarşısı alınıbdır. Hazırda şəxsi heyət yenə də gücləndirilmiş həmin iş rejimində fəaliyyətini davam etdirir və Sizin tapşırıqlarınızı yerinə yetirməyə hazırdır.

H e y d ə r Ə l i y e v: Səhiyyə naziri Əli İnsanov danışsın.

Səhiyyə Naziri Əli İnsanovun çıxışı

Möhtərəm cənab Prezident, dünənki ağır vəziyyətdə səhiyyə işçilərinin, həkimlərin rahat işləməsi üçün yaratdığınız şəraitə və bütün orqanların yaxından köməyi sayəsində işimizin rahat getməsinə görə Sizə minnətdarlığımızı bildiririk. İcazə verin, xüsusilə polis orqanlarına, yol polisinə minnətdarlığımı bildirim. Həmin gecə bizə hər cür imkan və şərait yaradıldı. Hara getdiksə, orada polis işçiləri vardı. Təcili xidmət maşınları evlərdən yaralıları və xəstələri təcili xəstəxanalara çatdırmaq üçün heç bir maneəyə rast gəlmirdilər.

Həqiqətən də rabitə sisteminin çox yaxşı işləməsi evlərlə əlaqə saxlamağa imkan verdi və bütün xəstələrlə əlaqə yaratmaq mümkün oldu, onların bəzilərinə evdə, tam əksəriyyətinə isə xəstəxanalarda xidmət göstərildi.

Möhtərəm cənab Prezident, icazə verin, noyabrın 26-da saat 17-yə olan məlumatı Abid müəllimə çatdıra bilmədiyimizə görə, həmin məlumatı burada Sizin diqqətinizə çatdırım. Saat 17-də olan məlumata görə 298 nəfər bizim poliklinikalara və xəstəxanalara müraciət etmiş, təcili yardım xəstəxanasında

tibbi yardım almışlar. Onlar bir sıra yüngül və ağır dərəcəli yaralılardır. Hazırda reanimasiyada 54 xəstə yatır. 26 nəfərin ölüm hadisəsi qeydə alınıbdır. Ancaq reanimasiyada yatan xəstələrin də hələ hamısının taleyi tam məlum deyildir. Təəssüf ki, ölüm halları arta da bilər.

Hazırda reanimasiyada yatan xəstələrdən 25-i ağır vəziyyətdədir. Onların intensiv müalicəsi aparılır. Müalicənin gedişinə ciddi nəzarət olunur.

Cənab Prezident, burada bir məsələni də qeyd etməliyəm ki, belə ağır zəlzələ şəraitində bizim doğum evləri də bu gecə gərgin işləmişlər. Stress vəziyyətində hamilə qadınlarda çox sürətli doğuşlar baş verir, onlar çox ağır vəziyyətə düşə bilirlər. Ona görə də bütün gecə ərzində doğum evləri də intensiv işləmişlər.

Məlumat üçün bir məsələni də qeyd etməliyəm. Biz indi Azərbaycanda belə ağır vəziyyətdə stress keçirmiş 10 minlərlə xəstə qeydə ala bilərik. Möhtərəm cənab Prezident, onlar sağlam sayılsalar da uzun aylar, bəlkə də illər onlara tibbi-profilaktik müalicə tədbirləri görmək zərurəti vardır.

Bu gün biz Abid müəllimə verdiyimiz məlumatdan sonra saat 17-yə qədər yeni məlumatlar aldıq. Yəni 142 nəfər gün ərzində, səhərdən başlayaraq, özləri xəstəxanalara müraciət etmişlər. Biz onları müxtəlif xəsarətlərlə müayinəyə və müalicəyə cəlb etdik.

H e y d ə r Ə l i y e v: Bu təbiidir. İnsanlar bu gecəni soyuq havada, küçədə keçiriblər, yəni evlərində olmayıblar. Mən özüm bunları gördüm. Özü də bəziləri evdə hansı paltarda idilərsə, o cür çıxıblar, gedib evdən isti paltar götürməyə qorxublar. Ona görə də hələ bunun mənfi nəticələri bir az sonra bilinəcəkdir, kiməsə soyuq dəyib, kimsə sətəlcəm olub, üşüməkdən başqa bir xəstəliyə düçar olubdur. Bunların hamısı təbiidir. Mənə dedilər ki, axşam hadisə baş verən kimi Bakı şəhərinin əhalisi – kimin imkanı vardırsa, avtomobilləri ilə bağlarına

gedirdilər. Deyirlər ki, bağlarda vəziyyət daha təhlükəsizdir. Orada evlər uça bilməz, çünki bu evlər böyük deyil.

Məlumat verirdilər ki, hadisə zamanı küçələrdə avtomobil əlindən keçmək olmurdu. Bu təbiidir. Amma vətəndaşlarımızdan bağı, avtomobili olan adam o qədər də çox deyil. Sən bilirsən ki, bunlar, açığını deyək ki, imkanlı adamlardır. Ancaq vətəndaşlarımızın əksəriyyətinin nə bağı, nə də avtomobili var, yəni imkansız adamlardır. Ona görə mən demək istəyirəm ki, bundan sonra da, bu günlər siz, yəqin ki, belə xəstəliklərlə rastlaşacaqsınız. Sizin vəzifəniz odur ki, lazım ola biləcək bütün dərman və ləvazimatla təchiz edilmiş xəstəxanalarda yer ayırasınız ki, belə adamları tezliklə sağaldasınız. Bir də ki, Abid Şərifov da dedi, xəstəxanaların hamısı təhlükəsizdirmi? Xəstəxanada xəstə yatıb, birdən bir yer uçdu, dağıldı?

A b i d Ş ə r i f o v: Cənab Prezident, biz Əli müəllimlə danışmışıq, xəstəxanalara ilkin baxış keçirilibdir. Elə bir ciddi məsələ yoxdur. Ancaq sabah daha diqqətlə baxacağıq. Əli müəllim müavininə tapşırıb, bizim mütəxəssislərlə birlikdə xəstəxanalara bir də baxacaqlar.

Ə l i İ n s a n o v: Cənab Prezident, işimizi davam etdiririk.

H e y d ə r Ə l i y e v: Təhsil müəssisələri haqqında Abid Şərifov dedi. Misir Mərdanov, siz də baxın, hansı məktəbdə gördünüz ki, çat var, orada iki-üç gün dərs keçməyin, təmir edin. Dövlət Tikinti Komitəsi gərək rəy versin, orada dərsi davam etdirmək olar, ya yox?

M i s i r M ə r d a n o v: Cənab Prezident, lazımi tədbir görəcəyik.

H e y d ə r Ə l i y e v: Başqa söz demək istəyən varmı?

A b i d Ş ə r i f o v: Geologiya və Mineral Ehtiyatlar Komitəsinin rəhbərliyindən danışmaq istəyən var.

Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi sədrinin birinci müavini İslam Tağıyevin çıxışı

Cənab Prezident, mən buraya yaxın yerdə yaşayıram. Məlumat verirəm ki, zəlzələ baş verən anda nəvələrimi, uşaqlarımı evdəkilərə tapşırıb, 10 dəqiqədən sonra buraya gəlmişəm, Vaqif müəllimlə və Bəylər müəllimlə görüşmüşəm, demişəm ki, mən iş yerimə gedirəm. 5–10 dəqiqədən sonra Artur Rasizadəyə zəng edib demişəm ki, mən iş yerimdəyəm.

Demək istəyirəm ki, rayonlarda bizim paliqonlarımız var. Bizim xüsusi quyularımız vardır ki, orada cihazlar qoyulubdur. Həmin cihazlar vasitəsilə zəlzələnin haraya yayıldığını tədqiq edib öyrənə bilirik. Sizin burada qaldırdığınız məsələ ilə əlaqədar demək istəyirəm ki, bu zəlzələ həqiqətən də şimal–şərqə doğru 100 kilometr məsafədə, demək, Mahaçkala–Krasnovodsk adlanan tektonik zonanın üzərində yerləşir.

Siz dediniz ki, burada çoxdandır zəlzələ olmur. Mən Sizə bildirirəm ki, 1842-ci ildə Maştağada, deməli, həmin zonada böyük bir zəlzələ olmuşdu.

H e y d ə r Ə l i y e v: 1842-ci ildə?

İ s l a m T a ğ ı y e v: Bəli. Aşqabad da bu zonanın üzərində olduğuna, həmin tektonik zona ilə əlaqəsinə görə 1948-ci ildə orada zəlzələ baş vermişdi.

H e y d ə r Ə l i y e v: Aşqabadda çox dəhşətli zəlzələ olmuşdu. Aşqabad tamam dağılmışdı.

İ s l a m T a ğ ı y e v: Bəli. Mən bir məsələni burada qaldırmaq istəyirəm. Biz çox xoşbəxtik ki, əgər belə güclü zəlzələ Şimali Qafqazda, Ermənistanda və yaxud Gürcüstanda baş versəydi tələfat dəfələrlə çox olardı, Spitak zəlzələsindən də geri qalmazdı. Orada süxurların vəziyyəti belədir. Siz burada həqiqətən düzgün buyurdunuz, bizi xilas edən odur ki, Abşeron, yəni böyük Bakımız, bizim dənizimiz təxminən 10-25 kilometrə qədər dərinlikdə qumlu-gilli süxurlardan ibarətdir.

Bu süxurlar amartizator rolunu oynayır. Sizə məlumat verirəm ki, burada baş verən zəlzələ bu süxurlarda söndürülüb. Ona görə də Bakıda 6 bal gücündə zəlzələ baş veribdir.

Dünən mən bütün rayonlarla əlaqə saxlamışam. İsmayıllı rayonunun Buynuz kəndində bizim xüsusi poliqonumuz, quyumuz, cihazlarımız var. Mən göstəriş vermişəm, oradakı həmin qurğunu gətiriblər, indi bizim komitədədir. Burada, Novxanı kəndində bir quyuda maqnit yazıları var, mən Sizə, mütəxəssislərə göstərə bilərəm ki, yerin 20–30 kilometrlik dərinliyində 3–4 aylıq zəlzələ zamanı nə kimi hadisələr baş veribdir.

H e y d ə r Ə l i y e v: Yəni 3–4 ay bundan əvvəl baş vermiş zəlzələnin nəticələrini bilmək olur?

İ s l a m T a ğ ı y e v: Bəli. Bütün il ərzində biz cihazlar vasitəsilə nəzarət edirik, qeydiyyat aparırıq.

H e y d ə r Ə l i y e v: Siz qeydiyyat aparırsınız, quyudan məlumat alırsınız?

İ s l a m T a ğ ı y e v: Bəli. Deməli, hərəkət sakitdirsə, biz onu da bilirik. Maqnit lentini gətirmişik, onu səsə çeviririk. Yəni zəlzələ 20–25 kilometr dərinlikdə – mən bu gün iki dəfə Abid müəllimə zəng etdim ki, xahiş edirəm, gəlib o səsə qulaq asın – baş veribdir.

H e y d ə r Ə l i y e v: Səs eşidilirmi?

İ s l a m T a ğ ı y e v: Bəli. Eşidilir. Mən xahiş edirəm ki, Abid müəllim sabah gəlsin. Çünki mən o qurğunu quraşdırıb başa çatdırmışam. Siz qulaq asa bilərsiniz. İstəsəniz 20–25 kilometr dərinlikdə nə baş verirsə hamısını öyrənə bilərsiniz. Çünki o elə bir cihazdır ki, insanın addımlarını da, maşının hərəkətini də yazır. Ancaq o qurğu sonra bütün lazım olmayan səsləri silir, təbii səsi saxlayır. Cənab Prezident, mən sabah Sizə, Abid müəllimə, ya da başqalarına onu göstərə bilərəm.

Cənab Prezident, bilirəm vaxt yoxdur, amma bir məsələni də Sizin nəzərinizə çatdırmaq istəyirəm. Deməli, Sovetlər İttifaqı

dövründə biz Azərbaycanın ərazisində 60 kilometrə qədər məsafədə geofiziki tədqiqatlar aparmışıq. Ölkəmizin 26 bloka bölünməsi haqqında bizim xəritəmiz vardır. Əfsuslar olsun ki, nədənsə 70 il ərzində Abşeronda bu məsələ öyrənilməmişdir.

Yəni, gələcəkdə baş verəcək zəlzələnin amilləri öyrənilməmişdir. 2000-ci il yanvarın 1-dən biz xüsusi bir müəssisə yaratmışıq. Bu müəssisə hazırda Abşeronda, Məmmədli kəndində, Novxanıda bizim poliqonda tədqiqat aparır. Bilirsinizmi, bunlar barədə mən nə üçün məlumat verirəm? Məsələ ondadır ki, Türkiyədə zəlzələ baş verəndən sonra orada bir elmi simpozium oldu. Bu simpoziumu ABŞ və Türkiyə alimləri keçirirdi. Həmin simpoziumda mən də iştirak etmişəm. Söhbətlərdən belə aydın oldu ki, dünyanın inkişaf etmiş ölkələrində – ABŞ-da, Yaponiyada da zəlzələ baş verdikdən sonra orada elmi-praktiki tədqiqatlar aparılır. Bu, gələcək üçün lazımdır.

YEKUN SÖZÜ

Yaxşı, hər şey aydındır. Mənim yaratdığım komissiya öz fəaliyyətini davam etdirir. Bütün dağıntılar, dəymiş zərər dəqiqləşdirilir. Harada və hansı bərpa işləri görmək lazımdırsa, onun planı hazırlanır. Yəni bu komissiyanın konkret planı olmalıdır. Bir halda ki, vəziyyət səngidi, siz sabahdan əməli işlərlə məşğul olmalısınız. Sizin planınız olmalıdır, çünki bütün bu işləri hər yerdə görmək lazımdır. Təbiidir ki, dəymiş zərərin hamısı aradan qaldırılmalıdır. Birinci növbədə vətəndaşlarımızın normal yaşaması üçün, yəni o şəraitdə ki, onlar yaşayırdılar, bunu təmin etmək üçün ən təcili tədbirlər görülməlidir.

Seysmoloji Xidmət Mərkəzi bizi nikbin olmağa dəvət edir. Mən də istəyirəm nikbin olum. Amma ehtiyatlı olmaq da lazımdır. Arxayınçılığa yol vermək olmaz. Burada yenə də qeyd edildi ki, 1842-ci ildən Bakıda zəlzələ olmamışdı. Amma

oldu. Mən də təsəvvür edə bilmirdim ki, Bakıda zəlzələ ola bilər. Biz bu işə sadəcə, hazır olmamışıq. Allah da bizə kömək edibdir ki, bu qədər böyük gücə malik olduğu halda, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi sədrinin birinci müavini İslam Tağıyevin dediyi kimi, zəlzələ Abşeron torpaqlarının xüsusiyyətinə görə burada güclü dağıntılara gətirib çıxarmamışdır.

Zəlzələnin vurduğu zərər qısa müddətdə aradan qaldırılmalıdır. Ona görə də Nazirlər Kabineti bu barədə – sabah da buna baxın – xüsusi qərar çıxarmalıdır. Bu işlər görülməlidir. Əvvəlcə hara vəsait lazımdırsa ayrılmalıdır. Görüləcək işlər üçün də vəsait ayrılmalıdır. Bu dediklərim də sizin planınızda, qəbul edəcəyiniz qərarda olmalıdır. Yəni zəlzələnin nəticələrini aradan qaldırmaq üçün Nazirlər Kabinetinin xüsusi qərarı olmalıdır. Amma hamımızın əsas vəzifəsi gedib arxayın yatmamaq, işin üstündə olmaq, baxmaq və lazımi tədbirlər görməkdən ibarətdir.

Mən sizin hamınızı bir daha dövlət nizam-intizamına dəvət edirəm. Dövlət adamları, insanları dövlətçilik tələblərinə uyğun yaşamalıdırlar və işləməlidirlər. Bu da ondan ibarətdir ki, hərə öz sahəsində məsuliyyət daşıyır və çalışdığı sahədə olan hər hansı kiçik bir işə vaxtında lazımi reaksiya verməli və tədbir görməlidir. Sağ olun.

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB RECEP MEYDANİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqilliyin elan edilməsi günü münasibətilə Sizi və Albaniya Respublikasının dost xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Albaniya Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri inkişaf edərək xalqlarımızın mənafeyinə, sülh və təhlükəsizlik işinə xidmət edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və uğurlar, ölkənizin bütün vətəndaşlarına firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 noyabr 2000-ci il*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MÜAVİYƏ ULD SİDİ ƏHMƏD TAYAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Mavritaniya İslam Respublikasının dost xalqını səmimiyyətlə təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasında dostluq və əməkdaşlıq münasibətləri getdikcə genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə və ölkələrimizin tərəqqisinə xidmət edəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və səadət, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 noyabr 2000-ci il*

RUSİYA FEDERASİYASI FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİNİN DİREKTORU GENERAL-POLKOVNİK NİKOLAY PATRUŞEV BAŞDA OLMAQLA BU İDARƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

27 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v : Hörmətli qonaqdar, hörmətli Nikolay Platonoviç, mən sizi salamlayıram. Şadam ki, siz Azərbaycana gəlmisiniz və artıq müəyyən iş aparmısınız. Bu ona sübutdur ki, Rusiyanın və Azərbaycanın tənlükəsizlik orqanları arasında qarşılıqlı fəaliyyət süveren Azərbaycanın möhkəmlənməsi naminə inkişaf edir. Buna böyük zərurət var, ona görə ki, əvvəla, biz – mən ölkələrimizi, Rusiyanı və Azərbaycanı nəzərdə tuturam – böyük sərhədə malikik. İkincisi isə, biz uzun müddət, onilliklər boyu birlikdə olmuşuq və bu gün sərhəd, əslinə qalsa, şərti xarakter daşıyır. Yalnız yük daşımalarını qeydə almaq və nə qədər vergi tutulmasını müəyyən etmək üçündür. Prinsipcə isə, ölkələrimiz, vətəndaşlarımız harada – Rusiyada, yaxud Azərbaycanda olmalarından asılı olmayaraq, bir-birilə ünsiyyət saxlamaq baxımından azad yaşayırlar. Bu, bir tərəfdən, çox yaxşıdır, amma digər tərəfdən, Rusiyanın da, Azərbaycanın da təhlükəsizliyə ziyan vura biləcək ünsürlərin həmin kanallarla nə oraya, nə buraya soxulmaması üçün, şübhəsiz, böyük sayıqlıq, diqqət tələb edir. Biz Azərbaycanda Rusiya ilə münasibətlərin və dövlətlərarası münasibətlərin bütün istiqamətlərdə, ilk öncə iqtisadi istiqamətlərdə

dərinləşdirilməsini, inkişaf etdirilməsini vacib hesab edirik. Lakin bu baxımdan Rusiyanın və Azərbaycanın təhlükəsizlik orqanları arasında qarşılıqlı fəaliyyətin, qarşılıqlı köməyin böyük əhəmiyyəti var. Bu sizə də, bizə də məlum olan proseslər – Qafqazda, Şimali Qafqazda, qonşu ölkələrdə baş verən proseslər baxımından xüsusilə zəruridir. Buna görə də sizin gəlişinizə şadam. Bizim nazir mənə məlumat verdi ki, siz səmərəli söhbətlər, görüş keçirmisiniz. Ümidvaram ki, bu, ölkələrimizin münasibətlərinin daha da inkişaf etməsinə və təhlükəsizliyin möhkəmlənməsinə təkan verəcəkdir.

N i k o l a y P a t r u ş e v: Səmimi qəbula görə Sizə təşəkkür edirəm.

Hörmətli Heydər Əliyeviç!

Hər şeydən əvvəl, indi dediklərinizə görə çox sağ olun. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin salamlarını, Sizə və bütün Azərbaycan xalqına cansağlığı, uğurlar, xoşbəxtlik dilədiyi ən xoş arzularını yetirmək istərdim.

Bu gün burada Sizin qəbulunuzda olan nümayəndə heyəti danışıqlara gələn bütün heyətin hamısı deyildir. O daha böyükdür. Biz çox şadıq ki, bütün məsələlərdə qarşılıqlı anlaşmaya nail olduq. Nümayəndə heyəti ona görə belə böyükdür ki, biz bütün məsələləri yerindəcə dərhal həll edə bilək. Siz çox doğru dediniz ki, bu gün danışıqlar aparıldı. Qeyd etmək mənim üçün çox xoşdur ki, Namiq Rəşidoviç olduqca konstruktiv movqe tutur, bilirsinizmi, federal təhlükəsizlik xidmətinə, sadəcə olaraq, fəal kömək edir. Bu gün mən ona bunun üçün təşəkkürümü bildirdim. Ona Sizin yanınızda bir daha təşəkkür etmək istəyirəm. Biz də bu cür mövqe tutmuşuq və bundan sonra da tutacağıq. Siz dediniz ki, xalqlarımız birlikdə olublar və olacaqlar. Bu bizim qəti əqidəmiz, mövqeyimizdir və biz bu xətti davam etdirəcəyik.

O ki qaldı problemlərin, o cümlədən Şimali Qafqazda problemlərin mövcud olmasına, zənnimcə, Rusiya prezidenti

Putinin iradəsi sayəsində və Sizin iradəniz sayəsində – əminəm ki, digər prezidentlər də iradə nümayiş etdirəcəklər – bütün ərazilərdə Konistitusiya qayda-qanunu olacaqdır. Xüsusi xidmət idarələri isə maksimum səy göstərəcəklər ki, məhz belə də olsun. Şübhəsiz ki, hazırda beynəlxalq terrorizmlə mübarizə fəaliyyətimizin mühüm istiqamətidir. Biz məhz bu istiqamətdə işlərə həmişə kəskin ehtiyac duymuşuq, lakin indi görürük, bilirik və başa düşürük, praktikada yəqin edirik ki, bu, şübhəsiz, mühüm istiqamətdir.

Biz digər istiqamətlərdə də əməkdaşlıq etməyə hazırıq. Məsələn, iqtisadiyyat sahəsində pozuntularla, mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində, əməkdaşlıqda müsbət təcrübəmiz var. Yüksək texnologiyalar sahəsində, əks-kəşfiyyat sahəsində və başqa sahələrdə malik olduğumuz təcrübəni bölüşməyə hazırıq. Federal Təhlükəsizlik Xidmətinin, Milli Təhlükəsizlik Nazirliyinin səlahiyyətinə gəldikdə isə, nazirə verəcəyiniz hər hansı tapşırıqları biz birlikdə yerinə yetirəcəyik. Mən Sizi buna əmin edirəm, məni buna Rusiya prezidenti istiqamətləndirmişdir.

Bunun cavabında mütəqabillik köməyimiz isə, zənnimcə, Sizin iradənizdir. Biz buna görə, iradənizin məhz belə olmasına görə Sizə çox minnətdarıq. Buna görə də, məncə, fəaliyyətimiz məhz ona yönəldiləcəkdir ki, xalqlarımız Konstitusiya məkanında yaşadıqlarını hiss etsin və azad inkişaf edə bilsinlər.

H e y d ə r Ə l i y e v: Mövqelərimiz eynidir. Bu isə, yeri gəlmişkən, uğurlu əməkdaşlıq və uğurlu qarşılıqlı fəaliyyət üçün başlıca şərtdir. Əlbəttə, dövlət təhlükəsizliyi orqanları xətti üzrə qarşımızda çox məsələlər durur. Ancaq, qeyd etdiyiniz kimi, beynəlxalq terrorizimlə mübarizə, separatizmlə mübarizə, narkotik maddələrin qanunsuz daşınması ilə mübarizə və bir çox digər hallar indi kifayət qədər böyük miqyas almışdır və çox ciddi və qətiyyətli tədbirlər görülməsini tələb edir.

Bu baxımdan Azərbaycan çox qəti mövqe tutur. Təkcə ona görə yox ki, biz bundan bu və ya digər dərəcədə əzab-əziyyət çəkirik. Ən əvvəl ona görə ki, biz dünyada həqiqətən sülh olmasını, qayda-qanun olmasını, son vaxtlar dünyanın bəzi regionlarında, o cümlədən də bizim regionumuzda çox geniş yayılmış cinayət təzahürlərinin qarşısının alınmasını istəyirik. Regionumuz çox genişdir, əlbəttə, buraya Rusiya, Şimali Qafqaz, Cənubi Qafqaz, Mərkəzi Asiya ölkələri daxildir. Axı bu region təcrid olunmuş bir yer deyildir. Onun başqa ölkələrlə əlaqəsi və sərhədi var. Ona görə də bu məsələlər çox mühümdür, əgər onların qarşısını almaq üçün qəti tədbirlər görülməsə, əlbəttə, biz daha ciddi işlərlə üzləşə bilərik.

Biz separatizmi həmişə pisləmişik və pisləyirik. Yeri gəlmişkən, Azərbaycan bu separatizmin çox acı nəticələri ilə birinci qarşılaşmış olan ölkədir. Ona görə də bu məsələdə yekdilik. Mən MDB dövlətləri başçılarının iclaslarında dəfələrlə demişəm ki, hər bir ölkə separatizmin nə demək olduğunu və onun nə kimi ziyan gətirdiyini hiss etməyincə, onlar bu hallara qarşı mübarizə aparmağın zəruriliyini anlamayacaqlar. Biz separatizmə qarşı mübarizəni tamamilə dəstəkləyirik, çünki biz özümüz separatizmlə mübarizə aparırıq. Biz Rusiya ərazisində də separatizmlə mübarizəni tamamilə dəstəkləyirik.

Mən sizinlə razıyam ki, Rusiya prezidenti hörmətli Vladimir Vladimiroviç Putinin iradəsi və müvafiq orqanların səyləri sayəsində, Müstəqil Dövlətlər Birliyinin ümumi səyləri ilə bütün bunlar dəf ediləcəkdir. Biz istəyirik ki, bütün bunlar dəf edilsin. Ancaq bununla yanaşı, istəyirik ki, Azərbaycanda da separatizmin nəticələrinə son qoyulsun. Bir diqqət yetirin, bütün Cənubi Qafqaz– Gürgüstan, Azərbaycan, MDB məkanına nəzər yetirsəniz, görərsiniz ki, Moldova da separatizmdən əzab-əziyyət çəkir. Bütün bunların qarşısı alınmasa, sabah bunun başqa bir yerdə də təzahür etməyəcəyinə təminat yoxdur. Məsələn,

son vaxtlar Mərkəzi Asiya regionunda baş vermiş hadisələr böyük narahatlıq doğurur. Halbuki bir vaxtlar orada hər şey sakit idi. Mənim xatirəmdədir ki, separatizm anlayışına münasibət bir çox hallarda belə kəskin reaksiya doğurmurdu. İndi isə, insan buna şəxsən özü məruz qaldıqda, o bunun nə demək olduğunu başa düşür. Ona görə həqiqətən, ümumi xarakterli məsələlər var və bu məsələlər bizim hamımız üçün eyni əhəmiyyətə malikdir. Odur ki, biz bu sahədə səylərimizi birləşdirməliyik. Əslinə qalsa, elə başqa məsələlərdə də. Bir halda ki, biz dost ölkələrik, deməli, dostluğu işdə sınaqdan çıxarmalıyıq. İşdə dostluq isə hər hansı mənfi hallarla mübarizədə qarşılıqlı yardım, qarşılıqlı dəstək, qarşılıqlı fəaliyyət, ümumi səylər deməkdir.

Rusiya prezidenti Vladimir Vladimiroviç Putindən mənə yetirdiyiniz salamlara görə sizə təşəkkür edirəm. Xahiş edirəm mənim də salamımı, ən xoş arzularımı ona yetirəsiniz. Onun Azərbaycana rəsmi səfərə gələcəyi vaxt yaxınlaşır. Onun köməkçisi Prixodko bu yaxınlarda burada olmuşdur. Biz Rusiya səfiri ilə birlikdə bu məsələ barəsində fikir mübadiləsi apardıq və səfərin vaxtını müəyyənləşdirdik. Hesab edirəm ki, bu səfərin bütövlükdə dövlətlərarası münasibətlərimiz üçün də, təhlükəsizlik orqanlarının xətti ilə əməkdaşlığının daha da genişlənməsi üçün də böyük əhəmiyyəti olacaqdır.

Bir sözlə, buraya gəldiyinizə, işlədiyinizə görə sizə bir daha təşəkkürümü bildirirəm. Bu, ölkələrimizin təhlükəsizlik orqanları arasında münasibətlərin daha da inkişaf etməsinin yeni mərhələsi olacaqdır. Sağ olun.

RUMİNİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB EMİL KONSTANTİNESKUYA

Hörmətli cənab Prezident!

Rumıniya Respublikasının milli bayramı – Rumınların Birliyi günü münasibətilə Sizi və dost rumın xalqını salamlayır və səmimi–qəlbdən təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Rumıniya Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm və əminəm ki, ölkələrimiz arasındakı qarşılıqlı əlaqələr gələcəkdə də genişlənib möhkəmlənərək xalqlarımızın rifahının daha da yaxşılaşmasına, Avropada və bütün dünyada sülh və tərəqqi işinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, Rumıniyanın bütün vətəndaşlarına xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 noyabr 2000-ci il*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞEYX ZAYİD BİN SULTAN AL NƏHƏYYANA

Zati-aliləri!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizi və ölkənizin qardaş xalqını salamlayır və səmimiyyətlə təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. İnanıram ki, ölkələrimizin qarşılıqlı əlaqələri inkişaf edib genişlənərək xalqlarımızın mənafeyinə, regionumuzda sülhün və əmin-amanlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *27 noyabr 2000-ci il*

AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ GANNİ BUKİKKİO BAŞDA OLMAQLA BU BEYNƏLXALQ TƏŞKİLATIN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

30 noyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Bukikkio!
Hörmətli qonaqlar!

Mən sizi salamlayıram, sizi yenidən Azərbaycanda görməyimdən məmnunam. Azərbaycanın son illərdə Venesiya Komissiyası ilə əməkdaşlığını çox faydalı hesab edirəm. Bu əməkdaşlığımız yəqin ki, indiki mərhələdə əlaqələrimizin daha da genişlənməsi üçün əsas yaradır. Buyurun, sizi dinləyirəm.

G a n n i B u k i k k i o: Cənab Prezident, bizə bu şəraiti yaradıb Venesiya Komissiyasının nümayəndə heyətini qəbul etdiyinizə görə, icazə verin, Sizə dərin minnətdarlığımı bildirim.

Şəxsən mən özüm haqqında deməliyəm ki, elə bu ilin özündə ilk dəfə Sizin tərəfinizdən burada qəbul olunmaq şərəfinə nail olmuşam. Elə bunun özü göstərir ki, doğrudan da, buyurduğunuz kimi, Azərbaycanla Venesiya Komissiyası və Avropa Şurası arasında əlaqələr günü-gündən daha da intensiv xarakter alır.

Cənab Prezident, bu fürsətdən istifadə edərək, mən Azərbaycanda son günlərdəki zəlzələ nəticəsində insanların həlak olması ilə əlaqədar həm Venesiya Komissiyasının adından, həm də nümayəndə heyəti adından Sizə dərin hüznlə başsağlığı vermək istəyirəm.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm.

G a n n i B u k i k k i o: Deməliyəm ki, Allaha çox şükürlər olsun, Azərbaycanda belə güclü zəlzələ baş verməsinə baxmayaraq, ümumiyyətlə, onun nəticələri çox ağır deyildir.

Cənab Prezident, 2000-ci və 2001-ci il həm Azərbaycan üçün, həm də Avropa Şurası üçün mühüm illərdir. Ümumiyyətlə, Avropa dəyərləri ətrafında fikir mübadiləsi aparmaq, bununla bağlı təcrübəmizi Sizinlə bölüşmək üçün biz bu son illərdə çox yaxından əməkdaşlıq etdik. Əlbəttə, biz istərdik ki, bu əməkdaşlığın nəticəsi olan mühüm məqam, hadisə bu il baş versin. Amma yenə də mənə elə gəlir ki, biz razı olmalıyıq, kifayətlənməliyik ki, bu ilin özündə də Azərbaycanın Avropa Şurasına qəbul edilməsi ilə bağlı bu beynəlxalq təşkilatın Nazirlər Komitəsi çox mühüm qərar qəbul etmişdir. Biz çox böyük ümidlə o günü gözləyirik və bilirik ki, yanvar ayının sonuna kimi biz mütləq bu qərarın həyata keçməsinin şahidi olacağıq.

Cənab Prezident, bu ilin yazındakı görüşümüzdə Sizin özünüzün də dediyiniz kimi, Azərbaycan Avropa Şurasına daxil olandan sonra onun qarşısında duran vəzifələr daha da çətinləşəcəkdir.

Lakin Sizin özünüz də əlavə etmişdiniz ki, Azərbaycan rəhbərliyi bu çətin vəzifələri həyata keçirmək üçün heç nədən çəkinmir, qorxmur və demokratiyanın inkişafı yolu ilə daim irəliləyəcəkdir.

Ümumiyyətlə, demokratik sabitlik, sosial və iqtisadi inkişaf hər hansı bir cəmiyyətin firavan və əmin-əmanlıq şəraitində yaşaması üçün lazım olan amillərdir. Dediyim bu ilk amilin həyata keçməsi, ümumiyyətlə, həm də bu regionda sülhün təmin olunması yolunda çox mühüm bir hadisədir. Biz həm də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli uğrunda fəaliyyətinizə, problemin sülh yolu ilə həll olunması üçün şəxsi iradənizə görə Sizə bir daha minnətdarlığımızı

bildiririk. Ümid edirik ki, Sizin bu səyləriniz tezliklə lazımi nəticəni verəcəkdir.

Cənab Prezident, mən sözümü bitirməzdən əvvəl nümayəndə heyətinin üzvlərini Sizə təqdim etmək istərdim. Cənab Jerar Batlinner Venesiya Komissiyası sədrinin müavinidir, cənab Laslo Şolyam Macarıstan Konstitusiya Məhkəməsinin sabiq sədri, Budapeşt Universitetinin professorudur. Georq Nolte Almaniyanın Gettingen Universitetinin mülki hüquq üzrə professorudur, cənab Xuan Lopes Aqillar İspaniya parlamentinin deputatıdır. Cənab Rudolf Şnuts Durr və cənab Pol Torhallsson Venesiya Komissiyasında mənim həmkarlarımdır. Görürsünüzmü, burada bütün Avropa öz təcəssümünü tapmışdır, bir çox ölkələrdən nümayəndələr vardır. Cənab Prezident, deməliyəm ki, burada hətta Kanar adalarının da nümayəndəsi var.

H e y d ə r Ə l i y e v: Sizə təşəkkür edirəm. Doğrudan da sizin nümayəndə heyəti çox mötəbər tərkibdədir. Bir çox ölkələri təmsil edir. Beləliklə, siz bizə güclü hücum edirsiniz.

C a n n i B u k i k k i o: Bu, dostluq hücumudur.

H e y d ə r Ə l i y e v: Dostcasına hücumdur. Biz də çalışacağıq ki, bu hücum qarşısında, təbii ki, öz üzərimizə götürdüyümüz öhdəliklərin yerinə yetirilməsi üçün səylərimizi artıraq. Azərbaycanın Avropa Şurasına daxil olması prosesi bir az uzanıbdır. Bu da bizim günahımızdan deyildir. Avropa Şurası o tərəfə, bu tərəfə çəkir. Yəqin istəyir ki, görsün, onun tələblərinə biz dözə biləcəyik, ya yox. Siz doğru xatırlatdınız, mən keçən görüşümüzdə demişdim ki, Avropa Şurasına daxil olmaq bizim üçün «bal yemək» deyildir. Orada bizim üzərimizə daha da çox vəzifələr düşəcəkdir. Ancaq eyni zamanda biz dərk edirik ki, Avropa Şurasına daxil olmaq bizim üçün nə qədər lazımdırsa, o qədər də Avropa Şurasına lazımdır, Avropa Şurası qitəsinə daxil olan ölkələrin hamısını özündə cəmləşdirmək istəyir. Bu, doğru fikirdir, doğru məqsəddir.

Biz də belə arzuda olaraq, bu cür çıxış edərək, təbiidir ki, öz gələcək vəzifələrimizi bilirik.

Azərbaycanda Avropa dəyərləri artıq çoxdan tətbiq edilibdir. Təbiidir ki, biz Avropa Şurasına daxil olandan sonra bu dəyərlərin bütün sahələrdə tətbiq edilməsinin bərqərar edilməsi təmin olunacaqdır. Eyni zamanda hər bir ölkənin özünəməxsus xüsusiyyəti, hər bir xalqın öz tarixi və mentaliteti vardır. Təbiidir ki, bunlar nəzərə alınmalıdır. Bunların sintezi əsasında Azərbaycanda ümümbəşəri dəyərlərin, Avropa dəyərlərinin bərqərar olması təmin edilməlidir.

Biz sizinlə görüşlərimizdə, ümumiyyətlə, Azərbaycanın Venesiya Komissiyası ilə əməkdaşlığı zamanı bu məsələləri bir neçə dəfə müzakirə etmişik. İndi isə sizin də, bizim də üzərimizə yeni vəzifələr düşür. Biz yeni öhdəliklər götürmüşük. Azərbaycan çox ciddi ölkə və dövlətdir. Əgər biz öz üzərimizə hər hansı öhdəliyi götürürüksə, təbiidir ki, onun yerinə yetirilməsi üçün əlimizdən gələni etməliyik. Ona görə də biz sizinlə tam səmimi əməkdaşlıq edəcəyik. Burada sizin bəyan etdiyiniz fikirlər də, təbiidir ki, bizim hamımızın xatirində olacaqdır. Bu il olmadı, amma yanvar ayında Azərbaycan Avropa Şurasına daxil olacaqdır. Bu da xeyli dərəcədə sizinlə bizim əməkdaşlığımızdan asılıdır. Biz sizinlə tam səmimi, işgüzar şəraitdə əməkdaşlıq etmişik və bundan sonra da etməyə hazırıq. Siz burada bir neçə görüş keçirəcəksiniz. Lazımi məsləhətləşmələr, fikir mübadiləsi aparacaqsınız. Ümid edirəm ki, bunlar uğurlu olacaqdır. Azərbaycan Avropa Şurasına daxil olmaq, onun həqiqi üzvü olmaq istəyir. Ona görə də biz bunun üçün nə lazımdırsa etmişik, bundan sonra da edəcəyik. Bu məsələləri burada müzakirə etməyə sizin imkanınız vardır.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BELARUS RESPUBLİKASININ PAYTAXTI MİNSK ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

30 noyabr 2000-ci il

S u a l: Cənab Prezident, MDB ölkələri dövlət başçılarının Minsk şəhərində keçiriləcək zirvə görüşündə hansı məsələlər müzakirə olunacaqdır?

C a v a b: Bir neçə məsələ, o cümlədən terrorizm əleyhinə ümumi mərkəzin yaradılması məsələsi müzakirə ediləcəkdir. Başqa məsələlər də vardır. İndi görək, hər halda, mən indidən demək istəmirəm. Amma birinci növbədə o məsələ müzakirə ediləcəkdir. Çünki, ümumiyyətlə, belə fikir var ki, terrorizmlə mübarizə sahəsində dövlətlər öz səylərini daha da birləşdirsinlər, artırsınlar.

S u a l: Cənab Prezident, son vaxtlar Rusiyanın Gürcüstandan çıxarıb Ermənistanda yerləşdirdiyi silahlar Qarabağda yerləşdirilir. Siz bu məsələni qaldıracaqsınızmı?

C a v a b: Biz bu məsələni həmişə qaldırırıq. Mən də qaldıracağam. Onlar deyirlər ki, biz o silahları Dağlıq Qarabağda yerləşdirmirik, sadəcə, Ermənistanla Rusiya arasında hərbi ittifaq vardır. Ona görə də silahları oradan çıxarıb buraya keçirirlər. Amma bu bizi narahat edir. Biz həmişə buna etiraz etmişik və etiraz edirik.

Məsələn, hələ vaxtilə, bir il bundan öncə Rusiyanın S-300 raketlərinin orada yerləşdirilməsi, MİQ-29 təyyarələrinin yerləşdirilməsi – bunlar da narazılıq doğurdu. Biz buna etiraz bildirdik. Hətta mən şəxsi söhbətlərimdə də bunu dövlət başçılarına dedim. Ancaq onlar öz işlərini görürlər.

S u a l: Cənab Prezident, siz Robert Köçəryan ilə də görüşəcəksiniz. Robert Köçəryan kürd liderləri ilə danışıqlarında kürd qaçqınlarının Qarabağda yerləşdirilməsi məsələsini müzakirə edibdir. Siz danışıqlarınızda bu məsələni qaldıracaqsınızmı?

C a v a b: Bəli, görüşəcəyəm. Bilirsiniz, mən bunu dəqiq bilmirəm. Bizdə də belə məlumatlar var, yazılar var. Hər halda, ondan soruşacağam. Amma onlar bunu təkzib edirlər. Ola bilər bu, həqiqətdir, ancaq təkzib edirlər, ya da ola bilər ki, bu şayiədir, yayılır. Belə məsələlərdə diqqətli olmaq lazımdır.

S u a l: Cənab Prezident, bu ilin sonuna qədər İrana səfəriniz baş tutacaqmı?

C a v a b: Çalışacağam.

S u a l: Cənab Prezident, İran Silahlı Qüvvələrinin rəhbəri Səlimi belə bir bəyanat verib ki, Xəzərdə neft axtarışları aparmaq adı ilə NATO-nun hərbi qüvvələri yerləşdirilib və İran bəzi Xəzəryanı dövlətlərin köməyi ilə bu təhlükəni aradan qaldıracaqdır.

C a v a b: Bu, doğru məlumat deyildir. Yerləşdirməyiblər. NATO-nun heç bir şeyi yerləşdirilməyibdir. Bizə hələ bir il bundan qabaq söz vermişdilər ki, Amerika Birləşmiş Ştatlarından iki kater versinlər. Onlar da hələ gəlib çatmayıbdır. Bunlar yanlış fikirlərdir.

Bilirsiniz, təəssüf ki, bu qədər yanlış fikirlər yayılır. Ondan sonra siz də, başqaları da bu fikirləri fırladırsınız. Sonra bəziləri üçün bu, həqiqətə çevrilir.

S u a l: Cənab Prezident, parlament seçkilərinin nəticələrini necə qiymətləndirirsiniz? Beynəlxalq müşahidəçilər saxtakarlıq faktlarının olduğunu söyləyirlər.

C a v a b: Bilirsiniz, mən, ümumiyyətlə, seçkiləri müsbət qiymətləndirirəm. Səhvlər, pozuntular da olubdur. Mən seçkilərdən sonra müşahidəçilərin başçılarını qəbul edərkən onlara bəyanat verdim ki, bütün bu nöqsanlar aradan qaldırılacaqdır. Onlar da bundan çox məmnun oldular. Deyə bilərəm ki, sizə məlum olan Ştudman mənə dedi ki, biz həm Ermənistanda, həm də Gürcüstanda seçkilərin nəticələrinə görə dövlət başçılarına iradlarımızı bildirmişdik. Amma onların heç biri bəyan etmədi ki, bu nöqsanları aradan qaldıracaqlar. Bir halda ki, siz bəyan edirsiniz, bu bizdə çox böyük ümidlər yaradır.

Mən nəinki bəyan etdim, bilirsiniz ki, Mərkəzi Seçki Komissiyası 11 dairədə seçkilərin nəticələrini ləğv etdi. Mən üç rayonun icra hakimiyyətinin başçısını işdən çıxarmışam. Mənə dedilər ki, Mərkəzi Seçki Komissiyasının iclasında həmin dairə seçki komissiyalarının sədrlərini işdən azad ediblər. Bunlar çox yetərli tədbirlərdir. O mənada ki, bilirsiniz, dünyada ideal heç bir şey yoxdur. Səhv də ola bilər, pozuntu da ola bilər, yanlışlıq da ola bilər. Amma əsas o deyil, əsas odur ki, bu səhvlərə, yaxud da yol verilmiş ayrı-ayrı qüsurlara münasibət bildirilsin. Azərbaycan dövlətinin, o cümlədən dövlət başçısının belə münasibəti bildirilibdir.

S u a l: Cənab Prezident, müxalifət nümayəndələri parlamentdə iştirak etməməklə yeni seçkilərin keçirilməsinə nail olmaq istəyirlər. Ümumiyyətlə, bu mümkündürmü?

C a v a b: Bu onların öz işləridir.

S u a l: Cənab Prezident, Fövqəladə Hallar Nazirliyi nə vaxt yaradılacaqdır?

C a v a b: Bilirsiniz, fövqəladə hallar üzrə nazirlik yaratmaq çətin bir şey deyildir. Bizdə Fövqəladə Hallar üzrə

Dövlət Komissiyası vardır. Ona da Baş nazirin müavini Şərifov rəhbərlik edir. Bizim bu komissiya çox yaxşı fəaliyyət göstərir. İndi siz də, yaxud bəzi müxbirlər də belə xırda şeylərdən yapışırlar, bunu bir problemə döndərirlər. Burada bir problem yoxdur.

S u a l: Rusiyanın bəzi kütləvi informasiya vasitələri yazırlar ki, son zamanlar Rusiyanın Azərbaycan ilə yaxınlaşmasını prezident Heydər Əliyevin Qərbi «cəzalandırması» kimi qiymətləndirmək olar. Çünki prezident Qarabağ probleminin həllində Qərbin rolundan razı deyildir.

C a v a b: Prezident Heydər Əliyev heç bir dövləti «cəzalandıra» bilməz. Kim nə deyir, qoy desin. Siz bilirsiniz, mən dəfələrlə demişəm ki, biz dünyada bütün dövlətlərlə, o cümlədən qonşularımızla yaxşı, qarşılıqlı surətdə faydalı, bərabərhüquqlu əlaqələr yaratmaq istəyirik və bu yolda çalışırıq. Nəsə alınır, nəsə alınmır. Hərə öz fikrini deyə bilər. Bu bizim fikrimiz deyildir.

S u a l: Cənab Prezident, zəlzələ zamanı evləri zədələnmiş şəxslər mənzillə təmin olunacaqmı?

C a v a b: Hamısı təmin ediləcəkdir. Heç kəs bundan narahat olmasın. O evlər ki, qəza vəziyyətindədir, artıq oralardan vətəndaşları köçürürlər.

Məsələn, dünən axşam mənə məlumat veriblər ki, çoxları köçmək istəmir. Amma, hər halda, onları başa salırlar ki, köçmək lazımdır. O evlərin hamısı təmir olunacaqdır. Bunlar hamısı bərpa ediləcəkdir. Bu zəlzələnin nəticələrini aradan qaldırmaq üçün yaratdığım Fövqəladə Hallar üzrə Hökumət Komissiyasına Baş nazir Rasizadə rəhbərlik edir. Onlar görülən və görüləcək işlər haqqında məlumat veriblər, yəqin ki, siz bunu qəzetlərdən oxumusunuz. Mən büdcədənkənar 25 milyard manat pul ayırdım. Amma bu, yetərli deyildir. Mənə dünən verilən məlumata görə, bizə on milyonlarla dollar həcmində zərər dəyibdir. Yəni bərpa işləri üçün bu qədər

vəsait lazımdır. İndi gərək bunu axtaraq, tapaq. Ola bilər, beynəlxalq təşkilatlar bizə kömək etsin. Onlar öz köməklərini təklif ediblər. Hər halda, nə lazımdırsa edəcəyik.

S u a l: Cənab Prezident, Gürcüstan ilə Rusiya arasında viza rejimi tətbiq olunacaqdır. Bu, Azərbaycana qarşı da ola bilərmi və Sizin bu barədə Putinlə söhbətiniz gözlənilirmi?

C a v a b: O, Gürcüstan ilə Rusiyanın işidir. Bizə deyiblər ki, Azərbaycana qarşı heç bir viza tətbiq olunmayacaqdır.

S u a l: Cənab Prezident, Türkmənistanın rəhbərliyi, Xarici İşlər naziri bəyan edib ki, Türkmənistan Xəzərin statusu ilə bağlı İranın mövqeyini dəstəkləyir. Xəzərin statusu ilə bağlı danışıqlarınız olacaqmı?

C a v a b: Bilirsiniz ki, İranın nümayəndələri gəlmişdi, bütün Xəzəryanı dövlətlər ilə bu barədə məsləhətləşmələr apardılar. Onlar təklif etdilər ki, Xarici İşlər nazirləri səviyyəsində nümayəndələr İranda yığışsınlar, məsləhətləşsinlər. Biz buna etiraz etmirik. Biz Xəzərin statusunun heç bir formada müzakirə olunmasına etiraz etmirik.

S u a l: Putinin Bakıya səfəri çərçivəsində ikitərəfli sazişin imzalanması ola bilərmi?

C a v a b: Ola bilər.

*** * ***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev elə həmin gün Belarus paytaxtına gəldi. Azərbaycan dövlət başçısının gəlişi şərəfinə Minsk hava limanının meydanında fəxri qarovul dəstəsi düzulmüşdü.

Respublikamızın prezidenti Heydər Əliyevi Belarus Respublikası Baş nazirinin müavini Gennadi Novitski və digər rəsmi şəxslər mehribanlıqla qarşıladılar. Milli geyimli qızlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.

Avtomobil karvanı hava limanından respublikamızın rəhbəri üçün ayrılmış iqamətgaha yola düşdü.

* * *

Həmin gün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə Rusiya Federasiyasının prezidenti Vladimir Putin arasında görüş oldu. Dövlət başçıları ikitərəfli əməkdaşlığa dair bir çox məsələlərə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair fikir mübadiləsi apardılar.

ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ROBERT KÖÇƏRYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Minsk

30 noyabr 2000-ci il

Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri ətraflı müzakirə edildi.

Tam sülh əldə olunana qədər tərəflərin atəşkəs rejiminə əməl edəcəklərini nəzərə çatdıran prezidentlər Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün hər iki tərəfin konstruktiv mövqe tutmasının və milli mənafelər naminə kompromislərə getməsinin lazım olduğunu bir daha vurğuladılar. ATƏT-in və Minsk qrupu həmsədrlərinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində fəaliyyətini nəzərdən keçirən dövlət başçıları bu istiqamətdə səylərinin daha da sürətləndirilməsinin vacibliyini nəzərə çatdırdılar.

Dövlət başçıları münaqişənin aradan qaldırılması üçün ikitərəfli görüşlərin, danışıqların davam etdirilməsinin, bu görüşlərin intensivləşdirilməsinin vacib olduğunu bildirdilər.

* * *

Görüş başa çatdıqdan sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

S u a l: Sizin axırıncı görüşünüz kifayət qədər çoxdan, sentyabrın əvvəllərində olmuşdur və budur, siz yenidən görüşürsünüz. Güman etmək olarmı ki, dialoq davam etdiriləcəkdir? Görüşün yekunları necədir?

H e y d ə r Ə l i y e v: Bəli, bu gün biz, zənnimcə, kifayət qədər ətraflı danışdıq və güman edirəm ki, bizim bu söhbətimiz konstruktiv oldu, yəni prezident Robert Sedrakoviç Köçəryan da, mən də bundan narahat olduğumuzu bildirdik ki, münaqişə indiyədək davam edir və biz hələ də onun həlli yolunu tapa bilməmişik. İndiki söhbətimizi də, sadəcə, görüşdüyümüzü, danışıqlar apardığımızı qeyd etmək xatirinə deyil, məhz bu məsələnin həlli yollarını tapmaq üçün apardıq. Mən bu söhbətdən prinsipcə razıyam, o mənada ki, şəxsi ünsiyyətimizdə, hər halda, fasilə olmuşdu. Bu gün biz görüşdük, ötən müddət ərzində olanları təhlil etdik. Yenə də belə bir formul – bu barədə prezident Köçəryan danışacaq – qüvvədə qalır ki, biz qarşılıqlı güzəştlərə getməliyik. Bu, birincisi. İkincisi isə, bu məsələnin həlli yolunu məhz biz özümüz, iki prezident – əlbəttə, beynəlxalq təşkilatların kömək və yardımından istifadə edərək – axtarıb tapmalıdır. Prinsipial qərarı bizsiz çətin ki, kimsə qəbul edə bilsin. Buna görə də hesab edirəm ki, görüş çox faydalı oldu və göstərir ki, görüşlər davam etdiriləcəkdir.

R o b e r t K ö ç ə r y a n: Biz razılığa gəldik ki, görüşlərimiz nəinki sadəcə davam etdiriləcək, həm də intensivləşdiriləcəkdir. Düşünürəm ki, yanvarda bizim bu cür imkanımız olacaqdır. Əlbəttə, istərdim ki, gələn il – 2001-ci il nizamasalmaya dair qərar qəbul edilməsi baxımından həlledici il olsun, sonra isə bu qərarın həyata keçirilməsinə vaxt lazım olacaqdır. Mən hətta öz seçkilərimizin tarixini də müəyyənləşdirmişəm. Azərbaycanda isə seçkilər 2003-cü ildə keçiriləcəkdir. Əgər ondan o yana da qalsaq, məsələlər yenə də həll edilməmiş qalacaqdır. Şübhə yoxdur ki, məsələnin həlli yolunun axtarışı qarşılıqlı güzəştlərə əsaslanmalıdır. Görüşdə Azərbaycan prezidentinin və mənim belə bir mövqeyimiz açıqlandı ki, problem dincliklə həll edilməlidir və biz məsələnin həlli yolunun axtarışları prosesini gücləndirməliyik. Bu görüşdən mən də razıyam.

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Minsk

30 noyabr 2000-ci il

İki dost və qonşu ölkənin rəhbərləri səmimilik və mehribanlıq şəraitində keçən, ənənəvi xarakter almış görüşlərindən məmnun olduqlarını bildirdilər. Prezident Eduard Şevardnadze Azərbaycanın üzləşdiyi təbii fəlakət nəticəsində insan tələfatının olması ilə əlaqədar prezident Heydər Əliyevə bir daha başsağlığı verdi.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının növbəti zirvə görüşünün gündəliyindəki məsələlər barədə söhbət açan prezidentlər MDB çərçivəsində əməkdaşlığın perspektivlərinə də toxundular.

Dövlət başçıları Cənubi Qafqazda və ümumən Qafqazda təhlükəsizliyin və sabitliyin bərqərar edilməsinin hər iki ölkənin tərəqqisi üçün xüsusi əhəmiyyətə malik olduğunu vurğuladılar, regiondakı münaqişələrin – Ermənistan–Azərbaycan, gürcü-abxaz, gürcü-osetin münaqişələrinin sülh yolu ilə tezliklə aradan qaldırılması məsələləri ətrafında fikir mübadiləsi apardılar.

Prezidentlər Xəzərin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və enerji daşıyıcılarının dünya bazarına nəqli, o cümlədən XX əsrin sonunun ən böyük regional layihələrindən olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin reallaşdırılmasının yeni mərhələsində görülən işlərdən söhbət açdılar.

Prezident Eduard Şevardnadze dost və qardaş Azərbaycanın həmişə gürcü xalqına köməyə gəldiyinə görə, o cümlədən bu ilin yayında Gürcüstana üz vermiş güclü quraqlığın nəticələrini aradan qaldırmaq üçün qonşu ölkəyə təmənnasız yardım kimi yanacaq ayrılması haqqında sərəncamına görə respublikamızın rəhbərinə dərin minnətdarlığını bildirdi.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi, GUÖAM çərçivəsində əməkdaşlıq məsələləri ətrafında, tərəfləri maraqlandıran bir sıra digər problemlər haqqında fikir mübadiləsi apardılar.

* * *

Görüş başa çatdıqdan sonra Azərbaycan və Gürcüstan prezidentlərinin jurnalistlərin suallarına cavabı:

S u a l: Siz konkret olaraq hansı mövzuları müzakirə etdiniz?

H e y d ə r Ə l i y e v: Zənnimcə, dövlətlərarası münasibətlərimizin bütün mövzularını, demək olar, bütün mövzularını.

S u a l: Viza rejimi tətbiq edilərsə, birliyin tərkibində qalmaq nə dərəcədə məqsədəuyğundur?

E d u a r d Ş e v a r d n a d z e: Birlik yəqin ki, qalacaqdır. Amma viza rejiminin tətbiq edilməsi faktının özü tamamilə yersizdir. Bu gün mən Rusiya prezidenti ilə görüşdüm. Onun Çeçenistanla sərhəd barəsində dəlilləri var. Belə qərarlar qəbul etmək onların öz işidir. Biz istəyirik ki, bu, sivilizasiyalı qaydada, normal olsun. Yaxud sərhədin hər hansı sahələri üçün istisnalar edilsin. Razılığa gəldik ki, bu, ümumi əməkdaşlığa təsir göstərməməlidir, əksinə, münasibətləri inkişaf etdirmək lazımdır. Viza rejimi müvəqqəti tədbirdir.

S u a l: Eduard Amvrosiyeviç, indi Rusiya qoşunları, Rusiya texnikası Gürcüstandan çıxarılır. Azərbaycan narahatdır ki, rəsmi Bakının məlumatına görə, bu texnikanın bir hissəsi –

bunu Rusiyanın özü də deyir – Ermənistana, Rusiyanın Ermənistandakı bazalarına aparılır. Bu bir yana, razılaşmaların ziddinə olaraq, qeydə alınmayan texnikanın bir hissəsi köhnəlmiş, hesabdan silinmiş silah adı ilə Gürcüstandan işğal edilmiş ərazilərə, Dağlıq Qarabağa daşınır. Sizin buna münasibətiniz necədir? Bu sizinlə Heydər Əliyeviç arasında danışıqların mövzusu oldumu?

E d u a r d Ş e v a r d n a d z e: Təbii ki, biz Heydər Əliyeviçlə bu mövzuda danışdıq. Gürcüstandan çıxarılan hərbi texnikanın əsas hissəsi Tbilisi yaxınlığında, Vazianidə idi. Bu texnika əsasən Rusiyaya aparıldı, biz bunu dəqiq bilirik. Axalkalaki bazasındakı artıq silah barədə özləri sərəncam verə bilərlər.

S u a l: Siz buna necə baxırsınız. Sizə elə gəlmirmi ki, bu, regionda qüvvələrin tarazlığını pozur?

E d u a r d Ş e v a r d n a d z e: Yəqin ki, pozur. Lakin artıq bunu yüksək səviyyədə daim müzakirə etmək lazımdır. Silahların hara göndərilməsinə, necə göndərilməsinə təsir göstərmək bizim üçün çox çətindir. Orada söhbət əsas texnikadan getmirdi. Onlar silahların artıq qalan hissəsini götürüb oraya apardılar. Başa düşürəm ki, bu, Azərbaycan üçün çox ağrılıdır. Hesab etmirəm ki, bu, Ermənistan rəhbərliyinin təşəbbüsüdür. Orada Rusiyanın hərbi bazası var. Orada qərarı da Rusiya rəhbərliyi qəbul edir.

S u a l: Heydər Əliyeviç, bu gün Siz Putinlə bu barədə danışdınızmı və cavab necə oldu?

H e y d ə r Ə l i y e v: Bəli, danışdım. O dedi ki, bu, Azərbaycana qarşı yönəldilməyibdir.

S u a l: Bu vəziyyətlə əlaqədar indi regionda təhlükəsizlikdən danışmaq olarmı?

H e y d ə r Ə l i y e v: Bu vəziyyət regionda təhlükəsizlik şəraitini çətin ki, dəyişsin, çünki Ermənistanda onsuz da çox böyük miqdarda Rusiya qoşunları var. Bilirsiniz ki, ötən il

oraya C-300 raketləri də, MİQ-29 təyyarələri də gətirildi və sair. Ona görə də çətin ki, təsiri olsun. Buna baxmayaraq, bu, Azərbaycanı, ictimaiyyətimizi çox narahat edir. Biz bununla əlaqədar etirazımızı bildirmişik və bundan sonra da çalışacağıq ki, regionda təhlükəsizlik pozulmasın.

S u a l: Bəs, bu cür vəziyyətlə əlaqədar bir struktur olaraq MDB-nin özünün mənası itmirmi?

H e y d ə r Ə l i y e v: Xeyr, itmir, çünki biz MDB-də olduqda, bu məsələləri tənzimləmək asandır. Görüşməyə, müxtəlif məsələləri müzakirə etməyə, öz rəyini, etirazını bildirməyə imkan var. Ona görə də hesab edirəm ki, MDB-nin mənası itmir.

S u a l: Heydər Əliyeviç, viza rejimləri təqdim olunduğu, MDB çərçivəsində həlledilməmiş münaqişələr olduğu halda MDB nəyə əsaslana bilər, siz prezidentlərə nikbinlik verən nədir?

H e y d ə r Ə l i y e v: Bilirsinizmi, mən artıq öz fikrimi söyləmişəm. Əvvəla, MDB, xüsusən öz qarşısında duran vəzifələr baxımından, nəzərdə tutulmuş səviyyəyə hələlik çata bilməmişdir. Məsələn, Azərbaycan MDB-yə sonralar, 1993-cü ilin dekabrında daxil olmuşdur. Halbuki MDB 1992-ci ildə yaradılmışdı. Lakin biz MDB-yə daxil olduq, hərçənd bunun Azərbaycanda çoxlu əleyhdarı var idi. Odur ki, biz az qala referendum keçirməli olduq. Zənnimcə, biz düzgün hərəkət etmişik. Yaxşı, bu gün biz MDB-dən çıxa bilərik, bəs bunun əvəzində nə əldə etmiş olarıq? Amma birliyin tərkibində olmağımız bütün bu məsələləri qaldırmaq, onların həllinə nail olmaq üçün daha çox imkanlar verir. Bunun nə dərəcədə mümkün olduğu isə başqa məsələdir.

S u a l: Sizə elə gəlmirmi ki, Gürcüstana qarşı viza rejiminin tətbiqi sizin ölkəniz üçün xəbərdarlıqdır?

H e y d ə r Ə l i y e v: Məncə, əvvəllər bizim ölkəmiz də bu siyahıda idi. Ancaq hələlik bizim ölkəmizə gəlib çatmayıblar. Lakin buna baxmayaraq, biz Gürcüstanla dost olaraq, bu işi

çox ağrı ilə qarşılayırıq. Bu barədə Eduard Amvrosiyeviçlə danışmışıq. Bizdə bunu təkcə mən yox, Azərbaycan ictimaiyyəti də çox ağrılı qarşılayır.

E d u a r d Ş e v a r d n a d z e: Bu məsələ, viza rejiminin tətbiqi ilə əlaqədar Gürcüstanın görəcəyi tədbirlər bir neçə gün əvvəl parlamentimizdə müzakirə edildi. Parlamentin tərkibinin əksər hissəsi, demək olar, yarısı MDB-nin tərkibindən çıxmağa tərəfdar olduğunu bildirdi. Prinsipcə, xalq da bu fikirdədir. Heydər Əliyeviç həmişəki kimi haqlıdır, hər halda, MDB vəziyyətə müəyyən təsir göstərməyə imkan verir. Çünki biz – iki dost ölkə prezidentləri, gələn digər dövlətlər də bir çox məsələləri müzakirə edir, qəbul edilən qəti qərarlara müəyyən təsir göstəririk, düzgün olmayan qərarlar düzəldilir. Odur ki, hələlik MDB, hər halda, faydalıdır, zənnimcə, Azərbaycan üçün də.

S u a l: Hazırda kürd problemi məsələsini çox geniş yayırlar. Guya onlar Azərbaycan ərazisinə iddia edirlər. Başqa sözlə, ermənilər onları bu fikrə təhrik edirlər. Bu nə dərəcədə ciddidir və gələcəkdə Azərbaycan üçün nə dərəcədə təhlükəli ola bilər?

H e y d ə r Ə l i y e v: Bunun nə dərəcədə ciddi olduğunu bilmirəm. Ona görə ki, hər hansı mülahizəni söyləmək üçün səhih məlumata malik olmalısan. Bəli, mətbuatda belə xəbərlər var, amma bu xəbərlərin həqiqətə uyğun olub-olmaması hələlik bizə konkret məlum deyildir.

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Minsk

1 dekabr 2000-ci il

Azərbaycanın və Ukraynanın dövlət başçıları yenidən görüşlərindən məmnun qaldıqlarını söylədilər. Ukrayna rəhbəri respublikamızda insan tələfatına səbəb olmuş təbii fəlakətlə əlaqədar prezident Heydər Əliyevə bir daha başsağlığı verdi.

Görüş zamanı ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinin, habelə GUÖAM çərçivəsində əməkdaşlığın perspektivləri ətraflı müzakirə olundu.

Dövlət başçıları Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlinin region ölkələri arasındakı ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və dərinləşdirilməsində mühüm rol oynayacağını bildirdilər.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə söhbət gedərkən prezident Leonid Kuçma bildirdi ki, Ukrayna bu münaqişəyə tezliklə sülh yolu ilə son qoyulması sahəsində Azərbaycanın göstərdiyi səyləri bundan sonra da dəstəkləyəcək və problemin həlli üçün öz köməyini əsirgəməyəcəkdir.

Prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Minskdəki görüşündə müzakirə ediləcək məsələlərə də toxundular.

Səmimilik və dostluq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi oldu.

* * *

Görüş başa çatdıqdan sonra Azərbaycan və Ukrayna prezidentlərinin jurnalistlərin suallarına cavabı:

S u a l: Bu gün hansı məsələlər müzakirə olundu?

H e y d ə r Ə l i y e v: Bu görüşdə ən əvvəl dövlətlərarası məsələlər müzakirə edilir. Bizim Ukrayna ilə çox səmimi, yaxın münasibətlərimiz var və biz bunu Azərbaycanda yüksək qiymətləndiririk. Ukraynada da münasibət bu cürdür. Ona görə də biz hər dəfə belə imkanlardan işlərimizi bir daha tutuşdurmaq, bəzi məsələləri bir daha müzakirə etmək üçün istifadə edirik. Əslinə qalsa, biz məhz bununla məşğul oluruq.

L e o n i d K u ç m a: Biz mövcud olan bütün problemlər barəsində düz, açıq danışırıq. İkitərəfli səviyyədə problemlərimiz, demək olar, yoxdur.

S u a l: Avrasiyada Avrasiya İqtisadi İttifaqı yaradılmışdır. Onlar gələcəkdə inteqrasiyanı dərinləşdirməyi, hətta öz valyutasını yaratmağı nəzərdə tuturlar. Sizə elə gəlmirmi ki, GUÖAM çərçivəsində də bu barədə düşünməyin vaxtı çatıb, bu çərçivədə də iqtisadi əməkdaşlığın belə dərinləşdirilməsi mümkündürmü, sözdən işə keçmək və bu qurumun əsasında nəinki hansısa bir siyasi birlik, həm də daha möhkəm iqtisadi ittifaq yaratmaq olarmı? Belə perspektivlər varmı?

L e o n i d K u ç m a: Xarici İşlər nazirləri martın 6–7-də Kiyevdə ilkin görüş keçirəcəklər. Sonra sammit olacaq, orada bu ittifaq hüquqi cəhətdən rəsmiləşdiriləcəkdir.

S u a l: 2001-ci ildə?

L e o n i d K u ç m a: Bəli, 2001-ci ildə. Bu, insanların, kapitalın, malların sərbəst hərəkəti üçün azad ticarət zonası yaradılması sahəsində ilk və əsas addımlardan biri ola bilər. Biz MDB tərkibində neçə illərdir ki, bu istiqamətdə nə isə etməyə çalışırıq. Axı dövlətləri iqtisadiyyatın yaxınlaşdırdığı kimi ayrı heç nə yaxınlaşdırmır. Sizin dediyiniz kimi, belə maraq

olanda siyasətçilər də özlərini tamam başqa cür aparacaqlar. Hər bir ölkə ancaq öz milli mənafeləri mövqeyindən baxdıqda isə… Ona görə də hesab edirəm ki, bu, ölkələrimizi yaxınlaşdıracaq və hər cəhətdən yaxşı təkan verəcək başlıca addımlardan biri olacaqdır.

S u a l: Yəni, martda artıq hüquqi ittifaq rəsmiləşdiriləcək?

L e o n i d K u ç m a: Bəli, tamamilə doğrudur. Bizim bu cür razılaşmamız var. Biz Nyu-Yorkda görüşmüşük, Xarici İşlər nazirləri isə bir neçə gün bundan əvvəl Vyanada görüşüb danışmış və əslində, qarşıdakı görüşün tarixini də müəyyənləşdirmişlər.

S u a l: Dövlət başçılarının hamısı Putinin hakimiyyətə gəlməsinə böyük ümidlər bəsləyirdi. İndi bu ümidlər dövlətlərarası münasibətlərdə özünü doğruldurmu?

L e o n i d K u ç m a: Zənnimcə, ən əvvəl Rusiyada ümid bəsləyirdilər. Hesab edirəm ki, onlar prinsipcə yanılmamışlar.

S u a l: Bu gün Rusiya ilə Azərbaycan, Ukrayna arasında dövlətlərarası münasibətlərdə hüquq bərabərliyindən danışmaq olarmı?

L e o n i d K u ç m a: Siz öz suallarınızda dərinə gedirsiniz, onlara cavab tapmaq çox çətindir. Bir daha demək istəyirəm, MDB-nin daxilində çoxlu qurumlar meydana gəldikdə, bütün bunların nə dərəcədə zəif olduğunu təsəvvür etmək çətin deyildir.

S u a l: Leonid Daniloviç, Azərbaycan zəngin ölkədir, Ukrayna da. İndiki vaxtda biz bir-birimizə nə ilə kömək edə bilərik?

L e o n i d K u ç m a: Azərbaycan Ukraynaya həmişə kömək edir. İlk öncə demək istəyirəm ki, Ukrayna çətinliklə üzləşdikdə, Azərbaycan ona həmişə yardım göstərmişdir. Özü də ödənişlərin vaxtını təxirə salmaqla, siz bunu bilirsiniz. Biz buna görə minnətdarıq və mümkün olan hər yerdə hökmən bunu ucadan deyirik.

H e y d ə r Ə l i y e v: Ukrayna da çox zəngin ölkədir. Nahaq belə düşünürsüz ki, Azərbaycan zəngin ölkədir. Biz bir-birimizi dəstəkləyirik və dəstəkləyəcəyik.

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BELARUSUN PAYTAXTI MİNSKDƏ KEÇİRİLMİŞ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

1 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Gecənin bu vaxtında niyə buraya yığışmısınız? Mənə belə gəlir ki, televiziya ilə çox şeyi veriblər, hamısını bilirsiniz. Mənim sizə əlavə bir məlumat verməyimə ehtiyac yoxdur.

Onu deyə bilərəm ki, bu, növbəti görüş idi. Görüş faydalıdır. Müzakirə etdiyimiz məsələlər, sayından asılı olmayaraq, mahiyyətinə görə əhəmiyyətli idi. Bir də ki, biz – dövlət başçıları son vaxtlar belə görüşlər zamanı gündəlikdən savayı, başqa məsələlər barəsində də sərbəst fikir mübadiləsi aparırıq. Bunlar hamısı çox faydalıdır. Bu, əvvəllər bir o qədər, yaxud heç olmurdu. Ona görə mən bu səfərdən razıyam.

S u a l: Cənab Prezident, Ermənistan prezidenti Robert Köçəryan ilə növbəti görüşünüz nə vaxt və harada olacaqdır?

C a v a b: Həmin görüşün vaxtını hələ təyin etməmişik. Ancaq Robert Köçəryanla biz çox ətraflı söhbət etdik. Mən orada bəyan etdim ki, bizim söhbətimiz, ümumiyyətlə, konstruktiv xarakter daşıyır. Biz şərtləşdik ki, belə görüşləri intensivləşdirmək lazımdır. Hər ikimiz belə fikirdəyik. Çünki belə görüşlərdə bir müddət fasilə olubdur.

Biz müəyyən edəcəyik, ya hansısa bir yerdə tədbir olacaq – orada görüşəcəyik, əgər olmasa, xüsusi bir yer müəyyənləşdirib görüşəcəyik.

S u a l: Cənab Prezident, Minsk qrupu həmsədrlərinin Azərbaycana səfərindən sonra onlarla yeni bir görüş gözlənilirmi?

C a v a b: Minsk qrupunun həmsədrləri bizim Xarici İşlər naziri ilə Vyanada görüşüblər. Onlarda yeni bir şey yoxdur. Hesab etmirəm ki, onlar yeni bir təklif, yaxud fikir deyə bilərlər.

S u a l: Cənab Prezident, Siz qarşıdakı əsrdə Müstəqil Dövlətlər Birliyinin perspektivini necə qiymətləndirərdiniz?

C a v a b: Bilirsiniz, Birlik haqqında çox danışırlar, deyirlər ki, o, həyat qabiliyyətli deyil və s. Orada da məndən soruşdular – deyəsən, Eduard Şevardnadze ilə görüşəndə idi. Perspektiv belədir ki, bu cür beynəlxalq təşkilatlar bir–iki–üç ilə formalaşmır. Mühüm cəhət odur ki, əməkdaşlıq etmək arzusu var, əməkdaşlığa zərurət var. Ona görə də hesab edirəm, perspektiv barədə narahat olmaq lazım deyildir. Bu təşkilat tədricən daha faydalı olur. Yaxın vaxtlaradək formal xarakter daşıyırdı. İndi isə Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında məhz münasibətləri inkişaf etdirmək üçün daha konkret xarakter alır. Bunun da mənası var. Çünki biz hamımız bir dövlətin tərkibində olmuşuq, ölkələrimizin hamısının iqtisadiyyatı keçmişdə bir-biri ilə bağlı idi. Bu iqtisadi əlaqələr bir çox sahədə pozulmuşdur. Bu kimə sərfəlidir? Hər bir ölkə iqtisadi kooperasiya olmasını, ticarət etməyi və s. istəyir. Bu baxımdan həmin təşkilat hamı üçün imkan yaradır. Ona görə də mən hesab etmirəm ki, bu, perspektivi olmayan təşkilatdır.

S u a l: Cənab Prezident, Müdafiə nazirinin Böyük Britaniyada çıxan «Faynənşl tayms» qəzetinə müsahibəsində də Gürcüstandan çıxarılan Rusiya silahlarının Dağlıq Qarabağda yerləşdirilməsindən və kürd qruplarının hazırlanmasından bəhs

edilibdir. Robert Köçəryanla görüşünüzdə bu məsələyə toxundunuzmu?

H e y d ə r Ə l i y e v: Hansı Müdafiə naziri? Bizim Müdafiə naziri «Faynənşl tayms» qəzetinə müsahibə verib?

J u r n a l i s t: Bəli.

H e y d ə r Ə l i y e v: Bilirsiniz, bu barədə söhbət olubdur. Amma bu söhbətlər elədir ki, heç kim heç kəsə heç nəyi sübut edə bilmir.

S u a l: Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının iclası olubdur.

C a v a b: Bəli, Yerevanda olubdur.

J u r n a l i s t: Orada Ermənistan tərəfindən belə bir təklif irəli sürülübdür ki, iqtisadi əməkdaşlıq genişləndirilsin, bu, sülh prosesinə zəmin yarada bilər. Azərbaycan bu təkliflə hər hansı şəkildə razılaşa bilərmi?

C a v a b: Bilirsinizmi, Ermənistan çox istəyir ki, Azərbaycanla iqtisadi əlaqələr yaratsın. Bunu təkcə Ermənistan yox, çoxları istəyirlər. Məsələn, Amerika Birləşmiş Ştatları bu barədə bizə dəfələrlə öz təkliflərini veribdir. Hətta Cənubi Qafqazın üç ölkəsinin nümayəndələrini Gürcüstanda bəzi iqtisadi məsələlərlə əlaqədar toplayırlar, seminar keçirirlər.

Biz indi Avropa Şurasına tamhüquqlu üzv kimi daxil olmaq ərəfəsindəyik. Orada da daim deyirlər ki, gərək əməkdaşlıq olsun. Yəni bu, Ermənistanın arzusudur. Bu arzuya həm beynəlxalq təşkilatlar, hətta Minsk qrupunun həmsədrləri, həm də bir sıra ölkələr, məsələn, Amerika Birləşmiş Ştatları kimi böyük bir dövlət qoşulur. Ancaq biz bunu istəmirik. Bizə izah edirlər ki, guya bu, Ermənistanla Azərbaycan arasında daha da etimad yaradacaqdır. Beləliklə, insanlar indiyə qədər yaranmış ziddiyyətləri, düşmənçiliyi unudacaqlar. Guya bu da məsələnin həll olunmasına kömək göstərəcəkdir.

Mən bu fikri heç vaxt qəbul etməmişəm, bu gün də qəbul etmirəm. Çünki Ermənistanla bizim indiki vəziyyətimizdə –

yəni torpaqlarımız işğal altındadır, qaçqınlarımız vardır – həmin ölkə ilə əməkdaşlıq etməyə ehtiyacımız yoxdur. Ermənistanın buna ehtiyacı var. Onlar bunu istəyirlər. Amma bizim buna ehtiyacımız yoxdur. Mən hesab etmirəm ki, bu, Azərbaycan ilə Ermənistan arasında münaqişənin həllinə həqiqətən kömək edəcəkdir. Mən hesab edirəm ki, bu münaqişənin aradan qaldırılması üçün çox ciddi əsaslı qərarlar, yaxud sazişlər əldə etmək lazımdır. Yoxsa ki, belə xırda-xırda əməkdaşlıq edək, bir-birimizə yaxınlaşaq, bir-birimizi öyrənək, uyğunlaşaq, sonra da məsələni həll edək – bu, məsələni uzatmaq deməkdir.

S u a l: Cənab Prezident, Qəbələ Radiolokasiya Stansiyası barədə Rusiya tərəfi ilə müzakirələr aparıldımı?

C a v a b: İndi biz Rusiya tərəfi ilə belə müzakirə aparmırıq. Mən Rusiyanın prezidenti Vladimir Putinlə görüşüb böyük məsələlər haqqında danışdım. Azərbaycan hökuməti ilə Rusiya hökuməti, Müdafiə nazirlikləri arasında Qəbələ RLS haqqında danışıqlar daim gedir. Hesab edirəm ki, yanvarın 9-dək – bilirsiniz ki, mən elan etmişəm, Vladimir Putin Azərbaycana rəsmi səfər edəcəkdir – bu məsələnin həll olunması üçün hər iki tərəfin razılığı əsasında sənəd hazırlanmalıdır. Mən bizim Nazirlər Kabinetinin qarşısında bu vəzifəni qoymuşam.

S u a l: Cənab Prezident, Rusiya prezidenti Vladimir Putinlə görüşdə viza rejiminin tətbiqi barədə söhbət oldumu?

C a v a b: Bizim ölkəyə viza rejimi tətbiq edilmir.

S u a l: Leonid Kuçma ilə görüşdə azad iqtisadi-ticarət zonası ilə bağlı məsələyə toxundunuzmu?

C a v a b: Gəlin belə xırda məsələlərlə vaxtımızı almayaq. Azad iqtisadi-ticarət zonası məsələsi hər dəfə müzakirə olunur. Biz bunu qəbul etmişik və ona imza atmışıq. Amma hələ bəzi ölkələr buna imza atmayıblar, ona görə də proses davam edir.

S u a l: Cənab Prezident, Türkmənistanın nümayəndəsi bildirib ki, Xəzərin statusu ilə bağlı mövqelər artıq müəyyənləşibdir. Türkmənistan İranın mövqeyindən çıxış edir. Qazaxıstan ilə Rusiya arasında isə bu barədə saziş var. Qalır təkcə Azərbaycan. Rusiyanın nümayəndəsi Azərbaycana gələndə belə bir ifadə işlətmişdi ki, Rusiya ilə Azərbaycan arasında da Qazaxıstanla olan sazişə uyğun bir sənəd imzalanacaqdır. Belə bir sazişin imzalanacağı gözlənilirmi?

C a v a b: Bu saziş gözlənilir. Prezident Vladimir Putin Azərbaycana gələndə biz bu barədə birgə bəyannamə, yaxud bəyanat – adı o qədər də əhəmiyyətli deyil – imzalayacağıq, bu barədə öz razılığımızı bildirəcəyik.

S u a l: Cənab Prezident, bu razılıq hansı prinsiplər əsasında olacaqdır?

C a v a b: Bunu o vaxt bilərsiniz.

S u a l: Cənab Prezident, Ermənistana qanunsuz silahlar verilməsi məsələsi müzakirə olundumu?

C a v a b: Hansı qanunsuz silahları nəzərdə tutursunuz?

J u r n a l i s t: Bir milyard dollarlıq Rusiya silahlarını deyirəm.

H e y d ə r Ə l i y e v: Vaxtınızı belə şeylərə itirməyin. Siz bilirsiniz ki, biz bu barədə nə qədər işlər görmüşük. İndi bu köhnə məsələni yenidən qaldırırsan? Ondan sonra Rusiya gətirib oraya nə qədər raketlər, MİQ-29 tipli təyyarələr doldurubdur, Axalkalakidən çıxardığı 70 ədəd ağır texnikanı oraya keçiribdir. 2–3 il bundan öncə verilmiş qeyri-qanuni silahlar haqqında belə bir şəraitdə danışmağın əhəmiyyəti yoxdur.

S u a l: Ümumiyyətlə, bu problemə nəzər salındımı?

C a v a b: Hər bir problemə nəzər salınır.

S u a l: Cənab Prezident, Azərbaycanda bir Amerika vətəndaşı qətlə yetirilibdir. Onun istintaqının tezliklə başa çatdırılması üçün dövlət hər hansı bir tapşırıq veribmi?

C a v a b: Bəli, Minskə yola düşəndə bu məsələni mənə dedilər. Mən bu barədə göstəriş vermişəm. Daxili İşlər naziri və Baş prokuror indi mənə məruzə etdilər ki, onlar bu məsələni açırlar. Bu barədə heç də hay-küy yaratmaq, müxalifətin, yaxud ayrı-ayrı qəzetlərin bundan sui-istifadə etməsi lazım deyildir. Bu, adi cinayətdir, burada heç bir başqa şey yoxdur. İki günə qədər hər şeyi biləcəksiniz.

S u a l: Cənab Prezident, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində 2001-ci il dönüş nöqtəsi ola bilərmi?

C a v a b: Biz istəyirik ki, olsun. Sağ olun.

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI SİYASİ KOMİSSİYASININ BAKIDA KEÇİRİLƏN 44-cü SESSİYASININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi, Ümumdünya gömrük siyasətinin hazırlanmasında və həyata keçirilməsində fəal rol oynayan Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının üzvlərini və sessiya iştirakçılarını salamlayır, işinizdə uğurlar diləyirəm!

Bu gün dünya iqtisadiyyatında gedən qloballaşma prosesləri Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiya olunmasını sürətləndirmiş, qədim «İpək yolu»nun bərpası və Xəzər dənizi hövzəsinin enerjidaşıyıcılarının nəqli kəmərləri layihələrinin gerçəkləşdirilməsi regional iqtisadi əməkdaşlıq imkanlarını genişləndirmişdir. Bunu nəzərə alaraq, Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 2000-ci il dekabr sessiyasının müstəsna hal kimi, Brüssel şəhərindən kənarda – Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilməsini bu təşkilatın, onun Baş katibi hörmətli cənab Mişel Danenin ölkəmizə xüsusi diqqətinin ifadəsi kimi qiymətləndirirəm.

Güman edirəm ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin belə mötəbər beynəlxalq təşkilatın Maliyyə Komitəsinə, onun siyasi komissiyasına üzv seçilməsi və iclaslarında iştirakı ölkəmizin gömrük orqanının beynəlxalq nüfuzunu artıracaq və Azərbaycanın xarici iqtisadi əlaqələrinin tənzimlənməsində səmərəli fəaliyyət göstərən mexanizmlərin qurulmasına kömək edəcəkdir.

Bakıda olduğunuz müddətdə siz bazar iqtisadiyyatı və demokratik inkişaf yolu seçmiş Azərbaycanda hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin, iqtisadi inkişafın və tərəqqinin, qədim Azərbaycan xalqının qonaqpərvərliyinin şahidi olacaqsınız.

Sessiyanızın işinə uğurlar, hər birinizə möhkəm cansağlığı və səadət, təmsil etdiyiniz ölkəyə və onun xalqına firavanlıq arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *4 dekabr 2000-ci il*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI SİYASİ KOMİSSİYASININ BAKIDA KEÇİRİLƏN 44-cü SESSİYASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

5 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Mən sizi salamlayıram. Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 44-cü sessiyasının Azərbaycanda keçirilməsini çox əhəmiyyətli hadisə hesab edirəm.

Gömrük Təşkilatı hər bir ölkə üçün çox mühüm və vacib bir orqandır. Eyni zamanda ölkələr arasında iqtisadi əlaqələrin, ticarət əlaqələrinin daha da yaxşı təşkil olunması üçün gömrük təşkilatlarının bir-biri ilə əlaqələri sıx olmalıdır, təcrübə mübadiləsi aparılmalıdır, məsləhətləşmələr olmalıdır. Ona görə də hesab edirəm ki, Ümumdünya Gömrük Təşkilatı çox əhəmiyyətli iş görür. Güman edirəm, Siyasi Komissiyanın Azərbaycanda, Bakıda keçirilən 44-cü sessiyası gömrük təşkilatlarının qarşısında duran böyük vəzifələrin yerinə yetirilməsinə və Ümumdünya Gömrük Təşkilatının funksiyalarının həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

Mən sizə, bu sessiyanın iştirakçılarına təbrik məktubu göndərmişəm. Bu gün sizinlə görüşərək hər birinizə, o cümlədən Ümumdünya Gömrük Təşkilatına, onun Siyasi Komissiyasına və Siyasi Komissiyanın 44-cü sessiyasına uğurlar arzulayıram.

M i ş e l D a n e(*Ümumdünya Gömrük Təşkilatının Baş katibi*): Cənab Prezident!

Xanımlar və cənablar!

Mən həm öz adımdan, həm də burada iştirak edən nümayəndə heyətinin üzvləri adından bildirmək istəyirəm ki, burada, Sizin qəbulunuzda olmağımızdan, Sizin ölkənizdə, paytaxtınızda olmağımızdan şərəf hissi duyuruq və buna görə Sizə minnətdarıq. Sizin ünvanınıza söylədiyimiz bu xoş sözlər təkcə burada iştirak edən nümayəndə heyətinin üzvlərinin yox, burada təmsil olunan bütün dövlətlərin gömrük idarələrinin Baş direktorları adından deyilir. Ona görə ki, bu gün 153 ölkədə Bakı haqqında, Sizin ölkənin paytaxtı haqqında düşünürlər.

Bizim ünvanımıza dediyiniz xoş arzularınız üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Ümid edirəm ki, əlbəttə, Sizin rəhbərliyiniz altında bizim sessiya qarşısına qoyduğu məqsədlərə çatacaqdır.

Cənab Prezident, Sizə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Çünki buraya, Azərbaycana gəldiyimiz gündən bizə ən xoş və hərarətli münasibət göstərilmişdir. Demək istəyirəm ki, burada olduğumuz müddətdə, gəldiyimiz gündən indiyə qədər bizimlə bağlı olan bütün məsələlər, yəni qarşılanma, yerləşmək, nəqliyyat və s. ilə əlaqədar bütün məsələlər çox yüksək səviyyədə öz həllini tapmışdır. Biz doğrudan da Sizin aranızda olmağımızdan çox xoşbəxtlik hissləri keçiririk. Eyni zamanda burada olduğumuz müddətdə Sizin tarixinizlə, mədəniyyətinizlə, keçmişinizlə tanış oluruq. Həmçinin Azərbaycan xalqı ilə tanış olur, onu öyrənirik.

Cənab Prezident, mən burada iştirak edənlərin adından bir daha Sizə minnətdarlığımı bildirirəm. Əlbəttə, Sizin prezidentliyiniz, rəhbərliyiniz altında, işlədiyiniz komanda ilə birlikdə Azərbaycan Respublikasına inkişaf və çiçəklənmə arzulayıram. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Çox sağ olun.

M i ş e l D a n e: Cənab Prezident, icazənizlə, protokoldan kənara çıxmaq istəyirəm. Siyasi Komissiyanın sədri, Birləşmiş Ərəb Əmirlikləri Gömrük İdarəsinin sədri doktor Übeyd Sağer Busit ilə birlikdə Sizə xatirə hədiyyələri təqdim etmək istəyirəm. Bunlar burada olmağımızdan bir xatirədir.

Cənab Mişel Dane respublikamızın rəhbəri Heydər Əliyevə xatirə hədiyyələrini təqdim etdi.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, təşəkkür edirəm.

L e o n i d L o z b e n k o (*Ümumdünya Gömrük Təşkilatı Baş katibinin müavini, Rusiya)*: Cənab Prezident, Siyasi Komissiyanın 44-cü iclasında iştirak etməyə gəlmiş nümayəndə heyətlərinə şəxsən diqqət göstərdiyinizə görə Sizə ürəkdən minnətdarıq. Demək istərdim ki, Siyasi Komissiyanın iclasının ilk dəfə MDB ölkələrindən birində keçirilməsi son dərəcə əlamətdar haldır.

Biz bilirik ki, MDB ölkələrinin prezidentləri gömrük xidmətlərinin yaradılması, onların rolunun mühümlülüyü ilə bağlı məsələlərə böyük diqqət yetirirlər. Sizi əmin etmək istərdim ki, Ümumdünya Gömrük Təşkilatı MDB ölkələrinə gömrük xidmətlərinin təşəkkülündə mümkün olan bütün köməyi göstərməyi davam etdirəcəkdir.

Fürsətdən istifadə edərək, çox böyük şöhrətə malik olduğunuzu və Sizə böyük diqqət yetirildiyini – xüsusən də MDB ölkələrində – bilərək, Sizdən xahiş etmək istərdim ki, gömrük orqanlarına yardım göstərilməsi üçün MDB ölkələri prezidentlərinin görüşlərində gömrük məsələləri imkan daxilində birinci yerə çıxarılsın.

H e y d ə r Ə l i y e v: Hesab edirəm ki, hər bir prezident bunu gözəl bilir.

Mən sizinlə görüşümdən bir daha məmnun olduğumu bildirmək istəyirəm. Hesab edirəm ki, Siyasi Komissiyanın

Bakıda keçirdiyiniz 44-cü sessiyası hər bir ölkə üçün, xüsusən Azərbaycan üçün çox faydalı olacaqdır.

Bilirsiniz ki, Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Azərbaycanda gömrük təşkilatı ölkəmiz müstəqilliyini əldə edəndən, müstəqil dövlət kimi dünyada tanınandan sonra təşkil olunmuşdur. Biz uzun illər Sovetlər İttifaqının tərkibində yaşamışıq. Mən yaxşı bilirəm ki, Sovetlər İttifaqında gömrük təşkilatı o qədər görkəmli yer tutmurdu. Bəlkə heç çoxları bilmirdi ki, Sovetlər İttifaqında gömrük təşkilatı var, ya yoxdur. Ona görə bizim kimi ölkələr üçün, yəni Sovetlər İttifaqı dağılandan sonra müstəqillik əldə etmiş ölkələr üçün, o cümlədən Azərbaycan üçün gömrük işi, ümumiyyətlə, gömrük xidməti yeni bir sahədir.

Bildirmək istəyirəm ki, biz doqquz ildir ki, müstəqillik şəraitində yaşayırıq. Azərbaycanın doqquz illik həyatında müxtəlif mərhələlər, çətinliklər olubdur. O cümlədən gömrük orqanının da təşkilatlanması, formalaşması və kadrların hazırlanması, təcrübə toplaması üçün bu proses çox ağır gedibdir.

Sizin ölkələrinizin gömrük təşkilatlarının böyük tarixi var, böyük təcrübəsi vardır. Hər ölkə on illərlə, yüz illərlə gömrük təşkilatını yaradıb və ondan istifadə edibdir. Dövlətimiz gənc olduğu kimi, bizim gömrük təşkilatı da gəncdir. Ancaq onu deyə bilərəm ki, son beş-altı il içərisində Azərbaycanda gömrük təşkilatı artıq formalaşıbdır, öz yerini tutubdur və Azərbaycanın xarici iqtisadi, ticarət əlaqələrinin həyata keçirilməsində öz xidmətini göstərir. Ancaq biz onu da etiraf etməliyik ki, bizim gömrük təşkilatının işində hələ nöqsanlar da var, çatışmazlıqlar da var və hələ istənilən səviyyədə təcrübə toplamayıbdır. Ona görə də Azərbaycan Dövlət Gömrük Komitəsinin qarşısında çox böyük və çox əhəmiyyətli vəzifələr qoymuşuq.

Azərbaycan Dövlət Gömrük Komitəsinin Ümumdünya Gömrük Təşkilatı ilə son illər yaratdığı işgüzar əlaqələr və

Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 44-cü sessiyasının Azərbaycanda keçirilməsi – Rusiyanı təmsil edən hörmətli qonağımız da dedi – bu, Müstəqil Dövlətlər Birliyində ilk ölkədir ki, belə bir tədbir keçirilir – onu göstərir ki, Azərbaycanın gömrük təşkilatı qısa bir müddətdə həqiqətən inkişaf edib və lazım olan təcrübəni toplaya bilibdir. Hesab edirəm ki, 44-cü sessiya Azərbaycanda gömrük xidmətinin inkişaf etməsi üçün çox faydalı olacaqdır. Güman edirəm ki, bu sizin hər biriniz üçün faydalı olacaqdır.

Siz bizim ölkəmizi görməmisiniz. İndi, heç olmasa, paytaxtımızla tanış olarsınız. Mən burada təmsil olanların hansı ölkələrdən gəlmələri haqqında arayışa baxarkən gördüm ki, çox uzaq ölkələrdən gəlmiş qonaqlarımız vardır. Belələri üçün Azərbaycan ancaq xəritədə görüntü kimi görünür. Amma indi Azərbaycanı özünüz gözünüzlə görürsünüz. Nə var, odur. Hər halda, biz öz ölkəmizlə, öz paytaxtımızla fəxr edirik. Eyni zamanda qəti deyə bilərəm ki, müstəqillik şəraitində, müstəqil dövlət kimi, biz bundan sonra ölkəmizi, o cümlədən paytaxtımızı bütün sahələrdə daha da çox inkişaf etdirə biləcəyik.

Sizin sessiyanın işinə bir daha uğurlar arzulayıram. Hər birinizə öz işinizdə uğurlar arzulayıram. Sizin ölkələrinizə, xalqlarınıza sülh, əmin-amanlıq və rifah arzulayıram. Mənim salamımı və ən xoş arzularımı öz ölkələrinizin başçılarına çatdırmağınızı xahiş edirəm. Sağ olun. Təşəkkür edirəm.

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KHAMTAY SİPHANDONA

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və dost Laos xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Laos Xalq Demokratik Respublikası arasındakı dostluq və əməkdaşlıq əlaqələri inkişaf edərək xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına sülh, firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 dekabr 2000-ci il*

TAİLANDIN KRALI
ƏLAHƏZRƏT
PUMİPON ADULYADETƏ

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Kralın təvəllüdü günü münasibətilə Sizi, kral ailəsinin üzvlərini və dost Tailand xadqını səmimi–qəlbdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə firavanlıq və əmin-amanlıq arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Tailand Krallığı arasındakı dostluq və əməkdaşlıq münasibətləri genişlənərək ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 dekabr 2000-ci il*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM TARYA HALONENƏ

Hörmətli Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Finlandiya xalqını salamlayır və ürəkdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə Finlandiya Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri genişlənərək ölkələrimizin və xalqlarımızın mənafeyinə, Avropa və bütün dünyada sülh və tərəqqi işinə xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 dekabr 2000-ci il*

XALQ ARTİSTİ TOFİQ BAKIXANOVA

Hörmətli Tofiq Bakıxanov!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz xalqımızın tarixi keçmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək, Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermisiniz. Əlli illik yaradıcılıq yolunuz həm ifaçı, həm də bəstəkar kimi, xalqa sədaqətli xidmət, musiqi sənətinə möhkəm bağlılıq nümunəsi olmuşdur.

Azərbaycan milli musiqi xəzinəsinin dərin köklərindən bəhrələnən çoxşaxəli yaradıcılığınız müasir musiqinin ümumi kontekstində inkişaf edərək, sənət aləmində sizə böyük hörmət qazandırmışdır.

Yaratdığınız baletlər, musiqili komediyalar, simfoniyalar, konsertlər, simfonik muğamlar, romanslar və mahnılar musiqi mədəniyyətimizi zənginləşdirən dəyərli sənət nümunələridir. Müxtəlif janrlarda bəstələdiyiniz əsərlərinizin bir çoxu konsert repertuarlarına və təbrik proqramlarına həmişəlik daxil olmuşdur.

Siz öz musiqi yaradıcılığı ilə pedaqoji fəaliyyətini əlaqələndirən sənətkarlardansınız. Yarım əsrə yaxın bir dövr ərzində neçə-neçə gənc musiqiçilər nəsli məhz sizin sayənizdə böyük sənət aləminə qovuşmuşdur. Bakı Musiqi Akademiyasının professoru kimi, siz bu gün də musiqiçi kadrların hazırlanmasında var qüvvənizi sərf edirsiniz.

İnanıram ki, geniş yaradıcılıq potensialına malik bir bəstəkar və pedaqoq kimi, siz yeni əsərlərinizlə professional musiqimizin inkişafına bundan sonra da xidmət edəcək və ölkəmizdə gənc sənətkarların yetişdirilməsi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *7 dekabr 2000-ci il*

AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏR: AVTOPORTRET FOTOSƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

R.Mustafayev adına
Azərbaycan Dövlət İncəsənət Muzeyi

8 dekabr 2000-ci il

Hörmətli xanımlar və cənablar!

Biz həyatımızda həm Azərbaycanda, həm də başqa ölkələrdə rəssamların, böyük fotoqrafların çox sərgilərini görmüşük. Ancaq güman edirəm, siz də bu fikirlə razı olarsınız, biz ilk dəfədir ki, belə bir sərgi görürük.

Bu sərginin xüsusiyyəti ondan ibarətdir ki, o, Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarından məcburi, zorla çıxarılmış vətəndaşlarımızın çadırlarda ağır şəraitdə yaşadıqlarını, onların gündəlik həyatını əks etdirir. Sərginin digər xüsusiyyəti ondan ibarətdir ki, buradakı fotoşəkillərin müəllifləri həmin o ağır vəziyyətdə yaşayanlar və xüsusən də uşaqlardır.

Mən Azərbaycanın son illərdəki həyatında belə mənzərələri çox görmüşəm. Buna baxmayaraq, sərgi məndə çox həyəcan hissi doğurur. Ancaq hesab edirəm ki, bu mənzərələri – 8 ildən artıq Azərbaycanın rayonlarında çadırlarda, hətta yeraltı sığınacaqlarda ağır şəraitdə yaşayanların real vəziyyətini görməyən insanlar belə fotoşəkillərə heç də biganə baxa bilməzlər. Bu şəkillər yəqin ki, onlarda da böyük həyəcan hissi doğura bilər.

Burada, Azərbaycan Dövlət İncəsənət Muzeyində çox dəyərli əsərlər vardır. Bunlar Azərbaycanın, dünyanın görkəmli rəssamlarının əsərləridir. Onların hamısı qiymətlidir, bu muzeyə gələn insan, təbiidir ki, belə gözəl rəsm, heykəltəraşlıq əsərlərinin təsiri altına düşür və onlara heyranlıqla baxır. Ancaq bizim bu gün gördüyümüz fotosərgi muzeyin bütün eksponatlarından fərqlənir. Fərq də ondan ibarətdir ki, bu şəkillər bizim müasir həyatımızın çox faciəli hissəsini, cəhətlərini nümayiş etdirir.

Azərbaycan xalqı çoxəsrlik tarixində bir çox faciələrdən keçmiş, əzilmiş, vurulmuş, ancaq yenidən qalxmış və inkişaf etmişdir. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində respublikamızın torpaqlarının bir hissəsinin işğal olunması, bu müharibə zamanı verdiyimiz itkilər, şəhidlər, tökülən qanlar və bir milyondan çox vətəndaşımızın işğalçı Ermənistan silahlı qüvvələrinin təzyiqi, qorxusu nəticəsində, onların açdıqları atəşlərdən özlərini xilas etmək üçün doğma yerlərindən, yurdlarından çıxıb indi ağır vəziyyətdə yaşaması XX əsrdə Azərbaycanın, xalqımızın ən böyük faciəsidir. Bir daha deyirəm ki, bu, XX əsrdə xalqımızın böyük faciəsidir.

Bu faciəni hamımız yaşayırıq, bütün Azərbaycan xalqı yaşayır. Ancaq faciənin əsas əzab-əziyyətlərini, ən böyük çətinliklərini yaşayan qaçqın və köçkün vəziyyətində olan həmin vətəndaşlarımız, çadırlarda doğulmuş, böyümüş uşaqlarımız, yaxud çadıra gələrkən çox kiçik yaşında olub, orada böyüyərək həyat sürən uşaqlarımızdır, gənclərimizdir. Ona görə də sərgiyə baxanda ilk növbədə qaçqınlarımızın və köçkünlərimizin bugünkü ağır vəziyyəti göz önünə gəlir. Hesab edirəm ki, hər bir vicdanlı Azərbaycan vətəndaşı onların ağrısını, acısını ürəyində, qəlbində bir daha hiss edir. Ancaq eyni zamanda bu sərgi bizim ağır vəziyyətdə yaşayan insanlarımızın nə qədər dözümlü, nə qədər dəyanətli və qeyrətli olduqlarını göstərir. Bu insanların belə şəraitdə ağır həyat tərzi

keçirməsi, yaşaması, yaratması və gələcəyə ümidlə baxması onların nə qədər yüksək mənəviyyata malik olduqlarını nümayiş etdirir.

Mən bu sərgiyə baxarkən, o fotoşəkilləri görərkən bizim ağır vəziyyətdə yaşayan soydaşlarımızın indiki real vəziyyətini gözlərim önünə gətirirəm. Yəni istər-istəməz bu mənzərə gözlərim qarşısında canlanır. Onların dözümlüyü, iradəsi qarşısında bu gün bir daha baş əyirəm. Belə ağır vəziyyətdə yaşayan bütün soydaşlarımıza – bacılarımıza, qardaşlarımıza, uşaqlarımıza təşəkkürümü bildirirəm. Bütün Azərbaycan xalqını əmin edirəm ki, onların bu faciəli həyatı bir çox illər davam etsə də, nəhayət, bunun sonu vardır. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımız mütləq azad olunacaq, indi ağır vəziyyətdə yaşayan, çadırlarda həyat sürən insanlar öz yerlərinə-yurdlarına qayıdacaq, yeni evlər, məktəblər, xəstəxanalar, kitabxanalar və iş yerləri yaranacaqdır. Onlar gələcək həyatlarını daha da xoşbəxt yaşayacaqlar. Azərbaycan dövləti ötən illərdə bundan ötrü çox işlər görüb, demək olar ki, bütün imkanlardan istifadə edibdir. Bu işlər indi də görülür və görüləcəkdir. Heç şübhə etmirəm ki, bütün bunlar öz nəticəsini verəcəkdir.

Ancaq bu, işlərin bir hissəsidir, Azərbaycanın düşdüyü belə ağır vəziyyət, ölkəmizin qaçqınlarının və köçkünlərinin real həyatı – bu böyük faciə gərək dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara daha da aydın olsun, olduğu kimi çatdırılsın. Təəssüf ki, real vəziyyəti dünya ictimaiyyətinə çatdırmaq üçün görülən işlər yetərli olmayıbdır. Əksinə, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi halda, bir milyondan artıq vətəndaşımızı belə ağır vəziyyətə saldığı halda Ermənistanın müxtəlif təbliğat orqanları, dünyanın bir çox ölkələrində yaşayan erməni diasporu, lobbisi belə fikir yaradır və buna da müəyyən dərəcədə nail ola bilir ki, guya günahkar Ermənistan və bu ölkənin silahlı

qüvvələri deyil, Azərbaycandır. Guya Azərbaycan Dağlıq Qarabağda yaşayan ermənilərı əzib, sıxıb, indi onları blokadaya alıbdır. Ermənilər bu sahədə çox məharətlə çalışıblar və çalışırlar. Doğrudur, etiraf etmək lazımdır ki, onların imkanları böyükdür. Böyük ölkələrdə, Amerika Birləşmiş Ştatlarında, Avropa ölkələrində erməni diasporu həm çoxdur, həm də güclüdür. Onlar dövlət orqanlarına təsir etmək imkanına malikdirlər. Təəssüf ki, Azərbaycanın belə imkanları yoxdur. Ona görə də vəziyyət bir çox hallarda tərsinə təsvir olunur.

İtaliyanın «Acip» şirkətinin təşəbbüsü, yəni belə bir fotosərginin yaranması və xüsusən, burada deyildiyi kimi, bu fotoşəkillərin İtaliyada və başqa ölkələrdə nümayiş etdirilməsi bizim üzərimizə düşən vəzifələrin həyata keçirilməsi üçün çox gərəkli bir təşəbbüsdür, yüksək qiymətə layiqdir. Buna görə mən Azərbaycanın ağır vəziyyətdə yaşayan vətəndaşlarına göstərdiyi yardıma görə «Acip» şirkətinə təşəkkür edirəm. Eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, Qərb ölkələrinin Azərbaycanda fəaliyyət göstərən və geniş imkanlara malik olan, «Acip» şirkətindən də daha çox iş görən şirkətləri, xüsusilə neft şirkətləri «Acip»in bu təşəbbüsünə qoşulacaqlar və onların hər biri bu sahədə öz xidmətlərini göstərəcəklər.

Bu sərgi, buradakı fotoşəkillər Azərbaycandakı qaçqınların vəziyyəti haqqında müəyyən təəssürat, təsəvvür yaradır. Ancaq hesab edirəm ki, real vəziyyət bundan qat-qat ağırdır. Yəni biz hamımız bu təşəbbüsü qiymətləndirərək, eyni zamanda səy göstərməliyik ki, belə təşəbbüslər genişlənsin və Azərbaycanda faciəli həyat sürən soydaşlarımızın real vəziyyəti bütün dünyaya çatdırıla bilsin. Bu vəzifə birinci növbədə Azərbaycanın müxtəlif müvafiq orqanlarına aiddir. Amma eyni zamanda «Acip» şirkətinin bu təşəbbüsü həm Azərbaycanın bu işdə məsuliyyət daşıyan orqanları üçün, həm də

qeyd etdiyim kimi, ölkəmizdə çox geniş fəaliyyət göstərən müxtəlif şirkətlər üçün də nümunə olmalıdır.

Mən «Acip» şirkətinə bir daha təşəkkür edirəm. Ümidvaram ki, onlar bu sahədə öz işlərini davam etdirəcəklər.

Əminəm ki, bu təşəbbüs bizim gələcəkdə görəcəyimiz böyük işlərin başlanğıcı olacaqdır. Sağ olun. Təşəkkür edirəm.

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR YENİLİK ARZULAYIR VƏ TƏLƏB EDİR» DEVİZİ İLƏ KEÇİRİLƏN ŞƏNLİKDƏ NİTQ

Teleteatr

10 dekabr 2000-ci il

Əziz uşaqlar!
Əziz balalar!

Mən sizi və Azərbaycanın bütün uşaqlarını bugünkü bayram münasibətilə, YUNİSEF-in müəyyən etdiyi proqramın həyata keçirilməsi münasibətilə ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, xoşbəxt gələcək və bu gözəl istedadlarınızın həyata keçirilməsində uğurlar arzulayıram.

Bu gün artıq biz birinci dəfə deyil ki, sizinlə görüşürük. Çox məmnunam ki, 1994-cü ildə, hələ Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk zamanda mən Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatında Azərbaycanın dövlət kimi YUNİSEF təşkilatına üzv olması və onun şərtlərinin qəbul edilməsinə təminat verilməsi barədə sənədlər imzaladım. Bu haqda mən, təbiidir, düşünürdüm ki, bunlar bizim Azərbaycanımız, müstəqil dövlətimiz, onun uşaqları üçün nə qədər vacibdir, nə qədər əzizdir və Azərbaycan uşaqlarının böyüyüb boya-başa çatması, inkişaf etməsi üçün nə qədər böyük imkanlar açacaqdır.

Bu gün burada deyildi ki, həmin vaxtdan 7 il keçir. YUNİSEF-in Azərbaycandakı tədbiri təkcə bugünkü bayramdan ibarət deyil,

bu təşkilat Azərbaycanda uşaqların təhsili və tərbiyəsi üçün, onlara müxtəlif sahələrdə yardım etmək üçün çox işlər görür. Ancaq bu gün YUNİSEF-in, demək olar ki, ən böyük bayramıdır. Çünki bütün dünyada, YUNİSEF təşkilatının üzvü olan ölkələrdə eyni bir gündə uşaqların bayramı keçirilir və onların istedadları nümayiş etdirilir. Hər bir ölkə bu tədbirə qoşularaq öz dövlətini, öz uşaqlarını həm öz vətəndaşlarına, həm də bütün dünyaya göstərir.

Mən sizin bütün bu tədbirlərinizdə iştirak etmişəm, bilirəm, demək olar ki, buna öyrəşmişəm. Əgər mən bəlkə də bu gün Azərbaycanda olmasaydım, hansısa vacib bir məsələ ilə əlaqədar ölkəmizdən kənarda olsaydım, sizinlə görüşməsəydim, bunu özüm üçün böyük bir itki hesab edərdim. Ancaq çox şadam ki, hər il sizinlə görüşmək, istedadlarınızı gözlərimlə görmək mənə nəsib olur.

Ancaq bu təkcə mənə aid deyildir. Bu gün Azərbaycanın dövlət televiziyası ölkəmizin vətəndaşlarının hamısına bunu nümayiş etdirir. Mən şübhə etmirəm ki, vətəndaşlarımızın tam əksəriyyəti bu proqrama baxırlar, hətta televiziya ekranı önündən çəkilmirlər.

Mən özüm də bu gün sizin proqram başlayanda evdə idim, baxırdım. Nəvəm də mənimlə bərabər baxırdı və sevinirdim. Mənim üçün təyin olunmuş vaxtı gözləyirdim ki, buraya gəlim. Doğrudur, nəvəmi də gətirmək istəyirdim. Ancaq o hələ kiçikdir, bir az ehtiyat etdim ki, gəlib burada özünü o qədər də rahat hiss etməsin, ancaq gələn il gətirəcəyəm.

Bu gün hamımız – yəni həm bu salonda olanlar, həm də Azərbaycanda televiziya ekranı önündə bu mərasimi diqqətlə izləyənlər bir daha şahidi oluruq ki, Azərbaycan uşaqları nə qədər istedadlı, bilikli və nə qədər xalqımızı, millətimizi – bizləri sevindirməyə qadirdirlər və sevindirirlər.

Burada bir çox rəqs və mahnı nümunələri nümayiş etdirildi. Ancaq deyirəm ki, bizim bu uşaqların istedadı təkcə rəqs

etmək, yaxud da ki, mahnı oxumaq, hansısa bir musiqi alətində çalmaqla bitmir. Mən bu uşaqlara baxarkən görürəm ki, onların hər birində nə qədər böyük istedad vardır. Təbiidir ki, bu gün, bu səhnədə gördüyümüz uşaqların hamısı gələcəkdə rəqs ansamblına getməyəcək, yaxud incəsənətlə məşğul olmayacaqdır. Hərənin öz yolu olacaqdır. Çünki uşaq böyüdükcə, onun gələcək müstəqil həyatında hansı sənətə meyli olması daha dəqiq müəyyən olunur.

Ancaq bir şey çox əhəmiyyətlidir. O da ondan ibarətdir ki, bizim bu uşaqlar gələcəkdə mühəndismi, həkimmi, aqronommu olacaq, yaxud dövlət işində çalışacaq, siyasətlə məşğul olacaqlar – bütün bunlardan asılı olmayaraq bu uşaqlarda böyük istedad var. Bu istedad incəsənətdir, mədəniyyətdir, musiqidir. Bununla onu demək istəyirəm ki, bizim Azərbaycan xalqı çox isedadlı xalqdır. Burada ən qədim tariximizdən – «Dədə Qorqud» dastanından da bir epizod göstərildi. Elə o vaxt da, ondan sonrakı illərdə və əsrlərdə də xalqımız müxtəlif çətinliklərdən, bəlalardan uğurla keçərək öz istedadını həmişə göstərmişdir. Buna görə, təbiidir ki, Azərbaycan xalqının mədəniyyəti, musiqisi, ədəbiyyatı dünya sivilizasiyası, mədəniyyəti xəzinəsinə çox qiymətli incilər kimi daxil olubdur. Biz tarixi öyrənərək, keçmişdə olan istedadları da bilirik. Amma indikiləri öz gözlərimizlə görürük.

Lakin fərq də var. Fərq ondan ibarətdir ki, dünyada heç bir şey yerində donub qalmır. Hər şey inkişafdadır. O cümlədən, Azərbaycan xalqı da çoxəsrlik tarixində daim inkişaf edibdir. Bugünkü bizim bu uşaqlarımız təkcə incəsənət sahəsində yox, bütün sahələrdə, indiyə qədər olan bütün nəsillərin istedadlarından daha da yüksəkdə dururlar. Biz Azərbaycanın qurulması, yaradılması, onun iqtisadiyyatının, mədəniyyətinin, təhsilinin, elminin inkişafı ilə on illərlə məşğul olmuşuq. Bilirsiniz ki, Azərbaycan xalqı XX əsrdə çox böyük inkişaf yolu keçibdir. Elm, mədəniyyət, incəsənət sahələrində və

digər sahələrdə dünyaya çox dəyərli töhfələr veribdir, dəyərli insanlar yetişdiribdir. Bu məmnunluq və iftixar hissi ilə XX əsrin son dövrünü, demək olar ki, son günlərini yaşayırıq.

Amma XX əsrin çox hissəsini görmüş və bütün bu proseslərin Azərbaycanda fəal iştirakçısı olan bir adam kimi, mən artıq irəliyə baxıram: XXI əsrdə Azərbaycan nə cür olacaq? Mən buna çox nikbinliklə, sevinc hissi ilə baxıram. Birincisi, ona görə ki, Azərbaycan XXI əsrə, üçüncü minilliyə müstəqil dövlət kimi daxil olur. Millətimiz yeni əsrə azad millət kimi daxil olur. İkincisi, ona görə ki, XX əsrdə, xüsusən XX əsrin sonunda dünyaya gəlmiş uşaqlar – sizlər, bizim gənclərimiz bizlərdən daha istedadlısınız, dünya mədəniyyətini, elmini qavramağa, mənimsəməyə daha qabiliyyətlisiniz.

Ona görə də sizə baxaraq, sizin bu gözəl istedadınızı görərək mən Azərbaycanın gələcəyi üçün arxayınam. İnanıram ki, XXI əsrdə respublikamız daha böyük nailiyyətlər əldə edəcəkdir. Nailiyyət dedikdə isə, mən hər bir vətəndaşın öz arzusunun yerinə yetirilməsini istəyirəm. Təbiidir, mən dövlət başçısıyam, mənim fikirlərimin hamısı dövlətin fəaliyyətinə və gələcəyinə yönəldilibdir. Ancaq dövlət də cəmiyyətsiz mövcud deyildir. Dövlət xalqsız ola bilməz. Xalq isə ayrı-ayrı insanlardan, vətəndaşlardan ibarətdir. Ona görə də Azərbaycanın gələcəyi hər bir insanın, sizin kimi uşaqların, gənclərin fəaliyyətindən asılıdır.

Asılıdır dedikdə, mən şübhə etmirəm ki, gələcək çox işıqlı, parlaq, Azərbaycanın hər bir vətəndaşı üçün xoşbəxt gələcək olacaqdır. Buna əmin ola bilərsiniz. Ona görə əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan ildən-ilə inkişaf edir. Ölkəmizin gəncləri, uşaqları üçün, onların istedadlarının daha da üzə çıxması və cəmiyyət üçün faydalı olması üçün biz əlimizdən gələni edirik və bunlar da öz nəticəsini verir. Əminəm ki, siz şahidi olduğumuz faciələri, bizim keçirdiyimiz çətinlikləri artıq görməyəcəksiniz, daha rahat, xoşbəxt şəraitdə yaşayacaqsınız.

Baxmayaraq ki, bu sizinlə mənim ilk görüşüm deyil, bu uşaqlar bu gün məni bir daha heyran etdilər. Ancaq buradakı uşaqların bir çoxu keçən il, yaxud da 2–3 il bundan öncə burada yox idilər. Hər il səhnəyə yeni uşaqlar gəlir. Deməli, uşaqlar böyüyür, gənclik dövrünə çatır, amma onların arxasınca yeni-yeni uşaqlar gəlir, sizlər gəlirsiniz. Doğrudur, burada bir çox illərdir ki, mən istedadlı gənclərimizi – Sevinci və Bəxtiyarı görürəm. Onlar dəyişmirlər. Dəyişmirlər dedikdə, o mənada ki, onlar daim bu səhnədədirlər. Ancaq görürəm ki, onların da hər il boyları artır. Mən sadəcə, boy haqqında demirəm, görürəm ki, bu iki gözəl gənc – Sevinc və Bəxtiyar nə qədər inkişaf edir, öz istedadlarını yüksəldirlər. Amma bizim uşaqların inkişafı təkcə bu iki gözəl gəncin timsalında deyildir, bu, sadəcə, bizim bütün gənclərimizin daim inkişaf etməsinin parlaq bir nümunəsidir.

Bizim həyatımızın indi çətinlikləri də vardır. Biz bu çətinlikləri yaşayırıq. Bəlkə siz uşaqlar bunları o qədər də hiss etmirsiniz. Çünki uşaqlar yaşlı adamlardan, böyüklərdən daha da dözümlü olurlar.

Mən bir neçə gün öncə İncəsənət muzeyindəki sərgidə qaçqın vəziyyətində çadırlarda yaşayan uşaqların İtaliyanın «Acip» şirkətinin təşəbbüsü ilə – onlara fotoaparatlar verilmişdir – öz həyatları haqqında çəkdikləri fotoşəkilləri gördüm. Baxmayaraq ki, gördüyüm mənzərə mənim üçün yenilik deyildi, bu şəkillər məni həyəcanlandırdı, sıxdı. Əgər çoxları fotoşəkilləri görürlərsə, mən qaçqın düşərgələrində, çadırlarda yaşayan insanları, uşaqları görmüşəm və onlarla daim təmasdayam. Həmin o fotoşəkillərin müəllifləri olan uşaqlar çadırlarda, ağır şəraitdə yaşamalarına, ağır həyat keçirmələrinə baxmayaraq, birincisi, çox gözəldirlər, ikincisi, istedadlıdırlar, üçüncüsü isə çox şəndirlər. Biz onların barəsində daim düşünürük. Düşünürük deyəndə, o demək deyil ki, sadəcə, oturub düşünürük, yox. Azərbaycanı bu vəziyyətdən çıxarmaq

üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı, o cümlədən uşaqları öz doğma torpaqlarına, elinə-obasına qaytarmaq üçün gecə-gündüz çalışırıq. Çalışırıq və inanıram ki, biz buna nail olacağıq.

Burada kimsə, deyəsən sən idin, dedin ki, vaxtilə reportyor olmaq istəyirdin. İstəyirdin ki, gedib cəbhədə döyüşləri lentə alıb gətirib göstərəsən. Ancaq bu sənə müyəssər olmadı. Çox gözəl, yaxşı ki, müyəssər olmadı. Nə üçün olmadı? Çünki biz 1994-cü ildə atəşi dayandırdıq. Atəşin dayandırılması nə qədər gəncin həyatını xilas etdi! Atəşin dayandırılması bu gözəl uşaqların dünyaya gəlməsini təmin etdi! 6 ildir ki, biz atəşi dayandırmışıq. Burada 6 yaşlı uşaqlar var. Deməi, onlar atəş dayandırıldıqdan sonra doğulublar, ondan sonra dünyaya gəliblər. Biz atəşi dayandırdıq, qan tökülməsinin, şəhidlər verilməsinin qarşısını aldıq. İnsanlara müəyyən rahatlıq verdik. Bu bizim işimizin birinci mərhələsi idi. Ancaq əsas vəzifəmiz işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək və Azərbaycan uşaqlarının hamısının – təkcə sizin yox – xoşbəxt yaşamasını təmin etməkdən ibarətdir. Mən buna inanıram.

Azərbaycan xalqı bütün başqa xüsusiyyətləri ilə yanaşı, eyni zamanda gözəl bir xalqdır. Uşaqlara baxıram, bir-birindən gözəldirlər. Bu hər bir insanı sevindirir. Mən özüm haqqında deyirəm. Amma inanıram ki, çox az adam taparsan ki, uşağı sevməsin. Çox az adam taparsan ki, uşağı şən, gözəl, yaxşı əhval-ruhiyyədə görəndə özü də sevinməsin. Ona görə də, əziz balalar, uşaqlar, siz öz varlığınızla, bugünkü istedadınızla valideynlərinizi, hər birimizi, məni sevindirirsiniz. Bu gün bir daha Azərbaycana, ölkəmizin vətəndaşlarına yeni-yeni sevinc bəxş etdiniz. Mən isə sizinlə bir yerdə olmağımdan, təbiidir ki, daha da çox sevinirəm və ola bilər ki,

başqaları mənə qibtə etsinlər ki, niyə Heydər Əliyev oradadır, mən orada deyiləm?

Siz incəsənəti çox gözəl nümayiş etdirdiniz. Ancaq şübhə etmirəm ki, məktəbdə dərslərinizi də belə yüksək səviyyədə öyrənirsiniz, oxuyursunuz. Bilik almaqda da istedadınız var, ondan istifadə edirsiniz. Həyatda sağlam vətəndaş kimi böyümək üçün də öz istedadınızdan istifadə edirsiniz. Çünki bunlarsız təkcə incəsənət – rəqs, mahnı insana hər şeyi gətirə bilməz. Ona görə də mənim sizə daim tövsiyəm bundan ibarətdir ki, yaxşı oxuyun, atanıza-ananıza daim hörmət göstərin. Azərbaycan xalqının qədim bir ənənəsi var, bu da uşağın böyüyə hörmət etməsidir. Bax, bu xüsusiyyəti özünüzdə yaradın, saxlayın. Özünüzü sağlam düşüncəli, vətənpərvər, vətənini, millətini, müstəqil dövlətini sevən vətəndaş etmək üçün çalışın. Mən ümidvaram ki, bizim gənclərimizin, uşaqlarımızın əksəriyyəti bu duyğularla, fikirlərlə yaşayır. Xüsusilə də siz, bu mərasimin iştirakçıları.

Mən sizi bir daha təbrik edirəm. Çox şadam ki, bizim Azərbaycan televiziyası belə tədbirləri yüksək səviyyədə təşkil edir. İndi iki gənc qız burada özləri haqqında dedilər. Demək, nəsillər bir-birini əvəz edir. Bu da təbiidir. Görürəm ki, bizim televiziyaya çox gənc qızlar gəliblər, düzdür, oğlanlar da gəliblər, amma qızlar daha çoxdur. Siz – qızlar, oğlanlar bu gözəl sənəti də sevirsiniz və bununla məşğul olursunuz.

Bu böyük bayram münasibətilə mən sizin hamınızı bir daha təbrik edirəm, hamınıza cansağlığı arzu edirəm və ümidvaram ki, gələn il mən sizinlə burada yenə də görüşəcəyəm. Siz öz istedadlarınızı yenə də, bugünkündən daha yaxşı nümayiş etdirəcəksiniz. Sağ olun.

RUMİNİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İON İLİYESKUYA

Hörmətli cənab Prezident!

Rumıniyanın prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rumıniya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işinizdə uğurlar, dost Rumıniya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *11 dekabr 2000-ci il*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ KERİ KAVANO (ABŞ), JAN JAK QAYARD (FRANSA), NİKOLAY QRİBKOV (RUSİYA) VƏ ONLARI MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

11 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, xoş gəlmisiniz. Hər dəfə sizin səfəriniz nəinki bizim tərəfimizdən, həm də ictimaiyyət tərəfindən çox maraqla izlənilir. Təbiidir ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması təkcə Azərbaycan üçün yox, bütün Qafqaz üçün, bəlkə də dünya üçün çox əhəmiyyətli bir problemdir.

K e r i K a v a n o: Cənab Prezident, sağ olun. İcazə verin, sözümə onunla başlayım ki, Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Madlen Olbrayt keçən ay Vyanada ATƏT-in nazirlər səviyyəsində keçirilən görüşündə çıxışı zamanı bəyan etdi ki, hazırda ATƏT üçün Dağlıq Qarabağ münaqişəsinin həllinin tapılmasından vacib bir problem bu gün yoxdur.

Cənab Prezident, biz Sizinlə tamamilə razıyıq ki, bu münaqişənin həlli yollarının tapılması bütün regionda mövcud olan münaqişələrin aradan qaldırılması üçün bir növ açar rolunu oynaya bilər. Biz hesab edirik ki, bu münaqişənin həlli Gürcüstandakı vəziyyətin yaxşılaşmasına olduqca güclü təsir edə bilər. Bu münaqişənin həll olunması Türkiyə Respublikası ilə Ermənistan Respublikası arasında başqa cür münasibətlərin

formalaşmasına gətirib çıxara bilər. Nəhayət, Şimali Qafqazda sabitliyin bərqərar olunmasına və vəziyyətin yaxşılaşmasına kömək edən amil ola bilər. Biz hesab edirik ki, bu münaqişənin aradan qaldırılması həlli Azərbaycan və Ermənistan xalqları üçün mükafat, hədiyyə olmaqla bərabər, eyni zamanda Qafqazın və Qafqazdan kənar bir çox ölkələrin xalqları üçün də çox xeyirli, faydalı bir iş olacaqdır.

İcazənizlə, mən səfərimiz zamanı baş çəkdiyimiz yerlər barədə Sizə məlumat verim. Hesab edirəm ki, səfərimiz zamanı bir sıra yerlərdə çox maraqlı görüşlər keçirmişik.

H e y d ə r Ə l i y e v: Buyurun.

K e r i K a v a n o: Səfərimiz zamanı vurğulamaq istədiyimiz əsas müddəalardan biri bu münaqişənin həll olunmasında Türkiyənin oynayacağı önəmli rolu göz önünə çəkməkdir.

Biz öz səfərimizə Ankaradan, Xarici İşlər naziri cənab İsmayıl Cəm ilə görüşdən başladıq. Onunla görüşümüz barədə məlumat versəm, yəqin ki, o buna etiraz etməz. Biz o görüşdə bir daha əmin olduq ki, Türkiyə Respublikası və onun Xarici İşlər Nazirliyi bu münaqişənin həllinə hərtərəfli yardım göstərməyə hazırdır. Türkiyənin Xarici İşlər naziri cənab Cəm bir daha açıq surətdə bəyan etdi ki, bu münaqişənin sülh yolu ilə həll olunmasına Türkiyənin sadiqliyi öz qüvvəsində qalmaqdadır. Türkiyə regiondakı sabitliyin daha da yaxşılaşdırılması üçün əlindən gələni etməyə hazırdır. Eyni zamanda, Türkiyə regionun iqtisadi inkişafının təmin olunmasına da hər cür yardım göstərməyə hazırdır.

Biz Ankaradan Qars vilayətinə gəldik və orada vilayətin rəhbəri ilə görüşdük. O, söhbət zamanı bildirdi ki, artıq bir çox layihələrə baxılır. Əsas odur ki, yerli hökumətlər, iş adamları, bu ərazidə olan insanları bir-birinə bağlaya biləcək layihələrə cəlb olunsunlar və bunların həyata keçirilməsində iştirak etsinlər. Ankarada eşitdiyimiz və bizi ruhlandıran sözlər Şərqi Anadoluda da təsdiq olundu.

Sonra biz Dilucuya getdik və oradan, Türkiyədən Naxçıvana keçmək istədik. Biz orada 1992-ci ildə Sizin tərəfinizdən qurulmuş, Naxçıvan ilə Türkiyəni birləşdirən körpünü gördük. Biz ona görə məhz bu əraziyə baxmaq qərarına gəldik ki, əgər regionda sülh əldə olunarsa, münaqişə həll edilərsə, məhz bu bölgə iqtisadi əlaqələri saxlamaq üçün çox önəmli rol oynaya biləcək bir yerə çevriləcəkdir. Həmin ərazidə olan infrastrukturlar bizə yaxşı təsir bağışladı. Hesab edirik ki, sülh əldə olunarsa, şəraitin daha da yaxşılaşdırılmasına müəyyən səylər göstərmək lazım gələcəkdir.

Biz bir gecəni Naxçıvanda keçirdik. Orada yerli hökumətin təmsilçiləri, silahlı qüvvələrin təmsilçiləri və gömrük orqanlarının nümayəndələri ilə danışıqlar apardıq, yerli sakinlər ilə də görüşdük. Biz orada insanların həyat şəraitinin çətin olduğunu gördük. Xüsusilə, münaqişə nəticəsində öz yurd-yuvalarından köçkün düşmüş insanlarla görüşdük. Onların vəziyyətinin ağır olduğunu gördük.

Dünən Yeni Kərki kəndinin sakinləri ilə bizdə dərin təəssürat yaradan görüş keçirdik. Həmin köçkünlərdə olan ruh yüksəkliyi bizdə çox dərin iz buraxdı və eyni zamanda oranın bir kənd olaraq qorunub saxlanması üçün yerli hökumətin atdığı addımlar da bizi ruhlandırdı.

Cənab Prezident, bilirəm ki, Yeni Kərki kəndinin tarixçəsini Siz hamıdan yaxşı bilirsiniz. Amma bəlkə də bundan xəbəri olmayan mətbuat nümayəndələri üçün demək istəyirəm ki, həmin kənddən olan köçkünlərin bir yerdə yaşaması üçün Naxçıvanda yerli hökumət xüsusi şərait yaradıbdır.

Ondan sonra biz sərhədə yaxınlaşdıq və orada Heydərabad kəndini gördük. Heydərabad kəndində olan binaların bərpası sahəsində görülmüş işlərə baxdıq.

Sonra biz, demək olar ki, Sizin bir il bundan öncə Köçəryan ilə görüşdüyünüz Sədərəkdən sərhədi keçərək Ermənistana gəldik. Bilirdik ki, avqust ayında bu bölgədə iki azərbaycanlı

əsgər atışma nəticəsində öldürülmüşdü və bundan sonra sərhəddə müəyyən atışmaların olduğu qeydə alınmışdı. Biz yerli komandirləri, hərbi birləşmələrin rəhbərlərini bir araya gətirdik. Çalışdıq ki, onların arasında danışıqlar olsun və daha atəşkəsin pozulması halları, atışmalar baş verməsin. Bəli, orada yerli hərbi birləşmələrin rəhbərləri arasında belə bir danışıq başlandı və bilirik ki, bu sizin Müdafiə naziri ilə Ermənistan Müdafiə nazirinin bu ayın 15-də olacaq görüşü zamanı davam etdiriləcəkdir.

Sonra biz Xankəndinə və Yerevana səfər etdik ki, Dağlıq Qarabağda Ermənistan rəhbərliyi ilə görüşlər keçirək. Bu görüşlər çox faydalı oldu. Bir çox məsələləri müzakirə etdik. Biz o barədə Sizinlə fikir mübadiləsi aparmaq niyyətindəyik. Mən prezident Köçəryan ilə keçirdiyimiz görüşdən yalnız bir məqamı xüsusi vurğulamaq istəyirəm. O bir daha bəyan etdi ki, atəşkəsin saxlanması üçün əlindən gələni edəcəkdir. Yəni atəş yenidən başlanmasın, sərhəddə atışmalar olmasın və hər iki tərəfdən ölüm hadisələri daha qeydə alınmasın.

Hesab edirik ki, hər iki tərəfdə insanlar sülhü çoxdan gözləyirlər. Biz məmnunuq ki, atəşkəs rejiminə əsasən əməl edilir. Amma hesab edirik ki, böyük sülh əldə olunana qədər atəşkəs qorunub saxlanmalıdır, atışmalar olmamalıdır və insanlar həlak olmamalıdır. Biz keçən dəfə Sizinlə burada keçirdiyimiz görüşlərdən bilirik ki, məhz Siz də bu mövqedəsiniz və atəşkəsin pozulmasının əleyhinəsiniz. Siz addımlar atmısınız, tədbirlər görmüsünüz ki, mövcud olmuş belə halların sayı azaldılsın, qarşısı alınsın. Mən indi bildirmək istəyirəm ki, biz Ermənistan tərəfindən də belə bir mövqeni gördük.

İcazə versəydiniz, sözü həmkarlarıma, digər həmsədrlərə verərdim. Yəni sonra məni tənqid etməsinlər ki, mən Minsk qrupunun vaxtından ədalətsiz istifadə etdim, vaxtı daha çox aldım.

J a n J a k Q a y a r d: Cənab Prezident, həmkarım cənab Keri Kavanonun regiona səfərimiz barədə söylədiklərinə tam şərikəm.

Hər şeydən əvvəl bu səfər və onun gedişində keçirdiyimiz görüşlər bizə onu sübut etdi ki, – bu, münaqişədəki bütün tərəflərə həqiqətən ziyan vuran vəziyyətin faciəvi mənasızlığının təsdiqi idi – cənab Prezident, Sizin yaxşı tanıdığınız regionu gördük, o, elektrik enerjisindən, neftdən tamamilə məhrumdur və bu vəziyyətdən çıxmaq üçün əslində son tədbirlərə əl atmalıdır, əlbəttə, böyük cürətlə, böyük cəsarətlə və böyük qətiyyətlə. Biz də hər yerdə nəzərə çatdırırıq ki, sonra bu regionda vəziyyəti qaydaya salmaq üçün gələcək planları əvvəlcədən görmək necə çətindir. Biz qaçqınların gözlərində, bir tərəfdən, iztirab, digər tərəfdən isə, bu münaqişənin tezliklə tənzimlənəcəyinə ümid olduğunu da oxuyurduq. Yəni əvvəlki bütün səfərlər kimi, bu səfər də mümkün olan hər şeyi etmək və irəliləmək qətiyyətimizi daha da möhkəmləndirir.

Burada iki çox mühüm məqam var. Birincisi, iki prezident arasında birbaşa dialoqun əhəmiyyətindən ibarətdir. Bizdə belə təsəvvür var ki, bu dialoq irəliləyir və müəyyən tərəqqi görünür. Çox mürəkkəb, çox ağrılı problemdən söhbət getdiyinə görə, təbii ki, bu dialoqda irəliləyiş ləngdir. Ona görə də biz öz rolumuzu bu dialoqun irəliləməsi üçün Sizə bütün lazımi kömək göstərməkdə görürük.

İkinci çox mühüm cəhət təhlükəsizlik problemi ilə bağlıdır. Tənzimləmə prosesinin ləng getdiyini və böhranın artıq uzunmüddətli xarakterini nəzərə alaraq, müəyyən hövsələsizlik göstərilməsi riski kifayət qədər böyükdür. Mən ilk növbədə atəşkəs rejiminin saxlanmasını nəzərdə tuturam. Atəşkəsin qorunub saxlanması şəraitinin yaxşılaşdırılması üçün cəbhə xətti üzrə sektorların komandanlığı səviyyəsində danışıqlar apardıq. Əgər bu barədə daha konkret danışsaq, biz istərdik ki, bu, iki ölkənin Müdafiə nazirlərinin dekabrın 15-də

keçiriləcək görüşü zamanı onların arasında danışıqların mövzusu olsun.

Beləliklə, qarşımızda duran iki vəzifə danışıqlar prosesində tərəqqiyə və təhlükəsizliyin təmin olunması prosesinə kömək etməkdir. Zənnimcə, bu vəzifələr bir-birini tamamlayır. Çünki məqsəd bu regionda məskunlaşmış bütün xalqlar üçün sülhün və təhlükəsizliyin təmin edilməsi olmalıdır.

Rusiya tərəfdən həmsədr **N i k o l a y Q r i b k o v:** Səfərimiz, gördüklərimiz, eşitdiklərimiz haqqında həmkarlarım ətraflı və maraqlı danışdılar. Vaxta qənaət üçün mən Naxçıvana səfərimiz barədə öz şəxsi təəssüratımı qısaca bölüşmək istərdim.

Bilirsinizmi, mən hələ heç vaxt belə dilbər guşədə olmamışdım. Ora nəinki meyvələri, tərəvəzi ilə zəngin olan, həm də gözəl camaatı olan diyardır. Elə bir adamla görüşmədik, deməsin ki, Naxçıvanın şaftalısı, narı və s. dünyada ən yaxşısıdır. Yəni demək istəyirəm ki, səfər çox maraqlı idi və ümidvaram ki, münaqişə tənzimləndikdən sonra yer üzündə cənnətin bir məkanı olan bu diyar, həqiqətən, layiq olduğu hər şeyi alacaqdır. Naxçıvanlılar çox xoşuma gəldi. Düzdür, indi onların vəziyyəti ağırdır. Buna baxmayaraq – bu da qəlbi riqqətə gətirir – onlar inanırlar ki, bütün bu məsələlər, xüsusən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi Sizin rəhbərliyinizlə gec-tez həll ediləcəkdir.

Bilirsinizmi, məni çox maraqlı bir abidənin yanına gətirdilər. Bu Sizin görkəmli həmyerliniz, Naxçıvanın dahi şairi Hüseyn Cavidin xatirəsinə ucaldılmışdır. Onun şeirlərini mənə oxudular. Təəssüf ki, Sizə azərbaycanca deyə bilməyəcəyəm, amma bir sətir mənə olduqca güclü təsir bağışladı: «Kəssə hər kimsə əgər tökülən qan izini, qurtaran dahi odur Yer üzünü».

H e y d ə r Ə l i y e v: Məşhur kəlamdır. Yeri gəlmişkən, indi çoxları lazım gələndə bu sözləri işlədir.

N i k o l a y Q r i b k o v: Bilirsinizmi, buna görə də hamı inanır ki, burada, Sizdə olan bu ağır, ciddi, qeyri-adi münaqişəni Sizin sayənizdə, həmkarlarınızın sayəsində, bütün rəhbərlərin sayəsində, mərdlik, cəsarət, siyasi iradə sayəsində aradan qaldırmaq mümkün olacaqdır.

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar!

Hörmətli cənab Kavano!

Hörmətli cənab Qayard!

Hörmətli cənab Qribkov!

Yenidən regiona gəldiyinizə, əvvəlcə, regionun görmədiyiniz hissəsini gördüyünüzə, tanış olduğunuza görə və öz təəssüratlarınızı mənə çatdırdığınıza görə sizə təşəkkür edirəm.

Sizin bu dəfəki marşrutunuz maraqlıdır. Təkcə ona görə yox ki, siz yeni yerlər görmüsünüz. Ona görə ki, siz Türkiyənin mövqeyini bir daha aydınlaşdırmısınız. Görürsünüz ki, Türkiyə bölgədə sülhə nə qədər sadiq bir ölkədir. Baxmayaraq ki, son aylar bir neçə Qərb ölkələrində Türkiyəyə qarşı ədalətsiz kampaniyalar başlanmış, Türkiyənin ermənilərə qarşı guya «soyqırım» etməsi məsələsi Amerika Birləşmiş Ştatlarının Konqresində bir müddət müzakirə olunmuşdur. Yaxşı ki, sonra Amerika hökuməti başa düşüb ki, indi bunu müzakirə etməyə ehtiyac yoxdur. Baxmayaraq ki, Fransa Senatı bu barədə artıq qərar qəbul edibdir. Baxmayaraq ki, Avropa Birliyinin Parlament Assambleyası, İtaliyanın parlamenti qərar qəbul edibdir.

Türkiyəyə qarşı göstərilən bu ədalətsizliyə baxmayaraq, Türkiyə yenə də sülhə sadiqliyini nümayiş etdirir və xüsusən, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün əvvəlki mövqeyindən geri çəkilmir. Deməli, o, bölgədə sülhün təmin olunmasını istəyir.

Bu fürsətdən istifadə edib, bir daha bəyan edirəm ki, Azərbaycan dövləti Türkiyəyə qarşı son aylar Qərbdə aparılan bu ədalətsiz təbliğata, ədalətsiz hərəkətlərə öz qəti

etirazını bildirir. Biz hesab edirik ki, məsələləri indi, əsrin sonunda bu cür qaldırıb Türkiyəni nəyəsə məcbur etmək, əbəs bir şeydir. Ancaq eyni zamanda bu cür hərəkətlər xalqlar, ölkələr arasında, dünyada, o cümlədən bizim bölgəmizdə sülhün möhkəmlənməsinə yox, əksinə, sülhün zəifləməsinə və qarşıdurmanın artmasına gətirib çıxarır.

Mən çox məmnunam ki, siz Naxçıvanı ziyarət etmisiniz və orada olan vəziyyəti öz gözlərinizlə görmüsünüz. Naxçıvan on ildən artıqdır ki, belə vəziyyətdədir. Burada cənab Qribkov da dedi, siz də dediniz – Naxçıvan gözəl bir diyardır. Allah o yerə yaxşı təbiət bəxş edibdir və bunun hamısından da gözəli orada yaşayan insanlardır. Ancaq eyni zamanda Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində on ildən artıqdır ki, Naxçıvan blokada şəraitindədir və ağır həyat tərzi keçirir.

Siz mənə bir az tarixi xatırlatdınız. Əgər biz 1991–92-ci illərdə Naxçıvanı Araz çayı üzərindən Türkiyə ilə birləşdirən körpünü tikə bilməsəydik, Naxçıvan çox ağır vəziyyətdə olacaqdı.

Amerika Birləşmiş Ştatlarının Konqresi 1992-ci ilin oktyabr ayında məlum 907-ci maddəni qəbul edibdir və bununla da guya Ermənistanı blokadaya almasına görə Azərbaycanı cəzalandırıbdır. Amma siz gözlərinizlə gördünüz ki, kim günahkardır, kim kimi blokadaya alıbdır. Vaxtilə Sovetlər Birliyi zamanı respublikalar arasında heç bir sərhəd yox idi. Ona görə Azərbaycandan – Bakıdan, Azərbaycanın başqa məntəqələrindən Naxçıvana həm elektrik xətti, həm qaz xətti gedirdi, həm dəmir yolu, həm də avtomobil yolu işləyirdi. Ona görə də insanlar indiki çətinlikləri görmürdülər.

Ancaq təəssüf ki, 1991–1992-ci illərdə Ermənistan Naxçıvan Muxtar Respublikası ilə, onun mənsub olduğu Azərbaycanın başqa bölgələri, paytaxtı ilə əlaqəsini tamamilə kəsdi. Beləliklə, Naxçıvan çox ağır bir vəziyyətə düşdü. O vaxt biz Türkiyənin köməyi ilə siz gördüyünüz həmin körpünü tikdik.

Elektrik enerjisi almağa yer yox idi. Yenə də Türkiyə ilə əlaqəyə girdik və Türkiyə Naxçıvana bir elektrik xətti çəkdi. Oradan təxminən 40–50 meqavat elektrik enerjisi verilir. Təbiidir ki, qaz xətti də kəsildi. Nə Türkiyədən, nə də İrandan oraya qaz almaq mümkün deyildir. Ancaq 1992-ci ildə İrandan Naxçıvana bir elektrik xətti çəkmək mümkün oldu. Biz oradan da 30–40 meqavat həcmində elektrik enerjisi alırdıq.

Təbiidir, bunların hamısı Naxçıvanı təmin etmir. Naxçıvanda 400 min əhali yaşayır, sənaye müəssisələri, hərbi hissələr vardır. Ancaq naxçıvanlılar çox dözümlü olduqlarına və başqa yol görmədiklərinə görə, belə bir ağır vəziyyətdə yaşayırlar. Son aylar isə İran elektrik enerjisini kəsdi.

İndi təsəvvür edin, o böyüklükdə muxtar respublika cəmi 50 meqavat elektrik enerjisi ilə yaşayır, yaşayıbdır, insanlar buna dözübdür və dözürlər.

Doğrudur, son günlər Azərbaycandakı müxalifət partiyaları müəyyən müvəqqəti çətinliklərdən istifadə edərək, ölkədə ictimai-siyasi vəziyyəti pozmaq istəyirlər. O cümlədən iki həftə bundan əvvəl Naxçıvanda 1000–2000 əhalini küçələrə çıxarıb etiraz edirlər, aranı qarışdırmaq istəyirlər. Guya onların naxçıvanlılara ürəyi yanır ki, Naxçıvan belə ağır vəziyyətdədir. Bəs indiyə qədər harada idilər? Heç xəbərləri var idimi Naxçıvan necə yaşayır? Bədnam 907-ci maddə də məhz 1992-ci ildə, indiki müxalifət hakimiyyətdə olduğu zaman, onların ağılsız hərəkətləri nəticəsində Amerika Konqresi tərəfindən Azərbaycana qarşı tətbiq olundu və bunun da ən böyük ağrısını Naxçıvan çəkir.

Ancaq aranı qarışdırmaq istəyən qüvvələr bilsinlər ki, 1993-cü ildən başlayaraq Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün bizim gördüyümüz işlər göz qabağındadır və əldə etdiyimiz nailiyyətlərin itirilməsinə, yaxud hansısa təxribata heç vaxt yol verilməyəcəkdir. Buna cəhd göstərmək istəyən adamlar mütləq cəzalanacaqlar.

Təbiidir, bilirsiniz ki, mənim bu sözlərim sizə aid deyildir. Ancaq siz mənim yadıma saldınız və Naxçıvanda üç il ağır vəziyyətdə yaşadığım o günləri xatırladım. Soyuqdan donmuşuq, elektriksiz, qaranlıqda qalmışıq, susuz qalmışıq, amma yaşamışıq və yaşayacağıq. Ancaq sizin məhz bu marşrutla Ermənistana getməyinizi mən bəyənirəm. Çünki siz sərhədin o hissəsini də gördünüz.

Mən bunu xüsusən Amerika Konqresi üçün deyirəm. Kimin kimi blokadaya aldığını, cənab Kavano, heç olmasa, siz gördünüz. Amma bizim səsimiz axı eşidilmir. Əgər o konqresmenlərdən üç-dördünü göndərə bilsəydiniz ki, Naxçıvana gəlsinlər, onlar vəziyyəti görsəydilər, bəlkə də o cür hərəkət etməzdilər.

Siz atəşkəs haqqında danışdınız. Həqiqətən, mən sizə dəfələrlə demişəm ki, Azərbaycan dövləti, Azərbaycanın prezidenti kimi, şəxsən mən atəşkəsin qorunması və saxlanmasını əsas vəzifələrdən biri hesab edirəm.

Mən çox məmnunam ki, siz Ermənistan prezidenti ilə söhbət edən zaman o da sizə söz veribdir ki, atəşkəsin qorunmasını, saxlanmasını təmin edəcəkdir. Bu da çox vacibdir. Çünki son zamanlar, xüsusən, Moskvanın, Rusiyanın mətbuatında böyük-böyük məqalələr yazırlar ki, Dağlıq Qarabağın ordusu dünyada ən güclü ordudur, onlar məğlubedilməz ordudur və başqa-başqa şeylər yazırlar. Mən vaxt almaq istəmirəm. Beləliklə, bizi hədələyirlər, bizi qorxudurlar. Biz nə hədədən qorxuruq, nə də onların gücündən qorxuruq. Biz özümüzü müdafiə etməyə hazırıq. Amma biz atəşkəsin pozulmasına yol verməyəcəyik.

Biz bilirik ki, Dağlıq Qarabağın o qəzetlərdə yazıldığı kimi, ordusu yoxdur. Amma yəqin nəzərə alırlar ki, Rusiyanın orada hərbi bazaları var, onlardan istifadə edə bilərlər. Yaxud da, son vaxtlar Gürcüstandan çıxarılan Rusiya ordusunun

ağır silahları, texnikaları yenə də Ermənistana göndərilibdir. Əgər belə düşünürlərsə, çox səhv edirlər.

Hörmətli həmsədrlər, sizin üçünüz də eyni fikri söylədiniz ki, Ermənistan–Azərbaycan münaqişəsinin tezliklə həll olunmasını istəyirsiniz, Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa dialoqunu dəstəkləyir və buna ümidlər bəsləyirsiniz. Bu baxımdan sizinlə bizim aramızda fikir ayrılığı yoxdur. Amma iş ondadır ki, bunu necə gerçəkləşdirək.

Sizə yaxşı məlumdur ki, 1999-cu ildə Ermənistan prezidenti ilə mənim aramda aparılan birbaşa danışıqlar bizi müəyyən bir mərhələyə gətirib çıxardı. Onda siz dərhal geri çəkildiniz. Dediniz ki, gözləyək, görək Köçəryan ilə Əliyev nə razılığa gələcəklər. Mən nə deyə bilərəm, fikirləşirdim ki, bəlkə bu danışıqlar bizi həqiqətən, bir nəticəyə gətirəcəkdir. Ona görə də mən sizə bu barədə o qədər də müraciət etmirdim. Amma bunun sonrakı dövrü sizə məlumdur. Ona görə də mən sizə, ümumiyyətlə, sizin dövlətlərə bildirdim ki, Ermənistan və Azərbaycan prezidentlərinin danışıqları davam etməlidir. Ancaq Minsk qrupu, onun həmsədrləri bu işdən uzaqlaşmamalıdır. Biz iki istiqamətdə hərəkət etməliyik. Həm iki prezidentin danışıqlarının səmərəli olmasını təmin etməliyik, həm də Minsk qrupunun həmsədrləri bu sahədə öz işlərini davam etdirməlidir. Ona görə istərdim ki, siz burada bu gün bəyan etdiyiniz arzuları yerinə yetirmək üçün daha fəal hərəkətə başlayasınız.

Mən Ermənistan prezidenti ilə danışıqları yenə də davam etdirməyə hazıram. Minskdə bizim görüşümüz zamanı mən bunu təsdiq etdim və prezident Köçəryan da təsdiq etdi. Amma siz bilirsiniz ki, bu danışıqların istənilən nəticəyə gəlib çıxmamasının səbəbi kimdədir. Ona görə mən sizə müraciət edirəm ki, həm danışıqlar aparaq, həm də siz öz fəaliyyətinizi genişləndirəsiniz. Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması, sülh yaranması nə qədər əhəmiyyətlidir – onu mən

də dedim, siz də dediniz. Amma gəlin, bu sahədə daha da təsirli işlər görək. Vaxt keçir, vəziyyət get-gedə gərginləşir, insanların vəziyyəti ağırlaşır. Ona görə də bu vəziyyət daim belə qala bilməz. Mənim sizə deyəcəyim sözlər bunlardır.

K e r i K a v a n o: Cənab Prezident, sağ olun. Sizin toxunduğunuz bir çox mühüm məsələlərə cavab vermək istəyirəm.

Siz Türkiyə və tarix barədə danışdınız. Hesab edirəm ki, bu çox önəmlidir. Biz hər zaman, elə indinin özündə də Türkiyə və Ermənistan xalqları arasında qəribə əlaqələrin mövcud olmasından əziyyət çəkmişik. Ermənistanda–Yerevanda, yaxud da kənd yerlərində ermənilərlə söhbət edərkən məlum olur ki, onların müasir Türkiyədən xəbərləri yoxdur. Onlarla danışan zaman ilkin fikirləri məhz Osmanlı imperiyası dövrünə, Birinci dünya müharibəsi illərinə qayıdır.

Atatürk müasir Türkiyə Respublikasını quran zaman Türkiyə ilə Ermənistan arasında indiki sərhəd kilidlənmişdir və 70 il ərzində Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə olmamışdır. Bu çox çətin bir tarixdir. Hər iki ölkə bu tarixlə məşğul olmalıdır. Hesab edirəm ki, onlar buna nail ola bilərlər. Bu heç də o demək deyildir ki, Ermənistan ilə Türkiyə arasında problemlər yoxdur.

Xarici İşlər naziri İsmayıl Cəm bizə Türkiyə ilə Suriya arasında mövcud olan ciddi problemlərdən danışdı. Türkiyə ilə Yunanıstan və İran arasında olan ciddi problemlərdən danışdı. Cənab İsmayıl Cəm onu da əlavə etdi ki, son bir neçə il ərzində həmin ölkələrlə münasibətlərdə və bu problemlərin həlli istiqamətində kəskin dönüş meydana çıxmaqdadır. Əgər bu istiqamətlərdə nəzərəçarpacaq dərəcədə tərəqqi əldə etmək mümkün olubsa, Ermənistanla münasibətlərdə də belə tərəqqiyə nail olmaq mümkündür. Cənab İsmayıl Cəm bununla özünün və Türkiyənin bütün qonşuları ilə sülh şəraitində yaşamağa sadiq olduğunu bir daha açıq surətdə bildirdi.

Cənab Prezident, Sizin Naxçıvan barədə söylədiyiniz sözlər də bizdə dərin iz buraxdı. Biz bunu səfərimiz zamanı orada gözlərimizlə gördük. Həmin körpünü keçən zaman ilk təəssüratımız Naxçıvanın Azərbaycanın digər bölgələrindən təcrid olunması, ayrı düşməsi barədə oldu. Hətta bəzilərinin dediyinə görə, artıq onlarda belə fikir formalaşır ki, Naxçıvan sanki bir adadır. Həmin o körpü və Sizin dediyiniz o elektrik xətti də Türkiyədən oraya uzadılmış həyatverici əldir.

Biz Naxçıvanda yerli hökumət orqanları ilə regiondakı qonşu dövlətlərlə əlaqələr barədə ətraflı danışdıq. Orada dəmir yolunun, körpülərin, elektrik enerjisi və su təchizatının, magistralların necə dağıdıldığı, nə günə düşdüyü barədə bizə məlumat verildi. Bu nəqliyyat xətləri təkcə Naxçıvanın yox, bütün regionun qan damarlarıdır. Hətta Ermənistan əgər İrandan mallar almaq istəsə, ən münasib yol Naxçıvandan keçərək onlara gedən yoldur.

H e y d ə r Ə l i y e v: Dəmir yoludur.

K e r i K a v a n o: Bəli. Biz bir daha əmin olduq ki, əgər sülh əldə olunarsa, onda mövcud infrastruktur, nəqliyyat yolları regionun inkişafına mühüm töhfəsini verəcəkdir. Hətta belə hesab edərdim ki, bizim bu dəfə Naxçıvanı ziyarət etməyimiz son bir il ərzində Azərbaycana və Ermənistana etdiyimiz səfərlərimizin ən önəmli hadisələrindən biri idi.

Bizim ölkəmizin Konqresi barədə dediyiniz sözlərlə əlaqədar qısaca olaraq fikrimi bildirmək istəyirəm. Cənab Prezident, Sizinlə razıyam, yaxşı olardı ki, 3–4 konqresmen Naxçıvanı ziyarət edəydi. Amma Sizə deyirəm, yəqin səfir Uilson da mənimlə razılaşar ki, biz Amerikadan Azərbaycana onlarca konqresmenin gəlməsini arzulayırıq. Mən artıq bir çox senatorlarla buraya səfər etmələri barədə danışıqlar aparmışam. Qısa bir vaxtdan sonra bizim yeni Konqresimiz fəaliyyətə başlayacaqdır. Artıq bilirik ki, Konqres üzvləri arasında kimlər regionu ziyarət etmək barədə qərara gəliblər. Həm də

bizim yeni prezidentimiz olacaqdır. Amma bu məsələ hələ qeyri-müəyyən vəziyyətdədir. Sizi əmin etmək istəyirəm ki, Vaşinqtona qayıtdıqdan sonra Konqres üzvləri üçün çox təfərrüatlı hesabat hazırlayacağam.

Bizim qanunverici orqanın təmsilçiləri arasında bu regionla maraqlanan çox insanlar vardır. Artıq biz Konqresin tərkibinə seçilmiş yeni üzvlərdən tələblər almışıq. Yəni onlar bu regionla maraqlandıqları üçün məlumat istəməyə başlayıblar.

İcazə verin, onu da deyim ki, biz atəşkəsin qorunub saxlanmasının vacibliyi barədə söylədiyiniz sözləri çox yüksək qiymətləndiririk. Hesab edirik ki, atəşkəsin qorunub saxlanması bizim bütün fəaliyyətimizin ən əsas hissəsidir. Bu ona imkan yaradır ki, məhz prezidentlər arasında birbaşa dialoq olsun. Eyni zamanda atəşkəs Minsk qrupunun həmsədrlərinin də fəaliyyətinə yardımçı olur, imkan yaradır. Onu da əlavə edərdim ki, məhz atəşkəsin olması sayəsində bu gün həm Azərbaycanda, həm də Ermənistanda çoxlu hadisələr baş verir, irəliləyişlər vardır və beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları fəaliyyət göstərirlər. Məhz atəşkəsin sayəsində mümkün olmuşdur ki, heç olmasa, insanların yaşayışı indiki səviyyədə qalsın, bunun daha da pisləşməsinin qarşısı alınsın və sülh əldə edildikdən sonra onların rifahının yüksələcəyinə olan ümidləri daha da artsın.

Cənab Prezident, Siz bu fikirlərinizi də bizimlə bölüşdünüz – yəni bəzən Sizdə belə bir təəssürat yaranır ki, ancaq iki prezident arasında danışıqlar gedir, biz isə kənarda qalmışıq.

Mən İsveçrədə çox vaxt keçirmiş adamam. Orada saat zavodlarına baş çəkməyi çox sevərdim. Həmin zavodlarla tanışlıq nəticəsində belə bir qənaətə gəlmişəm ki, düzgün qərarın əldə olunması üçün saat mexanizminin bütün hissələri bir-biri ilə necə əlaqəli işləyirsə, bizim də fəaliyyətimiz əlbir, qarşılıqlı olmalıdır.

Son bir il ərzində biz ona nail olmağa çalışmışıq ki, bütün mexanizmlər sıx təmasda fəaliyyət göstərsin. Yəni istər prezidentlər arasında birbaşa dialoq, istər bizim fəaliyyətimiz, istərsə də beynəlxalq strukturların köməyi əlbir halda ümumi sülhün əldə olunmasına yönəlsin. Hesab edirik ki, dialoq üçün mexanizmlər daha sürətlə işə düşdükdə, bizim də işimiz artır və eyni zamanda beynəlxalq təsisatların, təşkilatların işi çoxalır.

Sizi əmin edirik ki, biz öz fəaliyyətimizi bundan sonra da gücləndirəcəyik. Artıq son bir neçə aydır ki, biz həmsədrlər öz aramızda ciddi danışığa başlamışıq. Lakin biz ona da əmin olmaq istəyirik ki, fəaliyyətimizin gücləndirilməsi Sizinlə prezident Köçəryan arasında yaranmış dialoqa mane olmasın, ziyan gətirməsin. Biz iki prezident arasında olan birbaşa təmasın, dialoqun bir çox müsbət nəticələrini görmüşük. Nəticələrdən biri odur ki, indi həm Siz, həm də Ermənistan prezidenti eyni mövqedən çıxış edirsiniz.

Bugünkü görüş zamanı atəşkəsin qorunub saxlanması, fəaliyyətimizin daha da gücləndirilməsi, sülhün əldə edilməsinin vacibliyi barədə söylədiyiniz sözlər prezident Köçəryanın bizimlə keçirdiyi görüşdə dediyi sözlərlə, demək olar ki, eynidir. Hətta düşündüm ki, bizim təyyarəmiz Yerevandan uçan zaman bəlkə də prezident Köçəryan Sizə zəng edib söyləyib ki, mən bu məsələlərə toxunmuşam, Siz də o məsələlərə toxunmağı unutmayasınız.

H e y d ə r Ə l i y e v: Yox, mənim fikirlərim müstəqildir.

K e r i K a v a n o: Bildirmək istəyirəm, bütün bunlar onu göstərir ki, hamımız eyni məqsədə nail olmaq üçün çalışırıq. Problemi biz də görürük. Bu problemin indiyə qədər həll olunmaması bizi də narahat edir. Bu sahədə sürətlə irəli getməyə ehtiyac olduğunu anlayırıq. Bölgədə tezliklə sülhə nail olmaq üçün birgə fəaliyyətimizi bundan sonra da davam etdirmək əzmindəyik.

J a n J a k Q a y a r d: Fəaliyyətimizi gücləndirməli olduğumuz barədə çağırışı biz həvəsləndirmə kimi qəbul edirik

və buna görə Sizə minnətdarıq. Biz prosesə kömək üçün təşəbbüslərimizi artırmaq istərdik. Amma, digər tərəfdən, müəyyən

dərəcədə narahatlıq doğura, yaxud Sizin danışıqlar prosesinə ziyan vura biləcək təşəbbüslər irəli sürmək istəməzdik. Yəni biz münaqişənin tənzimlənməsində əsas istiqamət olaraq qalan Sizin danışıqlar prosesinə öz səylərimizlə kömək etmək və ahəngdar surətdə qoşulmaq istərdik.

N i k o l a y Q r i b k o v: Minsk qrupunun fəaliyyətini gücləndirmək barədə xoş arzularınıza görə Sizə təşəkkür etmək istərdim. Biz bunu hökmən fəaliyyət üçün əsas kimi götürəcəyik. Lakin demək istərdim ki, biz nəinki Minsk qrupunun həmsədrləri kimi, həm də həmsədrliyi öz üzərinə götürmüş dövlətlərin nümayəndələri kimi fəaliyyət göstəririk.

Bilirəm ki, Siz Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin səfərini gözləyirsiniz. Bilirəm ki, Qarabağ mövzusu Sizin danışıqlarınızda əsas yer tutacaqdır. Çox istərdim ki, danışıqlar uğurlu keçsin və bu mürəkkəb münaqişənin həlli üçün daha əlverişli şərait yaranmasına imkan versin. Əminəm ki, bunu Azərbaycanda da gözləyirlər. Bu gün mən həmin mövzuda Ermənistanda da söhbət etdim, bunu orada da gözləyirlər. Sağ olun.

TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİNİN MÜAVİNİ YURDAKUL YİGİTGÜDƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

Prezident sarayı

13 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Xoş gəlmisiniz. Mənə məlumat veriblər ki, siz Dövlət Neft Şirkətində məsələlərin hamısını müzakirə etmisiniz və eyni fikirdəsiniz. Ona görə, qısaca nələri demək istəyirsinizsə, buyurun.

Y u r d a k u l Y i g i t g ü d ə n: Hörmətli cümhur başqanım, bizi qəbul etdiyiniz üçün təşəkkürümüzü bildiririk. Hörmətli cümhur başqanımız Əhməd Necdət Sezərin Sizə salamlarını gətirmişəm. Eyni zamanda, icazənizlə, Azərbaycanda baş vermiş zəlzələ ilə əlaqədar onun başsağlığını, habelə apardığımız məqsədli işbirliyinin uğurlu həyata keçirilməsinə dair məktubunu Sizə yetirmək istəyirəm.

(*Cənab Yigitgüdən Türkiyə prezidenti Əhməd Necdət Sezərin məktubunu respublikamızın rəhbəri Heydər Əliyevə təqdim etdi*).

Bildiyiniz kimi, Sizin böyük dəstəyiniz sayəsində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişi məsələsi sürətlə irəliləyir. Biz Azərbaycanın «Şahdəniz» yatağından çıxarılacaq qazın alınması

* Görüşdə Türkiyənin Bakıdakı səfiri Qədri Ecvet Tezcan iştirak edirdi.

barədə müzakirələrə başlamışıq. Amma Sizin kimi, bizim cümhur başqanımız da müzakirələrin yavaş getməsindən narahatdır. Ona görə də biz bir araya gələrək işlərimizi sürətləndiririk və qarşıdakı günlərdə təkrar görüşəcəyik. Əgər bizə Sizin başqa təlimatlarınız varsa, onları da müzakirə edəcəyik.

Gördüyünüz kimi, biz bundan sonra da eyni dildə danışacağıq. Aramızda heç bir fərq yoxdur. Ona görə də heç kim bizə yanlış fikir söyləyə bilmir. Çünki biz bir-birimizin sözlərini qarşılıqlı anlayırıq. Təbii ki, Sizin verdiyiniz böyük dəstəyin sayəsində. Sağ olun.

H e y d ə r Ə l i y e v: Eyni dildə ifadəsini iki cür başa düşmək olar. Onsuz da biz ayrı dildə danışmırıq. Amma mən sizin eyni dildə danışmaq fikrinizdən anlayıram ki, yəni eyni fikirdəsiniz. Mən bundan çox məmnunam. Siz də bilirsiniz, bizim Azərbaycanın xalqı da, Türkiyə Cümhuriyyətinin xalqı da bilir ki, biz 5–6 ildir ki, Bakı–Ceyhan boru xəttinin yaranması üçün nə qədər çox işlər görmüşük, nə qədər problemlərlə rastlaşmışıq. Amma bunların hamısını aradan qaldırmışıq. İndi bu kəmərin inşaatı lazımdır və bilirsiniz ki, bizim Dövlət Neft Şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə bəzi sponsorları arayırlar. Siz də, biz də. Hesab edirəm ki, bu da elə bir çətin məsələ deyildir. Bunların hamısı olacaqdır.

Siz eyni zamanda qaz məsələsini müzakirə etmisiniz.

N a t i q Ə l i y e v (*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti*): Cənab Prezident, bəli. Bu məsələ də müzakirə olunubdur. Bildiyiniz kimi, biz son zamanlar Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə məşğul idik. Parisdə, Vaşinqtonda danışıqlar keçirtdik. Bunu şirkətlərlə yenidən müzakirə etdik. Bu məsələdə müsbət nəticələr vardır. Eyni zamanda paralel olaraq «Şahdəniz» layihəsinin əsas investoru «Bi-Pi» şirkəti Türkiyə tərəfi ilə Ankarada danışıqlar aparıbdır. Ancaq hələ bir nəticəyə gəlməyiblər. Ona görə də bu gün biz belə qərara gəldik ki, iki-üç gün ərzində Dövlət Neft Şirkətinin mütəxəssisləri,

ekspertləri Ankaraya gedib danışıqlara başlayacaqlar. Biz Transxəzər boru xətti və sair məsələlər üzərində işləyirik. Hesab edirəm ki, 5–6 gün ərzində sənədlərin layihələri hazır olacaqdır.

H e y d ə r Ə l i y e v: Bunu etmək lazımdır. Çünki Türkiyənin həmişə qaza böyük ehtiyacı olubdur. Bilirəm, gələcəkdə hələ nə qədər ehtiyacı olacaqdır.

Biz Xəzər dənizi, Azərbaycan, Gürcüstan üzərindən Türkiyəyə Türkmənistan qazının nəqlinin tərəfdarıyıq. Biz İstanbulda bu barədə saziş imzalamışıq. Orada mənim də imzam vardır. Türkmənbaşının da imzası vardır. Prezident Şevardnadzenin də imzası vardır. Prezident Süleyman Dəmirəlin də imzası vardır. Hətta prezident Klintonun da imzası vardır. Amma ondan sonra Türkmənistan bu barədə mövqelərini müəyyən edə bilməyibdir və biz də bundan asılı qalmışıq. Yəni biz tərəfdən burada bir problem yoxdur. Gürcüstan tərəfdən, Türkiyə tərəfdən problem yoxdur. Əsas problem qazın sahibi tərəfdəndir.

Bu məsələni həll edin. Yəni bunları bir-birinə bağlamaq lazım deyildir. Əgər Transxəzər qaz borusu məsələsi həll olunursa, biz bunu dəstəkləyirik və buradan qaz keçirməyə hazırıq. Yox, əgər bu, naməlum vəziyyətdə qalacaqsa, onda bizim özümüzün layihəmiz vardır və bunu həyata keçirməyə hazırıq.

Y u r d a k u l Y i g i t g ü d ə n: Cənab Prezident, biz də eyni fikri söyləyirik. Əgər onlar problemi həll edərlərsə, biz ilk addımı atmağa hazırıq. Biz Xəzərdən başlayaraq Azərbaycan, Gürcüstan üzərindən Türkiyəyə çəkiləcək xəttə hazırıq. Yalnız danışıqları gücləndirməyə qərar vermişik. Qarşıdakı günlərdə Valeh Ələsgərov Türkiyəyə gələcəkdir və bunu daha faydalı olaraq müzakirə edəcəyik. Çünki hər iki tərəf bir-birini yaxşı tanıyır. Yanvar ayı başa çatanadək bu işi bitirmək istəyirik.

H e y d ə r Ə l i y e v: Bəli, bunu o vaxtdan gec saxlamaq olmaz. Bitirmək lazımdır. Çünki bizim də işlərimiz vardır. Biz 2002-ci ildə qaz ixrac edə bilərik. Amma 2002-ci ilə nə qalıbdır? 2000-ci il bitdi, 2001-ci il, 2002-ci il. Biz o vaxt ixraca hazır olacaq qazı saxlaya bilmərik.

Məsələn, ola bilər, biz nefti dəmir yolu ilə, başqa yollarla ixrac edək. Amma qaz belə ola bilməz. Türkiyəyə qaz lazımdır, biz də qaz satırıq. Özü də biz konkret söhbət edirik.

Y u r d a k u l Y i g i t g ü d ə n: Cənab Prezident, bizim hörmətli cümhur başqanımız da eyni sözü söyləyir. Deyir ki, bunu iki ay ərzində bitirəcəyinizi mənə söz vermişdiniz. Oktyabr, noyabr ötdü, amma iş bitmədi. Deyir ki, bu nə işdir? Ona görə də biz bu işi gücləndirməyi qərara almışıq. Şirkətlərin ayırd edə bilmədiyi məsələləri dövlət olaraq biz həll edəcəyik.

H e y d ə r Ə l i y e v: İran bizdən çoxlu qaz almaq istəyir. Əgər bu məsələ geciksə, biz məcbur olacağıq ki, onlarla danışıq aparaq. Mən sizə hər şeyi açıq deyirəm. Çünki bu elə şeydir ki, biz buna zəhmət çəkmişik. «Şahdəniz» yatağı barədə 1996-cı ildə imzalanmış müqaviləmiz vardır. İndi 2000-ci ildir. Beş il keçibdir. Qaz vardır. Onun çıxarılması, ixrac edilməsi bir-iki ilin içərisində mümkün olan şeydir. Burada iki şey vardır. Transxəzər borusu olmursa, onda bilavasitə Azərbaycan, Gürcüstan, Türkiyə bunu edər. Əgər buna da bir maneə olarsa, bizim güney tərəfə də ixrac etməyə imkanımız vardır.

Y u r d a k u l Y i g i t g ü d ə n: Biz hər kəslə apardığımız standart anlaşmanı şirkətlərə də göndərmişik. Biz bu anlaşmanı imzalamağa hazırıq. Onların bəzi düşüncələri vardır. İmkanımız vardır ki, bir araya gələk. Təbii ki, bizim istəyimiz Azərbaycanın bütün dünyaya qaz satmasıdır.

Mən keçən həftə Brüsseldə idim. Avropa Komissiyası ilə bu məsələni müzakirə edirdim. Yəni çəkiləcək növbəti borunun Türkiyə üzərindən İtaliyaya çatdırılması və bununla da İtaliya, İspaniya və Fransa kimi ölkələrin qaz ehtiyaclarının

ödənilməsi məsələsini. Biz bütün bunları onlara başa saldıq. Birlikdə qısa zamanda bu işi həll edəcəyimizə inanıram.

H e y d ə r Ə l i y e v: Biz bilirik ki, indi Rusiyada qaz ehtiyatları azalır. Avropanın qaza çox ehtiyacı vardır. Şimal dənizində, Norveç yataqlarında qaz ehtiyatı azalır. Bu, böyük dünya probleminə çevrilir. Xəzər dənizində başqa sektorlarda da qaz var, amma Azərbaycan sektorunda çoxdur. «Abşeron» yatağından «Şahdəniz»dən də çox qaz gözləyirik. Ona görə də bizim bu işimizin böyük perspektivi vardır. Buna tələbat da vardır.

Tələbat ona görə vardır ki, Avropanın çox hissəsi Rusiyadan qaz alır. Amma onlarda da qaz azalır. Şimal dənizindən alırlar, orada qaz azalır. Demək, tələbat çoxdur. Amma bizim məqsədimiz birinci növbədə, Türkiyəni qazla təmin etməkdir. Çünki dostuq, qardaşıq, bu işlərə bir yerdə başlamışıq, bir yerdə çalışırıq. Türkiyənin buna ehtiyacı vardır.

Y u r d a k u l Y i g i t g ü d ə n: Ona görə də hörmətli cümhur başqanı Əhməd Necdət Sezər ilk dəfə Azərbaycana səfər etdi və bu barədə xüsusi açıqlama verdi.

H e y d ə r Ə l i y e v: Tamamilə doğrudur.

Y u r d a k u l Y i g i t g ü d ə n: Biz müzakirələrə başladıq. Hesab edirəm ki, şirkətlərin tərəddüdlərini qısa zamanda aydınlaşdırarıq.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Mən çox təşəkkür edirəm ki, hörmətli dostum cümhur başqanı Əhməd Necdət Sezərin məktubunu gətirmisiniz. Mən görürəm, burada eyni fikirlər əks olunubdur. Mən də bu məktuba cavab göndərirəm. Ancaq cavabım aydındır. Mən sizə deyirəm, biz hər şeyə hazırıq. Biz tərəfdən heç bir problem yoxdur.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CORC U. BUŞA

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təşəkkül tapmış dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 dekabr 2000-ci il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

Əziz dostum!

Oğlunuz Corc Buşun Amerika Birləşmiş Ştatlarının yeni prezidenti seçilməsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu ilin sentyabrında Birləşmiş Millətlər Təşkilatının keçirdiyi «Minilliyin zirvə görüşü»ndə iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarında səfərdə olduğum zaman lütfkarlıq edərək, məni öz şəxsi evinizə dəvət etdiyinizə, mənə göstərdiyiniz dərin hörmətə, ehtirama, yüksək qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Mən Sizinlə dostluğumu yüksək qiymətləndirirəm və Sizi Azərbaycanda görmək arzumu bir daha ifadə edirəm.

Ailənizin bu günlər keçirdiyi sevinc hissini bölüşür, Sizə və ailənizin bütün üzvlərinə üzümüzə gələn minilliyin ilk ilində möhkəm cansağlığı, xoşbəxtlik arzu edirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 dekabr 2000-ci il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
VİTSE-PREZİDENTİ
CƏNAB DİK ÇEYNİYƏ

Hörmətli cənab vitse-prezident!

Sizi Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizinlə aramızda yaranmış dostluğu yüksək qiymətləndirirəm və ümid edirəm ki, yeni vəzifənizdə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi üçün səylərinizi artıracaqsınız.

Sizə və ailənizə yeni minillikdə cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər arzu edirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 dekabr 2000-ci il*

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINA

Hörmətli müəllimlər!
Əziz tələbələr!

Respublikamızın ilk texniki ali təhsil ocağının – Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik yubileyi münasibətilə sizi, ölkəmizin bütün təhsil işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Respublikamızda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Azərbaycan Dövlət Neft Akademiyasının ölkə qarşısında böyük xidmətləri vardır. Onun fəaliyyəti Azərbaycanda iqtisadiyyatın, sənayenin inkişafına, elmi-texniki tərəqqinin sürətləndirilməsinə təkan vermiş güclü amillərdən biri olmuşdur. Dövlət Neft Akademiyası öz varlığının 80 illik dövrü ərzində böyük inkişaf yolu keçərək, yüksək ixtisaslı texniki kadrlar hazırlayan çoxprofilli ali tədris ocağına və nüfuzlu elmi mərkəzə çevrilmişdir. Akademiya respublikada xüsusilə neft, qaz, neft kimyası, neft-maşınqayırma və energetika sahələrini yüksək ixtisaslı mühəndis kadrlarla təmin edərək, ölkənin sənaye potensialının yüksəlməsində mühüm rol oynamışdır.

Azərbaycanda ali texniki təhsil ocaqlarının formalaşıb inkişaf etməsində Dövlət Neft Akademiyasının xidmətləri xüsusilə yüksək qiymətə layiqdir. Onun ayrı-ayrı fakültələri əsasında yaradılmış Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Mingəçevir Politexnik İnstitutu, Sumqayıt Dövlət Universiteti bu gün uğurla fəaliyyət

göstərən ali təhsil müəssisələridir. Azərbaycanda mövcud olan onlarca elmi-tədqiqat və layihə institutlarının yaranıb inkişaf etməsində də Dövlət Neft Akademiyasının rolu danılmazdır.

Fərəhli haldır ki, akademiyanın yetirmələri arasında tanınmış dövlət xadimləri, dünya şöhrətli alim və mütəxəssislər, hətta kosmonavt vardır. Onun yüzlərlə məzunu keçmiş SSRİ-nin ən yüksək adlarına – Sovet İttifaqı Qəhrəmanı, Sosialist Əməyi Qəhrəmanı adlarına, ali dövlət mükafatlarına layiq görülmüşdür.

Dövlət Neft Akademiyası təkcə Azərbaycanın deyil, onlarca xarici ölkənin neft sənayesi üçün mühəndis və elmi kadrlar hazırlayan bir mərkəz kimi də dünyada böyük şöhrət qazanmışdır. Onun xarici vətəndaşlardan olan məzunları öz ölkələrində mühəndislikdən tutmuş ən yüksək vəzifələrdə uğurla çalışaraq, akademiyanın beynəlxalq nüfuzunu artırırlar.

Müntəzəm yaradıcılıq axtarışları aparmaq, zamanın tələbləri ilə daim ayaqlaşmaq, istehsalatla sıx əlaqələr yaratmaq, elmi tədqiqatların səmərəliliyini artırmaq akademiyanın fəaliyyətini səciyyələndirən mühüm cəhətlərdir. O məhz bu məziyyətləri sayəsində müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının hazırlanıb həyata keçirilməsində yaxından iştirak etməklə, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına uğurla xidmət edir.

Bu gün Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyini qeyd edərkən onun yaradılmasında və səmərəli fəaliyyətində xidmətləri olanların – professorların, müəllimlərin, əməkdaşların bütün nəsillərini böyük minnətdarlıq hissi ilə yad edərək əmin olduğumu bildirirəm ki, akademiyanın uzun illər boyu təşəkkül tapmış zəngin ənənələri davam etdiriləcək və artırılacaq, akademiya ölkəmizin iqtisadi inkişafı, elmi-texniki tərəqqisi, xalqımızın firavan

həyata qovuşması işinə öz payını bundan sonra da verəcəkdir.

Əziz dostlar! Sizi akademiyanın 80 illik yubileyi münasibətilə bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, işlərinizdə yeni uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *14 dekabr 2000-ci il*

RESPUBLİKAMIZIN ƏN BÖYÜK VƏ NÜFUZLU ALİ TƏHSİL OCAQLARINDAN OLAN AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYA- SININ 80 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

15 dekabr 2000-ci il

Hörmətli müəllimlər!
Əziz tələbələr, xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən sizi və eyni zamanda ölkəmizin bütün təhsil işçilərini Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm və Neft Akademiyasına gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

XX əsr artıq sona çatır, bu əsrin son günlərini yaşayırıq. Biz 100 illik tarixi bir dövrə nəzər salarkən, təbiidir ki, keçdiyimiz yolu, gördüyümüz işləri təhlil edirik, qiymətləndirməyə çalışırıq və həyatımızda olmuş çətinlikləri, ayrı-ayrı bəlaları çox narahatlıq hissi ilə xatırlayırıq.

XX əsr bəşər tarixində dünyada elmin, mədəniyyətin, elmi-texniki tərəqqinin inkişafında xüsusi yer tutur. Bu, dünyanın bütün ölkələrinə, xalqlarına aiddir. Ancaq təbiidir ki, hər ölkə, hər millət, hər xalq bu əsri yaranmış tarixi şərait içərisində keçirmiş, kimsə çox nailiyyətlər əldə etmiş, daha da irəliyə getmiş, kimsə vaxt itirmişdir. Ancaq bunlara baxmayaraq, minillik tarixdə XX əsr bəşəriyyət üçün ən uğurlu əsr olmuşdur.

Biz indi XX əsrə nəzər salarkən, Azərbaycanın keçdiyi yolu təhlil etməyə və həyatımızın bütün mərhələlərinə doğru-düzgün, ədalətli qiymət verməyə qadirik. Bu əsrdə bizim xalqımız

bir tərəfdən, böyük çətinliklərlə, faciələrlə rastlaşıb, ikinci tərəfdən də, çox böyük nailiyyətlər qazanıb, inkişaf edib, dünya sivilizasiyasının səviyyəsinə çatıbdır. Nəhayət, əsrin sonunda xalqımız öz milli azadlığını, dövlət müstəqilliyini əldə edərək çoxəsrlik arzularına çatıbdır.

XX əsrdə keçdiyimiz tarixi yolda xalqımızın təhsillənməsi, ali təhsilin yaranması və inkişaf etməsi, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişaf etməsi ölkəmizi yüksək səviyyələrə gətirib çatdırıbdır. İndi Azərbaycan müstəqil dövlət olaraq, Dünya Birliyində özünə layiq yerini tutubdur. Azərbaycan elmin, təhsilin, mədəniyyətin, iqtisadiyyatın inkişafına görə öncül yerlərdən birini tutur. Xalqımızın kütləvi surətdə təhsillənməsi, ali təhsil sisteminin, bütün sahələrdə milli kadrların, milli mutəxəssislərin yaranması XX əsrdə Azərbaycanın ən böyük nailiyyətlərindən biridir.

80 illik yubileyini qeyd etdiyimiz Neft Akademiyasının Azərbaycanın XX əsr tarixində xüsusi yeri və rolu vardır. Mən sizə – Azərbaycan Dövlət Neft Akademiyasına göndərdiyim təbrik məktubumda sizin institutun, akademiyanın əldə etdiyi nailiyyətlərə dövlət tərəfindən verilən qiyməti qısa şəkildə bəyan etmişəm, gördüyünüz işlərə münasibətimi bildirmişəm və akademiyanın gələcəyi haqqında arzularımı ifadə etmişəm. Ancaq bu gün sizinlə bir yerdə olmaq və bu hadisəni birlikdə qeyd etmək mənim üçün çox əhəmiyyətlidir, şərəflidir. Ona görə də mən bu gün buraya gəlmişəm, sizinlə bərabərəm və təkcə Neft Akademiyası üçün yox, Azərbaycanın bütün ali təhsili üçün, bütün xalqımız üçün əziz olan bu bayramı birlikdə qeyd edirik.

Azərbaycanda ali təhsilin bünövrəsi Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən qəbul olunmuş qərar əsasında 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması ilə qoyulmuşdur. Ancaq ondan bir il sonra 1920-ci ilin noyabr ayında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman

Nərimanovun dekreti ilə Azərbaycanda yeni bir ali məktəb, ali təhsil ocağı yaranmışdır. O vaxt Azərbaycanda sənayenin, iqtisadiyyatın inkişafında ən vacib sahələrdən biri olduğunu nəzərə alaraq, Bakı Politexnik İnstitutu – sonra isə adını Azərbaycan Politexnik İnstitutu qoyublar – yaranmışdır. Azərbaycanda 1919-cu ildə Bakı Dövlət Universitetinin və ondan bir il sonra Bakı Politexnik İnstitutunun yaranması eyni əhəmiyyət kəsb edən, xalqımızın XX əsrdə inkişafını və ali təhsilin inkişafını təmin etmiş qərarlardır. Əgər nəzərə alsaq ki, o vaxt Bakı Dövlət Universitetini də, Bakı Politexnik İnstitutunu da yaradanda milli kadrlarımız yox idi – Azərbaycan bu iki təhsil ocağını yaratmaq üçün Rusiyanın alimlərindən, müəllimlərindən istifadə etmişdir – onda biz bu təhsil ocaqlarının açılmasının nə qədər qiymətli olduğunu bu gün qeyd etməliyik.

Neft Akademiyası 80 il ərzində Azərbaycanda sənayenin, iqtisadiyyatın, elmin, elmi-texniki tərəqqinin inkişafında xüsusi rol oynamışdır. Onun yaranmasının kökləri də vardır. Bu da ondan ibarətdir ki, Azərbaycan hələ əsrin əvvəlində aqrar, sənaye bölgəsi kimi tanınaraq, yeni zamanda dünyada neft hasilatı sahəsində məşhurlaşmışdır. Ona görə də Azərbaycanın zəngin neft yataqlarından istifadə olunması üçün, eyni zamanda neft yataqlarının kəşf edilməsi, neftin emalı, habelə müvafiq maşınqayırma zavodlarının və bir çox başqa sahələrin yaradılması məhz Bakı Politexnik İnstitutunun yaranmasının əsas səbəbi olmuşdur.

Biz bu gün böyük milli qürur hissi ilə 80 illik yubileyə toplaşmışıq. 80 il ərzində bu ali təhsil ocağı ayrı-ayrı vaxtlarda ayrı-ayrı ad daşıyaraq, heç vaxt öz məzmununu, əsas təhsil istiqamətini itirməmiş və dəyişməmişdir. Bizi ən çox sevindirən odur ki, qısa bir zamanda politexnik institutunu yaradandan sonra Azərbaycanda milli mühəndis kadrları, milli sənayenin müxtəlif sahələrində fəaliyyət göstərə bilən ali təhsilli

kadrlar hazırlamağa başlamış və artıq, demək olar ki, 30-cu illərdə Azərbaycan iqtisadiyyatın bu mürəkkəb sahəsində öz milli kadrlarına malik olmuşdur.

Politexnik İnstitutu, demək olar ki, Bakı Dövlət Universiteti kimi, Azərbaycanda başqa ali təhsil məktəbləri üçün bir ana rolu oynamışdır. Əgər Bakı Dövlət Universitetində və oradakı fakültələrin əsasında, xüsusən birinci dövrdə, müəllim kadrlarının hazırlanması, dəqiq elmlər, yaxud da təbabət elmləri sahəsində kadrların hazırlanması bizim üçün vacib idisə və bunların nəticəsində Azərbaycanda həm tibb institutu, həm pedaqoji institut, ondan sonra digər institutlar yarandısa, Bakı Politexnik İnstitutu təhsilin digər sahəsinin yaranmasında, bir də deyirəm, ana rolunu oynamışdır.

Azərbaycan qədim neft diyarıdır. Neftin sənaye üsulu ilə istifadə olunması keçən əsrin ortalarından başlanmışdır. Ancaq 1920-ci ildən sonra bizim o vaxt yaşadığımız SSRİ məkanında böyük bir ölkəni, SSRİ-ni sənayeləşdirmək üçün, sənayeləşdirmə proqramını həyata keçirmək üçün neft sənayesinin xüsusi rolu və əhəmiyyəti vardı. Artıq bu gün tam qətiyyətlə demək olar ki, əgər Azərbaycan nefti olmasaydı, əgər Azərbaycanın zəngin təbii sərvətlərinin istifadə olunması üçün qısa müddətdə müvafiq işlər görülməsəydi, bu işlərin görülməsi üçün lazım olan qədər kadrlar – mühəndislər, texniklər, yaxud da ki, səviyyəli fəhlələrin hazırlanması olmasaydı, onda bəlkə də yeni yaranmış dövlət kimi SSRİ, ümumiyyətlə, aqrar ölkəsi olmuş rus-çar imperatorluğu qısa bir müddətdə belə sənayeləşmə yolu keçə və yüksək sənaye potensialı yarada bilməzdi. Ona görə də Azərbaycan nefti keçmiş SSRİ kimi böyük bir dövlətin inkişaf etməsində xüsusi rol oynamışdır. Bu neftin hasil olunması, emalı üçün o vaxtkı SSRİ-nin müxtəlif bölgələrinə, sahələrinə çatdırılması üçün kadrları hazırlayan, təbiidir ki, Azərbaycan Politexnik İnstitutu olmuşdur.

Bilirsiniz ki, İkinci dünya müharibəsində SSRİ kimi böyük bir dövlətin müharibə aparmaq imkanlarının təmin edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Məlumdur ki, o vaxt SSRİ-də neftin 70 faizi Azərbaycanda hasil edilirdi və bu da SSRİ-nin İkinci dünya müharibəsində qələbə çalmasının əsas şərtlərindən biri olmuşdur.

Sizin akademiyanın – o vaxt sənaye institutu deyirdilər – məzunu, SSRİ-nin ən böyük neftçilərindən biri, həm mütəxəssis, həm alim, həm də mühəndis və uzun müddət SSRİ-nin neft naziri, sonra isə SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifələrində işləmiş, bizim həmyerlimiz Nikolay Baybakov həm Moskvada müxtəlif görüşlərdə, həm də Bakıda bunu dəfələrlə qeyd etmişdir ki, əgər Azərbaycan nefti olmasaydı İkinci dünya müharibəsində SSRİ-nin qələbəsi bəlkə də mümkün olmayacaqdı.

O illərdə sənayedə işləmiş, yaxud da bu institutda çalışmış insanlardan bəziləri, ola bilər, indi bu salondadırlar. Mən də o dövrü gözlərimlə görmüşəm. İndi arxiv materialları bugünkü gənclərə, nəsillərə göstərilir. Amma mən o dövrü gözlərimlə görmüşəm. Gözlərimlə görmüşəm ki, Bakıda, Azərbaycanda insanlar gecə-gündüz neft sənayesində yorulmadan çalışırdılar, neft hasil edirdilər və alman faşist ordusu gəlib Qafqaz sıra dağlarında duran zaman yol kəsildiyinə görə müxtəlif vasitələrdən istifadə edərək, nefti Xəzər dənizindən şimala, cəbhəyə çatdırırdılar.

Mənim xatirimdədir, müharibə illərində Amerika Birləşmiş Ştatlarından SSRİ-yə böyük yük daşımağa qadir olan avtomobillər və başqa texnika gəlirdi. Onun da bir yolu İran ərazisindən – oraya qədər isə gəmilərlə daşınırdı – keçirdi. İran ərazisindən, oradan isə bütün Qafqazı keçərək cəbhəyə getmək üçün həmin texnikaya yanacaq lazım idi. Əgər yanacaq olmasaydı, o vaxtlar Amerika tərəfindən verilən texnika heç bir iş görə bilməzdi. Bu barədə çox danışmaq olar. Ancaq

mən bu faktları xatırlayaraq, onu demək istəyirəm ki, biz bu gün bu yubileydə böyük qürur hissi keçiririk. Ona görə ki, hələ 80 il bundan öncə Azərbaycanın zəngin neft yataqlarından istifadə olunmasında və Azərbaycanda sənayenin – həm neft sənayesinin, həm də sənayenin başqa sahələrinin inkişaf etdirilməsində 1920-ci ildə yaranmış Bakı Politexnik İnstututunun xüsusi tarixi yeri vardır.

Bu gün biz yubileyi keçirərək, o vaxt Politexnik İnstitutunu yaradanların və 80 il ərzində, xüsusən ilk onilliklərdə bu institutda ağır bir şəraitdə fəaliyyət göstərmiş müəllimlərin, professorların, mühəndislərin, mütəxəssislərin xatirəsini böyük minnətdarlıq hissi ilə qeyd etməliyik.

Mən dünən sizin akademiyanın qabaqcıl müəllimlərinin, professorlarının təltif olunması barədə materiallara baxarkən gördüm ki, bu gün də burada, Neft Akademiyasında yaşlı nəslə məxsus olan böyük bir qrup alimlər çalışır. Onlar yəqin ki, bu salondadırlar – yaxud da kimsə yoxdur – mən onların xidmətlərini xüsusi qeyd edirəm. Çünki ömrünün əsas hissəsini bu mötəbər təhsil ocağında keçirmiş və bir neçə nəsil mühəndis, neftçi, yaxud sənayenin başqa sahələri üçün mütəxəssislər hazırlamış insanlar böyük hörmətə layiqdir və biz daim onları cəmiyyətimizdə hörmətli insanlar kimi aldandırmalıyıq.

Burada deyildi, Bakı Politexnik İnstitutu yaranandan sonra o, ayrı-ayrı mərhələlərdə müəyyən adlar daşımışdır. Amma Azərbaycan Sənaye İnstitutu adı daha məşhur idi. Rusca ona Azerbaydcanskiy İndustrialnıy İnstitut deyirdilər. Azərbaycanda hamı bu instituta xüsusi hörmətlə yanaşırdı. Onu da qeyd etmək lazımdır ki, – hər halda, mən öz gənclik və sonrakı dövrdəki təəssüratlarımı deyirəm – bu instituta daxil olmaq istəyənlər o qədər çox deyildi. Çünki o vaxtlar sənayeni və sənayenin mürəkkəbliklərini gənclərin çoxu hələ o qədər də dərk edə bilmirdilər. Əgər 20–30-cu illəri götürsək, bəlkə də

bu, obyektiv səbəb idi ki, respublikamızda təhsili kütləvi etmək üçün daha da çox müəllim kadrları lazım idi. Ona görə də Bakı Dövlət Universitetinə, onun əsasında yaranmış Azərbaycan Pedaqoji İnstitutuna və başqalarına axın daha çox idi. Bir də ki, mən sizə deyim, burada oxumaq o birilərindən çətin idi. Bəlkə də kimsə hesab edir ki, bu mənim subyektiv fikrimdir, ola bilər. Çünki mən vaxtilə burada təhsil almışam. Ancaq məsələ təkcə subyektivlikdə deyil. O vaxt gənclərin çoxu hesab edirdi ki, universitetdə – geologiya, tarix, filologiya fakültələrində hamı oxuya bilər. Amma gəlib burada neft sənayesi, yaxud mexanika, energetika, geologiya fakültələrində oxumaq çox çətin idi. Çünki bu fənlər hələ o vaxtlar bizim gənclər üçün o qədər yaxşı tanış deyildi.

Xatirimdədir, mən də burada bir müddət təhsil almışam. O vaxtlar biz oxuyanda materiallar müqaviməti dərsindən hamımız qorxurduq. Çünki çox çətin idi. İndi bilmirəm, bəlkə asanlaşıbdır. Amma bu çox çətin problem idi. Özü də bir müəllim, professor var idi, necə deyərlər, heç bir şeyə güzəşt edən deyildi. Gərək ki, onun familiyası Dunin idi. Ondan qiymət almaq qətiyyən mümkün deyildi.

Yenə deyirəm, mən öz dövrümü xatırlayıram, buraya daxil olmaq istəyənlər başqa institutlara daxil olmaq istəyənlərdən az idi. Amma, eyni zamanda, bu instituta daxil olmaq və burada oxumaq hər adam üçün mümkün deyildi. Bəziləri daxil olurdu, ancaq oxuya bilmirdi, sonra çıxıb başqa institutlara gedirdi. Bunun səbəbi təkcə burada olan fənlərin mürəkkəbliyi, çətinliyi ilə əlaqədar deyildi. Yenə də deyirəm, bunun səbəbi bir də onunla əlaqədar idi ki, o vaxt gənclər hələ bu sahənin nə qədər vacib olduğunu dərindən dərk edə bilmirdilər. Daha bir səbəb o idi ki, – mən o vaxtın təəssüratlarını deyirəm, ancaq bu ənənələr sonrakı illərdə də davam edibdir – bu institutda nizam-intizam, qayda-qanun, tələbkarlıq, müəllimin, professorun tələbəyə münasibəti, tələbənin müəllimə

münasibəti yüksək səviyyədə idi. Qoy o biri ali məktəblər məndən inciməsinlər. Mən Azərbaycanın uzun illər rəhbəri olmuşam, indi də prezidentiyəm. Mənim üçün hər bir ali məktəb doğmadır və hər bir ali məktəbin öz yeri vardır. Amma mən bu sözləri deməyə bilmərəm, indiki Neft Akademiyası vaxtilə bütün ali məktəblərə nümunə idi. Mən istərdim ki, o bu gün də, gələcəkdə də nümunə olsun.

Dövlət Neft Akademiyasının Azərbaycanın inkişaf etməsində gördüyü işlər çox böyük qiymətə layiqdir. İndi baxın, Azərbaycanın böyük sənaye potensialı vardır. Doğrudur, indi biz müstəqillik əldə edəndən sonra keçmiş sovet iqtisadi sistemindən yeni iqtisadi sistemə keçdiyimiz üçün böyük sənaye müəssisələrimiz lazımi səviyyədə işləyə bilmir, orada çalışan adamların bəziləri işsiz qalırlar. Bunlar müvəqqəti hallardır. Ancaq Azərbaycanın böyük sənaye potensialı vardır.

Təbiidir, Azərbaycan qədimdə aqrar ölkə olubdur – dünyadakı ölkələrin hamısı aqrar ölkələr olublar – sənaye sonra inkişaf etməyə başlayıbdır. Amma keçmiş SSRİ-nin tərkibində olmuş başqa respublikalara nisbətən Azərbaycan daha əvvəl aqrar ölkədən aqrar sənaye və sənaye ölkəsinə çevrilibdir. Ona görə də müstəqilliyimizi əldə edən zaman bizim heç bir problemimiz yox idi. Çünki Azərbaycanın inkişaf etmiş böyük sənaye kompleksi və bu sənaye kompleksini səmərəli işlədə bilən mühəndis, texnik, alim kadrları vardır.

Bakı Politexnik İnstitutu – mən Neft Akademiyasının köhnə adını deyirəm, indiki Politexnik İnstitutunu demirəm, onun da öz yeri var – Azərbaycan elminin inkişafında da böyük rol oynamışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranarkən onun əsasını qoyanların əksəriyyəti məhz bu institutun məzunları olmuşdular. Elmlər Akademiyasının bir çox elmi-tədqiqat institutlarını məhz həmin kadrlar tərəfindən yaratmaq mümkün olmuşdur. Bundan başqa, bizim sənayenin bir çox sahələrində, məsələn, neft, yaxud

maşınqayırma, energetika və başqa sahələrdə olduqca çox elmi-tədqiqat, layihə institutlarımız vardır. Həmin institutların yaranması da bu ali təhsil ocağında hazırlanmış kadrların vasitəsi ilə olmuşdur.

Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik tarixində onun fəaliyyəti çoxşaxəli olmuşdur. Həm sənayenin, həm elmin inkişafı, həm elmi-tədqiqat institutları, burada dedilər, bir neçə yeni ali məktəblər – Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu məhz Azərbaycan Dövlət Neft Akademiyasından ayrılmış fakültələr əsasında yaranmış, qurulmuşdur.

Azərbaycan Dövlət Neft Akademiyası indi özünün yeni mərhələsini yaşayır. Birincisi, bununla əlaqədardır ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət olaraq öz təhsilini, elmini, iqtisadiyyatını, özünə lazım olan digər sahələri daha da çox inkişaf etdirməyə çalışır. Azərbaycan Dövlət Neft Akademiyası bu baxımdan da xüsusi rol oynayır.

İndi müstəqillik dövründə bizim həyata keçirdiyimiz işlərdən ən böyüyü və ən əsası Azərbaycan dövlətinin yeni neft strategiyasıdır. Biz buna 1994-cü ildə başlamışıq. Amma quru yerdən başlamamışıq. Əgər Azərbaycan neftçiləri, geoloqları, alimləri, Azərbaycanın neft sənayesini təmin edən sənaye müəssisələri yüksək səviyyədə olmasaydı, biz bu strategiyanı həyata keçirə bilməzdik. Bizim neft strategiyamızın əsasını on illərlə Azərbaycan neftçiləri və geoloqları tərəfindən ilk növbədə Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş neft və qaz yataqlarının dünyanın qabaqcıl texnikaya və texnologiyaya, böyük iqtisadi imkanlara malik olan şirkətləri ilə birlikdə işlənməsi təşkil edir. İndi düşünmək lazımdır – əgər bizim alimlərimiz, geoloqlarımız, mühəndislərimiz, neftçilərimiz uzun illər çalışaraq o neft yataqlarını kəşf etməsəydilər, indi biz yeni neft strategiyamızı nəyin əsasında yarada bilərdik?

Ona görə də mən neft strategiyası haqqında danışarkən, birinci növbədə Azərbaycan neftçilərinə, neft sahəsindəki alimlərimizə, geoloqlarımıza xüsusi minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Azərbaycan dünyada ilk dəfə dənizin dərinliklərindən neft çıxarmağa nail olmuşdur. 50 il bundan öncə Neft Daşları yaranmışdır. Yəni dənizdə neft mədəni yaranmışdır. Bu, dünyada birinci təcrübə idi. Ancaq bunu kim kəşf etdi, kim yaratdı? Bu yataqları kəşf edənlər yenə də bizim bu Neft Akademiyasında təhsil almış yüksək səviyyəli geoloqlar olmuşlar. Ancaq o ağır vəziyyətdə dənizin, suyun altından nefti çıxarmaq təbiidir ki, bizim neftçilərin əməyinin və bu işdə toplanmış təcrübənin nəticəsi olmuşdur. Onlar olmasaydı, bu ola bilməzdi. Ona görə də Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi indiyə qədər bizim on illərlə gördüyümüz işlərin nəticəsidir.

Ancaq indi bizim neftçilərin qarşısında, Neft Akademiyasının qarşısında duran vəzifələr Azərbaycana gəlmiş müxtəlif şirkətlərlə sıx əməkdaşlıq edərək, dünya təcrübəsini daha da mənimsəməkdən və dunya təcrübəsini bu gün burada təhsil alan tələbələrə çatdırmaqdan, onları bu sahədə bilikləndirməkdən ibarətdir. Eyni zamanda Neft Akademiyası və neft sahəsində çalışan elmi-tədqiqat institutlarımız, Elmlər Akademiyası gərək bu şirkətlərlə sıx əməkdaşlıq etsinlər, Azərbaycan dünya təcrübəsini – həm elmi, həm də elmi-texniki tərəqqini, təcrübəni qavrasın, gələcəkdə bu işlərin əksəriyyətini özü görə bilsin.

Neft strategiyasının istiqamətlərindən biri də budur ki, biz müəyyən bir dövrdə ayrı-ayrı dünya şirkətləri ilə əməkdaşlıq edərək, təcrübə toplayıb, vəsait əldə edib, müasir texnikanı, texnologiyanı mənimsəyib işlərin çoxunu gələcəkdə özümüz görməliyik. Ancaq bunun üçün, bax, bu keçid dövrü lazımdır.

Sevindirici hal odur ki, indi dünyanın qabaqcıl neft şirkətlərinin burada gördüyü işlərin əksəriyyətini milli kadrlar aparır. Mən bu barədə neft şirkətlərinin rəhbərləri ilə, mütəxəssisləri ilə çox söhbət etmişəm. Onlar bildirirlər ki, Azərbaycandakı kadrların, milli kadrların, yəni azərbaycanlıların bu qədər yüksək səviyyədə olduğunu təsəvvür edə bilməzdik. Bu da yenə Neft Akademiyasının xidmətlərindən biridir. Bizim neft sənayesinin xidmətlərindən biridir. Neft sahəsində fəaliyyət göstərən elmi-tədqiqat, layihə institutlarımızın xidmətlərindən biridir.

Azərbaycan Dövlət Neft Akademiyasının dünyanın bir çox ölkələrində kadrların hazırlanmasındakı xidmətlərindən burda danışıldı. Bu da bizdə böyük iftixar hissi doğurur. Amma təkcə bu yox, həm də Azərbaycan neftçilərinin müxtəlif ölkələrdə neft sənayesinin yaranması və inkişaf etməsi sahəsində gördüyü işlər. Məsələn, Vyetnamda, Kubada, Əlcəzairdə, digər Afrika ölkələrində və başqa yerlərdə Azərbaycan mütəxəssisləri neft sənayesinin təşkil olunmasında iştirak ediblər, neft sənayesi ilə əlaqədar təhsil müəssisələrində dərslər deyiblər.

Xatirimdədir, 1983-cü ildə mən SSRİ-nin dövlət nümayəndə heyətinin başçısı kimi Vyetnamda oldum. Vyetnamın o vaxtkı başçıları ilə – Fam Van Donqla və başqaları ilə danışıq apararkən, onlar bizim qarşımızda, yəni SSRİ-nin qarşısında bir məsələ qoydular ki, siz tezliklə Vyetnamın cənubunda, dənizin sahilində olan neft yataqlarının istifadə edilməsində bizə yardım edin. Xoşimin şəhərindən müəyyən məsafədə, gərək ki, Vunqtay adlı bir yerdə bizim mütəxəssislər işləyirdilər. Gördüm ki, onların əksəriyyəti azərbaycanlıdır. Həddindən artıq sevindim. Onlar orada çox işlər görmüşdülər. İndi Vyetnam çox neft hasil edir və bu onun iqtisadiyyatının inkişafına kömək edibdir.

Yaxud, burada deyildi – xarici ölkələrin gənclərinin neft sahəsində təhsil alması. Afrikanın böyük ölkələrindən biri

olan Anqolanın prezidenti Joze Eduardu Duş Santuş beş il burada təhsil alıbdır, mühəndis olubdur. Sonra öz ölkəsində uzun illərdir prezident seçilir. Mən onunla həm Anqolada, həm də Moskvada bir neçə dəfə görüşmüşəm. Bəzən beynəlxalq təşkilatlarda görüşürük. O hər dəfə Bakıdakı təhsil dövrünü, müəllimlərini çox böyük məmnuniyyət hissi ilə xatırlayır. Bu da Azərbaycan Dövlət Neft Akademiyasının bir tərəfdən xidmətidir, ikinci tərəfdən, dünya miqyasında qazandığı şöhrətin əsasıdır.

Bir sözlə, bu gün Azərbaycan Dövlət Neft Akademiyasında sizinlə birlikdə mən Azərbaycan neftçilərinin bütün nəsillərinin xalqımız qarşısındakı böyük xidmətlərini xüsusi qeyd edirəm və ölkəmizdə neft sənayesinin inkişafında xidmətlər göstərmiş keçmiş nəsillərin – böyük mühəndislərin, alimlərin, geoloqların xatirəsi qarşısında baş əyirəm.

Mən burada sizinlə danışarkən beynimə bir fikir də gəlibdir. Azərbaycan neft ölkəsidir. Amma bizdə bu böyük sahəyə aid dəyərli bir abidə yoxdur.

Biz böyük şairlərimizin heykəllərini yaratmışıq. Musiqiçilərimizin heykəllərini yaratmışıq. Bunlar hamısı lazımdır, təbiidir. Amma mən bu gün düşünürəm ki, neft sahəsində bir adamın heykəlini yaratmaq çətindir. Amma Azərbaycan neft sənayesinin yarandığı vaxtdan indiyə qədər əldə etdiyi nailiyyətləri əks etdirən bir monumentin yaranmasına böyük ehtiyac vardır. Düşünürəm ki, gərək mən bu barədə müəyyən qərar qəbul edəm və onu həyata keçirəm.

Mən bu gün buraya, bu binaya gələrkən gəncliyimi xatırladım. 1939-cu ildə mən Naxçıvanda orta məktəbi qurtarandan sonra – onda 16 yaşım var idi – Bakıya gəldim. Memarlığa çox həvəsim olduğuna görə inşaat-memarlıq fakültəsinə daxil oldum. Burada iki ildən bir az çox təhsil aldım. İkinci dünya müharibəsi təhsilimin yarımçıq qalmasına, həyatımın istiqamətinin dəyişilməsinə səbəb oldu. O vaxtdan 60 il keçir.

Bir-iki dəfə öz arxivimə baxanda oxuduğum o iki ildə verdiyim imtahanların qiymət kitabçasını gördüm. İndi burada siz də arxivdən tapmısınız ki, hansı fənlərdən imtahan vermişəm, hansı qiyməti almışam, orada müəllimlərin imzaları vardır. Düzdür, iki il azdır, ondan 60 il keçibdir. Mən ondan sonra hərbi işdə olmuşam, siyasətlə məşğul olmuşam. Görünür ki, mənim memarlığa olan həvəsimlə yanaşı, bu istedadım var imiş. Ancaq o illəri heç unutmuram.

Bu gün binaya daxil olarkən fikirləşdim, o şeylərin hamısı yerindədirmi? Bəli, bu giriş qapısı da yadımdadır. Səhər dərsə gəlirdik. İntizam çox möhkəm idi. Mən keçmiş Solntsev küçəsi 40-da yerləşən yataqxanada yaşayırdım. Buradan 5 nömrəli tramvay keçirdi. Oradan buraya gəlirdim. Tələbələr çalışırdılar ki, dərsə gecikməsinlər. Həmişə qapıda tıxac əmələ gəlirdi, içəri girmək çox çətin idi, bir-birini itələyir, sıxırdılar. Bunlar hamısı xatirimdədir. Burada üçüncü mərtəbədə küncdə böyük bir otaq var. O bizim memarlıq qrupunun otağı idi. Aşağıda yeməkxana var idi, o da yadımdadır. Ümumiyyətlə, bu bina o vaxtdan mənim gözümün qarşısındadır. Yəni bunun köhnə hissəsi yox, yeni hissəsi. O illər iki il müddətində burada aldığım təhsil, tərbiyə, nizam-intizam, bilik mənim gələcək həyatımda, sonrakı dövrümdə çox böyük rol oynamışdır. Ona görə də mən o illəri böyük məmnuniyyət hissi ilə xatırlayıram. Mənə dərs vermiş müəllimləri xatırlayıram. Bu gün onlara bir daha minnətdarlığımı bildirirəm. Çünki Naxçıvanda orta məktəbi qurtarandan sonra məhz o illər mənim gələcək həyatımda böyük rol oynadı.

Mən burada çox yubileylərdə iştirak etmişəm. Xatirimdədir ki, 1940-cı ildə burada tələbə idim. Bildik ki, 20 illik yubileydir. O vaxt burada rektor Musa Əliyev idi. Bilirsiniz ki, o sonra böyük alim, akademiyanın prezidenti olmuşdur. Başqa müəllimlərimiz də var idi. Onlar yüksək dövlət ordenləri ilə təltif olunmuşlar, institut təltif edilmişdir.

Yadımdadır, bu salonda mərasim keçirilirdi. Təbiidir, onda mən burada yox, hardasa oralarda oturmuşdum. Çox sevinirdim. Yəqin təkcə mən yox, bütün tələbələr sevinirdi. Bu mənim 20 illik yubileydə iştirakım idi.

30,40 illik yubileylər bilmirəm nə vaxt olubdur. Ama 1971-ci ildə 50 illik yubileydə iştirak etmişəm və nitq söyləmişəm. 60 illik yubileydə iştirak etmişəm, yenə də nitq söyləmişəm. Artıq burada dedilər ki, 70 illik yubiley olmayıbdır. İndi 80 illik yubileydə də iştirak etmək mənə müyəssər olubdur. Mən buna görə özümü çox xoşbəxt hiss edirəm. Çox məmnunam, mənə nəsib olubdur ki, 60 il bundan öncə burada təhsil almış adam indi bu akademiyanın 80 illik yubileyində iştirak edir.

Mən sizinlə bərabər olmağımdan bir daha çox şadam, çox sevinirəm. Ümidvaram ki, Neft Akademiyası indiyə qədər əldə edilmiş təcrübəni, gözəl ənənələrini bundan sonra da davam etdirəcək və XXI əsrdə də Azərbaycanın ən qabaqcıl ali təhsil məktəblərindən biri olacaqdır. İndiyə qədər olduğu kimi, gələcəkdə də bizim xalqımız, millətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün yüksək səviyyəli kadrlar hazırlayacaqdır.

Sizi bir daha təbrik edirəm. Hər birinizə cansağlığı arzu edirəm. İşlərinizdə uğurlar arzulayıram. Hər birinizə ailə səadəti arzu edirəm. Sağ olun.

BURKİNA FASONUN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BLEZ KOMPAOREYƏ

Hörmətli cənab Prezident!

Burkina Fasonun milli bayramı – Xalq İnqilabı günü münasibəti ilə Sizi və ölkənizin dost xalqını ürəkdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Burkina Faso arasında dostluq və əməkdaşlıq əlaqələri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə genişlənib möhkəmlənəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *15 dekabr 2000-ci il*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİEL ARAP MOİYƏ

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və dost Keniya xalqına səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Keniya Respublikası arasındakı dostluq və əməkdaşlıq əlaqələri genişlənərək ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *15 dekabr 2000-ci il*

UKRAYNA PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

Hörmətli Leonid Daniloviç!

Sizin həyata keçirdiyiniz siyasət nəticəsində son illər Ukrayna demokratik cəmiyyət quruculuğunda mühüm müvəffəqiyyətlərə nail olmuş, Dünya Birliyində yüksək nüfuz qazanmışdır.

Şübhəsiz ki, Çernobıl AES-in bağlanması barədə qərar regionda və dünyada təhlükəsizliyin möhkəmlənməsinə Ukraynanın mühüm töhfəsi olacaqdır.

Azərbaycan Respublikası dekabr ayının 15-nin texnogen fəlakətlərin nəticələri ilə beynəlxalq mübarizə günü elan edilməsi barədə Ukraynanın təşəbbüsünü dəstəkləyir.

Əminəm ki, dövlətlərimiz arasında möhkəmlənən dostluq, strateji tərəfdaşlıq və qarşılıqlı dəstək Azərbaycan və Ukrayna xalqlarının rifahına xidmət edəcəkdir.

Əziz Leonid Daniloviç, fürsətdən istifadə edərək, Sizə və bütün qardaş Ukrayna xalqına xoşbəxtlik, sülh və firavanlıq arzulamaq istəyirəm.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *15 dekabr 2000-ci il*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI (AŞPA) KOMİTƏSİNİN SƏDRİ ANDRES QROSSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ* İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

16 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz!

Mən məmnunam ki, siz bizim ölkəmizə tez-tez gəlirsiniz. Bu onu göstərir ki, siz ölkəmizi sevirsiniz. Eyni zamanda, yəqin ki, biz də sizi sevirik. Ona görə də siz Azərbaycana tez-tez gəlirsiniz və biz də sizi tez-tez görmək istəyirik.

Mənə dedilər ki, siz bu gün bir çox görüşlər keçirmisiniz. Məmnunam ki, mənimlə də görüşə gəlmisiniz.

Son dəfə sizinlə noyabrın 6-da görüşərkən razılığa gəldik ki, yenə görüşəcəyik. Mən çox şadam ki, siz verdiyiniz sözə əməl etmisiniz. Buyurun.

A n d r e s Q r o s s: Cənab Prezident, sağ olun.

Bizi səmimiyyətlə qarşıladığınıza görə Sizə təşəkkürümü bildirirəm. Biz təkcə yenidən Azərbaycana dönəcəyimiz barədə vədimizə deyil, eyni zamanda Sizə verdiyimiz başqa bir vədimizə – Avropa Şurası Nazirlər Komitəsinə Azərbaycan

* Nümayəndə heyətinə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) direktoru Jerar Şturdman, AŞPA-nın və DTİHB-nin təmsilçiləri daxil idilər.

barədə məruzə edəcəyimiz haqda söz vermişdik – əməl etdik. Noyabrın 7-də məruzəni etdik.

Məhəbbət macəralarında bir-birini sevərkən ən yaxşı əlamət açıqlıq, vicdanlılıq, düzgünlük və şəffaflıqdır.

H e y d ə r Ə l i y e v: Bir də səmimilik.

A n d r e s Q r o s s: Özü də bəzən dostlarla daha açıq, səmimi və cəsarətli söhbət aparmaq, düşmənlə söhbətdən də çətin olur. Həm cənab Ştudman, həm də mən noyabrın 6-da, seçkilərdən dərhal sonra axşam Sizinlə görüşümüzdən və o görüş nəticəsində Sizin müvafiq orqanlara, o cümlədən Mərkəzi Seçki Komissiyasına tövsiyələrinizi və lazımi addımların atılması barədə qərarlarınızı görməkdən məmnun olduq. Biz Azərbaycanda keçirilmiş seçkilərlə əlaqədar dərhal məruzə edərkən də, yol verilmiş pozuntuların və çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görüləcəyi barədə Sizin sözlərinizi nəzərə aldıq. Ümidvarıq ki, təkrar seçkilər yanvarın 4-də, əvvəlki qüsurlar aradan qaldırılmaqla keçiriləcəkdir.

Lakin yenidən Azərbaycana gəldikdən sonra, təkrar seçkilər keçiriləcək dairələrdə işlərin təşkili ilə yaxından tanış olduqda, biz yenidən narahat olmağa başlamışıq. O mənada ki, problemlərin olduğunu görürük və ona görə də bu barədə danışmaq üçün Sizin hüzurunuza gəlmişik.

Etiraz etməsəniz, qarşılaşdığımız, gördüyümüz bu problemlərin bəziləri barədə Sizinlə mən söhbət edərdim.

H e y d ə r Ə l i y e v: Bəli, mən çox məmnunam ki, noyabrın 6-dakı görüşümüzü siz xatırlayırsınız. O vaxt siz və cənab Ştudman təklif etdiniz ki, mən seçki zamanı buraxılmış səhvlərin, qüsurların, qanun pozuntularının aradan qaldırılması ilə əlaqədar bəyanat verim. Hətta cənab Ştudman o vaxt dedi ki, siz bəyanat verəcəksiniz, ancaq lazımdır ki, bəyanatı həyata keçirəsiniz. Çünki bir neçə başqa ölkələrdə belə hallar olmuşdu ki, ya bəyanat verilməmişdi, ya da bəyanat sonra həyata keçirilməmişdi.

İndi siz şahidsiniz ki, mən dərhal bəyanat da verdim və bəyanatın həyata keçirilməsi üçün tədbirlərin də görülməsini təmin etdim. Mərkəzi Seçki Komissiyası və Konstitusiya Məhkəməsi 11 dairədə seçkiləri etibarsız saydılar və seçkilərin yenidən keçirilməsi haqqında qərar qəbul etdilər. Mən öz qərarımla üç rayonda icra hakimiyyəti başçılarını vəzifələrindən azad etdim. İndi mənə verilən məlumatlara görə – siz bunu daha yaxşı bilirsiniz – Mərkəzi Seçki Komissiyası iş aparır. 11 dairədə yenidən seçkilərin keçirilməsi üçün geniş iş aparılır və çoxlu namizədlər irəli sürülmüşdür.

Bilirsiniz ki, prezident seçkiləri aparmır. Seçkiləri Mərkəzi Seçki Komissiyası aparır. Mən sadəcə, vaxtaşırı onlardan məlumat alıram. Mən onların işinə qarışmıram. Ola bilər, onların işlərində yenə də hər hansı qüsurlar, səhvlər varsa, biz bu haqda danışa bilərik. Hesab edirəm ki, yanvar ayının 4-nə qədər hələ vaxt vardır. O qüsurların da aradan qaldırılması üçün birgə işlər görə bilərik.

Sizin dediklərinizi inkar etmək üçün mənim indi əsasım yoxdur. Ancaq siz bunları konkret izah etməlisiniz. Mən sizi dinləməyə hazıram.

Sonra görüş mətbuat nümayəndələrinin iştirakı olmadan davam etdirildi.

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI /AŞPA/ KOMİTƏSİNİN SƏDRİ ANDRES QROSSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

17 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Necəsiniz?

A n d r e s Q r o s s: Biz yaxşıyıq, amma mən atamın sözlərini xatırlayıram. O həmişə deyərdi ki, adamın kefinin yaxşı olmasının şərtləri vardır. Gərək özünə əziyyət verəsən, daha yaxşı olmağa çalışasan və özünü əla vəziyyətdə hiss edəsən.

H e y d ə r Ə l i y e v: Qərbdə bazar günləri insanlar, adətən, istirahət edirlər. Yəqin ki, siz də buna öyrəşmisiniz. Ancaq indi bizim respublikamızın, ölkəmizin işlərinə görə siz bazar günü də burada işləyirsiniz, əziyyət çəkirsiniz.

A n d r e s Q r o s s: Yox, bu, əziyyət deyil, biz işləməkdən zövq alırıq. İsveçrəlilər yaşamaq üçün işləyirlər, amma italyanlar işləmək üçün yaşayırlar.

H e y d ə r Ə l i y e v: Amma keçmiş Sovetlər İttifaqında yaşayanlarda, qərbi görməyənlərdə, ümumiyyətlə, dünyada belə fikir yaranıb ki, İsveçrə cənnətdir. Orada insanlar o qədər də çox işləmir, onların çoxlu gəlirləri var və çox da yaxşı istirahət edirlər. Doğrudur, indi İsveçrəni görənlər, o cümlədən mən də belə fikirdə deyiləm. Amma bir həqiqət vardır ki, Cenevrə çox gözəl şəhərdir.

İtalyanlarla isveçrəlilər barəsində bu cür sözlər də yaxşı sözlərdir. Amma iş buradadır ki, sizdə həm italyanlar, həm almanlar, həm də fransızlar var. Nədənsə, siz təkcə italyanları dediniz.

A n d r e s Q r o s s: Bilirsinizmi, İsveçrədə yaşayan italyanlar da elə İsveçrə vətəndaşlarıdır. Düzdür, bizdə milli azlıqlar da vardır. Mən İspaniyanın da adını çəkə bilərdim. Amma çəkmədim. Çünki mənim sol tərəfimdə ispan dostum əyləşibdir.

Bilirsinizmi, illüziya ilə utopiya arasında çox böyük fərq vardır. Cənnətə düşməyin özü illüziyadır. Bəzən keçmiş dövrdə, sovetlər məkanında yaşamış insanlar bizim reallıq kimi baxdığımız məsələlərə, yəni kommersiya məsələlərinə, iqtisadi məsələlərə illüziya kimi yanaşırdılar.

Əgər belə götürsək, cənnət illüziyadırsa, onda demokratiya utopiyadır. Amma utopiyaya getmək üçün gərək illüziyalardan keçib, əziyyətlərə qatlaşıb demokratik cəmiyyətə doğru irəliləyəsən. Hər halda, mən hesab edirəm ki, İsveçrə və Azərbaycan xalqları birgə səylər göstərib demokratik inkişaf yoluna üstünlük verirlər.

H e y d ə r Ə l i y e v: Doğrudur, amma siz İspaniyaya toxundunuz. Mən İspaniyanı müdafiə etmək istəyirəm. Çünki İspaniya bizim təsəvvürümüzdə həmişə bir möcüzələr ölkəsi olubdur. Məsələn, dünyanın heç bir yerində toreadorlar yoxdur, yalnız İspaniyada vardır, ispan rəqsləri də dünyada çox məşhurdur. Bizdə gənc estrada orkestrləri yaranıb, onların da proqramında mütləq ispan rəqsi olubdur. Ona görə də İsveçrənin və İspaniyanın hər birinin özünəməxsus gözəlliyi vardır. Amma indi əsas məsələ demokratiyadır.

G i l y e r m o M a r t i n e s – K a s a n (*Avropa Şurası Parlament Assambleyasında İspaniyanın təmsilçisi)*: Cənab Prezident, amma İspaniya ilə İsveçrə arasında fərq ondan ibarətdir ki, İspaniyada illüziyalar reallığa çevrilə bilir. Ona

görə də dinə çox bağlı olan xalq kimi, biz ispanlar elə bir yol seçə bilirik ki, o həm demokratiyaya, həm də bizim anlamımızda, elə cənnətə aparan yol olsun.

1977-ci ildən başlayaraq, İspaniya məhz iki yolun yolçusu olubdur. Əgər birinci yolla biz, həqiqi katoliklər, dini çox sevən xalq kimi, Allah-təala qarşısında böyük xidmətlər göstərmək, dinin göstərdiyi yolu tutmuşuqsa, ikinci yol mənim həmkarımın utopiya adlandırdığı demokratiyaya doğru gedən yoldur. Beləliklə, biz İspaniyada utopiya yolu ilə, yəni demokratiya yolu ilə illüziya adlandırılan dinə yaxınlaşmaq yolunu birləşdirərək, əsl cənnətə gedən yolun yolçusuyuq. Ona görə də sizləri İspaniyaya dəvət edirik ki, orada məhz belə düzgün yolun yolçuları olasınız.

H e y d ə r Ə l i y e v: Mən təşəkkür edirəm. Əlavə etməliyəm ki, İspaniyada bir də çox gözəl qadınlar vardır.

Yaxşı, bu sözlər bizim vaxtımızı ala bilər. Mən bilirəm ki, siz bu gün çox gərgin işləmisiniz. İndi biz görüşmüşük ki, fikir mübadiləsi aparaq. Yəqin ki, bu müqəddimədən sonra konkret söhbətə keçmək lazımdır.

BƏHREYN DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX
HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn dövlətinin milli bayramı – Tacqoyma günü münasibətilə Sizi və qardaş Bəhreyn xalqını salamlayır, səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə Bəhreyn dövləti arasındakı dostluq və əməkdaşlıq əlaqələri qarşılıqlı səylər nəticəsində genişlənərək ölkələrimizin və xalqlarımızın mənafeyinə, regionumuzda sülhə və tərəqqiyə xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *18 dekabr 2000-ci il*

IV ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ–QƏRB» BAKI KİNOFESTİVALINA

Sizi – IV ənənəvi Beynəlxalq «Şərq-Qərb» Bakı Kinofestivalının iştirakçılarını Azərbaycan torpağında səmimi-qəlbdən salamlayır və festivala böyük uğurlar arzulayıram.

Müasir dünyada siyasi, iqtisadi, mədəni inteqrasiya proseslərinin gücləndiyi bir dövrdə «Şərq–Qərb» kinofestivalının keçirilməsini ürəkdən alqışlayıram. Sevindirici haldır ki, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən bu festival artıq gözəl bir ənənəyə çevrilərək, öz beynəlxalq nüfuzunu ildən-ilə artırır.

Kinofestivalın Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuşduğu məkanda yerləşən, iki qitə, iki mədəniyyət arasında mənəvi körpü rolu oynayan Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil olunmasını ölkəmizin mədəni həyatında əlamətdar hadisə hesab edirəm. İnanıram ki, o, dünya xalqları mədəniyyətlərinin bir-birinə yaxınlaşması işinə, habelə milli kinematoqrafiyamızın inkişafına, onun böyük sənət aləmində layiqli yerini tutmasına da öz töhfəsini verəcəkdir.

Hörmətli kinofestival iştirakçıları! Yeni əsrin, yeni minilliyin astanasında toplaşdığınız bu böyük dostluq və mədəniyyət bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *18 dekabr 2000-ci il*

NİGER RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAMADU TANÇAYA

Hörmətli cənab Prezident!

Niger Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizə və dost Niger xalqına səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Niger Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri inkişaf edib genişlənərək, hər iki ölkənin mənafeyinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı və səadət, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *18 dekabr 2000-ci il*

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ-KONSTRUKTOR NEFT MAŞINQAYIRMASI İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA

Sizi – Azərbaycan Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitutunun əməkdaşlarını institutun yaradılmasının 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda neft maşınqayırması hələ XX əsrin əvvəllərində təşəkkül tapmağa başlamışdır. Neft-mədən avadanlığına olan tələbatı ödəmək üçün 1930-cu ilin dekabrında Azərbaycanda ilk dəfə keçmiş SSRİ üzrə dövlət əhəmiyyətli Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitutu yaradıldı.

Fəaliyyətinin ilk dövrlərindən başlayaraq institutda yeni növ neft-mədən avadanlığının yaradılması üzrə fundamental tədqiqatlar aparılmışdır. Burada yerinə yetirilən elmi işlər neft maşınqayırmasının bir çox istiqamətlərinin nəzəri əsaslarını təşkil etmiş, bir sıra elmi-tədqiqat və layihə təşkilatlarının təməlini qoymuşdur.

Azərbaycanın neft maşınqayırma kompleksinin inkişafı 70–80-cı illərdə xüsusilə iri sıçrayışlar etmişdir. Məhz bunun nəticəsi olaraq, o zamankı İttifaqda neft avadanlığının 70 faizi institutun layihələri əsasında hazırlanırdı. Bu layihələr üzrə onlarla müəssisə və bir çox zavodlarda neft-mədən avadanlığı istehsal edilirdi. O illərdə Azərbaycanın neft maşınqayırması sənayesində yaradılmış elmi-texniki baza və güclü infrastruktur müstəqillik qazandıqdan sonra respublikamızın neft sənayesinin yeni inkişaf mərhələsində böyük işlər görülməsi üçün möhkəm zəmin yaratmışdır.

Son illər Azərbaycan dünyanın bir çox ölkələrinin iri neft şirkətləri ilə əməkdaşlıq edərək böyük neft müqavilələri həyata keçirir. Bununla əlaqədar institutda müasir standartlara cavab verən rəqabət qabiliyyətli neft-mədən avadanlığının layihələşdirilməsi və istehsalın təşkili istiqamətində əhəmiyyətli işlər aparılır. Bu işlər gələcəkdə daha böyük nailiyyətlər və səmərə əldə edilməsinə imkan yaradacaqdır.

Əminəm ki, yüksək mühəndis, elmi-texniki kadrları olan Azərbaycan Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitutunun əməkdaşları bundan sonra da Azərbaycan dövlətinin sənaye və elmi qarşısında duran vəzifələri şərəflə həyata keçirəcəklər.

Bu əlamətdar yubiley münasibətilə institutun əməkdaşlarına möhkəm cansağlığı, ölkəmizin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 dekabr 2000-ci il*

«ŞİMAL» DRES-in YENİ ENERJİ BLOKUNUN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

Bakı, Əzizbəyov rayonu,
Şüvəlan qəsəbəsi

19 dekabr 2000-ci il

Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün biz hamımız müstəqil Azərbaycan Respublikasının həyatında tarixi bir hadisənin şahidiyik. Bu hadisə də burada – Şüvəlanda bir neçə onilliklər bundan öncə yaranmış elektrik stansiyasının yerində yeni bir enerji blokunun tikintisinə başlaması ilə əlaqədardır. Burada vaxtilə, 1950-ci illərdə və nəhayət, 1960-cı illərin əvvəllərində Azərbaycanın elektrik enerjisi ilə təmin edilməsi üçün «Şimal» Elektrik Stansiyası tikilmişdir. Bu stansiya on illərlə Azərbaycan xalqına, ölkəmizin iqtisadiyyatına öz xidmətini göstərmişdir və nə qədər köhnəlmiş olsa da, bu gün yenə də işləyir, az-çox öz xidmətini göstərir. Bu, Azərbaycanın ilk elektrik stansiyalarından biridir. Ancaq o illərdən sonra respublikamızda elektrik enerjisi potensialı yaratmaq üçün çox işlər görülmüş, bir çox elektrik stansiyaları tikilib istifadəyə verilmiş, Mingəçevir Su Elektrik Stansiyası, Kür çayı üzərində digər elektrik stansiyaları, Mingəçevirdə çoxsaylı bloklara və böyük potensiala malik olan Dövlət Rayon Elektrik Stansiyası tikilmişdir.

Məlumdur ki, müasir həyatda elektrik enerjisinin rolu əvəzsizdir. Əgər 50–60 il bundan öncəki dövrü xatırlasanız, o vaxt elektrik enerjisindən istifadə edənlərin sayı həddindən az idi. Azərbaycanın əksər bölgələrində elektrik enerjisi təminatı yox idi. Ölkəmizin sənaye müəssisələri mümkün olan qədər elektrik enerjisindən istifadə edirdilər. Əhali isə Bakıda az-çox təmin olunurdu. Amma Bakıdan kənarda yaşayan insanlar, yenə də deyirəm, elektrik enerjisinin nə olduğunu bilmirdilər, yaxud da ondan cüzi miqdarda istifadə edirdilər.

Həyat çox sürətlə inkişaf etdi. Elektrik enerjisi həm iqtisadiyyatın – sənayenin, kənd təsərrüfatının, həm də insanların həyatının, məişətinin bütün sahələrinə daxil oldu. Çünki bunu artıq daim inkişafda olan elmi-texniki tərəqqi tələb edirdi.

Bu baxımdan o illərdə Azərbaycanda da çox işlər görülübdür. Bu gün biz müstəqil Azərbaycan dövlətində sərbəst, azad şəraitdə yaşayaraq iftixar hissi ilə deyə bilərik ki, sovet hakimiyyəti illərində Azərbaycan hökuməti və dövləti nəinki o günlərin tələbatını təmin etməklə məşğul olmuşlar, eyni zamanda ölkəmizin gələcəyi haqqında düşünmüşlər. Respublikamızın iqtisadi potensialının və insanların həyat tərzinin gələcəkdə müstəqil dövlət çərçivəsində təmin olunması barədə düşünmüşlər.

Mən xoşbəxtəm ki, bu işlərin həyata keçirilməsinin böyük bir hissəsində bilavasitə iştirak etmişəm və o illərdə – 1970–80-ci illərdə Azərbaycanın rəhbəri olduğum zaman ölkəmizdə müstəqil elektrik enerjisi potensialının yaradılmasına nail olmuşam. Bəlkə də bunu dərindən dərk edən adamlar azdır. Çünki insanlar həyatda yeni şeylərə tez alışırlar, ancaq onların harada və necə icad olunduğunu, necə işlədiyini o qədər də dərindən bilmirlər. Məsələn, insan evinə soyuducu alır, amma o heç bilmir ki, bu soyuducunu necə düzəldiblər. O bilmir ki, bu soyuducu, eləcə də hər bir ailədə və evdə istifadə olunan digər məişət texnikası hansı vasitələrlə işləyəcəkdir.

Təbiidir ki, elektrik enerjisinin dünyada, o cümlədən hər bir ölkədə, həmçinin Azərbaycanda həyatın bütün sahələri üçün nə qədər vacib olduğunu bu sahədə fəaliyyət göstərənlər, mütəxəssislər, dövlət işi ilə məşğul olan adamlar yaxşı bilirlər.

O illərdə – sovet hakimiyyəti illərində biz SSRİ-nin tərkibində yaşayanda İttifaqın müxtəlif yerlərində böyük elektrik stansiyaları var idi. Hətta 1960-cı illərdə ölkədə atom elektrik stansiyalarının da tikintisinə başlandı.Ümumiyyətlə, o vaxt elektrikləşdirmə siyasəti sovet hökumətinin ən əsas şüarlarından biri idi. Ölkənin elektrikləşdirilməsi siyasəti geniş surətdə aparılırdı. Bu məsələləri Moskvada planlaşdıran adamlar ölkə bir olduğuna görə yeni elektrik stansiyalarının harada tikiləcəyi barədə o qədər də düşünmürdülər. Çünki vahid elektrik enerjisi sistemi var idi. O sistemlə də ölkənin hər yerinə elektrik enerjisi çatdırılırdı.

Biz o illər bütün bu imkanlardan istifadə edərək, eyni zamanda düşünürdük ki, hər respublikanın – o vaxt düşünürdük ki, gələcəkdə biz müstəqil dövlət ola bilərik – özünü təmin edə bilən iqtisadi potensialı olmalıdır. Bu iqtisadi potensialın tərkibində ən mühüm yer tutan elektrik enerjisi istehsal edən müəssisələr yaradılmalıdır. Ona görə də o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq. Əgər o illər biz bunu etməsəydik, indi Azərbaycanın elektrik enerjisi ilə təmin olunması, burada dedilər, bizimlə qonşu olan Cənubi Qafqaz ölkələrindəki kimi çox ağır bir vəziyyətə düşərdi. Ermənistanda vaxtilə bir atom elektrik stansiyası tikdilər. Onun hesabına Ermənistan indi müəyyən qədər elektrik enerjisi alır.

Gürcüstanda o vaxt bu işi görə bilmədilər. Ona görə də indi Gürcüstan elektrik enerjisi böhranı içərisində yaşayır. Amma biz Azərbaycanda uzaqgörənlik etdik, bu işləri gördük və ölkəmizin həm iqtisadiyyatını, həm insanlarının həyatını, xüsusən, həm də sənayeni təmin etmək üçün lazımi qədər elektrik enerjisi istehsal edən müəssisələr yarada bildik. Ancaq bu müəssisələrin bəziləri köhnəliblər, təmirə, yaxud onları müasirləşdirməyə, modernləşdirməyə ehtiyacı vardır. Onlar köhnə texnologiya ilə işləyirlər.

Məsələn, buradakı buxar-qaz qurğusunu götürək. Əgər bu qurğu 60-cı illərin əvvəllərində istifadəyə verilibsə, o vaxtdan indiyə qədər, demək olar ki, 40 il elmi-texniki tərəqqinin dünyaya nə gətirdiyini nəzərə alsaq, deməli, bu qurğu müasir tələblərə cavab vermir. Məhz ona görə də bu qurğu indi tam gücü ilə işləyə bilmir və işləyə də bilməz. Ancaq yenə də işləyir, yenə də müəyyən qədər elektrik enerjisi verir.

Bizim Mingəçevirdə yaratdığımız böyük Dövlət Rayon Elektrik Stansiyası, su elektrik stansiyası, Kür çayı üzərindəki digər elektrik stansiyalar, Əli Bayramlıdakı elektrik stansiyası – bunların hamısı Azərbaycanın elektrik enerjisi ilə təmin olunmasında xüsusi rol oynamışdır və bu gün də bu rolu oynayır. Ancaq həyat inkişaf edir, elektrik enerjisinə tələbat artır. Ona görə də bir yerdə dayanmaq olmaz. Hər şeyi inkişaf etdirmək lazımdır. O cümlədən xüsusən də elektrik enerjisi sistemini inkişaf etdirmək lazımdır.

Biz Azərbaycanda dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızın elektrik enerjisinə tələbatını yalnız və yalnız o vaxta qədər, SSRİ-nin tərkibində olduğumuz dövrdə yaratdığımız elektik enerjisi müəssisələrinin gücü ilə ödəyə bilirdik. Ancaq, yenə də deyirəm, bunların bir qismi köhnəlir, gücdən düşür. Bu sahəni inkişaf etdirmək lazımdır. Bunun üçün də biz Azərbaycanın müstəqilliyi dövründə həmin bu vacib işi, bir müstəqil dövlət kimi, həyata keçirməyi özümüzün əsas

vəzifəmiz hesab edirik. Məhz buna görə də biz Dünya Bankından, Avropa Yenidənqurma və İnkişaf Bankından kredit alıb Yenikənd Su Elektrik Stansiyasını yaratdıq. Məhz buna görə də biz Avropa ölkələrindən – Almaniyadan, İsveçrədən kredit alıb bu ölkələrin müasir avadanlığı ilə Xətai rayonunda 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzinin birinci növbəsini istifadəyə verdik. Həmin stansiya həm elektrik enerjisi, həm də evlərin qızdırılması üçün buxar verir. Ancaq bəzi hallarda tam gücü ilə işləmir, ancaq işləyəcəkdir.

Nəhayət, bizim ən böyük layihəmiz «Şimal» Dövlət Rayon Elektrik Stansiyasının yerində yeni, müasir bir elektrik stansiyasının tikilməsidir. Biz bunu istəyirdik, ancaq bu layihəni həyata keçirmək çox çətin idi. Buna görə də yollar axtarırdıq. Biz bu yolları Yaponiyada tapdıq. Burada artıq qeyd edildi ki, biz Yaponiya hökuməti ilə danışıqlar aparmışıq. Mən Yaponiya hökumətinin dəvəti ilə 1998-ci ilin fevral ayında orada rəsmi səfərdə oldum. Biz Yaponiyada müxtəlif böyük şirkətlərlə danışıqlar apararaq, böyük miqdarda kredit alaraq, Bakıda müasir tələblərə cavab verən yeni elektrik stansiyasının tikilməsi haqqında razılığa gəldik.

Mən deyə bilərəm ki, xarici banklardan, yaxud ayrı-ayrı ölkələrdən müstəqil dövlət kimi aldığımız kreditlərlə müqayisədə Yaponiya hökumətindən bizim aldığımız kredit hamısından çoxdur. İndiyə qədər biz heç bir ölkədən, dünyanın heç bir bankından bu həcmdə, bu məbləğdə kredit ala bilməmişdik. Bu da təbiidir. Bu həm iqtisadi, həm texniki, həm elmi cəhətdən yüksək inkişaf etmiş Yaponiya kimi bir ölkənin bizim gənc, müstəqil Azərbaycana göstərdiyi qayğının təzahürüdür.

Biz o vaxtdan indiyə qədər danışıqlar aparırdıq. Təbiidir ki, bunun layihəsi hazırlanmalı, müəyyən şirkətlər bu işlə məşğul olmalı idi. Bu proses haqqında burada məlumat verildi. Nəhayət, biz bu işi başa çatdırmışıq və bu gün də buraya toplaşmışıq ki,

həmin bu müasir enerji blokunun, onun qazla təmin olunması üçün Qaradağdan buraya çəkiləcək qaz xəttinin təməlini qoyaq.

Bizə 339 milyon Amerika dolları məbləğində kredit verilibdir. Kredit 40 il müddətinə ayrılıbdır. Bu, çox güzəştli kreditdir. Məhz güzəştdir. Məhz güzəştli, uzunmüddətli olduğuna görə bizim üçün sərfəlidir. Biz də bundan istifadə etməyə qərar vermişik. Əgər kreditin şərtləri belə olmasaydı, biz qısamüddətli kredit alıb qaytara bilməzdik. Onu da nəzərə alsanız ki, Azərbaycanda elektrik enerjisi istehsal olunur, insanlar elektrik enerjisindən istifadə edir – nəinki ayrı-ayrı məişət cihazlarını işlətmək üçün, hətta qış mövsümündə mənzilləri qızdırmaq üçün istifadə edir – amma bunun haqqını vermirlər.

Burada deyildi, sutkada 65–67 milyon kilovat-saat elektrik enerjisi istehsal olunur, bütün Azərbaycana paylanır, sutkada on min ton mazut, on milyon kubmetr qaz sərf edilir – yəni elektrik enerjisinin istehsalına 50 min dollar xərc çəkilir, pul xərclənir. Elektrik enerjisindən istifadə edən adamlar isə heç onun on faizinin haqqını vermirlər. Başa düşürsünüzmü? İndi biz 339 milyon dollar kredit götürüb, əhaliyə əlavə olaraq 400 meqavat saat elektrik enerjisi verib pulunu da almasaq, onda krediti haradan qaytaracağıq? Ona görə də siz bizim vəziyyətimizi başa düşün, anlayın. İnsanlar bunu bilsinlər. Evinizdə lampa, soyuducu, yaxud da tozsoran, paltaryuyan maşın, ayrı-ayrı qızdırıcı cihazlar – hamısı elektrik enerjisi ilə işləyir. Amma əhalinin əksəriyyəti onun haqqını vermir. Dövlətin bu gün o qədər pulu və imkanı yoxdur. Təkcə bizim yox, iqtisadi cəhətdən ən inkişaf etmiş dövlətləri götürsək – Yaponiyanın səfiri buradadır, sizdə elektrik enerjisinin pulunu verirlər, ya yox? Verməsələr nə edərsiniz? O deyir ki, elektrik enerjisinin pulunu hamı ödəyir. Yaponiya zəngin bir ölkədir. Xalqa, vətəndaşa elektrik enerjisi verir, amma onun haqqını alır.

A r t u r R a s i z a d ə: Dünya qiymətləri ilə götürsək, hər gün biz elektrik enerjisi istehsalına sərf olunan qazın, mazutun dəyəri ilə birlikdə 1,5 milyon dollar vəsait xərcləyirik.

H e y d ə r Ə l i y e v: Allaha şükür ki, bunları hesabladılar. Gündə 1,5 milyon dollar biz qazla, mazutla birlikdə elektrik enerjisi istehsalı üçün sərf edirik. Amma heç bir şey almırıq. Bəs Türkiyədə necədir? Siz elektrik enerjisi verirsiniz, pulunu alırsınız?

T a y f u n U z u n o v: Biz istehsal olunan elektrik enerjisinin hər kilovatını əhaliyə 8–10 sentə veririk. Türk xalqı elektrik enerjisinə Azərbaycandan 4 dəfə çox pul ödəyir.

H e y d ə r Ə l i y e v: Əgər vətəndaş o pulu ödəməsə, siz nə edirsiz?

T a y f u n U z u n o v: Elektrik enerjisinin verilməsi dayandırılır.

H e y d ə r Ə l i y e v: Bax, görün, vəziyyət belədir. Ona görə də siz təsəvvür edə bilərsiniz ki, indi biz bu 339 milyon dollar krediti alıb onun altına giririksə, onu qaytarmalıyıq. Buna biz ona görə getdik ki, bu kredit uzunmüddətlidir, həm də güzəştlidir. Amma bu krediti ona görə aldıq ki, xalqımız daim belə yaşamayacaq, həyat düzələcək, insanların imkanları olacaq, hərə özünün istifadə etdiyi elektrik enerjisinin haqqını ödəyəcəkdir.

Beləliklə, biz Azərbaycanda elektrik enerjisi potensialı yaranmasının yeni mərhələsinə başlamışıq. O da, dediyim kimi, Yenikənd Su Elektrik Stansiyasıdır, Xətai rayonundakı İstilik-Elektrik Mərkəzidir və bu gün burada, «Şimal» Dövlət Rayon Elektrik Stansiyasında təməlini qoyduğumuz yeni blokdur.

Keçid dövründə, Azərbaycanın iqtisadiyyatının belə ağır vəziyyətində bu işləri görmək, hesab edirəm ki, xalqımız tərəfindən lazımi səviyyədə qiymətləndirilməlidir. İnanıram ki, qiymətləndiriləcəkdir.

Burada dedilər, təəssüf ki, Azərbaycanda bədxah adamlar da az deyildir. Onlar heç bir iş görməyiblər. Elektrik enerjisi nə cür hasil olur, elektrik stansiyası nə cür ola bilər, elektrik enerjisi hasil etmək üçün nə lazımdır? Bunların heç birini bilməyən o boşboğazlar, özlərini müxalifət hesab edənlər, Azərbaycan xalqına bir qəpiklik kömək etməmiş adamlar gecə-gündüz axtarırlar ki, harada elektrik enerjisi kəsildi, tez gəlib o barədə qəzetə yazırlar. Yaxud da özəl televiziyalara o barədə xəbər verirlər. Axşamlar özəl televiziyaya baxırsan – bildirirlər ki, orada elektrik enerjisi kəsildi, burada qaz təchizatı dayandırıldı və sairə. Bundan savayı Azərbaycanda bir şey yoxdurmu? Azərbaycandakı iş budur.

Beləliklə, mən çıxışıma başlayanda dediyim sözlərə qayıdıram. Biz tarixi hadisənin şahidiyik. Böyük işin təməlini qoyuruq. Əgər nəzərə alsaq ki, iki il müddətində bu blok tikiləcək və 400 meqavat gücü olacaq, qaz təminatı da yaxşılaşacaq – onda təsəvvür edə bilərsiniz ki, doğrudan da biz Azərbaycanın müstəqilliyi dövründə və iqtisadi çətinliklər içərisində nə qədər böyük işlər görürük.

Mən bu kreditin ayrılması münasibətilə, bizə göstərilən qayğıya görə Yaponiya hökumətinə təşəkkürümü bildirirəm və Yaponiyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfirindən xahiş edirəm ki, mənim təşəkkürümü öz ölkəsinə çatdırsın.

Çox məmnunam ki, bu mürəkkəb texnologiyaya malik olan enerji blokunun tikilməsini də əsasən Yaponiya şirkətləri öz üzərlərinə götürüblər. Onlarla bərabər Türkiyənin şirkəti də burada iştirak edir. Bunlar təcrübəli, dünyada məşhur şirkətlərdir. İnanıram ki, onlar öz işlərini yüksək keyfiyyətlə görəcəklər. Biz təsəvvür etdiyimiz yüksək səviyyəli, modern elektrik stansiyası alacağıq. Əhalinin, ümumiyyətlə, iqtisadiyyatımızın tələbatını ödəyə biləcəyik.

Bugünkü hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm

ki, bizim yeni mərhələdə həyata keçirdiyimiz elektrik enerjisi proqramımız bundan sonra da davam edəcək və müstəqil Azərbaycan yaxın gələcəkdə bütün sahələrdə elektrik enerjisi ilə tam təmin olunacaqdır.

Mən bilirəm ki, bu nəhəng tikintidə işin çoxunu Azərbaycan mütəxəssisləri, fəhlələri, azərbaycanlılar görəcəklər. Bunun özü də çox mühüm bir haldır. Çünki bununla yeni iş yerləri açılacaq, insanlar işlə məşğul olacaq, qazanc əldə edəcək və müəyyən sahədə özlərinə lazımi iş tapa bilməyənlər burada işlə təmin olunacaqlar. Bu da bugünkü hadisənin çox əhəmiyyətli cəhətidir.

Bir daha sizi təbrik edirəm. Şirkətlərə bu nəhəng tikintidə uğurlar arzulayıram. Xaricdən gəlmiş və Azərbaycandan olan mütəxəssislərə – bu tikintidə iştirak edənlərin hamısına cansağlığı, uğurlu fəaliyyət arzulayıram. Sağ olun.

MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA NİTQ

Bakı, Əzizbəyov rayonu,
Şüvəlan qəsəbəsi

19 dekabr 2000-ci il

Əziz bacılar və qardaşlar!
Hörmətli dindarlar!

Bu gün toplaşdığımız ziyarətgahda görülən işlər xeyirxah işlərdir. Bu, millətimiz üçün, xalqımız üçün, müsəlmanlar üçün çox gərəkli işlərdir. Mirmövsüm ağa burada 1950-ci ildə dəfn olunubdur. Bunun üstündən 50 il keçibdir. İndi, 50 il keçəndən sonra burada belə abadlıq işləri və onun xatirəsinə layiq, təkcə onun yox, bizim islam dininin bütün adət-ənələrinə layiq bir abidə yaradırsınız.

Mən keçən dəfə buraya gələndə ancaq onun qəbrini və ətrafındakı tikilini gördüm. Amma indi burada geniş bir kompleks yaranıbdır. O vaxt bunu mənə demişdilər. Amma mən bu dərəcədə təsəvvür edə bilməzdim. Çox gözəldir, mən bəyənirəm. Burada zəhmət çəkənlərin hamısına təşəkkür edirəm və bütün işlərin görülməsi üçün öz arzuları ilə nəzir, yaxud başqa kömək verən adamların da hamısına təşəkkür edirəm. Çünki bu bizim ümumxalq işimizdir. Bu bizim öz dərin, qədim milli-mənəvi köklərimizə sadiqliyimizi nümayiş etdirir və gələcək nəsillər üçün örnək olur. Bu bizim müqəddəs islam dininə olan bağlılığımızı bir daha sübut edir. Bunların hamısı olduqca təqdirəlayiqdir və burada zəhmət çəkən,

əziyyət çəkən, qəlbən bu işi görən adamların hamısının əməyini bir daha, bir daha yüksək qiymətləndirirəm.

İndi bizim ölkəmizdə də, hər yerdə də böyük-böyük tikinti işləri gedir. Tikinti belədir ki, bu kiməsə lazımdır, kimsə ona vəsaitini qoyur, kimsə də o tikintini aparır, oradan pul qazanır.

Amma burada isə belə deyildir. Bura bütün xalqa, millətə lazımdır, getdiyimiz Allah yolunda lazımdır və bunu da xalq özü edir. Heç kəs bunun sifarişini də vermir, müstəqil olaraq vəsaitini də vermir. Heç kəs bunun inşaatını da aparmır. Hamısını xalq özü aparır. Nə üçün? Ancaq qəlbinin hökmü ilə! Yəni özünün mənəvi dəyərlərə bağlılığı ilə, islam dininə bağlılığı ilə, Qurani-Kərimə bağlılığı ilə bu işləri görür. Ona görə də mən burada gördüklərimdən çox məmnunam. Əgər indi iş belə gedirsə, bir müddətdən sonra yəqin ki, hamımız burada daha çox şeyləri görəcəyik.

Y e r d ə n s ə s l ə r: Cənab Prezident, hamısı Sizin uğurunuzun nəticəsidir.

H e y d ə r Ə l i y e v: Mən sizi Ramazan bayramı münasibətilə təbrik edirəm. Allah hamınızın orucunu qəbul etsin. Bizim hər bir dini ibadətlərimiz insanlara sağlamlıq gətirməlidir, insanların arzusunun yerinə yetirilməsini təmin etməlidir, insanlara xoşbəxtlik gətirməlidir. Ramazan ayı ölkəmizdə geniş qeyd olunur. Arzu edirəm ki, bütün oruc tutanlar, ibadət edənlər, namaz qılanlar – bu Ramazan ayında öz dini borclarını yerinə yetirənlər hamısı xoşbəxt olsunlar, öz arzularına çatsınlar. Sizin hamınıza cansağlığı arzulayıram.

Y e r d ə n s ə s l ə r: Cənab Prezident, Sizinlə birlikdə. Allah Sizə uzun ömür versin!

H e y d ə r Ə l i y e v: İndi bizim həyatımız bir neçə çətinliklərlə rastlaşır. Bunu bilirsiniz. Bir vaxtlar həyatda bu qədər çətinlik yox idi. Ancaq biz dinimizdən, milli-mənəvi dəyərlərimizdən məhrum idik. Hamımız sovet hakimiyyətinin,

sovet ideologiyasının qanun-qaydaları ilə yaşayırdıq. Bir az loru dildə desək, onda qarnımız daha dolu idi. Ancaq qəlbimiz dolu deyildi, boş idi. İnsan isə təkcə qarın üçün yaşamır. Azərbaycan xalqı əsrlər boyu, islam dinini qəbul edəndən sonra dini adət-ənənələri, dini mənəvi dəyərlərimizi hər şeydən üstün tutubdur.

İndi, həyatımızın bu keçid dövründə maddi cəhətdən çətinliklər vardır. Bunu siz də bilirsiniz, biz də bilirik. Onlar var. Ona görə yox ki, biz bu maddi çətinliklərin aradan qaldırılması ilə məşğul deyilik, yaxud da bunlara biganəyik. Yox. Ona görə ki, müstəqil olduq, milli azadlığa çıxdıq. Azərbaycanın müstəqil dövləti vardır. Ölkəmiz azaddır, heç kəsdən asılı deyildir.

Bu da təbiidir ki, keçmiş iqtisadi sistemin dağılması, dəyişdirilməsi və yeni müstəqil dövlətimizə, tarixi milli ənənələrimizə uyğun olan və dünya iqtisadiyyatına uyğun olan bir iqtisadi quruluşa keçid prosesi gedir. Ona görə də bu çətinliklər vardır. Ancaq əmin ola bilərsiniz ki, bunlar hamısı müvəqqəti xarakter daşıyır, keçib gedəndir. Amma daim yaşayan bizim mənəviyyatımızdır, xalqımızın özünəqayıdışıdır. Bizim dinimizin, islam dininin hər bir insan üçün azad istifadə edilməsi imkanının yaradılmasıdır. Ona görə bunları tərəziyə qoyanda, ağıllı adam seçə bilər – bizə hansı lazımdır. İndi ya gərək bəzi çətinliklərə dözək ki, sonra cahillərin əlinə düşməyək və millətimiz öz dini, adət-ənənələri, mənəvi dəyərləri ilə bundan sonra əsrlər boyu yaşasın. Yaxud da, bunların hamısından kənara çəkilək və kim nə cür istəyir, o cür də həyatımızı quraq ki, bu gün, sabah işlərimiz yaxşı olacaq, maddi vəziyyətimz yaxşı olacaqdır. Mən özüm bunu tərəziyə qoyanda, əlbəttə ki, mənəviyyat tərəfi, yəni bizim müstəqilliyimiz həmişə ağır gəlir, o biri yuxarıya qalxır. Mən istəyirəm ki, hamı bunu başa düşsün, hamı bunu bilsin. Elə bu abidənin özü mən dediyim sözlərə sübutdur.

Mən Mirmövsüm ağanı görmüşəm. 1944-cü ildə onun evində olmuşam. Onda mənim bir problemim var idi, nəzir demişdim. Getdim həm nəzirimi verdim, həm də ziyarət etdim. Müharibə illəri idi. Çox çətin illər idi. Ancaq o vaxt heç kəs təsəvvür edə bilməzdi ki, əgər o sistem qalsaydı, Mirmövsüm ağanın bu cür qəbri, bu cür abidəsi olacaq, bura böyük bir ziyarətgaha çevriləcək, bizim dini bir məbədimiz olacaqdır. Son illər, biz müstəqilliyi əldə edəndən sonra, keçmiş quruluşdan imtina edəndən sonra əldə etdiyimiz nailiyyətlər, bax, bundan ibarətdir.

Mən bilirəm ki, sizin hamınız dindar adamlarsınız, bu sözləri sizə deməyim bəlkə də artıqdır.

Y e r d ə n s ə s l ə r: Möhtərəm Prezident, çox xoşdur. Hamısını qəbul edirik.

H e y d ə r Ə l i y e v: Siz bu işləri məndən yaxşı bilirsiniz. Ancaq bir halda ki, görüşmüşük, öz fikirlərimi sizə çatdırmaq sitəyirəm. Hər halda, prezidentin də fikrini bilmək sizin üçün artıq olmaz.

Y e r d ə n s ə s l ə r: Allah Sizə cansağlığı versin, kölgənizi bizim üstümüzdən əskik eləməsin!

H a c ı A r i f N i f t u l l a y e v (*Buzovnadakı «Həzrət Əli» ocağının şeyxi*): Cənab Prezident, Siz bu ocağa bu qədər böyük qiymət vermisiniz. Azərbaycanda dinə, islama böyük qiymət vermisiniz. Allah Sizdən razı olsun. Bunun xatirinə Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Xudiyevə göstəriş verin ki, həftənin dördüncü günlərində «Haqqın dərgahı» verilişini bərpa etsin. Onun aparıcısı professor Vasim Məmmədəliyev Azərbaycanın gülü-çiçəyidir. O həmin verilişdə cəmi 20 dəqiqə danışırdı. İndi o verilişi aradan götürüblər. Mirmövsüm ağanın xatirinə, xahiş edirik, həmin verilişi bərpa etdirəsiniz.

H e y d ə r Ə l i y e v: Niyə götürübdür?

H a c ı A r i f N i f t u l l a y e v: Biz bunu bilmirik. Bir prezident kimi, Siz ki, bu ocağa böyük qiymət verirsiniz, Allah-təala Sizə cansağlığı versin. Mirmövsüm ağanın xatirinə, buradakı insanların adından xahiş edirəm, həmin verilişi bərpa etdirin.

H e y d ə r Ə l i y e v: Arxayın ol, darıxma, onu bərpa etdirmək mənim üçün çətin bir şey deyildir. Onu mən bu gün bərpa etdirəcəyəm.

H a c ı A r i f N i f t u l l a y e v: Çox sağ olun, çox razıyıq.

H e y d ə r Ə l i y e v: Narahat olmayın.

B a h a d u r A l l a h v e r d i y e v (*Şəhid atası, zəngilanlı məcburi köçkün*): Möhtərəm Prezident, mən çox xoşbəxtəm ki, Sizinlə beşinci dəfə görüşürəm, Sizi bağrıma basıram. Allah-təala Sizi bizim xalqımızın üstündən əskik eləməsin. Bütün qaçqınlar və məcburi köçkünlər, yerli camaat adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, Əzizbəyov Rayon İcra Hakimiyyətinin başçısı Hacı Gülağa İslamov bizə – məcburi köçkünlərə daim kömək göstərir. Buraya gələndən o bizə arxa, kömək olubdur. Hər birimizə əl tutub, imkanı daxilində kömək edibdir.

Şəhid atası kimi Sizdən xahiş edirəm, mənim bu məktubumu qəbul edəsiniz.

K ə r ş i v ə z Q u l i y e v: Möhtərəm Prezident, Sizə müraciət edən Azərbaycan Dövlət Neft Akademiyasının professorudur.

H e y d ə r Ə l i y e v: Mən səni yaxşı tanıyıram.

K ə r ş i v ə z Q u l i y e v: Hörmətli Heydər Əlirza oğlu, xoşbəxtik ki, Sizinlə yenidən görüşürük. Bu gün axırıncı əhyə axşamıdır. Mübarək Ramazan ayının bu gözəl günündə Siz harayasa təməl qoymağa gedirsiniz. Allah-təala taleyinizə elə bəxş edibdir ki, demək olar, Azərbaycanda qurulanların 85 faizini Siz yaratmısınız, təməlini qoymusunuz.

Sizin bura gəlməyinizdən camaatımız çox sevinir. Bayaq Sizin dediyiniz kimi, biz qarın camaatı deyilik. Müsəlman qarın müsəlmanı ola bilməz. Biz Sizə baxırıq, Sizin işlərinizə dəstək veririk. Müsəlman kimi hamımız Sizi dəstəkləyirik.

Allah-təala Mirmövsüm ağanın xatirinə Sizə cansağlığı versin. İnşallah, Azərbaycanı bundan sonra da inkişaf etdirəsiniz. Qoy xalq özü görsün ki, Siz həqiqətən bu işlər uğrunda, bu amal uğrunda həyatınızı fəda edirsiniz. Sizə, ailənizə, bütün Əliyevlər ailəsinə cansağlığı arzu edirik.

Başda Gülağa İslamov olmaqla, Hacı Nizamın və başqalarının Mirmövsüm ağanın ziyarətgahının ərsəyə gəlməsində zəhmətləri çox böyükdür. Bütün Əzizbəyov rayonunun möminləri, ziyalıları, camaatı adından Sizə təşəkkür edirəm. Sizə cansağlığı arzulayıram.

İnşallah, biz bu yaxınlarda Buzovnada məscidin tikintisini başa çatdıracağıq. Oranın açılışını bir yerdə edəcəyik.

H e y d ə r Ə l i y e v: İnşallah, oraya gələcəyəm.

Z ə r i f ə M a n a f o v a (*Əzizbəyov Rayon Ağsaqqallar Şurası sədrinin müavini*): Cənab Prezident, icazə verin, bütün ağbirçəklər adından Sizə xeyir-dua verim, cansağlığı arzu edim. Balaca Heydərə də cansağlığı arzulayıram. O gün olsun ki, torpaqlarımız azad edilsin. Siz özünüzün əmək haqqınızdan 12 qurban alıb, gətirib burada kəsəsiniz. Mənim arzum budur. Allah, İmam Hüseyn köməyiniz olsun.

H e y d ə r Ə l i y e v: İnşallah.

Bilirsiniz, burada məşhur, çoxdankı elektrik stansiyası var, oraya gedirəm. Onu tamamilə yenidən tikmək haqqında qərar qəbul etmişəm. Bilirsiniz ki, indi bizim vəsaitimiz yoxdur. Oradan, buradan vəsait axtarmışam. 1998-ci ildə Yaponiyaya getdim. Oranın hökuməti ilə, imperatoru ilə, başqaları ilə danışıqlar apardım. Yaxşı əlaqələr qurmuşuq. Onlar bizə 360 milyon dollar uzunmüddətli – 40 ilə kredit veriblər və onunla mən bu stansiyanı yenidən qurmaq istəyirəm.

Bilirsiniz ki, onun əsası 1942-ci ildə qoyulubdur, amma tikintisi 60-cı ildə qurtarıbdır və o öz xidmətini göstəribdir. Daha tələbatı ödəmir. İndi bizim elektrik enerjisi sarıdan çətinliyimiz vardır. Bəzən görürsən ki, bir yerdə işıq söndü, qaz çatmadı – bədxah adamlar oradan qalxırlar, buradan qalxırlar, nə bilim, televiziyada göstərirlər, filan edirlər, camaatı qıcıqlandırırlar.

Y e r d ə n s ə s l ə r: Biz elələrinə nifrət edirik.

H e y d ə r Ə l i y e v: Başa düşürsünüz, bu həyatdır. Ola bilər, bir gün sənin işığın olsun, bir gün olmasın. Bu, vacib bir şey deyildir. Əlbəttə, mən istəyirəm ki, hamının evində gecə-gündüz işıq yansın. Amma hələlik imkan yoxdur, bu imkanları axtarırıq.

Məsələn, mən Avropa şirkətlərindən kredit aldım. Xətai rayonunda qədim bir istilik-elektrik mərkəzi var idi. 50 milyon dollara onun birinci növbəsini yenidən tikdirdik. İndi onun ikinci növbəsinin tikilməsi üçün 50 milyon dollar da almışıq. O, elektrik enerjisi verəcəkdir. Hətta evləri qızdırmaq üçün buxar da verir. Bu gün təməli qoyulan blok isə 400 meqavat elektrik enerjisi verəcəkdir. Biz bununla Bakının çox hissəsini təmin edəcəyik.

İndi Bakıya elektrik enerjisi Mingəçevirdən, Əli Bayramlıdan gəlir. Buraya gələnə qədər itkilər olur, ikinci tərəfdən isə, nə bilim, orada məftil qırıldı, filan oldu, peşməkan oldu – qəzalar baş verir. Bunu aradan qaldırmaq üçün 6–7 saat vaxt lazım gəlir. Bədxah adamlar da qalxırlar ki, niyə elektrik enerjisi yoxdur? Doğrudur, biz onlara fikir vermirik. Onlar hamısı Azərbaycana düşmən olan adamlardır.

Mən bununla demək istəyirəm ki, bizim müstəqil dövlətimiz əhalinin həyatını yaxşılaşdırmaq üçün ardıcıl surətdə lazımi işlər görür və bundan sonra da görəcəkdir. Onların bir nümunəsi bax, budur.

O ki qaldı işğal olunmuş torpaqların azad edilməsinə, əmin olun, azad ediləcəkdir. Ancaq mən bunu sülh yolu ilə etmək istəyirəm. Bilin, yenidən müharibə başlamaq istəmirəm. Çünki bilirsiniz, müharibə həm böyük qanlara gətirib çıxarır, həm də nəticəsi nə olacaq – bilmək mümkün deyildir. Axı biz müharibə edəndə, o biri tərəf də müharibə edir. Onun da gücü var, bizim də gücümüz vardır. Bəzən o tərəfin gücü, özünün gücü yox, dünyadan ona göstərilən yardımlar bizimkindən üstündür. Ona görə də biz bunu gecə-gündüz ölçürük, biçirik. Bunun yolu sülh yoludur. Amma bu sülh yolunu həyata keçirmək üçün çətinliklərimiz vardır. O da ondan ibarətdir ki, erməni silahlı qüvvələri torpaqlarımızın 20 faizini işğal edibdir. Demək, hərbi nöqteyi-nəzərdən üstünlük əldə edibdir. Ona görə də deyir ki, mən sənin ərazini işğal etmişəm. Sən mənim bu şərtimi yerinə yetir, mən işğal olunmuş torpaqları azad edim. Dünya ictimaiyyəti də buna bir söz demir. Ona görə də biz çox mürəkkəb, çətin danışıqlar aparırıq. Amma bu danışıqları aparan adam kimi, bu işlə gecə-gündüz məşğul olan adam kimi mən sizə deyirəm ki, biz buna nail olacağıq. İndiyə qədər dözmüşük, bir az da dözmək lazımdır. Mütləq buna nail olacağıq.

K ə r ş i v ə z Q u l i y e v: İnşallah, istəyinizə nail olacaqsınız.

Cənab Prezident, gələn ilin bugünkü günü indi getdiyiniz obyektin açılışı münasibətilə burada bir də görüşək. Bu, gələn əsrə düşür. Sizə Allahdan uzun ömür diləyirəm.

H e y d ə r Ə l i y e v: Orucluq bayramı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

Sağ olun.

YAPONİYANIN İMPERATORU
ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Yaponiyanın milli bayramı – İmperatorun təvəllüdü günü ilə əlaqədar Sizi, imperator ailəsinin üzvlərini və dost yapon xalqını ürəkdən təbrik edirəm.

Biz ölkələrimiz və xalqlarımız arasında ildən-ilə inkişaf edən dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, Yaponiya ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafeyi, bütün dünyada sülh və əmin-amanlıq naminə genişlənərək inkişaf edəcəkdir.

Əlahəzrət, fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına əmin-amanlıq və daha böyük tərəqqi arzulayıram. Bayramınız mübarək olsun.

Hörmət və ehtiramla,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 dekabr 2000-ci il*

YAPONİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB YOŞİRO MORİYƏ

Hörmətli cənab Baş nazir!

Yaponiyanın milli bayramı – İmperatorun təvəllüdü günü münasibətilə Sizi və dost yapon xalqını salamlayır və ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, ölkənizə əmin-amanlıq və inkişaf yollarında yeni-yeni uğurlar arzulayıram.

Mən Azərbaycan Respublikası ilə Yaponiya arasında yaranmış dostluq və əməkdaşlıq əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Əmin olduğumu bildirirəm ki, qarşılıqlı səylər sayəsində ölkələrimizin və xalqlarımızın əlaqələri daha da genişlənərək hər iki ölkənin mənafeyinə, bütün dünyada sülh və əmin-amanlıq işinə xidmət edəcəkdir.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 dekabr 2000-ci il*

BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MƏRKƏZİ KLİNİK XƏSTƏXANASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

22 dekabr 2000-ci il

Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş hörmətli qonaqlarımız, dostlarımız!

Hörmətli dövlət naziri!

Hörmətli nazir!

Hörmətli dostlarımız!

Hörmətli xanımlar və cənablar!

Bu gün XX əsrin son günlərini yaşayaraq, biz qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycanda ildən-ilə quruculuq, yaradıcılıq işləri həyata keçirilir və onlar həm bu gün, həm də gələcəkdə Azərbaycan vətəndaşlarına xidmət edəcəklər. Bugünkü hadisə bir tərəfdən, bəlkə də adi görünə bilər, amma digər tərəfdən isə, adi hadisə deyildir.

Azərbaycan XX əsrdə 70 ildən çox Sovetlər İttifaqının tərkibində olarkən, ölkəmizdə səhiyyə çox sürətlə inkişaf edibdir. Çoxsaylı həkimlər, tibb işçiləri hazırlanıbdır. Tibb sahəsində Azərbaycanın çox dəyərli alimlərinin, professorlarının bir neçə nəsli ölkəmizdə fəaliyyət göstəribdir və bu gün də göstərir.

Bu yaxınlarda 70 illiyini qeyd etdiyimiz Azərbaycan Tibb Universiteti ölkəmizin kifayət qədər tibb kadrları ilə təmin olunmasında çox böyük xidmətlər göstəribdir. Respublikamızda əhalinin tibbi yardıma olan ehtiyacını təmin etmək üçün çoxsaylı xəstəxanalar, ambulatoriyalar, elmi-tədqiqat

tibb institutları və başqa bu kimi müəssisələr yaranıbdır. Bunlar bu gün də Azərbaycan xalqına xidmət edirlər. Bunu heç vaxt inkar etmək olmaz – ölkəmizin tarixində həmin illərdə görülən işlər yüksək qiymətə layiqdir və ölkəmizdə tarixi nöqteyi-nəzərdən belə bir qısa müddətdə heç vaxt bu qədər çox iş görülməmişdir.

Tarixi vərəqləyərkən görürsən ki, əsrin əvvəlində Azərbaycanda həkimləri barmaqla göstərmək olardı. Onlar da ya Rusiyada, yaxud da Avropa ölkələrində təhsil almış tək-tək adamlar idilər. Hətta xatirimdədir ki, mən gənc vaxtımda Naxçıvanda yaşayarkən bütün şəhərin, təkcə şəhərin yox, Muxtar Respublikanın cəmi 4–5 həkimi var idi. Mən 1930-cu illəri deyirəm. Ona görə həkimə ehtiyac duyulurdu. Mən Azərbaycanın bu bölgəsini götürürəm, çünki bunları gözümlə görmüşəm, öz həyatımda hiss etmişəm. Ancaq Azərbaycanın elə bölgələri vardı ki, orada heç bu da yox idi.

Təbiidir, əsrin əvvəlində Bakının özündə də bəzi tibb ocaqları yaranmışdı. Ancaq onlar əhalinin ehtiyacını təmin edə bilmirdi. Ona görə də 20-ci illərdən başlayaraq, Azərbaycanda səhiyyə sahəsində sürətlə görülən işlər Azərbaycanda səhiyyənin çox güclü maddi-texniki bazasını, çox güclü kadr potensialını, yüksək səviyyəli alimlər dəstəsini yaradıbdır.

Bunlar Azərbaycanın yaxın keçmişinə aid olan məlumatlardır. Əgər bunları bu gün biz unutmuş olsaydıq, öz tariximizi unutmuş olardıq. Ancaq tarixi heç vaxt unutmaq olmaz. Hər bugünkü gün bizim keçən günlərimizin, illərimizin davamıdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra biz bir çox maddi çətinliklərlə rastlaşdıq. Təkcə maddi çətinliklərlə yox, biz yeni, dünyada artıq sınaqdan keçmiş və inkişaf etmiş ölkələr tərəfindən qəbul olunmuş iqtisadi sistemin prinsipləri əsasında Azərbaycanın iqtisadiyyatını, sosial həyatını qurmağa başladıq. Təbiidir ki, bu bir çox çətinliklər yaratdı. Azərbaycanda səhiyyənin, yəni xəstəxanaların,

ambulatoriyaların və başqa tibb ocaqlarının çox olmasına baxmayaraq, vəsait çatışmazlığı, yaranmış obyektiv çətinliklər üzündən onların xalqa xidmət etmək imkanları get-gedə azaldı və dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə çox aşağı səviyyədə oldu. Təbiidir ki, bu bizi narahat edirdi. Ona görə də biz həyatımızın bir çox sahələrində olduğu kimi, səhiyyə sahəsində də genişmiqyaslı islahatlar aparmaq qərarını qəbul etdik. İslahatlar proqramı tərtib olundu. İndi onlar həyata keçirilir. Ancaq bundan ötrü həm zaman, həm vəsait gərəkdir, həm də Azərbaycanın səhiyyəsində hər şeyi – səhiyyə ocaqlarını, burada fəaliyyət göstərən həkimləri, yaxud da ki, şəfqət bacılarını və başqalarını müasir səviyyəyə qaldırmaq lazımdır. Bu problem Azərbaycanda bizi narahat edibdir və bu gün də narahat edir.

Son illər belə bir halı müşahidə etməyə başladıq ki, Azərbaycanda bir çox xəstəliklərin müalicəsi mümkün deyildir. Hətta təkcə xəstəliklərin yox, bəzi xəstəliklərə aid müayinənin aparılması da mümkün deyildir. Çünki müasir səhiyyə elmi əsaslarla, dünyada əldə olunmuş təcrübə əsasında və bir də səhiyyə sahəsində elmi-texniki tərəqqinin, bu istiqamətdə dünyada yaranmış imkanlar əsasında qurulur. Əgər 10–15 il, 30 il bundan öncə həkim təkcə trubkanı qulağına qoyub insanın xəstə olub-olmadığını deyirdisə, yaxud da ki, kiçik bir analiz apararaq xəstəliyi müəyyən edirdisə, qısa zamanda dünyada səhiyyə sahəsində elə alətlər, cihazlar yarandı ki, bunlar insan orqanizminin hər bir hissəsini, onun vəziyyətini dəqiq müəyyən etməyə, eyni zamanda hər bir xəstənin diaqnozunu doğru-düzgün qoymaq imkanı yaradır.

Mən həkim deyiləm. Ancaq bir şey, təbiidir, təkcə mənə yox, çoxlarına məlumdur ki, xəstəni düzgün müalicə etmək üçün xəstəliyin səbəbini, diaqnozunu müəyyənləşdirmək, ondan sonra müalicəni təyin etmək lazımdır. Muasir dövrdə müalicə vasitəsi iki amildən asılıdır. Birincisi, o xəstəliyi

müalicə etmək üçün lazımi tibb cihazlarından, alətlərindən, ikincisi, müasir dərmanlardan istifadə edilməlidir. Bu sahədə Azərbaycan çox geridə qalmışdır. Ona görə də bu, son illər bizi narahat edirdi.

Yollar axtarırdıq. Amma bu yolların tapılması da asan deyildir. Bir tərəfdən, buna vəsait, ikinci tərəfdən, təcrübəli insanlar, üçüncü tərəfdən də müasir maddi-texniki baza lazımdır. Bunun üçün biz, birinci növbədə dost, qardaş Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq etməyi çox vacib bildik. Çünki biz hamımız bilirik ki, Türkiyə Cümhuriyyətində, xüsusən, İkinci dünya müharibəsindən sonra – iqtisadiyyat sürətlə inkişaf edibdir, sosial həyatda çox böyük dəyişikliklər əmələ gəlibdir. Səhiyyə, tibb elmi də çox inkişaf edibdir. Ona görə də Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, qardaş Türkiyə ilə Azərbaycan arasında olan sədlər götürüləndən sonra azərbaycanlıların, bizim vətəndaşlarımızın çoxu kiçik, ya böyük bir xəstəlik olanda Türkiyəyə gedir, bu ölkənin xəstəxanalarında həkimlərin köməyi ilə müalicə olunmağa başlayırdılar.

Doğrudur, indi Avropa ölkələrinə, ABŞ-a gedənlər də vardır. Ancaq bunlar azlıq təşkil edir. Çünki uzağa getdikcə xərc artır. Həm də bunu bizim həkimlər də yaxşı bilirlər – məsələn, Türkiyədə müəyyən bir xəstəliyin müalicəsi hansı qiymətədirsə, Avropada ondan üç dəfə, ABŞ-da isə 5 dəfə bahadır. Həmin ölkələrdə hər şey pulludur, yəni pulsuz heç bir xəstəlik müalicə olunmur. Ona görə də bizim Türkiyə ilə əməkdaşlıq etməyimiz, birincisi, Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının əsasında yaranıbdır. Çünki biz bütün sahələrdə əməkdaşlıq edirik. İkincisi isə, Türkiyə bizə daha da yaxındır və bu ölkədə tibb sahəsində bütün imkanlar dünya səviyyəsindədir. Bax, bütün bunları nəzərə alaraq, biz qərar qəbul etmək məcburiyyətində olduq.

Xatirimdədir, bunu mənim dostum və Azərbaycan xalqının böyük dostu, Türkiyə Cümhuriyyətinin 9-cu cümhur başqanı hörmətli Süleyman Dəmirəllə bir neçə dəfə görüşlərimizdə – Azərbaycanda da, Türkiyədə də – müzakirə etmişik. Sonra bu xəstəxananın yaradılması haqqında qərar qəbul etdik. Qərar da ondan ibarət oldu ki, bunu yaratmaq üçün Azərbaycan vəsait tapmalı, Türkiyə Cümhuriyyəti isə bu sahədə ixtisaslaşmış tikinti şirkəti, təkcə tikinti deyil, həm də xəstəxananı tam müasir texnika və texnologiya ilə təchiz etmək imkanına malik bir şirkət tapmalıdır. Bu yeni, müasir tibb texnikasından, cihazlarından, alətlərindən istifadə etmək üçün o səviyyədə olan həkimlər, başqa tibb heyəti hazırlanmalı idi. Biz belə bir kompleks tədbirinin görülməsini qərara aldıq və onu həyata keçirməyə başladıq.

Sizə açıq deyim ki, bizim üçün ən çətini bunun pulunu tapmaq idi. Çünki bilirsiniz ki, indi Azərbaycanın iqtisadi vəziyyəti çətindir, ehtiyaclarımız çoxdur. Ümumi ehtiyaclarımızın olması, keçirilən iqtisadi islahatlar nəticəsində sənayemizin bir hissəsinin işləməməsi, Ermənistanın təcavüzü ilə əlaqədar 20 faizdən çox işğal olunmuş torpaqlarımızdan insanların zorla çıxarılması, onların çadırlarda yaşaması, işsiz olması – bunların hamısı Azərbaycan hökumətindən, dövlətindən vəsait tələb edir. Ona görə də – burada deyildi ki, xəstəxana 30 milyon dollara başa gəlib – bu vəsaiti tapmaq, onu əldə etmək asan bir məsələ deyildi. «Baş sındırmağa» məcbur olduq. Bəlkə də başqa sahələrdə biz bu yolu seçə bilməzdik. Ancaq bu sahədə biz bunu etdik.

1994-cü ildə biz dunyanın böyük neft şirkətləri ilə ilk neft müqaviləsini – «Əsrin müqaviləsi» adlandırılan həmin müqaviləni imzalayanda – onlar müqaviləyə görə öz bonuslarını vermişdilər. Bundan əlavə, o müqavilənin imzalanması şərəfinə həmin şirkətlər birlikdə Azərbaycan prezidentinə 5 milyon dollar verdilər, hədiyyə etdilər. Amma bir şərtlə ki, Azərbaycan

prezidenti bunu yalnız səhiyyə üçün istifadə etsin. Mən də o vaxt fikirləşirdim ki, 5 milyon dollara nə etmək olar? Xəstəxana, ambulatoriya tikmək olmaz, gedib bu pula 2–3 cihaz alsaq, bundan da bir nəticə çıxmayacaqdır. Ona görə də mən bizim Milli Banka dedim ki, siz bu pulu saxlayın, lazım olar.

O vaxtdan, 1994-cü ildən indiyə qədər həmin vəsait bankda qaldı. Siz bilirsiniz ki, xarici banklara qoyulan pulun üzərinə faiz gəlir. Soruşdum ki, indi həmin pul nə qədərdir? Dedilər ki, 6 milyon 360 min dollar olubdur. Dedim ki, xəstəxana tikintisi üçün pulun bir hissəsini tapdıq. Bir hissəsini də oradan kredit götürdük. Digər bir hissəsini isə Almaniyanın «Siemens» şirkətindən kredit götürdük. Yəni bu vəsaiti tapmaq asan deyildi. Bax, bütün bu imkanlardan istifadə edərək, 30 milyon dollar məbləğində vəsaiti topladıq. Tender keçirdilər, «Ahsel holdinq» şirkəti tenderin qalibi oldu və beləliklə, bu tikintiyə başladı.

Doğrusu, mən inanmırdım ki, qısa müddətdə bunu həyata keçirmək mümkün olacaqdır. Ancaq dedilər ki, edəcəyik. Söz verdilər və yerinə də yetirdilər.

İndi yəqin ki, biz xəstəxananın içərisində bəzi şeylərə baxacağıq. Amma hamısına da baxa bilmərik. Mən bilirəm ki, buraya gətirilən avadanlıq dünyada ən yüksək səviyyəli tibb avadanlığı, cihazlardır. Həmin avadanlıq bu tibb ocağında çox işlər görmək, müalicə və əməliyyatlar aparmaq üçün imkan yaradır.

Bu xəstəxana nə üçün tikilibdir? Bilirsiniz ki, bu bina 60-cı illərin əvvəllərində tikilmişdir və o vaxtdan da istifadə olunurdu. Təbiidir ki, o vaxtın tələblərinə görə bu xəstəxana Azərbaycanda digərlərinə nisbətən yaxşı hesab edilirdi. Ancaq sonra bu binanın bir hissəsi uçmuşdu, istifadə olunmurdu. Qalan hissəsi də köhnəlmişdi, dağılmışdır. Bir sözlə, bu bina istifadəsiz qalmışdı. Ancaq bu şirkət şəhərimizdə hər yerə baxdıqdan sonra buranı seçmişdi. Söz vermişdilər ki, burada

bəzi şeyləri bərpa edəcək, digərlərini isə özləri tikəcəklər. Vaxtilə bu binanı burada tikən insanlar da ağıllı iş görüblər. Çünki bura şəhərin gözəl bir yeridir. Xəstə üçün, əlbəttə ki, pəncərədən dənizə baxmağın, yaxud da Bakının müxtəlif mənzərələrini görməyin özü də onun müalicəsinə kömək edə bilər. Ona görə də mən çox sıxılırdım ki, vaxtilə Azərbaycana xidmət göstərmiş bu bina indi istifadəsiz qalmışdır.

Bu binanın ətrafı da xəstələrin istirahət etməsi üçün çox yaxşıdır. Ona görə də hesab edirəm ki, hər şey düzgün təyin olunub və seçilibdir. Bina hazırdır və biz də gəlmişik sizinlə birlikdə xəstəxananın açılış mərasimində iştirak edək. Ancaq mən dedim, burada görülən işlərin hamısı yüksək səviyyədədir – həm inşaat işləri, həm də xəstəxananın bütün tibb cihazları ilə təmin olunması. Buna mənim şübhəm yoxdur. Müəyyən qədər kadrlar hazırlanıbdır. Amma onlar yetərli deyildir.

Ə l i İ n s a n o v: Cənab Prezident, kadr hazırlığı davam etdirilir.

H e y d ə r Ə l i y e v: Davam etdirirsinizsə, bunu tez etmək lazımdır, hələlik yetərli deyildir. Çünki bu gözəl binanı və ən yüksək səviyyəli, kompüterlərlə işləyən tibb cihazlarını bu işi yaxşı bilməyən adamların əlinə verdinsə – qəsdən yox, sadəcə, bu işi bilmədiyinə görə – bunların səmərəli işləməsini təmin edə bilməyəcəklər. Bu gün xəstəxananın açılışının ilk günüdür. Xəstəxananın səmərəli işləməsi bizim Səhiyyə Nazirliyinin əsas vəzifəsidir. Burada da əməkdaşlıq yenə Azərbaycan Səhiyyə Nazirliyi ilə Türkiyənin Sağlıq Nazirliyinin birgə işidir. Ona görə də sizin işiniz hələ qurtarmayıbdır.

O s m a n D u r m u ş: Cənab Prezident, biz təcrübəli mütəxəssislər də gətirmişik.

H e y d ə r Ə l i y e v: Təcrübəli mütəxəssislər gətirmisiniz, çox sağ olun. Amma başqaları da lazımdır. Burada sizin

işiniz qurtarmayıbdır. Əli İnsanov, sizin işiniz indi başlayıbdır. Ümid edirəm ki, siz bunu da edəcəksiniz.

Mənə verilən məlumata görə, bu xəstəxana Azərbaycanda indiyə qədər olan tibb ocaqlarından çox fərqlidir. Yəni bu xəstəxananın dünya standartlarına uyğun olması təkcə ondan ibarət deyil ki, burada hər şey qabaqcıl ölkələrdəki xəstəxanalardakı kimidir. Yox. Mənə verilən məlumata görə, bu binanın bir qismi xəstəxana olacaq, amma böyük bir hissəsində isə diaqnostika işi aparılacaqdır. Başqa sözlə desək, ambulator xidməti göstərəcəkdir. Buradakı cihazlar vasitəsilə xəstələrə düzgün diaqnoz qoyulacaq, dərmanları təyin edildikdən sonra xəstə gedib evində müalicə olunacaqdır.

Mən sizə deyim ki, Azərbaycanda, həm də təkcə ölkəmizdə deyil, keçmiş Sovetlər Birliyi məkanında xəstəxanaların bir «xəstəliyi» də vardı. O da ondan ibarət idi ki, xəstəxanaya müraciət edənlər gəlirdilər, 5 gün həkim xəstənin o tərəf-bu tərəfinə keçirdi, guya onu müayinə edirdi. Ondan sonra xəstənin müalicəsi başlayırdı. Müalicə də bir ay çəkirdi. Daha bir ay da orada yatırdı. Bir də görürdün ki, xəstə iki aydır ki, yataqdadır.

Elə bu xəstəxanadan da vaxtilə bizim Azərbaycanın rəhbər işçiləri, vəzifəli şəxslər istifadə edirdilər. Eşidirdim ki, biri qayınanasını gətirib buraya qoyub. 4 ay burada yatır. Dövlətin hesabına yeyir-içir, çıxıb gəzir. Amma ona lazım olan müalicəni bir həftədə etmək mümkündür. Başa düşürsünüzmü? Burada olanların hamısı bunu yaxşı bilir. Xüsusən, bu xəstəxanadan istifadə edənlər bunu yaxşı bilirlər. İndi bunlar artıq qurtardı. Bu xəstəxanada müalicə müddəti çox qısa olmalıdır və bu tibb ocağının ən böyük vəzifəsi buraya müraciət edən vətəndaşların xəstəliyinin diaqnozunu düzgün təyin etmək, onlara müalicə üçün lazım olan dərmanlar və məsləhətlər verməkdir: əməliyyat keçirməkmi, xəstəxanada yatmaqmı, yaxud da ki, verilən həkim məsləhəti əsasında gedib

evdə müalicə olunmaqmı lazımdır. Görürsünüzmü, dedim ki, mən həkim deyiləm, amma bu sahəni bir az öyrənmişəm.

Mən buraya 30 milyon dollar pul vermişəm. Ona görə də maraqlanmışam, soruşmuşam ki, burada nə olacaqdır? Əgər 6 aydan sonra yenə də qayınanalarınızı gətirib buraya dolduracaqsınızsa, onda mən belə xəstəxanaya pul verə bilmərəm. Ona görə də burada diaqnostika mərkəzi, yəni xəstəxananın diaqnostika hissəsi, ambulatoriyası, bəlkə də xəstələr yatan hissəsindən daha əhəmiyyətli və vacibdir.

Beləliklə, biz gözəl bir tibb müəssisəsi yaratmışıq. Mən inanıram ki, bu xəstəxanadan səmərəli istifadə edəcəyik. Bu tibb ocağının yaranması və bugünkü toplantı, xüsusən Türkiyə Cümhuriyyətindən bizim hörmətli qonaqlarımızın burada iştirak etməsi bir daha onu göstərir ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı səmərəlidir, bu dostluq genişlənir, inkişaf edir və bu ağır dövrdə ölkəmizin iqtisadiyyatının, sosial həyatının, səhiyyəsinin və başqa sahələrin inkişafında Azərbaycana çox yardım edəcəkdir. Ona görə də mən bugünkü görüşümüzü Türkiyə–Azərbaycan dostluq və qardaşlıq görüşü kimi qiymətləndirirəm. Bir halda ki, Türkiyədən bizim çox hörmətli qonaqlarımız gəliblər – dövlət naziri, nazir və başqa həkimlər, professorlar buraya gəliblər, burada bir yerdəyik, deməli, biz öz dostluğumuzu, qardaşlığımızı bütün dünyaya bir daha nümayiş etdiririk. Nümayiş etdiririk ki, Türkiyə–Azərbaycan dostluğu və qardaşlığı gündən-günə inkişaf edir və inkişaf edəcəkdir. Mənim dəfələrlə dediyim kimi, Türkiyə–Azərbaycan dostluğu və qardaşlığı əbədidir, dönməzdir, sona qədərdir.

Mən burada, bu gözəl xəstəxananın yaranmasında çalışmış insanların hamısına, birincisi, Əhməd bəyə, onun mütəxəssislərinə, inşaatçıların hamısına təşəkkür edirəm. Türkiyənin Səhiyyə nazirinə, Dövlət nazirinə təşəkkür edirəm. Biz vaxtilə hörmətli Süleyman Dəmirəllə bu məsələ barədə qərar qəbul edəndən sonra bu işdə Azərbaycana Türkiyənin Baş nazirinin müavini Dövlət

Bağçalı da diqqət yetiribdir, o da çox maraq göstəribdir. Onların hamısına təşəkkür edirəm. Türkiyə Cümhuriyyətinə sülh, əmin-amanlıq və uğurlar arzulayıram.

Türkiyə Cümhuriyyətinin başçısı hörmətli Əhməd Necdət Sezər prezident seçiləndən sonra xarici ölkələrə ilk səfərini Azərbaycana etdi. Biz bunu çox yüksək qiymətləndiririk. Eyni zamanda bu bildirir ki, bir daha Türkiyə–Azərbaycan dostluğu bütün başqa ölkələrlə dostluqdan üstündür.

Mən Türkiyə Cümhuriyyətinin həm prezidenti ilə, həm hökumət başçıları ilə, hörmətli Baş nazir Büləvnd Ecevitlə və digər şəxslərlə daim təmasdayam. Biz bir-birimizlə əlaqə saxlayırıq. Bu yaxın zamanlarda bizdə zəlzələ olanda onlar tez maraq göstərdilər, bizə yardım etmək haqqında öz təkliflərini verdilər.

Bilirsiniz ki, vaxtilə Türkiyədə zəlzələ olanda Azərbaycan da öz yardımını göstərmişdir. Sonra mən xüsusi olaraq Türkiyəyə getdim, zəlzələdən zərər çəkmiş yerlərdə oldum, insanlarla görüşdüm. Yəni biz indi dövlət olaraq ayrıyıq, amma hər şeydə birik.

Mən bu hadisə münasibətilə sizi bir daha təbrik edirəm, can-sağlığı arzu edirəm. Türk xalqına hörmət və ehtiramımızı və qardaşlıq salamımızı yetirirəm. Türkiyədən gəlmiş bizim dost-larımıza, qardaşlarımıza bir daha təşəkkür edirəm. Sağ olun.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN DÖVLƏT NAZİRİ ƏBDÜLXALIQ ÇAY VƏ SƏHİYYƏ NAZİRİ OSMAN DURMUŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

22 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Mən sizin bu münasibətlə respublikamıza səfərə gəlməyinizi yüksək qiymətləndirirəm. Çünki ölkəmizdə belə bir klinik xəstəxananın yaranması bizim üçün çox əhəmiyyətlidir. Siz də – Dövlət naziri və Səhiyyə naziri buna xüsusi əhəmiyyət vermisiniz, zəhmət çəkib buraya gəlmisiniz. Bu, Türkiyə dövlətinin, hökumətinin Azərbaycana olan diqqətini və qayğısını bir daha nümayiş etdirir. Xəstəxana ilə tanış olanda da biz bütün sözləri dedik, amma mən oradan gələndən sonra belə bir təəssüratdayam ki, daha çox söz demək olardı. Mən istəmirəm ki, yeni xəstəxananı həddindən artıq tərifləyim. Amma tərifləməyə əsas var. Ona görə ki, xəstəxana həqiqətən ən yüksək dünya standartları səviyyəsindədir.

Mən bəzi səbəblərdən son iki il içərisində bir neçə xəstəxana gördüm. Doğrudur, bundan öncə mən ömrümdə bircə dəfə 1987-ci ildə Moskvada infarkt keçirmişdim, xəstəxanaya düşmüşdüm. O dövrdə orada da çox böyük, müasir xəstəxana var idi. Amma ondan sonra heç bir xəstəxanada müalicə olunmamışdım. Bilirsiniz ki, son vaxtlar mənim başıma bəzi hadisələr gəldi, bir sıra xəstəxanalarda müalicə aldım, ona görə də gördüklərimlə bunu müqayisə etməyə imkan var.

Birincisi, bir daha demək istəyirəm ki, bu klinik xəstəxanada inşaat işlərini çox keyfiyyətli aparıblar. Mənim inşaat barədə narahatlığım yox idi, ancaq avadanlıq sarıdan bir az narahat idim. Mənə dedilər ki, avadanlıq «Siemens» firmasına məxsusdur. Doğrudan da gördük ki, «Siemens» çox gözəl avadanlıq istehsal edib. Məsələ burasındadır ki, dünyada hər şey, o cümlədən tibbi texnika inkişaf edir. İki il bundan əvvəl alınan şey artıq bu gün köhnə hesab olunur. İki il sonrakı avadanlıq isə indikindən fərqli olacaqdır. Hesab edirəm ki, indiki avadanlığımız çox yaxşıdır və bu avadanlıq hələ çox illər bizə xidmət edəcəkdir.

Mən orada da dedim, bu avadanlığı bizim tibb heyətinin gücü ilə istənilən səviyyədə işlətmək çətindir. Ona görə də mən çox məmnun oldum ki, Türkiyəyə xüsusi həkim və şəfqət bacısı qrupları, tibb heyəti göndərilib. Məni çox maraqlandırırdı ki, onlar nə səviyyədə hazırlanıblar. Səhiyyə nazirləri Əli İnsanov və Osman bəy mənə həmişə deyirdilər ki, narahat olmayın, yaxşı hazırlayırıq. Amma doğrusu, bir az şübhəm var idi. Amma bu şübhə aradan qalxdı, hər şey çox gözəldir.

Təbiidir ki, sizin ölkənin həkimləri, cərrahları, tibb işçiləri gəlib burada işin təşkilinə yaxından kömək göstərməlidirlər. Eyni zamanda, buraya qəbul olunacaq işçilər təcrübə keçməlidir və bunu Türkiyədən gələn adamlar etməlidir. Beləliklə, bu klinik xəstəxana inşaatına, şəraitinə, avadanlığına görə yox, kompleks halda müasir xəstəxana olacaq və xalqımıza, millətimizə xidmət edəcəkdir.

Vaxtilə bu məsələ – klinik xəstəxananın yenidən qurulması məsələsi qaldırılanda hörmətli dostum Süleyman Dəmirəl bu barədə öz fikirlərini bildirdi. Mən özüm də bu barədə fikirləşirdim. Bilirsiniz, vəsait olmayan yerdə belə şeyləri həll etmək çətindir. Amma yaxşı ki, bu məsələni həll etdik.

Mən sizə bir daha təşəkkür edirəm. Çox sağ olun. Mən bütün bunlardan çox məmnunam. Eyni zamanda, məmnunam ki, siz

respublikamıza gəlmisiniz, görüşürük, söhbət edirik. Bu da lazımdır. Çünki səfərlər üçün bir səbəb, vasitə, hadisə lazımdır.

Bizim hidrometeoroloqların məlumatına görə, bu gün yağış yağacağı və havanın soyuq olacağı gözlənilirdi. Mən mühafizə xidmətinin işçilərinə deyirdim ki, əgər yağış yağsa, insanlar bundan əziyyət çəkməyəcək ki? Amma görünür, Allah bizim tərəfimizdədir. Bu gün səhər pəncərədən baxıb gördüm ki, günəşli, gözəl bir hava var. Bu da bizə yardımçı oldu.

Sizə bir daha təşəkkür edirəm.

Ə b d ü l x a l ı q Ç a y: Möhtərəm cümhur başqanı!

Xəstəxananın açılışı münasibətilə hörmətli nazirimiz Osman Durmuş bəylə biz yenidən bu gözəl dost, qardaş Azərbaycana gəldik. Bu xəstəxananın Azərbaycan vətəndaşlarına, Bakı əhalisinə yüksək səviyyədə tibbi xidmət göstərəcəyinə inanırıq. Səhiyyə nazirimiz azərbaycanlı həkimlərin ixtisasının artırılması sahəsində əlindən gələn hər şeyi edir. Biz TİKA, yəni Türk İş Birliyi və İnkişaf Agentliyi vasitəsilə bütün sahələrdə təhsil verməyə və texniki yardım göstərməyə çalışırıq. Bu il TİKA-nı mənim başçılıq etdiyim nazirliyin tabeliyinə keçirəcəyik və maliyyə baxımından daha da gücləndirəcəyik. 7 il ərzində müxtəlif Avrasiya ölkələrindən olan 29 min adama texniki sahələrdə təlim keçmişik. Ən axırda Azərbaycandan Mərkəzi Bankın bir qrup əməkdaşı və Səhiyyə Nazirliyinin göndərdiyi həkimlər bizdə xüsusi kurs keçdilər.

Hörmətli cümhur başqanım!

Biz İslam İnkişaf Bankı ilə müqavilə bağlamışıq. Bu müqaviləyə görə Afrikanın müsəlman ölkələri üçün TİKA-nın nəzdində bir təlim mərkəzi yaratmaq fikrindəyik. Beləliklə, Türkiyə həm Avrasiya, həm də Afrika ölkələrinə elm, texnika və mədəniyyət sahələrində yardım göstərəcəkdir.

Noyabr ayında möhtərəm prezidentimiz Əhməd Necdət Sezərlə birlikdə dörd Orta Asiya Respublikasında rəsmi

səfərdə olduq, bu ölkələrlə texniki yardım məsələlərini müzakirə etdik. Təbii ki, bu sırada Azərbaycanı və Gürcüstanı da nəzərdə tuturuq. Gələn ay mən Gürcüstana gedəcəyəm.

Bu ölkələrlə qarşılıqlı iqtisadi komissiyalar yaradılması məsələsi ortaya çıxıbdır. Biz inanırıq ki, ikitərəfli əlaqələri bu komissiyalar vasitəsilə daha da inkişaf etdirə bilərik. Buna görə də bu barədə zati-aliniz Türkiyə–Azərbaycan Qarşılıqlı İqtisadi Komissiyasının həmsədrinə müvafiq göstəriş versə, çox yaxşı olardı.

Möhtərəm cümhur başqanı!

Keçən ay biz İstanbulda bir konqres təşkil etdik, türkdilli dövlətlərlə olan 7–8 illik münasibətlərimizi nəzərdən keçirdik. Türkiyə tərəfi olaraq biz bu münasibətlərə öz gözümüzlə baxdıq. Harada xəta, harada yanlış olduğunu, bunları düzəltmə yollarını araşdırdıq. Bu çox böyük bir toplantı oldu. Onun nəticələrini də yaxın vaxtlarda Sizə təqdim edəcəyik.

Belə qərara gəldik ki, bu işi ayrı-ayrı türkdilli dövlətlərdəki iqtisadçılarla, mütəxəssislərlə, müvafiq qurumlarla birlikdə gözdən keçirməyə ehtiyac var. Beləliklə, qarşıdakı 10–15 illik perspektivdə türkdilli dövlətlər arasında həyata keçiriləcək layihələri müəyyənləşdirəcəyik. Zənnimcə, biz bu işi gələn ilin fevral–mart aylarında başa çatdıra biləcəyik. Bu arada Türkiyə–Azərbaycan Qarşılıqlı İqtisadi Komissiyasının iclaslarını keçirsək, daha çox fayda əldə etmiş olarıq.

Yəqin ki, Siz də təsdiq edərsiniz ki, 90-cı illərin siyasəti bir az tələskən şəkildə formalaşmışdır. O dövrdə tam mənası ilə şüurlu bir siyasət yürüdülməmişdir. Halbuki biz bunun çox yaxşı, düşünülmüş siyasətə çevrilməsini arzu edirik. Hazırda Gürcüstandan başlayaraq Qırğızıstana qədər olan coğrafiyada bəzi sıxıntılar mövcuddur. Biz bu çətinliklərin aradan qaldırılması üçün birlikdə düşünməli və müvafiq qərarlar qəbul etməliyik. Bu sahədə şəxsən Sizin dəstəyinizə böyük ehtiyac duyuruq. Siz kömək etsəniz, biz hər cür çətinliyin öhdəsindən

gələrik. Sizin də bizə bir əmriniz varsa, onu da yerinə yetirməyə hazırıq.

H e y d ə r Ə l i y e v: Gözəl fikirlərdir, gözəl təkliflərdir. Mən bunları tamamilə dəstəkləyirəm. Sizin dediyiniz bir sözlə də razıyam ki, TİKA-nın təlim mərkəzini qurmaq çox yaxşı olar. İndi siz bu işi daha da yaxşılaşdırmaq istəyirsiniz. Mən buna çox sevinirəm. Türkdilli dövlətlər həmişə TİKA-ya böyük ümidlər bəsləyiblər. Buna görə də həmin təşkilatın işini elə səviyyəyə çatdırmaq lazımdır ki, müstəqil türkdilli dövlətlər ona daha çox inansınlar, daha çox arxalansınlar. Sizin fikirləriniz çox gözəldir, mən bunları dəstəkləyirəm.

Ə b d ü l x a l ı q Ç a y: Möhtərəm cümhur başqanı! Biz TİKA vasitəsilə keçən il tədbirlərə başlamışıq. İkitərəfli görüşlərimiz olmadığı üçün Sizə bu barədə məlumat verə bilməmişik. Bunlar kiçik və orta miqyaslı sənaye müəssisələri şəbəkəsinin genişləndirilməsi, sənaye zonalarının qurulması, Azərbaycan iqtisadiyyatına investisiya qoymağa hazır olan türk iş adamlarının təsbit edilməsi, ortaq müəssisələr yaradılması və onların maliyyə problemlərinin həlli üçün «Xalq bankı» kimi bankların cəlb edilməsidir.

Məsələn, biz bunların bir qismini Türkmənistanda həyata keçirmişik. Orada xüsusi anket sorğusu vasitəsilə həllinə ehtiyac duyulan məsələləri müəyyənləşdirdik. Türkmənistan heyətini dəvət edərək Anteb, Kayseri, Sivas, Çorum, Əskişəhər, Dənizli, Bursa, İzmir kimi vilayətlərə apardıq və oralardakı təcrübəni onlara göstərdik. Türkmənistana investisiya qoymaq istəyən firmaları təsbit etdik. Bu ilin may ayında isə «Xalq bankı»nın köməyi ilə Aşqabadda son dərəcə faydalı bir toplantı keçirdik. İş adamları bir-birini tanıdı. Biz siyasətçilər onları bir araya gətirdik, sonra meydandan çəkildik. Qalan müzakirələri özləri apardılar. Zənnimcə, bu təcrübəni yaymaq lazımdır. Çünki kiçik və orta miqyaslı müəssisələr hər hansı bir ölkənin həyatında çox mühüm rol oynayırlar. Belə müəs-

sisələr olmasa, ölkənin bir sənayeləşməsini gerçəkləşdirmək mümkün deyildir.

Biz TİKA kanalı ilə bunu Azərbaycanda da həyata keçirmək istəyirik. Əgər biz Türkiyə–Azərbaycan Qarşılıqlı İqtisadi Komissiyasının həmsədri ilə birlikdə bu cür toplantı keçirsək, bunların hamısını gündəliyə çıxaracağıq. İnanıram ki, bundan hər iki ölkə ümumi mənfəət götürəcəkdir.

H e y d ə r Ə l i y e v: Mən sizinlə tamamilə şərikəm. Fikirlərinizi dəstəkləyirəm və biz bərabər işləyəcəyik.

Ə b d ü l x a l ı q Ç a y: Çox sağ olun.

O s m a n D u r m u ş: Möhtərəm cümhur başqanı!

Səhiyyə sahəsində Azərbaycan–Türkiyə əməkdaşlığı bundan sonra da davam edəcəkdir. Bizim mütəxəssislərimiz yeni açılan xəstəxanaya müəyyən fasilələrlə gəlib-gedəcək, azərbaycanlı həmkarlarına lazımi kömək göstərəcəklər. Mən bu məsələləri hörmətli həmkarım Əli İnsanovla müzakirə etmişəm. Burada olduqları müddət ərzində mən bizim həkimlərin maaşlarını saxlayacağam. Ancaq Bakıda uzun müddət qalmaları da mümkün deyildir. Əlbəttə, azərbaycanlı həkimlər öz işlərini müstəqil görənə qədər onlara kömək edəcəklər, sonra da ara-sıra gəlib-gedəcəklər. Amma bəzi sahələr, məsələn, ürək cərrahiyyəsi üzrə mütəxəssisləri uzun müddətə ezam etmək mümkündür. Bizim həkimlər burada işlədikləri müddət ərzində hörmətli nazir onlara kömək etməlidir.

İxtisasını artırmaq istəyənləri Türkiyəyə aparmağa hazırıq. Cənab nazir on nəfərlik daha bir qrup göndərmək istəyir. Mümkündür. Əgər təlimin müddətini qısa hesab edirlərsə, uzada bilərik. Onları ikinci müddət üçün də dəvət edə bilərik. Xülasə, biz onu istəyirik ki, bu xəstəxana kənara möhtac olmasın, əksinə, kənardan buraya müalicəyə gəlsinlər. Adamları müalicə eləsin, pul qazansın, özü-özünü maliyyələşdirsin, dövlətə yük olmasın.

İndi Türkiyədə də bir çox xəstəxanalar dövlətə möhtac olmadan işləyirlər. Əgər Bakıdakı xəstəxananı həmin səviyyəyə çatdırsaq, çox yaxşı olar. Biz Bakıda tibb ixtisası üzrə oxuyan tələbələrin gəlib Türkiyədəki xəstəxanalarda təcrübə keçməsini də təmin edə bilərik. Bir sözlə, nə lazımdırsa, eləməyə hazırıq.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Mən bunlarla razıyam. Hamısını dəstəkləyirəm.

Mən dostum Süleyman Dəmirəli də dəvət etmişdim. O da söz vermişdi ki, gələcəkdir. Amma iki gün bundan əvvəl telefon edərək, Türkiyədə bəzi məsələlər olduğunu bildirdi və dedi ki, indi gəlməyə imkanı yoxdur.

Ə b d ü l x a l ı q Ç a y: Əfəndim, hörmətli Süleyman Dəmirəl həm də Fələstində sülh danışıqları aparan heyətə daxildir. Oraya da gedib-gəlir, bəlkə ona görə...

Q ə d r i E c v e t T e z c a n *(Türkiyə Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri):* Möhtərəm cümhur başqanı!

İcazənizlə, mən bir şey demək istəyirəm. Siz çox gözəl bir şeyi təkrar söylədiniz, dediniz ki, Türkiyə prezidenti Əhməd Necdət Sezər birinci xarici səfərini Azərbaycana həsr etdi. İndi qarşıdan yeni millenium, yeni minillik gəlir. Xahiş edirik ki, bu milleniumda ilk xarici səfərinizi Türkiyəyə edəsiniz.

H e y d ə r Ə l i y e v: Mən Türkiyəyə o qədər gedib-gəlmişəm ki... Amma sizin yeni cümhur başqanı buraları heç görməmişdi.

Q ə d r i E c v e t T e z c a n: Sizin üçün darıxmışıq.

H e y d ə r Ə l i y e v: Çox sağ olun.

YAPONİYANIN İQTİSADİYYAT VƏ SƏNAYE NAZİRLİYİ NEFT VƏ QAZ DEPARTAMENTİNİN DİREKTORU TAKEO XİRATA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

23 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Yaponiya ilə Azərbaycan arasındakı əlaqələrdə sizin rolunuz həmişə çox böyük olubdur. Eyni zamanda sizinlə mənim aramda yaxşı şəxsi əlaqələr, qarşılıqlı rəğbət yaranıbdır. Ona görə də mən sizin Azərbaycana gəlməyinizdən çox məmnunam.

İki gün bundan öncə biz sizin ölkənizdən aldığımız kreditlə «Şimal» Dövlət Rayon Elektrik Stansiyasında yeni enerji blokunun tikintisinə başladıq, onun təməlini qoyduq. Mən o kreditin alınması prosesində də sizin xidmətlərinizi unutmamışam, bunu qiymətləndirdiyimi bildirmək istəyirəm. Çox yaxşı edib Azərbaycana gəlmisiniz.

T a k e o X i r a t a: Cənab Prezident, çox sağ olun. Mənim haqqımda söylədiyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Bu məni xeyli mütəəssir etdi.

Azərbaycan ilə Yaponiya strateji tərəfdaşlardır. Amma zati-alinizin 1998-ci ilin fevral ayında Yaponiyaya etdiyi tarixi səfər ölkələrimiz arasında hərtərəfli əlaqələrin genişlənməsində olduqca mühüm rol oynadı, dönüş nöqtəsi oldu. İndi Yaponiyada insanlar Azərbaycanla əlaqələrin daha sürətlə inkişaf etməsini gözləyirlər. Biz zati-alinizin yeni layihəsinin həyata keçirilməsinə başlanması–«Şimal» Dövlət Rayon Elektrik Stansiyasında

yeni enerji blokunun təməlinin qoyulması mərasimində şəxsən iştirakından da xəbər tutduq və hamımız bunu çox yüksək qiymətləndirdik.

1998-ci ildə Siz Yaponiyanı ziyarət edərkən bizim imperatorumuz da Sizinlə görüşündən çox məmnun olmuşdu və şərəfinizə ziyafət də vermişdi.

Zati-alinizin Yaponiyaya tarixi səfərinin nəticəsi olaraq, indi adambaşına götürdükdə, Yaponiyanın rəsmi yardım proqramı çərçivəsində yardım alan dünya ölkələri arasında Azərbaycan birinci yerdədir.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm, mən bunu heç bilmirdim.

T a k e o X i r a t a: Bir daha bildirirəm ki, bu məhz zati-alinizin Yaponiyaya tarixi səfərinin nəticəsində olmuşdur.

H e y d ə r Ə l i y e v: Çox sağ olun.

T a k e o X i r a t a: Mən Azərbaycandakı son zəlzələ hadisəsi ilə əlaqədar Yaponiyanın xüsusilə gəncləri adından Sizə başsağlığı vermək, bu hadisədən məyus olduğumuzu bildirmək istəyirəm.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm.

T a k e o X i r a t a: Zati-aliləri, mənim şəxsiyyətimə göstərdiyiniz hörmətə, mənimlə əlaqələrinizi belə yüksək qiymətləndirdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirir və Sizi əmin edirəm ki, ölkələrimiz arasında əməkdaşlığın genişlənməsi və Azərbaycana yardımların təşkili sahəsində yeni layihələr hazırlanması üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm.

H e y d ə r Ə l i y e v: Çox sağ olun. Bir daha qeyd edirəm, mən Yaponiya–Azərbaycan əlaqələrinin inkişafında şəxsən sizin rolunuzu çox yüksək qiymətləndirirəm. Məni sevindirən bir də odur ki, sizdə Azərbaycana bir xüsusi hissiyyatlar, sevgi, məhəbbət əmələ gəlibdir. Siz Yaponiya–Azərbaycan əlaqələrinin yaranmasında, bu yolun açılmasında xüsusi rol

oynamış bir insansınız. Mənim yadımdadır, siz danışırdınız ki, qış Olimpiya oyunlarında Azərbaycanın bayrağını sizin evdə görəndə hamı sevinirdi. Mən bunları heç vaxt unutmuram. Bunlar çox dəyərli hissiyyatlardır.

Azərbaycanda biz də belə hesab edirik ki, 1998-ci ilin fevralında mənim Yaponiyaya rəsmi səfərim ölkəmiz üçün, belə başa düşürəm ki, elə sizin ölkəniz üçün də çox əhəmiyyətli olubdur. Əlahəzrət imperatorla görüşümü, mənim şərəfimə onun verdiyi ziyafəti də çox məmnuniyyətlə xatırlayıram. Dünən onun doğum günü, sizin ölkənizin milli bayramı idi. Mən bu münasibətlə təbrik məktubu göndərmişəm.

Yaponiya hökuməti o vaxt söz vermişdi ki, 1999-cu ildə ölkənizin Azərbaycanda səfirliyi açılacaqdır. Səfirlik də açılıbdır, özü də buraya yaxşı bir səfir təyin edilibdir. O, azərbaycanca danışır və bununla ölkəmizə olan diqqətini nümayiş etdirir.

İndiyədək bizim əməkdaşlığımız çox uğurlu olmuşdur. Bir tərəfdən, Yaponiyanın neft şirkətlərinin Azərbaycanda, Xəzər dənizində gördükləri uğurlu işlər, digər başqa şirkətlərin də burada apardıqları işlər çox əhəmiyyətlidir. Bununla yanaşı, təbiidir ki, bizi çox sevindirən odur ki, Yaponiya bizə həm güzəştli kreditlər veribdir – biz artıq onlardan istifadə etməyə başlamışıq – həm də Yaponiya qrantlar verir. Bunun hesabına səhiyyədə, elmdə, bəzi başqa yerlərdə müəyyən işlər görülübdür. Sizin ölkədən gətirilmiş traktorlar kənd təsərrüfatında bizə kömək edir. Mən hesab edirəm ki, bütün bunlar əməkdaşlığımızın birinci mərhələsidir. Bundan sonra bizim əməkdaşlığımız geniş olmalıdır. Biz bunu istəyirik. Güman edirəm ki, belə istək Yaponiyada da vardır. Adambaşına düşən yardımın məbləğinə görə Yaponiyanın yardım etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədirsə, deməli, bu, ölkənizin respublikamıza nə qədər böyük fikir verdiyini göstərir.

Ölkələrimizi bir-birinə bağlayan proqramlardan biri də böyük tarixi İpək yolunun bərpası məsələsidir. Xatirinizdədir, o vaxt Tokioda olanda mən bu məsələni sizin hökumətlə və şəxsən o zaman Baş nazir işləyən cənab Haşimoto ilə də müzakirə etmişdim.

Biz bu işi davam etdiririk. 1998-ci ildə Azərbaycanda keçirilən beynəlxalq konfransda Yaponiyanın nümayəndə heyətinin iştirak etməsini də mən qiymətləndirirəm.

Böyük İpək yolunun bərpası gələcəkdə bəşəriyyət üçün çox əhəmiyyətli olacaqdır. Biz indi bunun əsasını qoyuruq. Amma vaxt, zaman lazımdır ki, insanlar bunun yaxşı nəticələrini də görsünlər. Güman edirəm ki, əgər mən də görməsəm, siz onları görəcəksiniz. Ona görə də mən Yaponiya–Azərbaycan əlaqələrinin bizim üçün çox əhəmiyyətli olduğunu bir daha bildirmək istəyirəm.

Oğlunuz necədir?

T a k e o X i r a t a: Cənab Prezident, çox sağ olun. İndi o, orta məktəbdə oxuyur, yeniyetmələr qrupunda artıq birinci sinfə gedir. Coğrafiya elminə xüsusi maraq göstərir. Coğrafiya dərsliyində Azərbaycan, Bakı barədə məlumatlarda ölkənizin rəsmi dövlət atributlarını, bayrağını tapıbdır. O, Azərbaycanla tanışlığı, ölkəniz barədə məlumatı olmasından xüsusi qürur duyur. Məktəbdə dostlarına Azərbaycanın bayrağını göstərir. Öz sinif yoldaşlarına da «Azərbaycan» sözünü düzgün tələffüz etməyi öyrədir.

H e y d ə r Ə l i y e v: Öyrətsin, bu da çox əhəmiyyətlidir. Mən onu xatırlayıram. Söz vermişdiniz ki, onu Azərbaycana gətirəcəksiniz, amma hələ yerinə yetirməmisiniz. Onda Azərbaycana olan bu sevgi-məhəbbət hissi, təbiidir ki, atasından keçibdir. Mən də sənin oğlunu çox sevirəm. Ona görə də onu Azərbaycana xüsusi olaraq qonaq dəvət edirəm. Bir də Azərbaycana gələndə onu mütləq özünlə gətir.

T a k e o X i r a t a: Cənab Prezident, çox sağ olun, Siz bizə böyük şərəf verirsiniz.

İcazə versəydiniz, gələcək əlaqələrimiz və hansı layihələrin daha sürətlə həyata keçirilməsi baxımından düşüncələrimi Sizinlə təklikdə bölüşərdim.

H e y d ə r Ə l i y e v: Yaxşı.

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATLARI İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

Prezident sarayı

27 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Mən bu bayram günü sizi narahat etmək istəmirdim. Amma mənə məlumat verildi ki, bu bayramı keçirən müsəlman ölkələrinin səfirləri mənimlə görüşmək, məni təbrik etmək istəyirlər. Mən buna çox şad oldum. Çünki bu bayramla əlaqədar sizinlə birinci dəfə görüşürük. Azərbaycanda böyük islam dininə etiqad göstərən xalqların, ölkələrin səfirləri vardır. Azərbaycan da uzun illərin dini məhrumiyyətindən qurtarıbdır. Xalqımız indi sərbəstdir, azaddır və dini bayramları da keçirir. Mən şübhə etmirəm ki, sizin hər biriniz, yəni səfirlər Ramazan ayında oruc tutublar, ac qalıblar, dini adətlərə riayət ediblər və bu gün bayram edirlər.

Mən sizin ölkələrin, dövlətlərin başçılarına Ramazan bayramı münasibətilə təbriklərimi göndərmişəm, amma bu fürsətdən istifadə edərək, sizin hər birinizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Eyni zamanda ölkələrinizi, xalqlarınızı bu bayram

* Görüşdə Türkiyə səfiri Qədri Ecvet Tezcan, İran səfiri Əhəd Qəzai, Pakistan səfiri xanım Əsma Anican, Misir səfiri xanım Cahan Əmin Məhəmməd Əli, İraq səfiri Qalib əbdü Hüseyn ət-Təmimi, Özbəkistan səfiri Əbdülqafur Əbdülrəhmanov, Türkmənistan səfiri Murad Çarıyev, Liviya səfiri Nasir Məhəmməd Əbdüssəmin, Qazaxıstanın müvəqqəti işlər vəkili Oyrat Bayrari, Səudiyyə Ərəbistanının müvəqqəti işlər vəkili Züheyr əl-Süleyhi iştirak etmişlər.

münasibətilə ürəkdən təbrik edirəm.

Mənə verilən məlumatlara görə, indi Azərbaycanda Ramazan ayının adətlərinə riayət edənlər, yəni oruc tutanlar bəlkə də bir çox ölkələrdə olduğundan çoxdur. Bu da müsbət haldır. Demək, Azərbaycanda biz tarixi, mənəvi, dini ənənələrimizi bərpa edirik.

Burada səfirlər var ki, onların ölkələrində kommunist ideologiyası olmayıbdır. Amma elə səfirlər də vardır ki, onlar bizimlə birlikdə Sovetlər İttifaqının tərkibində yaşayıblar. O illər bu ölkələrdə dinin əleyhinə təbliğat gedirdi O vaxt belə bir söz vardı ki, din xalq üçün tiryəkdir. Bu, Marksın sözləridir. Ona görə də 70 il təbliğ ediblər ki, əgər dinlə məşğul olsanız, demək, tiryək çəkəcəksiniz. Yəqin bunu o mənada deyiblər ki, insanları qorxutsunlar. Necə ki, insanlar narkotik maddələrdən, tiryəkdən bihuş olur, sonra xəstələnir, dindən də belə xəstələnə bilər. Ancaq din insanların əksəriyyətinin qəlbində yaşayıbdır. Əlbəttə ki, Azərbaycanda gənc nəslin çox hissəsi dindən uzaq olubdur, amma dinə etiqad nəsildən-nəslə keçibdir.

İndi isə biz müstəqil dövlət olandan sonra dini adət və ənənələrimizin hamısı bərpa olunur. O cümlədən Ramazan bayramımız da bərpa olunmuşdur. Biz də Azərbaycanda həm Ramazan ayını keçiririk, həm də bu gün bayram edirik. Doğrudur, biz bir gün bayram edirik, amma bəzi ölkələrdə 3–4 gün bayram edirlər. Mən çox məmnunam ki, sizinlə görüşürəm və bayramı qeyd edirik.

Mən Ramazan ayının müsəlmanlar üçün nə qədər əhəmiyyətli olması barədə danışmaq istəmirəm. Bunu siz məndən yaxşı bilirsiniz. Bir də qeyd etmək istəyirəm ki, Azərbaycanda bu bayram öz yerini tutubdur. Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Mənim sizə deyəcəklərim budur.

Q ə d r i E c v e t T e z c a n (*Türkiyənin Azərbaycandakı səfiri*): Cənab Prezident, mən bizim dinimizin ən qiymətli bayramı olan Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin – Liviya, Özbəkistan, Pakistan, Misir, Səudiyyə Ərəbistanı, İran, İraq, Türkmənistan, Qazaxıstan və Türkiyənin səfirləri adından Sizi təbrik edir və bizi qəbul etdiyinizə görə öz minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, bu bayram başqa əlamətdar günə təsadüf etmişdir. Dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Eyni zamanda qarşıdan Yeni il gəlir. İcazə versəydiniz, mən bütün bunlarla bağlı Sizi və bizim üçün çox dəyərli olan Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Siz çox dərin və mənalı fikirlər söylədiniz. Həqiqətən, bizim dinimizdə Ramazan ayının, bu bayramın xüsusi yeri vardır. Əgər kimin imkanı varsa, səhhəti buna yol verirsə, Ramazan ayında oruc tutmaq insana iki mənada çox böyük fayda verir. Bunun birincisi, insanın dünyada ən çətin olan hallardan biri ilə, öz nəfsi ilə mübarizə aparmasıdır. İkincisi isə, dünyada kasıb insanların nə vəziyyətdə olduqlarını başa düşməkdir.

Amma bizim dinimiz, sadəcə, mərasimlərdən ibarət deyildir. Bizim dinimiz ürəkdədir. Düşünürəm ki, təkcə bizim dinimizdə Allahla bəndə arasında heç bir elçiyə ehtiyac yoxdur. Dinimiz insanlara o qədər sevgi, məhəbbət, hörmət bəsləyən bir dindir ki, bütün ömrümüzü etiqad etmədən keçirsək belə, son nəfəsimizdə kəlmeyi-şəhadətimizi deməklə, bütün digər müsəlmanların sahib olduqları savablardan yararlanmaq imkanı əldə etmiş oluruq. Cənab Prezident, bir olan Allah dünyada bütün insanların birliyini, onların yaşaması üçün bütün nemətləri istər.

İslam dininin gözəl bir tərəfi də budur ki, həmişə insan sevgisindən, rifahından, dinlərin dözümlülüyündən – tolerantlığından danışır. Biz hamımız bilirik və Siz də öz nitqlərinizdə

dəfələrlə demisiniz ki, Azərbaycan gənc dövlətdir. Amma Azərbaycan xalqında, azərbaycanlılarda qədim olan bir xüsusiyyət vardır. Bu da insanların bütün dinlərə dözümlülüyü, tolerantlığı, insanlara xoş arzularıdır.

Bu gün hamımız bilirik ki, Azərbaycanda yaşayanlar təkcə müsəlmanlar deyildir. Burada yəhudilər də, xristianlar da yaşamaqdadırlar. Amma onların hamısı eyni şəraitdə, bir-birinə hörmət etməklə, Sizin başçılıq etdiyiniz məmləkətdə əmin-amanlıq və sakitlik içərisində yaşamaqdadırlar.

Cənab Prezident, Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, digər müsəlman ölkələri də dünyəvi dövlətlərdir. Yəni bizdə din və siyasət bir-birindən ayrıdır. Amma insanlar dinsiz yaşaya bilməzlər. Din insanları birləşdirən, böyüyün kiçiyə, kiçiyin böyüyə hörmətlə, ehtiramla yanaşmasını öyrədən ən önəmli amildir.

Cənab Prezident, Siz qeyd etdiniz ki, sovetlər dövründə din tiryək hesab edilmiş, belə təbliğ olunmuşdur. Əgər dinin insanlara nə səbəbə göndərildiyini daxilən, həqiqi mənada başa düşməsək, ondan kənara çıxmağa, yəni fanatikliyə, radikallığa yol versək, cəhd etsək, bu, doğrudan da insanları yolundan azdırar, mədəniyyətdən, tərəqqidən, xoşbəxtliklərdən – bütün nemətlərdən təcrid edər. Bu mənada dindən danışmaq istəyən bəlkə də ilahiyyatçı olmalıdır. Hər kəsin bu barədə danışması ilə din düzgün yolla gedə bilməz. Heç bir din insanlara əzab vermək üçün yaradılmamışdır. Bu dinlərin də ən gözəli mənim, Sizin və burada əyləşən insanların dinidir. Burada 8 milyon azərbaycanlı, dünyada isə bir milyard müsəlman bu dinə etiqad edir.

Cənab Prezident, mən dünyanın çox yerində olmuşam. Amma Sizin qədər gözəl nitqə malik bir prezidentin yanında danışmaq mənim üçün çətindir.

Cənab Prezident, sözümün sonunda arzum budur ki, ev-eşiklərindən didərgin düşmüş Azərbaycan vətəndaşları gələcəkdə

bu bayramı öz doğma yurdlarında, ev-obasında keçirsinlər. Allah onlara bu günü nəsib etsin.

Cənab Prezident, qarşıdakı minillikdə insanlara uğurlar, sülh, rifah, əmin-amanlıq şəraitində yaşamağı arzulayıram. Bizi qəbul etdiyinizə görə zati-alinizə bir daha təşəkkür edir, Azərbaycan xalqına layiq olduğu xoş günlər, rifah və əmin-amanlıq diləyirəm. Sağ olun.

H e y d ə r Ə l i y e v: Hörmətli səfir, təşəkkür edirəm. Siz bu bayramın fəlsəfəsini çox dərindən izah etdiniz. İslam dininin dəyərləri haqqında mühüm fikirlər söylədiniz. Mən bunların hamısı ilə tam razıyam. Güman edirəm ki, hamımız razıyıq. Azərbaycan xalqına arzularınıza görə sizə təşəkkür edirəm. Sağ olun.

Ə h ə d Q ə z a i (*İran İslam Respublikasının səfiri*): Cənab Prezident, mən də Azərbaycan xalqının Ramazan bayramını təbrik edirəm. Bizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Səfir həmkarlarıma da bu görüşə göstərdikləri marağa görə öz razılığımı bildirirəm. Bu gün islam ölkələrinin səfirlərini qəbul etməyinizi bu ölkələrə, onlarla əməkdaşlığa göstərdiyiniz diqqət və qayğı kimi dəyərləndiririk. Dünya Azərbaycana müsəlman ölkəsi kimi baxır və dəstəkləyir. İslam Konfransı Təşkilatı iclaslarının qərarları göstərdi ki, bu təşkilata üzv olan ölkələr Azərbaycanla bir yerdədirlər. Qətərdə keçirilmiş sonuncu iclasın qəbul etdiyi qərarın üç bəndi Azərbaycan haqqında idi. Bu bəndlərin birincisində konfrans Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəklədi və ona tərəfdar olduğunu bildirdi. İkinci bənd Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad olunması, üçüncüsü isə, Dağlıq Qarabağda və işğal edilmiş digər ərazilərdə tarixi və mədəni abidələrin qorunması barədə idi. Hər halda, Azərbaycanın müstəqil ölkə kimi islam aləminə daxil olmasının əhəmiyyəti böyükdür.

Dünən Ramazan bayramı münasibətilə müsəlmanlara, Azərbaycan xalqına Sizin çox ətraflı, dərin mənalı müraciətiniz oldu. Bu müraciətdə əsas müddəalar odur ki, Azərbaycan xalqında vətənpərvərlik, vətənə sədaqət hissləri yüksəlsin, islam dininə etiqad artsın, dini dəyərlər qorunsun, müstəqillik əbədi olsun. Bunların hamısı islam əqidəsinə uyğundur. İslam bu dəyərlərə, belə nəsihət və təlim-tərbiyəyə istinad edir, əsaslanır. Siz də öz müraciətinizdə bunları vurğuladınız, Azərbaycan xalqından bunu tələb etdiniz.

Türkiyə səfiri də burada islam dəyərləri barədə geniş və mənalı söhbət etdi.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə yenə də Sizə təşəkkür edirəm. Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq, asayiş və səadət, işğal olunmuş ərazilərin azad edilməsini, qaçqın və köçkünlərin doğma yurdlarına qayıtmasını, bu bayramı gələcəkdə öz ev-eşiklərində keçirmələrini arzulayıram.

H e y d ə r Ə l i y e v: Hörmətli səfir, təbriklərinizə, dostluq münasibətinizə və xoş sözlərinizə görə sizə təşəkkür edirəm. Eyni zamanda İslam Konfransı Təşkilatının bir müddət bundan öncə Tehranda keçirdiyi konfransda, yenə də bu yaxınlarda Qətərdə keçirdiyi konfransda Azərbaycanı dəstəkləməsi haqqında dediyiniz fikirlər tamamilə doğrudur və bizim üçün böyük mənəvi dayaqdır.

Sizə onu çatdırmaq istəyirəm ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz bütün günü mənim gözümün qarşısındadır. Çünki Ermənistan Azərbaycana hərbi təcavüz edib, respublikamızın torpaqlarının 20 faizini işğal edibdir. Bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Ancaq biz bir çox beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT-də toplaşarkən belə qərarların çıxarılmasına nail ola bilmirik. Doğrudur, 1992–1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz, təcili

bu torpaqlardan çıxarılması haqqında qətnamələr qəbul edibdir. Ancaq təəssüflər olsun ki, bu qətnamələr indiyə qədər yerinə yetirilməyibdir, Ermənistan bunlara məhəl qoymur və Birləşmiş Millətlər Təşkilatı da həmin qərarların həyata keçirilməsində acizlik göstərir.

Bütün müsəlman dövlətlərinin daxil olduğu İslam Konfransı Təşkilatı mənim iştirak etdiyim toplantılarda – həm Mərakeşdə, həm də İranda, habelə Qətərdə daim bizi dəstəkləmiş, Azərbaycanın vəziyyəti ilə əlaqədar ardıcıl mövqe tutmuş və yekdillik göstərmiş, Ermənistanın təcavüzkar olması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi barədə qərarlar çıxarmışdır.

İslam ölkələrinin birliyini nümayiş etdirən bir mühüm faktı da qeyd etmək istəyirəm. Birləşmiş Millətlər Təşkilatının son sessiyasında Birləşmiş Millətlər Təşkilatı ilə ATƏT arasında əməkdaşlıq barədə qətnamənin layihəsində Dağlıq Qarabağın Azərbaycana məxsus olması barəsindəki sözlər yox idi.

Biz bundan çox narahat olduq. Ona görə də bizim həm ABŞ-dakı səfirimiz, həm də BMT-dəki nümayəndəmiz mənim göstərişimlə bu işlərlə ciddi məşğul oldular. Məlumat verdilər ki, ATƏT-in Minsk qrupunun həmsədrləri guya Ermənistan–Azərbaycan prezidentlərinin bilavasitə görüşlər keçirdiyi zaman bu cümlənin oraya salınmasını münasib bilməyiblər. Mən buna etiraz etdim. Minsk qrupunun həmsədrləri bu otaqda mənimlə görüşə gəlmişdilər, mən onlara etirazımı çox ciddi şəkildə bildirdim. Onlar öz mövqelərini dəyişdilər və həmin sənəddə Dağlıq Qarabağın Azərbaycana məxsus olması barədə fikir əvvəlki illərdə olduğu kimi saxlandı. Onlar bu sənədin qəbul olunmasına səs verdilər. Ancaq bu düzəlişin qəbul olunmasının həllini müsəlman dövlətlərinin nümayəndələrinin hamısının verdiyi səslə hesablayırlar. Eyni zamanda qeyd etməliyəm ki, az da olsa, bir neçə islam dövləti, keçən ildən fərqli olaraq, nədənsə bu düzəlişə Azərbaycanın xeyrinə səs verməkdən

imtina etmişlər. Halbuki keçən illərdə onlar bizim xeyrimizə səs vermişdilər. Təbiidir ki, biz bunu araşdıracağıq, səbəblərini öyrənəcəyik.

Yenə də deyirəm, müsəlman dövlətlərinin əksəriyyəti həmrəylik, birlik göstərmiş, Azərbaycanın bu problemi haqqındakı vacib fikirlərin sənəddə bərpa olunmasını özlərinin birliyi ilə təmin etmişlər.

Bütün bunları xatırlayaraq, bir daha onu demək istəyirəm ki, bizim islam dininə müxsus olan xalqlarımız, dövlətlərimiz bir çox hallarda birlik, həmrəylik nümayiş etdirirlər və bu da hər bir islam ölkəsinin sabit nailiyyətlərə çatmasına kömək edir.

Mən arzu edərdim ki, bu birlik, həmrəylik daimi, əbədi olsun. Bu da islam dövlətlərinin, xalqlarının gələcək inkişafı üçün əsas şərtlərdən biridir.

Mən bu fürsətdən istifadə edib sizin hamınızı qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm. Dekabr ayının 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günüdür. Bu bizim üçün çox əziz gündür. Siz də bizim dostlarımızsınız. Yəqin bu günü də unutmayacaqsınız. Bizim hər birimiz, yəni hər bir müsəlman dövləti, xalqı XXI əsrə, üçüncü minilliyə müstəqil, azad bir dövlət kimi, xalq kimi daxil oluruq. Arzu edirəm ki, müstəqilliyimiz, milli azadlığımız daimi və əbədi olsun.

Hər birinizə və sizin şəxsinizdə ölkələrinizin vətəndaşlarına, dövlətlərinizə Yeni il salamlarımı çatdırıram. Yeni ildə hər birinizə cansağlığı, səadət və xalqlarınıza, ölkələrinizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Sağ olun.

YENİ 2001-ci il, YENİ ƏSR VƏ ÜÇÜNCÜ MİNİLLİK MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Hörmətli həmvətənlər!
Əziz bacı və qardaşlar!
Azərbaycan Respublikasının vətəndaşları!

Yeni ilin, yeni əsrin, yeni minilliyin ərəfəsində sizi – bütün Azərbaycan xalqını, müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşını, ölkəmizin hüdudlarından uzaqda yaşayan soydaşlarımızı bu əlamətdar hadisə münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoş əhval-ruhiyyə və səadət arzulayıram.

Dünyanın hər yerində yeni minilliyin və yeni əsrin başlanmasına həsr olunmuş çoxsaylı konfrans, forum və müxtəlif simpoziumlar keçirilməkdədir. Dünya ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin dövlət və özəl qurumlarını təmsil edən şəxslər və tanınmış siyasi xadimlər keçmişə nəzər salsaq, yeni minilliyin astanasında bəşəriyyətin qarşılaşa biləcəyi problemlər üzərində düşünür və gələn yüzillikdə öz ölkələrini və ümumən dünyanı necə gördükləri barədə fikirlərini bildirirlər.

Bu günlərdə imzaladığım xüsusi sərəncamla yeni ilin, yeni əsrin, yeni minilliyin qarşılanması ilə bağlı Azərbaycanda keçiriləcək tədbirlərin planını təsdiq etdim. XXI əsrin, yeni minilliyin başlanğıcında ölkəmizin qarşısında duran siyasi və sosial-iqtisadi problemlər, sözsüz ki, bu tədbirlər çərçivəsində geniş müzakirə olunacaqdır.

Bütün bəşəriyyətlə birgə Azərbaycan xalqı da XXI əsrə, üçüncü minilliyə böyük nikbinliklə qədəm qoyur. Əsr başa çatır, onunla birlikdə tarixin ikiminillik dövrünə yekun

vurulur. Əsrlərin və minilliklərin qovuşduğu bu gün tarixin xüsusi bir anıdır. Hər bir bəşər övladı kimi, Azərbaycan vətəndaşı da, sözsüz ki, belə tarixi hadisənin məhz onun taleyinə, onun həyatına təsadüf etməsindən böyük şərəf və qürur hissi duyur. İki əsrin şahidi olmaq səadəti hər insana nəsib olmur. Bu bizim payımıza düşübdür. Azərbaycanda bu gün XIX əsrdə anadan olmuş xeyli insan da yaşayır. Deməli, onlar bu tarixi anda üç əsrin şahidlərinə çevriliblər. Bizim gənc nəslin nümayəndələri , əlbəttə ki, xüsusi hisslər keçirirlər və XXI əsrdə Azərbaycanın laiqli vətəndaşları olaraq bu tarixi günləri dönə-dönə xatırlayacaqlar. Orta nəslin nümayəndələri isə yeni əsrə, yeni minilliyə XX əsrin bir çox hadisələrinin bilavasitə iştirakçısı və şahidi olaraq qədəm qoyurlar. Beləliklə, zamanın və tarixin bu nadir anları, əslində bütün nəsilləri tarixə qovuşdurur.

Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır. Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsrin elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılaşmışdırsa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümümbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin

səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür.

Bir tərəfdən, Azərbaycan da qloballaşmanın inkişafına öz töhfəsini verir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa–Qafqaz–Asiya dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa musbət təsir göstərəcəkdir. Digər tərəfdən isə, Azərbaycan hələ də müasir texnologiyaların mənimsənilməsi və geniş istifadə olunması yolunda bir çox çətinliklərlə qarşılaşır. Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək.

Azərbaycan Respublikası artıq Dünya Birliyinin ayrılmaz tərkib hissəsidir. İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, BeynəlxalqValyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti,

NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əmakdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir. Azərbaycan öz milli neft strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir.

Bu gün biz müstəqilliyimizin əldə olunması, qorunub saxlanması yolunda böyük xidmətləri olan şəxsiyyətlərin, istiqlalımız naminə şəhid olan Azərbaycan övladlarının əziz xatirəsini dərin ehtiram hissi ilə yad edirik. Bu əziz gündə Azərbaycan Xalq Cümhuriyyəti banilərinin ruhu qarşısında, bolşevik terrorunun, repressiyaların, kütləvi deportasiyaların soyqırımların, Qanlı Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün vətəndaşlarımızın xatirəsi qarşısında baş əyib Allahdan onlara rəhmət diləyirik.

Başa çatmaqda olan XX əsr Azərbaycan xalqının taleyində mühüm rol oynamış bir dövr olmuşdur. Bəzi siyasətçilər XX əsri neft əsri adlandırırlar. Həqiqətən də, neftin bu əsrdə dünya siyasətində və iqtisadiyyatında oynadığı müstəsna rol danılmazdır. Azərbaycanın dünyada məhz neft mərkəzlərindən birinə çevrilməsi bizə bir çox xalqların neçə-neçə əsr ərzində çatdığı zirvələri qısa müddətdə fəth etmək imkanı verdi. Bəşəriyyətin həyatında misilsiz rol oynayan neft Odlar

Yurdu Azərbaycanın hələ qədim dövrlərdən ən mühüm sərvətlərindən biri olmuşdur. Neftdən geniş istifadə olunması dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək, insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur. Tarixə «kerosin dövrü» kimi daxil olmuş XIX əsrin sonu – XX əsrin əvvəllərində neftdən alınan bu məhsul işıq mənbəyi idi. Sonralar qaz və elektrik vasitəsilə işıqlandırma üsulları meydana çıxsa da, kerosin uzun illər başlıca işıqlandırma məhsulu olaraq qalmışdır. Daxiliyanma mühərrikinin kəşfi neftdən istifadə olunmasında yeni dövr açdı. XX əsrin əvvəllərindən etibarən başlanan «mazut və benzin dövrü» neftdən gəmi, parovoz və avtomobil kimi nəqliyyat vasitələri üçün istifadə olunması ilə onun əhəmiyyətini xususilə artırdı. Birinci dünya müharibəsi illərində isə neft artıq strateji əhəmiyyətli məhsula çevrildi.

XX əsr bəşər tarixində nə qədər mühüm hadisələrlə zəngin olsa da qətiyyətlə demək olar ki, bu əsri səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misli görünməmiş böyük vüsət alması olmuşdur. XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur. Enerji mənbəyi, yanacaq məhsulu kimi, nefti əvəz edə biləcək müxtəlif maddələr və üsullar tapmaq yolunda aparılan axtarışlarda bir çox uğurlar qazanılsa da, təbiətin bəşəriyyətə bəxş etdiyi bu olduqca əlverişli xammalın tam ekvivalenti hələ ki, tapılmamışdır.

Neftin elmi-texniki tərəqqidə, dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol XX əsrdə onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin təsiri amillərindən birinə, mühüm coğrafi-siyasi və coğrafi-strateji amilə çevirdi. Neft mənbələri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərdi. Tarixin

belə bir təəssüf doğuran gerçəkliyi də var ki, bəzi neftçıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər ərzində məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələrin xalqları öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar.

Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst surətdə müəyyən edir.

XX əsrdə Azərbaycanın neft hasilatı, o cümlədən Xəzər dənizində neftçıxarma sahəsindəki uğurları yüksək qiymətə layiqdir. Dünyada neft hasilatı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycandan götürmüşdür. Neçə-neçə qazma üsulları, neft texnologiyaları, dənizdə neft çıxarılması üçün yaradılmış nadir Neft Daşları şəhəri Azərbaycan mütəxəssislərini bu sahədə dünyada aparıcı mövqelərə çıxartdı. Keçmiş SSRİ-nin yeni yaranan neft rayonlarının «İkinci Bakı», «Üçüncü Bakı» adlandırılması buna əyani sübutdur. Ölkəmizdə neftçıxarmanın inkişafı elmin geologiya kimi, sənayenin neft maşınqayırması, neft-ayırma, boru-prokat istehsalı, kimya, neft kimyası kimi sahələrin vüsət almasına təkan verdi. Azərbaycanda neftlə bağlı sahələr üzrə böyük alim və mütəxəssislər ordusu yarandı.

Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək, müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini

qoydu. Məhz 1994-cü ildə imzalanmış və «Əsrin müqaviləsi» adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur.

Müstəqil Azərbaycanın neft strategiyasını ardıcıl həyata keçirərək biz böyük uğurlara nail olmuşuq. Gələcəkdə isə bu uğurlar daha da artacaqdır. Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə artmaqdadır. Təbii ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. Tam qətiyyətlə demək olar ki, bu vasitədən səmərəli və məqsədyönlü istifadə etməklə, bu mənbədən lazımınca bəhrələnməklə biz yaxın gələcəkdə Azərbaycanı ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevirə biləcəyik. Əslində, yüzilliyin son günlərində biz «Əsrin müqaviləsi»nin, neft strategiyamızın uğurlu olduğunun bir daha şahidi olduq.

Əlbəttə ki, neft sahəsində əldə edilən uğurlar ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialı ilə bağlıdır. Məhz Azərbaycan xalqının intellektual və yaradıcı imkanları ötən əsrdə, başa çatmaqda olan minillikdə dünya mədəniyyətinə bir çox maddi və mənəvi sərvətlər bəxş etməsi üçün zəmin yaratdı.

Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır. Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o həmişə sivilizasiyaların

qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür–Araz və Xocalı arxeoloji mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, Kurqan tapıntıları sübut edir ki, hətta Miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan – Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək, «Böyük İpək yolu»nun muhüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir. İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətinə öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi, azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər

Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də, bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir.

2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları aşılamışdır. Dastanlarımız kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin yaradıcılığı ümümbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideyaların bərqərar olunmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Şihabəddin Sührəvərdinin və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi. Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü oimuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri

Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir.

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi.

1872-ci ildə çar hökumətinin sərəncamı ilə intizam sistemi ləğv olunduqdan sonra neft sənayesinin inkişafı üçün yollar açıldı. Bundan sonra Bakıya güclü xarici kapital axını başlandı. 1883-cü ildə Zaqafqaziya dəmir yolu çəkildikdən sonra Rusiya və Avropa ölkələri ilə əmtəə mübadiləsi gücləndi. Bakı yerli və xarici sərmayə hesabına sürətlə kapitalistləşdirildi. 1896–1906-cı illərdə Bakı–Batumi neft kəmərinin çəkilməsi xüsusilə əlamətdar bir hadisə oldu. Bundan sonra Bakı nefti dəniz və dəmir yolu ilə Rusiya və dünya bazarlarına çıxarıldı. Bakının bir tərəfdən, Şimali Qafqaz və Rusiya ilə, o biri tərəfdən, Tiflis və Qara dəniz sahilləri ilə komunikasiya yaratması onun dünya əmtəə tədavülünə cəlb olunmasını sürətləndirdi. Məhz Bakı nefti sayəsində Rusiya neft hasilatına görə dünyada birinci yerə çıxdı. XIX əsrin sonu – XX əsrin əvvəlləri

dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi, Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir.

İqtisadi inkişafla əlaqədar olaraq bu dövrdə təhsil, elm, incəsənət və ədəbiyyat sahələrində böyük canlanma başlandı. Bakı, Gəncə, Naxçıvan, Şuşa, Şəki, Salyan və sair şəhərlərdə yeni tipli şəhər və qəza məktəbləri açıldı. Qori müəllimlər seminariyasının məzunlarından olan Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyov, Həbib bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli kimi görkəmli maarifçilər təhsildə gedən islahatlara güclü təkan verirdilər. Artıq yeni üsullu təhsilin metodunun mütərəqqiliyini başa düşənlər «Üsuli-cədid» məktəblərini açmağa çalışırdılar. Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Lənkəranda Mirzə İsmayıl Qasir, İrəvanda Mirzə Kazım Əskərzadə ənənəvi təlim və tədrisdən əl kəçərək, yeni üsulla dərs verirdilər. Bu məktəblərdə ənənəvi fənlərlə yanaşı, tarix, rus dili, coğrafiya və təbiət dərsləri də tədris edilirdi. 80-cı illərdən başlayaraq «Rus – tatar məktəbi» adı ilə tanınan dördillik ibtidai məktəblər açıldı. Yeni tipli məktəblərin şəbəkəsi genişlənirdi. 1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan qızlar gimnaziyası Azərbaycan qadınlarının maarif-lənməsində müstəsna rol oynamışdır.

Maarifçilik hərəkatının genişlənməsi Azərbaycandan xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxardı. Xaricdə təhsil aldıqdan sonra vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyllərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatırın yaranması üçün zəmin yaratdılar. Bakının inkişafı, əhalinin artması, ziyalı qüvvələrin yetişməsi, informasiya məkanının genişlənməsi milli mətbuatın yaranması

ehtiyacını doğururdu. Bunu ilk dərk edən görkəmli maarifçi Həsən bəy Zərdabi bu istiqamətdə məqsədyönlü iş aparırdı. 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin ilk nömrəsi çıxdı və bununla Azərbaycan mətbuatının bünövrəsi qoyuldu. Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu. Bu, Azərbaycanda milli mətbuatın formalaşıb öz təbii inkişaf axarına düşməsindən xəbər verirdi. Həmin dövrdə mədəniyyətin ən böyük nailiyyətlərindən biri də milli teatrın yaranmasıdır. Məlumdur ki, Mirzə Fətəli Axundovun komediyaları hələ əsrin 50-ci illərində Peterburq və Tiflisdə tamaşaya qoyulmuşdur. 1873-cü ildə Həsən bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoydu. Bakıda azərbaycanlı tələbələrdən ibarət aktyor truppasının köməyi ilə Mirzə Fətəli Axundovun komediyaları səhnəyə qoyuldu. İlk tamaşa «Lənkəran xanın vəziri», sonrakı isə «Hacı Qara» olmuşdur. Bakı tamaşasından sonra 70-ci illərin ikinci yarısında Quba və Şəkidə Azərbaycan dilində teatr tamaşaları təşkil edildi. Diqqətəlayiq cəhətdir ki, teatr tamaşalarının verilməsində Qori müəllimlər seminariyasının məzunları fəal rol oynamışlar. 1879-cu ildə Şəkidə Rəşid bəy Əfəndiyev, 1882-ci ildə Şuşada Yusif bəy Məlikhaqnəzərov, 1883-cü ildə Naxçıvanda Məmmədtağı Sidqi teatr həvəskarlarının köməyi ilə Axundovun komediyalarından tamaşalar vermişlər.

XIX əsrin sonları – XX əsrin əvvəlləri Azərbaycan teatrının canlanma dövrü oldu. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün Şərqdə opera sənətinin təməli qoyuldu. Müslüm Maqomayevin 1916-cı ildə yaratdığı «Şah İsmayıl» operası da Azərbaycan səhnəsində həmişəlik yer tutdu. Üzeyir Hacıbəyov həm bəstəkar, həm də dramaturd kimi 1909–1913-cü illərdə yazdığı musiqili komediyalarla

Azərbaycan teatırına operetta janrını gətirdi. O dövrdə Uilyam Şekspirin, Fridrix Şillerin, Nikolay Qoqolun, Lev Tolstoyun əsərləri azərbaycanca tamaşaya qoyuldu ki, bu da Azərbaycan dramaturgiyasının inkişafına təsir göstərirdi. Təməli Mirzə Fətəli Axundovla qoyulan ədəbi məktəb Azərbaycan dramaturqlarının yaradıcılığında əsrin ən qüvvətli və qabaqcıl ədəbi hərəkatına çevrildi, ədəbiyyatda demokratik ideyalar getdikcə daha geniş yayılmağa başladı. Bu hərəkat XX əsr ədəbiyyat, mədəniyyət və siyasətinin nəhəng simalarının yetişməsi üçün zəmin yaratdı.

Yeni dövrün ədəbiyyatının formalaşmasında Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun, Nəriman Nərimanovun, Haşım bəy Vəzirovun, Cəlil Məmmədquluzadənin, Abbas Səhhətin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Əlibəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Əhməd Cavadın, Hüseyin Cavidin və başqalarının əvəzsiz xidmətləri var idi. XX əsrə qədəm qoyan Azərbaycan artıq bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə etmişdi. Ən başlıcası isə Azərbaycanda müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. Beləliklə, XIX əsrdən başlayan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin ***birinci mərhələsi*** adlandırmaq olar.

Azərbaycan üçün ***ikinci mərhələ*** çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür.

Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquqi bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov,

Fətəli Xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusuf Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir.

Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respulikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir.

Üçüncü mərhələ 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da o öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi, Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər. 1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra, öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda atılan ilk addım oldu. 1922-ci ildə dekabrın 30-da SSRİ-nin yaranması ilə Azərbaycanın müstəqilliyinə son qoyuldu. O bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və Konstitusiyasını

qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirmişdi.

1922–1991-ci illər Azərbaycanda sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır. Bu potensialı xarakterizə etmək üçün bəzi faktlara müraciət edək.

20–30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş, elektrik stansiyaları tikilmiş, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatı dirçəldilmişdi. Azərbaycan elliklə savadlanmış, orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmişdir.

1937-ci ildə Azərbaycan SSR özünün Konstitusiyasını qəbul edir və mədəni inqilab adı altında geniş maariflənmə proqramlarını həyata keçirir. Təhsildə islahatlar gerçəkləşdirilir. Artıq İkinci dünya müharibəsi ərəfəsində Azərbaycanın dörd mindən çox ibtidai məktəbi, 16 ali məktəbi var idi. 1938-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı, Azərbaycanda teatr şəbəkəsi formalaşdı. Artıq 1940-cı ildə ölkədə 18 teatr fəaliyyət göstərirdi. 1937-ci ildə Üzeyir Hacıbəyovun yaratdığı «Koroğlu» operası Azərbaycan mədəniyyətində böyük bir hadisəyə çevrildi. Bütün bu uğurlarla yanaşı, 1937–1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdi. Hüseyn Cavid, Mikayıl Müşfiq, Tağı Şahbazi, Salman Mümtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdi.

İkinci dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. İtaliyada və Almaniyada meydana çıxmış faşizm hərəkatı təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə məruz qoydu. Faşizm ideologiyası qısa müddət ərzində bir çox ölkələrin iqtisadi imkanlarından istifadə etməklə real dağıdıcı qüvvəyə çevrildi, dünya «olum ya ölüm» dilemması qarşısında qaldı. XX əsrin ən mühüm dərslərindən biri də o oldu ki, dünya dövlətləri öz aralarındakı siyasi, ideoloji, iqtisadi fərqlərə baxmayaraq, bu ümumi təhlükə qarşısında kollektiv səylər göstərilməsinin zərurətini dərk edə bildilər. Beləliklə də, dünya xalqlarının güclü antifaşist birliyi yarandı. Yalnız bunun sayəsində, antifaşist qüvvələrin fədakarlığı nəticəsində bəşəriyyəti bu böyük təhlükədən, ağır faciədən xilas etmək mümkün oldu. Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında – faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur.

Azərbaycan xalqı İkinci dünya müharibəsində həm döyüş meydanlarında, həm də «arxa cəbhə»də əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdi. 1941–1945-ci illərində respublikanın 600 mindən çox oğlan və qızı cəbhəyə getmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Azərbaycandan 130-a qədər adam Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər azərbaycanlı döyüşçü isə Şörət ordeninin hər üç dərəcəsinə layiq görüldü. 170 mindən çox azərbaycanlı əsgər və zabit SSRİ-nin orden və medalları ilə təltif edildi. İkinci dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba

Zeynalov və bir çox başqaları öz qəhrəmanlıqları ilə xalqımızın şanlı tarixinə yeni səhifələr yazdılar.

Respublikada iqtisadiyyatın hərbi qaydada yenidən qurulması sahəsində böyük işlər görüldü. Yüngül, toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi. Qısa müddət ərzində Bakı döyüşən ordunun mühüm cəbhəxanalarından birinə çevrildi. 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sursat istehsal edilirdi. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı, Azərbaycanda yüksək oktanlı benzin istehsalına başlandı. Elə 1941-ci ildə neftçilərimizin fədakar və gərgin səyləri nəticəsində Azərbaycanın bütün tarixində ən böyük həcmdə – 23,5 milyon ton neft hasil olundu ki, bu da İttifaqda çıxarılmış neftin 71,4 faizini təşkil edirdi. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verdilər. Mübaliğəsiz demək olar ki, İkinci dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı nefti həlledici amillərdən biri olmuşdur. Müharibənin ağırlığının böyük bir hissəsini öz üzərinə götürmüş sovet ordusunun dənizdə, quruda və havada düşmən üzərində üstünlük qazanmasında Bakı nefti misilsiz rol oynamışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, o dövrdə hər beş təyyarə, tank və avtomaşından dördü Bakı mədənlərindən çıxarılaraq Bakının neft emalı zavodlarında istehsal olunmuş benzinlə işləyirdi. İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır.

Müharibədən sonrakı illərdə respublikamız iqtisadiyyat və mədəniyyətin yeni yüksəliş mərhələsinə qədəm qoydu. Artıq

1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 1960-cı ildə isə 40-cı illərdəki səviyyəni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu bu illərdə 2 dəfə, dəmir yol nəqliyyatının yükdaşımaları 2,9 dəfə, bütün maliyyələşdirmə mənbələri üzrə kapital qoyuluşu 3,8 dəfə artmışdı. Bu illərdə ağır sənayenin neft emalı, kimya və neft kimyası, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi yeni sahələri əmələ gəlmişdi. Energetika və su təsərrüfatının tikintiləri genişlənmiş, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənmişdi. Azərbaycan əməkçiləri Rusiya Federasiyasının, eləcə də SSRİ-nin digər respublikalarının iqtisadiyyatının bərpa olunması və inkişafı işində fəal iştirak edirdilər. Respublikanın alim və mütəxəssisləri Cənubi Qafqaz, Tatarıstan və Başqırdıstanda, Qərbi Sibirin Tümen vilayətində yeni iri neft yataqlarının kəşf olunmasına və istismarına əvəzsiz töhfələr vermişdilər.

Müharibədən sonrakı beşilliklər ərzində sovet Azərbaycanının keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə görə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. İqtisadiyyatdakı çatışmazlıqlar sosial sahədə, əməkçilərin maddi rifah halının yaxşılaşmasındakı problemlərin həllinə mənfi təsir göstərirdi.

Bir sıra obyektiv və subyektiv səbəblərdən Azərbaycanın sosial-iqtisadi cəhətdən uzun müddət geridə qalması müşahidə olundu.

1965-ci ildə 1940-cı ilə nisbətən respublikada məcmu ictimai məhsul yalnız 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı, halbuki ölkə üzrə bu göstəricilər müvafiq surətdə 5,7

və 7,9 dəfəyə çatırdı. Azərbaycan Respublikası milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Sənayedə bütün istehsalın ən mühüm səmərəlilik və yekun göstəricisi olan əmlak məhsuldarlığı ümumittifaq miqyaslı inkişaf templərindən 1,5 dəfə geri qalırdı.

Əsaslı tikinti sahəsində ciddi çatışmazlıqlara yol verilmişdi. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin istismara verilməsi üzrə tapşırıqlar müntəzəm olaraq pozulurdu. Bütövlükdə 60-cı illərdə əsas fondlar 1 milyard rubula qədər kəsirdə qalmışdı ki, bu da 1969-cu ilin başlanğıcında respublikanın bütün əsas fondlarının 10 faizini təşkil edirdi. Sənaye sahələrinin və sosial sferanın potensialının gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geri qalmasının başlıca səbəbləri idi.

Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi fasilələrlə işləyir, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri pisləşirdi.

Nəqliyyat kompleksində dəmir yol vaqonlarının normadan artıq boşdayanmaları, gəmilərin yüklənmə-yükboşaltma işində ləngimə çoxalmış, hərəkət heyətlərinin sürəti azalmış, onların yükdaşıma qabiliyyətindən tam istifadə olunmamışdı. Sərnişin nəqliyyatının işində də boşdayanmalar artmışdı ki, bu, əhalinin, xüsusən Bakı şəhərində haqlı şikayətinə səbəb olurdu.

Kənd təsərrüfatında meliorasiya və dəmyə torpaqlarının suvarılması işində nöqsanlar var idi, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi aşağı səviyyədə idi. Aqrotexniki qaydaların pozulması üzündən taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

İstehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi. İri obyekt və müəssisələrin əksəriyyəti,

bir qayda olaraq, Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin əmək ehtiyatlarından səmərəli istifadə olunması dərəcəsini aşağı salır, ölkə əhalisinin paytaxta axışmasına səbəb olur və burada yaşayış evləri və sosial obyektlərlə əlaqədar artıq mövcud olan çətinlikləri daha da ağırlaşdırırdı.

Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasıında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi.

1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatların xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70–80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi.

Qəbul olunmuş proqramın həlli yolunda böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat

və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımından artan tələbatlarının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970–1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.

Sənaye və kənd təsərrüfatı məhsullarının dinamik artan istehsalı, öhdəliklərin vaxtından qabaq və artıqlaması ilə yerinə yetirilməsi, xalq təsərrüfatının bütün sahələrində keyfiyyət göstəricilərinin yüksəlməsi 70–80-ci illərdə Azərbaycanın inkişafının nə qədər dinamik olduğunu əks etdirirdi. Ümumittifaq əmək bölgüsündə respublikanın payı, həmçinin Sovet İttifaqının xarici iqtisadi əlaqələrində onun iştirakı əhəmiyyətli dərəcədə artmışdı.

1985-ci ildə sənayedə əmək məhsuldarlığı 1970-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdı. Ümumittifaq göstəriciləri müvafiq olaraq, 15 və 27 faiz idi. Xalq təsərrüfatında mənfəət bütövlükdə 335 faiz artmışdı. Halbuki orta ümumittifaq göstəricilərinə görə, əhalinin hər nəfərinə düşən gəlir cəmi 164 faiz artmışdı. Respublikanın ən kəskin problemlərindən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi idi. Bu sahədə böyük dəyişikliklər baş vermişdi. Orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri yaradılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artmış və 1985-ci ildə 2360 min nəfərə çatmışdı.

Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin prinsipial şəkildə yeni istiqamətləri

işlənib hazırlanmışdı. Bu istiqamətlər sənayesinin qabaqcıl və mütərəqqi sahələrinin, ilk növbədə maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma prosesləri ilə eyni vaxtda neft və qaz hasil edən, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişlənməsini nəzərdə tuturdu. Azərbaycanın təşəbbüsü ilə ümumittifaq səviyyədə qəbul olunmuş qərarlarla elmi-texniki tərəqqi əsasında respublikanın sənaye bazasının inkişaf etdirilməsində, sənayenin strukturunun təkmilləşdirilməsində, iri cihazqayırma, radiotexnika, elektrotexnika, dəzgahqayırma və avtomobil sənayesi müəssisələrinin yaradılmasında, fəaliyyətdə olan zavodların yenidən qurulmasında və genişləndirilməsində yeni mərhələnin başlanğıcı qoyuldu. Göstərilən qərar respublika ərazisində sənaye müəssisələrinin yerləşdirilməsi işinin köklü surətdə yaxşılaşdırılmasında böyük rol oynadı, şəhər və rayonların kompleks inkişafına, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, xalqın rifah halının yaxşılaşmasına kömək göstərdi.

Qəbul olunmuş qərarda nəzərdə tutulan irimiqyaslı dəyişikliklərin həyata keçirilməsi bir çox müəssisələrin əmək kollektivlərindən, elmi-tədqiqat institutlarından, layihə-konstruktor və inşaat-quraşdırma təşkilatlarından, sahə nazirliklərindən və baş idarələrindən böyük yaradıcı səylər tələb edirdi. İttifaq büdcəsindən kapital qoyuluşları ilə təmin olunmaq, xaricdən texnoloji avadanlıqlar alınması üçün valyuta vəsaitlərinin ayrılması, obyektlərin maddi-texniki təchizatına nail olmaqdan ötrü onların mühüm ümümittifaq tikintilərin siyahısına daxil edilməsi, kadr hazırlığı və bir çox digər olduqca mühüm məsələlər öz həllini tapırdı.

Bütün bunlar nəzərdə tutulan tədbirlərin vaxtında yerinə yetirilməsinə əsas vermiş, 70-ci illər ərzində, 80-ci illərin ortalarına qədər respublikanın sənaye istehsalını yüksək artım templəri ilə təmin etmişdi. Bircə faktı qeyd etmək kifayətdir

ki, doqquzuncu və onuncu beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə qədər dövrdəkinə nisbətən daha çox məhsul istehsal olunmuşdu.

On birinci beşillikdə sənaye məhsulunun ümumi həcmi 58,5 milyard rubla çatmışdı, bu isə səkkizinci və doqquzuncu beşilliklərin nəticələrini müvafiq olaraq, təqribən 3,2 və 2,1 dəfə üstələyirdi. 15 il ərzində sənayenin ümumi məhsul həcmi ümumilikdə götürəndə 1921-ci ildə 1970-ci ilə qədərki bütün dövr ərzində buraxılmış məhsuldan ikiqat çox olmuşdu. Respublika iqtisadiyyatının 70–80-ci illərdə əldə etdiyi uğurların miqyasını əyani surətdə təsəvvür etmək üçün qeyd etməliyik ki, bu göstəricinin hər bir faizi mütləq həcmin artmasına dəlalət edir. Əgər doqquzuncu beşillikdə sənaye məhsulunun bir faiz artmasının qiyməti 45 milyon rubla bərabər tutulurdusa, on birinci beşillikdə bu rəqəm təqribən 100 milyon rubul edirdi ki, bu da səkkizinci beşilliyin müvafiq göstəricisindən 3,3 dəfə artıq idi. 15 ildə sənayenin əsas fondlarının 69 faizi yeniləşdirilmişdi ki, bu da respublikanın milli varidatının çox mühüm hissəsini təşkil edirdi. Sənaye-məhsuldar personalın fondlarla təchizatı 1980-ci ildə 1970-ci illə müqayisədə 10 ildə 1,4 dəfə, on birinci beşillikdə isə daha 1,3 dəfə artmışdı.

Azərbaycan sənayesinin inkişafında müəyyənedici amillərdən biri də elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi olmuşdur. 1971–1985-ci illər ərzində 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı; 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmışdı; istehsalın texnoloji proseslərini idarə etmək üçün 94 avtomatlaşdırılmış sistem işə salınmışdı. 1985-ci ildə sənaye 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi fəaliyyət göstərirdi.

1982-ci ilin əvvəllərində sənayedə 73 elm-istehsal və istehsal birliyi yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı. Real məhsulun ümumi həcmində bunların payı 1969-cu ildəki 0,29 faizdən artaraq, 26 faizə çatmışdı. Sənaye inkişafının, ilk növbədə elmi-texniki tərəqqini müəyyən edən sahələrdə sürətləndirilməsi sənayenin ümumi məhsulunun xüsusi çəkisinin 1970-ci ildəki 22 faizdən 1980-ci ildə 24 faizə, 1985-ci ildə isə 28 faizə çatmasına səbəb olmuşdu.

Sənayenin texniki səviyyəsinin yüksəlməsi müəssisələrin işinin səmərəliliyini artırmağa, keyfiyyəti yaxşılaşdırmağa, hər məhsul vahidinə düşən maddi və əmək məsrəflərini azaltmağa imkan verirdi. Belə ki, 1985-ci ildə 1970-ci illə müqayisədə ümumən sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, mənfəət isə 3,2 dəfə yüksəlmişdi. Sənaye məhsullarının ümumi həcmində ən yüksək keyfiyyətli məhsulun xüsusi çəkisi 1980-cı ildə 13 faiz, 1985-ci ildə 17,2 faiz artmışdı (1970-ci ildəki 1,3 faizə qarşı); attestasiya edilmiş məhsulun ümumi həcmində bu göstərici 1980-ci ildə 30 faizə, 1985-ci ildə isə 46 faizə qədər qalxmışdı. Respublika müəssisələri tərəfindən buraxılan 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdi.

1970–1985-ci illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi, bunların da üçdə ikisi öz əmək fəaliyyətinə doqquzuncu, onuncu beşilliklərdə, həmçinin on birinci beşilliyin ilk iki ilində başlamışdı.

Bu illər ərzində Azərbaycanın paytaxtının görkəmi təmamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş çoxsaylı binalar, mədəniyyət obyektləri, İmaməddin Nəsimiyə, Cəfər Cabbarlıya abidələr ucaldılmışdı. 14 ildə yaşayış evləri tikintisinin həcmi ağlagəlməz dərəcədə artmışdı, belə ki, bu dövrdə tikilmiş yaşayış binaları bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi. Elə hesab edin ki, respublikada yeni bir Bakı salınmışdı.

Bu rəqəmlərin arxasında Azərbaycan xalqının gərgin əməyi, misli görünməmiş səyləri durur. Tarixi baxımdan qısa bir dövrdə Azərbaycan öz iqtisadiyyatını sürətlə inkişaf etdirərək yüzlərlə iri zavod, fabrik, istehsalat sahələri yaratmışdı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı. Respublikada sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. Bu 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər idi. Kənd təsərrüfatında məcmu məhsul da 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən artıq çoxalmışdı.

Həmin illər ərzində xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki 50 illə müqayisədə 1,5 dəfədən də artıq idi. 250-dən çox iri zavod, fabrik və istehsal sexləri tikilmişdi. İki milyondan çox adam öz yaşayış şəraitini yaxşılaşdırmışdı.

Ancaq bu rəqəmlər, bu cansız göstəricilər nə qədər cəlbedici olsa da, Azərbaycan iqtisadiyyatında baş vermiş struktur, keyfiyyət dəyişiklikləri haqqında tam təəssürat doğura bilməz. Bu illərdə Azərbaycan üçün yeni olan bir neçə xalq təsərrüfatı sahəsinin əsası qoyulmuşdu.

Həmin dövrdə Azərbaycanda hər gün 41 min ton neft, 37 milyon kubmetr qaz çıxarılır, 2200 ton polad tökülür, 69 min metr boru, 4900 avtomobil təkəri, 2700 ton mineral gübrə, 968 məişət kondisioneri, 734 soyuducu istehsal olunur, 546 min metr parça toxunurdu.

Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqların istehsalı kimi yeni mütərəqqi sənaye sahələri Azərbaycana məhz həmin illərdə «ayaq açmışdı». Bakı məişət kondisionerləri zavodunun fəaliyyətinə başlaması respublikada elektrotexnika kimi prespektivli bir sahənin inkişafına təkan vermiş, qısa müddətdə irəliləyiş əldə olunmuş, istehsalın həcmi bir yarım dəfə artırılmışdı.

Azərbaycanın qədim neft emalı sənayesi tarixində ilk dəfə bu dövrdə Bakı neft emalı müəssisələrinin irimiqyaslı yerindən qurulması həyata keçirilmiş, neftin ikiqat emalı üçün qurğu və avadanlıq quraşdırılmışdı.

Bu illərdə yüksək peşəkar səviyyəli kadrların hazırlığına da ciddi fikir verilirdi. Respublikanın ali məktəblər şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş, ildırım sürəti ilə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun bir tərzdə onların strukturu və maddi-texniki bazası da təkmilləşdirilmişdi.

70-ci illərdə Azərbaycanın elektrik enerjisi ilə təmin olunması üçün çox səylər göstərilmişdi. Bu gün iftixar hissi ilə demək olar ki, bu mühüm sahədə respublikamız heç bir ölkədən asılı olmayan geniş elektrik enerjisi müəssisələri sisteminin yaradılmasına nail olmuşdu. Energetika sahəsində Azərbaycanda görülən işlər sayəsində beş min meqavat elektrik enerjisi istehsal gücünə malik energetika sistemi yaradılmışdır. Biz bu dövrdə ittifaq hökumətindən böyük vəsaitlər alıb Mingəçevirdə hər birinin gücü üç yüz meqavat olan 8 böyük enerji bloku yaratdıq. Kür su elektrik stansiyası inşa edildi. Yenikənd su elektrik stansiyasının tikilməsi üçün 1979-cu ildə qərar qəbul olundu, lakin məlum səbəblərə görə sonrakı illərdə bu iş yarımçıq qaldı. Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra imkan tapıb, yenidən bu məsələyə qayıtdıq və 1994-cü ildə Avropa Yenidənqurma və İnkişaf Bankından güzəştli kredit alıb Yenikənd su elektrik stansiyasının tikintisini davam etdirdik. Həyatımızın bütün sahələrində belə əsaslı

dönüş yaratmaq üçün ilk növbədə, yüksək ixtisaslı kadrlara ehtiyac duyulurdu. Azərbaycanın daxilində hazırlanan ali təhsil mütəxəssislərilə yanaşı, bu ehtiyacı ödəmək üçün Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdi. Hər il ali təhsil almaqdan ötrü respublikadan kənara 800-dən artıq tələbə göndərilməsi artıq yaxşı bir ənənə şəklini almışdı. Gənc və yeniyetmə azərbaycanlı oğlanların ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirilirdi. Bütün bunlar Azərbaycanın gələcək inkişafı üçün qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərirdilər. Aparılan təhlil göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi. Bizim bəzi alimlərimiz sübut etməyə çalışırdılar ki, guya SSRİ-siz Azərbaycan bir gün də dolana bilməz. Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır.

1920–1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranmasının bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarca teatr

açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal çap olunmağa başlamışdı.

Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış o böyük potensial hərc-mərclik illərində dağıntılara məruz qaldı. Azərbaycanın düçar olduğu Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da ağırlaşdırdı.

1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin iclasındakı çıxışımda respublikada o dövrdə yaranmış gərgin vəziyyəti, mövcud olan dərin siyasi böhranı şərh edərək təxirəsalınmaz tədbirlərin gerçəkləşdirilməsindən, o cümlədən Bakıda fövqəladə vəziyyətin ləğv edilməsindən, Dağlıq Qarabağ probleminin tədricən Dağlıq Qarabağ faciəsinə çevrilməsi təhlükəsindən, Azərbaycan Kommunist Partiyasının ləğv edilməsinin zəruriliyindən söz açdım. Tarixə nəzər salarkən qeyd etdim ki, «Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu, xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağ vəziyyətinin normallaşdırılması – məsələnin dar çərçivəsində qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması – məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi – Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb.

Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı. Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpaqlarının bir hissəsi əldən getdi? Bu sualları qaldıraraq mən Ali Soveti, bütün qüvvələri, bütün Azərbaycan vətəndaşlarını hərtərəfli və konstruktiv bir proqram hazırlamağa çağırırdım. O dövrdə tam aydın idi ki, 1988-ci ildən başlayaraq hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Hadisələr gerkəçləşdikdən sonra tədbirlər haqqında fikirləşməyə başlayan daim uduzur. Erməni separatçıları monolit bir qüvvə olaraq, ümummilli bir platforma səviyyəsində düşünülmüş addımlar ataraq, Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək yolunda hər gün yeni uğurlar qazanırdılar. Bunun müqabilində, o dövrdə təəssüf ki, heç bir qüvvə Azərbaycanda adekvat və konstruktiv addımlar atmağa qadir olmadı. Faciənin köklərini məhz burda axtarmaq lazımdır.

O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi. Yenidənqurmanı dəstəkləyən bir qüvvə kimi, rəsmi qeydiyyata alınan Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümümmilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası – Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyəti uğrunda mübarizə müstəvisinə yönəldildi. Dağlıq Qarabağ böyük məharətlə hazırlanmış hiyləgər planların gerkəçləşdiyi bir vaxtda özlərini böyük siyasətçi sayan bu şəxslər səriştəsiz hərəkətləri ilə

vətəndaşlarımızı bu oyunun qurbanlarına çevirdilər. Əfsuslar olsun ki, xalq adından çıxış edən bu insanlar öz şəxsi maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tutdular.

Məhz bu baxımdan bu gün də biz bu ağılsız siyasətin nəticələrini aradan qaldıra bilmirik. Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dururs a, digər qütbündə – nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır – bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur. Məhz onlar bu gün tarixi təhrif edərək, Dağlıq Qarabağ qarşıdurmasını, Azərbaycan xalqının Dağlıq Qarabağ məsələsində Moskvanın tutduğu ədalətsiz mövqeyinə kəskin etiraz aksiyalarını öz şəxsi nailiyyətləri kimi qələmə verməyə başlayırlar. Bu gün həmin şəxslər o dövrdəki səhvlərinə bəraət qazandırmaq istərkən müxtəlif bəhanələr gətirirlər.

Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir. Bu ağır mənəvi sarsıntıdan, bu acı həqiqətin yaratdığı psixoloji zərbədən bir çox vətəndaşlarımız bu gün də özlərinə gələ bilmirlər.

Respublikanın Ali Sovetindən etdiyim sonrakı çıxışlarımda da bir neçə dəfə təklif etdim ki, gəlin bir daha ictimai-siyasi durumu təhlil edək. Mənə isə cavab verdilər ki, Dağlıq Qarabağ heç vaxt indiki qədər bizim olmayıbdır. Həqiqət isə ondan ibarət idi ki, vaxtilə Sovet İttifaqının rəhbərlərindən

biri olduğuma görə, öz siyasi təcrübəmə əsaslanaraq yaxşı anlayırdım ki, mənim xalqımı uçuruma, fəlakətə aparırlar.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi.

Hələ 1988-ci ilin martında SSRİ rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində Dağlıq Qarabağın Azərbaycan SSR-nin tabeliyindən çıxarılmasının təməlini qoydu. Heç bir obyektiv əsasa istinad etməyən, qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa İttifaq, nazirlik və qurumlarına həvalə edildi. Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli qərarında isə qeyd olunurdu ki, mərkəzin həmin qərarı ilə həyata keçirilən tədbirlər «Muxtar vilayətin məshuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalisinin, istərsə də başqa millətlərinin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır». Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə yaradılmış Xüsusi İdarəetmə Komitəsinə həvalə edildi.

Bu, faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibindən çıxarılması demək idi.

SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərdə belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki, mərkəzin Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibəti açıq-aşkar göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. «Mənfi azərbaycanlı obrazı» yaratmaq həmin kampaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizlənmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rəsmi dövlət qurumları, hüquq-mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi.

Ermənistan SSR Ali Soveti Azərbaycan rəhbərliyinin bu mövqeyindən «cəsarətlənərək», 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etdi. 20 Yanvar hadisələrinə bir neçə gün qalmış, yəni 1990-cı il yanvarın 15-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin «Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında» fərmanı ilə əslində azərbaycanlıların Dağlıq Qarabağdakı ev-eşiklərinə

qayıtmaq ümidlərinə də son qoyuldu. Fərmanın başlığından göründüyü kimi, muxtar vilayətin və «bəzi digər rayonların» kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu.

Mərkəzin Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb olurdu. Onlar get-gedə daha aydın şəkildə dərk edirdilər ki, Azərbaycan rəhbərliyi respublikanın, xalqın taleyi ilə bağlı gedən oyunların qarşısını almaqda acizlik və qətiyyətsizlik göstərir, bəlkə də rəhbər mövqelərini qoruyub saxlamaq üçün mərkəzlə sövdələşərək xalqa qarşı gizli xəyanətkar planlar həyata keçirir. Xalqın bütün məsuliyyəti öz üzərinə götürməkdən, bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı.

SSRİ rəhbərliyi də respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa açıq divan tutmaq yolunu seçdi. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan edilmədən Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi.

Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyi alçaltmaq və sovet hərbi maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.

Törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdir. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə

qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdir.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişdir. Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycan rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qalmışdı.

Hələ Azərbaycanda sovet hakimiyyəti dövründə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb dövlət istintaq komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanlarının müvafiq istintaq tədbirləri həyata keçirilməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi.

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu şəkildə təhrif edilərək, yanlış yozuma və unutqanlığa məhkum edilmişdi.

Yalnız 1994-cü ildə 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılmışdır. Azərbaycan Respublikası prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək, bir neçə gün davam edən iclaslarında yanvar hadisələrinin əsl səbəblərini açıqlamış, həqiqi günahkarları aşkar etmişdir. 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verilmişdir.

XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı il qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı milli mənliyi qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.

SSRİ-nin süqutundan bir neçə il əvvəl başlayan və tarixə «Suverenliklər paradı» adı ilə düşmüş prosesin bünövrəsini hələ 1988-ci il noyabr ayında Estoniya qoydu. «Suverenlik haqqında» qəbul edilmiş bəyannamə respublika ərazisində Estoniya qanunlarının ittifaq qanunları üzərində aliliyini elan etdi.

1990-cı ilin mart ayında Litva Ali Soveti Litva dövlətinin müstəqilliyinin bərpa olunduğunu bəyan etdi. 1990-cı il iyunun 12-də Rusiya Federasiyasının xalq deputatlarının birinci qurultayı «Rusiyanın dövlət suverenliyi haqqında» bəyannaməni təsdiq etdikdən sonra, iyul ayında Moldovanın Ali Soveti «Suverenliyin prinsipləri haqqında» bəyannamə qəbul etdi. Belarusun Ali Soveti 1990-cı ilin iyul ayında dövlət suverenliyi haqqında bəyannamə ilə çıxış etdi. Elə həmin ildə Qazaxıstan, Tacikistan, Qırğızıstan da öz suverenliklərini elan etdi.

Beləliklə, 1990-cı il ərzində bir neçə respublika öz suverenliyi haqqında bəyannamə qəbul etsə də, Azərbaycan hələ də

fövqəladə vəziyyət şəraitində yaşayırdı, Bakının küçələrində isə əli tüfəngli sovet əsgərləri öz əməlləri ilə insan hüquqlarının pozulmasını adi bir hadisəyə çevirməkdə idilər.

SSRİ-nin dağılmasının qarşısında öz acizliyini dərk edən sovet hakimiyyəti 1991-ci il martın 17-də ümumittifaq referendumu keçirdi. Rəsmi elan olunmuş nəticələrə görə referendumda əhalinin 80 faizi iştirak etdi və guya onların 76 faizi İttifaqın saxlanmasına səs verdi. Azərbaycanda da bu referendumun nəticələri kobud surətdə saxtalaşdırıldı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, onun yerli strukturlarının zorla keçirdikləri bu referendumda o zaman yalnız Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Bu da öz növbəsində muxtar respublika rəhbərliyinə ağır başa gəldi, Ali Məclisin o zamankı sədri işdən azad edildi, onun yerinə isə Vilayət Partiya Komitəsinin yenicə seçilmiş katibi qeyri-qanuni şəkildə təyin olundu.

Xatırlayaq ki, bütün bunlar baş verdiyi zaman artıq SSRİ-nin dağılması heç kimdə şübhə yaratmırdı və İttifaq respublikalarının bir çoxu öz müstəqilliyini bərpa etmişdi. SSRİ-də 1991-ci il 19–21avqust dövlət çevrilişini tələm-tələsik müdafiə edən, başda Ayaz Mütəllibov olmaqla, Azərbaycan Kommunist Partiyasının rəhbərliyi xalqın artan təzyiqini, eləcə də öz hakim mövqeyini saxlamaq üçün 1991-ci il avqustun 30-da Ali Sovetin sessiyasında «Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında» bəyannamə qəbul etməyə məcbur oldu. Əslində bu bəyannamənin qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyətin ləğv olunması sentyabrın 8-də Azərbaycanda keçiriləcək prezident seçkilərini təmin etməyə yönəldilmişdi. Bu sessiyada deputatlardan bir neçəsinin təkidinə baxmayaraq, o zamankı rəhbərlik referendum yolu ilə müstəqillik haqqında xalqın rəyini öyrənməyi lazım bilmədi. Bundan başqa, müstəqillik haqqında bəyannamə iki həftə ərzində «Azərbaycan dövlət müstəqilliyi haqqında»

Konstitusiya aktının qəbul edilməsini nəzərdə tutsa da, naməlum səbəblərdən bu iş düz 48 gün, yəni oktyabrın 18-nə qədər, onun dərc olunması isə daha 20 gün yubadıldı. Konstitusiya aktı qəbul edilərkən Ali Sovet bu haqda referendum keçirmək qərarını qəbul etməli idi. Bu da naməlum səbəbdən noyabrın 15-nə qədər yubadıldı.

SSRİ-nin saxlanması ilə bağlı digər cəhdlər ondan ibarət oldu ki, Qorbaçov və doqquz respublika başçısı «9+1» bəyannaməsini qəbul etdi və Novo-Oqaryovo danışıqlar prosesi başlandı. Sovet İttifaqının yerinə Müstəqil Dövlətlər Birliyinin yaradılmasına cəhd göstərildi və 1991-ci il avqustun 20-də İttifaq müqaviləsinin imzalanması nəzərdə tutuldu. Bundan sonra Moskvada məşhur avqust qiyamı baş verdi və Azərbaycan rəhbərliyi bütövlüklə fövqəladə rejimin tətbiq olunmasını dəstəklədi. Maraqlı faktdır ki, artıq Moskva jurnalistləri Qorbaçovun Forosdan qayıtmasını və Yaneyev-Kryuçkov güruhunun qarşısının alınması haqqında kadrları şərh etdiyi bir vaxtda, Azərbaycan diktorları hələ də «QKÇP»nin qərarlarını oxumaqda idilər. İttifaq müqaviləsinin imzalanması təxirə salında, müəmmalı avqust qiyamı isə əslində totalitar sistemin dağılmasının son nöqtəsini qoydu. Rusiya prezidentinin sərəncamı ilə Rusiyanın ərazisində Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Mərkəzi Komitə ləğv olundu.

1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının 23-cü fövqəladə qurultayında Azərbaycan Kommunist Partiyası da ləğv olundu.

1991-ci il aprelin 9-da Gürcüstanın Ali Soveti referendumun nəticələrini nəzərə alaraq, dövlət müstəqilliyinin bərpası haqqında müvafiq akt qəbul etdi, avqust qiyamından sonra isə əksər sovet respublikaları öz müstəqilliyini bəyan etdi. Təəssüflər olsun ki, Azərbaycan bunların sırasında deyildi.

1991-ci il dekabrın 1-də Ukraynada keçirilən referendumun nəticələri şərh edilərkən aydın oldu ki, bu respublika

İttifaq müqaviləsinə qoşulmayacaqdır. Bir neçə gün sonra isə Rusiyanın, Ukraynanın və Belarusun başçıları Belovej sazişləri əsasında bəyan etdilər ki, Sovet İttifaqı öz fəaliyyətini dayandırır və artıq beynəlxalq hüququn subyekti kimi mövcud deyildir. 1991-ci il dekabrın 8-də SSRİ, əslində, öz tarixinin son gününü yaşadı.

Məsələ bundadır ki, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində SSRİ-nin dağılması və mərkəzdənqaçma meylləri ittifaq respublikalarının hərəsində bir cür təzahür edirdi. Bu proses Pribaltika respublikalarında, Ukrayna, Belarus, Gürcüstan, Ermənistan, Moldova və başqa respublikalarda yerli rəhbərliklə xalq kütlələrinin vahid məqsəd və hərəkəti ilə müşayiət olunduğu üçün daha ağrısız və itkisiz keçirdi.

1991-ci il dekabrın 29-da nəhayət ki, Azərbaycan Respublikasında da ümumxalq referendumu keçirildi. Bu referendumun bülleteninə cəmi bir sual daxil edilmişdi. Bu sual müstəqillik haqqında Konstitusiya aktına münasibəti öyrənmək məqsədini daşıyırdı və əhalinin 95 faizi bu referendumda iştirak edərək müstəqillik, suverenlik yolunu seçdi. Beləliklə də, Azərbaycanın müstəqilliyi yalnız SSRİ dağıldıqdan sonra öz tam hüquqi təsdiqini tapdı, müstəqillik haqqında Konstitusiya aktı qüvvəyə mindi.

Bütün bunlar göstərir ki, o zamankı respublika rəhbərliyi Azərbaycanın dövlət müstəqilliyinə var gücü ilə müqavimət göstərir və onun artıq dağılmış SSRİ-dən çıxmasına hər vəchlə mane olurdu.

Hətta müstəqillik haqqında Konstitusiya aktı qəbul ediləndən sonra Azərbaycan rəhbərliyi respublikanın müstəsna səlahiyyətinə aid olan bir sıra məsələləri keçmiş ittifaqın Dövlət Şurasının iştirakı ilə həll etməyə çalışmış, yerli hərbi qüvvələrin vahid ittifaq rəhbərliyinə tabe edilməsinə razılığını bildirmişdi. Bundan başqa, SSRİ Ali Sovetinin işində iştirak etmək üçün

Azərbaycandan oraya 27 deputat göndərməyə cəhd etmiş, yalnız deputatların ciddi müqaviməti nəticəsində buna nail ola bilməmişdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər nəticədə SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixi səhnədən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bunun ardınca baş verən hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi.

XXI əsrin ilk ilində – 2001-ci ildə Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsinin onilliyi tamam olur. Sözsüz ki, əsrin, minilliyin ilk ilində qeyd olunan bu yubiley bizim tariximizin ən mühüm mərhələlərindən birinə çevriləcəkdir. Müstəqilliyə gedən yollar heç də asan və hamar olmayıbdır. Təəssüf olsun ki, bu gün də ən yaxın tariximizi təhrif etmək, onu müxtəlif siyasi qüvvələrin «xeyrinə» saxtalaşdırmaq meylləri duyulur. Bu, dözülməz haldır.

Keçdiyimiz tarixi yola nəzər salarkən aydın olur ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir.

Beləliklə, 1991-ci il oktyabrın 18-də «Müstəqillik haqqında» Konstitusiya aktının qəbul edilməsi ilə XX əsr

Azərbaycan tarixinin dördüncü mərhələsi başlandı. Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir.

Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin Azərbaycanın müstəqillik tarixinin ilk illərinə nəzər salsaq, müstəqil dövlətin qarşısında duran vəzifələrin heç də həmişə ardıcıllıqla və qətiyyətlə həyata keçirilmədiyinin şahidi oluruq. 1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyllərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdilər.

Müstəqillik yoluna qədəm qoymuş hər bir ölkə kimi, Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasını təxirə salmadan hazırlayıb onun həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991–1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Ermənistanın təcavüzü

ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikamızın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu.

Azərbaycanda siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya aktı qəbul ediləndən sonra da müstəqil xətt yeritmədiyindən, ikiüzlü, qeyri-ardıcıl siyasət apardığından xəbər verirdi. Məhz o zamankı rəhbərliyin respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması, xalq kütlələrinin artan narazılığını və etiraz səsini qulaqardına vurması və bütün bu etirazları boğmağa çalışması həm Azərbaycanın müstəqil dövlət quruculuğunun sonrakı işlərini çətinləşdirmiş, təhlükəli istiqamətə yönəltmiş, həm də Dağlıq Qarabağ problemini çətin düyünə salaraq, bugünkü nəsil üçün ağır problemlər yaratmışdır.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra da Mütəllibov hökuməti xarici və daxili siyasətində daha çox müstəqil Azərbaycan dövlətinin deyil, öz hakimiyyət maraqlarını qoruyur və bu məqsədlə də xarici dövlətlərlə münasibətlərdə birtərəfli siyasət yeridirdi. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi maraqlarına, onun təhlükəsizliyinə, ərazi bütövlüyünə, suveren dövlət hüquqlarının reallaşmasına cavab vermirdi.

Təəssüflə qeyd etmək lazımdır ki, 1992-ci ilin martından may ayına qədərki dövrdə də Azərbaycanın müstəqil dövlətçilik maraqlarından irəli gələn ardıcıl, düşünülmüş siyasət həyata keçirilmədi. Bu dövrdə Azərbaycanda başlanan hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu.

Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi qlobal problemlər məhz həmin çoxhakimiyyətlilik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaradılmışdır. Həmin dövrü bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab etmək olar. Cəmi bir neçə ayda müstəqil Azərbaycan dövlətinə elə zərbələr vuruldu ki, bunun təsirini həm indiki nəsil hiss edir, həm də gələcək nəsillər onlardan uzun müddət xilas ola bilməyəcəklər.

1991–1992-ci illər ərzində Dağlıq Qarabağda vəziyyət günü-gündən gərginləşirdi. Xocalı faciəsi baş verdi. 1992-ci il martın 6-da Mütəllibov istefaya getməyə məcbur oldu. Əsl hərc-mərclik dövrü başlandı. Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15-də o zamankı Müdafiə naziri Rəhim Qazıyevin silahlı qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur. O dövrdə yüzlərlə belə hallar baş vermişdir.

Mayın 14-də Mütəllibov yenidən hakimiyyətə qayıtdı, mayın 15-də isə Xalq Cəbhəsi parlamentin binasına hücum təşkil etdi. Mayın 18-də parlament 4 gün əvvəl qəbul etdiyi öz qərarını qanunsuz elan etdi və beləliklə, Mütəllibovun bir daha hakimiyyətə qayıtmaq cəhdləri puç oldu.

1992-cu ilin may-iyun aylarında Cəbhə–Müsavat birliyi hakimiyyəti ələ aldı. Əslində, bu, Azərbaycanda neobolşevizm ab-havasının bərqərar olmasına gətirib çıxartdı. İqtisadiyyatda başlanmış hərc-mərclik davam etdi. Respublikanın maddi ehtiyatları qəddarcasına talanır, malların xaricə satışı nəticəsində əldə olunan vəsait xarici banklarda kiminsə şəxsi hesabında yatıb qalırdı. Əhalinin böyük bir hissəsi yoxsulluq həddində yaşayırdı. Azərbaycandan xaricə güclü, intellektual axın başlandı və bir çox tanınmış alim, yazıçı, şair, incəsənət xadimi Türkiyəyə, İrana, Rusiyaya və başqa ölkələrə üz

tuturdu. Azərbaycan dilinin adı dəyişdirildi və bununla dil haqqında Konstitusiya müddəası kobudcasına pozuldu.

Əgər Mütəllibovun hakimiyyəti dövründə ziddiyyətli daxili və xarici siyasət yeridilirdisə, dövlət idarəçiliyi Moskvanın diktəsi ilə aparılırdısa və hər şey SSRİ-nin bərpa olunmasına tabe edilirdisə, indi beynəlxalq siyasətin obyektiv reallıqlarına, Azərbaycan vətəndaşlarının istək və arzularına zidd, obyektiv gerçəkliyi nəzərə almayan, məqsəd və məramı aydın olmayan, dövlət üçün xüsusi təhlükə kəsb edən siyasət yeridilirdi.

Region dövlətləri və qonşularla əsassız gərginliyin yaradılması, Azərbaycanın daxilində etimadsızlıq mühitinin formalaşdırılması və digər hallar getdikcə çox ciddi zərərli nəticələr verirdi.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət həm də ardıcıl, prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar əksər hallarda bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulmuşdu.

Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən tez-tez səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri və vəzifələri, prinsipləri və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, onun sivil dünya dövlətlərindən təcrid edilməsinə səbəb olurdu.

Ölkədə daxili vəziyyət gündən-günə pisləşir, respublikada nəinki siyasi, iqtisadi, sosial islahatlar aparılmır, demokratik hüquqi dövlət quruculuğu həyata keçirilmirdi, əksinə, bu iqtidarın atdığı bütün addımlar cəmiyyəti sonu görünməyən uçuruma doğru sürükləyirdi. Onların respublikada yaratdığı ictimai-siyasi xaos, anarxiya, «dövlət reketçiliyi», zorakılıq ənənələri nəticə etibarilə milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Belə düşüncəsiz və səriştəsiz siyasət qısa vaxtda AXC–Müsavat hakimiyyətinin ölkə daxilində öz nüfuzunu büsbütün

itirməsinə, ölkəmizin regionda və dünyada təklənməsinə, respublika ətrafında faktiki olaraq antiazərbaycan koalisiyanın formalaşmasına gətirib çıxardı. Bütün bunlar – Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyasi dairələr tərəfindən dəstəklənən siyasi qüvvələrin hakimiyyət uğrunda silahlı mübarizəsi, iqtisadiyyatın dağıdılması, milli sərvətlərin talan edilməsi, sovet dövründə əldə olunmuş bütün nailiyyətlərdən kor-koranə imtina edilməsi ilə müşayiət olunurdu. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi.

Xalq Cəbhəsinin daxilində keçmiş silahdaşlar arasında baş verən qarşıdurmalar Gəncə qiyamı ilə nəticələndi. Ölkədə mövcud olan dərin siyasi-iqtisadi və sosial böhran hakimiyyəti iflic vəziyyətinə gətirib çıxardı. Baş nazir, Milli Məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya getdi. Ölkə heç bir qurum və ya şəxs tərəfindən idarə olunmurdu. Artıq 1993-cü ilin iyun ayında Azərbaycanda dərin siyasi və ictimai böhran hökm sürürdü.

Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991–1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan «ölüm, ya olum» dilemması qarşısında qalmışdı.

Azərbaycanın Ermənistanla apardığı müharibədə hərbi məğlubiyyətə uğramasının bir neçə xarici və daxili səbəbləri vardır. Bunların sırasında Rusiyanın və xarici ölkələrdəki erməni diasporunun Ermənistana göstərdiyi siyasi dəstəyi və yardımı xüsusilə qeyd etmək lazımdır. Azərbaycandan fərqli olaraq, Ermənistan hələ münaqişə başlanmazdan çox-çox əvvəl onun uğurla

başa çatdırılması üçün böyük hazırlıq işləri aparmışdı. Dağlıq Qarabağ məsələsində «məzlum erməni xalqının haqlarının tapdalanması» haqqında fikirlər hər bir ermənինin beyninə yeridilərək onun milli şüurunun hakim komponentinə çevrilmiş, bu məsələdə dünya ictimaiyyətini aldatmaqla onun rəğbətini qazanmaq məqsədi ilə genişmiqyaslı təbliğat işi aparılmışdı. Artıq münaqişə başlayanda Ermənistan Respublikasının rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan ayrılması zərurəti barədə həm daxildə, həm də xaricdə istişnasız olaraq bütün ermənilərin yekdil rəyinə, birliyinə arxalanırdı. Digər tərəfdən, Ermənistanda ordu yaradılması, Dağlıq Qarabağ zonasında döyüş əməliyyatları aparmağa qadir olan silahlı dəstələr hazırlanması istiqamətində işlər çoxdan aparılırdı.

Azərbaycanda isə vəziyyət tam bambaşqa idi. O zamankı Azərbaycan rəhbərliyi Ermənistanda gedən prosesləri görə-görə nəinki dünya ictimaiyyətinə, heç öz xalqına da Dağlıq Qarabağ haqqında həqiqətləri, real vəziyyəti çatdırmaq niyyətində deyildi. Qorbaçovun bədnam «yenidənqurma» dövründə hakimiyyətə gətirilmiş Əbdürrəhman Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağ məsələsində ermənіləri öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi. Azərbaycan xalqının mübarizə əzmini qırmaq məqsədi ilə törədilmiş Qanlı Yanvar hadisələrindən sonra Əbdürrəhman Vəzirov xalqın qəzəbindən qurtarmaq üçün Moskvaya qaçmalı oldu. Ondan sonra hakimiyyətə gələn Ayaz Mütəllibovun aqibəti də eyni cür oldu. Moskvanın göstərişlərini «sədaqətlə» yerinə yetirməkdə öz sələfindən fərqlənməyən Ayaz Mütəllibov ordu yaradılması barədə xalqın tələblərinə məhəl qoymadı, yalnız öz himayəsi üçün silahlı dəstələr yaratdı. Bəli, o öz hakimiyyətini daxildəki bəzi qüvvələrdən qorumağı Azərbaycan torpaqlarını erməni təcavüzündən müdafiə etməkdən üstün tutdu. Nəticədə, o da Moskvaya qaçmalı oldu. Hakimiyyətə yeni qüvvələr – Xalq Cəbhəsi gəldi.

Az keçmədi ki, Əbülfəz Elçibəy hakimiyyəti də öz səriştəsizliyi, orada təmsil olunan qüvvələrin böyük şəxsi ambisiyaları üzündən ölkəni uçurum astanasına gətirib çıxartdı. Hərc-mərcliyin baş alıb getdiyi Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatdı. Vəziyyəti nizama salmaqda aciz olan Əbülfəz Elçibəy də gizlicə baş götürüb Kələkiyə getdi. Üç başçı və üç qaçış…

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi və müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Ölkə onu gözləyən fəlakətlərdən, daxili və xarici antiazərbaycan qüvvələrin qəsdlərindən, vətəndaş müharibəsindən, torpaqlarımızın bir-birinin ardınca işğal edilməsindən və nəhayət, müstəqil dövlətçiliyin məhvindən, Azərbaycanın parçalanmasından xilas edilməli idi.

1993-cü ilin iyunundan başlayaraq, ilk növbədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meylləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və vətənə mənsubluq hissləri aşılanmağa başlandı.

Təbiidir ki, Azərbaycanda əsaslı sabitlik yaratmaq və respublikamızın müstəqil dövlət kimi yaşaması üçün Ermənistan–Azərbaycan müharibəsində qəti tədbirlər görmək lazım idi. Çünki Azərbaycanda mövcud olan daxili çəkişmələr, hakimiyyət mübarizəsi, müxtəlif qüvvələrin təxribatları, milli ordunun olmaması, Ermənistan silahlı qüvvələrinin Azərbaycan

torpaqlarını işğal etməsinə imkan yaratmışdır. Onlar Azərbaycanın vəziyyətindən çox çevik istifadə edərək, torpaqlarımızı ardıcıl surətdə işğal edirdilər.

Bu məqsədlə 1993-cü ilin noyabr ayından başlayaraq, bir tərəfdən, milli ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, o biri tərəfdən, atəşkəsə nail olmaq üçün siyasi və diplomatik vasitələr işə salınmışdı. Bunun nəticəsində 1994-cü ilin mayında Ermənistan–Azərbaycan müharibəsində ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Müharibənin dayandırılması, daxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirdi.

Görülən gərgin və əhatəli işlər nəticəsində 1994-cü ildə ATƏT-in Budapeşt sammiti Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun həlli haqqında qərar çıxardı.

1994-cü ilin sentyabrında Azərbaycan daxildə yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, «Əsrin müqaviləsi» adlandırılan ilk neft müqaviləsini imzalamışdır.

Azərbaycanda başlanmış bu işlər əhalidə və bizi istəyən xarici aləmdə inam və sevinc yaratdığı kimi, respublikamızın inkişafını istəməyən daxili və xarici qüvvələrdə qısqanclıq oyadırdı. Azərbaycan dövlətçiliyinə qarşı olan daxili və xarici qüvvələr, müxtəlif ambisiyalı siyasi və hərbi qruplaşmalar öz mövqelərinin itirilməsi, dövlətdə və ölkədə nizam-intizam yaradılması ilə barışmaq istəmirdilər. Onlar müxtəlif xarici dairələrin təsiri və köməyi ilə Azərbaycan Respublikasının qanuni hökumətini devirməyə, ölkədə hakimiyyətsizlik mühiti, vətəndaş qarşıdurması

yaratmağa dəfələrlə cəhdlər göstərir, müxtəlif dövlət və hökumət rəhbərlərinə qarşı sui-qəsdlər təşkil edirdilər.

1994-cü ilin oktyabrında o zamankı Baş nazir Surət Hüseynovla Xüsusi Təyinatlı Polis Dəstəsinin başçısı Rövşən Cavadov və onun qardaşı Mahir Cavadovun dəstələri tərəfindən və ölkədəki bir çox müxalifət partiyalarının onların hərəkətlərini himayə etməsi nəticəsində dövlət çevrilişinə qəsd baş verdi, qanuni dövlət strukturlarına qarşı yönəlmiş aksiyaların həyata keçirilməsinə cəhd göstərildi. Azərbaycan dövlətinin qətiyyəti və dəyanəti, düşünülmüş tədbirlər nəticəsində, bütün xalqın yekdil və qızğın dəstəyi ilə çevriliş cəhdinin qarşısı alındı. Gecəyarısı ayağa qalxan xalq Prezident sarayının qarşısında toplaşaraq öz dövlətçiliyini, öz hüquqlarını, öz gələcəyini müdafiə edərək, qiyamçılara layiqli cavab verdi.

Qanuni dövlət orqanlarını devirməyə, siyasi hakimiyyəti zopakılıqla dəyişdirməyə növbəti cəhd 1995-ci ilin martında, yenə də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstələrinə rəhbərlik edən Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov tərəfindən göstərildi. Həm də bu dəfə əksər müxalifət partiyaları öz məqsədlərini dövlətçilik mənafeyindən üstün tutaraq bilavasitə və dolayıcı ilə qəsdçiləri müdafiə etdilər. Baş verən hadisələri düzgün qiymətləndirmək, dövlətçilik mövqeyi tutmaq əvəzinə onlar əhalini çaşdırmağa, qəsdçiləri həvəsləndirməyə yönəldilmiş ziddiyyətli bəyanatlar verdilər. Sonralar bir sıra partiyaların və onların başında duran ambisiyalı siyasətçilərin qəsdçilərlə bilavasitə cinayət əlaqələrinə girdikləri, dövlət hakimiyyətini devirmək və gələcəkdə formalaşdırmaq istədikləri hökumətdə vəzifələri bölmək haqqında razılığa gəldikləri də aşkarlandı. Lakin onların qarşısında yenə də xalqa arxalanan, Azərbaycan dövlətinin və xalqının maraqları naminə qətiyyətlə hərəkət edən Azərbaycan siyasi rəhbərliyinin yenilməz iradəsi dururdu. Qanunsuz silahlı dəstələr, cinayətkar qruplar, xaricdən və daxildən istiqamətləndirilən

qüvvələr, Azərbaycan dövlətini silah gücü ilə devirməyə cəhd göstərən qəsdçilər qanuni dövlət orqanlarının gücü ilə tamamilə darmadağın edildilər və layiqli cəzalarını aldılar. Onların açıq və gizli himayədarları isə xalq qarşısında ifşa olundular.

Müstəqil Azərbaycan dövlətinin qüdrəti, gücü bu təhlükənin də qarşısını aldı. Bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, müstəqillik uğrunda mübarizə əzmini və qətiyyətini bir az da möhkəmləndirdi. Azərbaycan dövləti özünün möhkəmliyini, etibarlılığını, qanunçuluğu və vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu bütün dünyaya nümayiş etdirdi.

1995-ci ilin ortalarında Azərbaycan dövləti bütün qeyri-qanuni silahlı qüvvələrdən artıq xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi. Bu dövrdə müxtəlif siyasi və hərbi qruplaşmaların ilhamçıları və iştirakçıları, məsuliyyətsiz, ambisiyalı siyasi partiya liderləri öz planlarından və istəklərindən əl çəkməyə məcbur oldular. Azərbaycanda hakimiyyətə gəlmək üçün silahlı dəstələrdən istifadə etmək ənənəsinə son qoyuldu. Bundan sonrakı dövrlərdə xaricdəki və ölkə daxilindəki pozucu qüvvələr Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmaq, iqtisadi islahatların həyata keçirilməsinə və ölkəyə xarici kapitalın axınının təmin olunmasına mane olmaq məqsədi ilə digər təxribat əməllərinə, hətta ölkə başçısına qarşı terror aktlarına da əl atdılar. Həyata keçirilən məqsədyönlü və qəti tədbirlər nəticəsində bütün bu cəhdlərin qarşısı alındı. Respublikamız dinc və sabitlik şəraitində öz müstəqil dövlətini qurmaq və inkişaf etdirmək imkanı qazandı. Müstəqil dövlət quruculuğunun üçüncü dövrü başlandı.

1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür.

Məhz ictimai-siyasi sabitliyin yaranması və Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələrin ləğv olunması, cinayətkar qrupların cinayətlərinin qarşısının alınması – bunlar hamısı Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasına şərait yaratdı. Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən bəyan etmişdi ki, Azərbaycan demokratiya yolu ilə irəliləyəcək, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedəcəkdir. Bunlar elan olunmuşdu, ancaq təəssüf ki, Azərbaycanın daxili vəziyyəti, dediyim kimi, çox gərgin olduğuna görə bunlar söz idi, əməli tədbirlər isə lazımi səviyyədə görülmürdü. Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildə böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirilir.

Azərbaycanın öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdur. Azərbaycan bir dövlət kimi möhkəmlənib, Azərbaycanın silahlı qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.

Konstitusiya qəbul olunandan sonra ötən beş il ərzində bizim ali qanunvericilik orqanımız – Milli Məclis tərəfindən 900-dən çox qanun qəbul edilmişdir. Məhz Konstitusiyanın əsasında, qəbul olunmuş qanunların əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilir. Bu islahatlar

bütün sahələrdə aparılır. Onların ilbəil həyata keçirilməsi Azərbaycanın bütün sahələrdə inkişafını təmin edir.

Azərbaycan öz daxili və xarici siyasətini müəyyən edibdir. Dediyim kimi, daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir.

Azərbaycanın xarici siyasəti isə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycanın sülhsevər xarici siyasəti ilk növbədə onun dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin süveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir. Azərbaycan demokratik və hüquqi dövlət quruculuq yolu tutduğundan, onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir.

1991–1992-ci illərdə xarici siyasət sahəsində ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl kursun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Bu özünü bəzi qonşu dövlətlərlə münasibətdə xüsusilə büruzə verirdi.

Ermənistanla müharibə getdiyi bir şəraitdə yaxın qonşularımızdan Rusiya, İran, Mərkəzi Asiya respublikaları ilə münasibətlər keçmiş iqtidarın məsuliyyətsiz bəyanatları üzündən gərginləşmişdi. İlk növbədə yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş sovet respublikaları ilə birbaşa ikitərəfli əlaqələrin də möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Müstəqil Dövlətlər Birliyi ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Gürcüstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini verdi.

1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan–Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabilidir. Son yeddi ildə iki dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan–Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olunması işinə də öz töhfəsini verir.

Azərbaycan qonşu İran dövləti ilə də xalqımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olmuşdur. Qərb dövlətlərinin də iştirak etdiyi ikinci neft konsorsiumunda İrana yer ayrılmış, «Şahdəniz» yatağının işlənilməsi üzrə müqavilədə bu

ölkəyə pay verilmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrlə də son illər ərzində siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhəkdaşını təşkil edir. Azərbaycan ilə həmin ölkələr arasında tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlər qurulmuşdur. Bu, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən, planetin qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq aparılmış ardıcıl işin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının hasilatı və nəqlində Amerika neft şirkətlərinin beynəlxalq neft konsorsiumunda geniş iştirakı Azərbaycan–Amerika Birləşmiş Ştatları əlaqələrinin inkişaf etməsinə təkan vermişdir. Amerika–Azərbaycan münasibətləri haqqında iki ölkə prezidentləri tərəfindən imzalanmış birgə bəyanat, Müdafiə nazirlikləri arasında müdafiə və hərbi əlaqələr üzrə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması, ticarət və kapital qoyuluşu, banklararası və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan hökumətlərarası sənədlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə xidmət edir. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi haqqında imzalanmış xüsusi sənəd Amerika iş adamlarının

ölkəmizdə fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmasının hüquqi bazasını təşkil edir.

Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Son illər ərzində Böyük Britaniya ilə ölkəmizin münasibətləri dinamik şəkildə inkişaf etmişdir. Bu gün Böyük Britaniya beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir, Ermənistan–Azərbaycan münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir.

Avropanın nüfuzlu ölkələri – Almaniya, Fransa, Belçika, İtaliya, Niderland, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan və Skandinaviya ölkələri ilə də respublikamız arasında tam sabit və bərabər hüquqi əməkdaşlıq münasibətləri yaranmışdır. Bu ölkələrlə imzalanmış 90-dan artıq mühüm sənəd həmin münasibətlərin hüquqi əsasını təşkil edir.

Avropa ölkələri ilə münasibətlərin inkişafında qədim İpək yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi, Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır. Dünyanın ən böyük dövlətlərindən biri və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Xalq Respublikası, həmçinin nəhəng intellektual potensiyala malik olan Yaponiya bu illər ərzində Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətimizin, şəksiz, uğurlarıdır. Azərbaycanla İsrail dövləti arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir.

Ötən dövrdə Azərbaycanın beynəlxalq və regional təşkilatlarla da əlaqələri genişlənmiş və möhkəmlənmişdir. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması yolunda aparılan iş öz müsbət nəticələrini verməkdədir.

Hazırda Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır.

Azərbaycanda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Bunların 24-ü bilavasitə Bakıda, 39-u isə həmin dövlətlərin Ankara, Moskva, Tehran və Tbilisi şəhərlərindəki səfirliklərində akkreditə olunmuşdur. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirlik, Baş konsulluq və daimi nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan mötəbər beynəlxalq təşkilatlarda da təmsil olunmuşdur. Bu gün Dağlıq Qarabağ ətrafında Ermənistan–Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Bu, Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işinin parlaq nəticəsidir.

Azərbaycan diplomatiyasının son illərdə dövlətimizin müstəqilliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün təmin olunmasında, habelə bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr qurmaq sahəsində qazandığı böyük uğurlar Azərbaycanın xarici siyasət kursunun düzgünlüyünə, milli maraqları dünyada gedən proseslərə faydalı şəkildə uzlaşdırmağa qadir olduğuna dəlalət edir.

Xarici siyasət sahəsində köhnə iqtidardan miras qalmış ən mürəkkəb və ağrılı problem Dağlıq Qarabağla bağlı Ermənistan–Azərbaycan münaqişəsidir. Azərbaycanda olan daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, müxtəlif qüvvələrin törətdiyi təxribat əməlləri, Ermənistan silahlı qüvvələrinə xaricdən edilən xüsusi yardım Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsinə imkan yaratdı. Bu işğal öncə Dağlıq Qarabağın ərazisini, sonra onun ətrafında olan bir neçə rayonun ərazisini əhatə etdi. İndi Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan zorla çıxarılmış bir milyon soydaşımız çadırlarda ağır vəziyyətdə yaşayır.

1994-cü ilin may ayında Ermənistan–Azərbaycan müharibəsində atəşkəs haqqında saziş imzalandı. Hələ tam sülh əldə

edilməyibsə də, Azərbaycan altı il yarımdan çoxdur ki, müharibəsiz, dinc şəraitdə yaşayır, şəhid vermir, qan tökülmür. Azərbaycan dövləti bu müddətdə dünyanın bütün beynəlxalq təşkilatlarının, təsirə malik olan böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışmış və bu işdə mühüm uğurlar qazanmışdır. Bu müddət ərzində bir neçə dəfə məsələnin həlli yolunda real fürsətlər yaranmışdır. Lakin Ermənistanın daim pozucu mövqe tutması, Azərbaycanın torpaqlarını işğal etdiyinə görə özünü üstün hesab etməsi, beynəlxalq təşkilatların, Minsk qrupunun, onun həmsədrləri olan Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın Ermənistana lazımi təsir göstərə bilməməsi bu problemin indiyə qədər həll olunmasına imkan verməmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa danışıqları da hələ konkret bir nəticə verməmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll olunmasını mümkün hesab edir və bundan sonra da bu istiqamətdə səylərini davam etdirmək əzmindədir. Azərbaycan dövləti Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi, səmərəliliyin artırılması üçün əlindən gələni etməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa danışıqlarının bundan sonra da davam etdirilməsini zəruri hesab edir. Bu hər iki istiqamətdə göstərilən səylər nəticəsində müəyyən kompromislər yolu ilə Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması və sülh əldə olunması gerçəkləşə bilər.

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. Keçmiş SSRİ tərkibində sərt planlaşdırılmış təsərrüfat sistemində 70 ildən çox müddət ərzində fəaliyyət göstərmiş Azərbaycan Respublikası 9 ildir ki, yeni iqtisadi şəraitə qədəm qoymuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən müddət ərzində iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil iqtisadi siyasət

aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin formalaşdırılması, bazar iqtisadiyyatına keçid və dünya təsərrüfat sisteminə inteqrasiya təşkil etmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü, ictimai-siyasi sabitliyin vaxtaşırı pozulması, ölkədə rəhbərliyin tez-tez dəyişməsi 90-cı illərin əvvəllərindən etibarən iqtisadiyyatın əksər sahələrində istehsalın tənəzzülünə və bu prosesin getdikcə dərinləşərək xroniki səciyyə almasına səbəb olmuşdur. 1991–1994-cü illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti dayanmış və öz gücünün 15–20 faizi səviyyəsində işləmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20–24 faizə, kənd təsərrüfatında 15–20 faizə, kapital qoyuluşunda 40 faizə çatmışdı. İstehlak mallarının qiymətləri ildə 14–18 dəfə artaraq iqtisadi və sosial sahələrdə dağıdıcı rol oynamışdır. Respublikanın iqtisadiyyatı, demək olar ki, tamamilə dağılmış, xalqın rifah halı olduqca aşağı düşmüşdü. Lakin Azərbaycanın əlverişli coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaradılmış maddi fondları, ümumiyyətlə, böyük sosial-iqtisadi, elmi-texniki potensialı ölkəni bu ağır böhrandan çıxarmağa əsas verirdi. Digər tərəfdən isə, yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində məqsədyönlü iş aparılmalı idi.

Yalnız 1994–1995-ci illərdə ölkədə siyasi vəziyyət normal məcraya salındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra, çoxsaylı sosial-iqtisadi sabitlik təmin edildikdən sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl iş aparılması mümkün oldu. 1995-ci ilin əvvəlindən ölkədə bazar iqtisadiyyatına keçid məqsədi ilə islahatların aparılması kursu müəyyənləşdirildi və ardıcıl olaraq məqsədyönlü islahatlar proqramı həyata keçirilməyə başlandı. Keçən dövr ərzində Azərbaycan ən radikal iqtisadi islahatlar aparmağa qadir olduğunu sübut etdi.

Ötən dövr ərzində ölkədə demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparılmış, 900-ə yaxın qanun qəbul edilmişdir. Onların içərisində torpaq islahatı haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tutur.

İstehsalda yaranmış geriləmə hallarının qarşısını bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində alınmış, ölkədə makroiqtisadi sabitlik təmin olunmuşdur. Ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz, 1999-cu ildə isə 7,4 faiz olmuşdur. Bu da Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstəricidir.

Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında da artım meylləri müşahidə edilməkdədir. 1997-ci ildə sənaye istehsalının həcmi cəmi 0,3 faiz artmışdırsa, 1998-ci ildə artım 2,2 faiz, 1999-cu ildə 3,6 faiz, 2000-ci ildə isə 6,9 faiz olmuşdur.

Artıq, demək olar ki, sənayenin bütün sahələrində, o cümlədən neft və qaz, neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş vardır və bu sahələrdə məhsul istehsalı keçən ilin müvafiq dövrünə nisbətən xeyli çoxalmışdır.

Ölkənin iqtisadi və sosial inkişafını xarakterizə edən makroiqtisadi göstəricilər 2000-ci ilin əvvəllərindən xeyli yaxşılaşmışdır. Ümumi daxili məhsul istehsalı keçən illə müqayisədə 11,3 faiz və ya 21 trilyon manatdan çox olmuşdur. Ümumi daxili məhsulun strukturunda real istehsal sahələrinin xüsusi çəkisi 1999-cu ilə nisbətən 46,3 faizdən 48,7 faizə çatmış, xidmət sahələrinin payı isə 47,5 faizdən 44,6 faizə enmişdir.

Adambaşına 2,5 milyon manatlıq (562,3 dollar), yaxud keçən ildəkindən 10,4 faiz çox belə məhsul istehsal olunmuşdur.

Ümumi daxili məhsulun tərkibində sənaye məhsulu istehsalının çəkisi 25,6 faiz təşkil etmişdir. İstehsalın həcmi yanacaq sənayesi müəssisələrində 5,3 faiz, elektroenergetikada 3,2 faiz, yeyinti sənayesində 2,1 faiz, kimya və neft kimyası müəssisələrində 34,4 faiz, metallurgiya sənayesində 2,5 dəfə, maşınqayırma müəssisələrində 78,2 faiz, meşə, ağac emalı və sellüloz-kağız sənayesində 10,5 faiz, tikinti materialları sənayesində 21,3 faiz, yüngül sənayedə 47,7 faiz, unüyütmə-yarma müəssisələrində 52,5 faiz çoxalmışdır. Ötən illə müqayisədə sənayenin dövlət bölməsində isə 12,5 faiz artmış, ümumi məhsulda onun xüsusi çəkisi 43,9 faizə çatmışdır.

Məlumdur ki, kənd əhalisinin rifahı, kəndin sosial-iqtisadi inkişafı aqrar islahatların gedişindən asılıdır. Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. 1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında 35 minədək yaxın kəndli (fermer) təsərrüfatı yaradılmışdır. Demək olar ki, aqrar islahatların birinci mərhələsi başa çatmışdır. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında 1998-ci ildə 4 faiz artım əldə edilmişdirsə, 1999-cu ildə artım 7,1 faiz olmuşdur. Xüsusilə 2000-ci il kənd təsərrüfatı üçün çox uğurlu olmuşdur.

Kənd təsərrüfatında bitkiçilik məhsullarının yığımı, demək olar ki, başa çatmışdır. Dekabrın 1-nə kimi tarlalardan qarğıdalı ilə birlikdə 1538,8 min ton taxıl, 75,6 min ton üzüm, 468,6 min ton kartof, 764,0 min ton tərəvəz, 407,9 min ton meyvə və giləmeyvə, 260,0 min ton bostan məhsulları, 13,8 min ton tütün və 625 ton yaşıl çay yarpağı toplanmışdır. Keçən illə müqayisədə taxıl istehsalı 445,5 min ton və ya 40,7

faiz, kartof 77,3 min ton, tərəvəz 131,5 min ton, meyvə və giləmeyvə 13,5 min ton, bostan məhsulları 57,1 min ton, tütün istehsalı 5,8 min ton və ya 72,7 faiz artmışdır. Cari ildə 90,5 min tona qədər pambıq toplanıb emal müəssisələrinə təhvil verilmişdir. Pambıq, üzüm və yaşıl çay yarpağı istehsalının azalmasına baxmayaraq, bitkiçilik məhsulları istehsalının həcmi keçən ilə nisbətən 18,6 faiz artmışdır.

Cari ildə diri çəkidə 195 min ton ət, 1070 min ton süd, 550 milyon ədəddən çox yumurta, 12 min tona yaxın yun və 70 tondan çox barama istehsal olunmuş, heyvandarlıq məhsulları istehsalı 1999-cu ilə nisbətən 3,7 faiz artmışdır.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında qazanılmış uğurlar kənd təsərrüfatının ümumi məhsulunun keçən illə müqayisədə 12,0 faiz artmasına imkan vermişdir.

Kənd təsərrüfatında aparılan islahatları dəstəkləmək, bu sahədə çalışan adamlara kömək etmək və problemləri aradan qaldırmaq məqsədi ilə 1999-cu ilin yazında xüsusi qanun və fərmanlar qəbul edilmişdir. Kənd təsərrüfatı istehsalçıların, torpaq vergisi istisna olmaqla, digər vergilərdən 5 il müddətinə azad edilməsi, həmçinin büdcəyə olan vergi borclarının silinməsi, onlara yanacağın (neft məhsullarının) güzəştli satışı və digər tədbirlər bu sahədə dövlət qayğısının təzahürüdür. Həmin tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərmişdir. Bu tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur. Bu sahədə görülən işlərin məqsədyönlü və sistemli şəkildə aparılması üçün aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair dövlət proqramı təsdiq edilmişdir.

2000-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən 4,2 trilyon manat həcmində investisiya yönəldilmiş, 2,0 trilyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Keçən illə müqayisədə istifadə olunmuş

investisiyanın məbləği 2,3 faiz, tikinti-quraşdırma işlərinin həcmi 2,4 faiz artmışdır. Əsaslı vəsaitin 51,0 faizini və ya 2,1 trilyon manatını xarici investisiya təşkil etmiş, 3,4 trilyon manatı, yaxud 81,3 faizi istehsal təyinatlı obyektlərin inşasının davam etdirilməsinə sərf olunmuşdur. İlin əvvəlindən Yenikənd su elektrik stansiyası, 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində gücü 55 min kvt olan yeni qaz-turbin elektrik qurğusu, «Qurtuluş» qazma qurğusu, «Azərneftyağ» İstehsalat Birliyində bitum qurğusu kompleksi, 52,9 km uzunluğunda baş Mil–Muğan kollektorunun ikinci hissəsi, Naxçıvan Dövlət Universitetinin tədris korpusu, Bakı şəhərində mərkəzi klinik xəstəxana, ümumi sahəsi 302,5 min kvadrat metrə çatan yaşayış evləri, 1906 yerlik ümumtəhsil məktəbləri, 40 çarpayılıq xəstəxana, növbədə 70 nəfəri qəbul etməyə imkan verən ambulator poliklinika müəssisəsi və s. istifadəyə verilmişdir. Cari ildən «Şimal» DRES-in yenidən qurulmasına və Ələt-Qazıməmməd avtomobil yolunun tikintisinə başlanmışdır.

Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən il ərzində 80 milyon ton yük və 880 milyon nəfər sərnişin daşınmış, keçən ilə nisbətən yük daşınması 17,3 faiz, sərnişin daşınması 2,1 faiz artmışdır. Yük daşınmasının 54,6 faizi sərnişin daşınmasının 83,5 faizi qeyri-dövlət bölməsinin nəqliyyat vasitələri ilə həyata keçirilmişdir.

Rabitə müəssisələri tərəfindən ilin əvvəlindən əhaliyə, müəssisə təşkilatlara 700 milyard manatdan çox, yaxud keçən ilə nisbətən 33,6 faiz çox rabitə xidməti göstərilmişdir. Xidmətlərdən əldə edilmiş gəlirlərin 61,3 faizi qeyri-dövlət bölməsinin payına düşür.

İlin əvvəlindən əhaliyə 12,8 trilyon manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əmtəə dövriyyəsi

9,8 faiz artaraq 10 trilyon manatdan çox, pullu xidmətlərin həcmi isə 5,7 faiz artaraq 2,5 trilyon manata çatmışdır.

Cari ildə xarici ölkələrlə 2796 milyon dollar məbləğində, yaxud keçən illə müqayisədə 88,1 faiz çox ticarət əməliyyatları aparılmışdır. Əmtəə dövriyyəsinin 63,3 faizini ölkədən ixrac olunmuş mallar, 36,7 faizini isə idxal məhsulları təşkil etmiş, 680 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. Əmtəə mübadiləsinin 80,7 faizi uzaq xarici ölkələrlə, 19,3 faizi MDB dövlətləri ilə aparılmış, ticarət əlaqələri uzaq xarici ölkələrlə 2,2 dəfə, MDB dövlətləri ilə 18,0 faiz artmışdır.

İstehlak mallarının qiymətləri və xidmət tarifləri il ərzində keçən illə müqayisədə 1,8 faiz bahalaşmışdır. Lakin eyni zamanda, orta aylıq əmək haqqı 15,0 faiz artaraq 204,2 min manat, əhalinin adambaşına pul gəlirləri isə 11,0 faiz çoxalaraq 185,4 min manat təşkil etmişdir.

İqtisadi yüksəlişin həlledici şərti hesab olunan investisiya qoyuluşu son illər artmaqda davam edir. Belə ki, 1996-cı ildə kapital qoyuluşunun həcmi 65 faiz, 1997-ci ildə 67 faiz, 1998-ci ildə isə 45 faiz artmışdır. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır.1996–2000-ci illərdə ölkə iqtisadiyyatına 5,0 milyard ABŞ dolları həcmində xarici investisiya yönəldilmişdir. İndi Azərbaycanda yalnız neft sektorunda deyil, iqtisadiyyatın digər sahələrinə (rabitə, maşınqayırma, yeyinti, xidmət və.s) xarici investisiya qoyuluşu xeyli artmışdır. Nəticədə xarici investisiyaların ümumi həcmində qeyri-neft sektorunun payı 1996-cı ildə 33 faiz, 1997-ci ildə 40 faiz olmuşdursa, 1999-cu ildə 50 faizə çatmışdır. Hazırda Azərbaycanda adambaşına 150 ABŞ dollarına yaxın xarici investisiya düşür ki, bu da MDB məkanında ən yüksək göstərici hesab olunur.

Azərbaycan xarici şirkətlərlə bağlı neft müqavilələri çərçivəsində neft sənayesinə 60 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulur. Neft satışından əldə

edilən gəliri səmərəli şəkildə ölkəmizin sosial-iqtisadi tərəqqisinə istifadə etmək məqsədi ilə hazırda xüsusi neft fondu yaradılmışdır.

Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.

Ölkədə islahatların dərinləşdirilməsinə özəlləşdirmə prosesi həlledici yer tutur. Son illər bu sahədə xeyli işlər görülmüşdür, artıq kiçik özəlləşdirmə başa çatmışdır. Ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri, demək olar ki, iş adamlarının əlində cəmlənmişdir. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır.

Hazırda özəlləşdirmədə yeni mərhələ başlanır. Dövlət əmlakının özəlləşdirilməsi haqqında yeni qanunun və II Dövlət özəlləşdirmə proqramının qəbul olunması bu prosesə yeni təkan verəcək, onun da səmərəli aparılmasını təmin edəcəkdir. Ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən strateji obyektlərin (metallurgiya, maşınqayırma, yanacaq, neft kimyası, infrastruktur sahələr və.s) özəlləşdirilməsinə hazırlıq işləri gedir. Bu isə hər bir obyektə fərdi yanaşma tələb edir. Odur ki, hər bir belə obyektin ölkə iqtisadiyyatındakı yeri və rolu nəzərə alınmaqla onun özəlləşdirilməsi planı işlənib hazırlanacaqdır.

Azərbaycan dövlətinin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu məqsədlə ölkədə sahibkarlığın inkişafı üçün müvafiq hüquqi baza yaradılmışdır. Özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi və sahibkarlığın inkişafına şərait yaradılması nəticəsində hazırda ümumi daxili məhsulda özəl bölmənin payı 62 faizə, o cümlədən sənayedə 43 faizə, kənd təsərrüfatı və ticarətdə 98

faizə, tikintidə 77 faizə, yük daşımasında 45 faizə, sərnişin daşınmasında 80 faizə çatmışdır.

Bu gün ölkədə sahibkarların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə yersiz müdaxilənin və əsassız yoxlamanın qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) qəbul edilmişdir. Ölkədə əlverişli sahibkarlıq mühiti yaratmaq məqsədi ilə bundan sonra da müvafiq tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Qeyd etmək lazımdır ki, aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır. Son illər əmək haqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artmışdır. Son 5 ildə (1994–1999-cu illər) orta aylıq əmək haqqı 12 dəfə artaraq, 184,4 min manat təşkil etmişdir. 2000-ci ilin yeddi ayı ərzində bu göstərici artmaqda davam etmiş və hazırda bir işçinin aylıq əmək haqqı 204, 2 min manata bərabərdir.

Burada mühüm bir cəhəti də nəzərə almaq lazımdır ki, əmək haqqının artımı inflyasiyanın çox aşağı səviyyədə olması (son iki ildə isə defilyasiya – istehlak qiymətlərinin aşağı düşməsi) şəraitində baş vermişdir. Əgər 90-cı illərin birinci yarısında inflyasiyanın artımı əhalinin pul gəlirinin artım sürətini üç dəfə üstələyirdisə, son 5 il ərzində isə, əksinə, əhalinin pul gəlirinin artım sürəti inflyasiyanın səviyyəsini 2,5 dəfədən çox qabaqlamışdır. Başqa sözlə, əhalinin alıcılıq qabiliyyəti 2,5 dəfə artmışdır.

Son illərdə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əmək haqları bir neçə dəfə artırılmış, böyük qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, habelə gənc istedadlara fərdi təqaüdlər müəyyən edilmişdir. Məsələn, 1999-cu il

avqustun 1-dən dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların əmək haqları 1,8 dəfə, 2000-ci il yanvarın 1-dən təhsil işçilərinin, aprelin 1-dən elm, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərin əmək haqları 25 faiz artırılmışdır.

2000-ci il yanvarın 1-dən əmək haqqının vergi tutulmayan minimum həddi 60 min manatdan 100 min manata qaldırılmışdır ki, bu da ölkə vətəndaşlarının real gəlirinin artmasına xeyli imkan yaradır.

Ölkədə vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində otra aylıq pensiyanın məbləği 2 dəfədən çox artmışdır.

2000-ci il ərzində işləməyən əhaliyə ödəniləcək pensiya və müavinətlər vaxtlı-vaxtında ödənilmişdir. Hazırda bu sahədə praktiki olaraq borc qalmamışdır və yaxın günlərdə dekabr ayı üzrə pensiya və müavinətlər tamamilə ödəniləcəkdir. 1999-cü ildə əhaliyə ödənilən pensiyaların məbləği 635 milyard manat olduğu halda, cari ildə 810 milyard manata çatmış və ya 16,5 faiz artmışdır. Müavinətlər isə keçən illə müqayisədə 12,7 faiz çoxalmışdır.

Son vaxtlarda Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin bir qrupu dövlət vəsaiti hesabına minik maşınları və mənzillərlə təmin olunmuşdur. Əlilləri fəal iqtisadi həyata qaytarmaq üçün əlillərin reabilitasiya mərkəzi fəaliyyətə başlamışdır.

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə onlara yemək xərci üçün verilən aylıq müavinət 2000-ci il yanvarın 1-dən 3,5 dəfə artırılmışdır.

Ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək və onların sosial müdafiəsini gücləndirmək məqsədi ilə Dövlət Proqramı qəbul edilmişdir (1998-ci il, 17 sentyabr). Həmin Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müvafiq

sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədi ilə 1999-cu ilin dekabr ayında məcburi köçkünlərin sosial inkişaf fondu yaradılmışdır.

Əhalinin müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olan məsələdir. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq belə tədbirlər də həyata keçiriləcəkdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Yeni minilliyin başlanğıcı iqtisadi islahatların dərinləşməsində dönüş mərhələsi olacaq və onun əsas istiqamətləri iqtisadiyyatın strukturunun yenidən qurulması və yeni şəraitə uyğun təsisat dəyişikliklərin həyata keçirilməsindən ibarət olacaqdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, postsovet məkanının digər ölkələri kimi, respublikamız da keçid dövrünü yaşayır. Ölkənin iqtisadiyyatında həmin dövrün tələblərindən doğan bir sıra obyektiv çətinliklər, problemlər vardır. Ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal olunması, bir milyondan çox vətəndaşımızın qaçqın və köçkünlərə çevrilərək ağır şəraitdə yaşamağa məcbur olması mövcud vəziyyəti daha də mürəkkəbləşdirir. Əsasən obyektiv xarakter daşıyan bu problemlər vətəndaşlarımızın böyük bir qismini çətin sosial-iqtisadi vəziyyətdə yaşamağa vadar edir.

Əhalinin bir hissəsinin maddi sıxıntılar içərisində, ağır vəziyyətdə yaşaması hamımızı narahat edir, incidir. Onu bilməliyik ki, bütün bu problemlər, sıxıntılar, çətinliklər yalnız müvəqqəti xarakter daşıyır. Xalq əmin olmalıdır ki, respublika rəhbərliyi bu sahədə yaranmış vəziyyətin ağırlığını dərk edir və onun aradan qaldırılması üçün bütün mövcud imkanlardan lazımınca istifadə edir və bundan sonra da edəcəkdir. Son illərdə ölkə həyatının müxtəlif sahələrində əldə olunmuş nailiyyətlərimiz onu qətiyyətlə deməyə əsas verir ki, bizi narahat

edən problemlərin həlli yolunda qarşıdakı yaxın illərdə mühüm addımlar atılacaq, xalqımızın üzləşdiyi bir çox sosial-iqtisadi çətinliklər aradan qaldırılacaq, vətəndaşlarımızın rifah halı yaxşılaşacaq və onlar layiq olduqları firavan həyata qovuşacaqlar.

Biz Azərbaycanda bu gün əsl vətəndaş cəmiyyəti qururuq. Çoxsaylı ictimai təşkilatlar, partiyalar, müxtəlif fondlar və cəmiyyətlər, vətəndaş cəmiyyətinin strukturunu təşkil edərək, Azərbaycanın bir çox mühüm məsələlərinin həllində dövlətlə uğurlu əməkdaşlıq edirlər. Biz Azərbaycanda demokratiyanın inkişafını sözün həqiqi mənasında təmin etmək üçün çox səylər göstəririk.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Respublikada müxtəlif yönlü siyasi partiyanın, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, yüzlərlə mətbuat orqanının senzurasız sərbəst nəşr edilməsi, özəl televiziya və radio kanallarının öz verilişlərini maneəsiz efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya ab-havasının hökm sürməsinin konkret əyani nəticələridir. Elə bəzi bədxahların «Azərbaycanda demokratiya yoxdur» deyə car çəkməsi və buna görə də heç bir təzyiqə və təqibə məruz qalmamasının özü ölkəmizdə demokratiyanın mövcud olmasına tutarlı dəlildir. Eyni zamanda unutmamalıyıq ki, bütün bunları biz cəmi 9 il ərzində əldə etmişik. Bu illərin də bir neçəsi Azərbaycanda hökm sürmüş siyasi çəkişmələr, hərc-mərclik, özbaşınalıq dövrünə təsadüf edir. Hələ də qonşu Ermənistanla müharibə şəraitində yaşamağa məcbur olan Azərbaycanda demokratik inkişaf yolunda belə az müddət ərzində əldə edilmiş nailiyyətlər həqiqətən də olduqca böyükdür. Onu təkcə biz yox, yüz illər ərzində demokratiya yolu keçmiş bir çox xarici ölkələrin nümayəndələri də təsdiq edirlər.

2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçki kampaniyası da bunu bir daha nümayiş etdirdi. Deputatlığa namizədlər üçün seçkilərdə tam bərabər şəraitin yaradılması, siyasi partiyaların seçkilərdə iştirak etməsi yolunda hər cür əngəllərin aradan qaldırılması, seçkilərin azad, demokratik, obyektiv keçirilməsi üçün bütün lazımi tədbirlərin görülməsi respublikamızın qısa bir müddət ərzində demokratiya yolunda artıq böyük təcrübə topladığını əyani şəkildə göstərir.

Bəzilərinin güman etdiyi kimi, demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir. Ona görə nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın: Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu bizim strateji kursumuzun mahiyyətini təşkil edir və biz heç vaxt bu yoldan dönməyəcəyik.

Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətini, ədəbiyyatını, incəsənətini, elminin nə olduğunu dərindən bilməlidir. Bu çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz

də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycan dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.

Müstəqillik illərində biz əslində milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağalardan xilas edirik. Bununla yanaşı, biz Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış edirik. Məhz müstəqillik dövründə biz Füzulinin 500 illiyini keçirdik. Əsl poeziya bayramına, milli mədəniyyət bayramına çevrilən bu təntənələr, digər tərəfdən, Azərbaycan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin bayramı idi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı tanıyır, onun həqiqətlərini dünyaya çatdırırlar.

Əsrlərin və minilliklərin qovuşduğu bu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlətlər başçılarının, dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos, nəhayət ki, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı.

«Kitabi-Dədə Qorqud» qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qurmaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin mökəmləndirilməsi, ərazi bütövlüyünün

qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır.

Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açа bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.

Müstəqilliyi qorumaq üçün, müxtəlif xarici təzyiqlərdən, təxribatlardan xilas olmaq üçün gərək Azərbaycanda yaratdığımız ictimai-siyasi sabitliyi qoruyaq, möhkəmləndirək. Bunun üçün gərək Azərbaycanda vətəndaşların birliyi, həmrəyliyi yaransın. Siyasi baxışdan və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır. Mən xalqımızı dəfələrlə buna dəvət etmişəm, bütün vətəndaşlarımızı buna dəvət etmişəm. Bu gün mən bütün siyasi partiyaları, qurumları, təşkilatları – hamısını, bax, bu yola dəvət edirəm. Şəxsi ambisiyaları kənara qoymaq lazımdır. 1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunu gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik. Ona görə də əsas prinsiplərdə, əsas məsələlərdə xalqın birliyi, həmrəyliyi başlıca şərtdir – başqa məsələlərdə müxtəlif baxışlarda ola bilər – və mən vətəndaşlarımızı buna dəvət edirəm.

Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

Bizim yaşadığımız bu dünyada çoxlu əlamətdar günlər və bu günlərlə bağlı saysız-hesabsız təbriklər olubdur, insanlar insanları, xalqlar xalqları, dövlətlər dövlətləri təbrik ediblər. Bu xoş təbrikləri, səmimi dilәkləri meydana gətirən səbəblər, şübhəsiz ki, müxtəlifdir. Amma bu gün Yer üzündə yaşayan insanların, xalqların və dövlətlərin böyük bir qisminin sevinməsinin, bir-birini təbrik etməsinin səbəbi, demək olar ki, eynidir! Qısa bir müddətdən sonra dünya yeni ilə qədəm qoyur! Biz Yeni ilin – 2001-ci ilin, yeni bir yüzilliyin, yeni bir minilliyin günlərini yaşamağa başlayırıq. Yeni yüzilliyin, yeni minilliyin gəlişi bizim üçün bir də ona görə əlamətdardır ki, məhz dekabrın 31-də Yer üzündə yaşayan bütün azərbaycanlılar birlik, qardaşlıq, həmrəylik ucalığını bayram edirlər.

Ömrümüzdən ötüb keçmişə çevrilən hər bir gün tarixə məxsusdur. Əlbəttə, iki yüz əsrin qovuşuğunda min illərin tarixi faktlarını, inkişaf salnaməsini araşdırmaq, bu barədə söhbət açmaq həftələrlə, aylarla vaxt apara bilərdi. Qısaca olaraq yalnız bunu deyə bilərəm ki, Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!

Ötən əsrin tarixi gerçəkliyi, bəşəri dəyərləri barədə danışmaq həm asandır, həm də çətin! Asandır ona görə ki, ötən yüz il bizə vaxt etibarilə digər əsrlərdən yaxındır. Bu əsrin, demək olar, hər ili, hər ayı, hər həftəsi, hər günü nəinki tarixçilər, alimlər tərəfindən qələmə alınmış, eyni zamanda onun bir çox

əhəmiyyətli hadisələri bizim nəsillərin gözü qarşısında baş vermişdir. Bu əsrin xidmətləri daha geniş, daha böyükdür.

XX əsr Azərbaycan xalqının da həyatında silinməz izlər qoymuşdur. Əslində minilliklərin yekununda, əlbəttə ki, yeni bir Azərbaycan təşəkkül tapmışdır. Qazanılmış nailiyyətlər göz qabağındadır, onu hamı təsdiq edə bilər.

Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, nəhayət, ictimai-siyasi intibah yolunu tutmuşdur.

Bu gün hər bir azərbaycanlının fəxr etməyə haqqı var ki, bizim ata-babalarımız olduqca qısa bir zaman içində kütləvi savadsızlığa son qoymuş, vətənimizin bütün insanları oxuyub-yazmağı bacaran məmləkətə çevrilmişdir. Xalqımız ellikcə maarifləşmə prosesini uğurla başa vurmuşdur. Ziyalılar ordusunun yüksək vətəndaş fəallığı ilə Şərqdə ilk teatr, ilk opera, ilk kino və sair Azərbaycanda meydana gəlmişdir. Şəhər və kəndlərin memarlıq siması sürətlə dəyişərək qədim ənənələri hifz edib saxlamaqla yeniləşmişdir. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuş-durmuşdur.

Budur, yüzillik başa çatır və biz özümüzə hesabat verərkən nə qədər dəyişib, inkişaf etdiyimizi tam səmimiyyətlə etiraf etməli oluruq. Ötüb keçən yüzillikdə Azərbaycan xalqı sözün həm hərfi, həm də məcazi mənasında işığa, nurlu bir aləmə çıxmışdır. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələrində dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızin həm iqtisadi, həm siyasi, həm də mənəvi qələbəsidir. Xalqımızın yüksək mənəviyyatdan irəli gələn böyük

dözümü, iradəsi və müdrikliyi bütün Qafqazın sülh, əmin-amanlıq bölgəsinə çevrilməsi üçün ən etibarlı təminatdır.

Hörmətli həmvətənlərim!

Əziz bacılarım, qardaşlarım!

İstəkli övladlarım!

Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun Dünya Birliyində sanballı yer tutmasına imkan verir. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasındakı körpü, böyük İpək yolunun bərpası ölkəmiz qarşısında intensiv inkişaf üfüqləri açır. Məhz öz coğrafi mövqeyimizə görə biz bütün rabitə vasitələrini inkişaf etdirmək və qlobal informasiya sistemi yaradılmasında irəliləyişi təmin etmək üçün misilsiz imkanlara malikik.

Beynəlxalq hüquq baxımından biz gənc dövlətik. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanmasına sərf etməliyik. Məhz belə yüksək intellektual potensialı olan bir ölkədə qüdrətli vətəndaş cəmiyyəti yarana bilər.

Azərbaycan xalqının həyatının son yüz ili neftlə bağlıdır. Həqiqətən də neft, eləcə də ölkəmizin digər qiymətli sərvətləri xalqımızın həyatında əhəmiyyətli rol oynamışdır. Bunu inkar etmək olmaz. Lakin Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır. Bizim xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!

Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zəngin

ləşdirilməsi, müstəqilliyimizin daha da mökəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var-qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqım bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır. İftixarla demək olar ki, Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır.

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurları təqdirəlayiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.

XX əsr Azərbaycanda elmin, ədəbiyyatın və incəsənətin inkişafı sürətli templəri ilə səciyyələnir. Bu əsrdə xalqımızın həmin sahələrindəki ənənələri davam etdirilərək xeyli zənginləşmiş, yeni sahələr, formalar və janrlar yaranıb inkişaf etmişdir. Bu gün hər bir azərbaycanlı ikinci minilliyin bəxş etdiyi böyük korifeylər ilə – Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Məhəmməd Hadi, Abdulla Şaiq, Əlibəy Hüseynzadə, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı, Əliağa Vahid, Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov kimi şair və yazıçıları, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Gahangir Gahangirov, Süleyman Ələsgərov kimi bəstəkarları, Cabbar Qaryağdı, Bülbül, Şövkət Məmmədova, Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Rəşid Behbudov, Şövkət Ələkbərova kimi müğənniləri, Abbas Mirzə Şərifzadə,

Mirzağa Əliyev, Ülvi Rəcəb, Mərziyyə Davudova, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Möhsün Sənani, Mustafa Mərdanov, Hoküməə Qurbanova, Leyla Bədirbəyli kimi səhnə ustaları, Əzim Əzimzadə, Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Qəzənfər Xalıqov, Fuad Əbdürrəhmanov, Elmira Şahtaxtinskaya kimi fırça və tişə ustaları ilə haqlı olaraq fəxr edir. Görkəmli alimlərimiz Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Heydər Hüseynov, Həsən Əliyev, Mustafa bəy Topçubaşov, Əziz Şərif, Murtuza Nağıyev, Zahid Xəlilov, Musa Əliyev, Həsən Abdullayev, Abdulla Qarayev, Cəfər Xəndan, Əbdüləzəl Dəmirçizadə, Məmmədcəfər Cəfərov, Ziya Bünyadov, Fəraməz Maqsudov və başqaları Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərərək ona dünya şöhrəti gətirmişlər. Azərbaycanda sənətin opera, balet, heykəltəraşlıq, kinematoqrafiya kimi yeni növləri yaranaraq surətlə inkişaf etmişdir. Bu hamımızda dərin iftixar və qürur hissi doğurur.

XX əsr Azərbaycan qadınının həyatında da çox əlamətdar bir dövr olmuşdur. Əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, neft sənayesinin sürətli inkişafı qadınların maariflənməsinə və ictimai həyata qoşulmasına güclü təkan verdi. Əsrin 20-ci illərindən başlayaraq həyata keçirilən tədbirlər nəticəsində qadınların hərtərəfli inkişafı üçün geniş üfüqlər açıldı. Qısa müddət ərzində qadınlar arasında savadsızlıq ləğv edildi, onların təhsil səviyyəsi kəskin surətdə artdı. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə yiyələndilər, təhsildə, elmdə və mədəniyyətdə kişilərlə bərabər layiqincə təmsil olundular. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Biz fəxr edirik ki, bu gün ölkəmizin qarşısında duran problemlərin həllində yaxından iştirak edən

Azərbaycan qadını artıq demokratik cəmiyyətin bərabərhüquqlu, fəal üzvü kimi çıxış edir.

Ölkəmizdə bədən tərbiyəsi və idman XX əsrdə xalqımızın həyatının ayrılmaz hissəsinə çevrilmiş sahələrdəndir. İnsana sağlam həyat tərzi, mübarizlik, vətənpərvərlik ruhu aşılamaq, onun intellektual və fiziki imkanları üzə çıxarıb inkişaf etdirmək baxımından idmanın və bədən tərbiyəsinin rolu danılmazdır. Biz fəxr edirik ki, idmanın müxtəlif növlərində öz böyük məharətini göstərərək, Azərbaycanın adını yüksəklərə qaldıran gənclərimiz vardır.

Tarixin bu böyük anında unudulmaz bayramlar münasibəti ilə xalqımın hər bir oğul və qızını sonsuz bir iftixar hissi ilə təbrik edir, hamınıza cansağlığı, əbədi xoşbəxtlik arzulayıram!

Mən bu yeni əsrin, yeni minilliyin ərəfəsində dünyanın hansı guşəsində məskunlaşmasından asılı olmayaraq, Azərbaycanın xoş gələcəyi üçün fəaliyyət göstərən bütün soydaşlarımızı təbrik edirəm.

Bu gün azad, demokratik bir cəmiyyətdə yaşayır, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq. Müstəqillik və ərazi bütövlüyünün təmin olunmasında nizami ordumuzun, zabit və əsgərlərimizin dözümü, rəşadəti danılmazdır. Bu bayram günündə mən onların vətən qarşısında xidmətlərini yüksək qiymətləndirir, hər birinə bayramınız mübarək olsun deyirəm!

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir, dinc yaşamaq istəyirlər. Tale elə gətirib ki, bu gün Azərbaycanın bir milyondan çox sakini öz yurdundan zor gücünə çıxarılıb, onların bir çoxu çadırlarda, heç bir şəraiti olmayan binalarda yerləşdirilibdir. Bu gün mən böyük həyəcan hissi ilə onların hər birini yada salır, tezliklə doğma yurdlarına dönmək arzularına şərik çıxır və inanıram

ki, çətinliklərə mətanətlə sinə gərən qardaş və bacılarımın ata ocağına dönəcəkləri gün uzaqda deyildir.

Bu bayram günündə mən torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid balalarımızın hər birinin ruhu önündə baş əyir, şəhid ailələrinə səbir, dözüm diləyir və bəyan edirəm ki, torpaq naminə özünü fəda etmiş insanların xatirəsi bundan sonra da daim qəlbimizdə yaşayacaqdır!

Gələcəyimiz olan uşaqları, yeniyetmələri, şagirdləri, tələbələri bağrıma basır, onlara mübarizələrlə dolu həyat yollarında cansağlığı və uğurlar diləyirəm.

Dünyada heç bir çətinlik əbədi deyildir. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Ona görə də mən üzümüzə gələn 2001-ci ili ümid, inam ili adlandırıram. Çünki inanıram ki, xalqımız həmişə olduğu kimi, 2001-ci ildə də üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gələcəkdir. Müstəqilliyimiz mökəmlənəcək, torpaqlarımız azad olunacaq, Azərbaycan Respublikası sülh və firavanlığa qovuşacaqdır.

Bayramınız mübarək olsun!

Yeni iliniz mübarək olsun!

Yeni əsriniz, yeni minilliyiniz mübarək olsun!

Yaşasın azad, müstəqil, demokratik Azərbaycan!

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *29 dekabr 2000-ci il*

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN TƏŞKİL EDİLMİŞ YENİ İL ŞƏNLİYİNDƏ NİTQ

Respublika sarayı

30 dekabr 2000-ci il

Əziz uşaqlar!
Əziz balalar!
Bizim sevimli övladlarımız!

Mən sizin hamınızı və sizin simanızda bütün Azərbaycan uşaqlarını, gənclərini qarşıdan gələn Yeni il, 2001-ci il münasibətilə, XXI əsr, üçüncü minillik münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, şən həyat və gözəl-gözəl gələcək arzulayıram.

Bu gün bu salonda keçirilən şənlik, burada hökm sürən gözəl ab-hava hər bir uşağın qəlbində gələcəyə inam, nikbin hissiyyatlar doğurur və bütün bunlar müstəqil Azərbaycan Respublikasının gəncliyinin bugünkü əhval-ruhiyyəsini ifadə edir. Mən sizinlə, valideynsiz uşaqlarla, gənclərlə hər il görüşürəm və bu görüşlərimi, o cümlədən bugünkü gözəl görüşü həyatımın ən xoşbəxt anlarından hesab edirəm.

Hər bir insan uşağı sevir və sevməlidir. Dünyada insana, ata-ana-ya, valideynə, cəmiyyətə, ölkəyə, dövlətə uşaq qədər xoşbəxtlik, sevinc gətirən heç bir şey yoxdur. Əziz balalar, ona görə siz məni bu gün həddindən artıq sevindirirsiniz və təkcə məni yox, güman edirəm, bu Yeni il şənliyini televiziya vasitəsilə müşahidə edənlərin hamısını həddindən artıq sevindirirsiniz. Bu sevincin çox səbəbləri vardır. Ancaq ən əsas

səbəbi odur ki, müstəqil Azərbaycanın istedadlı övladları, uşaqları vardır, demək, xoşbəxt, uğurlu gələcəyi vardır.

Siz uşaqlıq yaşlarını yaşayırsınız. Sizin əksəriyyətiniz Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, həmin hadisə ərəfəsində dünyaya gəlmisiniz. Siz XX əsrin, necə deyərlər, son illərinin yetirmələrisiniz. Bu sizin hər birinizin bugünkü və gələcək həyatında xüsusi rol oynayır və oynayacaqdır. Siz XXI əsrin qurucuları, yaradıcılarısınız, Azərbaycan xalqının xoşbəxt gələcəyisiniz.

Bəşəriyyət, Yer kürəsində yaşayan bütün insanlar indi, bu günlər böyük tarixi anları yaşayırlar. XX əsr, ikinci minillik sona çatır. Yeni XXI əsr, üçüncü minillik başlayır. XX əsrdə insanlar, bəşəriyyət, insan istedadı, dühası, yaradıcılığı o qədər möcüzələr yaradıb ki, bunların hamısı XXI əsrdə hər bir insanın daha da xoşbəxt, firavan, azad yaşaması üçün əsaslar yaradıbdır.

Ölkəmizdə isə XX əsrdə əldə etdiyimiz ən böyük nailiyyət Azərbaycanın dövlət müstəqilliyi, xalqımızın milli azadlığıdır. Biz bu azadlığımızın, istiqlaliyyətimizin 10-cu ildönümünü yaşayırıq. Bu illər Azərbaycan xalqı üçün ağır, çətin, ancaq eyni zamanda, ən xoşbəxt illər olubdur. Bu günədək biz nə qədər çətinliklərə, nə qədər məhrumiyyətlərə düçar olsaq da, əldə etdiyimiz dövlət müstəqilliyimiz, milli azadlığımız hər şeydən üstündür. Bu bizim üçün, yaşlı nəsillər üçün əldə etdiyimiz üstünlükdür, ancaq sizin üçün, uşaqlar üçün, Azərbaycanın gəncləri üçün bunun daha da çox əhəmiyyəti var. Mən ümid edirəm, inanıram ki, XX əsrdə bizim gördüyümüz bəlaları, faciələri, məhrumiyyətləri siz görməyəcəksiniz. Siz öz azad vətəninizdə, müstəqil dövlətinizdə daha da firavan, xoşbəxt yaşayacaqsınız və öz istedadınızı xalqın, vətənin, millətin inkişafına sərf edəcəksiniz.

Bizim yeniyermələr, uşaqlar, əziz övladlarımız bu gün burada öz istedadlarını yenə də nümayiş etdirdilər. Baxdıqca hətta inanmaq mümkün deyildir ki, uşaqlarımız, o cümlədən

valideynsiz, kimsəsiz uşaqlarımız bu qədər ağıllı, zəkalı, istedadlıdırlar və vətənimizi, ölkəmizi bu qədər sevirlər, vətənimizə, xalqımıza, dövlətimizə sədaqət hissi ilə yaşayırlar və böyüyürlər.

Bunları görən hər bir Azərbaycan vətəndaşı – o cümlədən də mən – böyük fərəh, qürur hissi keçirir. Ona görə ki, bizim xalqımız iki minillik tarixdə, XX əsrdə şanlı yol keçmiş, bugünkü yüksək zirvələrə çatmış, elmə, mədəniyyətə, böyük iqtisadiyyata sahib olmuşdur. Ancaq gələcəyə, sizlərə baxanda mən böyük qürur hissi ilə düşünürəm ki, siz nə qədər böyük xarüqələr yaradacaqsınız. XX əsrdə yaşamış, yaratmış nəsillərin – atalarınızın, analarınızın gözəl ənənələrini, xalqımızın milli-mənəvi dəyərlərini daha da inkişaf etdirəcək və yüksəklərə qaldıracaqsınız.

Əsrin sonunda dünyada gedən bir çox ziddiyyətli, ağır proseslər – müharibələr və hərbi münaqişələr nəticəsində bir sıra ölkələrdə uşaq doğumunun sayı, əhalinin artımı azdır və bəzilərində isə əvvəlki illərə nisbətən aşağı düşür. Bizim ölkəmiz də həmin dövrdə çox faciəli illər yaşayıbdır. 12 il bundan öncə Ermənistan torpaq iddiası ilə Azərbaycana hərbi təcavüz edibdir, müharibə gedib, qanlar tökülüb, şəhidlər vermişik, böyük itkilərimiz olubdur. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlarımızdan bir milyondan çox vətəndaşımız, soydaşımız öz doğma yerlərindən zorla, məcburiyyətlə köçürülüblər. Onlar da çadırlarda, yaxud da yaşayış üçün heç bir şəraiti olmayan binalarda məskunlaşıblar. Ancaq belə bir şəraitdə Azərbaycanın əhalisi artır. Azərbaycanda analar ilbəil daha da çox uşaq doğur və ölkəmizdə daha çox uşaq dünyaya gəlir, millətimizin, xalqımızın sayı artır. Bax, siz – bu salona toplaşanlar bunu dünyaya nümayiş etdirirsiniz.

Azərbaycanın ağır sosial-iqtisadi vəziyyətdə olmasına baxmayaraq, uşaq evlərində kimsəsiz uşaqların yaşaması, lazımi

tərbiyə alması, oxuması üçün bütün imkanlar yaradılıbdır. Hər il keçirilən görüşlərdə bunu biz də gözümüzlə görürük, xalqımız da görür. Ona görə də bu gün mən Azərbaycandakı bütün uşaq evlərində çalışan insanlara təşəkkür edirəm və inanıram ki, bu qayğı, uşaqlara olan bu sevgi həm uşaq evlərində, həm məktəblərdə, həm ali təhsil ocaqlarında, həm də bütün cəmiyyətimizdə günü-gündən artacaqdır.

Mən bu gün hər bir valideyni, hər bir atanı, ananı uşağa daha da çox qayğı göstərməyə dəvət edirəm. Bu, Azərbaycan dövlətinin siyasətidir. Müstəqil Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən biri xalqın sosial-iqtisadi vəziyyətini günü-gündən yaxşılaşdırmaqdır. Mövcud çətinliklərə baxmayaraq, biz bu siyasəti həyata keçiririk və nailiyyətlər qazanırıq.

Əziz balalar, sizi əmin edirəm ki, 2001-ci ildə və XXI əsrin əvvəllərində sizə qayğımızın daha da artmasını görəcəksiniz.

Valideynlərin, məktəbin, müəllimlərin, ali təhsil ocaqlarının borcu Azərbaycanın uşaqlarını, gənclərini sağlam əhval-ruhiyyədə, fiziki sağlamlıq səviyyəsində tərbiyə etməkdən, təhsilləndirməkdən və onları bəşəriyyətin kəşf etdiyi bütün möcüzələrlə tanış etməkdən, gələcək həyata hazırlamaqdan ibarət olmalıdır.

Bu gün biz bu salonda sizinlə birgə Yeni il bayramı keçiririk. Eyni zamanda, çadırlarda ağır şəraitdə yaşayan övladlarımızı da unutmuruq. Onlar mənim, Azərbaycan prezidentinin qəlbində xüsusi yer tuturlar. Mən hesab edirəm ki, onlar da bizimlə buradadırlar. Ancaq onlar bütün uşaqlardan daha da qiymətlidir. Ona görə ki, hamıdan ağır şəraitdə yaşayırlar, dözürlər. Belə ağır şəraitdə dünyaya uşaqlar gəlir. Uşaqlar bu şəraitdə təhsil alır, gələcəyin qurucuları olmaq üçün hazırlaşır, mübarizə aparırlar.

Bu bayram günü siz də, biz də yerindən-yurdundan didərgin düşmüş uşaqları bir daha, bir daha yada salmalıyıq. Biz bu salondan onlara bayram təbriklərini göndərərək bildirməliyik

ki, ağır yaşayış dövrü tezliklə qurtaracaq, onlar tezliklə öz yerlərinə-yurdlarına qayıdacaq, sizin kimi daha da şən, daha da firavan yaşayacaqlar.

Əziz balalar, siz gələcək həyatımda, dövlət fəaliyyətimdə şəxsən mənə ilham, ruh verirsiniz. Ancaq düşünürəm ki, təkcə mənə yox, sağlam fikirli hər bir vətəndaşımıza – vətəni sevən hər bir azərbaycanlıya, Azərbaycan vətəndaşına öz varlığınızla, bu gün nümayiş etdirdiyiniz istedadınızla, öz gözəlliyinizlə ruh, ilham verirsiniz və sizin gələcəyiniz üçün bizi daha çox çalışmağa ruhlandırırsınız.

Mən bu əziz bayramlar münasibətilə sizi bir daha təbrik edir, sizə cansağlığı, şən həyat, gözəl gələcək arzulayıram. Gələcək, müstəqil Azərbaycanın gələcəyi sizindir, bugünkü uşaqlarındır, gənclərindir. Mən inanıram ki, müstəqil Azərbaycan sizin çiyinlərinizdə XXI əsrdə uğurla irəliləyəcək və yeni-yeni zirvələrə çatacaqdır.

Baryamınız mübarək olsun!

Sağ olun.

«BAKILI OĞLANLAR» KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

30 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli gənclər, mən birinci növbədə sizin hamınızı qarşıdan gələn yeni il və minillik münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və yaradıcılıq işlərinizdə uğurlar arzulayıram. Mənim bu günüm uşaqlara həsr olunubdur. Bu gün mən Respublika sarayında uşaqlarla görüşürdüm. Son 4–5 ildə Yeni il ərəfəsində belə görüşlər keçirmək artıq ənənəyə çevrilibdir. Mən uşaq evlərində tərbiyə alan valideynsiz uşaqlarla görüşürəm. Bu görüşlər çox maraqlı olur. Televiziya ilə də birbaşa göstərilmişdir. Bu görüşlər həm ictimaiyyət üçün, həm mənim üçün, təbiidir ki, həm də uşaqlar üçün çox maraqlı olur. Mən onların qarşısında çıxış edəndən sonra uşaqlar çox sevinirlər. Hamısı mənə yaxınlaşmaq istəyir, bu da təbiidir.

İndi isə onlardan yaşca böyük olan nəslin nümayəndələri ilə – siz gənclərlə görüşürəm. Sizinlə bu görüşümün məqsədi məlumdur. Mən sizi səhnədə həmişə görürəm. Siz özünüz də bilirsiniz, mən xatırlayıram ki, sizin burada – Azərbaycanda tamaşalarınızın hamısına gəlmişəm və çox böyük həvəslə sizi dinləmişəm, tamaşalarınıza baxmışam. Amma bu gün ilk dəfədir ki, sizinlə bu şəraitdə, səhnədə yox, Prezident sarayında görüşürəm. Bunun da səbəbi ondan ibarətdir ki, siz öz yaradıcı fəaliyyətinizlə, bayram əhval-ruhiyyəsi ilə göstərdiyiniz tamaşalarla böyük nailiyyətlər əldə etmisiniz. Mən bunları

bilirəm, amma siz də öz kollektiviniz haqqında, son yarışlarınız, qələbəniz, aldığınız kubok barədə müəyyən məlumatlar verməlisiniz.

Onu deyə bilərəm ki, ümumiyyətlə, Azərbaycan ictimaiyyəti sizin yaradıcılıq fəaliyyətinizi, xüsusən son qələbənizi çox böyük həvəslə, ruh yüksəkliyi ilə qarşılamışdır. Mən televiziyada gördüm. Aeroportda siz bu kubokla göründükdə, axşam olmasına baxmayaraq, oraya çoxlu adam toplaşmışdı.

Bu il gənclərimizin həyatında ən böyük hadisə, təbiidir ki, Azərbaycan idmançılarının Sidneydə keçirilmiş yay olimpiya oyunlarında iştirakı və əldə etdikləri yüksək, bizim xalqımız və millətimiz üçün tarixi əhəmiyyət daşıyan qələbə idi. Bundan sonra isə sizin qələbənizdir. Doğrudur, bəlkə də bunları müqayisə etmək düzgün olmazdı. Çünki idmançılarımız dünya miqyasında, beynəlxalq yarışlarda, 200-ə qədər dövlətin iştirak etdiyi yarışlarda qələbə əldə etdilər. Siz isə keçmiş SSRİ, Müstəqil Dövlətlər Birliyi məkanında böyük qələbə əldə etmisiniz. Bu qələbə də, təbiidir ki, çox qiymətlidir. Çünki indi keçmiş SSRİ-yə məxsus olan respublikalar müstəqillik əldə edəndən sonra onların hər birində müxtəlif proseslər gedir. SSRİ vaxtında bəzi respublikalarda şən və hazırcavablar klublarını bir dəfə qadağan etdilər.

Ondan sonra isə Müstəqil Dövlətlər Birliyinə daxil olan bir neçə ölkədə bu yarış bərpa olundu. Bir qismində isə keçirilmədi. Amma buna baxmayaraq, şən və hazırcavablar klublarının fəaliyyət göstərdikləri ölkələr arasında sizin əldə etdiyiniz nailiyyət, təbiidir ki, çox yüksək qiymətə layiqdir. Mən bu münasibətlə sizi təbrik edirəm və sizə yeni-yeni uğurlar arzu edirəm.

Son illər sizin yaradıcılıq fəaliyyətinizin ikinci bir tərəfi də meydana çıxıbdır. Bilmirəm bu, başqa ölkələrdə də var, ya yox. Siz indi şən və hazırcavablar klubunun iştirakçıları olmaqla yanaşı, eyni zamanda «Bakılı oğlanlar» adı ilə yeni bir janra keçmisiniz. Bu da çox əhəmiyyətlidir. Mən hesab

edirəm ki, bu sahədə Azərbaycanda əldə etdiyiniz yaradıcılıq nailiyyətləri əvvəlki sahədən, paralel apardığınız işlərdən heç də geri qalmır. Əksinə, çox yüksək qiymətləndirilir.

Çünki sizin bütöv şəkildə hazırladığınız, ölkəmizin vətəndaşlarına təqdim etdiyiniz tamaşalar satira və yumor xarakteri daşıyır və bu da sizin eyni zamanda cəmiyyətdə olan nöqsanlara qarşı gedən mübarizədə xidmətlər göstərməyinizi təsdiq edir. Bəlkə də kimsə sizin tamaşalarda, sadəcə, gülməli epizodlara baxır, gülür və istirahət edir. Amma mən hesab edirəm ki, sizin tamaşalarınızın hər birinin özünəməxsus qiyməti var və yumor, satira janrı kimi, yenə də deyirəm, cəmiyyətimizdə olan nöqsanların aradan qaldırılmasına xidmət edir. Ona görə də siz indi, demək olar ki, çoxşaxəli bir yaradıcılıq mərhələsinə gəlib çatmısınız. Bunlara görə də Azərbaycanda hörmət qazanmısınız. Ancaq təbiidir ki, bizim bütün vətəndaşlarımızı, cəmiyyətimizi sevindirən son yarışlarda sizin əldə etdiyiniz qələbədir. Bu qələbə nəticəsində Azərbaycana gətirdiyiniz bu gözəl kubokdur. İndi isə mən sizi dinləmək istəyirəm.

A n a r M ə m m ə d x a n o v (*«Bakılı oğlanlar» komandasının kapitanı, Milli Məclisin deputatı):* Cənab Prezident, bizi qəbul etdiyinizə görə, icazə verin, birinci növbədə, komandamız adından Sizə təşəkkürümüzü bildirək. Qarşıdan bir neçə bayram gəlir. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Yeni il və yeni əsr münasibətilə Sizi təbrik edirik, Sizə cansağlığı və xoşbəxtlik arzulayırıq.

Siz tamamilə düz buyurdunuz ki, komandamızın aldığı mükafat çox əhəmiyyətli bir kubokdur. Çünki bu turnir XX əsrin çempionunu müəyyən edən yarış idi. 15 il ərzində keçmiş SSRİ məkanında nə qədər çempion olubsa, onların hamısı bu turnirdə iştirak edirdi. Orada iki-üç dəfə çempion olan komandalar da vardı. Mən sizə deyim ki, Tacikistan müstəsna olmaqla, MDB məkanında, hətta Baltikyanı ölkələrin hər yerində şən və hazırcavablar klubları vardır.

H e y d ə r Ə l i y e v: Orta Asiyanın digər respublikalarında varmı?

A n a r M ə m m ə d x a n o v: Bəli. Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda şən və hazırcavablar klubları vardır. Orta Asiya respublikalarından bir də, deyəsən, Türkmənistanda şən və hazırcavablar klubu yoxdur.

Sizə deyim ki, ABŞ-da bəzi ştatlar arasında çempionatlar keçirilir. Onlardan biz bir neçə təbrik məktubu almışıq.

İsraildə, Almaniyada, Avstraliyada da belə yarışlar keçirilir. Bu yaxınlarda Londondan azərbaycanlılar bizə təbrik məktubu göndərmişlər və bizi oraya dəvət edirlər. Təəccüb etdik ki, görəsən, Londonda da şən və hazırcavablar klubu varmı?

Təbiidir ki, bu, keçmiş SSRİ məkanında keçirilən yarışdır. Bu yarış 60-cı illərdən başlanmışdır və Qusmanın başçılıq etdiyi Azərbaycan komandası 70-ci illərdə çempionlar çempionu olmuşdur.

Biz bu kubokla yanaşı, bir medal da almışıq. Medalın üzərində bu sözlər yazılıb: «Şən və hazırcavablar komandaları arasında XX əsrin çempionu».

Cənab Prezident, bu klub 70-ci illərdə Siz respublikamızın rəhbəri olarkən yaranıbdır. Siz indi də Azərbaycanın rəhbərisiniz və «Bakılı oğlanlar» komandası yenə də çempiondur. Biz bu medalı Sizə təqdim etmək istəyirik.

H e y d ə r Ə l i y e v: Mənə niyə verirsiniz? Sizin varınızdırmı?

A n a r M ə m m ə d x a n o v: Bəli, varımızdır. Bizə bu medaldan bir dəst verilibdir.

H e y d ə r Ə l i y e v: Deməli, bunu mənə gətirmisiniz. Mən də bu yarışın iştirakçısıyam?

A n a r M ə m m ə d x a n o v: Biz bu hədiyyəni də Sizə təqdim etmək istəyirik. Burada kiçik ölçülü xalçanın üzərində «Bakılı oğlanlar» klubunun rəmzləri təsvir olunmuşdur.

Cənab Prezident, bu yarış çox mürəkkəbdir. Baxmayaraq ki, yarış iştirakçıları arasında çempionlar da vardı, o cümlədən Cənubi Qafqazdakı qonşularımız, yəni ermənilər iştirak edirdilər. Biz qalib gəldik.

H e y d ə r Ə l i y e v: Gürcülər də iştirak edirdilər?

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, gürcülər həmin yarışda iştirak etmirdilər. Onlarda şən və hazırcavablar klubu vardır, lakin bir o qədər güclü deyil və onlar bu yarışda iştirak etmirdilər. Ən güclü komandalar Dağıstanın və Ermənistanın komandalarıdır. Onların hər biri iki dəfə çempion olubdur. Novosibirsk Akademiya şəhərciyinin, Xarkov şəhərinin komandaları güclüdür və iki dəfə çempion olublar. Odessa komandası çox məşhurdur, Minsk şəhərinin komandası da güclüdür. Ukrayna, Rusiyanın birgə komandası – bu komandanı faktiki olaraq MDB-nin yığma komandası adlandırırlar – həmin yarışlarda iştirak edirdilər.

Biz 1992-ci ildə Ermənistan komandası ilə finala çıxmışdıq. Həmin oyunun nəticələrini ləğv etdilər. Dedilər ki, yarış olmayacaq. Hər iki komandaya çempion adı verdilər.

1993-cü ildə bizə çempion adı veriləndə peşəkar münsiflər heyətinin rəyi ilə biz çempion adını qazanmışıq. Münsiflər heyətinin tərkibində olan Moskva hökumətinin nümayəndələri, nədənsə, qələbəni Novosibirsk şəhərinin komandasına verdilər. 1995-ci ildə Odessa şəhərinin komandası ilə biz super kubok uğrunda yarışmışıq. Siz özünüz də ona tamaşa etmisiniz. Ondan sonra biz qərara gəldik ki, Bakıda çıxış edək. Yəni MDB miqyasında keçirilən yarışlardan imtina etmək qərarına gəlmişdik. Amma iş belə gətirdi ki, Maslyakov bizə zəng edərək dedi ki, çempionlar çempionu turniri keçiriləcəkdir. Biz məsləhətləşdik və qərara aldıq ki, həmin yarışda iştirak edək. İlk yarışımız Odessa şəhərinin komandası ilə oldu. Orada yarışın nəticələrinin qiymətləndirilməsi səsvermə yolu ilə müəyyən edilmir. Qiymətləndirmədə bilavasitə zalda

əyləşənlər iştirak edirlər. Bundan başqa, bilavasitə zəng edib yarış iştirakçılarının nəticələrini qiymətləndirmədə iştirak edənlər var idi. Odessa şəhərinin komandası ilə yarışda biz 91 faiz səs topladıq. Sonuncu oyun çox mürəkkəb idi. Dağıstan Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov zalda birinci cərgədə əyləşmişdi. Onların Milli Məclisinin sədri, Baş naziri də orada idilər. Ermənilərin bütün diasporu da zalda idi.

Biz gördük ki, bu çox mürəkkəb və məsuliyyətli oyun olacaqdır. Çünki qalib komanda XX əsrin çempionu adını qazanacaqdır. Belə alındı ki, biz qalib gəldik.

Ermənistan mətbuatında yazırlar ki, guya biz bu qələbəni hansı yollarlasa almışıq. Amma deyə bilərəm ki, Vladivostokdan Nyu-Yorka qədər yüz min nəfər zəng edərək yarışın nəticələrini qiymətləndirmişdir. Mən bilmirəm, yüz min nəfərin rəyini təsir göstərməklə necə almaq olar. Ermənilər bunu da etiraf etmək istəmirlər.

Onu da deyim ki, yarışa baxan tamaşaçılara rəy bildirmək üçün talonlar verilir. Ermənilər özləri həmin talonları azərbaycanlı tamaşaçılara verərək deyirdilər ki, biz «Bakılı oğlanlar» komandasına səs verməyə çəkinirik, qorxuruq ki, bəzi adamlar bizi məzəmmət edərlər. Bizim əvəzimizə siz onlara səs verin.

Cənab Prezident, biz çox sevinirik ki, bu kuboku Azərbaycana gətirə bilmişik. Çox xoşbəxtik ki, biz qonşularımıza – onlar həmişə deyirdilər ki, mədəniyyətləri, intellektual səviyyələri yüksəkdir – qalib gəldik. Şən və hazırcavablar klublarının yarışı elə bir oyundur ki, orada hər cür yumor, intellektual potensial, rəqs və sair nümayiş etdirilir. Hollivudda ermənilərin çox məşhur bir balabançısı var. Los-Ancelesdən onu Moskvaya gətirmişdilər ki, orada erməni xalq mahnılarını ifa etsin.

H e y d ə r Ə l i y e v: Dağlıq Qarabağda da bir erməni zurnaçı var idi. Bakıda bayramlara həsr olunmuş konsertlərdə çıxış etmişdi.

A n a r M ə m m ə d x a n o v: Ermənilər doğrudan da çox məyus idilər. Biz qələbəmizə çox sevindik.

Xarkov komandası çox güclü idi. Bu komanda həmişə çox güclü olubdur. Həmin komanda 1996-cı ildə onilliyin ən yaxşı komandası adını almışdı. Odessa komandası da çox məşhurdur. Bu komanda NTV-də, ORT-də müxtəlif verilişlərdə iştirak edibdir.

Ümumiyyətlə, indi şən və hazırcavablar klubları çox məşhurdur. Rusiya Kommunist Partiyasının sədri Gennadi Zuqanov bu yaxınlarda verdiyi müsahibədə bildirmişdir ki, «mən 60-cı illərdə şən və hazırcavablar klubunun kapitanı olmuşam». Rusiya Federasiyasının keçmiş Baş naziri Kiriyenko da deyir ki, şən və hazırcavablar klubuna başçılıq etmişdir.

Şən və hazırcavablar klubları Rusiyada çox məşhurdur. Rusiya televiziyası kanallarının göstərdiyi verilişlərin 75 faizini keçmiş şən və hazırcavablar klublarının üzvləri aparırlar. Rusiyanın «Yedinstvo» blokunu hakimiyyətə gətirənlərin hamısı bizimlə yarışan şən və hazırcavablar klublarının üzvləridir. Rusiyanın Mətbuat naziri Lesin də Moskva institutlarından birinin şən və hazırcavablar klubunda iştirak etmişdir. Baltikyanı ölkələrdə şən və hazırcavablar klubları heç vaxt Rusiyada keçirilən belə yarışlarda iştirak etmir. Baltikyanı ölkələrdə şən və hazırcavablar liqası vardır. Belə klublar orada da çox inkişaf edibdir və orada xüsusi beynəlxalq festival keçirilmişdir. Yəni şən və hazırcavablar klubları beynəlxalq miqyasda çox inkişaf edir. ABŞ-da çoxlu komandalar vardır. Onlar da Rusiyaya gəlirlər. İsrailin də komandaları çoxdur. Əslində, bu onların oyunudur və getdikcə orada komandaların sayı artacaqdır. İngiltərədə, Almaniyada çoxlu şən və hazırcavablar klubları vardır. Biz fəxr edirik ki, Azərbaycanda da komandalar çoxdur. Mən xüsusi vurğulamaq istəyirəm ki, həmin komandalar Azərbaycan dilində çıxış edirlər. Bu komandalar təkcə Bakıda yox, Gəncədə, Lənkəranda da vardır.

Yadımdadır, 1994-cü ildə məni şən və hazırcavablar klubunun talış dilində çıxışına tamaşa etməyə şəxsən çağırdılar. Zarafat etmirəm. Mən dedim ki, talış dilini bilmirəm, amma sizi salamlayıram. Əli Bayramlıda, Mingəçevirdə, Masallıda və başqa şəhərlərdə şən və hazırcavablar klublarının komandaları vardır. Təkcə Gəncə şəhərində 15 belə komanda fəaliyyət göstərir. Bakıda elə bir məktəb və institut yoxdur ki, orada şən və hazırcavablar komandası olmasın. Biz bununla fəxr edirik.

Biz sevinirik ki, Azərbaycan dilində çıxış edən şən və hazırcavablar klubları belə inkişaf edibdir. Biz altı ildir ki, bu klublar arasında festivallar keçiririk. Bu festivallarda 140-a qədər komanda iştirak edibdir. Eyni zamanda biz həmişə deyirik ki, şən və hazırcavablar klubları incəsənətin elə bir növüdür ki, əgər cəmiyyətdə sabitlik olmasa, bu klublar inkişaf edə bilməz.

Biz 1992–1993-cü illərdə çempion olmuşuq. O vaxt biz Bakıda konsert verə bilmirdik. Çünki o vaxt sabitlik yox idi.

Cənab Prezident, biz Sizə təşəkkür edirik ki, Siz bu şəraiti yaratmısınız, gənclər şən və hazırcavablar klubunda iştirak edirlər, pis işlərlə məşğul olmurlar. Bu Sizin Azərbaycan xalqı üçün yaratdığınız şəraitin nəticəsidir. Ona görə də Sizə təşəkkürümüzü bildiririk.

Mən bir şəxsin də xidmətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevi nəzərdə tuturam. Əlbəttə, şən və hazırcavablar klublarının inkişafında onun xüsusi xidmətləri vardır.

1995-ci ildə biz sözün əsl mənasında, yüksək zirvəyə çatanda bilmirdik ki, necə edək, haraya gedək, işimizi necə davam etdirək. Biz komandanı dağıtmaq istəyirdik. İlham Əliyev bunun qarşısını aldı. O dedi ki, konsertlər vermək lazımdır. Komanda ölkəmizin informasiya blokadasından çıxarılmasında iştirak etməlidir. Mən İlham Əliyevin rolunu xüsusi vurğulamaq istəyirəm. O, doğrudan da bizə, təkcə bizim komandamıza yox,

bu hərəkata – şən və hazırcavablar klublarına böyük dəstək verdi. Biz ona öz təşəkkürümüzü bildiririk.

M u r a d D a d a ş o v: Cənab Prezident, dekabrın 21-də Moskvada təltifetmə mərasimi oldu və biz həmin mərasimdə iştirak etdik. Ermənistan komandasının üzvləri salonda oturmuşdular. Sifətlərindən görünürdü ki, çox ağır hisslər keçirirlər. Bütün bunları biz görürdük. Biz böyük sevinc içində idik. Çünki kubokla, medallarla səhnədə idik, onlar isə məğlub olmuş halda zalda idilər.

E l ç i n Ə z i z o v: Cənab Prezident, deyəsən sabah, Allah qoysa, bu məqamları televiziyada göstərəcəklər.

H e y d ə r Ə l i y e v: Nəyi, təqdimetmə mərasimini?

E l ç i n Ə z i z o v: Bəli, təqdimetmə mərasimini.

A n a r M ə m m ə d x a n o v: Rusiyanın ORT proqramı göstərəcəkdir. 8–10 dəqiqə veriliş həmin yarışın yekunlarına həsr olunub. Yarışların aparıcısı «Bakılı oğlanlar» komandasının qalib gəldiyini bildirir. Biz Azərbaycan televiziyasının rəhbərliyindən xahiş etmişik ki, ORT-də göstəriləcək həmin verilişi Azərbaycan tamaşaçılarına çatdırsınlar.

Biz qeyd etmək istəyirik ki, doğrudan da yarış noyabrın 11-də başlanmışdı. Biz çalışmışıq ki, çıxışlarımızda həm də muğamatımız səslənsin. Komandamızın üzvü Bilal Əliyev, gözəl xanəndələrimiz Gülyaz və Gülyanaq bacıları da komandamızla birlikdə olublar.

Əlbəttə, Rəşad Həşimov, «Rast» qrupunun rəhbəri, «Yaşa, Prezidentim, yaşa!» mahnısının bəstəkarı var, o bizim musiqi rəhbərimiz idi, musiqi tərtibatını o vermişdi. O deyirdi ki, siz musiqidə qeyri-peşəkarsınız. Eyni zamanda komandamızda Abşeron adlı çox gözəl bir uşaq qrupu var. Biz onları da Moskvaya aparmışdıq. Tam hazır vəziyyətdə getmişdik. Çox şadıq və xoşbəxtik ki, XX əsrin çempionu olduq.

Cənab Prezident, çox təəssüflər olsun ki, komanda növləri inkişaf etmir. İdmanda da belədir. Güləşçilər, cüdoçular,

tennisçilər, gülləatanlar yaxşıdır. Amma idmanın komanda növləri inkişaf etmir. Son zamanlar biz bunun şahidiyik ki, futbol, voleybol inkişaf etmir. Bizim hamımız istedadlıyıq. Ona görə də həmişə şəxsi yarışlarda iştirak edirik.

Bizim üçün fərəhli bir haldır ki, şən və hazırcavablar klubumuz komanda kimi çempion oldu.

T i m u r V a y n ş t e y n: Cənab Prezident, biz Moskvaya gedəndə mən dedim ki, biz uduzmayacağıq. Başqa cür ola da bilməzdi.

Bu gün bizi qəbul etdiyinizə görə çox sağ olun. Bizim komandamız bu turnirdə qalib gəldi. Bu bizim evimizdə ikinci medal olacaqdır. Mənim atam da 70-ci illərdə çempion olmuşdur. İndi aldığım medal isə 2000-ci ilin, XX əsrin çempionunun medalıdır. Moskvada hamı bilir ki, Azərbaycanın komandası çempionlar çempionudur, güclüdür. «Moskovski komsomolets» qəzetində Anar Məmmədxanova kubokun təqdim olunmasını əks etdirən fotoşəkil verilmişdir. Üç gün bundan əvvəl mən Moskvadan Bakıya gələrkən təsadüfən Ermənistan komandasının kapitanı ilə rastlaşdım. O mənə diqqətlə baxdı və dedi ki, təbrik edirəm. Siz sübut etdiniz ki, hamıdan güclüsünüz. Ona görə də demək istəyirəm ki, bizim uduzmağa haqqımız yox idi. İnanıram ki, bundan sonra da heç vaxt uduzmayacağıq.

Keçən ilin aprel ayında biz Azərbaycan prezidentinə söz vermişdik ki, qalib gələcəyik.

A n a r M ə m m ə d x a n o v: Mən komandanın üzvlərinə demişdim ki, siz prezidentə söz vermişdiniz ki, qalib gələcəyik. Cənab Prezident, çox şadıq ki, verdiyimiz sözə əməl etdik.

E l ç i n Ə z i z o v: Final yarışı başlanmazdan əvvəl biz geyinib-soyunma otağında toplaşaraq Azərbaycan himnini səsləndirdik və bu himnin sədaları altında səhnəyə çıxdıq. Biz başa düşürdük ki, uduzmayacağıq.

Azərbaycanın şən və hazırcavablar komandası 1992-ci ildən etibarən heç vaxt uduzmayıbdır. Həmişə də özümüzə deyirdik ki, biz uduzmamalıyıq və uduzmayacağıq. Özümüzə olan inamımız qələbəmizi təmin etmişdir.

Sonuncu oyuna biz yaxşı hazırlaşmışdıq.

A n a r M ə m m ə d x a n o v: Bu ilin iyun ayında biz Qusarda olduq. Bir ay orada – Qarabulaqda məşq etdik, yarışa hazırlaşdıq.

Biz bilirdik ki, rəqiblərimiz Eçmiədzinə gediblər, orada and içiblər, nəzir veriblər. Biz bunun hamısını bilirdik. Təkcə Ermənistanın yox, digər MDB ölkələrinin də komandaları güclü idi. Dağıstanın komandası güclü olmasına baxmayaraq, uduzdu.

T a h i r İ m a n o v: Cənab Prezident, Moskvada şən və hazırcavablar klublarının yarışı çox ciddi keçdi. Yarış ərəfəsində biz yığışaraq bir-birimizə söz verdik ki, uduzsaq, geri qayıtmayacağıq. Doğrudan da hamı, bir nəfər kimi, qələbə naminə əlindən gələni etdi.

H e y d ə r Ə l i y e v: Demək, qələbəsiz qayıtmaq istəmirdiniz.

A n a r M ə m m ə d x a n o v: Bəli.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Danışıqlarınızdan bir daha hiss etdim ki, hazırlıq dövründə və yarışda siz həqiqətən nə qədər gərgin iş görmüsünüz. Adlarını çəkdiyiniz komandalar həqiqətən güclü komandalardılar. Onların da çoxillik təcrübəsi vardır. Bu komandaların hərəsinin öz tarixi var. Yəni onlar da qələbələr əldə ediblər. Əgər siz bunların hamısına qalib gəlmisinizsə, demək, bir tərəfdən, siz doğrudan da güclüsünüz, ikinci tərəfdən də, yaxşı hazırlaşmısınız, yəni bu işə məsuliyyətlə yanaşmısınız. Bəzən çox güclü adam hansısa bir yarışda ancaq öz gücünə arxayın olaraq gücsüzə uduzur. Çünki arxayınçılıq hissi onu çaşdırır. Amma siz biliyinizlə qalib gəlmisiniz. Əlbəttə ki, bu oyun birinci növbədə,

zəka oyunudur. Bu, boks, güləş, yaxud da başqa bir idman növü deyil ki, orada güclə, yaxud da başqa hərəkətlə qalib gələsən. Bu, zəka oyunudur. Bu da təbiidir ki, birinci növbədə, gərək baş yaxşı işləsin.

Sizin komandanız elə komandadır ki, orada yaxşı zəkalı gənc oğlanlar toplanıb və bu ənənə də Azərbaycanda çoxdandır ki, davam edir. Ancaq sizin qələbənizin əsas şərti ondan ibarətdir ki – mən sizi anladım – siz bu işə çox məsuliyyətlə yanaşmısınız, hazırlaşmısınız və qalib gəlmisiniz.

Təbiidir ki, bütün komandalara qalib gəlmək, ümumiyyətlə, qələbə qazanmaq arzusu sizi bu nəticəyə gətirib çıxarmışdır. Amma güman edirəm ki, bu arzuların içərisində məhz Ermənistanın komandasına qalib gəlmək hissi sizdə daha da böyük güc, bu işə böyük səy yaradıbdır. Ola bilər ki, əgər Ermənistanın komandası olmasaydı, siz bu qədər çalışmazdınız. Sizin qarşınızda bu məsələ durubdur ki, mütləq onlara qalib gələsiniz.

Bilirəm, sizin danışığınızdan, sözünüzdən belə anladım ki, əgər Dağıstan komandası güclü komandadırsa və Dağıstanın bütün hökuməti gəlib orada oturubsa, yaxud da ki, Moskvada çox güclü erməni diasporu var və onların da çoxu tanınmış adamlardır, onlar gəlib orada oturublarsa – sizin isə, mən belə başa düşdüm ki, bu cür dayağınız olmayıbdır, olubsa da, çox az olubdur – bu bir daha sizin qələbənizin nə qədər əhəmiyyətli olduğunu göstərir. Demək, iş onda deyil ki, sənin nə qədər hörmətli, yaxud da ki, tanınmış azarkeşin olsun. İş ondadır ki, sənin özün öz gücündən istifadə edə biləsən, öz ağlını, zəkanı nümayiş etdirə biləsən və qalib gələsən. Bütün bunlar bir daha sizin bu qələbənizin xüsusi əhəmiyyətə malik olduğunu göstərir və buna görə də mən sizi bir daha təbrik edirəm.

Ancaq mənim üçün çox sevindirici bir haldır ki – bunu mən bilirdim, amma bu qədər də yox – Azərbaycanın müxtəlif

bölgələrində, rayonlarında, şəhərlərində bu oyuna böyük həvəs yaranıbdır. Bu bizim müstəqil Azərbaycan üçün çox əhəmiyyətlidir. Həqiqət ondan ibarətdir ki, biz bu oyunu keçmişdə SSRİ-də yalnız rus dilində aparırdıq. Rus dilini bilməyən gənc nə qədər ağıllı, zəkalı olsaydı da, bu oyunda uğurla çıxış edə bilməzdi. Ancaq əgər indi oyun Azərbaycan dilində gedirsə və bizim müxtəlif şəhərlərimizdə, rayonlarımızda azərbaycanlılar sırf Azərbaycan dilində bu oyunları aparmağa çalışırlarsa və komandalar yaradıblarsa, bu çox yaxşı haldır. Buna görə də mənim sizə tövsiyəm və xahişim ondan ibarətdir ki, onlara himayəçilik edəsiniz, kömək göstərəsiniz.

Çünki siz bilirsiniz, bizim gənclərə olan qayğımızla onu təmin etmək istəyirik ki, onların hər biri istedadı sayəsində özünü göstərə bilsin. Gənc insan özünü nə qədər göstərə bilirsə, təbiidir ki, onun üçün müvafiq olan sahədə o qədər də tez inkişaf edir, cəmiyyətdə öz yerini tutur. Ona görə də gənclərlə iş sahəsində bu amilin çox böyük əhəmiyyəti vardır. Hesab edirəm ki, şən və hazırcavablar klubunun ağsaqqalı kimi, siz bəlkə bu təşkilatçılıq işini əlinizə alasınız – yəni hər şəhərdə, rayonda olan komandalar elə özləri öz içərisində nə mümkündür edirlər, bu yolla gedirlər – onlara kömək etsəniz, məsləhət versəniz, yəni onlar sizin qayğınızı hiss etsələr, məsləhətlərinizə baxsalar, öz yaradıcılıqlarını daha uğurla göstərə bilərlər.

Ona görə də mən sizdən xahiş edirəm. Mən istəməzdim ki, prezident bu barədə qərar çıxarsın və yaxud da ki, fərman versin. Ancaq bizim aparatda da düşünmək lazımdır, nə edək ki, müxtəlif şəhərlərimizdə, rayonlarımızda gənclərin bu oyuna həvəsini daha da artıraq.

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, Tatarıstanda şən və hazırcavablar klubları ilə bağlı xüsusi dövlət proqramı qəbul edilibdir. Büdcədə də bu məsələ ayrıca bənd kimi

ifadə olunmuşdur. Mən bu yaxınlarda bunu öyrənmişəm. Tatarıstanın prezidenti Mintimer Şaymiyev dövlət proqramı qəbul edibdir.

Cənab Prezident, amma Siz ilk prezidentsiniz ki, şən və hazırcavablar klubunun tamaşalarında iştirak etmisiniz. Sizdən sonra, yəni 1996-cı ildə Yeltsin şən və hazırcavablar klubunun tamaşasında iştirak etmişdi. 2000-ci ildə isə Putin bu komandaların yarışında iştirak edibdir.

H e y d ə r Ə l i y e v: Mən bilirəm Yeltsin nə üçün gəlmişdi. Seçkiqabağı kampaniya olduğu üçün o həmin yarışda iştirak edirdi.

Mənim iştirakım isə həmin oyunlara bizim münasibətimizi göstərir. Ancaq mən yenə də əsas mövzuya qayıdıram. Anar deyir ki, Tatarıstanda dövlət proqramı qəbul edilibdir. Biz də hansısa bir tədbir görə bilərik. Bizim Gənclər və İdman Nazirliyini bu işə ciddi qoşa bilərik. Onların vasitəsilə bu məsələyə dövlət yardımını təmin edə bilərik. Çünki, yenə də deyirəm, hər bir belə oyun gənc insanı pis əməllərdən uzaqlaşdırır. Məsələn, bədən tərbiyəsi, idman keçmişdə də olubdur, indi də var. Mən nə üçün indi bu barədə çox çalışıram. Çünki idmanla, bədən tərbiyəsi ilə məşğul olan gənc pis yola getməyəcəkdir. Şəraba, arağa, siqaret çəkməyə aludə olmayacaqdır. Yaxud da gedib narkotiklərə aludə olmayacaqdır.

Qərb ölkələrində soruşurlar ki, hər hansı bir şəxs narkotik çəkib, ya çəkməyib. Kimsə deyir ki, yox, bunu iyləmişəm və sair. Bu mənim üçün təəccüblü görünür. Çünki bizim gəncliyimiz dövründə bunlar çox nadir hadisələr idi. Mənim yadımdadır, ilk dəfə Bakıya gəlib sənaye institutuna daxil olanda deyirdilər ki, şəhərin bəzi küçələrində cavan oğlanlar anaşa çəkirlər. Heç bilmirdim ki, anaşa nədir. Sonra dedilər ki, papirosun tütününü çıxardırlar, onun içərisinə anaşa doldururlar, çəkib bihuş olurlar. Belə hallar çox azlıq təşkil edirdi. Ancaq indi bu, dünya problemi olubdur.

A n a r M ə m m ə d x a n o v: Təəssüflər olsun ki, bu da vardır.

H e y d ə r Ə l i y e v: Bəli. Təəssüflər olsun ki, burada da vardır.

Mən bir neçə il bundan əvvəl bu barədə narahat deyildim. Hətta yadımdadır, Moskvada işlədiyim son illər – 1985, 1986, 1987-ci illərdə SSRİ hökumətində bu məsələ müzakirə ediləndə, mən təəccüblənirdim, deyirdim ki, biz niyə, nə üçün bu məsələni müzakirə edirik? Yəni bu o qədər təhlükəlidir? Deməli, o vaxt SSRİ-nin müəyyən regionlarında geniş yayılmışdı və bu təhlükə hiss olunurdu. Amma 1993-cü ildə Azərbaycana gələndə mən heç düşünmürdüm ki, burada bu inkişaf edə, yayıla bilər. Amma təəssüf ki, indi biz bunu görürük.

Amma təkcə bu deyildir. Gənclərdə başqa əməllər də vardır. Mən onları günahlandırmıram. Onlar bu əməllərə gedirlər, ona görə yox ki, onu sevirlər. Kimsə təsir altına düşür, sağlamlığı, şüurunun yaxşı inkişaf etməsi üçün məşğuliyyət tapa bilmir, başqa işə cəlb oluna bilmir, yaxud da başqa işə qoşula bilmir, axırda gedib ona qurşanır.

Ona görə də şən və hazırcavablar klubunun inkişaf etdirilməsi təkcə klubun naminə yox, gənclərimizin sağlamlığı, onların intellektual inkişafı naminə çox mühüm məsələdir. Ona görə də siz qeydiyyata alın ki, Azərbaycanda şən və hazırcavablar klubları haralarda vardır – yəqin ki, Anar bunu daha yaxşı bilir – bu klublar nə səviyyədədir, nə etmək lazımdır. Bizim yerli icra hakimiyyəti orqanlarını bu işə cəlb etmək olar. Təəssüf ki, onların bəziləri şən və hazırcavablar klublarının nə olduğunu heç bilmirlər.

Görürəm xoşunuza gəldi. Növbəti nömrənizi bu mövzuya həsr edərsiniz.

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, bilirsiniz, şən və hazırcavablar klublarının inkişafında televiziyanın da xüsusi rolu vardır. Şən və hazırcavablar klubu birinci növbədə

televiziya oyunu idi. O səbəbdən inkişaf etdi. Hesab edirəm, Azərbaycan televiziyasında da bu oyuna xüsusi yer vermək lazımdır.

H e y d ə r Ə l i y e v: Bəli, yer vermək lazımdır. Bir sözlə, mən çox məmnunam ki, Azərbaycan gəncləri, oğlanları bir daha yüksək qələbə qazanıblar. Sizi yenə təbrik edirəm. Arzu edirəm ki, gələcəkdə də xalqımızı, millətimizi, ölkəmizi yeni-yeni qələbələrlə sevindirəsiniz.

Ancaq bilmirəm, başqa şən və hazırcavablar klubu sizin kimi çıxış edə bilər, ya yox? Söhbətimizin əvvəlində dedim ki, siz başqa bir istiqamətdə də inkişaf etmisiniz. İndi çox gözəl tamaşalar verirsiniz və onlar da çox populyardır.

Sən o gün televiziyada çıxış edirdin, eşitdim ki, beş gün dalbadal Respublika sarayında tamaşa vermisiniz. Hər gün də salon tamaşaçı ilə dolu olubdur. Bizim ən populyar incəsənət xadimimiz belə bir səviyyəyə çata bilmir. Axı nə üçün? Mən bu barədə də fikrimi demək istəyirəm. Siz xüsusi bir istedad nümayiş etdirirsiniz. Mən bunu çox qiymətləndirirəm və istəyirəm ki, siz bunu davam etdirəsiniz.

Təbiidir ki, bizim Musiqili Komediya Teatrımız var, yaxud da ki, dram teatrlarında satira, yumor səhnələri göstərilir. Ancaq gərək siz də özünüzdən çox da razı olmayasınız. Siz bu sahədə çox yaxşı səviyyəyə çatmısınız. Mən söhbətimizin əvvəlində sözümü sizə dedim. Biz ölkəmizdə, cəmiyyətimizdə olan nöqsanları aşkar edib, onlarla mübarizə aparmalıyıq. Mübarizənin müxtəlif yolları vardır. Ancaq çoxları hesab edir ki, bunun əsas yolu inzibati yoldur – kimisə sıxışdırmaq, cəzalandırmaq, azadlıqdan məhrum etməkdir. Təbiidir ki, cinayətkarlığa qarşı bu vasitələrdən istifadə olunmalıdır. Ancaq insanların çoxu sizin satira və yumorunuzu dinləyəndə, göstərdiyiniz müxtəlif səhnələri görəndə düşünməlidirlər. Sizin göstərdiyiniz xəstəxana səhnəsi indiyədək mənim yadımdadır, lakin hamısı yox. Orada göstərirsiniz ki, tibb bacısından soruşur,

yeməyə bir şey varmı? O da bildirir ki, var, 16-cı palatada dolma vardır. Bu həqiqətdir ki, bizim xəstəxanalarda xəstələrə istənilən qədər yemək verilmir. Bu məlumdur. Keçmişdə də bu olubdur, amma indi, təbiidir ki, bizim tibb sahəsinə ayırdığımız vəsait, bir tərəfdən, bəlkə təmin etmir, o biri tərəfdən də, tibb işçilərinin özləri bunları yeyirlər. Ancaq bu bəs deyilmiş kimi, evlərdən xəstələrə gətirilən yeməklərə də göz dikirlər.

T a h i r İ m a n o v: Bunlar həyatdan götürülmüş, olmuş şeylərdir.

H e y d ə r Ə l i y e v: Bilirəm, həyatdan götürmüsünüz. Amma bunu həyatdan götürüb o cür satira, yumor formasında vermək – deməli, bu kimlərə təsir edə bilər. Təkcə bu deyil, sizin yumor səhnələrinizin hamısı xatirimdədir.

Siz çoxlu kasetlər buraxıb satmısınız. İnsanlar da onları çox alırlar. Mən hesab edirəm ki, bununla yəqin ki, maliyyə vəziyyətinizi yaxşılaşdıra bilmisiniz.

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, təəssüflər olsun ki, kasetləri bu işlə qeyri-qanuni yolla məşğul olanlar satırlar. Onlarla mübarizə aparmaq çox çətindir.

H e y d ə r Ə l i y e v: Mən elə bilirdim ki, özünüz satırsınız.

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, mümkün deyildir. Onlar bir kaset çəkirlər, xüsusi sexləri var, lisenziyasız satırlar. Onlarla mübarizə aparmaq çox çətindir.

H e y d ə r Ə l i y e v: Bunu siz özünüz niyə etmədiniz?

A n a r M ə m m ə d x a n o v: Biz bunun istehsalı ilə məşğul olsaq, keyfiyyətli edərik. Onlar isə keyfiyyətsiz edirlər. Kasetin birini 7 min manata satırlar. Bizim istehsal etdiyimiz kasetlər isə 15 min manata başa gəlir.

H e y d ə r Ə l i y e v: Belə çıxır ki, sizin məhsulunuz az tapılan mal kimi çoxlarına qazanc gətirir.

M u r a d D a d a ş o v: Cənab Prezident, çox adam kasetə baxır və deyirlər ki, biz sizə o qədər baxırıq ki, ailəmiz üçün doğma olmusunuz. Valideynlər bildirirlər ki, uşaqlar dərs oxumaqdan çox sizin kasetlərə baxır, şən və hazırcavablar klubunun tamaşalarını daha yaxşı bilirlər.

H e y d ə r Ə l i y e v: Mənim övladlarım və nəvələrim sizin bəzi tamaşalarda olublar, baxıblar. Ancaq ondan sonra kasetlərə baxırlar. Çünki deyirlər ki, videokasetdən alınan təəssürat tamaşaya baxarkən yaranan təəssüratdan güclüdür. Bu, həqiqətən belədir. Mənim özüm də bunu hiss etmişəm. Çünki orada insanın fikri dağılır, oraya baxırsan, buraya baxırsan, amma kasetlərə baxanda səhnələr daha aydın görünür.

Mənim qızım və nəvələrim Londonda sizin hər bir kasetinizə bəlkə də 10–15 dəfə baxıblar. Onlarla telefonla danışanda hər dəfə sizin göstərdiyiniz müəyyən bir səhnə haqqında mənə danışırlar. Çünki bu tamaşaların hamısı mənim yadımda qalmır. Amma onların yadında qalır. Mənə danışıb məni güldürürlər.

Təbiidir ki, İlham həmişə sizinlə birlikdə olur. Sən onu dedin. Amma qızım Sevillə danışanda demişdim ki, siz qələbə çalmısınız, o mənə dedi ki, bizim də ən böyük sevgilərimizi onlara çatdırın. Onlar Azərbaycandan uzaqda olduqları halda sizin kasetlərinizdən zövq alırlar.

Ona görə də siz bu sahəni inkişaf etdirin. Bir də ki, üzünüzə demək yaxşı deyil, amma eyni zamanda sizi həvəsləndirmək yaxşıdır. Mən baxıram, sizin çoxunuz, demək olar ki, hamınız bizim komediya teatrının artistlərindən daha güclüsünüz. Bilmirəm, siz gedib artistlik etmək istəyirsiniz, yoxsa yox, amma çox istedadlısınız. Mən insanı heç vaxt üzünə tərifləmirəm. Ümumiyyətlə, tərifləməyi sevmirəm. Ancaq, sadəcə olaraq, bunu deməyə məcburam. Çünki hər dəfə sizin tamaşaya gələndə o qədər gülürəm, sonra gedib evdə də yadıma salıram. Bəzən komediya, yumor, satira o qədər səthi, bəsit olur

ki, kimsə ona gülür, amma mən ona baxıb gülmürəm. Hər adamın öz zövqü var. Mən, hər halda, dərin satiraya, yumora daha çox qiymət verirəm. Ona görə də mən sizi qiymətləndirirəm və hər birinizə baxanda məni gülmək tutur.

Siz yumordan da qorxmayın. Məni də göstərirsiniz, ondan narahat olmayın. Mən bundan narahat deyiləm. Hətta mən hesab edirəm, çox yaxşı ki, mənim şəxsiyyətimə münasibət göstərirsiniz. Amma bilirəm ki, rəhbər işçilərdən bəziləri narahatdırlar. Mən sizi ürəkləndirirəm, qorxmayın. Bir halda ki, bunu mən özüm sizə deyirəm, heç məndən də qorxmayın.

A n a r M ə m m ə d x a n o v: Hərdən bizdən soruşurdular, prezident özü gülürdümü? Bizə irad tutanda isə mən deyirəm ki, prezident özü orada olmuşdur. Hər dəfə söhbət düşəndə biz Sizin adınızı çəkirik.

H e y d ə r Ə l i y e v: Sizin bir səhnəniz – Nazarbayevin qarşılanması yadıma düşdü. Siz bu yumoru guya Nazarbayevə görə etmisiniz, bizim tədbirləri nəzərdə tutmusunuz. Bundan nəticə çıxarmaq lazımdır. Təəssüflər olsun ki, belə tədbirləri keçirənlər xeyirli hesab edirdilər, amma zərərini görmürdülər. O rolu kim oynayırdı? Həmin adam deyir ki, Nazarbayev bilsə ki, onun portretini kim tutacaq, heç Bakıya gəlməzdi.

T a h i r İ m a n o v: Cənab Prezident, «Nazarbayev bilsə ki, onun portretini kim tutacaq, heç Bakıya gəlməzdi» sözlərini ssenaridə yazanda biz bilməzdik ki, belə gülməli alınacaqdır.

A n a r M ə m m ə d x a n o v: Bilirsiniz, çox şey belə alınır. Biz hansısa bir ifadəni yazırıq. Məsələn, 1999-cu ildə hazırladığımız «Polis» səhnəsində «Nə oldu rəis, alınmadı?» sözlərini elə-belə, zarafatla yazmadıq. Orada nə isə gəlib deyilməliydi. Bu, ssenaridə var idi. İndi bu ifadə bir misal kimi camaatın dilinə düşübdür.

H e y d ə r Ə l i y e v: «Məktəb» epizodu da çox yaxşıdır.

M u r a d D a d a ş o v: Cənab Prezident, «Məktəb» epizodunu yazanda yumor nəzərdə tutmuşduq, amma o dərəcədə yox. Bəziləri deyir ki, zəif alınıb, digərləri isə deyir ki, güclüdür. Biz ilk növbədə, indiki məktəblərin vəziyyətini göstərmək istəyirdik və o vaxtkı məktəblə indikini müqayisə edirdik.

A n a r M ə m m ə d x a n o v: Orada tiplər yığışıbdır. Bu tiplər bizi həmişə izləyir. Məsələn, Yura Babayev orada bakılı obrazını yaradıbdır. Azər də rolu çox gözəl oynayıbdır.

H e y d ə r Ə l i y e v: Yura Babayev budur?

A n a r M ə m m ə d x a n o v: Bəli, Azər Məmmədzadə həmin rolu oynayırdı. Bilirsinizmi, bu tiplərlə biz həyatda rastlaşırıq. Biz hər şeyi həyatdan götürürük. Məsələn, bu yaxınlarda Murad mənə zəng etmişdi, amma bilmirdim ki, odur. Elə bildim ki, mənimlə seysmoloq alim Arif Həsənov danışır. Düşündüm ki, o mənə nə üçün zəng edibdir. Demə, bu, Murad imiş.

H e y d ə r Ə l i y e v: O «samokat» səhnəsini də yaxşı tapmısınız. O səhnə mənim heç yadımdan çıxmır.

A n a r M ə m m ə d x a n o v: Amma Sizə deyim ki, onlar çox inciyiblər.

H e y d ə r Ə l i y e v: İndi bu respublikanın prezidenti mənəm, mən incimirəmsə, onların inciməyə nə haqları var?

A n a r M ə m m ə d x a n o v: Onların mövqeyi bizi maraqlandırmır. Söhbət insanın səviyyəsindən gedir. De Qoll qəzetləri açıb deyərdi ki, əgər karikatura yoxdursa, deməli, pis işləyirik. Bu, hər bir dövlət xadiminin, siyasi xadimin böyüklüyünü göstərir. Bu obrazlar arasında özünü tanıyıb inciyənlər də çox olur.

H e y d ə r Ə l i y e v: Onlara fikir verməyin.

M u r a d D a d a ş o v: Cənab Prezident, Moskvadakı yarışa təxminən dörd gün qalmış biz iki prezidentin – Azərbaycan prezidenti ilə Rusiya prezidentinin görüşü barədə səhnə fikirləşmişdik. Yarış ərəfəsində məşq zamanı ayağım sındı.

Azərbaycan prezidentinin parodiyasını mən ifadə edirdim. Vəziyyətimin bu cür olmasına baxmayaraq, dedim ki, mən hökmən çıxış etməliyəm. Sizə deyim ki, Bakıda ayrı bir narahatlığım var idi. Özünüz bilirsiniz, mən tərəfdən narahatlıq nədən ibarət idi. Narahat idim ki, pis alınacaq, şükür Allaha, çıxdım, alındı.

A n a r M ə m m ə d x a n o v: Cənab Prezident, siz o səhnəyə baxmısınız?

H e y d ə r Ə l i y e v: Təəssüf ki, mən ona baxmamışam. Qızım ona baxıb və mənə danışıbdır.

Yeni il münasibətilə sizi bir daha təbrik edirəm. Hesab edirəm ki, bugünkü söhbətimiz sizi gələcəkdə yeni yaradıcılıq işlərinə daha çox həvəsləndirəcək və cəmiyyətimizdə bundan sonra daha fəal rol oynayacaqsınız. Sağ olun.

FRANSA XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTİNENTAL AVROPA DEPARTAMENTİNİN DİREKTORU, SƏFİR ÜQ PERNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

30 dekabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Biz çoxdandır Fransadan nümayəndə heyətinin gəlməsini görməmişdik. Baxmayaraq ki, prezident cənab Jak Şirak və mən telefon əlaqəsi saxlayırıq. Yaxşı ki, Xarici İşlər Nazirliyi də Azərbaycanın işlərinə daim çox maraq göstərir. Buyurun.

Ü q P e r n e: Cənab Prezident, çox sağ olun. Biz Azərbaycanda çox yüksək səviyyədə qarşılanmışıq. Sizin nazirlərinizlə açıq, xoş və səmərəli söhbətlərimiz olmuşdur.

Mənim bu səfərimin məqsədlərindən biri, bəlkə də əsası, Fransa Respublikasının prezidenti Jak Şirakın məktubunu Sizə təqdim etməkdir. Bu məktubda prezident Jak Şirak Azərbaycanın tezliklə Avropa Şurasına daxil olmasını arzulayır və elə bu münasibətlə də Sizi Fransada görmək arzusunu bildirir.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Prezident cənab Jak Şirak çox diqqətlidir, dostluqda çox sədaqətlidir və çox da qayğıkeşdir. Mənə gətirdiyiniz məktuba görə çox təşəkkür edirəm. Prezident Jak Şirakın Azərbaycanın Avropa Şurasına daxil olması ilə əlaqədar arzularına görə də təşəkkür edirəm.

Bir müddət bundan öncə mən onunla telefonla danışanda belə bir fikir söyləmişdi ki, Avropa Şurasına qəbul olunmaq

münasibətilə mən Strasburqa gəlsəm, biz Parisdə görüşə bilərik. Mənim buna çox ehtiyacım var. Sentyabr ayında Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin iclasında biz görüşüb bu barədə ətraflı söhbət etdik.

Bilirsiniz ki, bir çox başqa ikitərəfli münasibətlərə aid olan məsələlərdən bizi daha çox maraqlandıran Minsk qrupunun həmsədrlərinin fəaliyyəti – onlardan biri də Fransadır – və Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasıdır. Buna görə də mən çox arzu edirəm ki, yaxın vaxtlarda Parisdə olum, prezident Jak Şirakla görüşüm və bu barədə geniş fikir mübadiləsi aparım.

Mən bilirəm ki, bu günlər sizin çox yaxşı görüşləriniz olubdur, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ problemini müzakirə etmisiniz. Mən həmişə demişəm və indi bir daha demək istəyirəm ki, Fransanın bu barədə, məsələnin tezliklə həll olunmasında imkanları var. Çox arzu edərdim ki, yeni ildə imkanlardan daha da faydalı istifadə olunsun və biz bu məsələni həll edək.

Ü q P e r n e: Cənab Prezident, çox sağ olun. Mən də Sizə bildirmək istəyirəm ki, doğrudan da bu gün münaqişənin həlli məsələsi Fransa Respublikası prezidentinin və Fransa hökumətinin əsas narahatlıqlarından biridir.

Mən bir qədər əvvəl sizin işçinizlə danışanda dedim ki, üç həmsədrlərdən birinin – Fransanın bu məsələnin həllində heç bir coğrafi-strateji marağı yoxdur. Bununla da demək istəyirəm ki, münaqişənin həllində iştirakımız və əməkdaşlıq etməyimiz, sadəcə olaraq, bizim xoşməramlı münasibətimizdən gəlir. Cənab Prezident, elə buna görə də Sizin tərəfinizdən də belə fikirləri eşitmək bizim üçün çox əhəmiyyətlidir. Sizi əmin edərək demək istəyirəm ki, əlbəttə, imkan olan kimi, bizim respublikanın prezidenti Sizinlə tezliklə görüşmək və bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparmaq istəyir.

Cənab Prezident, yeri gəlmişkən, demək istəyirəm ki, prezident Şirak həm də Sizə Avropa Şurasına qəbuledilmə mərasimi zamanı olacaq görüşdən əlavə, daha bir görüşün keçirilməsini təklif edir. Mən Sizə əsasən bunları bildirmək istəyirdim.

H e y d ə r Ə l i y e v: Çox sağ olun. Siz də mən dediyim fikri bildirdiniz ki, üç həmsədrdən Fransa Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasında daha da səmərəli fəaliyyət göstərir. Sizin dediyiniz həqiqətdir ki, Fransanın bu məsələdə heç bir coğrafi-strateji marağı yoxdur. Sadəcə, Fransanın marağı sülhsevər siyasət həyata keçirmək və Qafqazda, xüsusən Cənubi Qafqazda sülhün, əməkdaşlığın təmin olunmasından ibarətdir.

Mən məktubu oxuyacağam. Təbiidir ki, tezliklə buna cavab yazacağam. Sizinlə də indi bu barədə müəyyən fikir mübadiləsi apara bilərik.

AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

Əziz həmvətənlər!
Bacılar, qardaşlar!
Hörmətli xanımlar və cənablar!

Sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, səadət, ölkəmizə, xalqımıza sülh, əmin-amanlıq, rifah arzulayıram.

Biz bəşər tarixinin nadir anlarını yaşayırıq. XX əsr sona çatır, biz XXI əsri, onun birinci ili – 2001-ci ili, üçüncü minilliyi qarşılayırıq.

Biz xoşbəxt adamlarıq ki, çoxəsrlik, çoxminillik bəşər tarixində məhz bu dövrü, bu anları yaşamaq bizə nəsib olubdur. Təbiidir ki, bu, hər bir insanın üzərinə, hər bir Azərbaycan vətəndaşının üzərinə böyük məsuliyyət qoyur. Biz bu məsuliyyəti dərk edərək, XX əsri sona vurur və XXI əsri qarşılayırıq.

Bu ayın 29-da mən Azərbaycan xalqına müraciət etmişəm və XX əsrdə Azərbaycan xalqının keçdiyi yol, tarixi haqqında bəzi fikirlərimi bildirmişəm. Bir daha qeyd edə bilərəm ki, XX əsr Azərbaycan xalqı üçün böyük nailiyyətlər əsri olubdur. Faciələrə, itkilərə, məhrumiyyətlərə baxmayaraq, xalqımız XX əsrdə yaşamış, inkişaf etmiş və nəhayət, əsrin sonunda öz arzusuna çatmışdır.

XX əsrin Azərbaycan xalqı üçün ən qiymətli, ən dəyərli hissəsi son illərdir. Azərbaycan xalqının milli azadlığa çıxması, dövlət müstəqilliyini əldə etməsidir. Xoşbəxtik ki, nəhayət, bu arzulara çatmaq bizə nəsib olubdur. Deməli, bizim üzərimizə çox böyük vəzifələr düşür. Bu vəzifələri həyata keçirmək də xalqımızın qarşısında böyük məsuliyyət daşımaq deməkdir.

Biz dövlət müstəqilliyimizin 10-cu ilini yaşayırıq. Bu illərdə bütün məhrumiyyətlərə, çətinliklərə, bəlalara, hətta faciələrə baxmayaraq, xalqımız, millətimiz dövlət müstəqilliyini qoruyub, saxlayıb və artıq əbədi, dönməz edibdir. Bu, müstəqil Azərbaycan dövlətinin son illərdə apardığı uğurlu xarici və daxili siyasətin nəticəsində olubdur. Bu, Azərbaycan xalqının əksəriyyətinin müstəqilliyi yüksək qiymətləndirməsi və onun uğrunda çalışmasının nəticəsi olubdur. Ancaq biz bu gün bir həqiqəti də deməliyik ki, Azərbaycanın dövlət müstəqilliyinin indiyə qədər yaşaması və bu səviyyəyə çatması ölkəmizin daxilində olan müxtəlif çətinliklərin aradan qaldırılmasının nəticəsi olubdur.

Buna görə də böyük iftixar hissi ilə demək olar ki, biz bu illər böyük sınaqlardan keçmişik, böyük faciələrin qarşısını almışıq, ancaq sınmamışıq, geri çəkilməmişik, müstəqillik yolu ilə getmişik və Azərbaycanın dövlət müstəqilliyini dönməz etmişik.

Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə gedəcəyi haqqında bəyanatlar vermişdir. Biz bu bəyanatlara sadiq olmuşuq, bu gün də sadiqiq.

Azərbaycan xalqı, Azərbaycan dövləti bu illər həqiqətən demokratiya yolu ilə irəliləyib, bazar iqtisadiyyatı prinsipləri əsasında öz iqtisadiyyatını inkişaf etdirməyə çalışıbdır. Bu sahədə bizim nailiyyətlərimiz də var və onlar az deyildir.

Azərbaycanda uğurlu dövlət quruculuğu – hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi gedir. Biz 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik, Milli Məclisə – parlamentə demokratik prinsiplər əsasında ilk seçkilər keçirdik. Ötən beş ildə qəbul olunmuş qanunlar, imzalanmış fərmanlar və başqa dövlət tədbirləri Azərbaycanı müstəqillik yolu ilə, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə uğurla aparmışdır.

Azərbaycanda iqtisadiyyatın inkişaf etdirilməsi, xalqın rifah halının yaxşılaşdırılması üçün düşünülmüş sosial-iqtisadi proqramlar həyata keçirilir. Həyatımızın bütün sahələrində – siyasi sahədə, sosial-iqtisadi sahədə, hüquq sahəsində və bütün başqa sahələrdə aparılan islahatlar bu proqramın əsasını təşkil edir. Məhz bu islahatların həyata keçirilməsi və bundan əldə olunan nəticələr bizim əldə etdiyimiz uğurların əsasını təşkil edir. Ancaq biz bu yolun ilk mərhələsindəyik. Bu mərhələnin nəticəsi, birincisi, ondan ibarətdir ki, biz həqiqətən bütün sahələrdə irəliləmişik. İkincisi, biz tutduğumuz bu yolun, həyata keçirdiyimiz islahatların Azərbaycan üçün bu gün də, gələcəkdə də nə qədər zəruri olduğunu artıq dərk etmişik.

Bütün bunlarla yanaşı, ölkəmizdə hələ həll olunmamış çox problemlər vardır. Hakimiyyət orqanlarının işində nöqsanlar, qüsurlar, çatışmazlıqlar vardır. Ən böyük və eyni zamanda ən ağır, ən çətin problem Ermənistan–Azərbaycan münaqişəsinə son qoymaqdan, Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızı azad etməkdən və bu torpaqlardan zorla çıxarılmış bir milyondan artıq soydaşımızı öz yerinə-yurduna qaytarmaqdan, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etməkdən ibarətdir.

Mən bu gün bütün həmvətənlərimizə, Azərbaycanın bütün vətəndaşlarına bəyan edirəm ki, biz ölkəmiz üçün ən vacib olan bu problemin həll olunması üçün var gücümüzlə çalışırıq. Dünyada mümkün olan bütün imkanlardan istifadə edirik. Altı il bundan öncə atəşkəs sazişi imzalamışıq. Təbiidir ki, bunun əhəmiyyəti böyükdür. Çünki hər bir müharibənin qarşısının alınması, artıq öz-özlüyündə böyük nailiyyətdir. Ancaq nəzərə alsaq ki, o illər gedən bu müharibədə xalqımız çoxlu itkilər, şəhidlər verirdi, qan tökülürdü, uğur əldə etmək əvəzinə, biz ardıcıl surətdə itkilərə məruz qalırdıq, torpaqlarımız işğal olunurdu, onda yəqin ki, hər bir vətəndaşımız bunu qiymətləndirə bilər.

Atəşkəsin əldə edilməsi nə qədər vacib idi! Eyni zamanda ona görə vacib idi ki, biz həm daxildə ictimai-siyasi sabitliyi təmin edək, Azərbaycanın bu ağır bəlalara düşməsində səbəbkar və günahkar olan qüvvələri, maneələri zərərsizləşdirək, ordumuzu möhkəmləndirək, həqiqi milli, qüdrətli ordu yarada bilək, eyni zamanda sülh danışıqları aparmaq üçün daha da əlverişli şərait yaradaq. Biz bunu etdik və hesab edirəm ki, biz doğru yolda olmuşuq, bu gün də doğru yoldayıq.

Sülh danışıqları çətin, ağır gedir. Bunların səbəbləri məlumdur. Ancaq danışıqlar gedir. Bir daha qeyd edirəm ki, Azərbaycan dövləti və Azərbaycanın prezidenti kimi, şəxsən mən bu məsələ ilə hər gün məşğul oluruq. Bu məsələ hər an bizim gündəliyimizdədir. Bir Azərbaycan vətəndaşı kimi, mən xalqın etimadını qazanaraq Azərbaycan prezidenti olduğuma görə, həm xalqın qarşısında, həm tarix qarşısında, həm də gələcək nəsillər qarşısında öz məsuliyyətimi dərk edirəm. Bu işin ağırlığını, çətinliyini bəlkə də mənim qədər bilən yoxdur. Kənardan baxanlara hər şey asan görünür. Xüsusən, o şəxslərə, o qruplara ki, bu işlərlə heç vaxt məşğul olmayıblar və məşğul olmurlar. Ancaq biz – bu problemin həll edilməsi üçün çalışanlar, bu işin içində olanlar hər şeyi bilirik. Bəyan edirəm, bildiyimizə görə də sizə deyirəm ki, bu nə qədər çətindir.

Ancaq bu sözlərim heç kəsdə ümidsizlik yaratmasın. Əksinə, mən çox nikbinəm və çox inanıram, əminəm ki, Azərbaycan üçün çox ağır olan bu problemi, məsələni biz həll edəcəyik. Həll edəcəyik, işğal edilmiş torpaqlar azad olunacaqdır. İnsanlar öz doğma torpaqlarına qayıdacaqlar. O torpaqlarda viran qalmış, dağıdılmış şəhərlər, kəndlər, evlər, insan yaşayışı üçün lazım olan hər bir şey bərpa ediləcəkdir. Təbiidir ki, bu, bir gündə ola bilməz, bu çox vaxt aparacaqdır. Ancaq bunların hamısı olacaqdır. Mən buna inanıram.

Keçid dövrü Azərbaycanın vətəndaşları üçün bir çox çətinliklər də yaradıbdır. Hər kəs dərk etməlidir ki, bazar iqtisadiyyatına

keçid heç də asan bir iş deyildir. Kimsə bunu yenə də populist fikirlərlə izah etmək istəyirsə və iqtisadiyyatı dərindən bilməyən, ancaq öz şəxsi qayğıları ilə yaşayanlar insanları çaşdırmaq, yoldan çıxarmaq istəyirlərsə, belələri həm o insanlara, həm də bizim müstəqil dövlətimizə xəyanət edirlər.

Hər bir məsələ haqqında danışarkən onu bilmək lazımdır. Bilmək isə yalnız kitablardan, radio və televiziyadan alınan bilgilərlə yox, hər bir işlə məşğul olmaq, onun dərinliklərini anlamaq vasitəsi ilə ola bilər. Biz bunları anlayırıq. Bilirik ki, keçid dövründə vətəndaşlarımızın bir qismi ağır sosial-iqtisadi vəziyyətdədir. Bilirik ki, vaxtilə yaratdığımız böyük sənaye potensialından indi yeni istiqamətdə istifadə olunması ilə əlaqədar işsizlik problemi də yaranıbdır. Biz bunları bilirik. Bunların həll olunması üçün lazımi tədbirlər görürük və bundan sonra da görəcəyik.

Ancaq bunların hamısı keçid dövrünün xüsusiyyətləridir. Bəzən kimlərsə deyirlər ki, bu keçid dövrü nə qədər ola bilər? Onlar dünya təcrübəsinə baxsınlar ki, nə qədər ola bilər. Ancaq hər yerdə də eyni müddət ola bilməz. Hərənin öz imkanları, hər ölkənin öz xüsusiyyətləri vardır. Ancaq keçid dövrünün qanunları hamı üçün birdir. Onların həyata keçirilməsi vaxtı isə həm obyektiv səbəblərdən, həm subyektiv səbəblərdən asılıdır.

Subyektiv səbəblər haqqında danışanda, təbiidir ki, biz işimizdə olan nöqsanları etiraf etməliyik. Amma bizim çətinliyimizin əksər hissəsini təşkil edən obyektiv səbəblərdir. Bu gün, bu bayram axşamı bunları sizə çatdıraraq istəyirəm ki, Azərbaycanın vətəndaşları bugünkü həqiqəti daha doğru, daha düzgün bilsinlər və hər biri müstəqil vətənimizin, müstəqil dövlətimizin yaşaması, inkişaf etməsi üçün öz səylərini göstərsin.

Mən bu bayram axşamı tam inamla sizə deyirəm ki, Azərbaycanın çox böyük, xoşbəxt və firavan gələcəyi var. Mən dediyim hər bir kəlmənin məsuliyyətini daşıyıram. Ona görə də bu gün bunları sizə tam inamla deyirəm. Belə gələcəyə nail

olmaq üçün isə hamımız bu yolda əl-ələ verib çalışmalıyıq. Bunun üçün dövlət, hakimiyyət orqanları daha da yaxşı işləməli, daha da gərgin fəaliyyət göstərməli, nöqsanların, çatışmazlıqların aradan qaldırılması üçün kəskin mübarizə aparmalıdır. Eyni zamanda Azərbaycan xalqı, bizim bütün cəmiyyətimiz, millətimiz bir amal uğrunda çalışmalı, yaşamalıdır. Bu amal da Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Azərbaycanı daha da güclü, qüdrətli, sosial-iqtisadi cəhətdən inkişaf etmiş bir dövlətə çevirmək, xalqımızın hamısının firavanlığını təmin etməkdir.

Bunun üçün, yenə də deyirəm, hamı ümummilli maraqlar ətrafında toplaşmalı, cəmləşməlidir. Azərbaycanda ayrı-ayrı insanların şəxsi məqsədləri, iddiaları, ambisiyaları Ermənistanın ölkəmizə təcavüz etdiyi gündən, yəni 1988-ci ildən sonra daim müşahidə olunubdur. Amma bunların heç birisi Azərbaycan xalqına xeyir gətirməyibdir. Həmin o iddialarla yaşayan insanlara da uğur gətirməyibdir. Əksinə, onları məğlubiyyətə düçar edibdir. Ona görə də tarixdən nəticə çıxarmaq lazımdır, hamı birləşməlidir.

Biz Azərbaycanda vətəndaş cəmiyyəti qururuq. Vətəndaş cəmiyyətinin əsas prinsipləri milli birlik, milli həmrəylikdir, milli mənafeləri hər şeydən üstün tutmaqdır. Milli mənafelərin təmin olunması üçün isə şəxsi ambisiyalardan uzaqlaşmaq, əl-ələ vermək və ölkəmizi irəliyə doğru aparmaq lazımdır.

Mən inanıram ki, indi cəmiyyətimizdə bu fikirləri dərk edən insanlar əksəriyyəti təşkil edir. Bu əksəriyyət də əqəliyyətdə, azlıqda qalanların daha da uğursuzluqlarını sübut edəcəkdir. Mən inanıram ki, Azərbaycan milli birlik, milli həmrəylik səviyyəsinə çataraq, özünün böyük iqtisadi, intellektual potensialından, çox əhəmiyyətli coğrafi-strateji vəziyyətindən daha da səmərəli istifadə edəcəkdir.

Əziz həmvətənlər!

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızın bayramınızı təbrik edirəm. Bir daha bəyan edirəm ki, mən gələcəyə nikbinliklə baxıram. İnanıram ki, 2001-ci il Azərbaycan xalqının həyatında daha uğurlu il olacaqdır. İnanıram ki, XXI əsr, xüsusən onun ilk illəri Azərbaycanın həyatında böyük müsbət dəyişikliklər dövrü olacaqdır. Mən inanıram ki, vətənimizin böyük gələcəyi naminə, bu böyük işlərdə hamımız əlbir olacaq, birgə çalışacaq və xalqımızı xoşbəxtliyə çıxaracağıq.

Yeni iliniz mübarək olsun!

Yeni əsriniz mübarək olsun!

Yeni minilliyiniz mübarək olsun!

Bu Yeni il axşamı hər bir ailəyə, hər bir evə, hər bir vətəndaşa səadət, xoşbəxtlik və şən əhval-ruhiyyə arzulayıram.

Sağ olun. Bayramınız mübarək olsun!

SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Sudan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Sudan Respublikası arasındakı dostluq və əməkdaşlıq xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *2 yanvar 2001-ci il*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTROYA

Hörmətli cənab sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və dost Kuba xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Kuba əlaqələrinin möhkəmlənməsinə böyük əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı münasibətlərimizin inkişafı bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *2 yanvar 2001-ci il*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ İNDULİS BERZİNŞ BAŞDA OLMAQLA AVROPA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

3 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v qonaqları mehribancasına qarşılayaraq dedi:

Cənab nazir, mən sizi salamlayıram. Sizi Bakıda, Azərbaycanda görməyimə çox şadam. Latviyanın hazırda Avropa Şurasının sədri olması ilə əlaqədar mən sizi təbrik edirəm. Bu hər bir ölkə üçün böyük əhəmiyyəti olan hadisədir. Biz Sovetlər İttifaqının tərkibində olarkən Latviya nümayəndələri xaricə hər hansı bir səfər etmək üçün Moskvanın icazəsini almalı idilər. İndi isə Latviya Avropa Şurası kimi mötəbər bir təşkilata sədrlik edir. Bir təsəvvür edin, tarixən qısa dövr ərzində dünyada nə kimi dəyişikliklər baş vermişdir.

Yenidənqurmanın ilk illərində Latviyanın müstəqilliyə necə çalışdığının şahidi olmuşam, mən bunların hamısını yaxşı xatırlayıram. Sizin adamlar fəal çıxış edirdilər. Doğrudur, mən artıq onda işləmirdim – 1987-ci ildə bütün vəzifələrdən getmişdim, bu proses isə bir qədər sonra başlandı – buna baxmayaraq, bütün bu işlərin gedişini izləyirdim. Hələ onu demirəm ki, bundan əvvəl, Sovetlər İttifaqının hələ mövcudluğu dövründə mənə Latviyanın bir çox məsələləri ilə məşğul olmaq lazım gəlirdi.

İndi isə biz başqa şəraitdə görüşürük. Siz Avropa Şurasında sədrlik edən Latviyanın Xarici İşlər nazirisiniz, mən isə bir çox

hadisələrdən sonra müstəqil Azərbaycanın Prezidentiyəm. Mənə elə gəlir ki, keçmişdə birlikdə işlədiyin, bir dövlətdə yaşadığın adamları görmək xoşdur. Bu da xoşdur ki, indi biz azad və müstəqil olmuşuq. Əlbəttə, Latviya öz müstəqilliyinə digər Baltikyanı ölkələrə nisbətən tez qovuşmuşdur. Lakin fərqi yoxdur. Sovetlər İttifaqı dağılmazdan əvvəl Latviyada da, Litvada da Sov.İKP MK mövqelərində duran Kommunist Partiyası mövcud idi. Yadınızdadır? Siz o vaxtlar işləyirdinizmi?

İ n d u l i s B e r z i n ş: Mən 1990-cı ildən siyasətdəyəm. Deputat seçilmişəm, müstəqilliyə səs vermişəm. Ona görə də bütün bu hadisələr haqqında hər şeyi bilirəm.

H e y d ə r Ə l i y e v: Dünyada böyük dəyişikliklər baş vermişdir. Bu nümayəndə heyəti yeni ildə, yeni yüzillikdə, yeni minillikdə qəbul etdiyim ilk nümayəndə heyətidir. Bu nümayəndə heyəti çox mühümdür, çünki o, Avropa Şurasının nümayəndə heyətidir. Nümayəndə heyəti Azərbaycana çox ciddi bir məsələ ilə əlaqədar gəlmişdir. Buna görə də mən bu görüşə şadam və hesab edirəm ki, o, maraqlı olacaq, ən başlıcası isə, müsbət nəticələr verəcəkdir. Bilirəm ki, bu gün siz parlamentimizin sədri ilə, Baş nazir, Xarici İşlər naziri, mənim aparatımın rəhbəri ilə görüşmüsünüz. Maraqlandığınız məsələlər ən çox mənim aparatımın rəhbərinə aiddir.

Bugünkü gün sona yetir. Mənə dedilər ki, sabah siz yola düşürsünüz, buraya qısa müddətə gəlmisiniz. Çox təəssüf. Çünki biz çox danışmaq istərdik, ən başlıcası isə, siz bugünkü Azərbaycanı, onun uğurlarını, problemlərini, çətinliklərini görərdiniz. Şəhərimizi – Azərbaycanın paytaxtını görərdiniz. Buyurun.

İ n d u l i s B e r z i n ş: Sağ olun, cənab Prezident, Sizinlə bu görüşmək imkanına görə çox sağ olun, çünki bu prosesə, artıq indi deyə bilərəm ki, Azərbaycanı Avropa Şurasına əslində gətirib çıxarmış olan ümumi müsbət prosesə şəxsən Sizin necə böyük təsiriniz olduğunu gözəl bilirik. Mən buna ümid edirəm – bu isə Latviyanın mövqeyidir – və dəqiq

demək istəyirəm ki, Latviya bu mövqeyini biz hələ sədrlik edən ölkə olmazdan əvvəl tutmuşdu. İndi biz sədrliyə başladıqdan sonra, təbii olaraq, bu mövqeni tutmaqda davam edirik. Odur ki, Azərbaycanı mümkün qədər tez bir vaxta bu təşkilatın tamhüquqlu üzvü görmək istəyirik. Ona görə ki, Siz bu təşkilatın üzvü olduqdan sonra ölkəniz üçün, başlıcası isə, bütövlükdə region üçün böyük müsbət nəticələr olacağını görürük. Ona görə ki, heç bir ölkə, eləcə də heç bir insan təcrid olunmuş vəziyyətdə yaşamır. Biz hamımız əməkdaşlıq edirik, biz hamımız bir-birimizlə bağlıyıq və bu, ümumi müsbət prosesdir.

İkincisi, mən Sizi görməyimə çox şadam, ona görə ki, Sizə qısıca söylədiyim kimi, mən 1990-cı ildən siyasətdəyəm, bundan əvvəl isə tarixi öyrənirdim, Sizin fəaliyyətinizi izləyirdim, Prezident olduqdan sonra ölkəmizdə məhz sabitlik yaradılması sahəsində, ölkənizin inkişafı üçün gördüyünüz müsbət işlərə gözəl bələdəm. Dediyim kimi, təkcə Latviyada deyil, həm də Avropa Şurasında başa düşürük ki, bu ölkədə demokratiyanın inkişafının ümumi prosesinə Sizin müsbət təsiriniz çox mühümdür. Üstəlik, demokratiya sabit, dəyişməz bir şey deyil ki, onu qurub tikəsən və ya bir rəsm əsəri kimi şəklini çəkəsən. Qərbi Avropanın, dünyanın ən demokratik ölkələri inkişaf etməkdədir, qanunlar qəbul edirlər. Siz Avropa Şurasına qəbul edildikdən sonra bu, Azərbaycana da aid olacaqdır. Burada mən fürsətdən istifadə etmək və Sizdən xahiş etmək istəyirəm ki, bu proseslərə və qanunvericiliyə müsbət təsir göstərməyi davam etdirəsiniz. Təbii ki, parlament, prezident hakimiyyəti, məhkəmə sistemi – bunlar hakimiyyət bölgüsüdür. Lakin, hər halda, bizim müsbət təsirimiz də hamımıza ancaq yaxşı nəticələr verə bilər.

Biz buraya bir neçə dairədə seçkilər ərəfəsində gəlmişik. Zənnimcə, bu seçkilər də sübuta yetirəcək ki, Azərbaycanda həqiqətən böyük müsbət dəyişikliklər baş verir. Bu isə belə deməyə əsas verəcəkdir ki, bu, konkret müsbət hərəkət deyildir,

əksinə, bütöv bir müsbət prosesdir. Buna görə də mən və nümayəndə heyətinin üzvləri – müxtəlif dövlətlərin – Almaniya, İsveç və Hollandiyanın nümayəndələri burada olmağımıza və Sizinlə görüşüb bu bütöv proses haqqında, gələcəkdə bu təşkilatda tərəfdaşlar kimi necə işləyəcəyimiz, Sizə yaxşı məlum olan, bu regionda mövcud olan çətinliklərə müsbət təsir göstərmək üçün artıq bu gün, sabah nə kimi işlər görəcəyimiz barədə danışmağımıza şadıq. Sizinlə görüşmək böyük uğur, böyük səadətdir. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Sağ olun. Bəlkə həmkarlarınız nəsə demək istəyirlər?

H e n d r i k B a g e n m a k e r s (*Hollandiyanın daimi nümayəndəsi*): Cənab Prezident, mən Hollandiyanı təmsil edirəm. Çox məmnunam ki, Xarici İşlər Nazirliyiniz məni bu nümayəndə heyətinə daxil edibdir. Bizi burada çox mehribanlıqla, qonaqpərvərliklə qarşılayıblar və mən özüm şahid oldum ki, Azərbaycan plüralist demokratik cəmiyyət qurulması sahəsində necə böyük tərəqqilər əldə edibdir. Mən geri qayıtdıqdan sonra ölkəmizin Xarici İşlər nazirinə burada gördüklərim barədə məruzə edəcəyəm.

Bizim Xarici İşlər naziri Hollandiyanın parlamentində tez-tez suallara cavab verməli olur. Mən də çalışacağam ki, bundan sonra ona verilən suallar keçmişə yox, gələcəyə ünvanlanmış suallar olsun.

Hollandiya da Avropa Şurasını təsis edən ölkələrdən biridir. Bizim üçün Avropa Şurası insan hüquqlarının carçısı olan bir təşkilatdır.

Cənab Prezident, Azərbaycan üzrə məruzəçi cənab Klerfaytın öz hesabatında qaldırdığı məsələlərə də toxunmaq istəyirəm. Həmin məruzədə deyilirdi ki, həm prezident, həm də hökumət üzvləri bir sıra məhbusların vəziyyətinə yenidən baxılması barədə öhdəlik götürüblər. Gələcəyə baxaraq, Siz mənə nə tövsiyə edərdiniz? Mən öz nazirimə necə məlumat verim

ki, bəzi dustaqların vəziyyətinə yenidən baxılması məsələsi sahəsində Azərbaycan hansı işləri görür? Bu baxımdan mənim onlara çatdıracağım sözlərin əsaslı olması üçün nəyi deməyi məsləhət görərdiniz?

H a k a n V i l k e n s (*İsveçin daimi nümayəndəsi*): Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirik. Mən İsveçin Avropa Şurasındakı səfiriyəm.

Möhtərəm Prezident, yəqin məlumatınız vardır ki, artıq İsveç Avropa Birliyinə sədrlik edən ölkədir. Məmnuniyyətlə Sizə bildirmək istəyirəm ki, gələn ay İsveçin Xarici İşlər naziri Sizin regionunuza səfər edəcəkdir.

Bizim bugünkü ziyarətimiz Avropa Şurasının nümayəndə heyəti tərkibində olan səfərdir. Avropa Şurasına hazırda sədrlik edən Latviyanın Xarici İşlər nazirinin, indi Sizə söylədiyi kimi, mən də demək istəyirəm ki, demokratiya bir prosesdir. Biz bu sahədə çoxlu tərəqqi, problem olduğunu görmüşük və bununla bərabər, yanvarın 7-də keçiriləcək seçkiləri səbirsizliklə gözləyirik.

İsveç Sizin ölkənizin Avropa Şurasına üzvlüyə qəbul olunmasını həmişə dəstəkləyən, buna tərəfdar olan bir ölkə kimi çıxış edibdir. Amma bildiyiniz kimi, bir sıra əsas öhdəliklər yerinə yetirilməlidir. Ümidvar olduğumuzu bildirmək istəyirik ki, bazar günü seçkilər qanun pozuntuları olmadan keçəcək və beləliklə, biz Sizin ölkənizi Avropa Şurasına qəbul edəcəyik, orada salamlayacağıq.

J e x a n D o m e s (*Almaniyanın daimi nümayəndəsi*): Cənab Prezident, bizi bu gün qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk. Mən Almaniyanın Avropa Şurasındakı səfiriyəm. Bu mənim Azərbaycana birinci səfərim deyildir. Mən əvvəllərdə burada səfərdə olmuşam. Amma yenə də belə bir imkanı əldə etdiyimizə görə Sizə minnətdarlığımı bildirirəm.

Bizim bu səfərimiz Avropa Şurasının nümayəndə heyətinin səfəridir. Bildiyimiz kimi, Avropa Şurasının üzərində olan ən əsas, ən ümdə vəzifələr demokratiyanın, insan haqlarının, qanunun

aliliyinin təmin olunmasıdır. Bu baxımdan biz qarşıdan gələn seçkilərə böyük ümidlər bəsləyirik.

Mən də onu təsdiq etmək istəyirəm ki, biz bu gün Sizin hökumətin, parlamentin üzvləri və digər rəsmi şəxslərlə Azərbaycanda demokratiyanın və qanunun aliliyinin, hüquqi dövlət quruculuğunun daha da inkişaf etdirilməsi sahəsində gələcək planlar və görüləcək tədbirlər barədə ətraflı müzakirələr aparmışıq. Ümidvarıq ki, gələcəkdə bu sahədə daha ciddi işlər görüləcəkdir. Bizə buraya səfər etmək imkanı yaratdığınıza görə Sizə bir daha təşəkkürümü bildirirəm.

İ n d u l i s B e r z i n ş: Cənab Prezident, əvvəla, burada, Sizin hüzurunuzda hamıya, Almaniyanın səfirinə, görüşdüyümüz, bütün problemlər haqqında çox yaxşı dialoq, açıq söhbət, ən başlıcası isə, gələcək barədə çox müsbət söhbət apardığımız adamların hamısına bir daha təşəkkür etmək istəyirəm. Bütün bu görüşlər bizim üçün çox maraqlı və mühüm oldu. Ancaq bir halda ki, Siz belə bir imkan yaratmısınız, bundan istifadə edərək Sizə bir sual vermək istəyirəm. Bu sual Avropa Şurasına birbaşa aid deyildir, çünki bu təşkilat ən çox insan hüquqları ilə məşğul olur. Sualım regionda sabitlik haqqındadır. Təkcə Avropa Şurasına sədrlik etdiyimə görə deyil, həm də Latviyanın Xarici İşlər naziri kimi, Sizin mövqeyinizi bilmək mənim üçün çox maraqlı olardı: Siz Türkiyədən başlayaraq Rusiyayadək, Gürcüstandan başlayaraq Ermənistanadək bu regionun, yəni bütün bu mürəkkəb regionun gələcək inkişafını necə təsəvvür edirsiniz? Bilirəm ki, bu suala qısaca cavab vermək olmaz. Lakin bu regionun inkişafı barədə özünüzün təsəvvürünüzlə bağlı bir neçə ideya versəniz, mən Sizə çox minnətdar olardım. Sağ olun, cənab Prezident.

H e y d ə r Ə l i y e v: Cənab nazir, Azərbaycan haqqında, onun müasir vəziyyəti haqqında, Azərbaycanın demokratiya, siyasi plüralizm, insan hüquqlarının qorunması yolu ilə getməsi haqqında söylədiyiniz fikirlərə, sözlərə görə təşəkkür edirəm.

Siz çox doğru dediniz. Mən sözü açıq-aydın deyən adamam. Təəssüf ki, hərdən bəzi Qərb ölkələrində bütün bunları çox da dəqiq təsəvvür etmirlər. Demokratiya bir prosesdir. Bu sizin sözlərinizdir. Mən bu barədə ona görə deyirəm ki, bu sözlər mənim sözlərim deyildir. Sizin dediyiniz kimi, demokratiya elə bir şey deyil ki, yığışıb onu tikəsən. Azərbaycana rəhbərlik etdiyim dövrdə, 70–80-ci illərdə mən burada çox böyük sayda fabrik, zavod, körpü, yaşayış binaları, məktəb, xəstəxana və digər obyektlər tikmişəm. Oturduğumuz bu binanı, eləcə də bir çox digər binaları mən tikmişəm. Siz demişkən, demokratiya o demək deyil ki, vəsait götürüb, texnika, işçi qüvvəsi yığıb nə isə tikəsən və onu istifadəyə verəsən. Bunlar tamam başqa-başqa şeylərdir. Demokratiya bir prosesdir. Özü də insanlar, ölkələr və xalqlar bu prosesi ona hazır olduqları səviyyədə keçirlər.

Biz özümüzü 100–200 illik demokratiya tarixinə malik ölkələrlə heç cür müqayisə edə bilmərik. Elə götürək sizin Latviyanı. O, 1940-cı ilədək bir quruluşda yaşamış, sonra Sovetlər İdtifaqının tərkibinə düşmüşdür. 1990-cı ilədək kommunist ideologiyası altında olmuşdur. O vaxtlar da deyirdilər ki, bizdə demokratiya, söz azadlığı var. Amma orada bunlar həmin cəmiyyətin hüdudları çərçivəsində olmuşdur. Bilirsinizmi, ölkələrin 100–200 il getdikləri yolla getmək və onlarla bir səviyyədə olmaq real deyildir. Mən bunu hamıya deyirəm. Ona görə də mən öz fikirlərimi açıq bildirirəm ki, əvvəllər Sovetlər İttifaqına daxil olmuş ölkələri, sosializm düşərgəsində olmuş ölkələri – Şərqi Avropa ölkələri və başqa ölkələri real surətdə təsəvvür etsinlər. Axı onlar öz inkişafının müxtəlif illərində olmuşlar və təbii ki, birdən-birə 100 metr irəliyə tullana bilməzlər – çünki insan 4–5 metr, ən çoxu isə 6 metr uzağa tullana bilər – bu qeyri-mümkündür, qeyri-realdır. Təəssüf ki, Qərbdə bəziləri belə hesab edirlər – hər hansı Qərbi Avropa ölkəsində də, Qafqazda da,

daha haradasa demokratiya eyni cür olmalıdır. Yox, belə ola bilməz.

Başqa məsələdir ki, demokratiyanın əsas daşıyıcıları və böyük təcrübəyə malik olan ölkələrin keçdiyi yolu biz xeyli qısa vaxtda keçə bilərik və keçirik. Ona görə də demokratiya elə bir hadisədir ki, insanların təfəkküründə dəyişikliklər baş verməlidir. O demək deyil ki, tez tələsik qurub tikəsən, deyəsən ki, belə et, otur, dur. Bu mümkün deyildir. Ona görə də mən sizinlə razıyam və sizə açığını demək istəyirəm: biz demokratiya, siyasi plüralizm, insan hüquqlarının qorunması yolu ilə gedirik. Bizim başqa yolumuz yoxdur. Demək istəyirəm ki, biz başqa yolla getməyəcəyik və özü də bunu ona görə etmirik ki, hansısa Qərb ölkəsinin xoşuna gəlsin və bizi Avropa Şurasına qəbul etsinlər. Ona görə edirik ki, biz dövlət müstəqilliyi əldə etdikdən sonra özümüzə bu yolu seçmişik. Bu, nümayiş etdirmək üçün deyildir. Biz bu yolu dövlətimizin daha da azad, suveren inkişafı üçün yeganə yol kimi görürük. Bu yolla biz nə qədər irəliləmişik, başqaları nə qədər irəliləyibdir – bilirsinizmi, bu da nisbi qiymətdir. Baxır kimə necə gəlir. Lakin biz bu yolla gedirik və gedəcəyik.

O ki qaldı Avropa Şurasına qəbul olunmağa, əlbəttə, biz Avropanın bir hissəsiyik. Özü də Azərbaycan Avropanın ən ucqar cinahında yerləşir. Azərbaycandan sonra Avropa qurtarır. Biz Avropa ailəsində olmaq istəyirik. Əgər kimsə bunu istəmirsə, nə demək olar, biz bunsuz da yaşaya bilərik. Yəni bu işi zorakılığa çevirmək olmaz.

Tutalım ki, demokratiyanın ən mühüm cəhətlərindən biri seçkilərdir. Bizdə parlament seçkiləri keçirildi. Zənnimcə, bizim şəraitdə, xalqımızın mentaliteti, ənənələri nəzərə alınmaqla, seçkilər normal keçmişdir. Lakin nöqsanlar da, pozuntular da olmuşdur. Ona görə də Mərkəzi Seçki Komissiyası və Konstitusiya Məhkəməsi 11 dairədə seçkilərin nəticələrini etibarsız hesab etmişlər. Biz bu baxımdan ideal olmaq iddiasında

deyilik. Bununla belə, mən bilmirəm, harada ideal seçkilər var? Bəzi ölkələr deyə bilərlər ki, onlarda seçkilər tamamilə ideal keçirilir, qoy onlar belə də düşünsünlər. Mən onlarla mübahisə etmirəm. Lakin bununla yanaşı, mən razılaşa bilmərəm ki, Azərbaycanda seçkilər, guya tamamilə qeyri-demokratik keçmişdir və s. Mən bununla razılaşa bilmərəm. Qoy, kim istəyir mənimlə razılaşsın, kim də istəmir razılaşmasın.

Bir baxın, bizdə nə qədər qəzet çıxır.

Hollandiyanın özündə Azərbaycanda olduğu qədər qəzet çıxmır. Burada hər bir adam qəzet buraxmağa başlamışdır. Bizdə azad bazar iqtisadiyyatıdır. Pul qazanıb və ya qazanmayıb, yaxud hardansa əldə edib, fərqi yoxdur, indi bizdə qəzet xəstəliyi meydana gəlmişdir. Ən demokratik ölkələrdə 5,6,10 qəzet var, hamı onları oxuyur və sair. Burada isə, bilirsinizmi, yarış gedir ki, görək kim nə qədər qəzet buraxacaqdır. Bu xəstəlikdir, mən buna tamamilə sakit baxıram. Çünki demokratiyanın və mətbuat azadlığının, siyasi plüralizmin sivilizasiyası səviyyəsinə gəlib çıxmaq üçün biz xəstəlik mərhələlərindən keçməliyik. Bizim qəzetlərdə olduqca çox böhtanlar, hətta olduqca çox təhqirlər yazırlar. Təsəvvür edirsinizmi, bir çox qəzetlər hər gün məni təhqir edir. Mənə deyirlər ki, onları məhkəməyə verin. Mən onları məhkəməyə verə bilərəm, sübuta yetirə bilərəm ki, məni təhqir etmişlər, amma Avropada o saat hay-küy qalxacaq ki, görürsünüz, mətbuatı sıxışdırırlar. Ona görə də mən bəzən hər cür təhqirlərə, hər cür uydurmalara, hər cür ədalətsiz böhtanlara dözməli oluram. Özü də sizin xoşunuza gəlmək üçün deyil, məhz xalqı sivilizasiyaya öyrətmək üçün dözürəm. Deyə bilərəm ki, bizdə hər şey – demokratiya da, mətbuat azadlığı da, insan hüquqları da hələlik başlanğıc mərhələsindədir. Cəmiyyətimiz bu başlanğıc mərhələsini çox ağrılı keçirir.

Cənab nazir, siz iki dəfə qeyd etdiniz ki, hazırda Azərbaycanda ictimai-siyasi sabitlik var. Odur ki, bu gün Azərbaycanın

Avropa Şurasına qəbul edilməsi məsələsinə baxanlar qoy görsünlər ki, Azərbaycan müstəqilliyə qovuşduğu vaxtdan bəri necə bir yol keçmişdir. Buraya onu da əlavə edək ki, Ermənistan əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağda əhalinin əksəriyyətinin ermənilər olduğunu bəhanə gətirərək, bu torpağı ələ keçirmək və özünə birləşdirmək üçün hələ 1988-ci ildə Azərbaycana qarşı əslində müharibəyə, təcavüzə başlamışdır. Mən sonra bu məsələyə qayıdacağam. Bu təcavüz müharibəyə çevrilmiş və 1988-ci ildən 1994-cü ilədək, mənim iradəmlə dayandırılanadək davam etmişdir.

Burada daha nələr baş vermirdi! Hər il və ya iki ildən bir rəhbərlik dəyişirdi. Xalqı sıx birləşdirmək, öz torpağını qorumaq və ya məsələni müharibəsiz ədalətlə həll etmək əvəzinə, adamlar bu vəziyyətdən istifadə edir, özlərinə silahlı dəstələr yaradır və hakimiyyət uğrunda mübarizə aparırdılar. Sözün düzü, elə hakimiyyət uğrunda mübarizə 1990-cı ildə faciəyə gətirib çıxartdı. Sovet qoşunları, Qorbaçov, Siyasi Büro Azərbaycana tanklar, böyük qoşun kontingenti yeritdilər və Bakının küçələrində qan tökdülər. Bilmirəm, siz Şəhidlər xiyabanında olmusunuz, ya yox. Bu xiyaban 1990-cı ilədək yox idi, orada park vardı. Bir gecədə nə qədər insan həlak oldu! Mən Sovetlər İttifaqının tarixini yaxşı bilirəm. Siz tarixlə məşğul olmusunuz, yəqin siz də yaxşı bilirsiniz. Sovetlər İttifaqının tarixində hələ elə hal olmamışdı ki, hökumət, dövlət xalqına qarşı bu cür dəhşətli təcavüz törətsin.

Təbii ki, bu, Azərbaycanda vəziyyəti mürəkkəbləşdirdi. Belə mürəkkəb vəziyyətdə, bir tərəfdən, Ermənistan Azərbaycan torpaqlarına hücum edir, digər tərəfdən isə, ölkənin daxilində sabitlik yox idi, müharibə getdiyi halda xalqı sıx birləşdirə, öz düşməninə qarşı ayağa qaldıra bilməlidirlər. Əksinə, adamlar dəstələrdə cəmləşir və hakimiyyət uğrunda mübarizə aparırdılar. Bu nəyə gətirib çıxartdı? Bu, yeni faciəyə – Ermənistan silahlı qüvvələrinin, yeri gəlmişkən,

Rusiya qoşunları ilə birlikdə Xocalıda soyqırımı törətməsinə və Azərbaycan rəhbərliyinin yenidən dəyişməsinə gətirib çıxartdı. Bu yeni rəhbər də Moskvaya qaçdı.

Hakimiyyətə demokratik qüvvələr deyilən qüvvələr, yəni Xalq Cəbhəsi gəldi. Bir vaxtlar sizdə də Xalq Cəbhəsi olmuşdur. Amma sizin Xalq Cəbhəsi mədəni, sivilizasiyalı idi. Təəssüf ki, bizim Xalq Cəbhəsi nə Latviya, nə Litva, nə də Estoniya Xalq Cəbhəsinin səviyyəsinə qalxa bilmədi. Onlar hakimiyyətə gəldilər, bir ildən sonra isə Azərbaycanda vətəndaş müharibəsi başlandı. Bilirsinizmi, əllərində böyük miqdarda silah olan həmin komandanın adamları düşündülər ki, onlar nə üçün də prezident olmasınlar. Buna görə də Gəncə şəhərindən buraya qoşun yeritdilər, burada isə rəhbərlik o qədər aciz idi ki, dövlət quruluşunu müdafiə etməkdənsə, hərəsi bir tərəfə qaçaraq öz canını qurtardı. Separatçılıq hərəkatlarının yeni növü başlandı. Ermənilərin, məhz separatizmi Dağlıq Qarabağda müharibəyə başlamasından əlavə, cənubda yeni separatçılıq hərəkatı başlandı. Həmin Xalq Cəbhəsindən olan bir neçə «xadim» qərara gəlmişdi ki, Azərbaycanın bir neçə cənub rayonunu ayırmaq, müstəqil respublika yaratmaq və onu az qala İrana birləşdirmək olar. Şimalda da separatizm cəhdləri olmuşdur. Bir baxın, Azərbaycan müstəqillik əldə etdikdən sonra necə çətin vəziyyətdə idi. Bildiyiniz kimi, 1993-cü ildə mən buraya, Bakıya dəvət edildikdən, burada sabitlik üçün şərait yaratmağa başladıqdan sonra da 1994-cü ildə mənə qarşı dövlət çevrilişi cəhdi baş verdi. Altı aydan sonra isə XTPD, yəni Xüsusi Təyinatlı Polis Dəstəsi Daxili İşlər Nazirliyinin tabeliyindən çıxdı, ixtiyarlarında olan əsgərləri, silahları topladı və Azərbaycan prezidentinə əmr etməyə başladı – ya istefaya gedib hakimiyyəti bizə verməlisən, ya da biz səni öldürəcəyik. Buna da davam gətirməli olduq, Azərbaycanı, dövlət quruluşunu qorumaq lazım gəldi və xoşbəxtlikdən qorumağa müvəffəq olduq. Bəs sonra?

Bir neçə aydan sonra prezident Rumıniyaya, Bolqarıstana səfərdən qayıdarkən müxtəlif dövlətlərin bəzi xüsusi idarələrinin iştirakı ilə burada onun təyyarəsini raketlə vurmağa cəhd göstərildi. Şükür ki, bu dəfə Allah kömək etdi, təyyarə başqa istiqamətdən yerə endi. Demək istəyirəm ki, bir baxın, Azərbaycan 1995-ci ildə özünün ilk Konstitusiyasını qəbul edənədək, ilk parlamentini seçənədək neçə illər bu cür mürəkkəb vəziyyətdə olmuşdur. Sonra da hər şey qaydasında olmamışdır. Azərbaycana müxtəlif tərəflərdən təzyiq var. Azərbaycanın coğrafi-strateji mövqeyi, zəngin enerji ehtiyatları – neft, qaz bir çox ölkələrin diqqətini cəlb edir və hər biri də burada öz maraqlarını bərqərar etmək istəyir. Ona görə də bəzən belə şəraitdə bunlara qarşı dayanmaq da lazımdır.

Bax, biz belə bir şəraitdə demokratiya yolu ilə gedirik. Bəziləri isə hesab edir ki, demokratiya hərc-mərclik deməkdir, demokratiya hərki-hərkilikdir, nə istəyirəmsə, onu da edirəm. Biz bununla razılaşa bilmərik. Son bir neçə ildə biz burada sabitliyə böyük çətinliklə nail olmuşuq. Əvvəla, hərbi əməliyyatları dayandırmışıq, məsələnin dincliklə həlli barədə Ermənistanla danışıqlar aparırıq. İkincisi, Azərbaycandakı həmin silahlı dəstələri, cinayətkar ünsürləri və s. ləğv etmişik, sabitlik yaratmışıq, xalq rahat yaşamağa başlamışdır. Halbuki, təxminən beş il əvvəl burada axşamlar küçəyə çıxmaq mümkün deyildi. Hərə bir avtomatla gəzirdi, nə istəyirdisə, onu da edirdi. Bir sözlə, baxın, bu qısa müddətdə biz Azərbaycanın bütün bu müsibətlərini aradan qaldırmışıq. Bu qısa müddətdə sabitliyə nail ola bilmişik, bir çox məsələləri həll etmişik. İndi iqtisadiyyatımız inkişaf edir. İqtisadiyyatın inkişaf sürətinə görə, həm əvvəlki illərin, həm də 2000-ci ilin yekunlarına görə Azərbaycan MDB ölkələri arasında birinci yerdədir. Bu heç də asan deyil, göydən düşmür. Bu bizim iqtisadi siyasətimiz, həyata keçirdiyimiz islahatlar, bazar iqtisadiyyatının bərqərar edilməsinə yönəldilmiş qəti xəttimizdir, nəticə etibarilə

demokratiya azadlıq deməkdir. Ona görə də bu cür vəziyyətdə belə hesab etmək ədalətsizlik olardı ki, indi Azərbaycanda demokratiya insanların tam firavanlıq, bolluq şəraitində yaşadıqları, müharibələrin, daxili sarsıntıların nə demək olduğunu bilmədikləri ölkələrdəki səviyyədə olmalıdır.

Ona görə də mən sizin belə bir fikrinizə qayıdıram ki, demokratiya bir prosesdir və biz bu yolla gedirik. Əlbəttə, biz Avropa Şurasının üzvü olmaq istəyirik. Başa düşürük ki, bu, üzərimizə daha böyük məsuliyyət qoyacaqdır. Avropa Şurasında olmayanda biz sərbəst nəyisə yerinə yetirə bilərik, nəyisə yox, bu bizim öz işimizdir, bizə heç kəs heç nə etməz. Amma Avropa Şurasının üzvü olduqda, biz Avropa Şurasına sənəd imzalayacağıq və onda istəsək də, istəməsək də həmin sənədi yerinə yetirəcək və bu qaydalara əməl edəcəyik. Bir sözlə, Avropa Şurasının tərkibində olmağın nə demək olduğunu başa düşürük, o mənada ki, üzərimizə daha böyük məsuliyyət qoyulur. Biz buna daha böyük demokratiya təcrübəsi əldə etmək üçün, Azərbaycanı demokratikləşdirmək, Avropa Şurasında olan, xüsusən də bu strukturda çoxdan olan ölkələrlə daha sıx əməkdaşlıq etmək üçün gedirik.

Məhbuslara gəldikdə, siz bilirsiniz ki, bu yaxınlarda mən adamların böyük bir qrupunun əfv olunması haqqında fərman vermişəm. Mən ildə əfv haqqında təxminən üç-dörd belə fərman verirəm. Mənim təşəbbüsümlə parlament amnistiya haqqında qərar qəbul edir və çox adamlar həbsdən buraxılır. Bizdə bu proses gedir və gedəcəkdir. Qoy bu məsələ heç kimi narahat etməsin.

O ki qaldı burada nələr baş verdiyi və sair barədə sualınıza, mən onun bir hissəsini cavablandırdım. Vəziyyət ondan ibarətdir ki, Ermənistanla Azərbaycan arasında 1988-ci ildə başlanmış münaqişə, təəssüflər olsun ki, indiyədək aradan qaldırılmayıbdır. Atəşkəsə nail olmağımız Ermənistan üçün də, Azərbaycan üçün də böyük işdir. Lakin o vaxtdan bəri,

indiyədək sülh yaradılması haqqında razılığa gələ bilməməyimiz və münaqişənin tamamilə aradan qaldırılması haqqında razılıq əldə edə bilməməyimiz, əlbəttə, pisdir. 1992-ci ildə ATƏT Minsk qrupu deyilən qrup yaratdı. Həmin qrup 12 ölkədən ibarətdir və bu münaqişənin dincliklə nizama salınması ilə məşğul olur. Yeri gəlmişkən, 1993-cü ildə Minsk qrupuna İtaliya, sonralar İsveç rəhbərlik etmişdir. Siz cənab Jan Elissonu xatırlayırsınızmı?

H a k a n V i l k e n s: Bəli, indi o, Vaşinqtonda səfirimizdir.

H e y d ə r Ə l i y e v: Cənab Jan Elisson ATƏT-in Minsk qrupunun sədri olmuşdur və bir il ərzində biz onunla burada, başqa yerlərdə dəfələrlə görüşmüşdük. Amma heyf ki, münaqişəni aradan qaldırmaqda bizə kömək edə bilmədilər. Cənab Jan Elisson çox çalışırdı. Mən onun haqqında çox yaxşı rəydəyəm. Əgər imkan olarsa, mənim salamımı ona yetirin. Ancaq münaqişəni həll edə bilmədilər. O vaxtlar sizdə Xarici İşlər naziri qadın – Marqarita Duqlas idi, qəşəng qadındır. O buraya gəlmişdi, mən onunla görüşmüşdüm, biz danışıqlar aparırdıq. Xanım Duqlas o vaxt ATƏT-in sədri idi. O da bir şey edə bilmədi. Sonra estafeti Rusiyaya verdilər, o da bir şey edə bilmədi. Sonra Rusiya estafeti Finlandiyaya verdi, o da bir şey edə bilmədi. Nəhayət, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə Rusiyanı, Amerika Birləşmiş Ştatlarını və Fransanı həmsədrlər təyin etdilər. O vaxtdan bəri bu üç böyük dövlət problemin həllində bizə kömək göstərə bilmir.

Bəs problem nədən ibarətdir? Ermənistan hesab edir ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir. Guya ki, o, erməni torpağıdır. Bu, tarixi həqiqətə ziddir. Lakin müharibə zamanı müxtəlif səbəblərə görə ermənilər nəinki Dağlıq Qarabağı, həm də Dağlıq Qarabağ ətrafında yerləşən və əhalisi yalnız azərbaycanlılardan ibarət olan daha yeddi rayonu işğal etdilər. Bu rayonlardan bir milyon adam didərgin salınmışdır, onlar çadırlarda yaşayırlar. Bizim müxalifət hər şeydə məni ittiham edir,

ittihamlarından biri də belədir ki, Əliyev yeddi ildir bu məsələni həll edə bilmir. Onların hər biri hesab edir ki, bu məsələni həll edə bilər. Halbuki, bu məsələnin həlli üçün onların hamısı birlikdə bir addım ata bilməz. Mən bilirəm ki, bu məsələ nə dərəcədə çətindir. Ermənistan təcavüzkardır, Ermənistan insanların hüquqlarını xırdalayır. Avropa Şurası ayrıca bir vətəndaşın hüquqları uğrunda mübarizə aparır. Bəs nə üçün Avropa Şurası bütöv bir xalqın hüquqları uğrunda mübarizə aparmır? Xalqımız təcavüzə məruz qalmışdır. Daimi yaşayış yerlərindən didərgin salınmış bir milyon adam 6–7 ildir çadırlarda yaşayır. Azərbaycanda real vəziyyət, bax, belədir. Avropa Şurası buna fikir vermir. Amma haradasa kimsə bir cinayət törədib həbsxanaya salındıqda, onun tezliklə azadlığa buraxılmasına çalışır.

Bilirsinizmi, biz belə münasibətlə razılaşa bilmərik. Biz Avropa Şurasına ona görə daxil olduq ki, Avropa Şurası başlıca məsələnin, insan hüquqlarının kütləvi surətdə pozulmasından söhbət gedən məsələnin həlli üçün səy göstərsin. Bu, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, insanların öz yaşayış yerlərinə qayıtması – hərçənd orada hər şey dağıdılmışdır, bütün həyata yenidən başlamaq lazımdır – Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsinin həllidir. Bunlar Cənubi Qafqaz regionuna aid olanlardır.

Cənubi Qafqazda üç respublika var – Gürcüstan, Ermənistan və Azərbaycan. Münasibətlərimiz çox yaxşı idi. Gürcüstanda yarım milyon azərbaycanlı yaşayır. Amma heç bir problem yoxdur. Nə bizim tərəfimizdən torpaq iddiası var – hərçənd onlar Azərbaycanla həmsərhəd rayonlarda yaşayılar – nə də Gürcüstan tərəfindən. Biz öz aramızda qarşılıqlı münasibətləri saxlayırıq. Siz yəqin ki, bilirsiniz, hazırda Gürcüstanın iqtisadi vəziyyəti ağırdır. Biz əlimizdən gələn köməyi Gürcüstandan əsirgəmirik. Hərçənd bizim də çox problemlərimiz var. Rusiya şimal qonşumuzdur. Hazırda Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. Lakin bununla yanaşı, onlar Ermənistana

gizlincə bir milyard dollarlıq silah və hərbi texnika vermişlər. Məgər belə şey olarmı? Azərbaycan və Ermənistan MDB-nin tərkibindədir. Üstəlik, Rusiya münaqişəni dincliklə həll etmək üçün ATƏT-in Minsk qrupunun həmsədridir. Rusiya isə Ermənistana gizlincə bir milyard dollarlıq silah göndərir. Nə üçün? Münaqişəni ləğv etmək üçün, yoxsa başqa bir şey üçün? Bizim ərazimizdə heç bir ölkənin hərbi bazaları yoxdur. Ermənistanda isə Rusiyanın hərbi bazaları var. Bu bir yana, son bir ildə onlar orada qüvvələri artırır, ən yeni S-300 raketləri, ən yeni MİQ-29 təyyarələri göndərmişlər.Yəni bu kiçik torpaqda o qədər silah yerləşdirmişlər. Mən Rusiya rəhbərlərindən soruşuram, bu nə üçündür, nəyə görədir? Amma buna qənaətbəxş cavab ala bilmirəm. Regionumuzun xüsusiyyəti, bax, belədir.

Türkiyə ilə çox yaxşı münasibətlərimiz var. Ənənəvi olaraq, tarixən yaxşı münasibətlərimiz olub, indi çox yaxşı münasibətlərimiz var. Aramızda yaxşı əmtəə dövriyyəsi mövcuddur və Türkiyəni özümüzə dost ölkə bilirik.

İran cənub qonşumuzdur, orada çoxlu azərbaycanlı yaşayır. Bəzilərinin dediklərinə görə, İranda az qala 30 milyon azərbaycanlı yaşayır. Biz İranla tarixən çox sıx bağlıyıq. İranla çox yaxşı münasibətlər, dostluq münasibətləri olmasını istəyirik. Aramızda böyük əmtəə dövriyyəsi var, ticarət gedir. İranla sərhədlərdə gediş-gəliş rahatdır.

Orta Asiya ölkələri ilə münasibətlərimiz yaxşıdır. Hazırda Xəzər dənizi çox böyük bir problemə çevrilmişdir. Ona görə ki, biz – Azərbaycan – dənizinin dərinliyindən neft və qaz çıxarmağa hələ 50 il əvvəl, Sovetlər İttifaqının dövründə başlamışıq. Biz böyük təcrübəyə malikik. Geoloqlarımız dənizdə çoxlu neft və qaz yataqları aşkara çıxarmışlar. Ona görə də biz Qərb ölkələri ilə, Amerika Birləşmiş Ştatlarının, İngiltərənin şirkətləri, Almaniyanın «Bibel» adlanan çox böyük bir şirkəti ilə bir çox müqavilələr bağlamışıq, Hollandiyanın «Şell» şirkəti burada fəal işləyir, çox böyük imkanlara

malikdir, Belçika, İtaliya şirkətləri, hətta İspaniya şirkətləri, Fransanın «Total», «Elf agiten» kimi iri şirkətləri, Norveçin «Statoyl» şirkəti işləyir. Bir sözlə, biz Xəzər dənizinin imkanlarını dünya üçün açmışıq, çünki burada zəngin neft və qaz yataqları var. Biz Gürcüstan ərazisi ilə Qara dəniz sahilinə neft kəməri çəkmişik. Biz artıq bu boru kəməri ilə neft ixrac edirik. Gələcəkdə ildə təqribən 50–60 milyon ton neft ixrac etmək üçün bu yaxınlarda Bakı–Tibilisi–Ceyhan boru kəmərinin inşasına dair çox iri müqavilə imzaladıq. Bizi bu da bütün ölkələrlə birləşdirir.

Lakin Xəzər dənizinin o tayında Qazaxıstan, Türkmənistan da neft və qaz hasilatı ilə məşğuldurlar. Xəzər dənizi hələ Sovetlər İttifaqının dövründə sektorlara bölünmüşdü. Doğrudur, indi bəziləri buna etiraz edirlər, Xəzər dənizinin statusu haqqında mübahisələr gedir – problemlərimizdən biri də budur. Mən suallarınıza cavab verməyə çalışdım.

İ n d u l i s B e r z i n ş: Cənab Prezident, sağ olun, açıq danışdığınıza görə xüsusilə təşəkkür edirəm. Ona görə ki, mən artıq çoxdan siyasətdəyəm. Əlbəttə, Sizinlə müqayisədə qat-qat az, amma 10 ildən çoxdur ki, siyasətdəyəm. Söz düşmüşkən, mən siyasətə Latviya Xalq Cəbhəsindən başlamışam. Bilirəm ki, «bəli» demək, sonra da bunu reallığa çevirmək barədə düşünmək bəzi siyasətçilər üçün hər şeydən asandır. Siz, bir tərəfdən, Avropa Şurasında öz gələcəyinizi necə gördüyünüz barədə danışaraq, vəziyyəti nikbincəsinə təsvir etdiniz. Bir daha təkrar edirəm ki, Latviya Sizin tezliklə Avropa Şurasına qəbul olunmağınıza tərəfdardır. Mən çox ümid edirəm ki, bizim sədrliyimiz dövründə Sizin bayrağınız Avropa Şurasının binası qarşısında mütləq qaldırılacaq, biz əlimizdən gələn hər şeyi edəcəyik.

Ona görə ki, bizə elə gəlir ki, heç olmasa, bir qədər kömək edə bilərik, mən Avropa Şurasının imkanlarını şişirtmək niyyətində deyiləm, amma Dağlıq Qarabağ problemi ilə əlaqədar

Ermənistanla Azərbaycan arasında münaqişənin müsbət həllinə heç olmasa bir qədər təsir göstərə bilərik. Çünki əgər hər iki ölkə bu təşkilata daxil olarsa, onda sizin bu problemin nəinki öz aranızda, həm də artıq digər dövlətlərin iştirakı ilə müzakirə etməyə, onların dəstəyini almağa, yəni prosesi görməyə yeni imkanınız yaranır. Kənardan görünür ki, indi hansısa bir çıxılmaz yol əmələ gəlmişdir, hər şey dayanmışdır, sanki heç nə irəliləmir. Həqiqətən, yaxşıdır ki, müharibə yoxdur. Amma sülh də yoxdur. Çünki qaçqınlar var, haqqında danışdığımız bütün bu problemlər var. Odur ki, biz bunun uğrunda çıxış edirik və çıxış edəcəyik. Ən başlıcası isə, bayaq dediyim kimi, biz bütün bu proseslərə şəxsən Sizin təsirinizi və bu ölkədəki prezident təsisatının təsirini gözəl bilirik. Əgər dedinizsə, mən bilirəm, Siz sözünüzün üstündə dursunuz – bu müsbət irəliləyişi davam etdirəcəksiniz.

Sözün düzü, təşkilatda sədrlik edən şəxs kimi, mən ən başlıcası bunu eşitmək istəyirdim və Strasburqdakı həmkarlarıma inamla deyə bilərəm ki, belə görüş oldu və Siz bunları söylədiniz. Mən bunu Latviyada adamlara da söyləyə bilərəm. Bu ən başlıcasıdır. Heç bir ölkə inkişafdan qalmır. Bu, həqiqətən belədir. Biz Avropa Şurasına daxil olduqdan sonra çox işlər gördük və görməkdə davam edirik. Məsələn, bizdə Latviyaya işğal dövründə, Sovet İttifaqı dövründə gəlmiş adamları inteqrasiya prosesi fəal gedir. Biz onlara dil öyrətməli, vətəndaşlıq verməliyik, bu isə bütöv bir prosesdir. Hər bir ölkənin öz problemləri var, təbii ki, onları həll etmək lazımdır. Mən Sizinlə tam razıyam, nümayəndələri burada olan demokratik ölkələrin və digər ölkələrin topladıqları təcrübədən istifadə etmək gərəkdir. Xüsusən də ona görə ki, ideal modellər yoxdur.

Bu gün biz nahar zamanı danışırdıq ki, parlament demokratiyası olan yerlərdə prezident idarəçiliyinə necə keçmək barədə düşünürlər, prezident idarəçiliyi olan yerdə isə parlament demokratiyasına doğru bəzi dəyişikliklər etmək lazımdır.

Demokratiya canlı bir şeydir, əgər canlı bir şeydirsə, deməli, inkişaf edir. Mən bu barədə Sizinlə tam razıyam. Bir sözlə, bu görüşə görə, bu imkana görə Sizə bir daha təşəkkür etmək və bu çox mürəkkəb yolda uğurlar arzulamaq istəyirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun. Düşünürəm ki, ayın 7-də keçiriləcək seçkilər barədə sizə ətraflı danışmışlar. Əmin ola bilərsiniz ki, ayın 7-də seçkilərin ən yüksək səviyyədə keçirilməsi üçün hər şey edilmişdir və ediləcəkdir. Yəqin ki, onlar hər şeyi söyləmişlər. Mən təkrar etməyəcəm. Sağ olun.

İ n d u l i s B e r z i n ş: Biz Sizinlə işi fəal, indiyədək olduğu kimi, uğurla davam etdirmək istəyirik. Biz Sizinlə hələ çox işlər görəcəyik.

H e y d ə r Ə l i y e v: Cənab Urmanis hazırda parlamentdədir?

İ n d u l i s B e r z i n ş: Xeyr, o indi fəal siyasətdə deyildir. Keçmiş prezident kimi, ölkələri gəzir, mühazirələr oxuyur. Bir sözlə, o, müəyyən mənada fəaldır, amma parlamentdə yoxdur.

H e y d ə r Ə l i y e v: Onun özü imtina etdi?

İ n d u l i s B e r z i n ş: Bizdə Konstitusiyaya görə iki müddətə seçilirlər. O da ki, müddəti başa vurdu, heç bir dəyişiklik olmadı və özü belə qərara gəldi . İndi bizdə yeni prezident var, qadındır. Kanadadandır.

H e y d ə r Ə l i y e v: Mən onu görmüşəm, biz onunla görüşmüşük, onunla Yaltada tanış olmuşdum. Siz buraya gəlin, Avropa Şurasının tərkibində yox, Latviyanın Xarici İşlər naziri kimi ayrıca gəlin. Çünki biz Baltikyanı ölkələrlə daha sıx əlaqələr istəyirik.

İ n d u l i s B e r z i n ş: Mütləq gələcəyəm. Sağ olun.

AZƏRBAYCANIN XRİSTİAN İCMASINA

Əziz həmvətənlər!

Sizi – respublikanın bütün xristianlarını İsa peyğəmbərin mübarək doğum günü – Müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda xristianlığın qədim tarixi vardır. Pravoslav xristian icmasının respublikamızda məskunlaşması da iki əsrə yaxın bir dövrü əhatə edir. Ölkəmizdə yaşayan bütün dini icmaların nümayəndələri, o cümlədən müsəlmanlarla xristianlar həmişə mehriban ailə kimi yaşamış, bir-birinin sevincinə, kədərinə yaxından şərik olmuşlar.

Xristianlar Azərbaycanda tarixən mövcud olan milli-dini dözümlük şəraitində adət və ənənələrini, dilini, dinini, mədəniyyətini qoruyub saxlamış, cəmiyyətimizin tam və bərabərhüquqlu vətəndaşları kimi yaşayıb-yaratmışlar. Bu gün onlar müstəqil Azərbaycanda bərqərar edilmiş demokratik hüquqi prinsiplərdən, insan və vətəndaş haqlarından tam yararlanaraq, respublikamızın ictimai-siyasi, elmi-mədəni həyatında və müstəqil dövlət quruculuğu prosesində fəal iştirak edirlər.

İyirminci əsrin son ilində İsa peyğəmbərin mövludunun iki minilliyini geniş qeyd etdik. Qlobal tarixi hadisələrlə, keşməkeşlərlə dolu iyirminci yüzillik artıq arxada qalmış, dünya xalqları böyük ümidlərlə yeni əsrə, yeni minilliyə qədəm qoymuşdur. İnanıram ki, xristianlığın iki minilliyini təntənə ilə bayram edəcəyimiz iyirmi birinci yüzillik bəşəriyyətin həyatında sülh, əmin-amanlıq və tərəqqi əsri,

müstəqil ölkələrimiz üçün yeni inkişaf və çiçəklənmə dövrü olacaqdır.

Əziz dostlar!

Müqəddəs Milad bayramını qeyd etdiyiniz bu nurlu gündə hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *6 yanvar 2001-ci il*

RİÇARD KOZLARİÇ BAŞDA OLMAQLA ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

6 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Kozlariç!

Hörmətli səfir!

Mən sizinlə görüşümdən çox məmnunam. Xüsusən cənab Kozlariçin Azərbaycana gəlməsi onun üçün xeyli əhəmiyyətlidir.

Cənab Kozlariç, siz Bakıdan gedəndə mən dedim ki, Azərbaycana yenə də gələcəksiniz. İndi gəlmisiniz. Nə qədər vaxtdır ki, buradan getmisiniz?

R i ç a r d K o z l a r i ç: Üç ildən çoxdur, 1997-ci ilin iyul ayında Azərbaycanı tərk etmişəm.

H e y d ə r Ə l i y e v: Bəli, mənim Amerika Birləşmiş Ştatlarına rəsmi səfərimdən əvvəl.

R i ç a r d K o z l a r i ç: ABŞ-da Sizinlə birlikdə prezident Bill Klintonla görüşdük.

H e y d ə r Ə l i y e v: Bəli, siz əvvəl getmişdiniz. Amma mənim ABŞ-a rəsmi səfərim iyul ayının axırında oldu. Düz deyirsiniz, Amerikada da bir yerdə olduq. İndi ABŞ-da hökumət dəyişilir.

R i ç a r d K o z l a r i ç: Seçki keçirmək yaxşı haldır.

H e y d ə r Ə l i y e v: Bəli, sizin ölkədə seçki keçirildi, özü də yaxşı keçirildi, amma nəticəni bir az gecikdirdiniz.

R i ç a r d K o z l a r i ç: Mən həmişə deyirdim ki, demokratiya quruculuğu heç zaman axıra çatmayan, sonu olmayan bir işdir. Bu həm Azərbaycan üçün, həm də ABŞ-ın özü üçün bir həqiqətdir.

H e y d ə r Ə l i y e v: Doğru deyirsiniz. Siz bunu demisiniz və mən də həmişə demişəm. İndi siz demokratiya yolunda yüzpilləli pilləkənin təxminən səksəninci pilləsindəsiniz, biz isə onuncu pilləsindəyik. Amma biz sizin pilləyə gəlib çatanda, həmin nərdivan iki yüz pilləli olacaqdır. Ona görə də nə siz axıra çata biləcəksiniz, nə də biz.

Hər halda, prezident seçkiləri keçirdiniz. Bu sizin ölkənizdə Konstitusiyanın, qanunun çox dəyişməzliyini bir daha sübut edir.

Mən yeni seçilmiş prezident cənab Buşu təbrik etdim. Bu təbriklə əlaqədar dünən ondan çox məzmunlu bir məktub aldım. Yəni, Azərbaycan–Amerika Birləşmiş Ştatları əlaqələri bundan sonra da inkişaf edəcəkdir. Demək, belə çıxır ki, sizdə hökumət dəyişilirsə də, siyasət dəyişmir. Çünki sizin ölkənin indiyə qədərki hökuməti ilə biz çox səmərəli əməkdaşlıq etdik. Ötən bu dövrün üç ilini də biz sizinlə bərabər olduq.

Doğrudur, bizim əsas problemlərimiz həll olunmadı. Ancaq eyni zamanda, çox irəliyə getdik. Yəni demək istəyirəm ki, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması, Bakı–Supsa neft kəmərinin tikilməsi, neftin ixrac edilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac kəmərinin tikilməsi haqqında qərarların qəbul olunması və Azərbaycan ilə ABŞ arasında əlaqələrin inkişaf etdirilməsi indi seçkilər nəticəsində sizin ölkədə hakimiyyətdən gedən hökumətdən yeni hökumətə yaxşı irs qalmışdır.

Ona görə də prezident cənab Corc Buşdan dünən aldığım məktub məndə böyük ümidlər yaradır.

İndi mən bilirəm ki, siz buraya seçkiləri müşahidə etmək üçün gəlmisiniz. Siz elə neçə ildir ki, bizi müşahidə edirsiniz. Buna o qədər öyrəşmisiniz ki, bu müşahidədən əl çəkə bilmirsiniz.

Amma çox məmnunam ki, gəlmisiniz. Güman edirəm ki, ürəyiniz haranı istəsə, sabah orada müşahidə apara biləcəksiniz. Hər halda, biz çalışırıq ki, seçki prosesində demokratik prinsipləri gündən-günə, aydan-aya, ildən-ilə daha da inkişaf etdirək. Güman edirəm ki, 11 dairədə keçiriləcək təkrar seçkilərdə də biz hansısa nailiyyətlər əldə edəcəyik.

Prezident kimi mənim bir arzum, bir məqsədim vardır. Dəfələrlə demişəm ki, seçkilər ədalətli, şəffaf keçsin və xalq kimi istəyirsə onu da seçsin.

Mənə məlumat verdilər ki, hər bir dairəyə orta hesabla 8 namizəd düşür. Yəni yarış böyükdür. Kimin seçiləcəyinin mənim üçün fərqi yoxdur. Mənim üçün əsas odur ki, seçkilər ədalətli olsun. Güman edirəm ki, sizin də, Azərbaycana çoxlu müşahidəçilər gəlib, onların da ölkəmizdə olması təkcə seçkiləri müşahidə etməyə deyil, seçkilərin daha da mükəmməl keçməsinə öz təsirini göstərəcəkdir.

Siz bilirsiniz ki, bu günlər bizim başqa işlərimiz də vardır. Yanvar ayının 9-da Rusiyanın prezidenti Azərbaycana gələcəkdir. Bu, ölkəmizin müstəqilliyi dövründə Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. İmzalamaq üçün bir çox sənədlər hazırlanmışdır. Təbiidir ki, onların üzərində hələ də işlər gedir. Buna görə də mənim başım bu işlərə çox qarışıqdır. İnanıram ki, Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları nə lazımdırsa onu edə biləcəklər.

Bu gün mənim hələ bir neçə belə görüşüm olacaqdır. Bunlar Azərbaycan prezidenti kimi, mənim öz borcumu yerinə yetirdiyimi göstərir. Hesab edirəm ki, prezidentin bu sözlərinə gərək çalışıb hamı riayət etsin.

R i ç a r d K o z l a r i ç: Cənab Prezident, Azərbaycana yenidən qayıtmağımdan olduqca məmnunam. Həm Sizə, həm də Azərbaycan xalqına yeni ildə böyük nailiyyətlər arzu edirəm.

Burada kiminlə görüşürəmsə, hamı mənə söyləyir ki, özümü çox rahat hiss edirəm. Mən də bunu anlayıram. Çünki indi əsas yük,

məsuliyyət səfir Uilsonun çiynindədir. Mən isə bu gün Azərbaycana adi ABŞ vətəndaşı kimi gəlmişəm. Siz doğru qeyd etdiniz ki, baxmayaraq ki, mən artıq Dövlət Departamentində çalışmıram, diplomatik xidmətdən təqaüdə çıxmışam, amma Azərbaycana diqqət yetirməkdə davam edirəm, ölkənizdə baş verənləri çox yaxından izləyirəm. Bu fürsətdən istifadə edərək, bu yaxınlarda baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanda olmuş dağıntılara, çətinliklərə və itkilərə görə mən də öz adımdan, həm də ailəm adından başsağlığı vermək istəyirəm. Bilirəm ki, bu hadisə Sizin ölkə üçün böyük zərbə oldu.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm.

R i ç a r d K o z l a r i ç: Doğru qeyd etdiniz. Mən bu səfərim zamanı seçkilərdə müşahidəçi kimi iştirak edəcəyəm.

Mən Milli Demokratiya İnstitutundan Azərbaycana gedəcək nümayəndə heyətinə rəhbərlik etməyim barədə təklif alanda tərəddüd etmədən dərhal razılıq verdim. Çünki xatırladım, yadıma düşdü ki, hələ 1995-ci ildə məni, cənab Letskini dəfələrlə ruhlandırırdınız ki, Milli Demokratiya İnstitutunun Azərbaycanda ofisini açaq. Milli Demokratiya İnstitutunun burada fəaliyyətini təşkil edən Piter Van Praq, Con Hool çox yaxşı işçilərdirlər və yaxşı fəaliyyət göstərirlər.

H e y d ə r Ə l i y e v: Onlar bu görüşdə iştirak edirlər?

R i ç a r d K o z l a r i ç: Bəli.

Beləliklə, mən Milli Demokratiya İnstitutunun Azərbaycandakı fəaliyyətinə və ölkənizdə demokratik proseslərin inkişaf etdirilməsinə Sizin yüksək qiymət verdiyinizi gözlərim önünə gətirərək Bakıya gəlməyə razılıq verdim. Heç kim bilməsə də, Siz bilirsiniz ki, Azərbaycan mənim ürəyimin bir hissəsidir, Azərbaycan xalqı mənim yaxın dostumdur. Ona görə də mən burda baş verənləri dərindən izləyirəm və bu ölkənin çiçəklənməsini arzulayıram. Mən Sizin indi söylədiyiniz fikirləri tamamilə bölüşdüyümü bildirmək istəyirəm. Bu prosesdə iştirakımızda hər hansı bir namizədin tərəfini saxlamaq

fikrimiz yoxdur. Biz sadəcə açıq-aşkar, şəffaf, ədalətli bir prosesin baş verməsini istəyirik və bu, Milli Demokratiya İnstitutunun əsas istəyidir.

Milli Demokratiya İnstitutunun Bakıdakı ofisinin əməkdaşları yerli siyasi partiyalarla, demokratik təsisatlarla əlaqələri bundan sonra da davam etdirəcəklər.

Q E Y D L Ə R

1. Zərifə xanım, Ə l i y e v a Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 6.

2. İlham Əliyev, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən

böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 6,7,10,11,373,383.

3. Sevil Əliyeva, S e v i l H e y d ə r q ı z ı (d.1955) – şərqşünas, ictimai xadim, tarix elmləri namizədi. Ulu öndər Heydər Əliyevin qızıdır. Bəstəkarlıq fəaliyyəti göstərir, bir sıra musiqi əsərlərinin müəllifidir. Sevil Əliyeva 1990-cı illərin birinci yarısından fəal ictimaiyyətçi, müstəqil Azərbaycanda qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. «Sevil» Azərbaycan Qadınlar Məclisinin sədri, «SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası»nın prezidentidir. İngiltərə–Azərbaycan ictimai-mədəni əlaqələrinin genişləndirilməsində də xidmətləri var. – 6,383.

4. Sidney – Cənub–Qərbi Avstraliyada şəhər. Yeni –Cənub Uelsin paytaxtı. Əsası 1788-ci ildə qoyulmuşdur. – 6.

5. Həzrəti Əli ibn Əbu Talib (598–661) – Məhəmməd əleyhüssəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdir. – 7.

6. Avropa Şurası (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 8,24,33, 49,128–131,285,387,389,399–417.

7. Yeni Azərbaycan Partiyası (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992, Naxçıvan) Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 8,9,10,12.

8. Əli Əhmədov, Ə l i C a v a d o ğ l u (d.1953) – fəlsəfə elmləri namizədi. 1999-cu ildən YAP-ın icraçı katibi, 2005-ci ildən isə YAP-ın sədr müavini və icraçı katibidir. 2000-ci ildən Milli Məclisin deputatıdır. – 10.

9. Səyavuş Novruzov, S ə y a v u ş D ü n y a m a l ı o ğ l u (d.1969) – hüquqşünas, 2000-ci ildən Milli Məclisin deputatı. Hazırda YAP-ın icraçı katibinin müavini və idarə heyətinin üzvüdür. – 10.

10. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə

dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 10,11,43,44,195–199.

11. Naxçıvan – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km^2, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 11,79,81,83, 84,181,184,186,187,188,191,217,254,293,294.

12. İran, İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km^2, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 11,24,26,27,29,79–84,133,136,152, 187,190,277,279–280,281,335,404,409.

13. Rəfael Allahverdiyev, R ə f a e l X a n ə l i o ğ l u (1945–2009) – 1993–2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 12.

14. Ziya Bünyadov, Z i y a M u s a o ğ l u (1923–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas-tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 12,299,358.

15. Səfər Əbiyev, S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 13.

16. Putin, V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı olmuş, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 13,25,27,75,76,77, 78,122,123, 124,125,136,137,142,147,151,152,194.

17. Rəsul Quliyev, R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 13.

18. Amerika Birləşmiş Ştatları (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km^2, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 14–16,19,20,23,57–58,66–67,117,133,150,169,179–194,200,201,202,210, 256,336,339,369,372,412,414,420–424.

19. Bakı–Tbilisi–Ceyhan – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 14,42,44,140,195,196,415,421.

20. «Əsrin müqaviləsi» – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 14,85,257,289,330.

21. ATƏT-in İstanbul zirvə görüşü – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı

idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 14.

22. Klinton Bill, U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 14–16,20,21,22,23,197, 420.

23. Müstəqil Dövlətlər Birliyi (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 17,47–56,68–69,76,124,132–153,158,285,320,335,341,345,367,368,370,376,409.

24. Nyu-York – ABŞ-ın şimal-şərqində ştat. Sahəsi 20,2 min km^2, əhalisi 8 milyon nəfərdir. İnzibati mərkəzi Trenton şəhəridir. – 19.

25. Hilları Klinton Potxem (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. Hazırda ABŞ-ın Dövlət katibidir. – 19.

26. Rusiya, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km^2, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 24–29,35–37, 49,75–78,91,121–125,132,135,136,137,141,142,151,152,158,179–194,199, 292,297,301,318,321,339,370,372,374,385,403,412,413,414.

27. Viktor Kalyujnı (d.1947) – neftçi mühəndis, diplomat. 1999–2000-ci illərdə Rusiya Federasiyası Yanacaq və Energetika naziri, 2000-ci ilin avqustundan 2004-cü ilə qədər Xarici İşlər nazirinin birinci müavini və Prezidentin Xəzər dənizi statusunun həlli üzrə xüsusi nümayəndəsi işləmişdir. 2004-cü ilin sentyabrından Rusiya Federasiyasının Latviyada fövqəladə və səlahiyyətli səfiridir. – 24–29,49.

28. Qazaxıstan, Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km^2, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 14,21,23,25,26,27,28,29,83,152, 277,298,318,369,415.

29. İqor İvanov (d.1945) – 1986–89-cu illərdə SSRİ Xarici İşlər Nazirliyinin ümumi katibliyində rəisin birinci müavini, 1989–91-ci illərdə rəis, 1991–93-cü illərdə Rusiya Federasiyasının İspaniyada səfiri, 1993–98-ci illərdə Rusiya Xarici İşlər nazirinin birinci müavini, 1998–2004-cü illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri olmuşdur. – 26,27.

30. Saparmurad Niyazov, S a p a r m u r a d A t a o ğ l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 28,29.

31. Birləşmiş Millətlər Təşkilatı (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-

ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 28,38,171, 201,281,285,322.

32. Kamboca, K a m b o c a K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 181 min km^2, əhalisi 10 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 30.

33. Norodom Sianuk (d.1922) – 1945–55 və 1993-cü ildən Kambocanin kralı. 1955-ci ildə atasının xeyrinə taxt-tacı tərk etmişdi. 1955–60-cı illərdə hökumət başçısı, 1970–75 və 1979–90-cı illərdə isə mühacirətdə olmuşdur. 1991-ci ildən yenidən dövlətin başçısı kimi tanındı. 1991-ci ildən həm də Ali Milli Məclisin (Milli barışığın) sədridir. – 30.

34. Anqola, A n q o l a R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km^2, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 31.

35. Duş Santuş, J o z e E d u a r d u (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 31.

36. Azərbaycan Xalq Cümhuriyyəti – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının

Parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 32,286,295,296,297.

37. Alla Puqaçova, A l l a B o r i s o v n a (d.1949) – rus estrada müğənnisi. SSRİ xalq artisti. 1988-ci ildən «Nəğmə teatrı» teatr studiyasının bədii rəhbəridir. Repertuarına müasir müəlliflərin mahnıları və öz bəstələdiyi mahnılar daxildir. Beynəlxalq estrada mahnıları festivalının «Qran pri», estrada mahnılarının «Qızıl orfey» və Rusiya Dövlət mükafatı laureatıdır. – 35–37.

38. Livan, L i v a n R e s p u b l i k a s ı **–** Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km^2, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 muhafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 39,74.

39. Rafiq əl–Həriri (1944–2005) – Livan milyaneri və siyasi xadim. Terror nəticəsində həlak olmuşdur. 1992–2005-ci illərdə Livanın Baş naziri olmuşdur. – 39.

40. «Bi-Pi–AMOKO» – dünyada ən böyük neft və neft-kimya korporasiyalarından biri. «Bi-Pi–AMOKO» dünyada neft-qaz hasilatı, xam neft satışı, neftin emalı və neft məmulatlarının ticarəti, həmçinin neft-kimya məhsulları istehsalı və satışı üzrə ixtisaslaşmış nəhəng şirkətdir. – 41–46.

41. Terri Devid Adamc (1938) – görkəmli ingilis mühəndis-neftçi, geoloq. Əmək fəaliyyətinə 1963-cü ildə başlamışdır. 1969-cu ildən «Britiş Petroleum» şirkətinin bir çox ölkələrdə nümayəndəsi olmuşdur.

1994–1998-ci illərdə Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ilk prezidenti olmuşdur.

Azərbaycanda səmərəli fəaliyyətinə görə 1997-ci ildə Britaniya krallığının «Müqəddəs Mixail və Müqəddəs Georgi», 1998-ci ildə isə Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 41.

42. BP, «B r i t i ş P e t r o l e u m», – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. BP 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 41.

43. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) – 1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 41.

44. Marat Baqlay (d.1931) – hüquq elmləri doktoru, professor. Rusiya Elmlər Akademiyasının müxbir üzvü. 1997– 2002-ci illərdə Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri, hazırda RF Konstitusiya Məhkəməsində hakimdir. – 47–56.

45. **Petru Luçinski** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997–2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdur. – 51.

46. Leonid Daniloviç Kuçma (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 53,77,145–147,222.

47. Avstraliya, A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon km^2, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki

əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 59–63,369.

48. Oman, O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min km^2, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı – Məskət şəhəridir. – 64.

49. Qabus Bin Səid (d.1940) – 1970-cı ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan Bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 64.

50. Latviya, L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km^2, əhalisi 2530 min nəfərdir. İnzibati ərazisi 26 rayona (qəza) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 65,399–417.

51. Vayra Vike–Freyberq (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 65.

52. Yan Kalitski (d.1948) — ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, Ticarət Nazirliyinin xüsusi müşaviridir. – 66–67.

53. Yuri Yarov, Y u r i F y o d o r o v i ç (d.1942) – 1999–2008-ci illərdə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinin sədri olmuşdur. – 68–69.

54. İçərişəhər – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–

XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmişdi, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa qarvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 68,98.

55. Abbas Abbasov, A b b a s A y d ı n o ğ l u (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 69.

56. Liviya, L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a h i r i y-y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km^2, əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı–inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 70–73.

57. Müəmmər Əl–Qəddafi (d.1942) – Liviyanın dövlət və siyasi xadimi. 1970-ci ildən Liviyanın prezidenti. Hakimiyyətə gəldikdən sonra Qərbə yaxınlaşmağa daha üstünlük vermiş, təbii sərvətlərlə zəngin olan kasıb ölkəni inkişaf etdirməyə başlamışdır. – 71,72,73.

58. Fələstin dövləti – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə, 1967-ci ildə İsrail

tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 71,269.

59. SSRİ, S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 71,96,209,210,213,216,232,235,237,288,297,299,301,303,308,310,311,314,315, 316,317,318,319,320,321,322,323,324,367,378,380.

60. Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km^2-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 71,129,132,133,135,137,138,142,169,184,188, 194,279,281,311,312,313,314,315,323,324,325,328,330,348,388,409,412.

61. İslam Konfransı Təşkilatı (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 73,280,281,336,338.

62. Emil Ləhhud (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 74.

63. Vasif Talıbov, V a s i f Y u s i f o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 79.

64. Naxçıvan Muxtar Respublikası (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km^2, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 82,254,319.

65. Xatəmi, S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 84.

66. İhsan Doğramacı (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 87.

67. «Azərbaycan Mədəniyyətinin Dostları» – xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. – 88–91.

68. Mehriban Əliyeva, M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi –Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır.

Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan

xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. Fransanın «Şərəf Legionu» ordeni ilə təltif olunmuşdur. – 88.

69. Anar Məmmədxanov, A n a r C a m a l i o ğ l u (d.1970) – mexanik-riyaziyyatçı, 1991–95-ci illərdə Bakı Şən və Hazırcavablar klubunun prezidenti və «Bakılı oğlanlar» komandasının kapitanı idi. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 88–91, 366–386.

70. Fidan Qasımova, Q a s ı m o v a F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 89.

71. Xuraman Qasımova, X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Kinofilmlərə də çəkilmişdir. Pedaqoji fəaliyyət göstərir. – 89.

72. Alim Qasımov, A l i m H ə m z ə o ğ l u (d.1957) – xanəndə. Azərbaycan Respublikasının xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının bilicilərindəndir. Alim Qasımov 1999-cu ildə Beynəlxalq İMC YUNESKO musiqi mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. Respublika Dövlət mükayatı laureatıdır. – 89.

73. Fərhad Bədəlbəyli, Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ xalq artisti. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 89.

74. Ramil Usubov (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 93,99,104,110–112.

75. Artur Rasizadə, A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 93,94,95,99,101,105,106,107, 108,135,240.

76. «NTV» – Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. – 93.

77. Abid Şərifov, A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 94,96–104,105,106,114, 135.

78. Hacinski Məmmədhəsən (1875–1931) – Azərbaycan memarı. 1908-ci ildən Bakı Şəhər İdarəsində tikinti şöbəsinə başçılıq etmişdir. Bu dövrdə Bakının abadlaşdırılması və inşaat işlərinin genişlənməsində iştirak etmiş, Bakının baş planını (1898, müəllifi For Der Honne) redaktə edərək şəhərin planlaşdırılmasının ümumi layihəsini təkmilləşdirmişdir. 1909–10-cu illərdə

Bakıda Dənizkənarı bulvarın salınması və dəniz hamamının tikilməsi Hacinskinin fəaliyyəti ilə bağlıdır. – 98,99.

79. Fransa, F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km^2, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 99, 179–194,198,336,337,339,387–389,412.

80. Şarl de Qoll (1890–1970) – Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci dünya müharibəsinə qədər müxtəlif hərbi rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (1940,14 iyun) sonra B.Britaniyaya getmiş, Londonda «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958,1965) Fransa Respublikasının prezidenti seçilmişdir. – 99,385.

81. Yusif Məmmədəliyev, M ə m m ə d ə l i y e v Y u s i f H e y- d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Məmmədəliyevin əsas elmi işləri, neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 99,350,358.

82. Şəhidlər xiyabanı. Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda

qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 100,408.

83. Misir Mərdanov, M i s i r C u m a y ı l o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri

doktoru, professor. Tədqiqatları, əsasən, riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 103,114.

84. Ramiz Mehdiyev, R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 105,106.

85. Əli İnsanov, Ə l i B i n n ə t o ğ l u (d. 1946) –1993–2005-ci illərdə Azərbaycan Respublikasının Səhiyyə naziri olmuşdur. – 112–114, 253–262,264,268.

86. Yaponiya – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km^2, əhalisi 126 milyon nəfərdir. İnzibati

cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 117,238,239,241,251,252,270–274, 336,337.

87. Albaniya, A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km^2, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 119.

88. Recep Meydani (d.1944) – 1997–2002-ci illərdə Albaniya prezidenti. Fizik-alimdir. Diktatura zamanı Albaniyadan kənarda elmi işləri ilə məşhur olmuşdur. – 119.

89. Mavritaniya, Mavritaniya İslam Respublikası – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 1030,7 min km^2, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşotdur. –120.

90. Nikolay Patruşev (d.1951) – ordu generalı, hüquq elmləri doktoru. 2008-ci ildən Rusiya Təhlükəsizlik Şurasının sədri, 1999–2008-ci illərdə Rusiya Federal Təhlükəsizlik xidmətinin direktoru olmuşdur. – 121– 125.

91. Rumıniya – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km^2, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 126,178,397,410.

92. Emil Konstantinesku (d.1939) – Rumıniyanın siyasi və dövlət xadimi. 1992–96-cı illərdə Buxarest universitetinin rektoru. 1996–2000-ci illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 126.

93. Birləşmiş Ərəb Əmirlikləri – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km^2, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 127,158.

94. Zayid Bin Sultan Al Nəhəyya (d.1949) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin prezidenti, Əbu-Dabunun əmiridir. – 127.

95. Belarus, Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km^2, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 132-153,318,321.

96. NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 133,286.

97. ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 138,179–194,280,281,285,411.

98. ATƏT-in Minsk qrupu – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ

probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 138,149,150,179–194,197,281,339,382,411,413,414.

99. Şevardnadze E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – l-40–144,149,197.

100. G**UÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 141,146.

101. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 150,285.

102. Qəbələ RLS-i, Q ə b ə l ə r a d i o l o k a s i y a s t a n s i y a s ı – Rusiyanın raketdən müdafiə «daryal» tipli radiolokasiya stansiyası. SSRİ vaxtı tikilmiş bu tipli doqquz stansiyadan biri. Azərbaycanda Qəbələ şəhəri yaxınlığındadır. Tikilməyə 1976-cı ildən, fəaliyyətə isə 1985-ci ildən başlamışdır. Texniki resurslarının iş qabiliyyəti 2012-ci ilə qədərdir. RLS SSRİ-nin cənub rayonlarını raketdən müdafiə sistemi üçün ən əhəmiyyətli element idi. Stansiyanın effektli işi üçün radiusu 8000 km-dir. Azərbaycan müstəqil olandan sonra Rusiya RLS-i icarəyə götürmüşdür. İcarə haqqı ildə 14 milyon dollardır. Stansiyada 1,4 min nəfər rus hərbçisi fəaliyyət göstərir. –151.

103. Ümumdünya Gömrük Təşkilatı (ÜGT) – dövlətlərarası beynəlxalq təşkilat. ÜGT-na, demək olar kı, bütün dünyanın gömrük xidməti daxildir. ÜGT beynəlxalq ticarətin 98%-nə nəzarət edir. 1953-cü ildə yaradılmışdır. Mənzil-qərargahı Brüsseldədir (Belçika) – 154–155,156–160.

104. Mişel Dane (d.1941) – hüquqşünas. 1999–2008-ci illərdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi olmuşdur. – 154,156–160.

105. LAOS, L a o s X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km^2, əhalisi 5 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir, Paytaxtı Vyentyan şəhəridir. – 161.

106. Tailand, T a i l a n d K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 514 min km^2, əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 162.

107. Finlandiya, F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km^2, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Raytaxtı Helsinki şəhəridir. – 163,412.

108. Tarya Halonen (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə – Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 163.

109. Tofiq Bakıxanov, T o f i q Ə h m ə d a ğ a o ğ l u (d.1930) – bəstəkar. Respublikanın xalq artisti, professor. Yaradıcılığında kamera instrumental və simfonik janrlar əsas yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni iəl təltif olunmuşdur. – 164–165.

110. «Acip» – dünyanın ən iri neft şirkətlərindən biri. İtaliyanın «Acip» şirkəti 1926-cı ildə yaradılmışdır. «Acip» 1995-ci ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 169,175.

111. YUNİSEF, B M T – n i n U ş a q F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumtlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və

başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 171,172.

112. İon İliyesku (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. 1992–96-cı və 2000–2004-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 178.

113. İsmayıl Cəm – (1940–2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997–2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. Türkiyə–Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 180,190.

114. Xankəndi – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 182.

115. Konqres, A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 185,186,187,188,191,192.

116. «907-ci maddə» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 186,187.

117. Əhməd Necdət Sezər (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 195,199,262,265,269.

118. Natiq Əliyev, N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 195–199.

119. Süleyman Dəmirəl (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 197,257,261,264,269.

120. Transxəzər qaz kəməri – Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazının nəqli barədə saziş. Bu layihəyə görə qaz Türkiyədən Avropa bazarlarına çatdırılacaqdır. – 197,198.

121. Avropa Komissiyası, A v r o p a Ş u r a s ı ö l k ə l ə r i n i n K o m i s s i y a s ı – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın

bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 198.

122. Corc Buş (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000-ci ildən). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. – 200,421.

123. Corc Buş Herbert (d.12.6.1924) – Amerikanın görkəmli dövlət xadimi. 1980–89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989–92-ci illərdə ABŞ-ın 41-ci prezidenti olmuşdur. – 201.

124. Çeyni Riçard (Dik) (d.1941) – Amerikanın siyasi xadimi. 1989–1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. Halhazırda ABŞ-ın vitse-prezidentidir. – 202.

125. Bakı Dövlət Universiteti (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 207,208209,212.

126. Nəriman Nərimanov, N ə r i m a n N ə c ə f o ğ l u (1870–1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 207–208,295.

127. Birinci dünya müharibəsi (1914–18) – iki koalisiya dövlətləri arasında müharibə, Mərkəzi dövlətlər (Almaniya, Avstriya–Macarıstan,

Türkiyə, Bolqarıstan) və Antanta (Rusiya, Fransa, Böyük Britaniya, Serbiya, Yaponiya, Rumıniya, İtaliya və ABŞ). Müharibənin başlanmasına səbəb Avstriya–Macarıstan şahzadəsi Frans Ferdinandın öldürülməsi oldu. 1918-ci ilə qədər hər iki tərəf bir-birinə ağır zərbələr vuraraq zəiflədi. 1918-ci ildə Sovet Rusiyası Almaniya ilə separat Brest sülh müqaviləsi imzaladı və müharibədən çıxdı. Antanta qoşunları 1918-ci ilin sentyabrında Bolqarıstanı, oktyabrında Türkiyəni, noyabrda Avstriya–Macarıstanı və nəhayət Almaniyanı tam məğlub etdilər. Paris sülh konfransında bir neçə müqavilə imzalandı. Almaniya və onun müttəfiqləri xeyli ərazi itirdilər, böyük ödənc verməyə və öz silahlı qüvvələrini kəskin şəkildə azaltmağa məcbur oldular. – 190.

128. İkinci dünya müharibəsi (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 210,298,299,300.

129. Musa Əliyev, M u s a M i r z ə o ğ l u (1908–1985) – geoloq. Geologiya–minerologiya elmləri doktoru, professor. Azərbaycan EA-nın akademiki. 1939–41-ci illərdə Azərbaycan Neft Akademiyasının rektoru, 1950–58-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. Musa Əliyev Kiçik Qafqazın və Böyük Qafqazın Tabaşir çöküntülərini, SSRİ-nin cənub rayonlarında neftli-qazlı sahələrdə Yura və Tabaşir çöküntülərinin stratiqrafiyasını öyrənmiş, onun nəticələri əsasında isə Manqışlaq, Orta

Asiya və Şimali Qafqazın Mezozey çöküntülərinin dəqiq stratiqrafik bölgüsü verilmişdir. – 218.

130. Burkina Faso – (1984-cü ilə qədər Yuxarı Volta Respublikası) – Qərbi Afrikada dövlət. Sahəsi 274,4 min km^2, əhalisi 10,6 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Xalq deputatları Assambleyasıdır. Paytaxtı – Uaqaduqu şəhəridir. – 220.

131. Keniya, K e n i y a R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət . Sahəsi 582,6 min km^2, əhalisi 29,1 milyon nəfərdir. İnzibati ərazisi 7 əyalətə və paytaxt mahalına bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Nayrobi şəhəridir. – 221.

132. Çernobıl hadisələri – 1986-cı ilin aprel ayında Çernobıl AES-nin 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radiaktiv çirklənməyə məruz qaldı. Bunun nəticəsində AES-nin 30 km-ndə yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 222.

133. Avropa Şurasının Parlament Assambleyası (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 223–225,226–228,285.

134. Bəhreyn, B ə h r e y n d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km^2, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama. – 229.

135. Şeyx Həməd Bin İsa əl-Xəlifə (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüquqi vermişdir. – 229.

136. Niger, N i g e r R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km^2, əhalisi 103,9 milyon nəfərdir. Paytaxtı Abudya şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. – 231.

137. Dünya Bankı – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 238,285.

138. Avropa Yenidənqurma və İnkişaf Bankı – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 238, 285.

139. Mir Mövcüm Ağa, A ğ a S e y i d Ə l i M i r M ö v c ü m z a d ə (Ətağa) (1883–1950) – Azərbaycanda və onun sərhədlərindən kənarda tanınan kəramət və möcüzə sahibi. Ağanın bu cür kəramət sahibi olması – həm sağlığında, həm də haqq dünyasına köçəndən sonra dara düşən insanları xilas etməsi, nicat verməsi – ilahi qüvvənin təzahürü, tanrı qüdrətinin emanisipasiyasıdır. Ətağa müəyyən ielepatik qabiliyyətə də malik idi. Onun varlığından hansısa fitki, bioloji enerji saçılırdı. İndinin özündə də Ağanın ruhuna, kəramətinə inam eynilə qalır. – 243–250.

140. Q u r a n i – K ə r i m , ə l – Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 244.

141. Ramazan ayı – Qurani-Kərimin nazil olduğu ay. – 244,247,275–282.

142. Nizami Xudiyev, N i z a m i M a n a f o ğ l u (d.1949) – filologiya elmləri doktoru, professor. 1996–2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. –

143. Vasim Məmmədəliyev, Vasim Məmmədəli oğlu (d.1942) – filoloq, ilahiyyatçı. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın

həqiqi üzvü. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif olunmuşdur. – 246.

144. İmam Hüseyn (əl–Hüseyn ibn Əli) – Əli ibn Əbu Talibin Məhəmməd peyğəmbər əleyhissalamın qızı Fatimədən olan kiçik oğlu. Müsəlmanların üçüncü imamı. 680-ci ildə xəlifə Myaviyənin vəfatından sonra xəlifə Yəzid zamanı islam dinində yanlışlıqlar yaranırdı. Məhz buna görə də İmam Hüseyn 70 döyüşçüsü ilə birlikdə Kufə yaxınlığında olan Kərbəlaya gəlir. Tezliklə xəlifənin 4 minlik dəstəsi Hüseynin dəstəsinə basqın edir və qeyri-bərabər döyüşdə Hüseynin dəstəsi tamamilə qırılır. Hüseyn özü onlarla yara alıb həlak olur.

«Hüseyn ən böyük şəhid» adlanır. Kərbəla isə şiələrin başlıca ziyarətgahlarından birinə çevrildi. Bütün şiələr Hüseynin həlak olduğu günü matəm günü kimi (Aşura) qeyd edirlər. – 248.

145. Akihito (d.1933) – 1989-cu ildən Yaponiya imperatoru. İmperator Hirohitonun oğlu. – 251.

146. Yoşiro Mori (d.1937) – yapon siyasətçisi. 2000–2001-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 252.

147. Milli Bank, Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 258.

148. Dövlət Bağçalı (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 262.

149. Ecevit Büləndə (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri

olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 262.

150. İslam İnkişaf Bankı (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 265,285.

151. İpək yolu, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit–ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 273,285, 356.

152. Haşimoto Ryutaro (1937–2006) – yapon siyasi xadimi. 1996–98-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 273.

153. Ramazan bayramı – müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xətaların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 275-282.

154. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 280,337,388.

155. Beynəlxalq Valyuta Fondu – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 285.

156. Asiya İnkişaf Bankı – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük auksionerləri Yaponiya, ABŞ, Çindir. – 285.

157. 1990-cı ilin yanvarı – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 286,316,317,318,348.

158. Qobustan – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar

və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit, dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 290.

159. Gəmiqaya təsvirləri – Azərbaycanın Ordubad şəhərində Gəmiqaya dağlarında e.ə. 3-1-ci minilliklərə aid qayaüstü rəsmlər. 1968-ci ildə aşkar olunmuşdur. Axtarış nəticəsində insan və heyvan rəsmləri, rəqs səhnələri, yay və oxla keçi ovlanması səhnəsi, müxtəlif işarələr və s. aşkar edilmişdir. Gəmiqaya rəsmləri Azərbaycanın qədim təsviri sənətinin Naxçıvan mədəniyyətinə aiddir. – 290.

160. Kür-Araz mədəniyyəti – e.ə.3-cü minillikdə Cənubi Qafqaz və Kiçik Asiya ərazisində yayılmış arxeoloji mədəniyyət. Arxeoloji tədqiqatlar Kür-Araz mədəniyyətinin erkən Tunc dövrünə aid olduğunu sübut edir.

Kür-Araz mədəniyyətinə aid ilk arxeoloji materiallar 1869-cu ildə indiki Daşkəsən rayonunun Zəylik kəndi ərazisində tapılmışdır. Bu dövrə aid metal əridən külçələr (Babadərviş) aşkar olunmuşdur. Dəmirçi körüklərində işlədilən gil lülələr yalnız Azərbaycan abidələrindən məlumdur. Kür-Araz mədəniyyətinə aid çoxtəbəqəli abidələr (Kültəpə, Göytəpə, Mışarça) aşkar edilmişdir. – 290.

161. «Kitabi-Dədə Qorqud» – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 291,352.

162. Qətran Təbrizi, Əbu Mənsur (1012–1088) – böyük Azərbaycan şairi. Təbrizi aşiqanə seirləri, gözəl təbiət təsvirləri ilə Azərbaycan poeziyasına yenilik gətirmişdir. Yaradıcılığında hökmdarlara həsr edilmiş qəsidələr mühüm yer tutur. – 291.

163. Nəsimi, əsl adı S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 291,307.

164. Füzuli, M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 291,352.

165. Səfiəddin Urməvi, S ə f i ə d d i n Ə b d ü l m ö m i n i b n Y u s i f i b n F a k i r ə l – U r m ə v i (1230–1294) – Azərbaycan müsiqişünası, ifaçı, bəstəkar, xəttat. Onun yaradıcılığı Yaxın və Orta Şərq xalqları musiqisinin inkişafında yeni dövrün başlanğıcıdır. – 291.

166. Əcəmi Naxçıvani Əbubəkr oğlu (XII əsrin 20-ci illəri – XII əsrin sonu) — orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Mömünə xatun türbəsini, Böyük Cümə məscidini və mənbələrdə «Darülmük» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 291.

167. Sultan Məhəmməd Təbrizi (1470-ci illərin sonu – 1555) – Azərbaycanın miniatür rəssamı. XVI əsr Təbriz miniatür məktəbinin başçısı. – 291.

168. Nəsirəddin Tusi, M ə h ə m m ə d i b n H ə s ə n (1201–1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 291.

169. Əbülhəsən Bəhmənyar ibn Mərzban (?- 1066) – Azərbaycan filosofu, İbn Sinanın şagirdi və davamçısı. Bəhmənyara görə hər şeyin əsasını ən ümumi mənada varlıq təşkil edir. Orta əsrlərdə Müsəlman Şərqində fəlsəfi fikrin inkişafında böyük rolu olmuşdur. – 291.

170. Sührəvərdi Şihabəddin Əbuhəfs Ömər İbn Məhəmməd (1145–1234) – Azərbaycan mütəfəkkiri, görkəmli sufi. Fiqh, təsəvvüf, dil, ədəbiyyat və s. elmlərin bilicisi idi. Sufiliyin monoteist sistemini yaratmış, sufilərin psixologiyasını, ruha dair baxışlarını ümumiləşdirmişdir. Sührəvərdiyə görə insan mənəviyyatını kamilləşdirdikdə haqqa (Allaha) yaxınlaşır. O, kitablarında peripatetik fəlsəfəni tənqid etmişdir. – 291.

171. Cavanşir (təqribən 616–680/81) – dövlət xadimi, sərkərdə. Cavanşir sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan alban hərbi hissəsinin komandanı kimi döyüşlərdə fərqlənmişdi. Cavanşirin hakimiyyəti dövründə qədim Albaniyada iqtisadi həyat nisbətən dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdi. – 291.

172. Babək, Babək əl-Xürrəmi (təqr.795/798–838) – xürrəmilər hərəkatının rəhbəri, görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi. Babək Azərbaycan xalqının ərəb istilaçılarına və Xilafətə qarşı azadlıq mübarizəsinə başçılıq etmişdir.

Babəkin rəhbərliyi ilə xürrəmilər 20 ildən çox yadellilərə qarşı mübarizə aparmışlar. Babək hərəkatı Abbasilər xilafəti üçün ciddi təhlükəyə çevrilmişdi. Buna görə də Babək hərəkatının getdikcə güclənməsindən qorxuya düşən xəlifə Mütəsim Bizans dövləti ilə sülh bağladı və Xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı göndərdi. 838-ci ildə xəyanət nəticəsində Babəki ələ keçirdilər və işgəncə ilə öldürdülər. – 291.

173. Məhəmməd Cahan Pəhləvan, Ə b u C ə f ə r H ü s r ə t ə d d i n (? –1186) – Eldəgəzlər sülaləsinin hökmdarı (1174/75–1186), atabəy. Şəmsəddin Eldəgəzin oğlu. Pəhləvanın dövründə Eldəgəzlər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Bir sıra qonşu hökmdarlar M.C.Pəhləvanın vassallığını qəbul etməyə məcbur oldular. M.C.Pəhləvanın dövründə ölkənin iqtisadi həyatı dircəlmiş, Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzlərinə çevrilmişdi. – 291.

174. Qızıl Arslan, Osman Müzəffərəddin (?–1191) – Eldəgəzlər sülaləsinin hökmdarı (1186–91), atabəy, Şəmsəddin Eldəgəzin oğlu. Qızıl Arslan zamanında Eldəgəzlər dövləti daha da gücləndi. Hətta Şirvanşahlar da Eldəgəzlərin vassallığını qəbul etdi. Şimali və Cənubi Azərbaycan ərazisinin vahid bir dövlət daxilində birləşməsi iqtisadiyyatın, elm və mədəniyyətin inkişafına şərait yaratdı. – 291.

175. Uzun Həsən (1423–24–1478) – Ağqoyunlu hökmdarı (1468–78), görkəmli sərkərdə və diplomat. 1467-ci ildə Cahan şahı məğlub edən Uzun Həsən Qaraqoyunlu dövlətinə son qoyaraq mərkəzi Təbriz şəhəri olmaqla «Xorasandan Qaramana qədər uzanan» Ağqoyunlu dövlətinin əsasını qoymuşdur. – 291.

176. Şah İsmayıl Xətai (1487–1524) — Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payızında Təbrizə daxil olan İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 291.

177. Gülüstan müqaviləsi (1813) – Birinci Rusiya–İran müharibəsinə son qoymuş müqavilə. Oktyabrın 12(24)-də Qarabağın Gülüstan kəndində bağlanmışdır. Rusiya–İran arasında əvvəlcə barışıq aktı, sonra isə on bir maddədən ibarət sülh müqaviləsi imzalanmışdı. Bu müqaviləyə əsasən hər iki dövlət arasında yeni sərhəd xətləri müəyyən edildi. 1814-cü il sentyabrın 15-dən qüvvəyə minən Gülüstan müqaviləsi vahid Azərbaycanın iki işğalçı dövlət tərəfindən bölüşdürülməsinin əsasını qoydu. –

178. Türkmənçay müqaviləsi (1828) – XIX əsrin əvvəllərində Rusiya–İran müharibələri başa çatdıqdan sonra, Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqavilə. 16 maddədən ibarət olan Türkmənçay müqaviləsinə əsasən Cənubi Qafqaz əraziləri, o cümlədən Şimali Azərbaycan Rusiyaya birləşdirildi, Cənubi Azərbaycan torpaqları isə İranda qaldı. Türkmənçay müqaviləsinin 3-cü maddəsinə əsasən Araz çayının o tayı və bu tayı üzrə İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasının tam mülkiyyətinə keçdi. – 291.

179. Abbasqulu Ağa Bakıxanov, ədəbi təxəllüsü Qüdsi (1794-1847) – Azərbaycan alimi, şair, maarifpərvər. Bakı xanı II Mirzə Məhəmmədin (1784–91) oğlu. 1828-ci ildə Türkmənçayda Rusiya–İran danışıqlarında iştirak etmişdi. Bakıxanovun «Gülüstani-İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. – 292.

180. Mirzə Kazım bəy. M i r z ə M ə h ə m m ə d Ə l i H a c ı Q a s ı m o ğ l u (1802–1870) – Azərbaycan şərqşünası, maarifçi, rus şərqşünaslıq elminin banilərindən biri. 1821-ci ildə Həştərxana sürgün olunmuş atasının yanına getmişdir. Burada Şotlandiya missionerlərindən ingilis dilini öyrənmiş, onların təsiri ilə xristianlığı və Aleksandr adını qəbul etmişdir. 1826-cı ildən Kazan universitetində mühazirə etmiş, rus-tatar dilləri

kafedrasının müdiri, ordinar professor kimi fəaliyyət göstərmişdir. 1849-cu ildə Peterburq universitetində fars dili kafedrasının müdiri, ordinar professor vəzifələrində işləmişdir. Kazım bəy müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, Azərbaycan dilinin ilk elmi qrammatikasının yaradıcısıdır. Qərbi Avropa ölkələrinin bir çox akademiiyalarının və elmi cəmiyyətlərinin fəxri üzvü seçilmişdir. Bir sıra elmi əsərləri xarici dillərə tərcümə olunub, Avropa və Asiya ölkələrində nəşr edilmişdir. – 292.

181. Cəlil Məmmədquluzadə, M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – dahi Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 293,294, 295,357.

182. Süleyman Sani Axundov, S ü l e y m a n R z a q u l u b ə y o ğ l u (1875–1939) – Azərbaycan yazıçısı. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. Əsərlərində tamahkarlıq, köhnə adət və ənənələr tənqid olunmuşdur. Uşaqlar üçün gözəl hekayə və nağıllar yazmışdır. – 293,295.

183. Üzeyir bəy Hacıbəyov, Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 293,294,295,297,298,357.

184. Həbib bəy Mahmudbəyov, H ə b i b b ə y H a c ı İ b r a h i m x ə l i l o ğ l u (1864–1928) – maarif xadimi. Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda təhsil almışdır. 1887-ci ildə Sultanməcid Qanizadə ilə birlikdə ilk xüsusi «Rus müsəlman» məktəbinin əsasını qoymuşdur. Sonralar İçərişəhərdə açılan birinci «Rus-müsəlman» məktəbinin müdiri təyin olunmuş, on dörd il ona rəhbərlik etmişdir.

Mahmudbəyov Bakı şəhər Dumasında məktəb komissiyasının üzvü olmuşdur. – 293.

185. Rəşid bəy Əfəndiyev, Ə f ə n d i z a d ə R ə ş i d b ə y İ s m a y ı l o ğ l u (1863-1942) – maarif xadimi, yazıçı. Qori müəllimlər seminariyasında orta pedaqoji, Aleksandr Müəllimlər İnstitutunda ali təhsil almışdır. Əsasən uşaq ədəbiyyatı, dramaturgiya və bədii tərcümə sahəsində çalışmışdır.

Rəşid bəy Əfəndiyev Azərbaycan xalqının milli oyanışında mühüm rol oynamışdır. – 293.

186. Firudin bəy Köçərli, F i r i d u n b ə y Ə h m ə d b ə y o ğ l u (1863–1920) – Azərbaycan ədəbiyyatşünası, pedaqoq və publisist. Qori seminariyasını bitirmiş, sonra isə orada dərs demiş, ədəbi fəaliyyətə də həmin vaxtdan əbədi-tənqidi və publisistik məqalələrlə başlamışdır. Firidun bəy Köçərlinin «Azərbaycan ədəbiyyat tarixi materialları» əsəri Azərbaycan əbəbiyyatı tarixinin inkişafını izləmək, ədəbi proses və tarixi ictimai həyatı qarşılıqlı əlaqədə təhlil etmək və fakt zənginliyi baxımından qiymətli mənbədir. F.Köçərli Azərbaycan ədəbi dilinin saflığı uğrunda fəal mübarizə aparmışdır. – 293.

187. Üsuli-cədid – Azərbaycanda məktəb və mədrəsələrdə tətbiq edilən yeni tədris üsulu, mütərəqqi pedaqoji cərəyan. XIX əsrin sonları – XX əsrin əvvəllərində yaradılmışdır. Üsuli-cədid məktəblərində dərslər ana dilində keçilir, rus dili müstəqil fənn kimi tədris edilirdi. Planına ümumtəhsl xarakterli fənlər, dünyəvi biliklər daxil edilmişdi. Üsuli–cədid məktəblərində dövrün qabaqcıl ziyalıları dərs deyirdilər. – 293.

188. Seyid Əzim Şirvani (1835–1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 1-ci yarısında ədəbi məktəb halında formalaşan tənqidi realizm ənənələrindən bəhrələnən S.Ə.Şirvani lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində – qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şeirlərində «xalqın qanını sovuran» çar məmurlarını ifşa etmişdir. – 293.

189. Mir Möhsün Nəvvab. M i r M ö h s ü n H a c ı M i r ə h m ə d o ğ l u (1833–1919) – şair, filoloq, rəssam, xəttat və musiqişünas. Nəvvab

«Məclisi fəramuşan» ədəbi məclisinə başçılıq etmiş, Şuşada qiraətxana, «Üsuli-cədid» məktəbi, mətbəə və cildxana açmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda təsviri sənət və kitab tərtibatının inkişafında əhəmiyyətli rol oynamışdır. – 293.

190. «Rus–tatar məktəbi», «Rus–müsəlman məktəbi», «Rus– Azərbaycan məktəbi» – XIX əsrin sonu, XX əsrin əvvəllərində Qafqaz azərbaycanlıları arasında geniş yayılmış məktəblər. Əsası 1887-ci ildə Bakıda Həbib bəy Mahmudbəyov və Sultanməcid Qənizadə tərəfindən qoyulmuşdur. Rus–Azərbaycan məktəbi Azərbaycanda siyasi müstəqillik və istiqlaliyyət, milli dirçəliş uğrunda mübarizə tarixində xalq maarifinin və mədəniyyətin inkişafında misilsiz rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında və fəaliyyətində Rus–Azərbaycan məktəbinin xidmətləri xüsusilə böyükdür. – 293.

191. Hacı Zeynalabdin Tağıyev (1838–1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 293.

192. Həsənbəy Zərdabi, M ə l i k o v H ə s ə n b ə y S ə l i m b ə y o ğ l u (1842–1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəfbəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F.Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 294.

193. «Əkinçi» – Azərbaycanda ilk milli qəzet. 1875–77-ci illər Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20) buraxılmışdır. Azərbaycanda dövri mətbuatın başlanğıcı sayılan «Əkinçi»nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən də mürəttibi H.Zərdabi olmuşdur. «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriyyətinə aid materiallar dərc edirdi. «Əkinçi»nin ətrafına toplaşmış mütərəqqi ziyalılardan M.F.Axundov, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov, Ə.Gorani və başqaları qəzetdə fəal iştirak etmiş, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Çar senzurası tərəfindən təqib olunan «Əkinçi»nin nəşri 1877-ci ilin sentyabrında dayandırılmışdır. – 294.

194. «Molla Nəsrəddin» – həftəlik, illüstrasiyalı ilk Azərbaycan jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. 1906–18-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922–31-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini – çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. Bütün təqib və təzyiqlərə baxmayaraq «Molla Nəsrəddin»in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. «Molla Nəsrəddin»in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. – 294.

195. Nəcəf bəy Vəzirov, N ə c ə f b ə y F ə t ə l i b ə y o ğ l u (1854–1926) – Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri idealları tərənnüm edən «Müsibəti Fəxrəddin» dramı Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. – 294,295,357.

196. Mirzə Fətəli Axundov (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist–filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 294,295.

197. Məmməd Tağı Sidqi (1854–1903) – maarifçi pedaqoq, şair, publisist. Sidqi Ordubadda «Əxtər» (1892), Naxçıvanda isə «Tərbiyə» («Məktəbi Tərbiyə», 1894) məktəbi təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmışdır. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifidir. Sidqi Azərbaycan uşaq nəşrinin ilk yetkin nümunələrini yaratmışdır. Sidqi publisistika sahəsində də fəaliyyət göstərmiş «Tərcüman» (Baxçasaray), «Əxtər» (İstanbul), «Həblülmətin» (Kəlkətə), Kaspi (Bakı) və s. qəzetlərlə yaxından əməkdaşlıq etmişdir. – 294.

198. Şekspir, V i l y a m (1564–1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin – komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında faciənəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. – 295.

199. Şiller İ o h a n n K r i s t o f F r i d r i x (1759–1805) – alman şairi, dramaturq, incəsənət nəzəriyyəçisi, tarixçi. Almaniyada maarifçiliyin görkəmli nümayəndəsi, yeni alman ədəbiyyatının banilərindəndir. Şiller yaradıcılığı dünya dramaturgiyasının inkişafına güclü təsir göstərmişdir. – 295.

200. Lev Tolstoy, L e v N i k o l a y e v i ç (1828–1910) – dahi rus yazıçısı. İlk yazdığı hekayələrdə ağalarla kəndlilərin münasibətlərindəki

dərin sosial ziddiyyətləri göstərmişdir: 1865–69-cu illərdə 1812-ci il Vətən müharibəsinə həsr olunmuş «Hərb və sülh» romanını yazmışdır. Bu əsər XIX əsr dünya realist nəsrinin zirvələrindən biri sayılır. 1873–77-ci illərdə yazdığı «Anna Karenina» romanında kübar cəmiyyətinin saxta əxlaqının qurbanı olan qadının faciəsi əks etdirilir. 1908-ci ildə o, ölüm cəzalarına qarşı nifrət və etirazının ifadəsi olan məşhur «Susa bilmirəm» məqaləsini yazır. Ömrünün son illərində Tolstoy dərin mənəvi əzab keçirirdi. 1910-cu il noyabrın 10-da Yasnaya Rolyananı xəlvətcə tərk etmiş, yolda Astapovo dəmir yol stansiyasında vəfat etmişdir. – 295.

201. Sabir, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ l u T a h i r- z a d ə (1862–1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 295,357.

202. Vəzirov Haşımbəy Mir İman oğlu (1868–1916) – maarif, mədəniyyət və mətbuat xadimi, publisist, dramaturq və təcrüməçi. Azərbaycanlılara qarşı 1905-ci il soyqırımını ifşa etdiyinə görə həmin ilin sonlarında 5 il müddətinə Şimali Qafqaza sürgün olunmuş, lakin günahsızlığını sübuta yetirdiyi üçün vətənə qayıdaraq Bakıya köçmüş, həyatını bütünlüklə mətbuata və yaradıcılığa həsr edib, milli ictimai fikrin görkəmli təbliğatçılarından birinə çevrilmişdir. – 295.

203. Abbas Səhhət, A b b a s q u l u Ə l a b b a s o ğ l u M e h d i-z a d ə (1874–1918) – şair, nasir, dramaturq, publisist, maarif xadimi. Abbas Səhhətin əsas qəhrəmanı vətəndir, millətdir. Yaxın dost olduğu Sabirin əsərlərini toplayaraq, ilk dəfə «Hophopnamə» adı ilə nəşr etdirmişdir. Maarifçilik, islamçılıq və türkçülük baxışları zəminində istiqlaliyyət, siyasi azadlıq, milli müstəqillik uğrunda mübarizə Abbas Səhhət yaradıcılığının leytmotivini təşkil edir. –295.

204. Məhəmməd Hadi, Ə b d ü l s ə l i m z a d ə A ğ a m ə h ə m - m ə d H a c ı Ə b d ü l s ə l i m o ğ l u (1879–1920) – şair, müəllim, jurnalist, publisist. Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi. Məhəmməd Hadi yaradıcılığı boyu məşəqqətli həyata üsyan edən, zülm və istibdada qarşı mübarizə aparan, bütün insanların xoşbəxt yaşadığı, «nə hakim, nə də məhkum olan» cəmiyyət arzulamışdır. – 295,357.

205. Abdulla Şaiq, A b d u l l a M u s t a f a o ğ l u T a l ı b z a - d ə (1881-1959) – Azərbaycan yazıçısı, müəllim və ictimai xadim. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Yaradıcılığında realizm və romantizm meylləri daha güclüdür. A.Şaiq uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. – 295,357.

206. Əlibəy Hüseynzadə, Ə l i b ə y H ü s e y n o ğ l u (1864–1940) – Azərbaycan yazıçısı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim. Rusiyada 1905–07-ci illər inqilabının təsiri ilə çarizmi, feodal-patriarxal geriliyi, Şərq istibdadını, ətaləti və dini mövhumatı tənqid edən Ə.Hüseynzadə Azərbaycanda burjua ideologiyasının başçılarından biri, «Füyuzatçılar» ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində «türkləşmək, islamlaşmaq, müasirləşmək» şüarına əsaslanırdı. – 295,357.

207. Əhməd Ağaoğlu, Ə h m ə d b ə y M i r z ə H ə s ə n o ğ l u (1869–1939) – Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, hüquqşünas, şərqşünas-islamşünas alim. O, «Nicat», «Nəşri-maarif», «Səfa» xeyriyyə cəmiyyətlərinin təşkilində və fəaliyyətində yaxından iştirak etmişdir. XX əsrin 20-ci illərində Türkiyənin dövlət mətbuat bürosunun müdiri təyin edilən Əhməd bəy 2 dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmiş, Ankara universitetinin professoru olmuşdur. Sovet dönəmində ona qatı «panislamist», «pantürkist» damğası vurularaq adı və əsərləri qadağan edilmişdi. Həyatının və əsərlərinin geniş surətdə öyrənilməsinə son illərdə başlanılmışdır. İstanbul şəhərində vəfat etmişdir. – 295.

208. Əhməd Cavad, A x u n d z a d ə C a v a d M ə m m ə d ə l i o ğ l u (1892–1937) – Azərbaycan şairi. Yaradıcılığında romantizmlə yanaşı, milli istiqlaliyyətə yenidən qovuşmaq arzusundan doğan meyllər mühüm yer tutur. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 295,297,357.

209. **Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R ə s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 295,298,357.

210. Məmməd Əmin Rəsulzadə (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövdət xadimi, publisist, «Müsavat» partiyasının yaradıcılarından biri. 1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 296.

211. Əlimərdan bəy Topçubaşov (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 296.

212. Fətəli Xan Xoyski (1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 297.

213. Həsən bəy Ağayev, Həsən bəy Məşədi Hüseyn oğlu (1875–1920) – görkəmli ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. – 297.

214. Nəsib bəy Yusifbəyli, Usubbəyov Nəsib bəy Yusif oğlu (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının On birinci ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən N.B. Usubbəyli yolda faciəli surətdə qətlə yetirilir. – 297.

215. Mehdi bəy Hacinski, M e h d i b ə y S ü l e y m a n o ğ l u (1879–1941) – teatr xadimi, aktyor, publisist, ictimai-siyasi xadim. Hacinski Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuş, Azərbaycanın İstiqlal bəyannaməsini qəbul edən 26 üzvündən biri idi. – 297.

216. Məmməd Yusif Cəfərov, M ə m m ə d Y u s i f H a c ı b a b a o ğ l u (1885–1938) – Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri; Cümhuriyyət Parlamentinin sədr müavini (2.2.1920–27.4. 1920) – 297.

217. Xudadat bəy Rəfibəyli, X u d a d a t b ə y Ə l ə k b ə r b ə y o ğ l u (1877–1920) – Azərbaycan xalqının milli istiqlal mübarizəsinin fəal iştirakçılarından biri, görkəmli dövlət xadimi. Fətəli Xan Xoyski hökuməti zamanı Azərbaycan Xalq Cümhuriyyətinin Xalq səhiyyəsi və himayədarlıq naziri olmuşdur. Aprel işğalından (1920) sonra Rəfibəyli həbs olundu və erməni sakinlərinin sıxışdırılması ittihamı ilə güllələndi. – 297.

218. Əkbər ağa Şeyxülislamov, Ə k b ə r a ğ a İ b r a h i m o ğ l u (1891–1961) – ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. İstiqlal bəyannaməsinin qəbul olunmasında iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin Cüqutundan sonra mühacirətdə (Parisdə) yaşamışdır. – 297.

219. Teymur bəy Makinski (? - ?) – XX əsrin əvvəlində Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri, ictimai-siyasi xadim. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. –297.

220. Səməd bəy Mehmandarov, S ə m ə d b ə y S a d i q b ə y o ğ l u (1857–1931) – hərbi xadim. 1908-ci ildən artilleriya general-leytenantı. 1918–20-ci illərdə Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuşdur. 1921–28-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. – 297.

221. Əliağa Şıxlinski, Ə l i a ğ a İ s m a y ı l A ğ a o ğ l u (1865–1943) – hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya

məktəbini bitirmişdir. Rusiya–Yaponiya müharibəsində (1904–05) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə görə qızıl qılıncla mükAfatlandırılmışdır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə general-mayor rütbəsi almışdır. Birinci dünya müharibəsində (1914-18) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski Nikolay ordusunda «artilleriyanın allahı» hesab olunurdu. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdı. – 297.

222. Sultan Məcid Qənizadə, S u l t a n m ə c i d M u r t u z ə l i o ğ l u (1866–1937) – maarif xadimi, yazıçı. Azərbaycanda ana dilində məktəblər açılması, dərsliklər yazılması, milli mətbuat və teatrın inkişafında S.Qənizadənin böyük xidmətləri var. – 297.

223. Xəlil bəy Xasməmmədov, X ə l i l b ə y H a c ı b a b a o ğ l u (1873–1947) – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi və dövlət xadimi. Xəlil bəy Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin Hökumət kabinələrində Ədliyyə naziri, portelsiz nazir, Daxili İşlər naziri vəzifələrində çalışmışdır. – 297.

224. Əhməd bəy Pepinov, Ə h m ə d b ə y Ö m ə r o ğ l u (1893–1938) – ictimai-siyasi və dövlət xadimi. Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır. – 297.

225. Mikayıl Müşfiq, İ s m a y ı l z a d ə M i k a y ı l M i r z ə Ə b d ü l q a d i r o ğ l u (1908–1939) – şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 298.

226. Tağı Şahbazi, T a ğ ı A b b a s o ğ l u, S i m u r q (1892–1938) – yazıçı, publisist, ictimai xadim, «Hümmət» qəzetinin nəşrində fəal iştirak etmiş, «Maarif və mədəniyyət», «Şərq qadını», «Yeni fikir», «Kommunist» və s. qəzet-jurnallarda məqalələr dərc etdirmişdir. – 298.

227. Salman Mumtaz, S a l m a n M ə m m ə d ə m i n o ğ l u Ə s- g ə r o v (1884–1941) – görkəmli ədəbiyyatşünas – alim, mətnşünas, şair, publisist. Milli mətnşünaslığın inkişafında böyük xidməti olmuşdur. Milli baxışlarına görə təqib olunmuş, repressiyaya məruz qalmışdır. – 298.

228. Həzi Aslanov, H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 299.

229. İsrafil Məmmədov, İ s r a f i l M ə h ə r r ə m o ğ l u (1919–1946) – Sovet İttifaqı Qəhrəmanı. 1941-ci ildə Məmmədovun vzvodu Novqorod vilayətinin Rustınka kəndi yaxınlığında alman faşistlərinin 300 əsgər və zabitini qırmışdı. – 299.

230. Gəray Əsədov, G ə r a y L ə t i f o ğ l u (1923–1944) – Sovet İttifaqı Qəhrəmanı. Gəray Əsədov 1944-cü ildə Morgita (Rumıniya) şəhərindəki döyüşlərdə bədəni ilə düşmənin atəş nöqtəsini örtmüş, əsgərlərin hücuma keçməsinə şərait yaratmışdır. – 299.

231. Mehdi Hüseynzadə, M e h d i H ə n i f ə o ğ l u (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. – 299.

232. Mahmud Əbilov, M a h m u d Ə b d ü l r z a o ğ l u (1898–1972) – hərbi xadim, general-mayor. Böyük Vətən müharibəsi zamanı Pribaltika, Polşa, Çexoslovakiya və Macarıstanda gedən döyüşlərdə rəşadət göstərmişdir. Müharibədən sonrakı illərdə diviziya komandirinin müavini, atıcı diviziya komandiri olmuşdur. SSRİ Ali Sovetinin deputatı olmuşdur. – 299.

233. Akim Abbasov, A k i m Ə l i o ğ l u (1911–1996) – general-mayor. Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədən sonrakı illərdə polk

komandiri, diviziya komandirinin müavini və komandiri vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 299.

234. Hacıbaba Zeynalov, H a c ı b a b a M ə m m ə d o ğ l u (1906–1969) – hərbi xadim, general-mayor. Böyük Vətən müharibəsi zamanı Zaqafqaziya cəbhəsinin qərargahında əməliyyat şöbəsinin rəisi, Şimali Qafqaz cəbhəsi 396-cı diviziyasında qərargah rəisi, 416-cı Azərbaycan diviziyasında qərargah rəisi olmuşdur. –300.

235. Cəfər Cabbarlı, C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 307,357.

236. Azərbaycan Xalq Cəbhəsi (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 312,317,327,328,409.

237. Ayaz Mütəllibov, A y a z N i y a z i o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992–1993-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 319,324,325,326,328.

238. Qorbaçov, M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 320,408.

239. «QKÇP» – Fövqəladə Hallar üzrə Dövlət Komitəsi. – 320.

240. Belovej razılığı, (8.12.1991) – Sovet Sosialist Respublikaları İdtifaqının beynəlxalq subyekt kimi varlığına son qoyulması barədə RSFSR, Belorusiya və Ukrayna tərəfindən imzalanmış saziş. Onlar burada Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasını elan etdilər. – 321.

241. Xocalı soyqırımı – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 325,409.

242. Elçibəy, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992–93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 329.

243. ATƏT-in Budapeşt sammiti – 1994-cü il dekabrın 3–7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 330.

244. Surət Hüseynov, S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993–94-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 331.

245. TRASEKA, T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 337,356.

246. YUNESKO – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 352.

247. Əlağa Vahid, Ə l a ğ a M ə m m ə d q u l u o ğ l u İ s g ə n d ə - r o v (1895–1965) – görkəmli Azərbaycan şairi. Azərbaycanın əməkdar incəsənət xadimi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə vətənin, mili istiqlalın qorunması mövzusu Vahidin yaradıcılığında mühüm yer tuturdu. Vahid Azərbaycan ədəbiyyatı tarixinə Füzuli ənənələrini XX əsrdə davam etdirən sonuncu ən görkəmli qəzəl şairi kimi daxil olmuş, bu janrın kamil bədii nümunələrini yaratmışdır. Poetik dilinin xəlqiliyi, sadəliyi, axıcılığı ilə seçilən qəzəlləri xanəndələrin repertuarında mühüm yer tutur. – 357.

248. Səməd Vurğun, S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 357.

249 Şəhriyar, M ə h ə m m ə d h ü s e y n H a c ı M i r a ğ a o ğ l u (1906–1988) – görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin «Heydər babaya salam» poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasında yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın ikiyə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda annadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün türk dünyasında böyük şöhrət qazanmışdır. – 357.

250. Süleyman Rüstəm, S ü l e y m a n Ə l i a b b a s o ğ l u R ü s t ə m - z a d ə (1906–1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azəbaycanın xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941–1945) yaradıcılığında Cənubi

Azərbaycanda xalqın milli azadlıq uğrunda mübarizəsinə həsr olunmuş şeirləri xüsusi yer tutur. – 357.

251. Rəsul Rza, R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910–1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanıdır. – 357.

252. Mirzə İbrahimov, M i r z ə Ə j d ə r o ğ l u (1911–1993) – Azərbaycan yazıçısı, dramaturq, ictimai və dövlət xadimi. Azərbaycanın xalq yazıçısı. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan M.İbrahimov bir sıra hekayə, povest və romanların müəllifidir. Azərbaycan Yazıçılar İttifaqının sədri, SSRİ Yazıçılar İttifaqının katibi, Azərbaycan Respublikası Ali Sovetinin sədri, SSRİ Ali Sovetinin deputatı, Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri olmuşdur. M.İbrahimov AMEA-nın akademiki, Azərbaycan və SSRİ mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanıdır. – 357.

253. Mehdi Hüseyn, H ü s e y n o v M e h d i Ə l i o ğ l u (1909–1965) – tanınmış Azərbaycan yazıçısı, tənqidçi və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Azərbaycan Yazıçılar İttifaqının katibi və birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatıdır. – 357.

254. Süleyman Rəhimov, S ü l e y m a n H ü s e y n o ğ l u (1900–1983) –görkəmli Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Onlarla roman və povestlərində Azərbaycan xalqının tam birəsrlik tarixi öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. – 357.

255. Müslüm (Əbdülmüslüm) Maqomayev (1885–1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. – 357.

256. Fikrət Əmirov, F i k r ə t C ə m i l o ğ l u (1922-1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov

instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 357.

257. Qara Qarayev, Q a r a Ə b u l f ə z o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 357.

258. Niyazi, T a ğ ı z a d ə – H a c ı b ə y o v N i y a z i Z ü l f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatıdır. – 357.

259. Tofiq Quliyev, T o f i q Ə l ə k b ə r o ğ l u (1917–2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973-cü ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 357.

260. Cahangir Cahangirov, C a h a n g i r o v C a h a n g i r Ş i r g ə ş t o ğ l u (1921–1992) – Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. – 357.

261. Süleyman Ələsgərov, S ü l e y m a n Ə y y u b o ğ l u (1924–2000) – Azərbaycan bəstəkarı, dirijor, pedaqoq. Azərbaycan Respublikasının xalq artisti. Ü.Hacıbəyov adına Respublika mükafatı laureatı. Müxtəlif musiqi janrlarında əsərləri var. S.Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutur. Əsərləri üçün musiqi dilinin sadəliyi, səlisliyi, forma aydınlığı səciyyəvidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 357.

262. Cabbar Qaryağdı, C a b b a r M ə ş ə d i İ s m a y ı l o ğ l u (1861–1944) – Azərbaycan xanəndəsi, musiqi xadimi. Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərbaycan Respublikasının xalq artisti. Cabbar Qaryağdı fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş diapazonlu səsə, qeyri-adi musiqi hafizəsinə malik sənətkar idi. – 357.

263. Bülbül, M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 357.

264. Şövkət Məmmədova, Ş ö v k ə t H ə s ə n q ı z ı (1897–1981) – Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ xalq artisti. İki dəfə Milanda (1911, 1927–29) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. – 357.

265. Xan Şuşinski, İ s f ə n d i y a r A s l a n o ğ l u Cavanşirovun təxəllüsü (1901–1979) – Azərbaycan xanəndəsi. Azərbaycan Respublikasının xalq artisti. Xan Şuşinski müstəsna istedadı, geniş diapazonlu, gur səsilə xalqın rəğbətini qazanmışdı. Azərbaycan klasssik xanəndələri ənənələrinin layiqli davamçılarından biri olan X.Şuşinski oxuduğu muğamlarda gəzişmə və zəngülələrdən məharətlə istifadə etmişdir. X.Şuşinski Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmışdır. – 357.

266. Seyid Şuşinski, M i r M ö h s ü n a ğ a S e y i d İ b r a- h i m o ğ l u (1889–1965) – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndələrindən biri, musiqi xadimi, pedaqoq, Azərbaycanın xalq artisti. Ustad xanəndə olan Seyid Şuşinski Azərbaycan muğam sənətinin

tərəqqisində və inkişafında mühüm rol oynamış, ifaçılıq məktəbi yaratmışdır. – 357.

267. Zülfü Adıgözəlov, Z ü l f i S ə m ə d o ğ l u (1898–1963) – görkəmli Azərbaycan xanəndəsi, Azərbaycanın əməkdar artisti. Zülfi Adıgözəlov bir sıra muğam və təsnifin, xalq mahnılarının mahir ifaçısı idi. – 357.

268. Rəşid Behbudov, R ə ş i d M ə c i d o ğ l u (1915–1989) – böyük Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qostrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanıdır. – 357.

269. Şövkət Ələkbərova, Ş ö v k ə t F e y z u l l a q ı z ı (1922–1993) – Azərbaycan müğənnisi. Məlahətli, yumşaq tembrli səsi olan Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, dərin emosionallıq və lirizm səciyyəvi idi. Məharətli gəzişmələr, improvizasiya ustalığı onun muğam yaradıcılığının əsas məziyyətlərindəndir. Azərbaycan Respublikasının xalq artisti. – 357.

270. Abbas Mirzə Şərifzadə, A b b a s m i r z ə M i r z ə Ə b d ü l- r ə s u l o ğ l u (1893–1938) – Azərbaycan aktyoru, rejissor, teatr xadimi. Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır. V.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. O, Hamlet, Otello və Maqbet rollarının mahir ifaçılarından biri kimi tanınmışdır. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan xalqının ən dəyərli mili, ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin qurbanlarındandır. – 357.

271. Mirzağa Əliyev, M i r z a ğ a Ə l i o ğ l u (1883–1954) – aktyor. SSRİ xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. M.Əliyev 1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Dram Teatrında çalışmışdır. O, fitri komediya istedadına, milli koloritə, ifadəli yumor boyaları və zəngin səhnə nüanslarına malik aktyor idi. – 358.

272. Ülvi Rəcəb Ş a ş ı q o ğ l u (1903–1938) – aktyor. Azərbaycan Respublikasının əməkdar artisti. Ü.Rəcəb V.Şekspir, F.Şiller, H.Cavid və C.Cabbarlı qəhrəmanlarının ən yaxşı ifaçılarından biri olmuşdur. Ü.Rəcəb Azərbaycan səhnəsində müdrik, nəcib, mərd xarakterli obrazlar silsiləsi yaratmış, onun sənəti sonrakı aktyor nəslinin yetişməsinə böyük təsir göstərmişdir. Sovet totalitar rejiminin qurbanlarındandır. – 358.

273. Mərziyə Davudova, M ə r z i y ə Y u s i f q ı z ı (1901–1962) – aktrisa. Geniş yaradıcılıq diapozonuna malik olan M.Davudova müxtəlif xarakterli rolları eyni ustalıqla ifa etmişdir. Davudova Azərbaycan səhnəsində Şekspir faciələrinin ən yaxşı ifaçılarından olmuşdur. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatıdır. – 358.

274. Sidqi Ruhulla, A x u n d o v R u h u l l a F ə t u l l a o ğ l u (1886–1959) – aktyor. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar Azərbaycan teatrı tarixində mühüm yer tutur. – 358.

275. Ələsgər Ələkbərov, Ə l ə s g ə r H a c a ğ a o ğ l u (1910–1963) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 358.

276. Möhsün Sənani, M ö h s ü n S a d ı q o ğ l u (1900–1981) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. M.Sənaninin yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm yer tutur. Geniş diapazonlu aktyor olan Sənani qəhrəmani, xarakterik və komik rolların ifaçısı kimi şöhrət qazanmışdır. – 358.

277. Mustafa Mərdanov, M u s t a f a H a ş ı m o ğ l u (1894–1968) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. Yüksək aktyorluq texnikasına malik olan Mərdanov incə yumor, komizm, parlaq obraz yaratmaq xüsusiyyətinə malik idi. M.Mərdanov həm də Azərbaycan kinosunun ilk və tanınmış aktyorlarından idi. – 358.

278. Hökumə Qurbanova, H ö k u m ə A b b a s ə l i q ı z ı (1913–1988) – aktrisa. SSRİ xalq artisti, M.F.Axundov mükafatı laureatı. H.Qurbanova yaradıcılığının əsas mövzusunu qəhrəman, mübariz xarakterli, yüksək bəşəri ideallarla aşılanmış güclü insan obrazı təşkil edir. Şekspir dramaturqiyasında ən mürəkkəb qadın obrazlarından olan Kleopatranın daxili aləmini ustalıqla açа bilmişdir. O bir çox bədii filmlərdə də çəkilmişdir. – 358.

279. Leyla Bədirbəyli, L e y l a A ğ a l a r q ı z ı (1920–1999) – görkəmli səhnə ustası, Azərbaycanın xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 358.

280. Əzim Əzimzadə, Ə z i m A s l a n o ğ l u (1880–1943) – rəssam. Ə.Əzimzadə Azərbaycan təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisidir. Satirik qrafika, illüstrasiya, siyasi plakat, teatr-dekorasiya sahəsində fəaliyyət göstərmişdir. Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstünlük təşkil edir. – 358.

281. Bəhruz Kəngərli, B ə h r u z (Şamil) Ş i r ə l i b ə y o ğ l u (1892–1922) – Azərbaycan rəssamı, boyakar və qrafik. Azərbaycan incəsənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması Kəngərlinin adı ilə bağlıdır. Onun portretləri canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Kəngərlinin yaradıcılığında mənzərə janrı mühüm yer tutur. – 358.

282. Səttar Bəhlulzadə, S ə t t a r B ə h l u l o ğ l u (1909–1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, Azərbaycanın xalq rəssamı. Bəhlulzadə yaradıcılığa «Kommunist» qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı güşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin mənzərələrində poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə

motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 358.

283. Qəzənfər Xalıqov, Q ə z ə n f ə r Ə l ə k b ə r o ğ l u (1898–1981) – Azərbaycan Respublikasının xalq rəssamı. Boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Nizami Gəncəvinin 800 illiyi ilə əlaqədar Xalıqov dahi şairin portretini yaratmışdır. Xalıqov Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin interyer tərtibatı müəlliflərindəndir. – 358.

284. Fuad Əbdürrəhmanov, F u a d H ə s ə n o ğ l u (1915–1971) – Azərbaycan heykəltəraşı, Azərbaycan Respublikasının xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Əbdürrəhmanov mahir portret ustası kimi tanınmışdır. Onun yaradıcılığında monimental heykəltəraşlıq mühüm yer tutmuşdur. Nizaminin Gəncədəki və Bakıdakı abidələri, Bakıda S.Vurğunun abidəsi və s. Əsərləri Azərbaycan monimental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. – 358.

285. Elmira Şahtaxtinskaya, E l m i r a H ə b i b u l l a q ı z ı (1930–1996) – rəssam. Azərbaycan Respublikasının xalq rəssamı və əməkdar incəsənət xadimi. H.B.Şahtaxtinskinin qızıdır. Plakat və dəzgah rəsmlərinin müəllifidir. 70-ci illərdə çəkdiyi «Azərbaycan qədim mədəniyyət diyarıdır» plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, M.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ə. Naxçıvani, S.Məhəmməd v.b.), 70–80-ci illərdə isə müasir sənətkarların (Ü. Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. – 358.

286. Mirəsədulla Mirqasımov, M i r ə s ə d u l l a M i r ə l ə s g ə r o ğ l u (1883–1958) – cərrah. Azərbaycan Respublikası MEA-nın ilk prezidenti. Tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. İlk azərbaycanlı alim-cərrah. Azərbaycan RespublikAsında ilk doktorluq dissertasiyası müdafiə etmiş həkimlərdən və müasir tibb elminin əsasını qoyanlardan biri. Mirqasımovun elmi fəaliyyəti əsasən, sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsinə, irinli peritonitlərə, urologiya və cərrahlığın digər aktual məsələlərini əhatə edir. Cərrahlıq

sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin və 5 cildlik «Cərrahiyyə» kitabının müəllifidir. – 358.

287. Heydər Hüseynov, H ü s e y n o v H e y d ə r N ə c ə f o ğ l u (1908–1950) – Azərbaycan filosofu, ictimai xadim . Azərbaycan Elmlər Akademiyasının akademiki. SSRİ Dövlət mükafatı laureatı. H.Hüseynov dialektik və tarixi materializm problemləri, fəlsəfə tarixi və s. Mövzularda əsərlər yazmışdır. O, Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir. Onun ədəbiyyatşünaslığa dair də əsərləri var. – 358.

288. Həsən Əliyev, H ə s ə n Ə l i r z a o ğ l u (1907–1993) – tor-paqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 358.

289. Mustafa bəy Topçubaşov, M u s t a f a b ə y T o p ç u b a ş o v (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı, əsasən, qarında, başda, döş qəfəsində, ətraflarda aparılan cərrahi problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analdeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir. – 358.

290. Əziz Şərif, Ə z i z Q u r b a n ə l i o ğ l u Ş ə r i f o v (1895–1988)–ədəbiyyatşünas, tərcüməçi. Filologiya elmləri doktoru, MDU-nun professoru. XIX–XX əsrlər ədəbiyyatına, ədəbi əlaqələrə, teatra və tərcümə problemlərinə dair əsərlərin, ədəbi-tənqidi məqalələrin müəllifidir. – 358.

291. Murtuza Nağıyev, M u r t u z a F ə t u l l a o ğ l u (1908-1975) – kimyaçı, kimya elmləri doktoru, professor. Azərbaycan MEA-nın həqiqi üzvü. Əsas elmi işləri neft kimyası və texnologiyası, kimyəvi reaksiyaların

kinetika və termidinamikası sahəsindədir. Sosialist Əməyi Qəhrəmanı. – 358.

292. Zahid Xəlilov, Z a h i d İ s m a y ı l o ğ l u (1911–1974) – riyaziyyatçı, mexanik, Azərbaycan MEA-nın akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası əməkdar elm və texnika xadimi. 1950–56,1967–74-cü illərdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, 1957–59-cu illərdə AME vitse-prezidenti, 1962–67-ci illərdə prezidenti olmuşdur. Əsas tədqiqatları funksional analiz, onun inteqral və diferensial tənliklərə tətbiqi, sərt mühit mexanikası, tətbiqi riyaziyyat sahələrinə aiddir. Xəlilov funksional analizə dair SSRİ-də ilk dərsliyin müəllifidir. – 358.

293. Həsən Abdullayev, H ə s ə n M ə m m ə d b a ğ ı r o ğ l u (1918–1993) – fizik, fizika-riyaziyyat elmləri doktoru, SSRİ EA-nın müxbir üzvü, Azərbaycan MEA-nın akademiki. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. 1970–83-cü illərdə Azərbaycan MEA-nın prezidenti olmuşdur. H.Abdullayev Azərbaycanda yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaratmışdır. – 358.

294. Abdulla Qarayev, A b d u l l a İ s m a y ı l o ğ l u (1910–1968) – fizioloq, tibb elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. 1944–50-ci illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. Azərbaycanda eksperimental fiziologiya laboratoriyasının ilk təşkilatçılarından biridir. – 358.

295. Cəfər Xəndan, C ə f ə r Z e y n a l o ğ l u H a c ı y e v – (1910–1961) – ədəbiyyatşünas, tənqidçi, şair. Filologiya elmləri doktoru, professor. 1950–54-cü illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. – 358.

296. Dəmirçizadə Əbdüləzəl, Ə b d ü l ə z ə l M ə m m ə d o ğ l u (1909–1979) – dilçi, filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan ədəbi dili tarixinə, müasir Azərbaycan dilinin fonetikasına, üslubiyyatına və etimologiyaya dair əsərlərin müəllifidir. – 358.

297. Məmmədcəfər Cəfərov (1909–1992) – tənqidçi, ədəbiyyatşünas, nasir. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Məmməd Cəfər

Cəfərov Azərbaycan yazıçılarının yaradıcılığı haqqında tənqidi məqalələrin, Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsinə həsr olunmuş əsərlərin müəllifidir. – 358.

298. Fəraməz Maqsudov, F ə r a m ə z Q ə z ə n f ə r o ğ l u (1930–2000) – riyaziyyatçı, elm təşkilatçısı, ictimai xadim. 1997–2000-ci illərdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin 1-ci çağırış deputatı seçilmiş, respublikanın «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 358.

299. ORT, R u s i y a İ c t i m a i T e l e v i z i y a s ı –. Rusiyanın birinci telekanalı. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB-də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 374.

300. Jak Şirak (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 387,389.

301. Sudan, S u d a n R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km^2, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. – 397.

302. Ömər Həsən əl-Bəşir (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyyətə gəlmişdir. – 397.

303. Kuba, K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km^2, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli assambleyadır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 398.

304. Fidel Kastro, K a s t r o R u s (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nin Birinci katibi və Kuba Silahlı qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 398.

305. M i l a d b a y r a m ı – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 418-419.

Şəxsi adlar göstəricisi

Abbas Səhhət – 295
Abbasov Abbas – 69
Abbasov Akim – 299
Abdulla Şaiq – 295,357
Abdullayev Həsən – 358
Adams Terri – 41
Adıgözəlov Zülfü – 357
Adulyadet Pumipon – 162
Ağaoğlu Əhməd – 295
Ağayev Həsən bəy – 297
Ahəni Əli – 297
Axundov Süleyman Sani – 293,295
Axundov Mirzə Fətəli – 294,295
Akihito – 251
Aqillar Xuan – 130
Al Nəhəyya Zayid – 127
Allahverdiyev Bahadur – 247
Allahverdiyev Rəfael – 12
Aslanov Həzi – 299
Babək – 291
Bagenmakers Hendrik – 399–417
Bağçalı Dövlət – 262
Bakıxanov Abasqulu ağa – 292
Bakıxanov Tofiq – 164–165
Baqlay Marat – 47–56
Batlinner Jerar – 130
Baybakov Nikolay – 210

Behbudov Rəşid – 357
Berzinş İndulis – 399–417
Bədəlbəyli Fərhad – 89
Bədirbəyli Leyla – 358
Bəhlulzadə Səttar – 358
Bəhmənyar Əbülhəsən – 291
Bin İsa əl-Xəlifə Həməd – 229
Bin Səid Qabus – 64
Bin Sultan Al Nəhəyya – 127
Braun Con – 41–42
Brilyant – 89
Bukikkio Canni – 128–131
Busit Übeyd – 158
Buş Corc (*oğul*) – 200,421
Buş Corc (*ata*) – 201
Bülbül – 357
Bünyadov Ziya – 12,299,358
Cabbar Qaryağdı – 357
Cahan Pəhləvan Məhəmməd – 291
Cahangirov Cahangir – 357
Cavadov Mahir – 331
Cavadov Rövşən – 331
Cavanşir – 291
Cəfər Cabbarlı – 307,357
Cəfər Xəndan – 358
Cəfərov Məmməd Yusuf – 297
Cəfərov Məmmədcəfər – 358
Cəm İsmayıl – 180,190
Conz – 21,23
Çay Əbdülxalıq – 263–269
Çeyni Riçard – 119
Dadaşov Murad – 366–386
Dane Mişel – 154,156–160

Davudova Mərziyə – 358
De Qoll Şarl – 99,385
Demetraşvili Aftandil – 47–56
Dəmirçizadə Əbdüləzəl – 358
Dəmirəl Süleyman – 197,257,261,264
Doğramacı İhsan – 87
Dolina Larisa – 88–91
Dunin – 212
Durmuş Osman – 259,263–269
Domes Jexan – 399–417
Durr Rudolf – 130
Duş Santus – 31,217
Ecevit Büləndt – 262
Elçibəy Əbülfəz – 329
Elission Jan – 412
Əbdürrəhmanov Fuad – 358
Əbilov Mahmud – 299
Əbiyev Səfər – 13
Əfəndiyev Rəşid bəy –293
Əhməd Cavad – 295,297,357
Əhmədov Əli – 10
Əl-Bəşir Ömər – 397
Əl-Həriri Rafiq – 39
Əl-Qəddafi Müəmmər – 71,72,73
Ələkbərov Ələsgər – 358
Ələkbərova Şövkət – 357
Əli ibn Əbu Talib – 7
Ələsgərov Süleyman – 357
Ələsgərov Valeh – 197
Əliağa Vahid – 357
Əbi ibn Əbu Talib – 7
Əliyev Bilal – 374
Əliyev Həsən – 358

Əliyev İlham – 6,7,10,11,373,383
Əliyev Musa – 218
Əliyev Mirzağa – 358
Əliyev Natiq – 195–199
Əliyeva Mehriban – 88
Əliyeva Sevil – 6
Əliyeva Zərifə – 6,383
Əliyarbəyov Tərlan – 299
Əmirov Fikrət – 357
Əskərzadə Mirzəkazım – 293
Əsədov Cəray – 299
Əziz Şərif – 358
Əzimzadə Əzim – 358
Əzizov Elçin – 366–386
Fam Van Donq – 216
Füzuli Məhəmməd – 291,352
Gebyixov Abdulla – 47–56
Gülyaz – 374
Gülyanaq – 374
Hacıbəyov Üzeyir bəy – 293,294,295,297,298,357
Hacınski Məmmədhəsən – 98,99
Hacınski Mehdi bəy – 297
Hacıyev Xanlar – 48,50,51,54
Hacıməhəmmədov Salman – 47–56
Haqverdiyev Əbdürrəhim bəy – 295
Halonen Tarya – 163
Haşimoto Ryutaro – 273
Həsənov Arif – 104–110
Həşimov Rəşad – 374
Hool Con – 423
Hüseyn Cavid – 184,295,298,357
Hüseynov Heydər – 358

Hüseynov Surət – 331
Hüseynzadə Əlibəy – 295,357
Hüseynzadə Mehdi – 299
Xalıqov Qəzənfər – 358
Xasməmmədov Xəlil bəy – 297
Xatəmi Məhəmməd – 84
Xələfov – 27,82
Xəlilov Zahid – 358
Xərrazi – 26,84
Xətai Şah İsmayıl – 291
Xirata Takeo – 270–274
Xoyski Fətəli xan – 297
Xudiyev Nizami – 246
İbrahimov Mirzə – 357
İmanov Tahir – 366–386
İliyesku İon – 178
İmam Hüseyn – 248
İnsanov Əli – 112–114,253–262,264,268
İslamov Gülağa – 247,248
İvanov İqor – 26,27
Kalitski Yan – 66–67
Kalyujnı Viktor – 24–29,49
Kastro Fidel – 398
Kavano Keri – 179–194
Kəngərli Bəhruz – 358
Kiseyev Nikolay – 47–56
Klinton Bill – 14–16,20,21,22,23,197,420
Klinton Hillari – 19
Kompaore Blez – 220
Konstantinesku Emil – 126
Kozlariç Riçard – 420–424
Köçərli Firudin bəy – 293

Köçəryan Robert –133,138–139,148,150,181,182, 189, 193
Kuçma Leonid – 53,77,145–147,222
Qarayev Abdulla – 358
Qarayev Qara – 357
Qasir Mirzə İsmayıl – 293
Qasımov Alim – 89
Qasımova Fidan – 89
Qasımova Xuraman – 89
Qayard Jan Jak – 179–194
Qazıyev Rəhim – 325
Qənizadə Sultan Məcid – 297
Qəzai Əhəd – 279–280
Qızıl Arslan – 291
Qoqol Nikolay – 295
Qorbaçov Mixail – 320,408
Qribkov Nikolay – 179–194
Qross Andres – 223– 225,226–228
Quliyev Adil – 299
Quliyev Kərşivəz – 247,248
Quliyev Nəriman – 105,107
Quliyev Rəsul – 13
Quliyev Teymur – 99
Quliyev Tofiq – 357
Qurbanova Hökumə – 358
Qusman – 369
Ləhhud Emil – 74
Lozbenko Leonid – 158
Luçinski Petru – 51
Mahmudbəyov Həbib bəy – 293
Makinski Teymur bəy – 297
Maqomayev Müslüm – 294,357

Maqsudov Fəraməz – 358
Manafova Zərifə – 248
Marks Karl – 276
Martines – Kasan Gilyermo – 227–228
Mayerz Riçard – 57–58,66
Mehdi Hüseyn – 357
Mehdiyev Ramiz – 105,106
Mehmandarov Səməd bəy – 297
Məhərrəmov Məlik – 299
Meydani Recep – 119
Məhəmməd Hadi – 295
Məhəmmədov Valeri – 55
Məhəmməd Hadi – 357
Məlikhaqnəzərov Yusif bəy – 294
Məmmədxanov Anar – 88–91,366–386
Məmmədəliyev Vasim – 246
Məmmədəliyev Yusif – 99,350,358
Məmmədquluzadə Cəlil – 293,294,295,357
Məmmədov İsrafil – 299
Mərdanov Misir – 103,114
Mərdanov Mustafa – 358
Mirqasımov Mirəsədulla – 358
Məmmədova Şövkət – 357
Mikayıl Müşfiq – 298
Mir Mövsüm ağa – 243–250
Mirzə Kazım bəy – 292
Mirzəzadə Reyhan – 6–13
Moi Daniel – 221
Mori Yoşiro – 252
Möhsün Sənani – 358
Mücbir Səd Mustafa – 70–73
Mütəllibov Ayaz – 319,324,325,326,328
Naxçıvani Əcəmi – 291

Nağıyev Murtuza – 358
Navitski Gennadi – 136
Nazarbayev Nursultan – 29,384
Nərimanov Nəriman – 207,208,295
Nəsimi İmadəddin – 291,307
Nəvvab Mir Möhsün – 293
Niftullayev Hacı Arif – 246,247
Niyazi – 357
Niyazov Saparmurad – 28,29
Nolte Georq – 130
Novruzov Səyavuş – 10
Olbrayt Madlen – 179
Patruşev Nikolay – 121–125
Pepinov Əhməd bəy – 297
Perne Üq – 387–389
Praq Piter – 423
Prixodko Sergey – 75–78
Puqaçova Alla – 35–37
Putin Vladimir – 13,25,27,75,76,77,78,122, 123, 124, 125,136,137,142,147,151, 152,194
Rasizadə Artur – 93,94,95,99,105,106,107, 108,109, 135,240
Rəhimov Süleyman – 357
Rəfibəyov Xudadat bəy – 297
Rəsul Rza – 357
Rəsulzadə Məmməd Əmin – 296
Rüstəmbəyov Şəfi bəy – 297
Ryutaro Haşimoto – 273

Sabir Mirzə Ələkbər – 295,357
Salman Mumtaz – 298
Sestanoviç – 66
Sezər Əhməd Necdət – 195,199,262,265,269
Səməd Vurğun – 357
Sianik Norodom – 30
Sidqi Məmmədtağı – 294
Sidqi Ruhulla – 358
Sührəvərdi Şihabəddin – 291
Sinhandon Khamtay – 161
Süleyman Rüstəm – 357
Şahtaxtinskaya Elmira – 358
Şapovalov Vladimir – 47–56
Şekspir Uilyam – 295
Şevardnadze Eduard – 140–144,149,197
Şeyxülislamov Əkbər ağa – 297
Şəhriyar Məmmədhüseyn – 357
Şərifov Abid – 94,96–104,105,106,114,135
Şərifzadə Abbas Mirzə – 357
Şiller Fridrix – 295
Şirak Jak – 387,389
Şirvani Seyid Əzim – 293
Şıxlinski Əliağa – 297
Şıxmuradov Boris – 28
Şolyam Laslo – 130
Ştudman – 224
Şuşinski Xan – 357
Şuşinski Seyid – 357
Tağı Şahbazi – 298
Tağıyev H Z – 293
Tağıyev İslam – 115– 118
Talıbov Vasif – 79
Tança Mamadu – 231

Taya Uld Sidi – 120
Tezcan Qədri Ecvet – 275–282
Təbrizi Qətran – 291
Təbrizi Sultan Məhəmməd – 291
Tolstoy Lev – 295
Topçubaşov Əlimərdan bəy – 296
Topçubaşov Mustafa bəy – 358
Torhallson Pol – 130
Tuayev Kazbek – 40
Tusi Nəsirəddin – 291
Urməvi Səfiəddin – 291
Usubbəyov Nəsib bəy – 297
Usubov Ramil – 93,99,104,110–112
Uzun Həsən – 291
Uzunov Tayfun – 240
Ülvi Rəcəb – 358
Vaynşteyn Timur – 366–386
Vəzirov Ədbürrəhman – 328
Vəzirov Aslan – 299
Vəzirov Nəcəf bəy – 294,295,357
Vəzirov Haşım bəy – 295
Vudvord Devid – 41–46
Vike-Freyberq Vayra – 65
Vilkens Hakan – 399–417
Volski Arkadi – 314
Vulf Con – 20–23,66
Yarov Yuri – 68–69
Yigitgüdən Yurdakul – 195–199
Yusifbəyli Nəsib bəy – 297
Zərdabi Həsən bəy – 294
Zülfiyyə – 89
Zeynalov Hacıbaba – 300
Zuqanov Gennadi – 372

Coğrafi adlar göstəricisi

Abşeron – 103,115,117
Afina – 63
Afrika – 216,265
Axalkalaki – 142
Axtı (*Dağıstanda rayon*) – 55
Albaniya – 119
Almaniya – 130,238,299,336,337,372,403, 414
Amerika Birləşmiş Ştatları – 14–16,19,20–23,57–58,66–67, 117,133,150,169,179–194,200, 201,202,210,256,336,339,369,372, 412,414,420–424
Ankara – 180,197,338
Anqola – 31,217
Anteb – 267
Asiya – 230,356
Aşqabad – 115,267
Avropa – 130,169,199,230,238,254,256, 292,337,356,406
Avrasiya – 146,265
Avstraliya – 59–63,369
Bakı – 13,16,18,19,23,30,31,34,38,39, 40,64,65,

66,68,74,86,87,92,95,96, 97,
99,100,103,106,109,115,119,
120,126,127,136,141,154,155,1
57,
161,162,178,186,200,201,202,2
05, 210,
217,222,229,230,233,235,249,
251,252,253,262,268,269,273,2
92,
293,297,300,303,309,319,338,3
44,
360,372,375,379,386,397,398,3
99, 409,420,423,424
Başqırdıstan – 301
Belarus – 132–153,318,321
Belçika – 337,415
Berlin – 299
Bəhreyn – 229
Birləşmiş Ərəb Əmirlikləri –127,158
Bolqarıstan – 337,410
Böyük Britaniya – 336,337
Brüssel – 198
Budapeşt – 130
Burkina Faso – 220
Bursa – 267
Buzovna – 246
Ceyhan – 23
Cənubi Qafqaz –
56,124,140,236,301,370,389
Çeçenistan – 141
Çin – 336,337
Çorum – 267
Dağlıq Qarabağ – 71,129,132,133,135,137,138,

142,169,184,188,194,279,281,311, 312, 313, 314,315,323,324,325, 328,330,348,388,409,412
Dağıstan – 53,54,55,370,375
Daşkənd – 96,325
Dənizli – 267
Dəvəçi – 97,107
Estoniya – 318,409
Əlcəzair – 216
Əli Bayramlı – 237,249,373
Əskişəhər – 267
Fələstin – 71,269
Finlandiya – 163,412
Fransa – 99,179–194,198,336,337,339, 387–389,412
Gəncə – 293,372
Gürcüstan – 9,13,14,22,49,51,56,136,140–144,197,198,266,320,321,335,403, 413
Hollandiya – 402,414
Hollivud – 371
Xaçmaz – 98,107
Xankəndi – 182
Xarkov – 370
Xəzər dənizi – 14,15,20–23,24–29,79–84,96,97, 106,133,136,140,197,199,210,214, 414,415,421
Xoşimin (***Vyetnamda şəhər***) – 216
İngiltərə – 372,414
İraq – 277

İran – 11,24,26,27,79–84,99,106,133, 136, 152, 187,190,277,279–280, 281,335,409,414
İrəvan – 293
İsmayıllı – 93
İspaniya – 195,227–228,415
İsrail – 337,372
İstanbul – 22,266
İsveç – 402,403,412
İsveçrə – 192,226,227,238
İtaliya – 185,195,299,336,337,412,415
İzmir – 267
Kabarda Balkar – 54,55
Kamboca – 30
Kanada – 417
Kanar adaları – 130
Kayseri – 267
Keniya – 221
Kiyev – 77,146
Krasnovodsk – 115
Kuba – 216,397
Kür çayı – 234
Qafqaz – 122,140,180,210,299,356,389, 405,413
Qara dəniz – 292,415
Qars – 180
Qazaxıstan – 14,21,23,25,26,27,28,29,83,152, 277,298,318,369,415
Qərbi Avropa – 401,405
Qərbi Sibir – 301

Qətər – 280,281
Qırğızıstan – 266,318,368
Qusar – 55,100,376
Laos – 161
Latviya – 65,399–417
Lənkəran – 372
Litva – 318,409
Livan – 39,74,277
Liviya – 70–73
London – 369,383
Los–Anceles – 371
Macarıstan – 130
Mahaçqala – 115
Masallı – 373
Maştağa – 115
Mavritaniya – 120
Mərkəzi Asiya – 124,335
Mingəçevir – 234,237,249,309,373
Minsk – 132–153,189,370
Misir – 277
Moldova – 50,51,52,124,318,321
Moskva – 5,26,27,73,76,94,99,105,106,188, 210,217,236,269,297,328,370,371, 372,374,375,385,409
Naxçıvan – 11,79,81,83,84,181,184,186,187, 188,191,217,254,293,294
Naxçıvan MR – 82,254,319
Niderland – 337
Niger – 231
Norveç – 199

Novxanı – 116,117
Novosibirsk – 370
Nyu-York (*ABŞ-da şəhər*) – 19
Nyu–York – 147,171,371,399
Odessa – 370,372
Oman – 64
Orta Asiya – 265,369
Orta Şərq – 34
Özbəkistan – 277,335,369
Pakistan – 277
Polşa – 337
Rumıniya – 126,178,337,410
Rusiya – 13,24–29,35–37,49,54,75–78,91,125,135,136,137,141,142,151,152,158,179–194,199,292,297,301,318,321,339,370,372, 374,385,403,412,413,414
Salyan – 293
Səudiyyə Ərəbistanı – 277
Sibir – 298
Sidney – 6,59–63
Sivas – 267
Siyəzən – 97,106
Spitak –115
Strasburq – 388
Sudan – 398
Sumqayıt – 97,100,103,303
Supsa – 42
Suriya – 190
Şamaxı – 97
Şəki – 293
Şərqi Anadolu – 180

Şimal dənizi – 199
Şimali Qafqaz –
56,115,122,124,180,292
Şuşa – 293,294
Şüvəlan – 234–242,243–250
Tacikistan – 318
Tailand – 162
Tatarıstan – 301,368,378
Tbilisi – 142,292,338
Tehran – 81,82,83,280,338
Tümen (*RF-da vilayət*) – 301
Türkiyə –
14,22,94,103,106,117,179,180,
181,185,186,187,190,195–
199,256,
261,262,263–269, 277,335,414
Türkmənistan –
28,83,136,152,197,257,277,369,
415
Ukrayna – 52,53,145,147,320,335,370
Vaşinqton – 66,192,412
Vaziani – 142
Vladivostok – 371
Vinqtay – 216
Vyana – 147,149,179
Vyetnam – 216
Yaxın Şərq – 34
Yalta – 53,417
Yaponiya –
117,238,239,241,251,252,270–
274,336,
337
Yeni Kərki (*kənd*) – 181

Yenikənd – 309
Yerevan – 150,182
Zaqafqaziya – 56,297

KİTABIN İÇİNDƏKİLƏR

BAKI ŞƏHƏRİNİN SƏBAİL RAYONUNDAKI TOFİQ İSMAYILOV ADINA RESPUBLİKA UŞAQ VƏ GƏNCLƏR YARADICILIQ SARAYINDA YERLƏŞƏN 17 NÖMRƏLİ SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERMƏ ZAMANI JURNALİSTİN SUALLARINA CAVAB

5 noyabr 2000-ci il..... 5

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA

6 noyabr 2000-ci il.....14

BEYNƏLXALQ MÜHƏNDİSLİK AKADEMİYASINA

8 noyabr 2000-ci il.....17

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN ÜZVÜ
XANIM HİLLARİ KLİNTONA

8 noyabr 2000-ci il.....

ABŞ PREZİDENTİNİN VƏ DÖVLƏT KATİBİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ MƏSƏLƏLƏRİNƏ DAİR XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR CON VULF

VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

9 noyabr 2000-ci il.....20

RUSİYA FEDERASİYASI PREZİDENTİNİN XƏZƏRİN STATUSUNUN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ VİKTOR KALYUJNI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

9 noyabr 2000-ci il.....24

KAMBOCANIN KRALI ƏLAHƏZRƏT NORODOM SİANUKA

9 noyabr 2000-ci il.....30

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA

9 noyabr 2000-ci il.....31

12 NOYABR KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

11 noyabr 2000-ci il.....32

RUSİYA ESTRADASININ ULDUZU, SSRİ-NİN VƏ RUSİYANIN XALQ ARTİSTİ ALLA PUQAÇOVANIN İŞTİRAKI İLƏ KONSERTDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLA GÖRÜŞDƏ SÖHBƏT

12 noyabr 2000-ci il.....35

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ
QAÇQINLAR
ÜZRƏ ALİ KOMİSSARI CƏNAB RUUD LYUBERSƏ

13 noyabr 2000-ci il.....38

LİVAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-
ALİLƏRİ
CƏNAB RAFİQ ƏL-HƏRİRİYƏ

13 noyabr 2000-ci il.....39

ƏMƏKDAR MƏŞQÇİ KAZBEK TUAYEVƏ

13 noyabr 2000-ci il.....40

BRİTİŞ PETROLEUM-AMOKO ŞİRKƏTİNİN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

14 noyabr 2000-ci il.....41

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN BƏZİLƏRİNİN
KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN SƏDRLƏRİ
İLƏ GÖRÜŞDƏ SÖHBƏT

14 noyabr 2000-ci il.....47

ABŞ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ
GENERAL RİÇARD MAYERZ VƏ MÜDAFİƏ
NAZİRİNİN MÜAVİNİ VALER SLOKOMBE BAŞDA

OLMAQLA AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

14 noyabr 2000-ci il.....57

AVSTRALİYANIN SİDNEY ŞƏHƏRİNDƏ
KEÇİRİLMİŞ XI YAY PARALİMPİYA
OYUNLARINDA İŞTİRAK ETMİŞ ƏLİL
İDMANÇILARIMIZLA GÖRÜŞDƏ NİTQ

15 noyabr 2000-ci il.....59

YEKUN NİTQİ *60*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

16 noyabr 2000-ci il.....64

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA

16 noyabr 2000-ci il.....65

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT
NAZİRLİYİNİN MÜŞAVİRİ, ABŞ PREZİDENTİNİN
MDB ÖLKƏLƏRİNDƏ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ
NÜMAYƏNDƏSİ YAN KALİTSKİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

18 noyabr 2000-ci il.....66

MDB-nin İCRAÇI KATİBİ, MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ YURİ YAROV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

20 noyabr 2000-ci il.....68

BÖYÜK LİVİYA ƏRƏB XALQ SOSİALİST CƏMAHİRİYYƏSİ ALİ XALQ KOMİTƏSİNİN XARİCİ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ KATİBİNİN (NAZİRİNİN) SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ SƏD MUSTAFA MÜCBİRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

20 noyabr 2000-ci il.....70

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDA

20 noyabr 2000-ci il.....74

RUSİYA FEDERASİYASI PREZİDENTİ İCRA APARATI RƏHBƏRİNİN MÜAVİNİ, PREZİDENTİN XARİCİ SİYASƏT İDARƏSİNİN RƏİSİ SERGEY PRİXODKO BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

22 noyabr 2000-ci il.....75

İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN AVROPA VƏ AMERİKA MƏSƏLƏLƏRİ

ÜZRƏ MÜAVİNİ VƏ İRANIN XƏZƏR DƏNİZİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ƏLİ AHƏNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

22 noyabr 2000-ci il.....79

«AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI» JURNALININ ƏMƏKDAŞLARINA

23 noyabr 2000-ci il.....85

BİLKƏND UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ PROFESSOR DOKTOR İHSAN DOĞRAMACIYA

24 noyabr 2000-ci il.....87

«AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ « UŞAQLAR GƏLƏCƏYİMİZDİR » DEVİZİ ALTINDA XEYRİYYƏ KONSERTİNDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLARLA GÖRÜŞDƏ SÖHBƏT

25 noyabr 2000-ci il.....88

ÖLKƏMİZDƏ BAŞ VERƏN GÜCLÜ ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

26 noyabr 2000-ci il.....92

BAŞ NAZİRİN MÜAVİNİ, FÖVQƏLADƏ HALLAR ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ SƏDRİ ABİD ŞƏRİFOVUN ÇIXIŞI.....*96*

SEYSMOLOJİ XİDMƏT MƏRKƏZİNİN BAŞ DİREKTORU ARİF HƏSƏNOVUN ÇIXIŞI.....*104*

DAXİLİ İŞLƏR NAZİRİ, GENERAL-LEYTENANT RAMİL USUBOVUN ÇIXIŞI *110*

SƏHİYYƏ NAZİRİ ƏLİ İNSANOVUN ÇIXIŞI.....*112*

DÖVLƏT GEOLOGİYA VƏ MİNERAL EHTİYATLAR KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ İSLAM TAĞIYEVİN ÇIXIŞI.....*115*

YEKUN SÖZÜ *117*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RECEP MEYDANİYƏ

26 noyabr 2000-ci il.....*119*
MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MÜAVİYƏ ULD SİDİ ƏHMƏD TAYAYA

26 noyabr 2000-ci il.....*120*

RUSİYA FEDERASİYASI FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİNİN DİREKTORU GENERAL POLKOVNİK NİKOLAY PATRUŞEV

BAŞDA OLMAQLA BU İDARƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 noyabr 2000-ci il.....121

RUMİNİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMİL KONSTANTİNESKUYA

27 noyabr 2000-ci il.....126

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞEYX ZAYİD BİN SULTAN AL NƏHƏYYANA

27 noyabr 2000-ci il.....127

AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ GANNİ BUKİKKİO BAŞDA OLMAQLA BU BENALXALQ TƏŞKİLATIN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

30 noyabr 2000-ci il.....128

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BELARUS RESPUBLİKASININ PAYTAXTI MİNSK ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

30 noyabr 2000-ci il.....132

ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ROBERT KÖÇƏRYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

30 noyabr 2000-ci il 138

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

30 noyabr 2000-ci il.....140

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

1 dekabr 2000-ci il.....145

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BELARUSUN PAYTAXTI MİNSKDƏ KEÇİRİLMİŞ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

1 dekabr 2000-ci il.....148

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI SİYASİ KOMİSSİYASININ BAKIDA KEÇİRİLƏN 44-cü SESSİYASININ İŞTİRAKÇILARINA

4 dekabr 2000-ci il.....154

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI SİYASİ KOMİSSİYASININ BAKIDA KEÇİRİLƏN 44-cü SESSİYASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

5 dekabr 2000-ci il.....156

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KHAMTAY SİPHANDONA

6 dekabr 2000-ci il.....161

TAİLANDIN KRALI ƏLAHƏZRƏT PUMİPON ADULYADETƏ

6 dekabr 2000-ci il.....162

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ

6 dekabr 2000-ci il 163

XALQ ARTİSTİ TOFİQ BAKIXANOVA

7 dekabr 2000-ci il.....164

AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏR: AVTOPORTRET FOTOSƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

8 dekabr 2000-ci il.....166

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR YENİLİK ARZULAYIR VƏ TƏLƏB EDİR» DEVİZİ İLƏ KEÇİRİLƏN ŞƏNLİKDƏ NİTQ

10 dekabr 2000-ci il.....171

RUMİNİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB İON İLİYESKUYA

11 dekabr 2000-ci il 178

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ KERİ
KAVANONU (ABŞ), JAN JAK QAYARDI (FRANSA),
NİKOLAY QRİBKOVU (RUSİYA) VƏ ONLARI
MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

11 dekabr 2000-ci il.....179

TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR
NAZİRİNİN MÜAVİNİ YURDAKUL YİGİTGÜDƏNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

13 dekabr 2000-ci il.....195

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC U.BUŞA

14 dekabr 2000-ci il.....200

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

14 dekabr 2000-ci il.....201

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ CƏNAB DİK ÇEYNİYƏ

14 dekabr 2000-ci il.....*202*

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINA

14 dekabr 2000-ci il.....*203*

RESPUBLİKAMIZIN ƏN BÖYÜK VƏ NÜFUZLU ALİ TƏHSİL OCAQLARINDAN OLAN AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYA SININ 80 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

15 dekabr 2000-ci il.....*206*

BURKİNA FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BLEZ KOMPAOREYƏ

15 dekabr 2000-ci il *220*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİEL ARAP MOİYƏ

15 dekabr 2000-ci il *221*
UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA

15 dekabr 2000-ci il.....*222*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI (AŞPA) KOMİTƏSİNİN SƏDRİ ANDRES QROSSUN

BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

16 dekabr 2000-ci il.....*223*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI /AŞPA/ KOMİTƏSİNİN SƏDRİ ANDRES QROSSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

17 dekabr 2000-ci il.....*226*

BƏHREYN DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

18 dekabr 2000-ci il *229*

IV ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ–QƏRB» BAKI KİNOFESTİVALINA

18 dekabr 2000-ci il.....*230*

NİKER RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAMADU TANÇAYA

18 dekabr 2000-ci il *231*

AZƏRBAYCAN ELMİ–TƏDQİQAT VƏ LAYİHƏ-KONSTRUKTOR NEFT MAŞINQAYIRMASI İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA

19 dekabr 2000-ci il.....*232*

«ŞİMAL» DRES-in YENİ ENERJİ BLOKUNUN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

19 dekabr 2000-ci il.....234
MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA NİTQ

19 dekabr 2000-ci il.....243

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

20 dekabr 2000-ci il 251

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB UOŞİRO MORİYƏ

20 dekabr 2000-ci il 252

BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MƏRKƏZİ KLİNİK XƏSTƏXANASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

22 dekabr 2000-ci il.....253

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN DÖVLƏT NAZİRİ ƏBDÜLXALIQ ÇAY VƏ SƏHİYYƏ NAZİRİ OSMAN DURMUŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

22 dekabr 2000-ci il.....263

YAPONİYANIN İQTİSADİYYAT VƏ SƏNAYE NAZİRLİYİ NEFT VƏ QAZ DEPARTAMENTİNİN DİREKTORU TAKEO XİRATA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

23 dekabr 2000-ci il.....*270*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATLARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 dekabr 2000-ci il.....*275*

YENİ 2001-ci il, YENİ ƏSR VƏ ÜÇÜNCÜ MİNİLLİK MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

29 dekabr 2000-ci il.....*283*

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN TƏŞKİL OLUNMUŞ YENİ İL ŞƏNLİYİNDƏ NİTQ

30 dekabr 2000-ci il.....*361*

«BAKILI OĞLANLAR» KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

30 dekabr 2000-ci il.....*366*

FRANSA XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTİNENTAL AVROPA DEPARTAMENTİNİN DİREKTORU, SƏFİR ÜQ PERNENİN BAŞÇILIQ

ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

30 dekabr 2000-ci il.....*387*

AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

31 dekabr 2000-ci il.....*390*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

2 yanvar 2001-ci il.....*397*

KUBA RESPUBLİKASI DÖLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTROYA

2 yanvar 2001-ci il.....*398*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ İNDULİS BERZİNŞ BAŞDA OLMAQLA AVROPA ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

3 yanvar 2001-ci il.....*399*

AZƏRBAYCANIN XRİSTİAN İCMASINA

6 yanvar 2001-ci il.....*418*

RİÇARD KOZLARİÇ BAŞDA OLMAQLA ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

6 yanvar 2001-ci il *420*

QEYDLƏR *425*

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ *485*

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ *495*

Kitabı çapa hazırlayan ***Tofiq Babayev***

Rəssamı ***Fuad Fərəcov***
Texniki redaktoru ***Zoya Nəcəfova***
Yığım üzrə operator ***İlhamə Kərimova***
Kompüter tərtibatı ***Məhəbbət Orucov***

_____

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 31,5.

Uçot vərəqi 32. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.